"AZƏRİTTİFAQ"
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

İSSN 2218-91-49

KOOPERASİYA

elmi-praktiki jurnal

№ 4 (51)-2018

"Kooperasiya" elmi-praktiki jurnal

Научно-практический журнал "Кооперация"

Scientific-practical journal "Cooperation"

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 4 (51)-2018

Təsisçi: Azərbaycan Kooperasiya Universiteti

Redaksiya heyəti:

i.e.d., prof. Eldar QULİYEV **(baş redaktor)**
i.e.d., prof., Əməkdar elm xadimi, Bəyalı ATAŞOV **(baş redaktorun müavini)**
i.e.d., prof. AMEA-nın həqiqi üzvü Ziyad SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü Əli NURİYEV
r.e.d., prof. AMEA-nın müxbir üzvü Əminağa SADIQOV
i.e.d., prof. Eldar İBRAHİMOV
i.e.d., prof. İsa ALIYEV
i.e.d., prof. Gəncəli GƏNCİYEV
i.e.d., prof. Amil MƏHƏRRƏMOV
c.e.d., prof. Zahid MƏMMƏDOV
i.e.d., prof. Rəsul BALAYEV
i.e.d., prof. Namiq TAĞIYEV
i.e.n., dos. Tahir ŞÜKÜROV
i.e.n., dos. Elsevər KƏRİMOV **(məsul redaktor)**

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı"na daxil edilmişdir.

Redaksiyanın ünvanı:
AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: mail@aku.edu.az
aku1964@mail.ru
web:www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.

Tirajı 300 ədəd

Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU
Kompüter və dizayn: Hacı İSMAYILOV

İSSN kodu 2218-91-49

MÜNDƏRİCAT

Yeni nəşrlər – “İlin kitabı”:
Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər.....5

I BÖLMƏ
İQTİSADİ ARTIM: İNNOVASİYALAR, İSTEHSAL SAHƏLƏRİNİN İNKİŞAFI

İlham Alıcı oğlu ASLANZADƏ
Bazar iqtisadiyyatı şəraitində müasir innovasiya prosesləri və onun idarə edilməsinin əsas xüsusiyyətləri.....9

Şəfa Tiflis oğlu ƏLİYEV
Azərbaycan iqtisadiyyatının resurs potensialının müasir aspektləri və ondan istifadənin səmərəlilik problemləri.....17

Asəf Məhərrəm oğlu QASIMOV
İnnovasiyalara dair bəzi nəzəri məsələlər.....28

Türkan Əli qızı ŞEYDAİ
İnnovasiya fəaliyyətinin səmərəli təşkili və idarə edilməsi mexanizmləri.....33

Rəşad SƏFƏROV
İnnovasiyalı idarəetmənin XXI əsr menecmentinin formalaşmasına təsirləri.....40

Əli Hüseynağa oğlu SƏLİMOV
Qazma işləri sahəsində innovasiya səmərəliliyinin qiymətləndirilməsinin həlli yolları.....47

Nərminə Həmid qızı ABBASOVA
Neft hasilatında fəaliyyətsiz quyu fondundan istifadə istiqamətləri.....54

Sevil Abdul qızı XƏLİLOVA
İstehsal strukturlarının marketinq idarə edilməsinə təsiri və iqtisadi qiymətləndirilməsi.....61

Anar Akif oğlu MƏMMƏDOV
İqtisadi artımın mahiyyəti və onun nəzəri aspektləri.....67

II BÖLMƏ
AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

Elnurə Bünyat qızı MƏMMƏDOVA
Modernləşmə şəraitində aqrar sahənin inkişafına investisiya yatırımları ərzaq təhlükəsizliyi üçün başlıca amildir.....73

Emin Mirdaməd oğlu SADIQOV
Aqrar-ərzaq sektorunda investisiyaların səmərəliliyinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsi.....78

Leyla Akif qızı MURADVERDİYEVA
Ərzaq təminatı sisteminin dayanıqlılığının artırılması istiqamətləri.....84

Xavər Abdulməcid qızı HÜSEYNOVA
Aqrar sahənin intensiv inkişafının təmin olunmasında dövlətin rolu.....93

Afiq Cavanşir oğlu NƏSİBOV
Aqrar sahədə fəaliyyət göstərən müəssisə və təsərrüfatların maliyyə mexanizminin təşkili....99

Hikmət Firdovsi oğlu SƏLİMOV
Aqrar-emal müəssisələrində marketinqin idarə edilməsi sisteminin formalaşdırılmasının metodiki aspektləri.....105

Sevinc Fizuli qızı KƏRİMOVA
Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmə: strukturun innovasiya tələblərinə uyğunluğu və səmərəliliyin yüksəldilməsi.....113

III BÖLMƏ
MALİYYƏ, SIĞORTA VƏ İNVESTİSİYALAR

Qəzənfər Salman oğlu SÜLEYMANOV, Sima Cəlil qızı CƏLİLOVA
Ölkənin investisiya fəaliyyətinin tənzimlənməsində və iqtisadi inkişafında klasterləşmənin rolu.....120

Arzu Rəhim qızı SÜLEYMANOVA
Azərbaycanda investisiya mühitinin təhlili və qeyri-neft sektoruna investisiya qoyuluşunun stimullaşdırılması yolları.....125

Ramil Məhəmmədəli oğlu ƏLİYEV, Azər Məmməd oğlu ƏLİYEV
Devalvasiya şəraitində valyuta tənzimlənməsinin makroiqtisadi proseslərə təsiri.....130

Səidə Feyzullah qızı Rüstəmzadə
Maliyyə aktivlərinə investisiya qoyuluşlarının uçot təsnifatının ümumi məsələləri.....138

Samir Sarış oğlu ZEYNALOV
Yüngül sənayedə maliyyə siyasətinin mahiyyəti və məzmunu: nəzəri dəyərləndirmələr.....145

Kamal Mirsahib oğlu İBRAHİMOV
Sığorta şirkətlərində sığorta portfelinin optimallaşdırılması problemləri və həlli yolları.....149

Kəmalə Nurəddin qızı ƏHƏDOVA
Strateji Yol Xəritəsinin real həyata çevrilməsində daxili auditin rolu.....156

IV BÖLMƏ
XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

Firuzə Qaraxan qızı ABBASOVA
Sosial medianın marketinqin inkişafına təsiri.....161

Natəvan Filman qızı HƏSƏNOVA
İnformasiya sektoru ilə iqtisadi inkişaf arasında asılılığın müəyyən edilməsi.....167

İlhamə Tərlan qızı İSGƏNDƏROVA
İaşə xidmətləri sistemində kompleks marketinq tədqiqatlarının spesifik xüsusiyyətləri.....178

Könül Əkbər qızı İBRAHİMOVA
Təhsil xidmətləri bazarının genişləndirilməsi zərurətini şərtləndirən obyektiv amillər.....186

Albina Çingiz qızı HƏŞİMOVA
Rabitə sahəsinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi məsələləri.....196

Ülviyyə Zakir qızı ƏLİYEVA
Azərbaycanda turizmin inkişafının müasir tendensiyaları.....204

V BÖLMƏ
DÜNYA İQTİSADİYYATI VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK

Loğman İmran oğlu ABDULLAYEV
Dünya ölkələrində insan kapitalından istifadənin səmərəliliyinin yüksəldilməsi aspektləri.....209

Akif Bəylər oğlu MƏMMƏDOV
İqtisadi təhlükəsizlik Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının bazisidir.....219

Yeni nəşrlər – "İlin kitabı"



2017-ci ilin noyabr ayında İtaliyanın paytaxtı Romada bu kitabın ingilis dilində geniş təqdimatı keçirilmişdir. 8 ölkənin tanınmış elm və təhsil ocaqlarının, akademik dairələrin, Romada yerləşən beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) nümayəndələrinin, Azərbaycanın İtaliyadakı səfirliyinin əməkdaşlarının iştirak etdiyi təqdimatda professor Eldar Quliyevə müəllifi olduğu həmin kitabın dünyəvi əhəmiyyət daşıdığına görə BMT-nin İctimai Mükafatlar üzrə Şurası tərəfindən "İlin kitabı" beynəlxalq mükafatı təqdim edilmiş, BMT-nin İsveçrədə yerləşən mərkəzi kitabxanasının fonduna qəbul edilmişdir.

Təqdimatda eyni zamanda, professor E.Quliyevə Vatikan Bonifasiana Akademiyasının həqiqi üzvü (akademik) diplomu da təqdim olunub.

Kitab ingilis dilindən Azərbaycan dilinə tərcümə edilərək 2018-ci ilin mart ayında Azərbaycan Kooperasiya Universitetinin nəşriyyatında çap edilmişdir.

QLOBAL ƏRZAQ TƏHLÜKƏSİZLİYİ: REALLIQLAR, ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı İdarə Heyətinin Sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad elmlər doktoru, professor Eldar Allahyar oğlu Quliyevin bu yaxınlarda "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər"adlı monoqrafiyası dərc olunmuşdur. Əsər Avropa Təbiət Elmləri Akademiyası Rəyasət Heyətinin 06 fevral 2017-ci il (protokol № 2) qərarı ilə nəşr olunmuşdur. Əsərin rəyçiləri elmlər doktoru, professor Herman Vary, elmlər doktoru, professor Vladimir Timinskiy, elmlər doktoru Hayrettin İvgindir. Çoxsaylı oxucu kütləsinin nəzərinə çatdırmaq istəyirik ki, ərzaq təhlükəsizliyinə dair həyəcan təbili çalan bu kitabın hələ 2017-ci ilin noyabr ayında İtaliyanın paytaxtı Roma şəhərində ingilis dilində prezentasiyasında 8 ölkənin tanınmış elm və təhsil ocaqlarının, akademik dairələrin, Romada yerləşən beynəlxalq təşkilatların, o cümlədən, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) nümayəndələrinin, Azərbaycanın İtaliyadakı Səfirliyinin əməkdaşları iştirak etmişdir. Professor Eldar Quliyevin yazdığı bu kitab Qlobal Ərzaq Təhlükəsizliyinə dair dünyəvi əhəmiyyət daşıdığına görə BMT-nin İctimai Mükafatlar üzrə şurası tərəfindən "İlin Kitabı" beynəlxalq mükafatına layiq görülmüş və BMT-nin İsveçrədə yerləşən mərkəzi kitabxanasının fonduna qəbul edilmişdir. Əsərin prezentasiyasında həmçinin kitabın müəllifi professor Eldar Quliyevə Vatikan Bonifasiana Akademiyasının həqiqi üzvü (akademik) diplomu təqdim olunub. Onu da qeyd etməliyik ki, kitab ingilis dilindən Azərbaycan dilinə tərcümə olunaraq 2018-ci ildə Azərbaycan Kooperasiya Universitetinin nəşriyyatında dərc olunmuşdur. Kitab annotasiya, giriş, beş fəsildən ibarət olmaqla 479 səhifədən ibarətdir.

Ərzaq təhlükəsizliyi müasir qlobal təhlükələrin artdığı şəraitdə dünya sivilizasiyasını və ölkələrini narahat edən ciddi problemlərdən hesab olunur. Monoqrafiyada dünya dövlətlərinin qarşısında duran mühüm vəzifələrdən biri artmaqda olan dünya əhalisinin uzunmüddətli dövr üçün davamlı ərzaq problemlərinin həll edilməsinə dair həyəcan təbili çalınır. Eyni zamanda dünya ölkələrinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə dair səylərin birləşdirilməsi, beynəlxalq təşkilatların bu istiqamətdə fəaliyyətinin optimallaşdırılması, ərzaq yönümlü resurslardan

ən səmərəli yollarla istifadə olunması mexanizmlərinin modelləşdirilməsi prioritet istiqamətlərdən olduğu müəyyənləşdirilir. Ərzaq təhlükəsizliyinə sosial aspektdə baxılması işsizlik və yoxsulluq problemlərinin həll edilməsi, qida rejimlərinin təkmilləşdirilməsi, ərzaq məsələlərində sosial bərabərsizliyin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Müəllif haqlı olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsində dünyəvi çağırışların izlənilməsi, təbii resurslar və iqlim dəyişiklikləri ilə əlaqəli olaraq ölkələrin birgə əməkdaşlığının gücləndirilməsi və müasir texnologiyalardan səmərəli istifadə olunmasını əsas meyarlar kimi qiymətləndirir.

“Ərzaq təhlükəsizliyi iqtisadi təhlükəsizliyin tərkib hissəsi kimi ” adlanan birinci fəsildə ərzaq təhlükəsizliyi problemlərinin iqtisadi təhlükəsizliyin tərkib hissəsi olaraq bəşəriyyətin sağlam və məhsuldar həyat tərzinə malik olmasında mühüm əhəmiyyət kəsb etməsi iqtisadi əsaslarla təhlil olunur. Xüsusilə XXI əsrin 50-ci illərinədək dünya əhalisinin sayı 10 milyarda çatacağı halda, ərzaq məhsulları istehsalının 70% artması, ölkələr tərəfindən ərzaq məhsulları üzrə iqtisadi siyasətdə optimallığın vacibliyi əsaslandırılır. Bu fəsildə ümumilikdə makroiqtisadi siyasət, fiskal siyasət və ərzaq təhlükəsizliyi məsələləri, pul siyasəti və ərzaq məsələləri, kənd təsərrüfatı, ticarət və ərzaq təhlükəsizliyi, Azərbaycanda ərzaq təhlükəsizliyinin parametrləri və s. elmi əsaslarla təhlil olunmuşdur. Ərzaq təhlükəsizliyinin parametrlərindən hesab edilən daxili bazarın qorunması, resurslardan istifadənin optimal bölgüsünün aparılması və balanslaşdırılmış siyasətin irəli sürülməsi əsas hədəflərdən biri sayılır. Aparılan təhlillərdən aydın olur ki, iqtisadi sistemin təkmilləşdirilməsi, yeni iqtisadi mexanizmlərin hazırlanması və tətbiqi əsasında ərzaq təhlükəsizliyinin təmin olunması əsas amil kimi qiymətləndirilir. Fiskal siyasət və ərzaq ehtiyatlarının yaradılmasına dair irəli sürülən tövsiyələrdə əhalinin ərzaq və qida məhsulları ilə optimal təminatı üçün və qarşıya qoyulan məqsəd və vəzifələrə çatmaq üçün üç əsas amil ön plana çəkilir. Birincisi, fövqəladə hallar üçün olan ərzaq ehtiyatlarının təbii fəlakətdən, yerli və beynəlxalq ərzaq bazarlarında olan vəziyyətdən asılı olmayaraq balanslaşdırılması; ikincisi, kasıb və həssas qruplara kömək üçün nəzərdə tutulmuş ərzaq proqramlarını həyata keçirmək; üçüncüsü, ərzaq məhsulları qiymətlərinin sabitləşdirilməsini nəzərdə tutan və tənzimləyici funksiyanı yerinə yetirən sabitləşdirici birjalar tərəfindən böyük həcmdə ərzaq məhsullarının idarə olunması. Eyni zamanda əsərdə ərzaq məhsullarının təminatında və səmərəli modelləşdirilməsində pul siyasətinin ölkə əhalisinin alıcılıq qabiliyyətinin yüksəlməsində, makroiqtisadi sabitliyin qorunmasında olan mövqeyi ardıcıllıqla təhlil olunmuşdur. Professor Eldar Quliyev əsərdə çox haqlı olaraq qeyd edir ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan kənd təsərrüfatı sahələrinin inkişafının təmin olunmasında maliyyə təminatı və kreditlərin verilməsi, biznes mühitinin yaxşılaşdırılması və s. əsas amillərdən hesab olunur. Ərzaq təhlükəsizliyinin təmin olunmasında yuxarıda qeyd olunan amillərlə yanaşı, ticarətin iqtisadi inkişafda olan mövqeyi detalları ilə öz təhlilini tapmışdır.

“Qlobal səviyyədə ərzaq təhlükəsizliyi” adlanan ikinci fəsildə qlobal səviyyədə ərzaq təhlükəsizliyi bir tədqiqat obyekti kimi qəbul olunaraq iqtisadi siyasətin müxtəlif istiqamətləri üzrə təhlillər aparılır. Ərzaq təhlükəsizliyi kontekstində Minilliyin inkişaf hədəfləri, 2015-ci ildən sonrakı dövrdə yaxın və uzaq perspektivlərdə ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı strateji hədəflərin olması təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu fəsildə qlobal ərzaq problemlərinin həlli istiqamətində əsas hədəflərdən olan dünya əhalisinin davamlı və dayanıqlı şəkildə, etibarlı formada və tələb olunan səviyyədə mühüm ərzaq məhsulları ilə təmin olunması çağırışları əsas yer tutur. Bu çağırışlar içərisində ərzaq yönümlü məhsullar istehsalında əməkdaşlığın yüksək səviyyədə təşkili və Minilliyin İnkişaf Hədəfləri çərçivəsində müxtəlif ölkələrdə davam edən aclıq və yoxsulluq hallarının aradan qaldırılması ön plana çəkilir. Çox haqlı olaraq həmin çağırışlarda dünyaya gələn və yaşamaq hüququ olan hər bir insanın davamlı şəkildə təhlükəsiz formada ərzaq məhsulları ilə təmin olunması əsaslı vurğulanır. 2050-ci ilədək olan dövr üçün müxtəlif FAO layihələrinin və ərzaq məhsulları istehsalının təhlilinə əsaslanaraq sonrakı onilliklərdə əsas problemlərdən biri torpaq resurslarının çatışmaması olacaqdır. Bu da

özlüyünda mövcud torpaq sahələrində istehsalın məhsuldarlığının artırılması proseslərini intensivləşdirməklə əhalinin ərzaq məhsullarına artan tələbatını təmin edəcəkdir.

"Ərzaq təhlükəsizliyi sosial aspektdə" adlandırılan üçüncü fəsildə əhalinin orta təbəqəsinin ərzaq təhlükəsizliyi və ərzaq məhsulları ilə təmin olunması dünyanın ən mürəkkəb qlobal problemlərindən biri kimi xarakterizə olunur. Bu problemlərin həlli istiqamətində sistemli və ardıcıl tədbirlərin görülməsi, dünya ölkələrinin və beynəlxalq təşkilatların qarşılıqlı iqtisadi əməkdaşlığının gücləndirilməsi istiqamətləri əsərin əsas qayəsi hesab olunur. Orta təbəqəli ailələrdə istehlak tələbatı artdıqca, daha çox ərzaq və qida məhsulları tələb olunur. 2007-2015-ci illər ərzində inkişafda olan ölkələrdə ərzaq üzrə istehlak xərcləri orta illik 4.6% artmışdır, sonrakı illərdə bu göstərici 2.8% təşkil etmişdir. Bu göstərici ciddi bir çağırışın olmasından xəbər verməklə qida məhsullarının tənzimlənməsi problemlərini gündəmə gətirir. Aparılan təhlillərdən aydın olur ki, dünyada müasir şəraitdə lazım olduğundan iki dəfə çox ərzaq məhsulları istehsal olunduğu halda, onların saxlanılması və bölüşdürülməsinin qeyri-səmərəliliyi həmin məhsulların 30%-nin istehlakçılara çatdırılmadan itirilməsinə səbəb olur. Nəticədə isə bir çox regionlarda ərzaq çatışmazlığı meydana gəlir. Bu tendensiya davam edərsə əhalinin normal qida məhsulları ilə təmin olunmasında problemlərin olması qaçılmazdır. Əsərdə həmin problemlərin həlli yolları və iqtisadi mexanizmləri elmi cəhətdən əsaslandırılmışdır. Ərzaq təhlükəsizliyi və işsizliyin təmin edilməsində mühüm əhəmiyyət kəsb edən əmək fəaliyyətinin düzgün qiymətləndirilməsi, məşğulluq tədbirlərinin artırılması, kənd əhalisinin məşğulluq problemlərinin həll olunması çox qabarıq şəkildə diqqət mərkəzinə yönəldilir. Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) apardığı araşdırmalara görə 2050-ci ilədək qlobal qida artımı dünya əhalisinin qida ehtiyacının təxminən 70%-ni ödəmək imkanlarına malik olacaqdır. Eyni zamanda həmin müddətdə 400 milyon insanın zəruri qida məhsullarına olan tələbatın ödənilməsindən əziyyət çəkəcəyi qeyd olunur. Bunun üçün adekvat tədbirlərin görülməsi çox qabarıq şəkildə dünya ictimaiyyətinin diqqət mərkəzinə yönəldilir. Bu fəsildə diqqəti cəlb edən məqamlardan biri də ərzaq təhlükəsizliyi və sosial bərabərsizlik prinsiplərinin açıqlanmasıdır. Bərabərsizliyin əsas növləri olan güc,var-dövlət, yoxsulluq, gəlir, təhsil, peşə, cinsi, irqi, etnik və s. məsələlər qlobal səviyyədə təhlil olunur və bu sahədə olan problemlərin həlli yolları iqtisadi baxımdan əsaslandırılır.

"Ərzaq təhlükəsizliyinin təmin edilməsində çağırışlar" adlanan dördüncü fəsildə ərzaq təhlükəsizliyinin təmin olunmasında müasir problemlər və çağırışlar əks olunmuşdur. Xüsusilə ərzaq məsələlərinə strateji yanaşmaların vacibliyi, demoqrafik təsirlər və ərzaq çatışmazlığı məsələlərinə diqqət yetirilir. Təbiətdə baş verən qarşısıalınmaz hadisələr nəticəsində (quraq dövrlər, isti və şaxtalı hava kütlələri, böyük fırtınalar, dağıdıcı dalğalar və s.) müxtəlif regionlarda kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrində baş verən itkilər, şəhərlərdə isə qida məhsulları emalını həyata keçirən infrastrukturlara göstərilən mənfi təsirlər əsaslı şəkildə təhlil olunmuşdur. Dünya əhalisini narahat edən başlıca problemlərdən biri şirin suya olan tələbatın artması, iqlim dəyişiklikləri ilə baş verəcək problemlərin aşkar olunması və onların göstərəcəyi mənfi təsirlər kitabda ətraflı təhlil olunmuşdur. Əsərdə maraq doğuran məqamlardan biri demoqrafiya və ərzaq çatışmazlığına dair nəzəriyyələrin işıqlandırılmasıdır. Tomas Maltus, Paul Elritinin əhali artımı ilə ərzaq məhsulunun dinamikası arasında olan fərqli cəhətlər araşdırılmış, əhalinin dünyada artmasına baxmayaraq onların gələcəkdə qida məhsulları ilə təmin olunması əsaslandırılır və həmin nəzəriyyələrə münasibət bildirilir.

Su təchizatı və təminatı ilə əlaqəli olan qlobal problemlərin aşkar olunması da qabarıq şəkildə təhlil olunur. Kənd təsərrüfatı sahələrinin sürətli inkişafı dünyanın şirin su mənbələrinin 70%-ni özündə cəmləşdirir. Halbuki suyun insanlar üçün sağlamlıq və təmiz qida mənbəyi olduğunu hiss etdikdə problemin nə qədər aktual olduğu əsərdə təfsilatı ilə təhlil olunur. Bu baxımdan şirin su ehtiyatlarından istər təsərrüfat sahələrində, istərsə də əhali tərəfindən səmərəli istifadə prinsiplərinin qorunmasına dair təkliflər irəli sürülür. Enerji resursları kontekstində ya-

ranan enerji problemlərini həll etmək üçün bərpa olunan enerji mənbələrindən günəş, külək, su enerji mənbələrindən, bioyanacaqlardan, geotermal enerji mənbələrindən istifadənin sürətləndirilməsi dünya enerji çatışmazlığının aradan qaldırılmasında müsbət nəticələrə nail olmağa imkan verən mənbələr kimi qiymətləndirilir.

Əsərin axırıncı fəslində əvvəlki fəsillərdə aparılan təhlillər əsasında əldə olunmuş nəticə və təkliflər, davamlı ərzaq siyasəti, ərzaq məhsullarının davamlı istehsalı, ərzaq siyasətində urbanizasiyaların rolu, qlobal iqlim dəyişikliklərinin şəhər və kənd əhalisinə təsiri, ərzaq məhsullarının gücləndirilməsində biznes, elm-təhsil üçbucağının rolunun qiymətləndirilməsi qlobal miqyasda ərzaq təhlükəsizliyi sahəsində olan reallıqlar və çağırışları əks etdirməklə bütün bəşəriyyətin ərzaq təhlükəsindən azad olması üçün çağırışlardır.

Qeyd etməliyik ki, iqtisad elmləri doktoru, professor Eldar Quliyev ikinci, üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Həmçinin, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədr müavinidir. 2011-ci ildə Türkdilli dövlətlərin parlamentlərinin “Fəxri millət vəkili” seçilmiş, 2016-cı ildə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri təyin olunmuşdur. Geniş elmi fəaliyyətinə görə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Almaniyanın Hannover şəhərində yerləşən Avropa Təbiət Elmləri Akademiyasının və Vatikan Bonifasiana Akademiyasının həqiqi üzvü, Gürcüstan Respublikasının Suxuşvili Texniki Universitetinin “Fəxri doktoru” seçilmişdir. Roma şəhərinin “Fəxri alimi”-dir. Almaniyanın Berlin şəhərində Leybnis adına medalla mükafatlandırılmaqla, “Avropanın əməkdar elm xadimi” adına layiq görülmüşdür. Səmərəli ictimai-siyasi fəaliyyətinə görə 2011-ci ilin iyul ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Şöhrət” ordeni ilə təltif olunmuşdur.

Professor Eldar Quliyevin yuxarıda sadaladığımız ölkələrin, akademiyaların beynəlxalq konfranslarındakı çıxışlarından və Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədr müavini vəzifəsinin icrasından irəli gələrək ərzaq sahəsində bir mütəxəssis kimi yaranan problemləri və reallıqları görərək yazdığı “Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər” adlı monoqrafiyasını bəşəriyyəti düşündürən problemlərdən bəhs etdiyi üçün təqdirəlayiq hesab edir, müəllifə möhkəm cansağlığı və yeni nailiyyətlər arzulayırıq.

Zahid MƏMMƏDOV
coğrafiya elmləri doktoru, professor

I BÖLMƏ
İQTİSADİ ARTIM: İNNOVASİYALAR, İSTEHSAL SAHƏLƏRİNİN İNKİŞAFI

UOT 338.33

İlham Alıcı oğlu ASLANZADƏ
Azərbaycan Texniki Universiteti,
iqtisad elmləri doktoru, professor

BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ MÜASİR İNNOVASİYA PROSESLƏRİ VƏ ONUN İDARƏ EDİLMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə bazar iqtisadiyyatı şəraitində müasir innovasiya prosesləri və onun idarə edilməsinin əsas xüsusiyyətləri araşdırılmışdır. Aparılmış təhlil göstərir ki, müasir iqtisadi şəraitdə davamlı iqtisadi inkişafın təmin olunması zəruri hesab olunur. Qeyd olunanlardan başqa tədqiq olunan sahə üzrə mövcud problemlər araşdırılmış, onların həll istiqamətləri göstərilmişdir.

Açar sözlər: dayanıqlı iqtisadi artım, yeni iqtisadiyyat, innovasiya, innovasiya iqtisadiyyatı, innovasiyalı inkişaf strategiyası, elmtutumlu məhsullar, dövlətin rolu.

Giriş

Bazar iqtisadiyyatının təşəkkülü şəraitində elmi-texniki tərəqqinin fərqləndirici cəhəti dünya standartlarına cavab verən yeni, çoxçeşidli və keyfiyyətli məhsulun istehsalına təminat yaradan mütərəqqi texnoloji proseslərə, tələb və təklifin dəyişikliyinə tab gətirən çevik istehsalata sürətli keçiddir.

İnnovasiya prosesləri və onun idarə edilməsinə yanaşmalar

XX əsrin ikinci yarısından başlayaraq formalaşan yeniliklər nəzəriyyəsi innovasiya prosesinin idarəetmənin müxtəlif səviyyələrində institusional amillər toplusu kimi çıxış etmiş, mürəkkəb sosial -iqtisadi sistemin qarşılıqlı əlaqəsinin təhlilinə qədər mürəkkəb bir yol keçmişdir.

Ümumiyyətlə, innovasiya prosesi - elmi biliklərin, elmi ideyaların, kəşflər və ixtiraların innovasiyaya (yeniliklərə) çevrilməsinin bütün dövrünü əhatə edən prosesdir. Bundan başqa innovasiya prosesi - yeni ideyanın yaranmasından, onun mənimsənilməsi və alınmış məhsulun bazara çıxarılmasınadək müxtəlif mərhələlərdə yerinə yetirilən qarşılıqlı əlaqəli proseslərin məcmusudur. Daha sonra həmin alim qeyd edir ki, innovasiya prosesi - elə ardıcıl hadisələr zəncirindən ibarətdir ki, bu hadisələrin gedişində yenilik konkret məhsula, texnologiyaya və ya xidmətə çevrilir və təsərrüfatçılıq təcrübəsində yayılır [1].

Bütünlükdə iqtisadi ədəbiyyatlarda innovasiya prosesinin strukturu, onun yerinə yetirilməsi mərhələləri üzrə fərqli və oxşar fikirlər formalaşmışdır. Təhlil göstərir ki, innovasiya proseslərinin təşkili və maliyyələşdirilməsi mənbələrini aşağıdakı şəkildə əks etdirmək mümkündür. (Şəkil 1).

İnnovasiya prosesi - elmi biliyin innovasiyaya çevrilmə prosesidir, yəni, hadisələrin ardıcıl zənciridir ki, bu zaman innovasiya ideyadan hazır məhsula, texnologiyaya, xidmətə çevrilir və praktikada istifadə olunur.

Elmi - texniki tərəqqidən fərqli olaraq, innovasiya prosesi yeni məhsulun bazara ilk dəfə çıxarılması ilə - tətbiqi ilə qurtarmır. Bu proses innovasiya həyata keçirildikdən sonra da dayanmır, çünki, yayıldıqca yenilik təkmilləşir, daha da effektivləşir, yeni istehlak xüsusiyyətlərini əl-

də edir. Bununla da, yeni tətbiq sahələri açır, yeni bazarlar, yeni istehlakçılar tapır ki, onlar da, öz növbəsində həmin məhsulu, texnologiyanı və ya xidməti məhz özləri üçün yeni kimi qəbul edirlər. Beləliklə, bu proses məhsul, texnologiya yaxud xidmətin tələb olunan bazarlarının yaranmasına istiqamətlənir və mühitlə sıx bağlı olaraq həyata keçirilir (onun istiqamətləri, tempi, məqsədləri fəaliyyət göstərib inkişaf etdiyi sosial-iqtisadi mühitdən asılı olur).

İnnovasiya prosesinin əsasını yeni texnikanın, texnologiyanın yaranma və mənimsənilmə prosesi təşkil edir. Texnika insanın yeni bilik və bacarığını özündə əks etdirən istehsalatın maddi amillərinin (əmək əşyaları və vasitələri) toplusudur. Texnologiya texnikanın hazırlanma və tətbiqi, təbii maddələrin sənayedə və məişətdə tətbiq olunan məhsullara çevrilməsinin üsulları və qaydaları toplusudur. Yeni texnikanın, texnologiyanın yaranma və mənimsənilmə prosesi fundamental tədqiqatlardan başlanır. Bu tədqiqatlar yeni elmi biliklərin alınmasına və daha mühüm qanunauyğunluqların üzə çıxarılmasına yönəldilir. Fundamental tədqiqatların məqsədi hadisələr arasında yeni əlaqələri açmaq, təbiətin və cəmiyyətin inkişafının, konkret istifadədən asılı olmayaraq yeni qanunauyğunluqlarını öyrənməkdir.

Şəkil 1. İnnovasiya prosesinin təşkili və maliyyələşdirilməsi sxemi

Fundamental elmi innovasiya prosesinin ilkin əhəmiyyəti ondan ibarətdir ki, o ideyaların generatoru rolunda çıxış edir, yəni sahələrə yollar açır.

Fundamental tədqiqatlar dünya elmində təxminən 5-10% yer tutur. Bazar iqtisadiyyatı şəraitində hər bir sahə yaxud zavod fundamental tədqiqatlar ilə məşğul olmaq imkanında olmur. Fundamental tədqiqatlar müsabiqə əsasında əsasən dövlət büdcəsi hesabına, qismən də büdcədənkənar vəsait hesabına maliyyələşdirilir.

Əgər hər cür bilik bugünkü xeyir nəzərə alınmadan qiymətləndirilib rəğbətlə qarşılansa, onda o, bütünlüklə xalqın inkişafına təkan verəcək. Fundamental tədqiqatlar elmin gələcəyidir, sabahkı günüdür.

Yeni texnikanın, texnologiyanın yaranma və mənimsənilmə prosesinin ikinci mərhələsi tətbiqi tədqiqatlardır. Onlar əvvəllər kəşf olunmuş hadisə və proseslərin praktiki tətbiqi yollarının araşdırılmasına yönəlir. Tətbiqi xarakterdə elmi-tədqiqi iş texniki problemin həllinin aydın olmayan nəzəri suallarının dəqiqləşdirilməsini, konkret elmi nəticələrin alınmasını qarşısına məqsəd qoyur ki, bunların da sonralar təcrübi-konstruktor işlərində elmi - texniki məhsul kimi istifa-

dəsi nəzərdə tutulur. Bundan əlavə, tətbiqi tədqiqatlar müstəqil elmi işlər kimi də çıxış edə bilər.

İnformasiya işləri elmi-texniki informasiyanın təhlilinin təkmilləşdirilməsinə və tətbiqi işlərinin yaxşılaşdırılmasına yönəldilmiş elmi işlərdir [2].

Təşkilati-iqtisadi işlər istehsalın planlaşdırılması və təşkilinin, əməyin və idarəetmə metodlarının işlənməsinin, elmi işlərin effektivliliyinin qiyməti və təsnifatı metodlarının və sairələrin təkmilləşdirilməsinə yönəlib.

Elmi-təhsil işləri tələbələrin, doktorantların və sairə elmi işçilərin hazırlığı üzrə fəaliyyət növüdür.

Təcrübi konstruktor işləri tətbiqi tədqiqatların nəticələrinin yeni texnika nümunələrinin, texnologiya materiallarının yaradılmasına yönəldilmiş fəaliyyət deməkdir. Təcrübi konstruktor işləri -elmi tədqiqatların sonuncu, tamamlayıcı pilləsidir, laboratoriya şəraitindən və eksperimental istehsalatdan sənaye istehsalına keçiddir. Təcrübi konstruktor işlərinə aiddir: müəyyən mühəndis obyektinin və ya texniki sistemin quraşdırma işləri, yeni obyektin ideya və variantlarının işlənməsi, texniki proseslərin, yəni fiziki, kimyəvi, texnoloji və sair proseslərin əmək prosesi ilə bütöv sistemdə birləşməsi üsullarının işlənməsi (texnoloji işlər).

Beləliklə, təcrübi-konstruktor işlərinin məqsədi yeni texnikanın elə nümunələrinin yaradılmasıdır ki, onlar müəyyən sınaqlardan sonra seriyalı istehsala və ya birbaşa istehlakçıya ötürülsünlər. Bu mərhələdə nəzəri tədqiqatların nəticələri son dəfə yoxlanılır, lazımi texniki sənədləşmə aparılır, yeni texnikanın nümunələri hazırlanır, sınaqdan çıxarılır. Arzu olunan nəticələrin ehtimalı tətbiqi tədqiqatlardan təcrübi-konstruktor işlərinə doğru artır. Tətbiqi tədqiqat işlərinin təxminən 75-80%-i sonrakı praktik istifadəyə yararlı olan nəticələr verir, təcrübi-konstruktor işləri mərhələsində isə onların 90-95%-i müsbət nəticə ilə tamamlanır.

Elmi sferanın tamamlayıcı mərhələsi yeni məmulatın sənaye istehsalının istifadəsidir, o da özündə elmi və istehsalat mənimsənilməsini birləşdirir: yeni (təkmilləşdirilmiş) məhsulun sınaqdan keçirilməsi və həm də istehsalın texniki və texnoloji hazırlığı. İstifadə (mənimsəmə) mərhələsində elmi-təcrübə bazası əsasında təcrübi, eksperimental işlər aparılır. Bu işlər yeni texnoloji proseslərin və yeni məhsulların təcrübə nümunələrinin işlənib hazırlanması məqsədini daşıyır. Eksperimental işlər elmi işlərin və tədqiqatların aparılması üçün lazım olan xüsusi cihazların, aparatların, avadanlığın, qurğuların, stendlərin, maketlərin və sairlərin hazırlanmasına, təmirinə və xidmətinə yönəlmişdir. Bundan əlavə təcrübə istehsalat bölmələri birbaşa elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə aid olmayan müxtəlif işlər görürlər (təmir işləri, mətbəə işləri və s.) və xırda seriyalı məhsullar buraxırlar.

Elmi-təcrübi baza təcrübi, eksperimental işləri yerinə yetirən təcrübə istehsalının toplusudur. Elmi-təcrübi baza ölkənin elmi-texniki potensialının tərkib hissəsidir, onun vəziyyəti və istifadə səviyyəsi elmin, innovasiya prosesinin fasiləsiz təchizatı məqsədilə elmi işlərin və tədqiqatların nəticələrinin təcrübədə yoxlanılmasını həyata keçirmək bacarığını xarakterizə edir. Elmi-təcrübi baza təcrübi eksperimental işlərin aparılması üçün nəzərdə tutulmuş əmək və maddi-texniki ehtiyatları özündə birləşdirir. Elmi-təcrübi istehsalat müxtəlif formada ola bilər - zavod, sex, emalatxana, təcrübi-eksperimental bölməsi, təcrübə stansiyası və sairə, müxtəlif yerlərdə yerləşə bilər, elmi təşkilatın balansında olaraq və ya hüquqi şəxs kimi təsərrüfat üzrə müxtəlif dərəcədə müstəqil ola bilər.

İnnovasiyanın sənayedə mənimsənilməsini əngəlləyən amillərə xüsusi maliyyə ehtiyatlarının çatışmamazlığı və kommersiya banklarının kreditlərinə qoyulan yüksək faizlər, daxili tələbatın «sıxılması» və yeni məhsulun istifadəsində iqtisadi riski aid etmək olar [3].

Mənimsəmə mərhələsindən sonra sənaye istehsalı prosesi başlayır. İstehsalatda biliklər maddiləşir, tədqiqat isə öz məntiqi sonluğuna çatır.

Bazar iqtisadiyyatında təcrübi-konstruktor işlərinin və sənaye istehsalının mənimsəmə mərhələsinin sürətləndirilməsi baş verir. İnnovasiya müəssisələri bir qayda olaraq təcrübi-konstruk-

tor işlərini sənaye müəssisələri ilə razılaşmalar əsasında yerinə yetirilər. Sifarişçilər və elmi işçilər qarşılıqlı surətdə maraqlıdırlar ki, təcrübi-konstruktor işlərinin nəticələri təcrübədə tətbiq olunsun və gəlir gətirsin (yəni istehlakçıya çatdırılsın).

İnnovasiya prosesi müvəffəqiyyətlə başa çatdırıldıqda, sənaye müəssisəsi həmin elmi təşkilatla yeni müqavilə bağlamaqda maraqlı olacaq. Beləliklə, uğurla yerinə yetirilmiş iş elmi təşkilat üçün uyğun əmək haqqı ilə iş yerlərinin yaradılmasına zəmin yaradır. Tətbiqi elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin sürətli və keyfiyyətli yerinə yetirilməsinin əsas stimulu da bundadır. Bazar iqtisadiyyatı şəraitində heç kəsi məcbur etmək ehtiyacı yaranmır.

Sənaye istehsalı mərhələsində iki etap həyata keçirilir: yeni texnikanın istehsalı prosesinın özü və yeni məhsulun istehlakçıya satışı. Birinci işlərin maddiləşmiş nailiyyətlərinin birbaşa ictimai istehsalıdır. İkinci etapın məqsədi və məzmunu yeni texnikanın istehlakçıya (alıcıya) çatdırılmasıdır [4].

Mülkiyyətin dövlət formasının üstünlüyü və xalq təsərrüfatının sərt mərkəzləşdirilmiş idarəsi dövründə bu, istehsal olunmuş texnikanın planlı bölgüsü yolu ilə həyata keçirilirdi. Bazar iqtisadiyyatı şəraitində yeni texnika istehlakçıların tələbatı və bazar qiymətindən asılı olaraq realizə edilir.

İstifadə mərhələsində eyni zamanda baş verən iki proses həyata keçirilir: elmi - texniki nailiyyətlərin əsasında yaranmış maddi və mədəni nemətlərin birbaşa istifadəsi, həm də yeni texnikanın normativə uyğun xidmət dövrü ərzində iş qabiliyyətini təmin edən texniki və təşkilati tədbirləri özündə birləşdirən servis xidmətinin göstərilməsi.

Nəzəri və tətbiqi tədqiqatın yerinə yetirilməsindən başlayaraq elmi-texniki ideya üzərindəki sonrakı işi, mənimsəmə, tətbiqi, buraxılan texnikanın texniki-iqtisadi parametrlərinin yaxşılaşdırılmasını, onun təmirini və digər xidmətləri özündə birləşdirən və bu texnikanın daha keyfiyyətli, daha effektli texnika ilə əvəz olunması anı ilə qurtaran dövrə həyati tsikl deyilir.

Həyati tsiklin hər həlqəsı qismən müstəqildir, onun müəyyən qanunauyğunluqları var və o spesifik rol oynayır. Bu tsiklin başlanğıc, təyinedici nöqtəsi elmdir, o ideya verir; sonrakı həlqə olan texnika bu ideyanı müəyyən maşın sistemində və müvafiq texnologiyada maddiləşdirir, istehsalat isə elmi - texniki nailiyyətlərin istifadəsi sferasıdır. Həyati tsikldə əsas mərhələ yeni texnikanın mənimsənilməsi və onun geniş halda buraxılmasının təşkilinə məxsusdur. Bu etaplar elmi kəşflərin iqtisadiyyatda maddiləşməsində və tətbiqində həlledici rol oynayırlar. Buna görə onları sözün geniş mənasında yeni texnikanın istehsalata tətbiqi adlandırmaq olar. Məhsulun həyati tsiklinin, elmi-texniki nailiyyətlərinin planlaşdırılması, maliyyələşdirilməsi və istifadəsinin təşkilində lazım olan zaman, əmək və dəyərlilik meyarları (qiymət) vardır [5].

Sənaye sahəsinə yönəldilən investisiyaların müasir vəziyyətinin təhlili

İnnovasiya prosesi elmi-texniki ideyanı onun kommersiya əsasında satışına qədər olan işləmə dövrünü əhatə edir. İnnovasiya prosesi elmi- texniki prosesin digər elementlərindən daha çox bazar münasibətləri ilə bağlıdır. İnnovasiyaların əsas hissəsi kommersiya və istehsalat məsələlərinin həlli vasitəsi kimi bazar iqtisadiyyatında sahibkar strukturları tərəfindən həyata keçirilir.

Deməli, innovasiyalar bazara, konkret istehlakçıya, tələbata yönəlir. Beləliklə, innovasiya prosesi nəzəri bilik alınmasından başlayaraq yeni bilik əsasında yaranmış məhsulun istehlakçı tərəfindən istifadə olunmasına qədər ardıcıl işlərin kompleksidir. «İnnovasiya dövrü» anlayışı yeni əmtəənin istehlakçısı ilə elmi sfera arasında olan əks əlaqənin olmasıdır. İnnovasiya dövrü müxtəlif ölçüdə ola bilər, bu istehlakçının öz tələbatının təmin vasitəsinin təkmilləşdirilməsi üçün elmi axtarışın hansı mərhələsinə müraciət etməsindən asılıdır. Son illər Azərbaycan sənayesinin fəaliyyətini xarakterizə edən ümumi göstəriciləri aşağıdakı kimi cədvəldə və qrafikdə göstərmək mümkündür (cədvəl 1), (şəkil 2).

Cədvəl 1 [7]

Son illər üzrə sənaye sahəsi üzrə yönbəldilən investisiyaların faizlə payı

Göstəricilər	2000	2005	2009	2010	2015	2017
İnvestisiyaların ölkə iqtisadiyyatında payı, faizlə	89,2	72,4	41,8	43,2	41,9	60,9



Şəkil 2.

Təhlil göstərir ki, investisiyaların ölkə iqtisadiyyatında payı 2015-ci ildə 41,9 faiz olmuşdursa, 2016-cı ildə isə 60,9 faiz olmuşdur. Nəticədə 20 faizə yaxın artımın son illər ərzində olması müşahidə olunmuşdur. Bu da sənayenin daha intensiv inkişaf etməsi ilə izah olunur.

Sənaye müəssisələrinin inkişaf strategiyası çərçivəsində rəqabət qabiliyyətinin əsas amili kimi səmərəli innovasiya prosesinin təşkili şəraitində resurslardan qənaətlə istifadə etmək şərti ön plana çəkilir. İstənilən təşkilati sistemin səmərəliliyinin yüksəldilməsi vasitələrinin ən düzgün yolu müəssisədə innovasiya prosesinin fəallaşdırılması hesabına yeni məhsul, xidmət və yeni texnologiyaların yaradılması və istehsala tətbiq edilməsidir.

Yuxarıda qeyd edilən nəzəri-metodoloji aspektlərin ümumiləşdirilməsi nəticəsində tam qənaətə gəlmək olar ki, ölkədə aşağı güclə işləyən, texniki-texnoloji səviyyəsi ETT nailiyyətlərindən geri qalan müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi yolunda həyata keçiriləcək ən mühüm şərt orada innovasiya fəaliyyətini sürətləndirməkdir [6]. Bu isə, öz növbəsində innovasiya sahibkarlığının yenidən təşkili məsələsini ön plana çəkir və o, aşağıdakılarla şərtləşir:

- bazarın qloballaşdırılması;
- rəqabətin kəskinləşməsi;
- xarici mühitdə gedən sürətli dəyişikliklər;
- istehsalın səmərəliliyinin yüksəldilməsi və müəssisənin son məqsədinə nail olunmasında həlledici rol oynayır;
- müxtəlif təbiətli qrupları özündə birləşdirən çoxmərhələli proseslərin yaradılması və tətbiqi;
- elmi -texniki istehsal prosesinin özünəməxsus xüsusiyyətləri;
- kollektivdə subyektiv amillərin və psixoloji mühitin yüksək olması;

- eyni məhsul istehsalı mənimsənilərkən iqtisadi göstəricilərin artması ilə əlaqədar olaraq müvəqqəti pisləşməsi;
- texnika və texnologiyanın mənəvi aşınmasının sürətlə getməsi;
- innovasiya prosesinin tətbiqi və işlənilməsinin nadirliyi və təkrar olunmaması;
- işləmələrə çəkilən xərclərlə onun tətbiqi nəticəsində alınan iqtisadi səmərə arasında kifayət qədər vaxt olması;

İnnovasiya prosesinin təşkili və idarə edilməsi istiqamətlərində aparılan tədqiqatların mahiyyətini azaltmadan qeyd etmək lazımdır ki, həmin prosesin prinsipial sxemi yalnız prof. T.N.Əliyev və i.e.d. Z.M. Nəcəfovun 2012-ci ildə nəşr etdirdikləri İnnovasiya Bülletenində verilmişdir [22]. Onun yüksək elmi əhəmiyyətini nəzərə alaraq öz əlavələrimizlə işin bu yarımbölməsinə daxil edilməsinə üstünlük veririk (Şəkil 3.)



İnnovasiyanın təşkili və idarə edilməsi prosesinin prinsipial sxemi

Bizim fikrimizcə, təklif edilən prinsipial sxemə innovasiya prosesinin ekoloji aspekti də əlavə olunmalıdır. Belə ki, əgər yüksək innovativ nailiyyət sosial-iqtisadi inkişafla yanaşı ekoloji təhlükəsizliyə təminat yaratmırsa və yaxud bu sahədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə imkan vermirsə, onun yüksək sosial səmərəliliyindən danışmağa lüzum qalmır. Mövcud iqtisadi ədəbiyyatlarda innovasiya prosesinin beynəlxalq aspekti də lazımınca tətbiq edilməmiş və bu sahədə yetkil fikir formalaşmamışdır. Hazırda ölkəmizdə emal sənayesi məhsullarının böyük əksəriyyətinin rəqabət qabiliyyətli olması innovasiya prosesinin beynəlxalq aspektinin tədqiqini əsaslı şəkildə aktuallaşdırır. Odur ki, bu istiqamətdə həllini gözləyən aspektlərə aşağıdakıların əlavə edilməsi məqsədəuyğun olardı:

- elmtutumlu innovasiya məhsullarının idxalı;
- elmtutumlu innovasiya məhsullarının həcminin, çeşidinin və ixracının artırılması;
- emal sənayesi müəssisələrində qabaqcıl elmi təşkilatların və firmaların “nou - hou”larından geniş istifadə edilməsi;
- patent və lisenziyalaşdırma fəaliyyətinin genişləndirilməsi;
- çevik gömrük siyasətinin formalaşdırılması;
- kvotalaşdırma işinin səmərəli təşkili;
- beynəlxalq əməkdaşlığın genişləndirilməsi;
- ölkənin kompakt regionlarında, iri şəhərlərində azad iqtisadi və tollinq zonalarının yaradılması;
- innovasiya üzrə beynəlxalq konfransların, seminarların və forumların keçirilməsi.

Nəticə

Hesab edirik ki, innovasiya prosesinin təşkili və idarə edilməsinin təşkilati aspektləri istiqamətində ölkəmizdə daha geniş tədbirlər həyata keçirilməlidir. Əslində innovasiya prosesinin bu aspekti beynəlxalq aspektin genişləndirilməsinin təminatçısıdır. Təşkilati aspekdə daha çox uğur qazanmaq üçün aşağıdakı idarəetmə formalarının təşkili və inkişafına səylər gücləndirilməlidir:

- ölkəmizdə transmilli korporasiyaların, sənaye holdinqlərinin və maliyyə-sənaye qruplarının yaradılması və inkişafı;
- ölkənin regionlarında emal məhsulları istehsal edən xarici və müştərək müəssisələrin, sayının və əhatə dairəsinin genişləndirilməsi;
- ölkənin iri sənaye şəhərlərində innovasiya infrastrukturunun yaradılması;
- iri və orta emal müəssisələrində innovasiya və strateji inkişaf üzrə səlahiyyətli idarəetmə orqanlarının yaradılması.

İnnovasiya prosesinin səmərəli təşkili və idarə edilməsi kontekstində onun normativ-hüquqi aspektinin təkmilləşdirilməsi çox vacibdir. Ədalət naminə qeyd etmək lazımdır ki, son 10 ildə ölkəmizdə işlənilən və uğurla həyata keçirilən dövlət, sahə və regional proqramlar, standartlaşma və metroloji təminat üzrə sənədlərin qəbul edilməsi bu sahədə atılan uğurlu addımdır. Lakin bu vaxtadək ölkədə innovasiya fəaliyyətinin təşkilinə dair məqsədli qanunun qəbul edilməməsi innovasiya prosesinin dinamikliyinin tənzimlənməsinə öz mənfi təsirini göstərir. Təkcə onu qeyd etmək vacibdir ki, Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və digər MDB ölkələrində innovasiya fəaliyyətinin təşkili, idarə edilməsi, dövlət tənzimlənməsi, infrastrukturun yaradılması üzrə çoxsaylı qanunlar qəbul edilmiş, sahə və regional proqramlar təsdiq edilərək icra olunurlar. Hesab edirik ki, bu sahədə görüləcək işlərin intensivliyi əsaslı şəkildə artırılmalıdır [5].

İnnovasiya prosesinin iqtisadi və sosial aspekti kontekstində elmə ayrılan vəsaitin ÜDM-in tərkibindəki xüsusi çəkisinin artırılması, elmi nailiyyətlərin istehsalata tətbiqi prosesinin intensivləşdirilməsi və stimullaşdırılması, vençur kapitalından geniş istifadə, yeniliklərin dövlət səviyyəsində dəstəklənməsi və tətbiqi, yüksək ödənişli iş yerlərinin yaradılması, elm və istehsalat kadrlarının maddi durumunun əsaslı şəkildə yaxşılaşdırılması, yeni ixtisaslar üzrə kadrların hazırlanması, regional emal sənayesi müəssisələrində çalışan işçilərin xarici ölkələrin qabaqcıl firmalarında yeni peşəyə (ixtisasa) yiyələnməsi və ixtisaslarının artırılması, mövcud məhsulların əsaslı şəkildə modernləşdirilməsi kimi tədbirlərin həyata keçirilməsi üzrə səylər artırılmalıdır [6].

ƏDƏBİYYAT

1. İsmayılov A., Alıyev X. İnnovasiya əsaslı iqtisadi inkişaf və dövlət təşviqinin əhəmiyyəti. Journal of Qafqaz university, №2, Bakı, Qafqaz, 2013, s. 231-240.
2. Qasımov F.H. Azərbaycanda dövlət innovasiya siyasəti. AMEA-nın Xəbərləri. Elm və innovasiya seriyası №3 Bakı, "Elm", 2010, s.7-14.
3. Qasımov F.H. Azərbaycanda innovasiyanın vəziyyəti və onun inkişaf prespektivləri. AMEA-nın Xəbərləri; Elm və innovasiya seriyası, №1; Bakı, 2009, s. 4-10.
4. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие. Москва, Наука, 2010, 222 с.
5. Бабашкина А.М. Государственное регулирование национальной экономики. Москва: Финансы и Статистика, 2004, 480 с.
6. Инновации и экономический рост / Отв. Ред. Микульский К. - М.: Наука, 2002.
7. www. stat.gov.az/senaye/2016

Илхам Алыджы оглы Асланзаде
АТУ, д.э.н., проф.

Современные инновационные процессы в рыночной экономике и основные особенности ее управления

Резюме

В статье рассматриваются основные особенности современных инновационных процессов и ее управление в рыночной экономике. Анализ показывает, что устойчивое экономическое развитие считается необходимым в современных экономических условиях. Помимо вышеизложенного, существующие проблемы были исследованы и представлены направления их решения.

Ключевые слова: устойчивый экономический рост, новая экономика, инновация, инновационная экономика, стратегия инновационного развития, наукоемкая продукция, роль государства.

Ilham Aliji Aslanzade
ATU. d.e.s., professor

Modern innovation processes in the market economy and the main features of its management

Summary

The article examines the main features of modern innovation processes and its management in the market economy. The analysis shows that sustainable economic development is considered necessary in modern economic conditions. Apart from the above, existing problems have been investigated and their solution directions are presented.

Key words: sustainable economic growth, new economy, innovation, innovational economy, innovational development strategy, knowledge-based products, role of government.

UOT: 330.15:332.142.4

Şəfa Tiflis oğlu ƏLİYEV
Sumqayıt Dövlət Universitetinin
professoru, iqtisad elmləri doktoru

AZƏRBAYCAN İQTİSADİYYATININ RESURS POTENSİALININ MÜASİR ASPEKTLƏRİ VƏ ONDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİK PROBLEMLƏRİ

Xülasə

Məqalədə Azərbaycan iqtisadiyyatının resurs potensialının müasir aspektləri və ondan istifadənin səmərəlilik problemləri tədqiq olunmuşdur. Bu məqsədlə, milli iqtisadiyyatın resurs təminatı problemləri araşdırılmış və təhlil olunmuşdur. Ölkə iqtisadiyyatının inkişafında təbii resursların və milli sərvətlərin zəruriliyini şərtləndirən əsas amillərin blok-sxemi hazırlanmışdır. Milli iqtisadiyyatın inkişafında təbii resursların və milli sərvətlərin rolunun qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Azərbaycanda faktiki torpaq sahələri və onların strukturu araşdırılmışdır. Su ehtiyatları və onların ölkəmizin iqtisadi inkişaf səviyyəsinə adekvatlığı qiymətləndirilmişdir. Mineral xammal, faydalı filiz və qeyri-filiz ehtiyatlarının səviyyəsinin təhlili aparılmış və qiymətləndirilmişdir. Xəzər dənizinin mineral xammal ehtiyatları ayrıca olaraq baxılmış və onun strateji əhəmiyyəti açıqlanmışdır. Qeyri-neft sənaye sahələrinin mineral-xammal ehtiyatlarının müasir vəziyyəti və səmərəli istifadə edilməsi problemləri tədqiq olunmuşdur. Ölkə sənayesinin strukturunda mühüm əhəmiyyət kəsb edən metallurgiya kompleksi üçün xammal ehtiyatlarının səviyyəsi qiymətləndirilmişdir. Digər bir mühüm qeyri-neft sənaye sahəsi - kimya və neft-kimya sənaye sektorunun mineral-xammal bazası təhlil edilmişdir. Tikinti sektoru və tikinti materialları sənayesinin xammal resurslarının adekvatlığına baxılmışdır. Qlobal iqtisadi təhlükələrin artdığı bir şəraitdə, Azərbaycanda təbii resurslardan və xammal ehtiyatlarından səmərəli istifadənin strateji aspektləri, mühüm fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Məqalənin sonunda Azərbaycan iqtisadiyyatının resurs potensialının müasir aspektləri və ondan istifadənin səmərəlilik problemləri üzrə tövsiyələr hazırlanmış və təkliflər diqqətə çatdırılmışdır.

Açar sözlər: resurs potensialı, təbii ehtiyatlar, milli sərvətlər, iqtisadiyyatın resurs potensialı, resurs potensialından istifadənin səmərəlilik problemləri, resurs potensialından istifadənin perspektivləri, resurs potensialının müasir aspektləri.

Giriş

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafının qlobal iqtisadi çağırışlar kontesktində immunitetinin artırılması və mövcud mexanizmlərinin dayanıqlılığının möhkəmləndirilməsi prosesləri intensivləşməkdədir. Ölkə Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası"nda milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində mühüm vəzifələr müəyyənləşdirilmişdir [1]. Bundan əlavə, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində iqtisadiyyatın müxtəlif sektorları istiqamətində strateji hədəflər müəyyənləşdirilmişdir [2]. Şübhəsiz, bu konseptual və strateji hədəflərin yerinə yetirilməsi üçün bir çox mühüm amillərlə yanaşı, iqtisadiyyatın resurs təminatı problemi və mövcud resurs potensialından müasir dövrün qlobal çağırışları nəzərə alınmaqla, maksimum səmərəli istifadə edilməsi problemləri aktuallığı ilə diqqət çəkirlər. Hər bir ölkənin resurs potensialının formalaşdırılması və inkşaf etdirilməsi məsələləri strateji yanaşmalar tələb edir [3]. Təbii resurslardan istifadənin modelləşdirilməsi və bununla əlaqədar iqtisadi mexanizmlərin milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərinə uyğun şəkildə hazırlanması və tətbiq edilməsi vacib şərtlərdəndir. Təbiətdən istifadənin iqtisadi əsasları cə-

miyyətin və milli iqtisadiyyatın tarazlaşdırılmış maraqlarına uyğun şəkildə tənzimlənməlidir [4].

Qeyd edək ki, təbii resurslar dedikdə, əsas etibarı ilə təbiətdə maddi nemətlərin istehsalı üçün formalaşan və onlardan istifadəsi mümkün olan resurslar nəzərdə tutulur. Təbii resursların əsas xüsusiyyətləri onlardan istehsal təyinatı üzrə istifadə edilməsi ilə fərqlənirlər, başqa sözlə, təbii resurslardan insan əməyinin və əqlinin tətbiqi vasitəsilə yeni məhsulların, maddi nemətlərin alınması nəzərdə tutulur [5;6]. Dünya iqtisadi inkişaf prosesləri sürətləndikcə və müasir texnologiyaların tətbiqi genişləndikcə, resurslardan istifadənin modelləşdirilməsi aktuallığı ilə xeyli fərqlənir. Belə ki, dünyada resursların yerləşməsi və yaxud onların bölüşdürülməsi kifayət qədər qeyri-proporsionaldır və resurslardan istifadə üçün əksər ölkələr yeni mənbələr axtarışındadırlar. Son onilliklərdə qlobal iqtisadi təhlükələrin artdığı bir şəraitdə milli iqtisadiyyatların davamlı və dayanıqlı inkişaf problemləri kifayət qədər yüksəlmişdir.

Milli iqtisadiyyatın artım templəri əksər ölkələrdə xeyli zəifləmiş və yeni artım mənbələrinin formalaşdırılması, inkişaf etdirilməsi üçün əlavə təbii və iqtisadi resurslar tələb olunur. Belə ki, milli iqtisadiyyatın inkişafının manevrləşdirilməsi və dövrün iqtisadi çağırışlarına uyğun olaraq modelləşdirilməsi problemləri kəskinləşməkdədir [7;8]. Hər bir ölkə və dövlət özünün milli iqtisadiyyatının inkişafının əsas təmayüllərini müəyyənləşdirmək və onun mexanizmlərini işləyib hazırlamaq probleminin öhdəsindən gəlmək üçün, ilk növbədə, təbii resurs və milli sərvətlərin potensialından çıxış etməklə strateji hədəflər müəyyənləşdirir.

Milli iqtisadiyyatın formalaşdırılması, inkişafının modelləşdirilməsi, onun çoxşaxəliliyinin təmin olunması üçün külli miqdarda resursların formalaşdırılması və dövriyəyə cəlb edilməsi lazım gəlir. Bu baxımdan, milli iqtisadiyyatın inkişafında resurs amili mühüm əhəmiyyət kəsb edir və bu cür yanaşma aşağıdakılarla izah olunur:

- Milli iqtisadiyyatın inkişafının optimal fəaliyyət istiqamətlərini formalaşdırmaq üçün ölkənin mineral-xammal bazasının adekvatlığı vacib şərtlərdəndir;
- Karbohidrogen və digər qiymətli mineral xammal bazasının olduğu təqdirdə milli iqtisadiyyatın səmərəliliyinin artırılmasına və məhsuldar əlavə dəyər yaradan emal müəssisələrinin formalaşdırılmasına güclü potensial yaranır;
- Milli iqtisadiyyatın yeni inkişaf hədəflərinin və strateji məqsədlərinin müəyyənləşdirilməsində resurs təminatı probleminin optimal həll edilməsi xeyli vacibdir;
- Təbii resurs və sərvətlərin bolluğu milli iqtisadiyyatın dünya inteqrasiya proseslərində, beynəlxalq və transmilli layihələrdə fəal iştirakına əlavə stimullar verir;
- Resurs təminatının optimallığı milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin gücləndirilməsi üçün ciddi şərtlərdəndir və milli iqtisadiyyatın məhsuldar sektorlarının formalaşdırılmasına və inkişafına əlverişli şərait yaradır;
- Milli iqtisadiyyatın resurslarla fasiləsiz və səmərəli təmin edilməsi, milli iqtisadiyyatın yeni artım mənbələrinin təşkilinə və dinamik inkişafın təminatına münbit imkanlar verir;
- Qlobal təsirin gücləndiyi şəraitdə, milli iqtisadiyyatın qlobal təhlükələrə immunitetinin yüksəldilməsində resurs təminatının adekvatlığı həlledici amil kimi baxıla bilər və s.

Ölkə iqtisadiyyatının inkişafında təbii resursların və milli sərvətlərin rolunun qiymətləndirilməsi

Hər bir ölkənin iqtisadiyyatının formalaşması və təşkili prosesləri onun resurs təminatından və milli sərvətlərinin adekvatlığından bilavasitə asılıdır. Ölkə iqtisadiyyatının inkişafında təbiətdən istifadə, yəni təbii resurslardan, yeraltı və yerüstü milli sərvətlərdən istifadənin səmərəli təşkili vacib şərtlərdəndir. Bundan əlavə, ölkə iqtisadiyyatının balanslı inkişafının təmin edilməsi üçün milli sərvətlərdən istifadənin səmərəli modelləşdirilməsi, bu sərvətlərdən qənaətlə istifadə olunması amili də kifayət qədər aktualdır.

Ümumilikdə, ölkə iqtisadiyyatının inkişafında təbii resursların və milli sərvətlərin zəruriliyini şərtləndirən əsas amillərin blok-sxemi Şəkil 1-də verilmişdir.



Şəkil 1. Ölkə iqtisadiyyatının inkişafında təbii resursların və milli sərvətlərin zəruriliyini şərtləndirən əsas amillərin blok-sxemi (tədqiqat materialları əsasında müəllif tərəfindən hazırlanmışdır).

Görkəmli akademik A.Nadirov və bir qrup ölkə alimlərinin gəldiyi qənaətə görə, Azərbaycan təbii ehtiyatların əksər komponentlərinə və elementlərinə malik olan nadir ölkələrdən biri hesab olunur [9]. Təbiət Azərbaycana kifayət qədər təbii ehtiyatlar, resurslar, təbii varlıqlar, müxtəlif xüsusiyyətlərə malik iqlim ehtiyatları, meşə və su ehtiyatları, bioloji varlıqlar bəxş etmişdir [10; 11; 12; 13]. Fikrimizcə, Azərbaycan özünün təbii ehtiyatları və təbii sərvətləri ilə öz əhalisinin firavan həyat səviyyəsini təmin etmək potensialına malik ölkə hesab olunur.

Məsələn, güclü resurs potensialına malik olan aqrar sahənin elmi əsaslar və yüksək texnologiyalar bazasında inkişaf etdirilməsi yolu ilə ölkəmizin regionlarında iqtisadi fəallığı əhəmiyyətli səviyyədə yüksəltmək mümkündür, eyni zamanda aqrar sahənin strukturunun genişləndirilməsi hesabına mühüm qida məhsullarının çeşidini və həcmini artırmaq, işsizlik problemini nisbətən həll etmək, yoxsulluğun səviyyəsini azaltmaq mümkündür [14].

Belə ki, Azərbaycanda qədim dövrlərdən müasir dövrə kimi torpağa bağlılıq ənənələri güclü olmuşdur. Torpaq insanların yaşaması və fəaliyyəti üçün əvəzedilməz təbii varlıq və ehtiyatdır. Bu baxımdan, torpaqdan və təbiətdən istifadə proseslərində ekoloji amillər, ətraf mühitin qorunması prinsipləri mütləq şəkildə nəzərə alınmalıdır [15].

Azərbaycanın müxtəlif ərazilərində dünyada mövcud olan yüzlərlə torpaq adları və növlərindən 82-i məlumdur. Ümumilikdə isə Azərbaycanda mövcud olan torpaq sahələrinin həcmi 8641,5 min ha-dır. Ölkəmizin torpaq sahələri istifadə və təyinatından asılı olaraq 7 kateqoriyaya ayrılmışdır. Daha çox yayılan və geniş ərazini tutan torpaq kateqoriyası kimi - kənd təsərrüfatı üçün uyğun gələn yararlı torpaqlardır. Belə ki, bu kateqoriyadan olan torpaqların sahəsi 4745,6 min hektardır, digər bir mühüm torpaq kateqoriyası kimi əkin və biçinçilik üçün kifayət qədər əlverişli olan şumluq torpaqlardır və bu kateqoriya üzrə torpaqların sahəsi 1835,7 min hektardır.

Ölkəmizdə heyvandarlığın iknişafı baxımından mühüm əhəmiyyət kəsb edən otlaqlar və biçənəklərin ümumi sahəsi 2682,9 min hektardır. Nəhayət, nadir xüsusiyyətlərinə və əhəmiyyətinə görə qorunan ərazilərin, başqa sözlə, qorunan torpaqların ümumi sahəsi 193,7 min hektardır.

Şəkil 2-də Azərbaycanda faktiki torpaq sahələrinin 2012-2017-ci illərin əvvəlinə olan göstəriciləri öz əksini tapmışdır.



Şəkil 2. Azərbaycanda faktiki torpaq sahələri, 2012-2017-cı illərin əvvəlinə, min ha (Azərbaycan rəqəmlərdə, 2018, Bakı- 2018.- 264 s.- nin əsasında müəllif tərəfindən hazırlanmışdır).

Şəkil 3-də isə Azərbaycanda faktiki torpaq sahələrinin 2017-ci ilin əvvəlinə olan bölgüsü daha əyani şəkildə verilmişdir.

Qeyd edək ki, ölkə iqtisadiyyatının inkişafında, xüsusilə, mühüm qida və ərzaq məhsullarının yetişdirilməsində, ehtiyatlarının yaradılmasında, ölkə əhalisinin maddi və sosial rifahının, əlverişli yaşayış şəraitinin təmin edilməsində su ehtiyatlarının rolu böyükdür. Su ehtiyatlarının etibarlı mənbələrinin olması hər bir ölkənin əvəzsiz neməti və təbiətin bu ölkəyə bəxş etdiyi təbii varlığı kimi dəyərləndirilir. Su həyatdır, insanların yaşaması üçün mütləqdir, eyni zamanda su iqtisadi - təsərrüfat münasibətlərinin təşkilində əsas komponentlərdən və resurslardan biridir. Hər bir ölkə özünün yeraltı və yerüstü su ehtiyatlarının ən xırda və zəif mənbəyinə belə böyük diqqətlə yanaşmalı, bu ehtiyatları qorumalı və su mənbələrinin korlanmasına gətirib çıxaracaq halların qarşısını almalıdır.



Şəkil 3. Azərbaycanda faktiki torpaq sahələri, 2017-ci ilin əvvəlinə, %-lə (Azərbaycan rəqəmlərdə, 2018, Bakı- 2018.- 264 s.- nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).

Xüsusilə, içməli su ehtiyatlarına ən yüksək diqqət göstərilməli və bu mənbələrin çirklənməsinə yol verilməməlidir. Sudan qənaətlə istifadə edilməsi də prioritet meyarlar sırasında olmalıdır. Qeyd etmək lazımdır ki, Azərbaycanda içməli su ehtiyatları və içməyə yararlı su mənbələri o qədər də güclü deyildir. Ölkə əhalisinin şirin suya olan tələbatının ödənilməsi üçün istifadə olunan ehtiyatların 70 %-dən çoxu digər ölkələrin ərazilərindəki su ehtiyatı mənbələrində formalaşır. Ümumilikdə, ölkəmizin yerüstü su ehtiyatlarının həcmi 27 kub km. səviyyəsindədir, amma ölkədə quraqlıq səviyyəsi yüksək olduğu illərdə bu göstərici azalaraq 20-21 kub km. səviyyəsinə qədər düşür [16]. Azərbaycanın yerüstü su ehtiyatlarını çaylar, göllər, su anbarları və buzlaqlar formalaşdırır [17]. Ölkəmizin ərazisində 8359 çay vardır və bunlardan az bir hissəsini - cəmisi 171 çayın su ehtiyatı potensialı böyükdür və həmin çayların uzunluğu 25 kilometrdən yüksəkdir. Yerdə qalan çaylar isə nisbətən qısa uzunluğa malik və azsulu çaylar hesab olunur. Azərbaycanın ən əhəmiyyətli və böyük çayları sırasında - Kür, Araz və Tərtər yer tuturlar. Kür çayının sutoplayıcı sahəsi 188 min km^2-dir və bunun 58 mini ölkəmizin ərazisinə aiddir. Araz çayının sutoplayıcı sahəsi 102 min km^2 təşkil edir və bunun yalnız 18 %-i, başqa sözlə, 18,7 min km^2 Azərbaycana aiddir. Bundan əlavə, Kür çayı üzərində iri su anbarları istismara verilmişdir (Mingəçevir su anbarı - tutumu 16 mlrd. m^3; Şəmkir su anbarı - tutumu 2,6 mlrd. m^3). Araz çayı üzərində tikilmiş Araz su anbarının tutumu 16 mlrd. m^3-dir. Təəssüf ki, hazırda mənfur ermənilərin işğal etdikləri ərazidə qalan Sərsəng su anbarının (Tərtər çayı) ümumi tutumu 0,5 mlrd. m^3-dir. Göllərin sayı isə 450-ə yaxındır və yay aylarında bu göllərdən 200-ü demək olar ki, tamamilə quruyur. Göllərdə Azərbaycanın su ehtiyatının 3%-dən bir az çox hissəsi cəmlənmişdir. Su ehtiyatları üçün az əhəmiyyət kəsb etməyən buzlaqlar yer səviyyəsindən təxminən 3600-4000 metr hündürlükdə olan yüksəkliklərdə yerləşirlər. Bu ərazilər əsas etibarı ilə böyük Qafqaz dağlarına aiddir (Baş Suayrıcı və Yan Silsilə yüksəklikləri). Bazardüzü yüksəkliyində olan buzlaqlar da diqqət çəkir, ümumilikdə, buzlaqların su ehtiyatı ilə zəngin sahəsi yeddi kubkilometrə qədərdir. Yeraltı su ehtiyatlarının illik istismar ehtiyatı 9 mlrd. m^3-ə çatır [18]. Azərbaycanda mühüm yeraltı su mənbələri və ehtiyatları Naxçıvan, Gəncə-Qazax, Samur-Dəvəçi, Mil-Qarabağ, Şəki-Zaqatala, Cəbrayıl dağətəyi düzənlik ərazilərində cəmlənmişdir. Yeraltı su ehtiyatlarının 60 %-i Samur-Dəvəçi, Şəki-Zaqatala və Gəncə-Qazax dağətəyi ərazilərində toplanmışdır. İl ərzində orta hesabla 12 min m^3 su istifadə edilir, bunun 70 %-ə qədəri kənd təsərrüfatına, 25%-ə kimi sənaye sahələrinə, 5%-i isə əsasən fərdi təsərrüfatların və içməli suya olan tələbatın yerinə yetirilməsinə yönəldilir. Su ehtiyatlarının qorunması və, xüsusilə, dövlət əhəmiyyətli su anbarlarının mühafizəsinin səmərəli təşkili məqsədilə Azərbaycan Respublikası

Prezdentinin 22 noyabr 2011-ci il tarixli Fərmanı ilə Fövqalədə Hallar Nazriliyinin Su Ehtiyatları Dövlət Agentliyi haqqında Əsasnamə təsdiq olunmuşdur [19].

Azərbaycanda mineral xammal, faydalı filiz və qeyri-filiz ehtiyatlarının səviyyəsinin təhlili və qiymətləndirilməsi

Mineral xammal, yanacaq və karbohidrogen ehtiyatları hər bir ölkənin qiymətli milli sərvətləri hesab olunur. Bu ehtiyatlara ilk növbədə neft, təbii qaz, daş-kömür, yanar şistlər və torf, hidroenerji mənbələri, günəş, külək və digər alternativ enerji mənbələri aid edilir. Yanacaq - enerji resurslarından maksimum səmərəli istifadə olunması ölkənin milli iqtisadiyyatı üçün həyati əhəmiyyət daşıyır. Azərbaycanda əsas mineral xammallar və yanacaq ehtiyatları Xəzər dənizinin milli sektorunda cəmlənmişdir [20]. Xəzər dənizinin strateji əhəmiyyətini nəzərə alaraq, ölkəmizdə 16 dekabr 2014-cü ildə "Xəzər dənizinin su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur [21].

Qeyd edək ki, Abşeron yarımadasının Bakı və Abşeron arxipelaqlarında neft ehtiyatlarının Xəzər dənizindəki həcmi 3,5-5 mlrd. ton həcmində qiymətləndirilir. Təbii qaz ehtiyatlarının həcmi isə 1000 mlrd. m^3 səviyyəsindədir. Azərbaycanda neft və qaz ehtiyatları Xəzər dənizi və Abşeron yarımadası ilə bitmir. Ölkənin müxtəlif yerlərində neft yataqları və neft ehtiyatları mövcuddur (Şirvan, Qobustan, Siyəzən rayonları və s.). Bunlarla belə, əsas neft və qaz ehtiyatları Xəzər dənizi şelfi ilə bağlıdır və hazırda qüvvədə olan iri neft-qaz lahiyələri də burada həyata keçirilir. Ümumilikdə, Azərbaycanda artıq kifayət qədər öyrənilmiş, kəşfiyyat işləri başa çatdırılmış və istismar proseslərinə verilmiş 71 neft və qaz yataqları vardır. Ölkədə mövcud 71 neft və qaz yataqlarından 28-i Xəzər dənizində yerləşmişdir, 43 yataq isə quru ərazilərdədir. İqtisadi səmərəliliyi və məhsuldarlığı nəzərə alınmaqla, bu yataqlardan cəmisi 54-ü istismar edilir. Ümumilikdə, Xəzər dənizində olan karbohidrogen ehtiyatlarının həcmi 2 mlrd. ton neft və 1,8 trln. m^3 təbii qazdan ibarətdir. Amma, bu dəqiq və son məlumatlar deyildir. Belə ki, müxtəlif institutların və nüfuzlu proqnozlar verən təşkilatların ehtimallarına görə, Xəzər dənizinin Azərbaycana aid milli sektorunda neft ehtiyatları 3 mlrd. ton həcmindədir. Ümumi təsdiq edilmiş ehtiyatlar, proqnozlar və ehtimallar nəzərə alınmaqla, Azərbaycanda neft ehtiyatları 4 mlrd. ton və təbii qaz ehtiyatları isə 7 trln. m^3 həcmində qiymətləndirilir. Ehtiyatları məlum olan əsas təbii qaz yataqları içərisində "Şahdəniz" yatağı ən iri təbii qaz yatağı hesab olunur və onun ehtiyatları 1,2 trln. m^3 həcmindədir. Digər iri yataqlar kimi "Ümid" və "Abşeron", "Darvin Bankası", "Babək", "Araz-Alov-Şərq", "Naxçıvan", "Asiman-Şəfəq" və "Zəfər-Məşəl" daha çox diqqət çəkirlər. Məsələn, "Ümid" təbii qaz yatağının ehtiyatları - 200 mlrd. m^3, "Darvin Bankası" yatağının ehtiyatları - 400 mlrd. m^3 və "Abşeron" yatağının təbii qaz ehiyatları isə 350 mlrd. m^3 həcmində qiymətləndirilir. Ölkəmizin neft və təbii qaz ehtiyatlarının həcminin daha da dəqiqləşdirilməsi üzrə ciddi işlər aparılır və bu istiqamətdə yaxın perspektivdə maksimum dəqiq proqnozların hazırlanması gözlənilir. Ölkə ərazisində digər yanar faydalı qazıntılar - yanacaq enerji resursları mövcuddur və bunlar əsasən şist və torflardan ibarətdir. Amma, ölkəmizdə əsasən neft və qaz ehtiyatlarından istifadəyə üstünlük verilir. Neft və qaz ehtiyatları mühüm sənaye əhəmiyyətinə malik olduqlarından və çox dəyərli karbohidrogen resursları kimi ölkəmizin əsas yanacaq - enerji resursları hesab olunur.

Azərbaycanda filiz formasında çıxarılan onlarla faydalı qazıntılar güclü ehtiyat bazasına və sənaye əhəmiyyətinə malikdirlər [22]. Milli təbii sərvətlərdən maksimum səmərəli istifadənin təmin edilməsi üzrə qanunvericilik bazasnın formalaşdırılmasına da xüsusi önəm verilir və hələ 13 fevral 1998-ci ildə "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur [23]. Ölkəmizin dağlıq regionlarında və dağlıq ərazilərində çoxlu sayda filiz yataqları mövcuddur. Əsasən alüminium, dəmir, kobalt, mis, qızıl, seolit və s. yataqlar daha çox diqqət çəkir. Dəmir filizləri üzrə sənaye əhəmiyyətli üç güclü yataq vardır və bunların hamısı Daşkəsən rayonu ərazisində yerləşir. Məlumdur ki, uzun illər ərzində bu dəmir yataqlarının bazasında

filizsaflaşdırma istiqamətində sənaye - mədən müəssisələri fəaliyyət göstərmiş və keçmiş SSRİ-nin mərkəzdən planına uyğun olaraq, 15 respublikadan biri olan Gürcüstanın Rustavi şəhərində yerləşən iri metallurgiya kombinatının tələbatına uyğun olaraq bu müəssisəyə dəmir konsentrantı göndərilmişdir. Ümumilikdə, Daşkəsən ərazisindəki dəmir ehtiyatlarının sənaye əhəmiyyətli həcmi 250 mln. tondan çoxdur və bu göstərici ilə Daşkəsən dəmir filizi yatağı özünün təsdiqlənmiş ehtiyatları əsasında bu sahədə dünyada ilk yeri tutan Çindən sonra möhkəmlənmişdir. Bundan əlavə, Daşkəsən filiz rayonunda sənaye sahələrinin genişləndirilməsi baxımından yüksək potensiala malik kobalt filiz yataqları vardır. Ölkəmizin ərazisində mis filizləri yataqları da güclü sənaye əhəmiyyətinə malikdir və əsasən Gədəbəy rayonu ərazisində yerləşmişdir. Alüminium istehsalı üçün mühüm əhəmiyyət kəsb edən alunit filiz yataqları Zəylikdə (Daşkəsən rayonu) yerləşir və bu yataq öz ehtiyatlarının səviyyəsinə görə Avropanın ən güclü alunit filizi yatağıdır. Qızıl yataqları Azərbaycan ərazisində əsasən Kiçik Qafqazın ətəklərində (Gədəbəy, Söyüdü, Qızılbulaq, Dağ Kəsəmən və s.) yerləşmişdir. Bundan əlavə, milli iqtisadiyyatın əlavə dəyər yaradan emal sahələrinin təşkilinə faydalı qeyri-filizlərin mühüm əhəmiyyəti vardır. Bu tip qeyri-filiz ehtiyatları üzrə yataqların sayı 300-dən çoxdur, təkcə sənaye əhəmiyətli təbaşirin ehtiyatları 70 mln. ton həcmində qiymətləndirilir. Bentonit gillərinin ehtiyatları bu sahənin bazasında sənayenin inkişafı üçün kifayət qədər güclü potensiala malikdir və ölkəmizdəki mövcud yataqlarda bentonit gillərinin sənaye ehtiyatı 85 mln. tona yaxındır. Ümumiyyətlə, əsas qeyri-filiz mənşəli ehtiyatlar sırasında gips, bentonit gilləri, daş-duz, tikinti materialları və s. yataqlar daha çox sənaye əhəmiyyətinə malikdirlər. Daş-duz ehtiyatları əsasən Nehrəm və Duzdağ (Naxçıvan MR) yataqlarında, bentonit gilləri yataqları Qobustan, Goranboy, Şəki və Qazax rayonlarında, gips yataqları Yuxarı Ağcakənd və Mənəş (Goranboy) kəndlərində, sement yataqları Qaradağ və Qazax, Ağstafa rayonları ərazilərində yerləşmişlər, bunlarla bərabər, Daş Salahlı (Qazax rayonu) bentonit gilləri yatağı ölkəmizdə ən iri yataq kimi tanınır. Azərbaycanda mişar daşı ehtiyatları geniş yayılmışdır və ölkəmizdə mişar daşı yataqlarının ümumilikdə 300 mln. tona yaxın sənaye ehtiyatları məlumdur, ən iri və perspektivli mişar daşı yataqları kimi Güzdək, Qaradağ, Şaxbulaq, Daş Salahlı, Zəyəm və s. daha çox diqqət çəkirlər.

Azərbaycanda qeyri-neft sənayesi sahələrinin mineral-xammal ehtiyatlarının müasir vəziyyəti və səmərəli istifadə edilməsi problemləri

Müasir dövrdə ölkə iqtisadiyyatında qeyri-neft sənaye sahələrinin inkişafının modelləşdirilməsində mineral yanacaq resursları - neft-qaz ehtiyatları ilə yanaşı, digər təyinatlı mineral - xammal ehtiyaları da kifayət qədər zəruridir. Azərbaycanda bu baxımdan bir sıra qeyri-neft sənaye sahələrinin və milli iqtisadiyyat sektorlarının inkişafının genişləndirilməsi və modelləşdirilməsi üçün mineral xammal ehtiyatları mövcuddur.

Qara və əlvan metallurgiya sənaye sahələrinin inkişaf etdirilməsi üçün ölkəmizdə bu sahənin mineral - xammal bazasının güclü olması diqqət çəkir [24; 25]. Təkcə Qazax rayonundakı bentonit gil ehtiyatları 100 mln. tondur və bu xammalın qara metallurgiyanın inkişafında böyük əhəmiyyəti vardır. Bundan əlavə, qara metallurgiyanın inkişaf etdirilməsi üçün vacib olan flyüsəhəng ehtiyatlarının sənaye əhəmiyyətli həcmi 50 mln. tondan çoxdur və bu yataqlar Daşkəsən rayonu ərazisində yerləşir. Naxçıvanın Nehrəm yatağında 14 mln. ton miqdarında sənaye əhəmiyyətinə malik dolomit ehtiyaları məlumdur və bu xammaldan qara metallurgiyanın inkişafında daha çox istifadə olunur. Əlvan metallurgiya sənayesinin əsas məhsullarından olan alüminium istehsalının təşkili üçün Daşkəsəndə güclü alunit yataqlarının olması barəsində əvvəldə bildirmişdik. Kiçik Qafqazın şimal-şərqində yerləşən filiz yataqlarında misporfir filiz ehtiyatlarının hesabına misporosu və misin istehsalı üzrə əhəmiyyətli ehtiyatlar mövcuddur.

Karbohidrogen ehtiyatları və neft və qaz xammallarının emalı ilə yanaşı, kimya və neftkimya sənayesinin inkişaf etdirilməsi üçün ölkəmizdə digər mənşəli mineral xammal ehtiyatları da mövcuddur [26]. Belə ki, Azərbaycanda yodla zəngin mədən suları və ehtiyatları vardır və bunların bazasında yod istehsalının həcminin dəfələrlə artırılması və inkişaf etdirilməsi mümkün-

dür. Ölkəmizdə uzun illər bu sahədə intensiv fəaliyyət olmuşdur və iki iri yod zavodu istismara verilmişdir. Ancaq hazırda yalnız Neftçalada yod istehsalı üzrə müəssisə fəaliyyət göstərir. Naxçıvanda və işğal altında qalmış Zəngilan rayonu ərazisində kalsiumlanmış soda istehsalının təşkili üçün mühüm xammal ehtiyatları vardır. Belə ki, Nehrəm yatağında sənaye əhəmiyyətli daş duz ehtiyatı 730 mln. ton və Zəngilan yatağında kimyəvi əhəng ehtiyatları 130 mln. ton həcmində qiymətləndirilir. Bundan əlavə, Azərbaycanda seolit yataqları mövcuddur və ondan neftkimya proseslərinin aparılmasında katalizator kimi, həmçinin digər məqsədlər üçün, məsələn, suyun və neftin təmizlənməsində, o cümlədən kimyəvi yuyucu məhsullarının istehsalında geniş istifadə imkanlarına malikdir (Aydağ seolit yatağı və s.).

Son onilliklərdə Azərbaycanda tikinti sektorunun intensivləşdirilməsi prosesləri getmişdir və bunu ölkədəki "tikinti bumu" ilə izah etmək mümkündür. İri layihələr, geniş infrastruktur şəbəkəsinin yaradılması, yeni yaşayış massivlərinin salınması və s. ilə əlaqədar olaraq, tikinti işlərinin intensivləşməsi böyük çeşiddə və yüksək keyfiyyətdə tikinti materialları tələb edir. Bu baxımdan, Azərbaycanda tikinti materialları sənayesinin inkişaf etdirilməsi üçün xammal ehtiyatlarından səmərəli istifadənin aktuallığı xeyli yüksəkdir. Müstəqilliyin bərpasından sonra, xüsusilə, son 10-20 il ərzində iki böyük və müasir sement zavodlarının tikilməsi, çoxlu sayda inşaat materialları müəssisələrinin yaradılması buna misaldır. Ölkəmizdə tikinti materialları sənayesinin inkişafı üçün sənaye əhəmiyyətli 240-dan çox müxtəlif növ qeyri-filiz xammaları və tikinti materialları yataqları vardır. Bu yataqların və ehtiyatların hesabına müxtəlif çeşiddə və iri həcmdə sement, əhəng, gips, təbaşir, gil, üzlük materialları, mişar daşları, mərmər, keramit və döşəmələr, kərpic və s. istehsal sahələrinin təşkili və genişləndirilməsi potensialı mövcuddur.

Nəticə

Müasir dövrdə ölkə iqtisadiyyatının resurs potensialından, təbii resurslardan və xammal ehtiyatlarından səmərəli və qənaətlə istifadə olunması dövlətin strateji vəzifələrindən biri kimi kifayət qədər aktualdır. Milli iqtisadiyyatın məhsuldar fəaliyyətinin təşkili və istehsal sahələrinin genişləndirilməsində, səmərəli emal müəssisələri şəbəkələrinin yaradılmasında təbii resurslar və xammal ehtiyatlarının rolu böyükdür. Ölkədə bununla əlaqədar olaraq, adekvat dövlət tənzimlənməsi mexanizmləri formalaşdırılmalı və inkişaf etdirilməlidir. Qlobal iqtisadi təhlükələrin artdığı bir şəraitdə, Azərbaycanda təbii resurslardan və xammal ehtiyatlarından səmərəli istifadənin strateji aspektlərinə bunları aid etmək mümkündür:

- təbii resurslardan və xammal ehtiyatlarından səmərəli istifadənin milli konsepsiyası, inkişaf strategiyası və dövlət proqramlarının işlənib hazırlanması və reallaşdırılması məsələləri strateji səviyyədə baxılmalıdır;
- təbii resurslardan və xammal ehtiyatlarından istifadənin optimal qanunvericilik bazasının formalaşdırılması, zəruri normativ-hüquqi aktların qəbul edilməsi, bu ehtiyatlardan istifadə üzrə standartların hazırlanması tədbirləri müasir dövrün iqtisadi çağırışlarına adekvat aparılmalıdır;
- təbii resurslardan və xammal ehtiyatlarından istifadənin sertifikatlaşdırılması və lisenziyalaşdırılması, qənaət rejiminin tənzimlənməsi tədbirlərinin görülməsi kompleks və sistemli şəkildə həyata keçirilməlidir;
- təbii resurslardan və xammal ehtiyatlarından istifadəyə görə inzibati və mülki məsuliyyətin müəyyənləşdirilməsi, cərimələrin tətbiq olunması və digər tədbirlərin səmərəliliyi maksimum artırılmalıdır;
- təbii resurslardan və xammal ehtiyatlarından milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı məqsədilə səmərəli və məhsuldar istifadə edilməsi üçün yüksək texnologiyaların və innovasiyaların tətbiq edilməsi tədbirlərinin əhatəsi əhəmiyyətli səviyyədə genişləndirilməlidir;
- təbii resursların və xammal ehtiyatlarının qorunması və istifadəsinə milli iqtisadi maraqlarla bərabər, cəmiyyətin və ictimaiyyətin münasibətinin balanslaşdırılması siyasəti təmin olunmalıdır;

- Strateji yol xəritəsinin reallaşdırılması ilə əlaqədər olaraq, təbii resurslardan və xammal ehtiyatlarından istifadənin praktiki mexanizmlərinin tətbiqi zamanı, ilk növbədə, ölkə əhalisinin maddi rifahının və həyat səviyyəsinin yüksəldilməsi amili strateji səviyyədə baxılmalıdır və s.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2012. -39 s.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. Hacızadə E.M. Dünya iqtisadiyyatı. Resurs potensialı. Təbii-resurs potensialının təsnifatı. Resurslar və ehtiyatlar. Azərbaycan Dövlət İqtisadi Universiteti. Bakı, 2011.-31 s.
4. Cəfərova R.M. Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı-2014.-286 s.
5. Azərbaycanın təbii ehtiyatları. http://kayzen.az.
6. Azərbaycanın təbii sərvətləri. http://azecology.az/az/elaqe.
7. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı, "Avropa", 2003.- 422 s.
8. Şəkərəliyev A.Ş, Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, "Turxan", NPB, 2016.-536 s.
9. Nadirov A., Muradov Ş., Ələsgərov A., Nuriyev Ə., Hüseynov T. Azərbaycan iqtisadiyyatı. Bakı, "Elm", 2003 -344 s.
10. Babazadə V.M. Azərbaycanın mineral-xammal resursları. Bakı, 2005.- 808 s.
11. Əkbərov M. Mineral ehtiyatlar və resurslardan səmərəli istifadə traktatı//"Yer və insan" jurnalı, №4, 2015. Azərbaycan ərazisinin bitki örtüyü. http://www.azerbaycanli.org.
12. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun rəsmi saytı. http://www.igaz.az.
13. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi saytı. http://eco.gov.az.
14. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, "Kooperasiya" nəşriyyatı, 2017.- 536 s.
15. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya, ətraf mühit və insan. Bakı, "Elm".-2006.
16. Su ehtiyatları. AR Meliorasiya və su təsərrüfatı ASC. http://mst.gov.az.
17. Azərbaycanın çayları, gölləri və su anbarları. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. http://eco.gov.az.
18. Su ehtiyatları. Azərsu ASC. http://www.azersu.az.
19. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezdentinin Fərmanı. Bakı şəhəri, 22 noyabr 2011-ci il, №525.
20. Həsənov Ə.M. Xəzər hövzəsi və Cənubi Qafqazın enerji resursları və Avropanın enerji təhlükəsizliyində iştirakı. http://az.strategiya.az.
21. "Xəzər dənizinin su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 dekabr 2014-cü il, №1124.- IVQ.
22. Azərbaycanın faydalı qazıntıları. Azərbaycan Coğrafiya Cəmiyyəti. http://www.gsaz.az.
23. "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 13 fevral 1998-ci il.
24. Şükürov A. Mineral-xammal resursları sektoru dünya iqtisadiyyatında baş verən dəyişikliklərin mərkəzində durur. http://az.strategiya.az/old/?m=xeber&id=13955.
25. İsmayılov R. Azərbaycanın dağ-mədən sənayesinin inkişaf perspektivləri. http://www.anl.az.
26. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt Dövlət Universiteti, 2018.-384 s.

Шафа Тифлис оглу Алиев,
доктор экономических наук, профессор
Сумгайытского Государственного Университета

Современные аспекты ресурсного потенциала экономики Азербайджана и проблемы его эффективного использования

Резюме

В статье исследованы современные аспекты ресурсного потенциала экономики Азербайджана и проблемы его эффективного использования. С этой целью исследованы и анализированы аспекты обеспечения ресурсами национальной экономики. Подготовлены блок-схемы основных факторов, обуславливающих важность природных ресурсов и национального богатства в развитии экономики страны. Рассмотрен потенциал существующих земельных участков и их структура в Азербайджане. Оценена адекватность уровня запасов воды в контексте обеспечения экономического развития страны. Анализирован и оценен объем запасов минерального сырья, запасов рудных и нерудных полезных ископаемых. Отдельно рассмотрена и раскрыта стратегическая важность минеральных сырьевых ресурсов Каспийского моря. Исследовано современное состояние минерально-сырьевых запасов ненефтяной сферы промышленности и проблемы их эффективного использования. Оценен уровень сырьевых запасов металлургического комплекса, являющийся важным в структуре промышленности страны. Анализированы минеральные сырьевые базы и другие сферы ненефтяной промышленности - химического и нефтехимического промышленного сектора. Рассмотрена адекватность сырьевых ресурсов секторов строительства и промышленности строительных материалов. Определены стратегические аспекты направлений деятельности эффективного использования природных ресурсов и сырьевых запасов Азербайджана. В конце статьи подготовлен ряд рекомендаций и даны предложения касательно современных аспектов ресурсного потенциала экономики Азербайджана и проблемы его эффективного использования.

Ключевые слова: ресурсный потенциал, природные запасы, национальные богатсва, ресурсный потенциал экономики, проблемы эффективности использования ресурсного потенциала, перспективы эффективности использования ресурсного потенциала, современные аспекты ресурсного потенциала.

Shafa Tiflis Aliyev
doctor of economics, professor
of Sumgayit State University

Modern aspects of the resource potential of the economy of Azerbaijan and problems of its effective use

Summary

Modern aspects of the resource potential and problems of its effective use of the economy of Azerbaijan are investigated in the article. To this end, the problems of providing resources to the national economy are given. Block schemes of the main factors that determine the importance of natural resources and national wealth in the development of the country's economy are prepared. Existing land plots and their structure in Azerbaijan are considered. The adequacy of the level of water reserves in the context of ensuring the economic development of the country is estimated. The level of reserves for mineral raw materials, minerals of ore and non-ore reserves is analyzed too. Strategic importance of the mineral resources of the Caspian Sea is separately examined.

The situation of mineral raw materials of the non-oil industry and the problems of their effective use is studied. The level of raw materials of the metallurgical complex, which is important in the structure of the country’s industry, is estimated. Mineral raw materials bases and other spheres of the non-oil industry - chemistry and petro chemistry - are analyzed. The adequacy of the raw material resources of construction sectors and the construction materials industry is considered. The strategic aspects of the important direction of the effective use of natural resources and raw materials in Azerbaijan are determined. A number of recommendations and suggestions on the problems of the current aspects of the resource potential and problem of its effective use in Azerbaijan are given it the end of the article.

Key words: resource potential, natural resources, national wealth, resource potential of the economy, problems of efficiency of resource use, efficiency of resource potential use, modern aspects of the resource potential.

UOT: 336.01

Asəf Məhərrəm oğlu QASIMOV
ADAU-nun "Aqrar sahənin iqtisadiyyatı"
kafedrasının dosenti, i.f.d.

İNNOVASİYALARA DAİR BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏR

Xülasə

Məqalədə innovasiyalarla bağlı ölkə və xarici alimlərin bəzi nəzəri baxışları öz əksini tapmışdır. Həmçinin burada aqrar sahədə innovasiyalı sahibkarlığın inkişafının nəzəri məsələləri, özünəməxsus xüsusiyyətləri və reallaşdırma imkanları göstərilmişdir. Burada dövlət və özəl bölmənin birgə fəaliyyətinin daha da yaxınlaşması qeyd olunur.

Açar sözlər: innovasiya, sahibkarlıq, texnologiya, investisiya, maliyyə.

Giriş

Qloballaşmanın geniş vüsət aldığı hazırkı dövrdə aqrar sektorun ən müasir üsullarla və texnologiyalarla inkişafı kimi vacib bir proses kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və istehsalı üzrə ixtisaslaşmış dünya ölkələrində, o cümlədən Azərbaycanda da iqtisadi strategiyanın əsasını təşkil edir. Belə ki, aqrar sektor bütün dövrlərdə milli iqtisadiyyatın ən vacib sahəsi rolunu oynamaqla, dövlətin ərzaq təhlükəsizliyinin təminatçısı kimi özünü təsdiq edir. Ərzaq təhlükəsizliyinin təmin olunması və dünya bazarına rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixracı hər bir dövlətin milli iqtisadiyyatının inkişaf imkanlarının reallaşdırılması istiqamətində uğuru hesab oluna bilər.

Bütün dövrlərdə araşdırmalar sübut edir ki, kənd təsərrüfatı sahəsində insan həyatı üçün vacib olan nemətlərin yaradılması və istehsalının daha səmərəli şəkildə reallaşdırılmasında, istehsal olunan strateji məhsulların dünya bazarlarında rəqabətqabiliyyətliliyinin yüksək səviyyədə təmin olunmasında iki başlıca faktor həlledici rol oynayır:

- ekoloji vəziyyət, iqlim şəraiti və landşaftla xarakterizə olunan təbii-coğrafi şərait;
- texniki və texnoloji yeniliklərlə mütəmadi olaraq təmin olunan innovasiya imkanlarının səviyyəsi.

Son dövrlər innovasiyalar və onun iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına təsir imkanlarına dair tədqiqatlar geniş şəkildə artmışdır. Bu mövzuda dərc olunan elmi məqalələrin və araşdırmaların sayının daim artması bunu göstərir. Lakin araşdırmaların sayının çoxluğu ilə yanaşı innovasiya termininə kifayət qədər müxtəlif və mübahisəli yanaşmalar ortaya çıxır. İnnovasiyaların sosial-iqtisadi əhəmiyyətini qısaca şərh edərkən qeyd etmək lazımdır ki, onun imkanlarının yüksək səviyyəsi təkcə keyfiyyətli və səmərəli məhsulların əldə olunmasına zəmanət vermir, həm də qlobal ekoloji tarazlığın pozulması ilə əlaqədar baş verən destruktiv situasiyanın balanslaşdırılması imkanları yaradır. Buna görə də innovasiyaların mahiyyətinin, onun sosial-iqtisadi əhəmiyyətinin müxtəlif nəzəri yanaşmalara əsasən dəqiqləşdirilməsi olduqca vacib hesab edilir.

İnnovasiyaya dair bəzi nəzəri baxışlar

Böyük İqtisadi Ensiklopediyada innovasiyaları izah edərkən qeyd edilir ki, innovasiya (*lat. innovare*)- texnika və texnologiyanın yeni növlərini təmin edəcək bir proses kimi vəsaitlərin iqtisadiyyatda yerləşdirilməsidir. Geniş mənada innovasiya elmi-texniki, intellektual potensialı səfərbər edərək, səmərəliliyi və digər iqtisadi fərqlənmələrə nail olmanı əhatə edən tədbirlər sistemidir. Texnologiya istehsalı sferasında və idarəetmədə yeniliyi ifadə edən latın mənşəli isim kimi innovasiya yeniləşmə mənasında şərh olunur. İlk dəfə innovasiya termini Amerika iqtisadçısı Y.Şumpeterin (1883-1950) 1912-ci ildə yazdığı "İqtisadi inkişaf nəzəriyyəsi" əsəri ilə dövriyyəyə çıxarılmışdır. İnnovasiya anlayışı ixtira və kəşf terminlərindən fərqlənir. Burada ümu-

miliklər qədər yetərli müxtəlifliklər də var. Kəşf və ixtira əvvəllər mövcud və ictimaiyyət üçün aşkar olamayan, kardinal və inqilabi mexanizmləri ifadə edərək yeni fundamental həqiqətlərin təsdiqinə əsaslanır [2].

Təbiət və ya bəşər mühiti haqqında əvvəllər məlum olmayan məlumatların alınması və yaxud əvvəllər məlum olmayan hadisənin müşahidə olunması tədqiqat sayılır. İxtira dedikdə, yeni qurğuda, mexanizmdə, texnologiyada, metodda və insan tərəfindən yaradılan vasitələrdə reallaşdırılmış tədqiqatın nəticəsi sayılır. Ola bilsin ki, kəşf yardımçı tədqiqatın yekunu olsun. Kəşf, eləcə də ixtira, bir qayda olaraq, fundamental səviyyədə və bəzən ixtiraçı tərəfindən təklikdə edilə bilər. Onlar təsadüfi olaraq baş verə bilərlər və gəlir əldə etmək məqsədi daşımırlar.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən, istehsalata və sosial sahəyə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək üçün investisiya fəaliyyətinin bir forması kimi innovasiya fəaliyyəti həyata keçirilə bilər. İnnovasiya fəaliyyətinə aşağıdakılar daxildir [1]:

- uzunmuddətli elmi-texniki proqramların həyata keçirilməsi;
- iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədi ilə məhsuldar qüvvələrin vəziyyətində keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;
- texnika və texnologiyanın prinsipcə yeni, qənaətcil növlərinin işlənib hazırlanması, buraxılması, yayılması və tətbiqi.

Son iyirmi ildə istər inkişaf etməkdə, istərsə də inkişaf etmiş ölkələrdə iqtisadi inkişafın ölçüsü artdıqca innovasiya anlayışı daha məzmunlu əhəmiyyət kəsb edir. Əvvəllər innovasiyalar təkcə texnologiya sferası ilə məhdudlaşırdısa, hazırda o iqtisadiyyatın, demək olar ki, bütün sferalarında istehsal idarəetməsinin təşkilati metodlarını da əhatə edir.

İ.e.d., prof. Bəyalı Ataşov qeyd edir ki, ümumilikdə götürüldükdə "innovasiya" termininə verilmiş tərifiərin təhlili bunu söyləməyə əsas verir ki, bu mərhələyə üç baxış daha geniş yayılmışdır. Birinci nöqteyi-nəzər: innovasiya anlayışı yeniliklər anlayışı ilə, yeniliklərin tətbiqi anlayışı ilə eyniləşdirilir. İkinci nöqteyi nəzər: innovasiya yeni məhsulun, yeni texnologiyanın yaradılması prosesi, istehsalın təşkili, iqtisadiyyatın idarə edilməsi prosesi kimi nəzərdən keçirilir. Üçüncü nöqteyi nəzər: innovasiya əvvəlki analoqlarından keyfiyyətcə fərqlənən yeni məmulatların, elementlərin, yanaşmaların istehsala tətbiq edilməsi prosesi kimi nəzərdən keçirilir [3].

İqtisadi ədəbiyyatlarda "innovasiya" termininə dair çoxlu sayda tərifiərdə bu iqtisadi kateqoriyaya müstəsna dərəcədə diqqət yetirmələrinə baxmayaraq elmi fikir indiyə qədər innovasiyanın elə bir universal tərifini işləyib hazırlamışdır ki, həm nəzəriyyənin, həm də praktikanın tələblərinə cavab verə bilsin, eləcə də onları həyata keçirən konkret subyekt - dövlət, region, sahə, müəssisə baxımından uyğunluq olsun. İnnovasiya dedikdə, heç də yalnız istehsala tətbiq olunan obyekt deyil, həm də onun uğurla tətbiq olunması və mənfəət gətirməsi nəzərdə tutulur. Aparılmış elmi-tədqiqatın və ya edilmiş kəşfin nəticələrinə görə o, keyfiyyətcə özündən əvvəlki oxşarından fərqlənir. İnnovasiyanın reallaşması prosesində baş verən elmi-texniki, texnoloji və təşkilati dəyişikliklərin məcmusunu innovasiya prosesi, yeniliklərin yaradılması, yayılması və istifadəsi dövrünü isə innovasiya tsikli adlandırmaq olar [7, s. 6].

Milli iqtisadiyyatların rəqabətqabiliyyətlilik uğrunda amansız mübarizəsində sosial-iqtisadi problemlərin həlli və eləcə də təbiətdə baş verə biləcək arzuolunmaz halların qarşısının uğurla alınmasında ölkənin innovasiya sistemi və qabiliyyəti yüksək səviyyədə olmalıdır. Müasir iqtisadi münasibətlər sisteminin kifayət qədər böhranlı xarakter kəsb etdiyi bir dövrdə ərzaq təhlükəsizliyinin son dərəcə vacib xarakterini nəzərə alan dövlətlərdə aqrar sektorun innovativ inkişafı faktiki olaraq milli ideya səviyyəsinə qaldırılmışdır. Son illərdə süni əməliyyatlara əsaslanan aqrotexniki üsulların tətbiq edilməsi nəticəsində dünya bazarlarında dominant mövqe tutan modifikasiya olunmuş kənd təsərrüfatı məhsullarına qarşı yüksək rəqabət imkanlarına malik sırf təbii məhsulların yetişdirilməsi, istehsalı və emalı məsələsi son dərəcə aktuallaşmışdır. Aqrar sənaye kompleksi bütün dünya ölkələrində, o cümlədən Azərbaycanda da milli prioritet sə-

viyyəsinə qaldırılmışdır. Bununla əlaqədar olaraq, yüksək təşəkküllü milli layihələrin və dövlət proqramlarının hazırlanması və reallaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

İ.e.d., prof. Eldar Quliyevin fikrincə ASK sahələrində innovasiya fəaliyyəti nəticəsində kənd təsərrüfatı bitkiləri və heyvanların, əməyin məhsuldarlığının yüksəlməsi, vahid məhsul istehsalının maya dəyəri və material tutumu, ətraf mühitə iqtisadi ziyan azalmalıdır. Professor qeyd edir ki, kənd təsərrüfatının innovasiya fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

- istehsalın enerji və resursqoruyucu texnologiyası, kənd təsərrüfatı məhsullarının saxlanılması və emalı;
- daxili bazarı ucuz və keyfiyyətli ərzaq məhsulları ilə doldurmağa qadir olan innovasiya;
- məhsuldarlığı, səmərəliliyi, texnika və avadanlığın təmirə yararlılığı, onların xidmət vaxtının uzadılması, istehsal fəaliyyətinin yüksəldilməsinə imkan verən yeniliklər;
- iqtisadiyyatda innovasiya modelinin qurulmasını nəzərə alaraq ASK üçün yüksək ixtisaslı kadrların hazırlanması;
- ekoloji şəraiti yaxşılaşdırmağa imkan verən tədbirlər və s.

Bu istiqamətlərin hər birinə nəzər saldıqda demək olar ki, kənd təsərrüfatının innovasiya fəaliyyətinin əsas güc mərkəzi dövlət olaraq qalır. Çünki hazırkı şəraitdə, daha çox xırda təsərrüfatçılığa əsaslanan aqrar sahənin bu istiqamətlərdə innovasiya fəaliyyəti həyata keçirməsi maliyyə resursları baxımından real görünmür. Həm də fəaliyyət göstərən fermer təsərrüfatlarında innovativ biliklərə malik insanlar, yaxud mütəxəssislərlə bağlı ciddi çatışmazlıqlar var. Bu baxımdan aqrar sahədə innovasiya fəaliyyətinin davamlı olaraq həyata keçirilməsi dövlət dəstəyinə əsaslanır və bu cür də davam etməlidir.

T.Brayna görə, innovasiya elə bir prosesdir ki, burada intellektual əmtəə- ixtira, informasiya, nou-hau və ya ideya iqtisadi məzmun kəsb edir [6, s.16]. Lakin, göründüyü kimi, bu tərifdə də müsbət effektin mütləqliyi, eləcə də ideyanın reallaşdırılmalı oldugu bazarın vacibliyi yaddan çıxarılmışdır. Xartman Xaustaynın 1979-cu ildə Berlində nəşr olunan "Leiting industrieller Forchung und Entwicklund" kitabında qeyd olunur ki, innovasiya-ideyanın, təklifin, elmi-tədqiqi qərarın, modelin praktikada tətbiqi, həyata keçirilməsi və istifadəsidir [5, s.121].

Lakin bu tərifdə də ideyanın bazara qədər hərəkəti nəzərə alınmır, istehsalın təşkili strukturunda, kadrların tərkibində dəyişiklik imkanına, qəbul olunmuş ideyanın mütləq səmərəliliyinə baxılmır.

Məşhur eston iqtisadçısı V.H.Lapinə görə, innovasiya-insanların məlum tələbatını daha yaxşı ödəmək üçün yeni təcrübi vasitələrin yaradılmasına, yayılmasına və istifadəsinə yönəldilmiş kompleks prosesdir [6, s. 23]. Göründüyü kimi, burada da innovasiya konkret obyekt kimi nəzərdən keçirilmir, təskilati-idarəetmə, sosial və digər innovasiyalar nəzərə alınmır.

Aqrar sahədə innovasiyalı sahibkarlığın inkişafının bəzi məsələləri

Aqrar sahədə sahibkarlar iqtisadiyyatın digər sahələrindəki sahibkarlardan istehsalın xüsusiyyətləri baxımından fərqli bir mühitdə fəaliyyət göstərir və həmin fərqlər, əsasən innovasiya fəallığına müsbət təsir etmir. Buna səbəb, ümumiyyətlə sahibkarlığın qarşılaşdığı maneələrin aqrar fəaliyyət mühitində daha ciddi və riskli olmasıdır. Sahədə innovasiyalı sahibkarlığa qarşı duran amillərin daha güclü olması, kənd təsərrüfatında fəaliyyət məkanı və həyat tərzi elementlərinin qarşılıqlı əlaqəsinin nəticəsidir. Kənddə innovasiya infrastrukturunun, əksər hallarda şəbəkə əmələ gətirə bilməməsi, kənd təsərrüfatı istehsalının, xüsusilə bitkiçiliyin məkan pərakəndəliyi, aqrar sahənin kreditləşdirmə sistemindəki problemlər, informasiyanın natamamlığı, aqroemal sənayesində yeni məhsulun lisenziyalaşdırma, sertifikatlaşdırma və vergitutma prosedurunun mürəkkəbliyi, vergi mühitinin qeyri-sabitliyi və s. sahədə innovasiyalı fəaliyyəti əhəmiyyətli dərəcədə ləngidən amillərdir.

Aqrar bölmədə innovasiyalı sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının konseptual istiqamətləri kimi, ilk növbədə kənd təsərrüfatında innovasiya fəallığına təsir edən amillərin idarə edilməsi, innovasiyayönümlü məsrəflərin müəyyən hissəsinin dövlət büdcəsindən subsidiyalaş-

dırılması, sahibkarın elmi mərkəzlərlə əlaqələrinin təşviq edilməsi, resursqoruyucu, xüsusilə enerjiyə qənaət etməyə imkan verən texnoloji innovasiyalara gömrük, patent xidməti və digər istiqamətlərdə imtiyazların verilməsi, risklərin minimumlaşdırılması və bölüşdürülməsinin sahibkar nöqteyi-nəzərindən səmərəli mexanizminin yaradılması və s. qeyd olunmalıdır.

İnnovasiyalı sahibkarlıq aqrar sahə üçün səciyyəvi olan yüksək risk ehtimalı nəzərə alınmaqla həyata keçirilir. Bu prosesdə riskin əksər növləri ilə daima rastlaşmaq mümkündür. Odur ki, innovasiya fəaliyyətinin idarə olunması mahiyyət etibarı ilə risklərin idarə edilməsi məsələsinə gətirilə bilər.

Aqrar sahədə innovasiyalı sahibkarlığın maliyyə təminatı adekvat maliyyə-investisiya mexanizminin yaradılmasını tələb edir. Sahədə innovasiyaların investisiyalaşması ərzaq təhlükəsizliyinin təminatı, tarazlı regional inkişaf və elmi-texniki siyasətin prioritetlərinə əsaslanmalı, investorlar üçün innovasiya yönümlü imtiyazlı fəaliyyət rejimləri yaradılmalıdır. İnnovasiyaların investisiyalaşdırılmasının perspektivli forması olan innovasiya fondlarının yaradılması - mənbələrin müxtəlifliyi və çoxsaylı olmasını, risklərin bölgüsü və yenidən bölgüsünün adekvat mexanizminin fəaliyyət göstərməsini, dövlət və özəl bölmənin birliyini nəzərdə tutmalıdır. Aqrar sahədə innovasiyalı sahibkarlığın əlverişli investisiya mühiti gömrük-vergi stimullaşdırılmasını, haqsız rəqabətlə və inhisarçılıqla fəal mübarizəni, intellektual mülkiyyətin səmərəli qorunmasını, normativlərin və standartların hazırlanması prosesinin sadələşdirilməsini və s. nəzərdə tutur.

Aqrar sahədə innovasiyalı sahibkarlığın özünəməxsusluqları barədə deyilənlərə əlavə olaraq onu qeyd edək ki, istehsal innovativliyinin prioritetlərinin əsaslandırılması, milli innovasiya siyasətinin həyata keçirilməsinin elmi-nəzəri, metodoloji və digər aspektlərində müsbət addımlar adekvat informasiya sisteminin, dolğun və daim yenilənən verilənlər bazasının, ideyaların kommersiyalaşması prosesini əhatə edən informasiya xidmətinin yaradılması sayəsində mümkündür.

Nəticə

İnnovasiyalara dair ölkə və xarici alimlərin nəzəri baxışlarının təhlili göstərir ki, bu kateqoriya ilə bağlı müxtəlif oxşar və bir-birinə yaxın nəzəri məsələlər mövcuddur. Ümumiləşdirmə nəticəsində demək olar ki, innovasiyalar daha təkmil vasitələrin, qaydaların, məhsulların, metodların, texnologiyaların tətbiqini və reallasdırılmasını nəzərdə tutur. Ən əsası odur ki, innovasiya yeni biliklərin reallaşdırılmış məcmusu kimi müvafiq sahələrdə praktiki tətbiqə malik olmalı və səmərə verməlidir.

Aqrar sahədə innovasiyalı sahibkarlığın səmərəliliyi də ölkədə innovasiya fəaliyyəti göstərmək üçün yaradılmış, ixtisaslaşdırılmış subyektlərin, o cümlədən məhsul və proses innovasiyalarını reallaşdıran innovasiya mərkəzlərinin, aqroparkların, texnoloji parkların və inkubatorların və s. şəbəkə əmələ gətirmə qabiliyyətindən və yayılma coğrafiyasından bilavasitə asılıdır. Belə ki, ixtisaslaşmış innovasiya fəaliyyət subyektləri aqrar-ərzaq təsərrüfatında innovasiya fəallığının texnoloji, təşkilati və informasiya təminatını möhkəmləndirməklə onun yüksəldilməsini təşviq edirlər.

ƏDƏBİYYAT

1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
2. Böyük İqtisadi Ensiklopediya. Bakı, 2012, III cild.
3. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri. "Kooperasiya" nəşriyyatı, Bakı, 2017.
4. Quliyev E. Aqrar iqtisadiyyat. Dərslik, Bakı, 2015.
5. Брайн Т. Управление научно техническими нововведениями. М. Экономика, 1989.
6. Лапин В.Н.Социалные аспекты управления нововведениями. Таллин, 1981.
7. Медынский В.Г. Инновационный менеджмент. Учебник. Москва, ИНФРА, 2002.
8. Xartmanı Xaştayn. Leitung industriller Forchung und Entwicklund. Berlin, 1979.

доц. Асаф Магеррам оглы Касумов
Азербайджанский Государственный
Аграрный Университет

Некоторые вопросы относительно инноваций

Резюме

В статье нашли свое отражение некоторые теоретические взгляды отечественных и зарубежных ученых связанные с инновациями. Здесь также рассмотрены теоретические вопросы развития, своеобразные особенности и возможности реализации инновационного предпринимательства. Здесь отмечается увеличение взаимосвязей в совместной деятельности государственного и частного сектора.

Ключевые слова: инновации, предпринимательство, технологии, инвестиции, финансы.

PhD Asaf Maharram Gasimov
Azerbaijan State Agricultural University

Some theoretical issues relating to innovation

Summary

The article presents some theoretical views of the country and foreign scientists about innovations. Also theoretical aspects of the development of innovation entrepreneurship in the agrarian sector, peculiar features and implementation capabilities are shown in the research. It is noted that the cooperation of the public and private sector is closer.

Key words: innovation, entrepreneurship, technology, investment, finance.

UOT:338.4 YEL: Q-49

Türkan Əli qızı ŞEYDAİ
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

İNNOVASİYA FƏALİYYƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ MEXANİZMLƏRİ

Xülasə

Məqalədə inkişaf etmiş ölkələrin innovasiya fəaliyyətinin səmərəli təşkil edilməsi üzrə apardıqları tədqiqat işləri araşdırılır. Bu məqsədlə məqalədə innovasiyaların səmərəli idarə edilməsi mexanizmləri tədqiq edilir. Məqalənin sonunda isə ölkəmizin qeyri-neft sənayesi müəssisələrində innovasiya fəaliyyətinin səmərəli təşkilində dövlət siyasətinin başlıca istiqamətləri elmi cəhətdən əsaslandırılaraq, onun iqtisadi nəticələri göstərilir.

Açar sözlər: innovasiya, metod, müəssisə, idarəetmə,investisiya,maliyyə

Giriş

Tədqiqatlar göstərir ki, hər bir ölkənin iqtisadi və rəqabətədavamlı inkişafı onun innovasiyalı inkişafı ilə bilavasitə bağlıdır. Yəni, innovasiyanın iqtisadiyyata, tələbin isə innovasiyaya "təzyiqi"nəticəsində ölkə davamlı və dayanıqlı iqtisadi inkişafa nail ola bilər. Məhz bu "təzyiqlər" nəticəsində sosial-iqtisadi inkişafın həcmi genişlənir. Nəticədə isə innovasiyanın inkişafı istehsala təsir göstərməklə, bütövlükdə isə ölkədə "Azad bazarı" formalaşdırır. Bu məqsədlə dünya təcrübəsində innovasiya fəaliyyətinin səmərəli təşkili və idarə edilməsi üzrə bir sıra mexanizmlər mövcuddur. Bütün bunlar bu mexanizmlərin ölkəmizdə istifadəsi üzrə araşdırmaların aparılmasını aktual edir [1].

İnnovasiya fəaliyyətində dövlətin təsir metodları

İnnovasiya fəaliyyəti sahəsində dövlətin təsir metodlarını inzibati və iqtisadi (birbaşa və dolayı) metodlara bölmək olar. Onların müqayisəsi ölkədəki iqtisadi vəziyyətlə və dövlət tənzimlənməsi konsepsiyası ilə - bazar və mərkəzləşdirilmiş təsirə dayanmaqla müəyyən edilir.

İnnovasiya fəaliyyətinin həyata keçirilməsinin inzibati metodları, mərkəzləşdirilmiş təsərrüfatçılıq sistemində idarəetmənin direktiv metodlarından fərqli olaraq, bazar münasibətləri şəraitində qanunvericiliyə əsaslanır. Dövlətin patent siyasətinin və standartlaşdırma siyasətinin hüquqi normalaşdırılması vasitəsilə dövlətin innovasiya fəaliyyətinə inzibati müdaxiləsi təsərrüfat subyektlərinə yenilik üzərində monopoliyanı saxlamağa və məhsul istehsalçılarının məhsullarının unifikasiyaya çatmasına imkan yaradır [2].

İnnovasiya tənzimlənməsinin daha effektli metodları məhsul istehsalının motivasiya amillərinin nəzərə alınmasına əsaslanan iqtisadi metodlardır. Onlar inzibati metodlardan qeyri-direktiv xarakteri və iqtisadi vasitələrin və tənzimləyicilərin istifadəsinə görə fərqlənirlər.

İqtisadi təsirin birbaşa metodlarına maliyyələşdirmə (məqsədli, predmet-səmtləşdirilmiş, problem-istiqamətlənmiş), kreditləşdirmə, lizinq, fond əməliyyatları, planlaşdırma və proqramlaşdırma, həmçinin dövlət sahibkarlığı və dövlət sifarişləri formasında investisiyalaşdırma aiddir.

Dolayı iqtisadi metodların vəzifəsi innovasiya fəaliyyətinin fərdi deyil, ictimai şəraitinin formalaşdırılmasıdır. Onların sırasında ənənəvi olaraq istifadə olunur:

- Vergi və amortizator tənzimlənməsi;
- Kredit və fond siyasəti;
- Qiymət tənzimlənməsi;
- Proteksionizm siyasəti.

Ən mühüm dolayı metodlar kredit və vergi siyasəti hesab edilir:

- Kredit siyasəti yeniliklərin maliyyələşdirilməsi üçün açıq olan maliyyə resurslarının həcmini tənzimləyir, həmçinin ssuda faizinin səviyyəsinin idarə olunmasını həyata keçirir.

- Vergi siyasəti müəyyən fəaliyyət növünə olan vergi subsidiyalarını, xüsusilə də yeni maşın və avadanlıqların yaradılması və tətbiqi ilə əlaqədar olan gəlirin vergi ilə təyin edilmiş hissəsinin məbləğindən ixtisarını nəzərdə tuta bilər.

İnnovasiya fəaliyyətinə dolayı təsirin metodlarına beynəlxalq texnologiya mübadiləsinin tənzimlənməsi, yəni texnologiyanın ötürülməsinin idxal və ixrac nəzarətinin tənzimlənməsi aiddir.

Dövlətin innovasiya fəaliyyətinə təsirinin spesifik forması texnoloji inkişafın uzunmüddətli proqnozlaşdırılması və planlaşdırılması üçün zəruri olan məlumatların toplanması və emalıdır.

İqtisadiyyatda, ölkənin dünya bazarındakı rəqabət qabiliyyətinin asılı olduğu innovasiya iqlimi qismən aparılan ETSKİ-nin strukturu, həcmi və xarakteri ilə müəyyən edilir.

Elmi-tədqiqat və sınaq-konstruktor işlərini nəinki ixtisaslaşdırılmış elmi və elmi-texniki təşkilatlar, hətta müəssisələrin özləri aparırlar ki, bu da innovasiya fəaliyyətinin inkişafının vacib amilidir.

Son illərin tədqiqatlarında innovasiya və sahibkarlıq probleminə daha çox diqqət yetirilir. Bununla belə hər iki problemə həm nəzəri, həm də praktiki aspektdə baxılır. Eyni zamanda bu istiqamət üzrə tədqiqatların intensivliyinin artmasına baxmayaraq müəssisələrin innovasiya fəallığının aşağı səviyyəsi müşahidə edilir. Belə vəziyyətin səbəbi çoxdu, lakin onlardan ən başlıcası - müəssisələrin əsas kütləsi tərəfindən bu növ fəaliyyətin həyata keçirilməsi üçün şərtlərin olmaması, yeniliyə olan meyilliliyin aşağı səviyyəsidir. Biznes və innovasiya bir-birindən ayrılırlar. Belə vəziyyət təcrübədə və nəzəriyyədə öz əksini tapmışdır: sahibkarlıq problemlərinin elmi tədqiqatları az səviyyədə innovasiya məsələlərinə aiddir. Digər tərəfdən isə, deyə bilərik ki, bu iki problemin bağlantısının olmaması metodoloji planda real iqtisadiyyatda innovasiya və sahibkarlıq fəaliyyəti arasında uyğunsuzluğun azalmasına səbəb olur [3].

İnnovasiyanın idarə olunması probleminin kifayət qədər kompleks şəkildə baxılması Q.D. Kovalyev tərəfindən həyata keçirilmişdir. Bu müəllif innovasiya prosesləri nəzəriyyəsini inkişaf etdirən bir sıra yeni anlayışlar irəli sürür. Bu, innovasiya kommunikasiyası, logistik innovasiya funksiyası və logistik innovasiya əməliyyatı anlayışlarıdır. İnnovasiya kommunikasiyasını nəzərdən keçirərək Q.D.Kovalyev yeniliklərin kommersializasiyası prosesində investisiya, istehsal və informasiyanın qarşılıqlı təsiri problemlərini tədqiq etməyə cəhd göstərir. Müəllifin innovasiya mexanizmləri problemlərinə yaxınlaşmasına baxmayaraq, bu mexanizm anlayışı və sisteminin özü müəyyən edilməmişdir, həmçinin sahibkarlıq strukturlarının innovasiya fəaliyyətinin aktivizasiyasının konkret üsulları və vasitələri nəzərdə tutulmayıb.

Problemin kompleks şəkildə həll olunması cəhdi P. Şekovun əsərlərində göstərilmişdir. O, innovasiya fəaliyyəti prosesinin beş amilini fərqləndirir: biliklərin dünya həddi, innovasiya maliyyə resursları, innovasiya sahibkarları, innovasiya fəallığı sahəsi, innovasiya iqlimi. Fərqləndirilmiş amillərlə bağlı qeyd etmək olar ki, ümumilikdə onlar əhəmiyyətli dərəcədə həqiqətən innovasiya proseslərinin inkişafını müəyyən edirlər. Lakin, birincisi, amillər öz miqyasına görə fərqlidirlər. Məsələn, innovasiya iqlimi - ümumi anlayışdır, innovasiya maliyyə resursları - daha xüsusi. Həm də sonuncular innovasiya iqliminə daxil edilməlidirlər. İkincisi, innovasiya sahibkarlarının sahibkarlıq sektorunun innovasiya fəallığının yüksəldilməsinin zərurətini qeyd etmədən amil kimi fərqləndirilməsi ümumilikdə birincilərin əsassız olaraq sahibkarlıq cəmiyyətinin ayrılmış hissəsi kimi fərqləndirilməsinə gətirib çıxarır.

İnnovasiya inkişafı mexanizmlərinin yaradılması və inkişafı problemlərinə A.A.Daqayevin əsərlərində baxılır. O, yeniliklərin mənimsənilməsinin vençur mexanizmini, ETSKİ sahəsinə xüsusi kapital qoyuluşları mexanizmini, regional elmi-texniki resursların fəallaşdırılması mexanizmini, texnoloji transfertlər mexanizmini ayırır. Bu mexanizmlərin vacibliyi şübhə doğurmur, lakin onların sayı azdır. Ümumilikdə qeyd etmək lazımdır ki, A.Daqayev iqtisadiyyatda innovasiya mexanizmlərinin kompleks tədqiqi məsələsinə yaxınlaşmışdır [4,5].

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək qeyd etmək olar ki, sahibkarlığın elmi cəhətdən öyrənilməsi konsepsiyalarının çoxluğuna baxmayaraq problemin kompleks şəkildə baxılmasında onun innovasiya tərkib hissəsi məsələsi tam olaraq tədqiq edilməmişdir. Bu innovasiya tərkib hissəsini reallaşdırmağa imkan verən mexanizmlər sistemi haqqında məsələnin elmi təşkili yoxdur, baxılan sistemin elementlərinin quruluşu müəyyən edilməmişdir.

Bu mexanizmlər innovasiya-sahibkarlıq sisteminin sahibkarlığın innovasiya mexanizmləri adlandırıla bilən qarşılıqlı əlaqəli elementlər kimi təqdim olunur. Bu sistemin fəaliyyət proseslərinin dərin elmi tədqiqinin zəruriliyi aydındır. Buna görə də sahibkarlıq fəaliyyətini təkcə elmi-texniki və innovasiya biznesi kimi deyil, geniş mənada başa düşən bu fəaliyyəti aktivləşdirə bilən mexanizmlər sisteminin formalaşmasının sərbəst elmi və iqtisadi problemləri yaranır.

İnnovasiya fəaliyyətində ali təhsil məktəblərinin rolu

İnnovasiya fəaliyyətinin həyata keçirilməsində müəssisələrin vacib strateji partnyorları kimi ali təhsil məktəbləri (ATM) çıxış edirlər.

Əksər ölkələrdə ali təhsil müəssisələri təkcə təhsil xidmətləri göstərmirlər, həm də fəal elmi fəaliyyət həyata keçirirlər.

Müəssisələr yeni texnologiyalara çıxış əldə etmək və yeni işləmələrlə ayaqlaşmaq, yüksək ixtisaslı məsləhətçilərin bilik və bacarıqlarına çıxış əldə etmək, birgə yeni texnologiyalar işləyib hazırlamaq üçün ali məktəblərlə əməkdaşlığı inkişaf etdirirlər. Bundan başqa ATM bir çox ölkələrdə kommersiya tədqiqat təşkilatlarından fərqli olaraq daha aşağı qiymətlərlə elmi-tədqiqat xidmətləri göstərirlər. Bəzən universitetdə aparılan tədqiqatların nəticəsində yeni ixtisaslaşdırılmış müəssisələr formalaşır, lakin universitetlə əlaqələr onun yaranmasından sonra da davam edir [4,6].

Bir çox hökumətlər təhsil sahəsində aparılan tədqiqatların tətbiqinə innovasiya fəaliyyətinin aktivləşdirilməsi potensialı kimi, innovasiya müəssisələrinin formalaşması prosesinin katalizatoru kimi baxırlar. ATM və müəssisələr arasında əməkdaşlığın inkişafı çoxlu əlavə iş yerləri yarada, müəssisələrin mənfəətini artıra bilər ki, bu da öz növbəsində bütün ölkənin iqtisadi qüdrətinin yüksəlməsi deməkdir.

Lakin ATM və müəssisələr arasında əlaqənin inkişafı bir çox çətinliklərlə qarşılaşır, həm də bunlardan bəziləri ümumi xarakterə malikdir, bəziləri isə ayrı-ayrı region və ya ölkələr üçün spesifikdir. Bu əlaqələr həm universitetlər, həm də müəssisələr üçün sərfəli olmalıdır, lakin əsas problem də məhz bundadır. Əksər ölkələrdə universitetlər müəssisələrlə əlaqələrin inkişafına görə heç bir xeyir əldə etmir, nə maddi, nə də mənəvi. Universitetlərlə innovasiya müəssisələri arasında əməkdaşlığı qarşılıqlı faydalı etmək - innovasiya fəaliyyətinin idarə olunmasının ən vacib vəzifələrindən biridir.

Universitetlərlə innovasiya müəssisələri arasında əməkdaşlığın innovasiya fəaliyyətinin aktivləşdirilməsi məqsədilə dünya təcrübəsində istifadə edilən yol və formalarına baxaq.

Belə əməkdaşlığın müxtəlif ölkələr üçün ümumi olan forması innovasiya müəssisələrində universitetlərin məzunlarını və aspirantlarını işə qəbul etməkdir.

Universitetlərin innovasiya müəssisələri ilə əməkdaşlığının digər forması yaradıcılıq məzuniyyətidir ki, bu da ali məktəblərin professor-müəllim heyətinin innovasiya müəssisələrində işləmələrinə imkan yaradır. Yaradıcılıq məzuniyyəti həm müəssisədə, həm də ATM-də yeni ideyaların yaranmasını və inkişafını stimullaşdıra bilər ki, bu da onların birgə innovasiya layihələri işləmələrinə gətirib çıxarır. Müəssisə yüksək ixtisaslı universitet heyətinin bilik və təcrübəsindən istifadə edə bilər, ATM isə öz növbəsində istehsal tələbatı, praktiki fəaliyyət və müəyyən sahəyə aid olan mühitdə aparılan tədqiqatlar barədə həqiqi təsəvvürlər əldə edə bilər.

Universitetlərin innovasiya müəssisələri ilə əməkdaşlığının vacib forması onları birləşdirən təşkilati strukturların yaradılması və inkişafıdır. Bir çox universitetlər hazırladıqları yeni texnologiya sahələri verdikləri keçmişdən nəticə çıxardıblar. Hal-hazırda, bir qayda olaraq, hər bir universitet texnologiyaların ötürülməsi üçün yeni qiymətli texnologiyaların hazırlanmasını və

qorunmasını təşkil edən və onları müəssisələr üçün açıq edən kommersiya strukturuna malik olmalıdır. Bu, universitetə əlavə mənfəət, heyətinə isə əlavə əmək haqqı gətirir, müəssisələrə isə innovasiya məhsullarını və texnologiyalarını tapmağa kömək edir.

İnnovasiya fəaliyyətinin tənzimlənməsi həmçinin müxtəlif innovasiya müəssisələrinin əməkdaşlığı prosesində həyata keçirilir.

Belə əməkdaşlıq innovasiya fəaliyyətinin nəticələrinin bir müəssisə tərəfindən digərinə ötürülməsi gedişatında həyata keçirilə bilər. İş orasındadır ki, yeni ideyaları işləyib hazırlayan müəssisələr onlar haqqında bildirə bilər, patentləşdirə bilər və ya əksinə. Bu zaman potensial innovasiya məhsulları onların məhsulu sıralarına daxil olmaya bilər və ya onların işlənməsinə çəkilən xərclərlə müqayisədə çox az gəlir gətirən kimi baxıla bilər. Lakin bu potensial innovasiya məhsulları digər müəssisə üçün uyğun ola bilər, və o yeni ideyaların işlənməsində maraqlı olacaqdır [4].

İnnovasiya müəssisələri arasında əməkdaşlıq həmçinin birliklərin, alyansların, çoxsəviyyəli şirkətlərin (holdinq, konsorsium və s.) yaradılması formasında da həyata keçirilə bilər. Əgər müəssisə özünün innovasiya fəaliyyəti prosesində təkbaşına həll edə bilməyəcəyi problemlərlə üzləşirsə, belə əməkdaşlıq vacibdir. Problem texniki, kommersiya və maliyyə xarakterli ola bilər. İnnovasiya müəssisələrinin uğursuz əməkdaşlıqları ilə bağlı dəqiq faizlər olmasa da, aydındır ki, bu faiz böyükdür, belə ki, innovasiya fəaliyyəti gedişaltında qarşılıqlı sərfəli tərəfdaşlığı təşkil etmək çox çətindir (birgə fəaliyyət, əlbəttə ki, birgə risklər və birgə gələcək gəlirlər deməkdir). Belə tərəfdaşlığın təşkili - innovasiya fəaliyyətinin tənzimlənməsinin vacib formasıdır.

Belə uğurlu əməkdaşlığın nümunəsi kimi Renault Motor Company şirkətinin fəaliyyətini göstərmək olar.

İnnovasiya fəaliyyətində maliyyə tənzimlənməsinin rolu

İnnovasiya fəaliyyəti, bir qayda olaraq, kifayət qədər yüksək qeyri-müəyyənlik və risk dərəcəsi ilə xarakterizə olunur. Büdcə vəsaitləri hesabına innovasiya fəaliyyətinin maliyyələşdirilməsi dövlət innovasiya siyasətinin məqsəd və prioritetlərinə müvafiq olaraq həyata keçirilir və həm irimiqyaslı elmi-texniki problemlərin həlli üçün, həm də kiçik və orta innovasiya sahibkarlığına dəstək üçün nəzərdə tutulur [5,7,8].

İnnovasiya fəaliyyəti subyektləri büdcədənkənar vəsaitlərin cəlb edilmə mənbələrini, strukturunu və üsullarını müstəqil şəkildə müəyyənləşdirirlər (innovasiya fəaliyyətinin maliyyələşdirilməsi üçün büdcədənkənar vəsaitlər dövlət və qeyri-dövlət mənbələrindən cəlb edilir).

Təşkilat innovasiya fəaliyyətini təkcə kənardan cəlb edilən maliyyə vəsaitləri hesabına deyil, həmçinin öz şəxsi vəsaitləri hesabına da həyata keçirə bilər. Təşkilatların innovasiya fəaliyyətinin maliyyələşdirilməsinin vacib daxili mənbələri amortizasiya ayırmaları fondu və istehsalın inkişaf fondudur.

Amortizasiya ayırmaları fondu adətən innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün lazım olan yeni avadanlıq, texnika və s. əldə edilməsi zamanı müəssisənin əsas daxili mənbəyidir.

İstehsalın inkişaf fondu sosial təyinatlı digər fondlar kimi müəssisənin sərəncamında qalan mənfəətin hesabına təşkil olunur. Bu fondun təşkili qaydası, ayırmaların norması müəssisə tərəfindən müstəqil olaraq müəyyənləşdirilir.

İnnovasiya fəaliyyətinin investorların vəsaitləri hesabına maliyyələşdirilməsi kredit investisiyaları, innovasiya fəaliyyəti subyektləri tərəfindən emitasiya edilən qiymətli kağız investisiyaları (səhmlər, istiqraz, veksel); pul, qiymətli kağız, əsas fond formasında qoyuluşlar; lizinqdən və investisiyaların digər cəlbedilmə üsullarından istifadə etmək yolu ilə həyata keçirilir.

Qiymətli avadanlığın, nəqliyyat vasitəsinin, enerji qurğuları, kompyuter və telekommunikasiya texnikasının alınmasını tələb edən innovasiyanın həyata keçirilməsi zamanı əlavə vəsaitlərin cəlb olunması üçün adətən lizinqdən istifadə edirlər. İnnovasiya fəaliyyətinin həyata keçirilməsi üçün lazım olan əsas fondların əldə edilməsinin effektli yollarının axtarışı vacib idarəetmə vəzifəsi olmağa başlayır.

Lazım olan maşın və avadanlığı əldə etməyi arzulayan hər bir müəssisə bunu iki üsulla edə bilər: onları ya şəxsi və ya borc vəsaitləri hesabına almaq, yaxud icarəyə götürmək. Sonuncu üsulun reallaşdırılması üçün (yəni əsas fondların icarəsi) innovasiya fəaliyyətinin lizinq növü həyata keçirilir.

Lizinq ideyasının yeni olmamasına baxmayaraq (çoxları onu Aristotelin təxminən e.ə. 350-ci ildə yazdığı "Zənginlik müllkiyyət hüququnda deyil, istifadədədir" traktatında müəyyən etmişdir), lakin yalnız son zamanlar istehsalçı və bahalı avadanlıq və digər əsas fondların istifadəçisi arasında əlaqənin yeni növü kimi lizinq geniş inkişaf tapmışdır. Hal-hazırda lizinq xidmətləri bazarı bir çox ölkələrdə ən tez inkişaf edən bazarlardandır. Belə ki, ABŞ-da maşına və avadanlıqlara edilən maliyyə qoyuluşlarının dörddə birindən çoxu lizinqin payına düşür.

Lizinqin iqtisadi kateqoriya kimi əsas xüsusiyyəti mülkiyyət funksiyalarının bölünməsi - əmlakın istifadə edilməsinin sahiblikdən ayrılmasıdır. Bu bəzən lizinq xidmətləri bazarının tez inkişafını izah edir, belə ki, dünyada şirkətlərin əksəriyyəti hesab edir ki, onların vəzifəsi nəsə istehsal etmək məqsədilə əsas fondları yığmaq deyil, istehsal etməkdir. Buna görə də avadanlığın icarəsi daha çox istifadə edilir.

Bir sıra tədqiqatçılar qeyd edirlər ki, bir çox ölkələrdə lizinqin sürətli inkişafına innovasiya sahibkarlığının inkişafı təsiri altında maliyyələşdirmə fəlsəfəsinin dəyişilməsi səbəb olur. Banklar daha çox müəssisələrin keçmiş nailiyyətləri və mövqeyinə əsasən onun inkişaf perspektivlərini, mümkün uğurlarını nəzərə alaraq kredit verirlər [1,3,5].

Lizinqin əsas formaları daxili lizinq (müqavilənin hər iki tərəfi RF rezidentidir) və beynəlxalq lizinqdir (tərəflərdən biri - qeyri-rezidentdir).

Qeyd etmək lazımdır ki, beynəlxalq lizinq innovasiya müəssisəsi üçün səmərəli əməkdaşlıq forması ola bilər, belə ki, bu zaman istehsalın yenidən təşkili və onun daha effektli texnologiyaya ötürülməsi və beynəlxalq bazarın tələblərinə cavab verən yeni məhsulun buraxılması üçün xarici valyutada iri vəsaitlərin ilkin ayrılması tələb olunmur. Lazım olan əsas fondların əldə olunması üçün çəkilən xərclərin hamısı yeni texnologiyanın əldə edilməsinin birinci mərhələsində lizinq şirkəti (icarəyə verən) tərəfindən ödənilir.

Lizinqin əsas tiplərinə aiddir: uzunmüddətli lizinq (3 və ya daha artıq il ərzində həyata keçirilən lizinq); ortamüddətli lizinq (il yarımdan 3 ilə qədər həyata keçirilən lizinq); qısamüddətli lizinq (il yarımdan az müddətdə həyata keçirilən lizinq).

Lizinqin əsas növlərinə operariv lizinq, maliyyə lizinqi və qayıdış (geri qayıdan) lizinqi aiddir.

Operativ lizinq onunla xarakterizə olunur ki, burada lizinq verilən avadanlığın lizinq müddəti onun normativ işləmə müddətindən az olur. Bu zaman lizinq götürənə icarəyə götürülən əmlakın xidməti, təmiri, sığortası üzrə geniş xidmətlər təqdim edilir.

İcarə müddəti bitdikdən sonra opertaiv lizinq predmeti təkrar olaraq digər istifadəçiyə icarəyə verilir, lakin artıq daha ucuz qiymətə. Buna görə də qismən köhnəlmiş avadanlıq bazarının (second-hand) olması operativ lizinqin uğurlu həyata keçirilməsinin şərtlərindən biridir. Hesablama texnikasının operativ lizinqi daha geniş yayılmışdır.

Maliyyə lizinqi operativ lizinqdən fərqli olaraq maşın, avadanlıq, nəqliyyat vasitəsi və s. təkrar icarəsini nəzərdə tutmur.

Maliyyə lizinqi müqaviləsinə əsasən investor (icarəyə verən) müqavilədə göstərilmiş əmlakı müəyyən satıcıdan əldə etməli və ödənişli əsasla icarəyə götürənin (lizinq alanın) müvəqqəti istifadəsinə verməlidir. Bu formada lizinqə verilmiş əmlakın müddəti onun işləmə müddətinə (tam amortizasiya müddətinə) yaxın olur və ya onu ötür.Maliyyə lizinqinin predmeti tərəflərin razılığı ilə lizinq verənin və ya lizinq alanın balansında nəzərə alınır.

Maliyyə lizinqi əməliyyatlarında üç tərəf iştirak edir:

1. Avadanlığın istehsalçısı, alqı-satqı müqaviləsi bağlayaraq avadanlıq üzərində mülkiyyət hüququnu itirir.

2. İcarəyə verən (lizinq şirkəti), istehsalçı ilə satqı müqaviləsi bağlayaraq avadanlığın mülkiyyətçisi olur.

3. İcarəyə götürən (adətən innovasiya təşkilatı), lizinq müqaviləsinin müddəti bitdikdən sonra mülkiyyət hüququ ona keçir.

Geri qaytarılan lizinq - maliyyə lizinqinin bir növüdür, bu zaman lizinq predmetinin satıcısı (təchizatçısı) eyni zamanda lizinq alan kimi də çıxış edir.

Sublizinq - lizinq predmetinin istifadə hüququnun üçüncü şəxsə güzəşt edilməsi ilə bağlı yaranan münasibətlərin xüsusi növüdür ki, bu da sublizinq müqaviləsi ilə rəsmiləşdirilir.

Nəticə və təkliflər

İnnovasiya fəaliyyətinin normativ-hüququ tənzimlənməsi elmi-tədqiqat, sınaq-konstruktor və texnoloji işlərin aparılması ilə bağlı müqavilələrə, layihə və kəşfiyyat işlərinin aparılması haqqında müqavilələrə, tikinti müqavilələrinə, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün xidmətlərin göstərilməsi haqqında müqavilələrə, innovasiya risklərinin sığortası müqavilələrinə, investorlarla bağlanılan qanunvericiliklə müəyyən edilmiş digər müqavilələrə əsasən həyata keçirilir. İnnovasiya fəaliyyətinin həyata keçirilməsinin müqavilə əsasının təkmilləşdirilməsi innovasiya layihələrinin idarə olunmasının vacib vəzifələrindəndir.

Beləliklə, innovasiyaların işlənib hazırlama və yayılması proseslərinin idarə olunması innovasiya fəaliyyətinin tənzimlənməsinə sistemli yanaşmanı nəzərdə tutur.

ƏDƏBİYYAT

1. Tağıyev A.H., Səfərov Q.Ə. “İnnovasiya layihələrinin menecmenti”. Bakı-2013.
2. Зверев А.В. «Формирование национальной инновационной системы мировой опыт и российские перспективы» автореф. дис. докт экон. наук. Москва- 2009.
3. Гармашова Е.П. «Развитие теории инновационных процессов» // Е.П.Гармашова // Молодой ученый, 2011, №2.
4. Бекотов Н.В. «Современные тенденции развития науки и инновационной деятельности» Проблемы современной экономики, -2007 №3.
5. Егоров А.А. «Условия формирования инновационного потенциала и их реализация в экономике России // Человеческий потенциал и конкурентоспособность России. Челябинск-2005.
6. www.economy.gov.az
7. www.eu.int
8. www.naukom.ru

Туркан Али кызы Шейдаи
АГНПУ

Механизмы эффективной организации и управления инновационной деятельности

Резюме

В статье рассматриваются исследовательские работы по эффективной организации инновационной деятельности развитых стран, анализируются механизмы эффективного управления инновациями.

В заключении статьи научно обосновывается роль основных направлений государственной политики в эффективной организации деятельности предприятий ненефтяного сектора нашей страны, показаны достигнутые экономические результаты.

Ключевые слова: инновация, метод, предприятие, управление, инвестиции, финансы.

Turkan Ali Sheydai
ASOIU

Mechanisms of effective organization and management of innovation activities

Summary

The article examines the research works dedicated to effective organization of innovative activities in developed countries, analyses the mechanisms of effective management of innovations.

A key role of the main directions of the government policy towards the effective organization of activity of enterprises of non-oil sector of our country and the economic results achieved due to the policy are discussed at the end of the article.

Key words: innovation, method, enterprise, management, investment, finance.

UOT 005-027.21

Rəşad SƏFƏROV
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

İNNOVASİYALI İDARƏETMƏNİN XXI ƏSR MENECMENTİNİN FORMALAŞMASINA TƏSİRLƏRİ

Xülasə

Məqalədə bazar münasibətləri şəraitində iqtisadi artımın təmin edilməsində iqtisadi fəaliyyət növlərinə görə məhsul innovasiyalarının, texnoloji innovasiyaların ölkə iqtisadiyyatına təsirləri və innovasiyalı idarəetmədə yeni idarəçilik üsullarından istifadənin tədqiqi əks etdirilmişdir.

Açar sözlər: menecment, innovasiya, idarəetmə

Giriş

Təsərrüfatçılığın bazar münasibətlərinə əsaslanan sistemində yeni texnologiyalardan, mütərəqqi istehsal və idarəçilik üsullarından istifadə inkişaf etmiş ölkələrin menecment təcrübəsində mühüm əhəmiyyət kəsb edir.

Bu kontekstdə ölkə iqtisadiyyatının prioriteti menecmentin təşkilati-hüquqi formalarında yeni iqtisadi inkişaf modellərinə uyğun innovasiyalı idarəetməsinin formalaşdırılmasıdır.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar ölkə iqtisadiyyatında struktur dəyişikliklərin dərinləşməsi, xüsusi mülkiyyətə əsaslanan menecmentin təşkilati-hüquqi formalarının inkişafının sürətlənməsi, eyni zamanda innovasiya amilinin iqtisadi artım proseslərinə təsirinin artması, innovasiyaların tətbiqinə olan tələbin əhəmiyyətli dərəcədə genişlənməsinə təkan vermişdir.

İnnovasiyanın məzmunu və yenilik səviyyəsinə görə ölkə iqtisadiyyatına təsirləri

Ölkəmizdə iqtisadi artımın təmin edilməsi, özəl sektorun inkişafı üçün əlverişli iqtisadi bazanın yaradılması, bazar münasibətlərinin tələblərinə cavab verən innovasiya siyasətinin müəyyən edilməsindən və onun həyata keçirilməsindən xeyli dərəcədə asılıdır.

İnnovasiyalı idarəetmə müasir iqtisadi inkişafda yeniliklərin hazırlanması, tətbiq olunması, o cümlədən istifadə edilməsi kimi cəhətləri özündə birləşdirdiyi üçün, bu gün menecmentin istənilən təşkilati-hüquqi formasının inkişafını innovasiyasız təsəvvür etmək qeyri-mümkündür. Azərbaycan iqtisadiyyatı da sürətli şəkildə dünya iqtisadiyyatına inteqrasiya olunduğu üçün təsərrüfatçılığın təşkilati – iqtisadi mexanizminin dəyişilməsi ilə iqtisadiyyatın intellektləşməsi müşahidə olunur.

İntellektual inkişaf innovasiyalı idarəetmədə yeni idarəçilik üsullarından istifadəni, istehsal üçün mühüm əhəmiyyət daşıyan yeni məhsul növlərinin işlənib hazırlanmasını, fundamental tədqiqatların maliyyələşdirilməsini, yeni ekoloji təmiz texnologiyalardan istifadəni zərurətə çevirmişdir.

Onu da qeyd etmək lazımdır ki, dünyada innovasiya məhsullarına tələbat daim artır. İnkişaf etmiş ölkələrin təcrübəsində yeni metodların, texnologiyaların istehsala tətbiqi ilə rəqabətqabiliyyətli məhsul istehsal edilməsi menecmentin təşkilati-hüquqi formalarında innovasiyalı idarəetmənin əhəmiyyətini artırır.

“İnnovasiya” anlayışı (ingiliscədən innovation) mənaca “yeni tətbiq” sözünün oxşarıdır, eyni zamanda “yenilik” sözünün sinonimi olub onunla birlikdə istifadə olunur. İnnovasiya müəssisələrin fəaliyyətinin səmərəliliyini artırdığına görə və inkişafına imkan yatardığına görə ona yaradıcı, inkişafetdirici, yeniliklərdən istifadəedici proses kimi baxılır. İnnovasiya o zaman həyata keçirilmiş hesab olunur ki, onun elmi-texniki yeniliyi olsun, istehsal prosesinə tətbiq edilsin və bazarda reallaşdırılsın [2, 4].

"İnnovasiya" anlayışı ilk dəfə XIX əsrdə mədəniyyətşünaslar tərəfindən elmə gətirilsə də XX əsrin başlanğıcında müxtəlif tədqiqatçılar tərəfindən texniki innovasiyaların öyrənilməsinə başlanmışdır [3, 10].

"Elmi-Texniki Tərəqqi" lüğətində innovasiya yeni məlumat növlərinin, texnologiyaların, yeni təşkilati formaların tətbiqinin və s. işlənib hazırlanmasına, yaradılmasına yönəldilmiş yaradıcılıq fəaliyyətini ifadə edir.

Filosoflar innovasiyanı yeni biliklərdə ziddiyyətlərin baş verməsi nöqteyi-nəzərindən tədqiq etmişlər.

1992-ci ildə qəbul edilmiş və "Olso rəhbərliyi" adı almış beynəlxalq normalara əsasən texnoloji innovasiyaların bazar iqtisadiyyatı şəraitində sistemli təsviri metodologiyası hazırlanmışdır. Bu metodologiyaya əsasən innovasiya o zaman həyata keçmiş sayılır ki, istehsal prosesində tətbiq edilsin və bazarda reallaşdırılsın. [4]

"İnnovasiya" anlayışı müxtəlif alimlərin tədqiqatlarında öz tədqiqat obyektləri və predmetlərindən asılı olaraq proses kimi, dalğavari fəaliyyət kimi, sistem kimi, dəyişmə kimi və nəticə kimi şərh olunmuşdur [5, 243].

V.N.Lapin innovasiya dedikdə insanların tələbatını ödəmək məqsədi ilə yeni istehsal prosesinin təcrübədə kompleks həyata keçirilməsi və genişləndirilməsini nəzərdə tutur [6, 98].

E.A.Utkin qeyd edir ki, yeni keyfiyyətli məhsul və ya xidmət özündən əvvəlki mala görə yüksək texnoloji səviyyəliliyi ilə xarakterizə olunur [6, 99].

A.İ.Priqojin hesab edir ki, yeniliklər texnika və texnologiyanın inkişafı, onların yaranması, mənimsənilməsi və digər obyektlərə diffuziyasının idarə edilməsi şəklinə düşür [7, 29-30].

Tədqiqatçılardan İ.B.Qurkov aşağıdakı üç böyük innovasiya tiplərini fərqləndirir [8, 9]:

1. İnzibati və texnoloji innovasiya
2. Məhsul və prosesli innovasiya
3. Radikal innovasiyalar

İnzibati innovasiya - təşkilati quruluş və inzibati proseslərdəki dəyişikliklərə aiddir və firmanın idarəetməsi ilə birbaşa əlaqədardır.

Texniki innovasiya - məhsul istehsalı və ya xidmət göstərilməsi, tətbiq edilən məhsul, proses və texnologiyaya daxil edilir.

Məhsul innovasiyası - müəssisədə xidmət və malların dəyişilməsinin müştərilərin xeyrinə reallaşdırılmasıdır.

Prosesli innovasiya - alətdə, qurğuda və bilikdəki dəyişikliklərin prosesdəki nəticəsinin, xammalın nəticəsindən faydalı nəticələrə keçməsidir.

Radikal innovasiya təşkilati fəaliyyətdə fundamental dəyişikliyi üzərinə götürür və təcrübədə çətinləşən dəyişikliyin görüntüsünü təhrik edir.

İnnovasiya tədqiqatçılarının fikirlərindən göründüyü kimi, innovasiya inzibati, texniki, məhsul, proses və radikal tətbiqdə baş verən yeniliketmə nəticəsində meydana gəlir. İnnovasiyanı başqa sözlə ifadə etsək, innovasiya yeniliketmənin tətbiqi ilə əldə edilən iqtisadi, sosial, ekoloji və elmi-texniki səmərədir, son nəticədir.

Ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrinin innovasiya fəaliyyətinə diqqət yetirək. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən sənayemizdə innovasiya məhsulu yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə iki yerə bölünür.

1. Əhəmiyyətli dəyişikliyə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsul.
2. Təkmilləşdirilmiş məhsul.

Cədvəl 1.

Əhəmiyyətli dəyişikliyə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun həcmi, min manatla

Amillər	2013	2014	2015
Sənaye – cəmi	11634	12319	929.7
Mədənçıxarma sənayesi	325.9	-	-
Emal sənayesi	11308	12319	929.7

Cədvəl: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sənaye müəssisələrində əhəmiyyətli dəyişikliyə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun həcmi Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən emal sənayesinin payına düşmüşdür. Emal sənayesində qeyd olunan məhsul innovasiyaları əsasən içki istehsalı, toxuculuq sənayesi, kimya sənayesi, tikinti materiallarının istehsalı, kompyuter və digər elektron avadanlıqların istehsalı, elektrik avadanlıqlarının istehsalı, maşın və avadanlıqların istehsalı, quraşdırılması və təmiri sahələrini əhatə etmişdir (cədvəl 1).

Cədvəl 2.

Təkmilləşdirilmiş innovasiya məhsulunun həcmi, min manatla

Amillər	2013	2014	2015
Sənaye – cəmi	883.1	1118	589.7
Mədənçıxarma sənayesi	-	-	-
Emal sənayesi	883.1	1118	589.7

Cədvəl: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Ölkə sənayesi üzrə 2015-ci ildə innovasiya məhsulunun həcmində təkmilləşdirilmiş məhsulun həcmi 589,7 min manat olmuşdur ki, bu da bütövlükdə emal sənayesinin inkişafı hesabına əldə olunmuşdur. Təkmilləşdirilmiş innovasiya məhsulu ölkədə kimya sənayesi, maşın və avadanlıqlar istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri hesabına istehsal olunmuşdur.

Bildiyimiz kimi, bütün zamanlarda istehsalın effektivliyinin yüksəldilməsi həmişə elmi-texniki tərəqqinin inkişafı ilə bağlı olmuşdur. Belə ki, elmin, texnikanın müasir yeniliklərinin istehsala tətbiqi istehsalın effektivliyinin və məhsulun keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərir.

Bu baxımdan ölkə sənayesində texnoloji innovasiyaların maliyyələşməsinə diqqət yetirək. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən innovasiyanın tiplərinə görə sənayedə texnoloji innovasiyaların dinamikasında artım müşahidə olunmaqdadır. Belə ki, bütün sənaye üzrə məhsul innovasiyalarına 2013-cü ildə 11899 min manat, 2014-cü ildə 13510 min manat, 2015-ci ildə isə 13684 min manat xərc çəkilmişdir.

Bu inkişaf dinamikası proses innovasiyalarında da özünü göstərməkdədir. Ölkə sənayesində proses innovasiyalarına 2013-cü ildə 1978 min manat, 2014-cü ildə 8024 min manat və 2015-ci ildə 21495 min manat xərc çəkilmişdir.

Sənayedə texnoloji innovasiyalara çəkilən xərclərin dinamikasına diqqət yetirdikdə məlum olur ki, ölkə iqtisadiyyatı innovasiyalı idarəetməni həm məhsul, həm də proses innovasiyalarına çəkilən xərclərin hesabına inkişaf etdirmişdir. Sənayenin ayrı-ayrı sahələrində texnoloji innovasiyalara çəkilən xərcləri araşdırsaq məlum olar ki, məhsul və proses innovasiyaları emal və mədənçıxarma sənayesi müəssisələrində həyata keçirilmişdir.

Cədvəl 3.

İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər, min manat

	2013	2014	2015
Bütün sənaye	**13877**	**21534**	**35179**
Məhsul innovasiyaları	11899	13510	13684
Proses innovasiyaları	1978	8024	21495
Mədənçıxarma sənayesi	**8197**	**4133**	**2671**
Məhsul innovasiyaları	8052	3987	2527
Proses innovasiyaları	144.5	145.6	142.5
Emal sənayesi	**4066**	**17384**	**32493**
Məhsul innovasiyaları	3847	9523	11157
Proses innovasiyaları	219.3	7861	21336
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	**1614**	**17.0**	**15.1**
Məhsul innovasiyaları	-	-	-
Proses innovasiyaları	1614	17.0	15.1

Cədvəl: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Yuxarıdakı statistik təhlil göstərir ki, sənaye müəssisələrində innovasiya məhsullarının tətbiqinə ilbəil çəkilən xərclər artım dinamikası ilə özünü göstərir. Bu da onunla əlaqədardır ki, ölkəmizdə dövlət tərəfindən innovasiya fəaliyyəti dəstəklənir və münbit şərait yaradılmışdır.

İnnovasiyalı idarəetmənin formalaşdırılmasında innovasiya layihələrinin qiymətləndirilməsi

Bildiyimiz kimi, bu gün mülkiyyət formalarının və sahibkarlığın müxtəlif növlərinin mövcudluğu şəraitində innovasiya layihələrindən səmərəli istifadə edilməsində rəqabət getdikcə dərinləşir. Belə şəraitdə rəqabətə tab gətirmək üçün innovasiya layihələrinin seçilməsi innovasiyalı idarəetmənin əhəmiyyətli amilinə çevrilmişdir.

İnnovasiya layihələrinin seçilməsi üçün əldə edilmiş təmiz gəlirdən əlavə ödənmə dövrü ($T_ö$); ödənmə müddəti (Pö); gəlirliyin daxili norması (Gd); rentabellik (R) kimi göstəricilərdən istifadə etmək olar.

Ödəmə dövrü – bu göstərici innovasiya layihəsinə qoyulan investisiyanın nə qədər vaxta ödənəcəyini göstərir.

Beynəlxalq təcrübədə ödəmə müddəti əsas götürülür. Ödəmə müddəti dedikdə, investisiyanın yerinə yetirilməsi zamanı diskontlaşdırılmış təmiz gəlirin məbləğinin investisiya məbləğinə bərabər olduğu müddətin (periodun) davamlılığı başa düşülür.

Gəlirliliyin daxili norması – faizin hesablanma dərəcəsidir. Bu daimi olaraq gəlir əldə edən kapitallaşma investisiyaya bərabərdir. Bu o deməkdir ki, investisiya ödənilir.

Gəlirliliyin daxili norması 15-20%-dən az olmayan layihələrin seçilməsi tövsiyə olunur.

Rentabellik (R) layihənin reallaşdırılmasında xərclər və səmərəliliyin qarşılıqlı əlaqəsi kimi müəyyən olunur. Təcrübədə innovasiya layihələrinin qiymətləndirilməsi əldə edilmiş gəlirin investisiya xərclərinə münasibətini nəzərə alır. Qərb ədəbiyyatında bu göstərici gəlirlilik indeksi adlanır.

İnnovasiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsi zamanı investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsi və onların maliyyələşməsi üçün metodiki tövsiyələr rəhbər tutulur. İnnovasiya layihələrinin səmərəliliyi göstəricisi ümumi səmərəlilik əmsalı formulu ilə hesablanmalıdır. Bu formula aşağıdakı kimidir:

$$S = \frac{E}{X}$$ (birbaşa göstərici)

$$S = \frac{X}{E}$$ (əks göstərici)

E – layihənin reallaşmasından alınan səmərə (nəticə)

X – layihənin reallaşdırılması ilə bağlı xərclər

Layihənin seçilməsi xərcləri kriteriyaya görə onun reallaşdırılması xərclərindən az ola bilər.

İnnovasiya layihələrini seçən zaman riskin aşağı salınması imkanlarına da diqqət yetirilməlidir.

Bir neçə mövcud variantdan yalnız səmərəlilisi daha az xərc tələb edəndir.

$$X = V + SnCi = min$$

Burada:

X – hər bir variant üzrə gətirilmiş xərclər,

V – həmin variant üzrə istehsal xərcləri,

Sn – kapital qoyuluşlarının səmərəlilik normativi,

Ci – həmin variant üzrə investisiya.

Planlı iqtisadiyyatda Sn kəmiyyəti mərkəzləşdirilmiş qaydada müəyyən olunurdu. Bazar iqtisadiyyatında isə hər bir müəssisə bunu özü müəyyənləşdirir. Müəssisə faiz dərəcəsi səviyyəsində investisiyanın rentabelliyi normativini (Rn) müəyyənləşdirməlidir. Buna uyğun olaraq gətirilmiş xərcləri aşağıdakı kimi göstərmək olar.

$$X = V + İ * Ci = min \quad \text{və ya} \quad X = V + Rn * Ci = min$$

Bundan sonra innovasiyalara qoyulan müvəqqəti dövrü xarakterizə edən əlavə investisiyanın ödənmə dövrü hesablanır. Bu innovasiyanın daha başa gələn variantı üzrə əlavə investisiya xərcləri innovasiyanın reallaşdırılması ilə şərtləndirilmiş iqtisadi nəticələrin artımı hesabına ödənilir.

Ödəmənin hesablanması müddəti (Tp) aşağıdakı formula ilə müəyyən olunur

$$T_ö = \frac{C_2 - C_1}{X_1 - X_2}$$

C_1 və C_2 – müvafiq olaraq müqayisə olunan variant üzrə innovasiyadakı investisiya

X_1 və X_2 – birinci və ikinci varianta müvafiq olan illik xərcləri göstərir.

Ödəmə dövrünün hesablanmış nəticəsinin variantinin seçilməsi üçün $T_ö$ özünün normativ kəmiyyəti ilə müqayisə olunur.

$$T_N = \frac{1}{S}$$

İnnovasiyaya əlavə investisiya qoyuluşları o zaman özünü doğruldur ki, onların ödənməsinin hesablanma müddəti normativ nəticədən çox olmur. $T_ö < T_n$ olduqda daha səmərəli variant seçilir.

Ödənmə müddətinin əks həcmi özündə innovasiyalara əlavə investisiya qoyuluşunun səmərəlilik əmsalını və ya müqayisəli səmərəlilik əmsalını - Sə əks etdirir. Bu göstərici belə hesablanır.

$$S_ə = \frac{\Delta C}{\Delta K}$$

Sə - səmərəlilik əmsalının hesablanmış nəticəsi investorun kapital üzrə gəlir normasını təmin edən müvafiq həcmlə (Sn) müqayisə olunur. Əgər Sə > Sn olarsa onda innovasiyalara əlavə investisiyalar qoyulması və buna müvafiq olaraq daha investisiya tutumlu variant səmərəli olur.

Bu cəhətdən innovasiya layihələri variantlarının seçilməsi zamanı yalnız müqayisə olunan variant üzrə dəyişən dəyər hissəsini nəzərə alan müqayisəli iqtisadi səmərəlilik göstəricilərindən istifadə olunur.

Belə göstəricilər kimi aşağıdakılar çıxış edir:

- gətirilmiş xərclər;
- innovasiyalara əlavə investisiyaların ödənmə müddəti;
- innovasiyalara əlavə investisiyaların səmərəlilik əmsalı.

Məsələn, məlumat istehsalı texnologiyasının kəşf olunmuş üç variantından daha səmərəli variantı seçək.

Göstəricilər	**Variantlar**		
	1	**2**	**3**
İnvestisiya (mln.manat)	33600	38700	20800
Hər məmulata istehsal xərci (mln.manat)	24700	25800	24800
İstehsalın illik həcmi (min ədəd)	800	2200	3600

Həlli: Gətirilmiş xərclər metodundan istifadə etməklə aşağıdakı göstərici üzrə göstərilən kəşfin daha səmərəli variantını müəyyən edək:

$$V + SnC$$

Burada: V – məmulatın illik istehsal xərcini

C – investisiyanı

Sn – iqtisadi səmərəlilik əmsalını (0,1-ə bərabər qəbul edək) göstərir.

1-ci variant – (24700 x 800) + 0,1 x 33600 = 19763360 manat

2-ci variant – (25800 x 2200) + 0,1 x 38700 = 56763870 manat

3-cü variant – (24800 x 3600) + 0,1 x 20800 = 89282080 manat

Nəticə: Kəşfin istifadəsi üçün təklif olunan daha səmərəli variant 1-ci variantdır. Çünki daha az xərc tələb edir (9, 409-411).

Nəticə

Beləliklə, innovasiyalı idarəetmə innovasiya proseslərinin yalnız iqtisadi məzmunu ilə deyil, həmçinin ümummilli əhəmiyyəti ilə izah olunur. Bununla belə bazar münasibətləri şəraitində, sahələrin böyük əksəriyyətində rəqabət elementlərinin üstünlük təşkil etdiyi bir zamanda elm və texnikanın müasir nailiyyətləri innovasiyalı idarəetməsiz və dövlətin müdaxiləsi olmadan tam istifadə oluna bilməz.

Birincisi, ayrı-ayrı müəssisələr qiymətli innovasiya layihələri və iqtisadi səmərə verməyən böyük elmi-tədqiqat işləri aparmağa qadir deyillər.

İkincisi, bir çox elmi nailiyyətlər yalnız irimiqyaslı tətbiqetmə şəraitində və buna müvafiq bazarın olduğu halda səmərəli ola bilər.

Üçüncüsü, elə innovasiyalar vardır ki, onlar tamamilə kommersiya ölçüsünə malik ola bilməzlər. Bunlara fundamental, soaial, ekoloji, hərbi və s. tədqiqatlar aid edilir.

Dördüncüsü, innovasiyalardan alınan iqtisadi səmərə ayrı-ayrı müəssisələrin fəaliyyətinin nəticələri ilə müəyyən olunur. Mikro səviyyədə layihənin tam səmərəliliyini əvvəlcədən qiymətləndirmək və onun həyata keçirilməsinin məqsədəuyğunluğu haqda əsaslandırılmış qərar qəbul etmək çox çətindir.

Bütün bu cəhətlər innovasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi ilə xarakterizə olunur. Aydındır ki, dövlət həmişə innovasiya proseslərinin tənzimlənməsinə qayğı göstərməlidir. Bu baxımdan Respublikamızda innovasiya proseslərinin dövlət tənzimlənməsi mexanizmi aşağıdakılar ola bilər:

- İnnovasiya fəaliyyətinin koordinasiyası;
- İnnovasiyanın stimullaşdırılması;
- İnnovasiya proseslərinin hüquqi bazasının yaradılması;
- İnnovasiya proseslərinin regionların xüsusiyyətlərinə uyğun tətbiq olunmasının tənzimlənməsi.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2015.
2. Завлина П.Н., Казанцев А.К., Миндели Л.Э. Основы инновационного менеджмента: Теория и практика: Учеб. Пособие. М.: ОАО «НПО» Экономика, 2000, 475 с.
3. Кокурин Д.И. Инновационная деятельность. М.: Экзамен, 2001, 576 с.
4. http://www.economicus.com.ua/. Статистика науки и инноваций: Краткий терминологический словарь / Под ред. Л. М. Гохберга. М.: ЦИСН, 1996.
5. Ravichandran T. Redefining Organizational Innovation: Towards Teoretical Advancements // Journal of High Technology Management Research, 2000, № 10 (2), 243-274.
6. Бездудный Ф.Ф., Смирнова Г.А., Нечаева О.Д. Сущность пониятия инновации и его классификация // Инновации, 1998, № 2-3 (13), с.98-99.
7. Пригожин А.И. Нововведения: стимулы и препятствия. М.: Политиздат, 1989, 271 с.
8. Гурков И.Б. Инновационное развитие и конкурентоспособность. Оцерки развития Российских предприятий. Москва.: ТЕИС 2003, 236 с.
9. Медынский В.Г., Скамай Л.Г. Инновационное предпринимательство. М.: ЮНИТИ, 2002, 589 с.

Рашад Сафаров
доктор философии по экономике, доцент
Азербайджанский Государственный
Экономический Университет

Воздействие инновационного управления на формирование менеджмента XXI века

Резюме

В статье отображены воздействия на экономику страны инновации продуктов и технологий по видам экономической деятельности в обеспечении экономического роста в условиях рыночных отношений, и исследование использования новых методов управления в инновационном управлении.

Ключевые слова: менеджмент, инновация, управления.

Rashad Safarov
PhD in economics, docent
Azerbaijan State University of Economics

The effects of innovative management on the formation of the XXI-century management

Summary

The article features the effects of product innovations and technological innovations per types of economic activities in provision of economic progress in the condition of market relations on the economy of the country and the study of using new management methods in innovative management.

Key words: management, innovation and management.

UOT 336.01

Əli Hüseynağa oğlu SƏLİMOV
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti

QAZMA İŞLƏRİ SAHƏSİNDƏ İNNOVASİYA SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN HƏLLİ YOLLARI

Xülasə

Məqalədə qazma işləri sahəsində innovasiya səmərəliliyinin qiymətləndirilməsinin həlli yolları öyrənilir və tədqiq edilir.

Məqalədə eyni zamanda,qazmanın səmərəliliyini daxili imkanlar hesabına tapmaq üçün rejim parametrləri arasında ən münasib və əlverişli qarşılıqlı əlaqəni araşdırıb tapmaq və bunların qazma aləti və avadanlığa olan təsirlərini müəyyənləşdirmək üçün innovativ səmərəliliyin qiymətləndirilməsi üsulları araşdırılır və təhlil edilir.

Məqalənin sonunda qazma işləri sahəsində innovasiya səmərəliliyinin qiymətləndirilməsi elmi cəhətdən əsaslandırılır və buna uyğun nəticə və nəkliflər irəli sürülür.

Açar sözlər: innovasiya, indeks, parametr, səmərəlilik.

Giriş

Müasir şəraitdə neft-qazçıxarma sənayesində qazma işlərinin innovasiya əsasında təşkilinin səmərəliliyinin qiymətləndirilməsi problemləri ilə yanaşı, innovasiya prosesinin ona təsiri yolları göstərilir. Ölkə iqtisadiyyatının inkişafının stimullaşdırıcı amillərindən biri də elmi-tədqiqat işlərində innovasiyanın tətbiqi və onun iqtisadi səmərəliliyinin qiymətləndirilməsidir.İnnovasiya yeni maddi, qeyri-maddi və maliyyə ehtiyatlarının əldə olunması üçün mövcud resurslardan istifadə olunmasını xarakterizə edir. Daha geniş mənada isə innovasiyalar iqtisadi artımı, həmçinin ölkədə iqtisadi inkişafın əldə olunması məqsədi ilə zəruri maliyyə ehtiyatlarının formalaşması mexanizmini təmin edən iqtisadi təsir mexanizmi kimi də xarakterizə oluna bilər. İnnovasiyanın mahiyyətinin daha dəqiq müəyyənləşdirilməsində müxtəlif yanaşmalar böyük maraq doğurur.

Elmi inkişafın əsas amillərindən olan modellərin işlənməsi və istifadəsi

Elmi inkişafın əsas amillərindən olan modellərin işlənməsi və istifadəsi zamanı genişlənib sərbəstləşən indiki mərhələdə sahə elminin inkişaf etməsini modellərsiz qəbul etmək qeyri- mümkündür. [8]

Qazma prosesində problemlərin həllində innovasiya texnologiyalarının tətbiqi nəzəri baxımdan müsbət dəyişmə baş verərsə və onun xüsusi çəkisini (φ_n) və yeni ideyanın real tətbiqi nəticəsində alınan müsbət dəyişikliyi φ_r qəbul etsək, onda dəyişmə səviyyəsini $\Delta\varphi$ tapmaq olar, yəni [4]

$$\Delta\varphi = \varphi_n - \varphi_r, \qquad (1.1)$$

(1.1) düsturundan aydın görünür ki,investisiya texnologiyasının tətbiqi nəticəsində real dəyişmə səviyyəsi (φ_r) artır və bu artım səviyyəsi aşağıdakı kimi olur:

$$\varphi_r = 1-\Delta\varphi, \qquad (1.2)$$

Bu, riyazi statistika metoduna əsaslanan orta ədədi hesablamadır. Yəni, əgər (φ_n-1) olsa, onda (φ_n-φ_r) və $\Delta\varphi$ eyni artımdır. İfadələrdən görünür ki, artım bərabər paylanandır, yəni seçmə funksiyanın tələblərinə cavab verir. Mahiyyətinə görə, ifadələr qiymətləndirmə meyarı funksiyasını yerinə yetirir.

Xüsusi çəki səviyyəsi φ_r-in dəyişməsi quyu keyfiyyətini səciyyələndirən A, B və V qruplarının təsirlərinin xüsusi çəkiləri: λ_A, λ_B, və λ_V dəyişir. Bu o deməkdir ki, quyunun qazma rejiminə olan təsiri dəyişir. Dəyişmələri toplamaqla $\Delta\lambda$-nın hansı səviyyədə dəyişdiyini tapmaq olar:

$$\Delta\lambda = \lambda - (\lambda_A + \lambda_B + \lambda_V), \qquad (1.3)$$

λ_{ABV}< 1 olduğu üçün Δλ azalmasını göstərir. Bu o deməkdir ki, quyunun qazma rejimi parametrləri layihə göstəricilərindən aşağıdır. Bu riyazi şəkildə belə müəyyən edilir:

$$б = \frac{\lambda - \lambda_{ABV}}{\lambda} 1, \qquad (1.4)$$

Düstur (1.4) onu ifadə edir ki, quyu rejiminin λ = 1 halında (1-б) ifadəsi müəyyən edir ki, quyu rejiminin parametrlərinin yaxşılaşdırılması üçün innovasiya texnologiyasının tətbiqi hansı təkamül pilləsindədir.

Qazma sahəsində iqtisadi səmərəlilik problemlərinin həllini müəyyənləşdirən modelin qurulma metodikası

İstehsalatda səmərəliliyi təmin edən ehtiyat mənbələrin aşkara çıxarılması, iqtisadi səmərəlilik problemlərinin həllinin müəyyənləşdirilməsi, istehsaldaxili ehtiyatlardan istifadənin qiymətləndirilməsinin mahiyyəti məsələlərinin həllinin təsiredici hissəsi modellərin payına düşür. Qazma sahəsində iqtisadi səmərəlilik problemlərinin həllini müəyyənləşdirən modelin qurulma metodikası aşağıdakı kimi şərh edilir: [6,7,8]

1. Məsələnin qoyuluşu.
2. Məsələnin həlli üçün ilkin şərhlər və faktlar.

Nəzərə almaq lazımdır ki, model iqtisadi-riyazi tipli məsələdir.Model təbii şəraitin müşahidəsi yolu ilə texniki-iqtisadi problemləri öyrənməlidir. Yəni, müşahidə zamanı aşağıdakılar müəyyənləşdirilməlidir:

- problemlərin tam iqtisadi təbiəti;
- qazma sahələri və istehsal prosesinin ünsürləri (əsas və köməkçi sahələr);
- problemin həllərinin xarakteri və obyektivliyi, və ya subyektiv əlamətlər üzrə formalaşma sferası, təsir göstərdiyi amillər, yəni iqtisadi parametrləri xarakterizə edir.

Modeldə məsələyə quyuların qazılması problemlərinin məcmusu kimi, yəni neftin yer təkindən yerin səthinə qaldırılması proseslərinin obyektiv və subyektiv problemlərinə qruplaşmış formada baxılmalıdır. Çünki qazma prosesində problemlərin əsas vasitəsi təsirdir və həlləri bu təsirin xüsusi çəkisi ilə ölçülür. Həmin təsirləri quyuların qazılması sahələrinin iki ümumiləşdirici probleminin göstəricisində ifadə etmək olar. Bu seçimi belə əsaslandırmaq olar: hər bir qazma prosesi üçün obyekt var və bu obyektin göstəricilərində qazmanın gedişi və xərc elementləri əks olunur. Model qazma obyektlərinin tərkibini müəyyən etməlidir. Başqa sözlə, modelin obyektləri iqtisadi səmərəlilik problemləridir. [4] Həmin problemlər bunlardır:

1. Quyuların qazılmasının keyfiyyətinin yüksəldilməsi;
2. Quyuların qazılmasına xas olan səciyyəvi əlamətlərin mənfi təsirinin minimuma endirilməsi;
3. Quyuların qazılması prosesinə əks-təsir edən maneələrin aradan qaldırılması.

Təklif olunan modelin əsas faktorları

Qeyd olunanların həlli texniki-iqtisadi göstəriciləri yaxşılaşdırır. Onu da qeyd etmək lazımdır ki, ayrılıqda götürülmüş hər bir iqtisadi səmərəlilik problemi fiziki ölçüyə gələ bilir və bu fiziki ölçülər toplanır. Yəni, model qurmada fiziki ölçülərin «təsir göstərmə hərəkəti» öyrənilməlidir. Təklif olunan modelin əsas faktorları bunlardır [8, 9,10]:

- kommersiya sürətləri indeksi ($\dot{I}_1$);
- quyu dərinlikləri indeksi ($\dot{I}_2$);
- qazma məhsullarının məhsuldarlıq indeksi ($\dot{I}_3$);
- qazma dəzgahlarının dövretmə əmsalı ($\dot{I}_4$);
- material məsrəfi indeksi ($\dot{I}_5$);
- qeyri-məhsuldar vaxtın dəyişmə indeksi ($\dot{I}_6$);
- əmək məhsuldarlığının dəyişmə indeksi ($\dot{I}_7$);
- məlum olmayan faktorların xüsusi çəkisi (şərti olaraq □ = 0,2 qəbul edirik).

Belə halda iqtisadi – riyazi modeli aşağıdakı kimi ifadə etmək olar:

$$\mathbf{R} = (\dot{I}_1 + \dot{I}_2 + \dot{I}_3 + \dot{I}_4 + \dot{I}_5 + \dot{I}_6 + \dot{I}_7) \cdot \square , \qquad (1.5)$$

Qazma avadanlığının potensial imkanlarından maksimum istifadə etməklə qazmanın yüksək kəmiyyət və keyfiyyət göstəricilərini təmin edən və asan idarə edilə bilən parametrlərin kombinasiyası səmərəli qazma rejimi adlanır. [5]

Əgər qazma avadanlığı rejim parametrlərinin seçilmiş qiymətlərini təmin edə bilmirsə, elektrik mühərriklərinin gücü tələb edilən həddi ödəyə bilmirsə, ağır qazma borularının uzunluğu layihədə nəzərdə tutulan oxboyu yükü həyata keçirməyə imkan vermirsə, qazma kəmərinin aşağı hissəsinin sərtliyi tələb edilən həddən aşağıdırsa, qazma nasosları lazım olan məhsuldarlıqla işləyə bilmirsə, belə qazma rejimində bütün imkanlardan maksimum istifadə edilməsi çox vacibdir. Bu halda qazmanın keyfiyyət göstəriciləri ön plana çəkilir, qalan göstəricilər isə ikinci dərəcəli əhəmiyyət kəsb edir. Keyfiyyət göstəricilərinə quyu lüləsinin tələb olunan dərinlikdə yan tərəfə kəsilməsi, azimut və əyriliyinin düzəldilməsi, quyu dibindəki kənar cismin qazılması, quyudan süxur nümunəsinin götürülməsi və s. aiddir.Belə ki, qazmada üç rejim parametrləri mövcuddur:

1. Baltaya verilən oxboyu yük (P).
2. Qazma məhlulunun miqdarı (həcmi) Q və keyfiyyəti.
3. Qazma baltasının dövrlər sayı (n).

Qazmanı səmərəli, yaxud optimal rejimdə aparmaq üçün, qazma rejiminə ciddi təsir edə bilən aşağıdakı tələblər hökmən yerinə yetirilməlidir. Əks-təqdirdə yüksək göstəricilərə nail olmaq mümkün deyil.

- Geoloji şərait və qazılacaq süxurların fiziki və mexaniki xassələrini nəzərə almaqla, qazma baltasının düzgün seçilməsi;
- Rejim parametrlərinin düzgün seçilməsi və geoloji-texniki cədvəlin tələblərinin yerinə yetirilməsi;
- Rejim parametrlərinin qiymətlərinin müəyyən edilməsi əsasında qazmanın mexaniki sürətinin artırılması mümkün olur.

Qazmanın səmərəliliyini daxili imkanlar hesabına tapmaq üçün rejim parametrləri arasında ən münasib və əlverişli qarşılıqlı əlaqəni araşdırıb tapmaq və bunların qazma aləti və avadanlığa olan təsirlərini müəyyənləşdirmək lazımdır. Əgər qazılan quyuda balta, qazma aləti, avadanlıq qazmanın optimal rejiminə uyğun seçilmişsə o zaman baltanın bir gedişi müddətində qazmanın mexaniki sürəti ən böyük qiymət alacaqdır. Onda:

1. Qazmanın orta mexaniki sürəti

$$V_m = \frac{h_b}{t_b} \qquad (1.6)$$

Burada,h_b-bir baltanın gedişi, metr ilə;

t_b- bir baltanın quyu dibində yalnız qazmaya sərf etdiyi vaxt, saat ilə.

2. Baltanın gedişi

$$h_b = \int_0^{tb} V_n \, dt_b \qquad (1.7)$$

Qazmanın mexaniki sürətinin baltanın quyu dibində işləmə vaxtından asılılığı aşağıdakı kimi ifadə olunur:

$$V_m = V_0 \cdot e^{-ktb}, \qquad (1.8)$$

V_m–in qiymətini h_b–də yerinə yazıb inteqralı açsaq:

$$h_b = \int_0^{tb} V_0 e^{-ktb} dt = \frac{V_o}{k}(1 - e^{-ktb}), \qquad (1.9)$$

Burada: V_0–balta gedişinin başlanğıc mexaniki sürətidir, m/saat ilə;

k – baltanın dişlərinin yeyilmə sürətini xarakterizə edən əmsaldır;

e – natural loqarifmin əmsalıdır.

3. Balta gedişinin reys sürəti aşağıdakı düsturla ifadə olunur:

$$V_r = \frac{h_r}{t_m + t_k + t_t + t_q + t_{qe}}, \qquad (1.10)$$

Burada: h_r– baltanın bir reysdəki sürətidir, m ilə;

t_m – yalnız mexaniki qazmaya sərf olunan vaxtdır, saat ilə;

t_k – qazma müddətində boru əlavə edilməsinə sərf olunan vaxtdır, saat ilə;

t_t – qazma müddətində təmir işlərinə sərf olunan vaxtdır, saat ilə;

t_q – qazma kəmərinin qaldırılmasına sərf olunan vaxtdır, saat ilə;

t_{qe} – kəmərin qaldırılıb-endirilməsinə sərf olunan vaxtdır, saat ilə.

1. Baltaya verilən oxboyu yük. Mexaniki üsulla qazma zamanı quyu dibində dağ süxurunun dağıdılması balta üzərinə oxboyu yükün yaradılması nəticəsində mümkün olur. Neft və qaz quyularının qazılması zamanı dağ süxurlarının effektli dağıdılması bir çox amillərdən asılıdır. Belə ki, süxurların, balta tipinin, onun dişlərinin sayının, ölçülərinin və yeyilmə dərəcəsinin, eləcə də oxboyu yükün müxtəlif qiymətlərdə olması quyu dibində süxurun dağılma xarakterini dəyişdirir. Baltaya verilən oxboyu yükün qazmanın mexaniki sürətinə təsirini, baltanın diametrinin 1 sm^2-nə düşən yükün P_x (xüsusi oxboyu yükün), süxurun birinci sıçrayışda dağılmasına göstərdiyi müqavimətə P_1 nisbəti kimi ifadə etmək yaxşı olardı.

$$V_m = f(P_0), \qquad (1.11)$$

Burada: $P_0 = P_x/P_1$, P_0 - nisbi xüsusi təzyiqdir (1 sm^2 sahəyə düşən nisbi təzyiq);

$$P_x = P/F_k, \qquad (1.12)$$

P_x - xüsusi təzyiqdir, (1 sm^2 sahəyə düşən təzyiq);

F_k - balta dişlərinin süxurla təmas sahəsidir.

F_k - nın qiymətini təyin etmək çətindir, ona görə də $F_k$yeyilməmiş dişlərin bir dövrdəki başlanğıc təmas sahəsinin orta qiyməti kimi qəbul edilir.

Baltaya verilən oxboyu yükün kiçik qiymətində, yəni I zonada süxurun səthi dağılması (sürtülmə) baş verir, II zonada süxur hissəciklərinin qopması, yəni səthi və həcmi dağılmalar birbirini əvəz edir, III zonada isə xüsusi təmas gərginliyinin qiyməti süxurun möhkəmlilik həddini aşır və həcmi dağılma baş verir. Bunu aşağıdakı kimi izah etmək olar. Nisbi xüsusi təzyiqin kiçik qiymətlərində $0 < P_0 < 0{,}6$ (I sahə) süxurun əsasən səthi dağılması (abraziv yeyilmə), mikroqopma, əzilmə, ölçüləri balta dişlərindən kiçik olan kələ-kötürlərin sürüşməsi baş verir. Bu sahədə sürətin dəyişməsini $V_m = abP_0$ ifadəsindən əldə etmək olar, burada, a və b dağılma sahəsini səciyyələndirən əmsallardır.

Səthi dağılma üçün b=l-dir. Praktiki olaraq bu növ dağılma çox bərk süxurların kiçik oxboyu yükdə, böyük təmas səthi olan küt dişlərlə qazmada, həmçinin kiçik səthli süxurları böyük təmas səthinə malik İSM baltaları ilə qazıldıqda müşahidə olunur. Bu halda qazmanın mexaniki sürəti 1–3 m/saat intervalda olur.

Nisbi xüsusi təzyiqin $0{,}6 < P_0 < 0{,}9$ qiymətlərində yorucu dağılma baş verir (II sahə). Bu sahə üçün xarakterik cəhət ondan ibarətdir ki, həcmi dağılma eyni sahəyə balta dişinin bir neçə zərbə endirməsi nəticəsində baş verir.

İkinci sahədə də qanunauyğunluq aşağıdakı tənliklə ifadə olunur $V_m = abP_0$. Burada b əmsalının qiyməti $1 < b < 1{,}5$ olmaqla süxurun mexaniki xassəsindən və baltanın növündən asılıdır. Bu halda süxur qırıntılarının ölçüləri birinci hala nisbətən bir qədər böyükdür.

2. Baltanın dövrlər sayı. Baltanın dövrlər sayı (n) qazma göstəricilərinə müxtəlif təsir göstərir. Əgər qazmada şaroşkalı baltalardan istifadə olunursa, o vaxt n-in artması ilə balta dişlərinin quyu dibinə endirdiyi zərbələrin sayı, zərbənin endirilmə sürəti və zərbə yükünün dinamik əvəzləyicisi də artır. Bu da, öz növbəsində, qazmanın mexaniki sürətini V_m yüksəldir. Eyni zamanda bu amillər baltanın quyu dibində işləmə müddətini azaldır, dövrlər sayının artması ilə balta dişinin süxurla təmas müddəti azalır. Süxurun dağılmasının səmərəliliyi azalır, bununla yanaşı mexaniki sürət azalır.

Vahid zaman ərzində (1 dəqiqədə) zərbələrin sayı:

$$m = eZ_ş \bullet n\, D/d_ş\,, \qquad (1.13)$$

Burada e - şaroşkaların sayı;

$Z_ş$ - şaroşka dişlərinin sayı;

D, $d_ş$ - uyğun olaraq balta və şaroşkanın diametrləridir.

Qopan süxur həcmini V_h qəbul etsək, onda vahid zaman ərzində dağılan süxurun həcmi 1 dəqiqə ərzində :

$$V_1 = V_h eZ_ş \bullet n\, D/d_ş, \qquad (1.14)$$

Qazmanın nəticələrini qiymətləndirmək üçün bir neçə göstəricilər vardır ki, onların köməyi ilə qazmanın texniki-iqtisadi xarakteristikasını müəyyən etmək olur.(5)

Qazmanın dinamikasını aşağıdakı göstəricilərə əsasən təhlil edirlər:

- Baltanın 1 metr gedişinə düşən qazılmış süxurların həcmi, m^3/m ilə;
- Baltanın 1 metr gedişinə düşən metalın sərfi (qoruyucu borular), kg /m ilə;
- Qazma sürətləri m /dəzgah-ay, ilə;
- Qazmanın mexaniki və reys sürətləri, m/saat ilə;
- 1000 metr qazmaya sərf edilən baltaların sayı;
- Bütövlükdə quyu yaxud qazmanın1 metrə düşən vaxt balansı, saat ilə;
- Bütövlükdə quyunun və qazmanın 1 metrinin maya dəyəri.

Qazmanın səmərəli olmasını qazma baltasının 1 metr gedişinə düşən metal sərfinə görə də müəyyən edirlər. Bu məqsədlə, quyuya buraxılan qoruyucu boruların ümumi çəkisinin, quyunun dərinliyinə olan nisbəti əsas götürülür.Təbii ki, qazma texnologiyasının inkişaf səviyyəsi yüksəldikcə metal sərfi də azalmalıdır.

Qazmanın ümumi (kommersiya) sürətini tapmaq üçün qazılmış quyunun dərinliyini (H), quyuya ilk qazma baltası buraxılan andan başlayaraq, qazma şamlarını təşkil edən boruların açılıb buruq körpüsü üzərinə çıxarılmasına qədər sərf edilən vaxta (T_0) bölürlər. Yəni:

$$V_{üm} = \frac{720 \bullet H}{T_0}\,, m / d\ .ay, \qquad (1.15)$$

Qazma baltasının quyu dibində səmərəli işini aşağıdakı göstəricilər ilə xarakterizə edirlər:

- Baltanın quyu dibində işləmə müddəti $t_{iş}$, saat ilə;
- Qazmanın mexaniki sürəti, V_{mex}, m /saat ilə;
- Bir reysdə baltanın gedişi h, m ilə;
- Qaldırıb-endirmə əməliyyatına sərf edilən vaxt, t_{qe}, saat ilə;
- Qazma borusunun qazma kəmərinə əlavə edilməsi, t_b, saat ilə.

Mexaniki sürət dedikdə, bir saat müddətində təmiz qazmaya sərf edilən vaxt başa düşülür:

$$V_{mex} = \frac{h}{t_{mex}}, \qquad (1.16)$$

Burada, h – baltanın gedişi, m ilə;

t_{mex}– yalnız qazmaya sərf edilən vaxt, saat ilə.

Qazma baltasının təzə olması və quyu dibinin doğranmış süxur hissəciklərindən tam təmizlənməsi halında qazmanın mexaniki sürəti qazma məhlulunun sərfindən asılı olaraq, demək olar ki, düz xətt qanununa uyğun olaraq artır.

Praktiki olaraq qazıma məhlulunun sərfi lazım olan həddə çatdıqda baltanın quyu dibində yaxşı soyumasına, baltanın və quyu dibinin yaxşı təmizlənməsinə, qazma məhlulunda süxur hissəciklərinin miqdarının və həlqəvi fəzada məhlulun sıxlığının, həmçinin quyu dibinə təsir edən hidrostatik təzyiqin azalmasına baxmayaraq qazmanın mexaniki sürəti çox kiçik templə də olsa arta bilər.

Akademik R.Quliyev isbat etmişdir ki, qazma məhlulunun miqdarının optimal həddən çox olması, qazmanın mexaniki sürətini praktiki olaraq artırmır. Qazma məhlulunun sərfinin sonrakı artımında, yəni Q >Q_{max}olduqda həlqəvi fəzada hidravliki itkilərin dəf olunmasına sərf olunan

təzyiq itkisi artır və nəticədə ümumi hidravliki təzyiqin quyu dibinə təsiri artır, bu isə qazmanın mexaniki sürətinin azalmasına gətirib çıxarır. [2]

Quyu hidravlik mühərriklə qazılan zaman qazma məhlulunun sərfi onun iş xarakteristikasını təyin etdiyindən qazmanın mexaniki sürətinə əsasən $Q > Q_i$ olduqda daha çox təsir göstərir.

Quyu dibinin təmizlənməsini yaxşılaşdırmaq üçün qazma məhlulunun sərfini normadan yuxarı artırmaqdansa, qazma məhlulunun geoloji xassələrini yaxşılaşdırmaq, balta oymaqlarından çıxan şırnağın quyu dibinə yönəldilməsini və sürətini səmərəli təşkil etmək daha məqsədəuyğundur.

Məlumdur ki, qazma zamanı baltanın gedişi, süxurun dağıdılma sürətindən və baltanın quyu dibində işləmə müddətindən asılıdır.

Rotor üsulu ilə qazmada baltanın dövrlər sayının sabit qiymətində (n-const), qazmanın mexaniki sürətinin (v_m), baltanın gedişinin (h_b) və baltanın quyu dibində işləmə müddətinin, baltaya verilən oxboyu yükdən asıllığı vardır.

Rotor qazma üsulunda qazmanın rejim parametrləri bir-birindən asılı deyil.

Turbin qazma üsulunda isə qazmanın rejim parametrləri içərisində qazma məhlulunun sərfi əsas göstəricidir. Baltaya verilən oxboyu yük (P_b), qazma məhlulu sərfindən (Q) asılı olaraq tapılır:

$$P_b = f(Q), \qquad (1.17)$$

Baltanın dövrlər sayı (n), turbin qazma üsulunda qazma məhlulunun sərfindən (Q) və baltaya verilən oxboyu yükdən (P_b)asılı olaraq dəyişir:

$$n = f(Q, P_b), \qquad (1.18)$$

Başqa sözlə desək, turbin qazma üsulunda qazma məhlulunun sərfinin (Q), dəyişməsi baltanın dövrlər sayının və baltaya verilən oxboyu yükün (P_b) dəyişməsinə səbəb olur.

Nəticə

Elektrik qazma üsulunda baltanın fırlanma sürəti sabitdir. Burada baltanın fırlanma sürətini dəyişmək üçün ancaq mühərriki başqası ilə əvəz etmək lazımdır. Burdan belə nəticəyə gəlmək olur ki, neft və qaz quyularının layihə dərinliyinə qədər vaxtında keyfiyyətli qazılması və eləcə də qazmada yüksək texniki-iqtisadi göstəricilərin əldə edilməsi, külli miqdarda vaxt və maddi vəsait tələb edən qəza və mürəkkəbləşmələrin əvvəlcədən xəbərdarlıq edilməsi və aradan qaldırılmasından çox asılıdır. Yataqların geoloji quruluşunun mürəkkəbliyi, quyu dərinliyinin intensiv artması, yüksək lay təzyiqi və temperaturun, duzluluğun mənfi təsiri, keçirici və dəyanətsiz layların (qatların) olması, mürəkkəb quyu quruluşunun və qazma məhlulunun kimyəvi işlənməsi üsullarının müxtəlifliyi, quyu lüləsinin fəza konfiqurasiyasının mürəkkəbliyi ilə xarakterizə olunan müasir qazmada alətin tutulmasının qabaqcadan aşkarlığı və ləğv edilməsi məsələsi birinci dərəcəli əhəmiyyətə malikdir.

Bütün bu yuxarıda qeyd olunanlara, yalnız müasir innovasiya texnologiyalarının tətbiqi əsasında nail olmaq mümkündür.

ƏDƏBİYYAT

1. R.İ.Quliyev, S.M.Cəlalov, N.Ə.İsmayılov, H.Ə.İsmayılova. “Qazmada baş verən qəzaların səbəbləri və onların ləğv edilməsi üsulları”. Bakı, ADNA, 2002.
2. R.İ.Quliyev, H.N.Məcidov, S.M.Cəlalov. “Qazma məhlulları”. Bakı, 2003, s.28.
3. Ю.В.Ваденцкий. “Бурение нефтяных и газовых скважин”. М. 2003, 176 с.
4. А.А.Бовин, Л.Е.Чередникова, В.А.Якимович. “Управление инновациями в организациях:учебное пособие”. Москва, Омега-Л., 2016, 234 с.
5. Ю.М.Басарыгин, В.Ф.Будников, А.И.Булатов. “Теория и практика предупреждения осложнении и ремонта скважин при их строительстве и эксплуатации:справ, пособие”. М., ООО “Недра-Бизнесцентр”, 2011, 198 с.

6. В.Ф.Будников, А.И.Булатов, С.А.Шаманов, А.Я.Петерсон. "Контроль и пути улучшения технического состояния скважин". М., ООО "Недра-Бизнеспентр", 2012, 211 с.
7. Б. Санто. "Инновация как средство экономического развития". 2012, с.12-13.
8. М.Хучек. "Инновации на предприятиях и их внедрение". М., "Луч", 2012. с.34.
9. С.В.Ермасов, Н.Б.Ермасова. "Инновационный менеджмент: учебник для вузов". М., 2013, с.63.
10. Р.А.Фатхутдинов. "Инновационный менеджмент: учебник по экономическим и техническим специальностям". Санкт–Петербург: Питер Пресс, 2014, с.91.

Али Гусейнага оглы Салимов
доцент Азербайджанского Государственного
Университета Нефти и Промышленности

Пути решения оценки инновационной эффективности в отрасли бурения

Резюме

В статье изучается и исследуется пути решения оценки инновационной эффективности в отрасли бурения.

В статье также рассматривается и анализируется способы оценки инновационной эффективности для определения воздействия на инструменты и оборудования бурения.

В конце статьи, научным образом обосновываются и соответственно к ним рекомендуются выводы и предложения оценки инновационной эффективности в отрасли бурения.

Ключевые слова: иннвация, индекс, параметр, оценка, эффективность.

Ali Husseinaga Salimov
Azerbaijan State University of Oil
and Industrial, Assosiate professor

Ways to address the assessment of innovative efficiency in the drilling industry

Summary

The article studies and explores ways to address the assessment of innovative efficiency in the drilling industry.

In addition, the article discusses and analyzes methods for assessing innovative efficiency for determining the impact on tools and equipment for the drilling.

At the end of the article, conclusions and offers of the assessment of innovative efficiency in the drilling industry are scientifically justified and respectively recommended.

Key words: innovation, index, parameter, assessment, efficiency.

UOT 658.152

Nərminə Həmid qızı ABBASOVA
dosent, iqtisad üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

NEFT HASİLATINDA FƏALİYYƏTSİZ QUYU FONDUNDAN İSTİFADƏ İSTİQAMƏTLƏRİ

Xülasə

H.Z.Tağıyev adına NQÇİ-də istismar fondunun vəziyyəti və onun neft hasilatına təsiri nəzərdən keçirilmişdir. Xətti reqressiyanın tətbiqi ilə geoloji və texniki tədbirlərin, fəaliyyətsiz quyuların istifadəyə verilməsinin neft hasilatına təsiri müəyyən edilmişdir. Quyuların dayandırılması səbəbləri araşdırılaraq, onların istismara verilməsi xarakterizə olunmuşdur.

Açar sözlər: neft hasilatı, quyu fondu, neft layları və yataqları, neftverimi, geoloji-texniki tədbirlər.

Giriş

Bazar münasibətləri şəraitində Azərbaycanın sosial-iqtisadi inkişafının sürətlənməsi kursu ölkə iqtisadiyyatı qarşısında yeni tələblər irəli sürür. İndiki dövrdə istehsalın inkişafı və səmərəliliyinin yüksəldilməsinin əsas mənbəyi kimi intensivləşdirmə çıxış edir. Bu problem respublikanın baza sahəsi olan neft sənayesi üçün də mühüm əhəmiyyətə malikdir. İntensivləşdirmə prosesi bir neçə istiqamətdən ibarətdir. Neft sənayesində bu istiqamətlərdən başlıcası yataqlardan neftin çıxarılması dərəcəsinin artırılmasıdır. Layların neftveriminin artırılması bir tərəfdən, yataqların işlənməsi sisteminin təkmilləşdirilməsi, digər tərəfdən isə laylara təsirin yeni üsullarının tətbiqi ilə mümkündür. Laylardan neftin çıxarılmasının artırılması eləcə də istismar quyu fondundan istifadənin səmərəliliyindən asılıdır. Bu baxımdan köhnə neft yataqlarından quyu fondundan daha tam istifadə edilməsi istehsalın intensivləşdirilməsinə şərait yaradar. [1 səh. 46]

1. Quyu fondunun vəziyyətinin təhlili

H.Z.Tağıyev adına neftqazçıxarma idarəsində (NQÇİ-də) 2015-2017-ci illərdə neft hasilatı 63205 tondan 69574 tonadək və ya 10,1% artmışdır. Təhlil materialları göstərir ki, 2017-ci ildə H.Z.Tağıyev adına NQÇİ-də hasil edilən neftin 62,7%-i ştanqlı dərinlik nasosları, 9,3%-i elektrik dolma nasosları, 26,5%-i kompressor, 1,6%-i isə fontan üsulu ilə çıxarılmışdır. Keçici fonddan neft hasilatı 2017-ci ildə 2015-ci ilə nisbətən 2,6% artaraq 66395 ton təşkil etmişdir. 2017-ci ildə fəaliyyətsiz fonddan 10 quyu istismara daxil olmuş və onlardan neft hasilatı 3179 ton və ya ümumi hasilatın 4,7%-ni təşkil etmişdir. [3]

Qeyd edək ki, karbohidrogen ehtiyatının artırılmasını bir necə mənbə hesabına təmin etmək olar. Birincisi, yeni yataqların açılması, ikincisi, ehtiyatların artırılması mümkün olan obyektlərdə təkrar kəşfiyyat işlərinin aparılması, yeni metodların tətbiqi hesabına mümkündür. Aparılmış tədqiqatlar göstərir ki, neftçıxarmada tam innovasiya dəyişiklikləri hələ təzə başlayır. Hal-hazırda istifadə olunun üsullarla nefti təxminən 35-40% həcmində çıxarmaq mümkündür. Aparılan təcrübələr göstərir ki, yeni texnologiyalar hesabına ehtiyatın 50-60%-ni mənimsəmək olar. Bir sıra ekspertlərin rəyinə əsasən, qazılmış quyuların çoxu az hasilatlı olduqlarına görə fəaliyyətsizdir. Fəaliyyətdə olanlar isə müasir metodlar tətbiq edilmədən istismar olunur. Neftin çıxarılma dərəcəsini artırmaq məqsədilə maliyyə sərfi, bahalı texnologiyaların tətbiqi tələb olunur. Neftçıxarmanın idarə edilməsi sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, geoloji kəşfiyyat və yeni texnologiyalar üçün maliyyə vəsaitlərini artırmaq lazımdır.

Təhlil materialları göstərir ki, son illərdə Buzovna-Maştağa yatağında qazılmış quyuların 5-6 ton neft hasilatı ilə istismara daxil olması və kifayət qədər qaytarma obyektlərinin olması yeni quyuların qazılmasının iqtisadi cəhətdən səmərəli olduğunu göstərir. NQÇİ-də cari gündəlik ha-

silatın 30%-i son dövrlər qazılmış quyuların payına düşür. Buzovna-Maştağa yatağında quyular əsasən yan lülə ilə qazma nəticəsində bərpa edilərək istismara qaytarılır. Lakin istismar fondunda olan quyuların uzun müddət istismarda olması, yatağın perspektivli sahələrində yerləşən mövcud quyuların geoloji-texniki vəziyyəti və müəyyən sahələrdə əhalinin məskunlaşdığını nəzərə alaraq yeni quyuların qazılması yolu ilə quyu şəbəkəsinin bərpası zərurəti yaranır. Məhz bu amilləri nəzərə almaqla NQÇİ üzrə neft hasilatının artırılması, qalıq neft-qaz ehtiyatlarının tam realizə edilməsi, yatağın perspektivli sahələrində quyu şəbəkəsinin sıxlaşdırılması məqsədilə mütərəqqi üsullardan istifadə etməklə qazma işlərinə başlanması məqsədəuyğundur.

H.Z.Tağıyev adına NQÇİ-də quyu fondu 1 saylı cədvəldə verilmişdir.

Cədvəl 1

2015-2017-ci illərdə quyu fondu [3]

s/s	Quyu fondunun göstəriciləri	Faktiki		
		01.01.2015-ci ilə	01.01.2016-cı ilə	01.01.2017-ci ilə
1.	İstismar fondu	199	193	190
2.	Fəaliyyətdə olan quyu fondu	161	162	161
3.	Fəaliyyətsiz quyu fondu	36	29	27
4.	Əsaslı təmir gözləyən quyular	32	26	27
5.	Ləğv gözləyən quyular	4	3	-

NQÇİ-nin hesabat materiallarından aydın görünür ki, 2017-ci ildə mövcud olan 27 fəaliyyətsiz quyu fondundan 11 quyu qaytarma, 1 quyu izolə, 10 quyu tutma və 5 quyu bərpa işləri gözləyir. Qeyd edək ki, yeni quyuların qazılmasının baha başa gəlməsi ilə əlaqədar olaraq mövcud yataqlardan səmərəli istifadə, fəaliyyətsiz quyuları istismara cəlb etmək əsas məqsəd kimi çıxış edir. Bunu neft hasilatında fəaliyyətsiz quyuların payı da sübut edir.

2. Reqressiya metodu ilə neft hasilatına bir çox amillərin təsirinin təhlili

H.Z.Tağıyev adına NQÇİ-də Buzovna-Maştağa, Qala, Köhnə Qala və Zirə yataqları artıq işlənmənin son mərhələsindədir. Bu yataqların gələcək işlənməsi quyularda yeni lülə qazması, fəaliyyətsiz quyu fondundan istismara daxil olması, eləcə də yeni quyuların qazılması ilə həyata keçirilə bilər. Məlumdur ki, neft hasilatına bir çox amillər təsir edir. Həmin amillərdən bir neçəsini seçib, onların hasilata təsirini korrelyasiya asılılığı ilə müəyyən etmək mümkündür. (bax cədvəl 2)

Cədvəl 2

Neft hasilatına təsir edən amillər [3]

İllər	Fəaliyyətsiz fonddan istismara daxil edilən quyulardan hasilat (ton)	İstismar quyu fondu (quyu)	Geoloji tədbirlərdən əlavə neft, ton	Texniki tədbirlərdən əlavə neft, ton
2012	3343	121	15083	7515
2013	3467	118	16737	8592
2014	3673	112	12002	8759
2015	3782	199	14956	9248
2016	4060	193	13839	9471
2017	3179	190	12516	9486

Qeyd: Cədvəl H.Z.Tağıyev adına NQÇİ-nin məlumatları əsasında tərtib edilmişdir.

Cədvələ uyğun olaraq, qeyd edilmiş göstəricilər arasında asıllılıq xətti reqressiya tənliyi ilə müəyyən olunur. Xətti reqressiya tənliyi:

$$Y_r=a_0+a_1x_1+ a_2x_2\ a_3x_3 +a_4x_4$$

a_0, a_1x_1,a_2,a_3,a_4- xətti reqressiya tənlikləri əmsalları;

x_1, x_2 ,x_3, x_4 - xətti reqressiya tənliyinin dəyişənləridir. Verilən tənlik çoxdəyişənli olduğuna görə həllini keçirək: Excel proqramının köməyi ilə həyata keçirərək, kompyuterdə alınmış nəticələr cədvəldə verilmişdir.

Cədvəl 3

Tənliyin həlli nəticələri

	Y	x1	x2	x3	x4			
	18426	3343	121	15083	7515			
	20204	3467	118	16737	8592			
	15675	3673	112	12002	8759			
	18738	3782	199	14956	9248			
	17899	4060	193	13839	9471			
	15695	3179	190	12516	9486			
Nəticələrin çıxarılması								
Reqressiv statistika								
Çoxamilli -R	0,999994							
R-kvadrat	0,999988							
Normalaşdırıl-mış R-kvadrat	0,999942							
Standart xəta	13,58797							
Müşahidələrin sayı	6							
Dispersia təhlili								
	df	SS	MS	F	F-in qiyməti			
reqressiya	4	15880474	3970119	21502,78	0,005115			
qalıq	1	184,6328	184,6328					
Cəmi	5	15880659						
	əmsallar	Standart səhf	t-statistka	P-kəmiyyəti	aşağı 95%	Yuxarı 95%	aşağı 95,0%	Yuxarı 95,0%
Y-kəsimə	-718,172	135,071	-5,317	0,11835	-2434,41	998,0675	-2434,41	998,0675
X 1	1,002738	0,020905	47,96727	0,01327	0,737119	1,268356	0,737119	1,268356
X 2	-0,70669	0,229934	-3,07345	0,200258	-3,62829	2,214903	-3,62829	2,214903
X 3	1,005065	0,003885	258,7	0,002461	0,955701	1,054429	0,955701	1,054429
X 4	0,082499	0,014506	5,687287	0,110805	-0,10182	0,266813	-0,10182	0,266813

Tənlikdən görünür ki, geoloji və texniki tədbirlərin həyata keçirilməsi nəticəsində fəaliyyətsiz fonddan istismara daxil olan hər bir quyu üzrə neft hasilatını 1,268% artırmaq mümkündür.

3. Fəaliyyətsiz quyuların istismara verilməsi imkanları

Tədqiqat materialları göstərir ki, quyuların fəaliyyətinin dayandırılması bir çox səbəblərlə əlaqədardır. Neft yataqlarının istismarı ədəbiyyatlarında bu amillər quyuların istismardan çıx-

masına birbaşa və dolayı təsir göstərir. Neft yataqlarının istismarı ədəbiyyatlarından istifadə edərək, həmin amilləri şərti olaraq bir neçə qrupa bölmək olar: [4,5]

- qum tıxacının yaranması;
- istismar kəmərinin deformasiyası;
- sulaşma;
- işlənmə zamanı qəza;
- yeraltı təmir zamanı qəza;
- az hasilatlılıq və axıcılıq qabiliyyətinin olmaması;
- digər səbəblər.

Göstərilən amillərin quyuların istismardan çıxmasına təsirini və onların istifadəyə bərpası ehtiyatlarını nəzərdən keçirək:

Qum tıxacı 2mm-lik fraksiya ilə yaradılır. Mayenin axıcılığı çox olsa belə yüksək təzyiq altında da oradan keçmək mümkün olunur.

Qum əmələ qəlməsi, quyuda tixacların yaranmasına səbəb olmaqla bərabər iş rejimini pozur, hasilatı azaltmaqla məhsul vahidinə xərcləri artırır. [2, s. 87]

Qum tixacını quyuda düz və əks yuma işləri həyata keçirməklə aradan qaldırmaq mümkündür. Bunun üçün quyuya yuma boruları endirilir. Bu işləri yerinə yetirmək üçün yeraltı təmir briqadaları, nasos aqreqatları, qaldırıcı avadanlıqlar olmalıdır. Lay təzyiqi kiçik olan quyularda intensiv yuma işlərinin aparılması heç də həmişə müsbət nəticə vermir. Çünki vurulan su quyuda məsamələri doldurur, bununla da keçiricilik azalır. Tıxacın kənar edilməsi çox əmək tələb edən və bahalı işdir.

Süxurlarda yarıqların keçiriciliyinin olması hasilatı xeyli artırır. Yarıqların böyük dənəcikli qumla dolması keşiriciliyi azaldır.

Qumdaşıyıcı mayelərə aşağıdakı tələblər qoyulur:

- ən kiçik süzülmə qabiliyyətinə maik olmalıdır;
- qumu özündə asılı halda saxlaya bilməlidir.

Bu qabiliyyət qumun quyu və boru dibində çökməsinin qarşısını alır. Qumun çıxarıla bilməməsinin, eləcə də çökməsinin səbəbi mayenin yüksək süzülmə qabiliyyətinə malik olmasıdır.

Azərbaycanda qum tıxacı yaranan bir çox quyular kiçik lay təzyiqi ilə xarakterizə edilir. Hidrostatik təzyiqin 10-15%-ni lay təzyiqi təşkil edir. Belə şəraitdə quyu gövdəsindən su ilə bütün qum tixacını təmizləmək mümkün olmur. Qumun bir hissəsi su ilə bərabər güclü udulma nəticəsində laya daxil olur, bu isə quyudibi zonanın qismən dağılmasına, istismar kəmərinin deformasiyasına səbəb olur. Quyudibi zonaya daxil olmuş qum, istismar prosesində yenidən maneəsiz quyu gövdəsinə düşür. Bir müddət keçdikdən sonra, yenidən qum tıxacının yuyulması zərurəti yaranır. Təmirlərarası müddətin kiçik olması bununla izah oluna bilər.

İstismar quyularında qum tıxacının ləğv olunması üçün sudan istifadə olunması cari debitlərin əhəmiyyətli dərəcədə aşağı düşməsinə, quyuların vaxtından əvvəl sıradan çıxmasına və son neftvermə əmsalının azalmasına səbəb olur. Qum tıxacları yaranması quyulurın təmirarası işlənmə müddətini qısaldır. [1, s. 94]

Lay təzyiqi hidrostatik təzyiqdən kiçik olan quyularda yaranan qum tıxacını elə üsul ilə ləğv etmək lazımdır ki, bu zaman yuma mayesi laya daxil olmasın. Tədqiqatlar göstərir ki, ikifazalı köpüklə yuma bu şərtlərə ən uyğun gələnidir. Adi yuma ilə müqayisə etdikdə köpükləndirici səthi aktiv maddələr (SAM) ilə yumada daha az vaxt sərf edildiyi təsdiq edilmişdir. [4, 5]

Quyuların istismar səmərəliliyinin azalmasının səbəblərindən biri də sulaşmadır (90%). Yüksək keçiriciliyə malik olan laylardan suyun daxil olması, təzyiqin saxlanması üçün laya soyuq suyun vurulması nəticəsində baş verir. Yataqların işlənməsinin əsas istiqamətlərindən biri suyun hərəkətinin məhdudlaşdırılması, neft axınının artırılması və layda karbohidrogenlərin sıxışdırılması prosesini məqsədli şəkildə tənzimləməklə quyu fondunun istismar səmərəsini artır-

maq olar. Vurulan suyun yuma və sıxıştırma qabiliyyətini artırmaq məqsədilə ona müxtəlif aşqarlar qatılır. [6, s. 85]

Quyunun istismar göstəricilərinin pisləşməsi səbəbindən, eləcə də yeraltı avadanlığın vəziyyətindən asılı olaraq texnologiyanın sadalanan elementlərinin həcmi və ardıcıllığının yerinə yetirilməsi və bu zaman əsaslı təmir briqadasının iştirak etməsinin vacib olub-olmaması müəyyən olunur.

Sulaşmış neft quyularının istismarı prosesində lift borularında duz çöküntüləri əmələ gəlir ki, bu da işlənməni çətinləşdirir. [2, 4] Bəzən çöküntülər borunun en sahəsini tam, ya da qismən bağladığından istismar prosesi pozulur. Belə olan halda yeraltı təmir işləri aparmaq lazım gəlir. İqtisadi baxımdan əmək və məsrəf sərfi təmir işlərinin heç də sərfəli qərar olmadığını göstərir.

Tədqiqatlar göstərir ki, bu sahədə ən əlverişli üsul kimyəvi reagentlərin -inqibitorların istifadəsidir. Ən səmərəli inqibitorlara fosfor üzvi birləşmələri və fosfor efirləri aid edilir. Azərbaycanda istifadə olunan kimyəvi reagentlərə misal kimi heksametafosfat və tripolifosfatı göstərmək olar.

Mədən avadanlıqlarının korroziyasının kəskinləşməsinə səbəb olan amillərdən biri də quyuların dərinlik nasosu ilə istismarı zamanı nasos-kompressor boruları ilə nasos ştanqlarının sürtünməsidir. Belə quyularda təzə boruların orta işləmə müddəti 6 ay, ştanqların isə 1 ilə yaxındır. Köhnə nasos-kompressor ştanqlarının və borularının işləmə müddətləri isə xeyli aşağıdır. Neft mədən avadanlıqlarının korroziyadan mühafizə üsullarından biri də onun inhibitorla qorunmasıdır. İnhibitorun tətbiqi nəticəsində korroziyaya dayanıqlı olan yüksək keyfiyyətli, yüksək qiymətli polad metallardan hazırlanan avadanlıqların tətbiqinə ehtiyac olmur. [4, 6]

Quyuda maye axınını sürətləndirmək məqsədilə müəyyən üsullardan istifadə olunur ki, nəticədə layda mövcud çatların genişlənməsi, karbonatlı süxurların həll olması, yeni çatların əmələ gəlməsi, yaranan yeni kanalların sayəsində neftin hasilatı artmış olur.

Həm fəaliyyətini dayandırmış, həm də səmərəliliyi azalmış quyuların istismara təkrar cəlb olunması və quyu dibinə təsir etməklə səmərəliliyi artırmaq olar. Bu tədbirlərə mayenin özlülüyünün, səthi gərilmənin azaldılmasını aid etmək olar.

Quyu dibinə təsir üsullarının səmərəliliyini artırmaq üçün həmin zonada olan mayelərin dondurulması vasitəsilə məsamələrin tutulması üsulundan istifadə olunur. Bu zaman ora aşağı temperaturlu soyuducu reagent, maye azot vurmaq olar. Müəyyən müddətdən sonra həmin maye axıcılıq qabiliyyətini itirərək bərkiyir və məsamələri doldurur. Bunun sayəsində quyu dibində yüksək təzyiq alınır. Daha sonra layın temperaturundan və təzyiqindən asılı olaraq quyu dibinə istiliklə təsir edilir və quyu yenidən işə salınır.

Quyu dibinə istiliklə təsir etmənin əsas məqsədi quyudibi zonanın süxurlarının məsamələrində çökmə və quyunun məhsuldarlığını azaldan qatran asfalten və parafin çöküntülərinin əridilməsi hesabına quyu dibinin keçiriciliyinin artırılmasıdır.

Azdebitli quyuların məhsuldarlığının artırılması üçün quyu dibinin qızdırılması yüksək effektli və prespektiv üsuldur və onun kütləvi şəkildə tətbiq olunmasına maneə yoxdur.

Quyuların ümumi debitlərinin artmasına baxmayaraq, karbohidratların qızması nəticəsində özlü-elastik xassələrin zəifləməsi axın profilinin pozulmasına səbəb olur və nəticədə quyuların vaxtından əvvəl sulaşması baş verir və kiçik keçiriciliyə malik laylardan çıxarılan neftin həcmi azalır.

Quyudibi zonanın qızdırılmasının səmərəsinin azalmasının səbəbi temperaturun artması zamanı qazın neftdə doyma təzyiqinin artması və neftdən qazın ayrılması, yəni neftin faza keçiriciliyinin azalmasıdır. Su buxarı laya daxil olanda , temperatur azalan hissələrdə kondensat halında mayeyə çevrilir və quyuların sulaşması baş verir. Kondensat şəklindəki buxarın suya çevrilməsi nəticəsində bir sıra quyularda emulsiya əmələ gəlir ki, bu da quyuların normal işinə mənfi təsir göstərir.

Keçiriciliyin artması ilə sürətin artdığına görə laydan quyuya qum gəlməyə başlayır.

Quyu dibi vaxtaşırı qızdırıldıqda neftin özlülüyü kəskin azaldığı üçün qumun çökmə sürəti və həcm konsentrasiyası artır və nəticədə qum tıxacının yaranmasına səbəb olur. Ona görə də quyudibinə təsir etməzdən əvvəl təsir obyektinin seçilməsinə diqqət yetirmək lazımdır. Nüvə partlayışının köməyi ilə quyuların məhsuldarlığının artırılması kiçik keçiriciliyə malik bərk süxurlarda təcrübi yolla tədqiq edilmişdir. [1, s. 229]

Partlayış aparılan quyunun ətrafında məhsuldar layda partlayış nəticəsində dağıldılmış, süxurlar dolmuş zona, sonra isə parçalanma zonası və çat, mikroçatlar sistemli zona yaranır.

Nüvə partlayışı neft yataqlarının istismarında da tətbiq oluna bilər. Bu zaman yaranan təbii rezervuar, xüsusi həcmlərə ehtiyacı aradan qaldırır. Əgər partlayış dəniz dibindən dərinlikdə həyata keçirilmişdirsə bu zaman neft daşıyan tanker birbaşa lazım olan yerə yaxınlaşa və yeraltı-sualtı rezervuardan doldura bilər.

Quyu dibini termokimyəvi üsulla istismar etmək üçün çoxlu sayda tədqiqatlar aparılmış, istehsalata tətbiq edilmişdir. Aparılmış tədqiqatların təhlili göstərir ki, onların təkmilləşdirilməsi zəruriyyəti hələ də aktuallığını saxlayır. Az hasilata malik yataqlarda lay parametrlərinin kəskin dəyişmə şəraitində, eləcə də qatran, parafin, duz çökməsi, asfalten, quyu dibində emulsiya yaranması, HCl turşusu ilə süxurlara təsirin səmərəsi kifayət qədər olmur. Bunun da səbəbi turşunun süxurlara təsirinin məhdudlaşması ilə bağlıdır. Yüksək səmərəli texnologiyanın işlənməsi və mövcud üsulların təkmilləşdirilməsi bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Səmərəsiz əməliyyatlar qrupuna daxil olunan quyuların əksəriyyəti bircins olmayan laylardan istismar edilən, həm də quyu dibində emulsiya yaranması müşahidə olunan quyulardır. [4, 5]

Layın quyudibi zonasında emulsiyanın yaranması və onun neftçıxarmada aparılan texnoloji proseslərə mənfi təsiri bir sıra tədqiqatçılar tərəfindən öyrənilmişdir.

Kiçik temperatur və təzyiq şəraitində bircins olmayan layların quyudibi zonalarından süzülən neftin tərkibindəki ağır karbohidrogen birləşmələrinin mövcudluğu onların süxur çökərək, onun səthinin hidrofoblaşmasına gətirib çıxarır. Həmin süxur məsamələrindən qələvili lay sularının dispers sistemlərinin yaranması ilə nəticələnir. Bu isə mayenin quyudibinə süzülməsinə müqaviməti artırır ki, nəticədə də quyunun məhsuldarlığı aşağı düşür.

Qeyd edək ki, son illərdə ölkəmizin neft sənayesində nanotexnologiyanın tətbiqinin elmi-texnoloji əsasları hazırlanmışdır. Müəyyən olunmuşdur ki, metal nanohissəciklərin neft quyularına daşıyıcılar vasitəsi ilə suspensiya halında daxil edilməsi nəticəsində sulaşmış laylarda mövcud olan karbonatlarla reaksiyaya girərək, karbon qazı yaradır və laylarda təzyiqi artırır. Bu prosesdə səthi aktiv maddələrin mühitdə əlavə karbon qazı yaratması ilə turşuluğun və təzyiqin artması hesabına təbəqələşmə baş verir. Bunun nəticəsində güclü axın alınır, süxurların yuyulması baş verir, neft axını quyu sisteminin keçiricilik qabiliyyətini yaxşılaşdırır və kollektora əlavə maye axınına şərait yaradır. Uzun müddət istismar olunmuş neft quyularının katalitik metal nanohissəcikləri vasitəsi ilə aktivləşdirilməsi praktikası böyük iqtisadi səmərə verməklə yanaşı neftçıxarmanın yeni texnoloji əsaslarının işlənməsinin stimullaşdırılmasına səbəb olur və karbohidrogenlərin qalıq payını azaldır. [6 s. 439]

Nəticə

Fəaliyyətsiz quyuların istismara verilməsi məsələləri həll edildikdə əsaslı təmir məsrəfləri, quyuların istismara giriş debitləri və onların vaxta görə dəyişməsi, quyunun gələcək əsaslı təmirədək işləmə müddətinin davamiyyəti nəzərə alınmalıdır. Azərbaycanın quru sahələrində olan neft yataqlarında fəaliyyətsiz quyuların istismara daxil olmasının səmərəli istiqaməti geoloji-texniki tədbirlərin tədbiqinin genişləndirilməsidir. Əlbəttə, belə təsir üsulları layın geoloji, geofiziki, fiziki-kimyəvi şəraitləri nəzərə alınaraq tətbiq edilməlidir.

ƏDƏBİYYAT

1. Сафаров Г.А. Экономические проблемы эффективности производства в нефтеотгаздобыче и методы их решения. Баку,1997.
2. Səfərov Q.Ə., Məmmədova M.B. Neftqazçıxarmada istehsalın səmərəliliyinin yüksəldilməsi ehtiyatları. Bakı, 2014.
3. H.Z. Tağıyev adına NQÇİ-nin illik hesabat (2015-2017-ci il) materialları.
4. Bağırov B.Ə. Neft-qaz mədən geologiyası. Bakı, 2011.
5. Мирчинк А.Ф. Физико-геологические проблемы повышения нефтеетдачи пластов. М., 2004.
6. Ə.M.Əliyev, A.G.Huseynov, K.S.Kərimov, Ü.Y.Hüseynova. Neft-qaz sənayesinin iqtisadiyyatı və idarə edilməsi. Dərslik, Bakı, 2016.

Нармина Гамид кызы Аббасова
доктор философии по экономике,
доцент Азербайджанского Государственного
Университета Нефти и Промышленности

Направление использования фонда бездействующих скважин в нефтедобыче

Резюме

Рассмотрены состояние эксплуатационного фонда скважин и ее влияние на уровень нефтедобычи, НГДУ им. Т.З.Тагиева. С применением линейной регрессии определены влияния геологических и технических мероприятий на уровеь добычи нефти вводимых скважин в эксплуатации из бездействия. Исследованы причины приводящие к остановке работы скважин и охарактеризованы основные направления их ввода в эксплуатации.

Ключевые слова: нефтедобыча, фонд скважин, нефтяные месторождения и залежи, нефтеотдача, геолого-технические мероприятия.

Narmina Hamid Abbasova
PhD in Economics, associate professor of
Azerbaijan State University of Oil and Industry

Direction of using a fund of idle wells in oil production

Summary

The state of the operating well stock and its impact on the oil production at NGDU named after A.Z.Tagieva were reviewed. Using the linear regression, the influence of geological and technical measures on the commissioning of wells in operation from inactivity was determined. The reasons leading to shutdown of the wells are investigated and the main directions of their commissioning in operation are characterized.

Key words: oil production, well stock, oil fields and deposits, oil recovery, geological and technical measures.

UOT 338.5

Sevil Abdul qızı XƏLİLOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi

İSTEHSAL STRUKTURLARININ MARKETİNQ İDARƏ EDİLMƏSİNƏ TƏSİRİ VƏ İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalədə istehsal strukturlarında marketinqin idarə edilməsinin təsiri, iqtisadi cəhətdən qiymətləndirilməsinin araşdırılmasından bəhs edilir. Müəssisələrdə marketinqin təşkil olunması zamanı istifadə edilən prinsiplər, funksiyalar və bir sıra ünsürlər də tədqiq edilmişdir. Xüsusilə sənaye məhsullarının bazar iqtisadiyyatında payı yüksək olduğuna görə bu sahədə marketinqin təşkili və inkişafına nəzər salınmış, neft və qeyri-neft sənayesi bazarında marketinqin təşkili və idarə edilməsi araşdırılmışdır.

Açar sözlər: istehsal, müəssisə, marketinq, iqtisadiyyat, məhsul, infrastruktur.

Giriş

Müasir şəraitdə müəssisələrdə istehsal strukturlarının səmərəli təşkilini həyata keçirmək üçün marketinq prinsip və funksiyalarından istifadə mütləqdir. Həmçinin, istehsal prosesinin təkmilləşdirilməsi baxımından marketinq xidmətlərinin istifadəsinin təmin edilməsi müəssisələr üçün vacib şərtlərdən biridir. Bunun üçün ilkin olaraq istehsal prosesinin təkmilləşdirilməsini təmin edən bir sıra amillər nəzərdən keçirilməlidir. Bu amillərə əmək proseslərinin səmərələşdirilməsi, işçilərin ixtisaslaşdırılması, istehsal proseslərində yeni texnologiyalardan istifadə edilməsi və s. daxildir. Hər hansı müəssisədə marketinq fəaliyyətinin düzgün təşkil edildiyini iqtisadi cəhətdən qiymətləndirmək üçün onun istehsal strukturunun yüksək tələbatlara cavab verib-vermədiyinə nəzər salmaq lazımdır. Son dövrdə müəssisələr əsasən məhsulun çeşidini, qiymətini, bazara təqdim edilməsi siyasətini istehlakçı tələbinə uyğun olaraq hazırlayırlar, bu da bazarda yüksək rəqabət yaradan əsas səbəblərdən biridir. Bunun üçün isə şirkət və müəssisələr istehsal prosesini dinamik dəyişməyə, məhdud maliyyə resursları ilə keyfiyyətli məhsul bazara təqdim etməyə çalışırlar.

Bazar şəraitində marketinqin idarə edilməsi əsasən müəssisə daxilində həyata keçirilən proseslərin makroiqtisadiyyat səviyyəsində keçirilən proseslərlə inteqrasiyası ilə müəyyən edilməlidir.

Marketinqin müəssisələrin istehsal strukturunda rolu

Müəssisələrin marketinq fəaliyyətini həyata keçirməkdə əsas məqsədi satışı artırmaq, alıcıların tələbatını ödəmək, məhsulun çeşidini və bazara təqdim olunacaq qiyməti formalaşdırmaq, məhsulun təqdimatını yüksək səviyyədə aparmaq, reklamını təşkil etmək və s.-dən ibarətdir. Bu da onu göstərir ki, "marketinq tədqiqatları marketinq fəaliyyətilə yanaşı, bütünlükdə müəssisənin istehsal-maliyyə fəaliyyətinin təşkilinin, planlaşdırılmasının və idarə edilməsinin əsasını təşkil edir." [1, s.31] Marketinqin idarəedilmə prosesi aşağıdakı kimidir:

İstehsal strukturlarında marketinq fəaliyyətini uğurlu şəkildə təşkil etmək üçün bazarın seqmentləşdirilməsi əhəmiyyətlidir. Bazarı seqmentləşdirərək istehlakçıların tələbatlarını, davranışını, məhsulun satışının təşkilini, rəqabət mühitini, rəqabətə davamlılığını ətraflı öyrənmək mümkün olur. Bazarı müvafiq qaydalara uyğun olaraq bir və ya bir neçə seqmentə böldükdən sonra, bunların arasından müəssisənin fəaliyyətinə uyğun gələn və müəssisənin satışını planlaşdırdığı məhsulun uyğun olduğu hədəf bazarın seçilməsi və ya məqsədli bazarın seçilməsi mühümdür. Bu baxımdan məqsədli bazarın strategiyalarına nəzər salınmalıdır:

- Bütün bazar strategiyası- bu zaman bazar seqmentləşdirilmir və mövcud olan bütün müştərilər hədəf seçilə bilir.
- Mərkəzləşdirilmiş marketinq strategiyası- bazar seqmentlərindən yalnız birinə yönəlmə.
- Fərqliləşdirilmiş marketinq strategiyası- bazar seqmentlərinə uyğun olaraq spesifik marketinq kompleksi ilə yönəlmə. Bu strategiyanı digər ikisindən fərqləndirən əsas xüsusiyyət müəssisə bazar seqmentlərindən birini itiridiyi zaman digəri ilə fəaliyyətinə davam edə bilməsidir [1, s.76].

Marketinqin təşkil olunmasında digər mühüm məsələlərdən biri isə marketinq kompleksi əsas ünsürlərinin təşkilidir.



Hər bir marketoloqun əsas vəzifəsi çalışdığı müəssisədə marketinqin fəaliyyətini düzgün təşkil etməkdən ibarətdir. Bunun üçün isə Əmtəə kompleksini müəyyən etmək lazımdır, hansı ki istehsalda, satışda, qiymətləndirmə, stimullaşdırma və bölgü zamanı əmtəələri bir sistem kimi cəmləşdirməkdən ibarətdir. Əmtəələr müxtəlif çeşid qruplarına bölünür. Bazara eyni növ əmtəəni təklif edən yüzlərlə müəssisə mövcud ola bilər, buna görə də əmtəə və ya məhsula düzgün qiymət qoyulması vacibdir. Çünki qiymət tələbə və bazardakı rəqabətə uyğun olaraq formalaşdırılmalıdır. Əmtəənin satışını təşkil etmək üçün isə bölgü kanalları müəyyənləşdirilməlidir. Son olaraq isə stimullaşdırma həyata keçirilməlidir, bu isə kütləvi informasiya vasitələri ilə reklamın təşkili və fərdi satış vasitəsilə mümkün olur.

Sənaye müəssisələrində marketinq fəaliyyətinin təşkili və inkişafı

Sənaye məhsullarının bazar iqtisadiyyatında olan həcmi yüksək olduğuna görə bu sahədə marketinq fəaliyyətinin təşkilinə nəzər salınması vacibdir. Marketinq elminin dünyada inkişaf mərhələsinə də diqqət yetirsək aydın olur ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin sənaye dövründən postsənaye dövrünə keçməsi 1960-1980-ci illərdə marketinqə yeni baxış formasının yaranmasına səbəb olmuşdur. Bu dövrdə nəhəng sənaye müəssisələrində kütləvi istehsaldan fərdi istehsala keçid başlamışdır, bu isə öz növbəsində orta və kiçik müəssisələrin sayının artmasına və inkişafına təsir etmişdir [2, s.31]. Bu o deməkdir ki, artıq müəssisələr istehlakçının tələbinə uyğun məhsulların istehsalına köklənmişdilər. Elmi-texniki informasiyanın da təsiri ilə artıq marketinq konsepsiyalarının geniş istifadəsinə başlanılmışdır. Bu da marketinqin həmin illərdə nə qədər təkamül etdiyini və artıq müəssisələrin onun təşkilinə əhəmiyyət verdiklərini sübuta yetirir.

Sənayenin ən mühüm məhsullarını xam neft, elektrik enerjisi, avtomobil benzini, azot, izopropil spirti, xlorid turşusu, çuqun, polad, sement, məişət soyuducuları, ət və ət məhsulları, un, alkoqollu içkilər, çay, tütün və s. təşkil edir [2, s. 202].

Ümumi Daxili Məhsulun strukturu, 2017



Mənbə: economy.gov.az

Diaqramdakı göstəricilərə əsasən 2017-ci ildə sənayedə 28 087,3 milyon manatlıq əlavə dəyər istehsal edilmiş, o da ümumi daxili məhsulun 40,1%-ni təşkil etmişdir. Ölkəmizdə sənaye sahəsində olan inkişaf digər bütün sahələri üstələmişdir [3]. Məhz buna görə də sənaye sahəsində marketinqin təşkilinə diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə sənaye müəssisələrinin istehsal etdiyi sənaye məhsullarının satışının təşkili üzrə proqram mövcuddur. Sənayenin istehsal proqramına əsasən məhsulun buraxılışı həcmi iki formada - natural və şərti-natural ölçülərlə aparılsa da həm də dəyər ifadəsində verilir, bura isə məhsulun ümumi, əmtəəlik, satış, təmiz (xalis), şərti-təmiz emal edilmiş dəyər göstəriciləri daxildir.

Hazırda bazar rəqabəti kifayət qədər yüksək olduğuna görə sənaye məhsullarının satışını təşkil etmək mürəkkəb məsələlərdən biridir. Müəssisələrin istehsal etdiyi məhsulun çeşidi və ona qoyulan dəyər istehlakçılarla bağlanan müqavilələr və bazar şəraitində tələb və təklifin uzlaşması əsasında təşkil edilir.

Sənaye müəssisələri üçün həlli vacib olan məsələlərdən digəri isə istehsal etdikləri məhsulun keyfiyyətinə təminat verməkdir. Məlumdur ki, hazırda məhsulların keyfiyyətini müəyyənləşdirən və standartlara uyğunluğunu qiymətləndirən beynəlxalq sertifikatın alınması müəssisələr üçün əhəmiyyətlidir. İSO (İnternational Organization for Standardization- Beynəlxalq Standartlaşdırma İdarəsi) Sertifikatı məhsulun yerli və beynəlxalq bazara çıxarkən onun satışına, keyfiyyətinə təminat verərək mühüm rol oynayır. İstehsalçı müəssisələr bu kimi sertifikatlarla istehlakçılara məhsullarının müvafiq qaydalara uyğun olaraq müxtəlif yoxlama proseslərindən, məsələn, istehsal prosesinin intensiviliyi və uzunluğu, ətraf mühitə və iqlimə təsiri, maddi və mənəvi stimulların xarakteri, iş yerində istehsal kollektivinin iş prinsipi və mühiti, informasiya xidmətinin təşkili və təchizi və s. keçdiyindən əmin edə bilirlər. Bu da onların məhsullarını bazarda marketinq fəaliyyətini və satışını uğurlu təşkil etməyə bilavasitə kömək edir.

Neft sənayesi bazarında marketinq fəaliyyətinin idarəsi və qiymətləndirilməsi

Neft dünyanın ən vacib təbii ehtiyatlarından biridir və neft sənayesi sahəsində daim inkişaf olduğuna görə bu sahə üzrə marketinqin təşkilinə nəzər salınması mütləqdir. Neft və neft məhsullarının xarici ticarətdə payı yüksəkdir. Artıq müasir dövrdə elmin və texnologiyanın inkişafı sayəsində bu sahədə bir çox yeniliklər və islahatlar müşahidə etmək mümkün olmuşdur. Xüsusilə bazar iqtisadiyyatına uyğun olan infrastrukturların yaradılması, neft və qazçıxarma qurğularının yeni texnoloji üsullarla tətbiqi, iri neft şirkətlərinin müştərək müəssisələrlə birgə fəaliyyəti və s. kimi yeniliklər bu sənaye sahəsinin uğurlu inkişafını göstərir.

Dünya Neft tələbatının 2017-2023-cü illər üzrə artım göstəricisi



Mənbə: iea.org

Hazırda dünyada tələbin yüksək olduğu sənaye neft-qaz sənayesidir. Yuxarıdakı diaqramda 2017-ci ildən 2023-cü ilə qədər olan proqnozlaşdırılmış neft tələbatının artım göstəricisinə əsasən artıq neçə ildir ki, Çin və Hindistan birlikdə qlobal neft tələbatının təxminən 50% -ni təşkil edir. Çin iqtisadiyyatı daha çox istehlakçıya yönəldiyi üçün, neft tələbatının artması 2010-17 dövrü ilə müqayisədə 2023-cü ilə qədər yavaşlayacaq. Əksinə, neft tələbatının artım tempi Hindistanda bir qədər qalacaq.

Görünüşdə heç bir pik neft tələbi olmadığı halda, böyümə sürəti 2018-ci ildə 1 gündə 1,4 milyon barrel artdıqdan sonra, 2023-cü ilə 1 milyon barrelə qədər azalacaq. Müxtəlif ölkələrdə neftin digər enerji mənbələri tərəfindən dəyişdirilməsinin bunun əsas səbəblərindən biri olması ehtimal edilir [4].

Azərbaycanın iqtisadiyyatında isə əsas yeri neft və qaz ixracından gələn gəlir təşkil etdiyi üçün bu sahənin marketinq fəaliyyətində inkişafa yönələn strategiyaların hazırlanması lazımdır. Belə ki, ölkəmizin sənayesində neftin payı 76%, qeyri-neft sənayesi isə 24% təşkil edir[3].

Azərbaycanda neft və qeyri-neft sənayesinin ümumi buraxılış bölgüsü (2017-ci il)



Mənbə: economy.gov.az

Ölkəmizdə neft sənayesində marketinqin təşkilini təkmilləşdirmək vacibdir. Milli neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi ilə material və enerji məsrəfinə, maya dəyərinə, mənfəətə, fondveriminə və digər sahələrə təsir edəcək marketinq fəaliyyətinin təşkili üçün lazım olan resurslardan maksimum istifadə edilməlidir. Ölkəmizdə olan xarici neft təşkilatlarının BP, LyukOil, StatOil, Amoco, yerli SOCAR neft şirkətinin marketinq prinsiplərinin müqayisə edilməsinə diqqət yetirilməlidir. Məsələn, tanınmış British Petroleum-un (BP) marketinq

prinsipinə baxsaq bu şirkət müştərilərlə birgə işləmək və dəyişən ehtiyaclarını başa düşmək üçün coğrafi seqmentasiya strategiyalarının birləşməsini istifadə edir. Markanın görünürlüyünü artırmaq üçün BP dəyər əsaslı yerləşdirmə strategiyalarından istifadə edilir. Həmçinin BP marketinq Miks geniş istifadəsi ilə də rəqiblərini üstələyir [5].

Qeyri-neft sənayesində marketinqin tətbiqi

Bütünlükdə qeyri-neft sənaye sahələri: istehsal vasitələri istehsal edən sahələrə (maşınqayırma, metallurgiya, elektrotexnika), istehlak vasitələri (xammal, hazır məhsul) və xidmət göstərən sahələrə bölünür [6, s.18].

Dünya İqtisadiyyatına ölkəmizin inteqrasiyasını təşkil etmək üçün mühüm olan məsələlərdən biri müasir şəraitdə yüksək texnologiyanın köməyilə istehsalı təkmilləşdirmək və intensivləşdirməkdən ibarətdir. Qeyd etmək vacibdir ki, iqtisadi cəhətdən inkişaf etmiş bir çox ölkələr, məsələn, ABŞ, Almaniya, Yaponiya, Çin, Cənubi Koreya öz istehsalı olan məhsullarla dünya bazarında qabaqcıl yeri tuturlar. Məlumdur ki, bu ölkələrin dünya bazarında rəqabətdə digər ölkələri üstələməsinin səbəbi isə onların həm yüksək keyfiyyətli məhsul istehsal etməsi və bunun xarici bazarlarda təqdimatının və reklamının yüksək səviyyədə həyata keçirilməsidir.

Artıq ölkəmizdə neftdən asılı olan iqtisadi sistemi dəyişmək üçün tədbirlər həyata keçirilir. Bunlara misal olaraq regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarını və milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin işlənib hazırlanmasını göstərmək mümkündür. Azərbaycanda 2010-cu ilədək iqtisadi artımın hərəkətverici amili neft sektoru olmuşdur, amma 2010-2014-cü illərdən başlayaraq artıma töhfə verən sahələrdən biri qeyri-neft sektorudur[7]. Ölkəmizin iqtisadiyyatının gücləndirilməsi üçün qeyri-neft sektorunun inkişafına xüsusi diqqət edilməsi vacibdir və ayrı-ayrı sahələrə məxsus marketinq planının və fəaliyyətinin həyata keçirilməsi şərtdir.

Nəticə

Nəzər yetirilməsi əhəmiyyətli olan məsələlərdən biri hər hansı bir sahədə marketinq fəaliyyətinin təşkil olunması üçün həmin sahənin inkişaf etdirilməli olan ölkənin iqtisadiyyatında bugünə kimi rolu və inkişaf etdirildikdən sonrakı rolunun necə olması ehtimalının araşdırılmasıdır. Bu zaman ölkənin iqtisadiyyatı, xarici bazara çıxarmaq istədiyi məhsulun bazardakı rəqibləri, satış və təqdimatı planı və s. araşdırılaraq marketinq planı kompleks şəkildə hazırlanmalıdır.

Məsələn, ölkəmizdə qeyri-neft sektorunun inkişafını təmin etmək üçün ilkin olaraq xarici investisiyaların ölkəyə cəlb edilməsi və istehsalın stimullaşdırılması lazımdır ki, hazırlanan məhsullar beynəlxalq standartlara uyğun gəlsin və qlobal bazarda rəqabətə davamlı olsun. Xarici investisiyanı isə ölkəyə cəlb etməyin ən yaxşı yolu ölkənin tanıtımının beynəlxalq səviyyədə həyata keçirilməsindən keçir.

Digər mühüm məsələlərdən biri yerli müəssisələrin fəaliyyətinin uğurlu təşkili üçün sahibkarlara güzəştli şərtlərlə maliyyə dəstəyi və kreditlərin verilməsidir. Bunun sayəsində sahibkarlar maliyyə təminatını yaxşılaşdıra və xarici bazarlara çıxış imkanlarını genişləndirə bilərlər.

Son olaraq, müasir dövrdə milli sənayenin inkişafının intensivləşdirilməsi üçün rəqabət qabiliyyətinin yüksəldilməsi, dayanıqlılığın və davamlılığın artırılması lazımdır. Ən əsası sənaye siyasətində innovasiyayönümlü modelin tətbiqi olmaldır ki, bu da yüksək texnologiyalı və kapitaltutumlu istehsalı inkişaf etdirməyə kömək edir.

ƏDƏBİYYAT

1. Əliyev T. Marketinqin təşkili və idarə olunması: neft emalı və neft-kimya sənayesi müəssisələrində - Bakı: ADNA, 2004.- 568s.
2. TEK Ö.B. Pazarlama ilkeleri, global yönetimsel yaklaşım // Türkiye Uygulama ları, 8 Baskı. - İstanbul: Beta Basım A.Ş., 1999. - 902s.

3. http://economy.gov.az/article/azerbaycan-respublikasinda-senayenin-inkishafi-haqqinda-2017-ci-ilin-1-ci-rubu-uzre/28197 10/08/2018
4. https://www.iea.org/oil2018/ 11/08/2018
5. https://www.marketing91.com/marketing-strategy-british-petroleum/ 14/08/2018
6. Abbasov İ., Əliyev T. Qeyri-neft sənayesinin iqtisadiyyatı. - Bakı: Biznes Universiteti, 2017. - 501s.
7. http://www.azerbaijan-news.az 20/08/2018.

Севиль Абдул кызы Халилова
старший предподаватель, Азербайджанский
Государственный Экономический Университет

Влияние производственных структур на управление маркетингом и экономическую оценку

Резюме

В статье рассматривается влияние управления маркетингом на структуры производства и экономическая оценка продукта. Изучены принципы, особенности и элементы, используемые при организации маркетинга. В частности, из-за высокой доли промышленной продукции в рыночной экономике изучалась организация и развитие маркетинга в этой области, изучался маркетинг и маркетинг нефтяной и не нефтяной промышленности.

Ключевые слова: производство, предпринимательство, маркетинг, экономика, продукция, инфраструктура.

Sevil Abdul Khalilova
Head lecturer, Azerbaijan State
Economic University

Effects of production structures on marketing management and economic evaluation

Summary

The article deals with the impact of marketing management on production structures, and the economic evaluation of the product. The principles, features and elements used in organizing marketing have also been studied. Particularly because of the high share of industrial products in the market economy, the organization and development of marketing in this area has been studied, marketing of oil and non-oil industry has been analyzed.

Key words: production, enterprise, marketing, economy, product, infrastructure.

UOT 330.35

Anar Akif oğlu MƏMMƏDOV
Azərbaycan Kooperasiya Universiteti, baş müəllim

İQTİSADİ ARTIMIN MAHİYYƏTİ VƏ ONUN NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə

İqtisadi artımın öyrənilməsi, hər şeydən əvvəl, hamını düşündürən bir suala cavab tapmağa sövq edir - necə etmək olar ki, cəmiyyətdə istehsal olunan ümumi milli məhsul hamının tələbatını ödəməklə onların yaxşı yanaşmasına imkan yaratsın. Bu baxımdan iqtisadi artımın əhəmiyyətinin müəyyən edilməsi zərurətə çevrilir.

İqtisadi artım mahiyyətcə müəyyən müddət ərzində istehsal edilmiş ümumi milli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir. Hər halda iqtisadi artım iqtisadi məqsəd olmaqla əhalinin həyat səviyyəsinin müəyyən edilməsində müəyyənedici mövqe tutur.

Açar sözlər: iqtisadi artım, iqtisadi inkişaf, rifah halı, ümummilli məhsul, xalis milli məhsul, tələb, təklif.

Giriş

Müasir iqtisadi nəzəriyyələr sistemində iqtisadi artım nəzəriyyəsinin öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Çünki iqtisadi artım, qısa müddət ərzində istehsalın artım və azalma sürətini deyil, uzun müddət ərzində iqtisadi inkişafın parametrlərini nəzərə alaraq onun real həcminin dəyişilməsi istiqamətini müəyyən edir. İqtisadi artım, ümumi müvazinətin yaranmasından əmələ gələn maksimum rifah halını əks etdirdiyindən, bu istiqamətdə baş verən hər cür dəyişikliklərin nəzərə alınması vacib hesab olunan məsələlərdəndir. Ona görə ki, iqtisadiyyatın bir müvazinətli vəziyyətə daxil olması, rıfah halının yaxşılaşdırılmasını, real imkanları üzə çıxarır.

Ona görə də iqtisadi artım nəzəriyyəsini şərh edərkən onun mahiyyətini izah etməklə yanaşı, eyni zamanda onun məqsədini, amillərini, keyfiyyət halını, tiplərini aydınlaşdırmaq zərurəti meydana çıxır.

İqtisadiyyatın əsas ziddiyyəti olan iqtisadi resursların məhdudluğu ilə ictimai tələbatın hüdudsuzluğunun həll olunmasında, iqtisadi artımın oynadığı rolun diqqət mərkəzində saxlanması ilə əlaqədar olaraq, dinamik müvazinətin inkişaf modellərinin fərqləndirilməsində xüsusi əhəmiyyət vardır.

İqtisadi artım anlayışı

İqtisadi artım dedikdə, həyat səviyyəsinin yüksəldilməsinə imkan verən, kəmiyyətcə çox və keyfiyyətcə yaxşı əmtəə və xidmətlərin istehsalı başa düşülür.

İqtisadi artımın öyrənilməsi, hər şeydən əvvəl, hamını düşündürən bir suala cavab tapmağa sövq edir. Necə etmək olar ki, cəmiyyətdə istehsal olunan ümumi milli məhsul hamının tələbatını ödəməklə onların yaxşı yanaşmasına imkan yaratsın. Bu baxımdan iqtisadi artımın əhəmiyyətinin müəyyən edilməsi zərurətə çevrilir.

İqtisadi artım mahiyyətcə müəyyən müddət ərzində istehsal edilmiş ümumi milli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir. Hər halda iqtisadi artım iqtisadi məqsəd olmaqla əhalinin həyat səviyyəsinin müəyyən edilməsində müəyyənedici mövqe tutur. Bu vaxta qədər bir qayda olaraq, iqtisadi artım yalnız ölkələrin iqtisadi potensialını müəyyən edən sirf kəmiyyət göstəricisi kimi öyrənilmişdir. Halbuki, iqtisadi artım mahiyyət etibarilə kəmiyyət və keyfiyyət anlayışlarını özündə vəhdət halında əks etdirən prosesdir. Sual oluna bilər ki, iqtisadi artım maddi nemət və xidmətlərin həcmini əks etdirməklə yanaşı onların keyfiyyətini özündə necə əks etdirə bilər? [1, s. 32]

Burada nəzərə almaq lazımdır ki, əgər adambaşına maddi və mənəvi nemətlər artırsa, yəni tələb, həm də onun kəmiyyəti ödənilmirsə, deməli, yeni tələbatların meydana gəlməsinə səbəb olur. Belə şəraitdə iqtisadi artım yeni keyfiyyət halına düşür. Bu da yeni təklifin edilməsinə sövq edir. İqtisadi artımın belə hərəkəti ümumi müvazinətin, yəni məcmu tələb və məcmu təklif arasındakı nisbətin həm qorunmasına, həm də pozulmasına səbəb olur. Məcmu tələb və məcmu təklif arasındakı nisbətin qorunub saxlanılması, həm də onların pozulması prosesi, iqtisadiyyatın müvazinətli hala gətirilməsi məhz iqtisadi artımdan asılıdır. Deməli, iqtisadi artım - ümumi müvazinətin pozulması səbəblərini əks etdirməklə, müvazinətin bir vəziyyətdən digər vəziyyətə düşməsinə səbəb olur. Ona görə də iqtisadi artımı müşahidə olunmayan ölkələrdə tələb və təklif arasındakı zəruri nisbəti qoruyub saxlamaq olar. Çünki, ümumi müvazinətə görə məcmu tələb və məcmu təklif müəyyən dövr ərzində uyğun gəlməlidir. Lakin həm məcmu tələbin, həm də məcmu təklifin kəmiyyətləri müxtəlif amillərin təsiri nəticəsində uyğun gəlmədiyindən iqtisadi artım da daima düzxətli istiqamətdə fəaliyyət göstərmir. Daha doğrusu, iqtisadi artım sürətində daima qalxma, enmə və ya dalğavari proses müşahidə olunur. İqtisadi artımın müasir problemləri içərisində bu cəhətə xüsusi diqqət yetirmək laşımdır. İqtisadi artımın sürətindən asılı olaraq iqtisadiyyatın tarazlı inkişafını təmin etmək olar. Bütün canlı aləm kimi iqtisadiyyat da daima hərəkət və fəaliyyətdə olmalıdır. Süstlük, ətalət, qeyri-sabitlik iqtisadiyyatın ən pozucu elementidir.

Bəlli olduğu kimi, kəmiyyət dəyişiklikləri hər şəraitdə iqtisadi artımın dinamikasını xarakterizə edəcəkdir. Lakin iqtisadi dəyişikliklər nəzərə alınmasa, istehsalda əldə olunan son nəticənin mahiyyəti də öz əhəmiyyətini itirmiş olur. Yəni əgər cəmiyyətdə tələbata daxil olmayan külli miqdar məhsul istehsal edilmişsə, resurslardan tam istifadə olunmuşsa, əhalinin məşğuliyyəti tam təmin olunmuşdursa, bu hələ o demək deyildir ki, ölkənin iqtisadi artım sürəti yüksəlmişdir. Belə vəziyyət yalnız müharibə şəraiti üçün xarakterik ola bilər. Digər tərəfdən, belə vəziyyət keçmiş İttifaqın yeritdiyi hərbi - siyasi doktrinası üçün səciyyəvi hal idi. İnzibati – amirlik sisteminə əsaslanıb iqtisadi sistemin üstünlüklərini sübuta yetirmək üçün hərbi - siyasi xəttin yeridildiyi bir şəraitdə iqtisadi artımı yalnız kəmiyyət cəhətdən xarakterizə etmək əlverişli olurdu. Lakin iqtisadi həyat sübut edir ki, məhsuldar qüvvələrin kəmiyyətcə artımı (tank, qırıcı təyyarələr, kosmik raketlər, nüvə silahları, sualtı gəmilər və s.) yalnız müharibə illərini sərf - nəzər etməklə, təkrar istehsalın son nəticələrində reallığa doğru heç bir irəliləyiş baş vermir. Bu xəttin davam edilməsi, əmək qabiliyyətli əhalinin zahirən məşğuliyyətini təmin etsə də, əldə etdikləri yaşayış vasitələri bütün şəraitdə minimum səviyyədən yuxarı qalxmırdı. Ona görə də iqtisadi artımı xarakterizə edərkən mütləq onun kəmiyyət tərəfi ilə yanaşı keyfiyyət tərəfini də nəzərə almaq lazımdır. Bu bizim ölkənin iqtisadiyyatında əks olunmuş və formalaşmış totalitar təsərrüfat forması ilə təşəkkül tapmışdır. Bütün maddi nemət və sərvətlər dövlət mülkiyyətindədir. Nə qədər ki, iqtisadiyyatda vahid dövlət mülkiyyəti fəaliyyət göstərir, orada hansı siyasi qüvvələrin olmasından asılı olmayaraq xalqın xeyrinə heç bir irəliləyiş baş verməyəcəkdir. Bunun üçün heç də bir əlavə dəlil və sübut gətirməyə ehtiyac yoxdur, çünki dövlət bütün xalqın mənafeyini ümumilikdə əks etdirirsə də iqtisadiyyatın inkişafı yalnız adamların şəxsi mənafelərinin ödənilməsi şəraitində baş verir. [2, s. 78]

Ona görə də nə qədər ki, ölkəmizdə dövlət mülkiyyəti ilə rəqabət apara biləcək mülkiyyət strukturları yaradılmayıb, iqtisadi artımın reallığından danışmağa dəyməz, hər halda bizə aydın olmalıdır ki, əhalinin tələbatını ödəyən məhsullar istehsal etmədən, xidmətlər görmədən, bundan cəmiyyət nəinki udur, əksinə, bununla o, cəmiyyətdə növbəti illər üçün artacaq böhran və tənəzzüllərin təməl daşını qoyur. Deməli, böhranyaradıcı amillərin meydana gəlməsi iqtisadi artımda kəmiyyət göstəricilərinin rolunun qiymətləndirildiyi şəraitdə baş verir.

Ancaq belə düşünmək olmaz ki, iqtisadi artımın məqsədi cəmiyyətin və onun üzvlərinin artmaqda olan tələbatını ödəyən maddi nemətlər istehsal etməkdən ibarətdir. Nəzərə almaq lazımdır ki, əgər bu məhsullar adamların həyat səviyyəsini keyfiyyətcə yaxşılaşdırmırsa, onda onlar-

da iqtisadi artımın məzmununu əks etdirir. Ağ - qara rəngli televizorların piştaxtalarda dolu olduğu vaxt, onların alınmamasını yada salmaq kifayətdir. Çünki, artıq dünya ölkələrinin çoxunda məsafədən idarə olunan, çoxkanallı televizorların bir neçə nəsli istehsal edilmişdir. Deməli, bütün bu deyilənlərdən belə nəticəyə gələ bilərik ki, iqtisadi artım təkrar istehsalın nəticəsi kimi onun kəmiyyət və keyfiyyətini əks etdirən prosesdir. Başqa sözlə, iqtisadi artım təkrar istehsalın son nəticəsinin dinamikasını əks etdirir. Dinamik iqtisadi inkişaf bir qayda olaraq, məhdud iqtisadi resusrslardan tələbata uyğun istifadə olunması imkanlarından asılıdır. Təkrar istehsalın kəmiyyət tərəfi bir tərəfdən istehsal olunan məhsulların həcminin dinamikasını, digər tərəfdən iqtisadi resurslara çəkilən xərc və əldə olunan nəticənin nisbətini əks etdirir. Lakin, təkrar istehsalın keyfiyyət tərəfi xalq təsərrüfatının bütün sahələrində gedən proqressiv struktur dəyişikliklərini, onların proporsionallıq və tarazlıq səviyyəsini, təsərrüfatçılığın təşkil və idarə olunması istiqamətini, istehsalın bütün amillərindən necə istifadə olunmasını əks etdirir. Başqa sözlə, iqtisadi artım anlayışı nəticə etibarilə iqtisadiyyatın başlıca probleminin - nə, necə, kimin üçün məsələsinin həll olunması imkanını və səviyyəsini xarakterizə edir. Deməli iqtisadi artımın səviyyəsi, iqtisadi sistemlərin müxtəlifliyindən asılı olmayaraq iqtisadiyyatın başlıca probleminin necə həll olunmasını əks etdirir. Digər tərəfdən, iqtisadi artım, millətin naliyyətlərini və uğursuzluqlarını göstərməklə, iqtisadi siyasət sahəsində - vergilər, xərclər, qiymət səviyyəsi və tədavülə pul buraxılmasındakı dəyişikliklərin edilməsinə gətirib çıxaracaqdır. [3, s. 136]

İqtisadi artımın amilləri

Məhsul və xidmətlərin istehsalı müəyyən şərtlərin və şəraitin olmasını tələəb edir. Bu şərtlər və şəraitin məcmusu iqtisadi artımın amilləri hesab olunur və iqtisadi artıma bilavasitə və dolayı təsir göstərir. Bilavasitə təsir göstərən amillər aşağıdakılardır:

- təbii resursların kəmiyyəti və keyfiyyətinin yüksəldilməsi;
- əmək resurslarının kəmiyyəti və keyfiyyəti;
- əsas kapitalın həcminin artırılması və keyfiyyətinin yaxşılaşdırılması;
- istehsalın texnologiyasının və təşkilinin təkmilləşdirilməsi;
- sahibkarlıq qabiliyyətinin artırılması.

Bunlar iqtisadi artımın Təklif amilləri adlanır. İqtisadi artımın Tələb amilləri bunlardır:

- məcmu xərclərin səviyyəsinin yüksəldilməsi;
- artan resursların kəmiyyətinin səmərəli bölgüsü.

XXI əsrin başlanğıcında (XX əsrin II yarısından başlayaraq) iqtisadi artımın yeni amilləri (keyiyyəti):

- istehsalın artımının əsasən inkişafın intensiv amilləri, ETT-nin müasir nailiyyətləri əsasında həyata keçirilməsi;
- iqtisadi artımın sosial yönümünün güclənməsi, insan kapitalına investisiyaların artması, asudə vaxtın çoxalması;
- istehsalın əsasən son məhsul buraxılışına yönəlməsi;
- iqtisadi artımın istehsalın strukturunun yenidən qurulması ilə əlaqələndirilməsi;
- iqtisadi artımın sürətinin zəifləməsi və ölkələr arasında nisbi birləşmə meylinin baş verməsi;
- istehsalın genişlənməsinin ətraf mühitə mənfi təsirinin mümkünlüyünün nəzərə alınması;
- əmək şəraitinin yaxşılaşması və insanların həyatının təhlükəsizliyinin güclənməsi;
- əmək bazarında təklifin həcminin artması şəraitində tam məşğulluğun təmin olunması imkanlarının artması.

İqtisadi artım modelləri

İqtisad elminin qarşısında dayanan mühüm problemlərdən biri iqtisadi artımın modelləşdirilməsidir. İstənilən modelləşdirmə hadisənin mahiyyətinin sadələşdirilmiş ifadəsini nəzərdə tutur. Bu zaman "model və mahiyyət" arasında seçim etmək lazımdır. Təcrübə göstərir ki, hadisənin mahiyyətinin riyazi alətlərin tətbiqi olmadan təsviri heç də həmişə həqiqətin mahiyyətinin

dərkinə səbəb olmur. Eyni zamanda iqtisadi düşüncə məntiqinin riyazi məntiqlə əvəzlənməsi reallıqdan uzaqlaşmaq və mücərrəd riyaziləşdirmək təhlükəsini doğurur.

Uzunmüddətli iqtisadi artımın təmin edilməsi problemi və onun həlli variantları bir sıra tarixi mərhələlərdən keçmiş və müxtəlif nəzəri məktəblərin nümayəndələri tərəfindən müxtəlif cür həll olunurdular. [4, s. 94]

Klassik məktəbin sistemləşdirilmiş iqtisadi artım nəzəriyyəsi olmayıb, lakin o, milli sərvətin artım amilləri və onların gəlirlərin yenidən bölgüsü ilə uzlaşması ilə məşğul olmuşdur. Klassiklərin əsas fikri bundan ibarət idi ki, sərvətin artımı istehsal amillərinin kəmiyyəti və onların məşğulluğu ilə müəyyənləşir.

Klassiklərdən fərqli olaraq K.Marks mənfəət normasının azalma meylini torpağın azalan məhsuldarlığı və renta amilinin təsiri ilə deyil, kapitalın üzvi quruluşu (C:V) ilə əlaqələndirirdi. Kapitalın üzvi quruluşunun artması texniki tərəqqi ilə bağlıdır. Tərəqqi yeni keyfiyyətli əməyin hesabına daim kamilləşən texniki zəmin əsasında iqtisadi artım mənbəyi kimi ifadə olunur. Hər bir kapitalist izafi dəyərin çevrilmiş forması olan mənfəəti kapitalın artımına yönəldir.

İqtisadi artımla əlaqədar marjinalist inqilabı aşağıdakı 3 verilənə əsaslanır:

1. İnsanın iqtisadiyyatın subyektiv - rasional amili kimi fəal roluna;
2. İqtisadiyyatın bazarla şərtlənən müvazinətli inkişafının dərkinə;
3. Müvazinətli vəziyyətin son hədliyinə.

Marjinalist məktəbin əsasında insanın bazarın özütənzimlənən müvazinət sistemi kimi müəyyənləşdirilən hərəkətləri və davranışları durur. Marjinalist məktəbin iqtisadi artım modeli belədir:

$$DY=DL+DK$$

Burada - DY - milli gəlirin orta illik artımı; DL - əməyin artımı; DK - kapitalın artımıdır.

Bu, əmək və kapitalın asılılığının iki amilli ilk ən sadə modelidir. Sonralar bu modeldən neoklassiklər tərəfindən KOBB-DUQLAS funksiyasında modifikasiya edilmiş şəkildə istifadə olunmuşdur:

DY=DL+DK+n, burada n - milli gəlirin keyfiyyət amili gəlirlərini, məsələn, ETT-nin payını səciyyələndirir.

Həddən artıq riyaziləşdirmə təhlükəsinə ilk dəfə marjinalizm tərəfdarı A.Marşal diqqət yetirmişdir. İqtisadiyyatın böhranlı vəziyyətini təhlil edən Keynisçi məktəbin artım modelləri aşağıdakı verilənlər üzərində qurulmuşdur:

1. İqtisadi artım yığım (qənaət edib saxlama) prosesi ilə bağlıdır;
2. İstehsal amilləri qarşılıqlı əvəzlənən deyillər;
3. İ=S (investisiyalar = yığım (əmanət) pulları);
4. Milli gəlirin artımı yalnız kapital yığımı norması ilə müəyyənləşir;
5. Qiymətlər çevik deyil;
6. Subyektlərin gözləmələri statikdir;
7. Kapital tutumu yalnız istehsalın texniki şəraitləri ilə müəyyənləşir.

Qarışıq iqtisadiyyat şəraitində iqtisadi artımın mühüm rolunun dərkində institusionalizm məktəbi böyük rol oynamışdır. Burada sosial ədalət və iqtisadi səmərərlilik məsələlərinə böyük diqqət verilir. İnsan amilinin prioritetliyi zəminində bu iki prinsipin sintezi XXI əsr iqtisadiyyatının əsas problemidir. Bu model digər istiqamətlərin: neoklassik, neokeynisçi və neoinstitusional - təkmilləşdirilməsi prosesində özünə yol açdı. [5, s. 282]

Solou modeli neoklassik yanaşma tərəfdarlarının baxışları çərçivəsində ən sadə müasir iqtisadi artım modelidir. Modeldə əsas subyektlər ev təsərrüfatları və firmalarıdır. Onun əsas parametrləri qismində bunlar nəzərdən keçirilir: əhalinin milli gəlirində yığımın xüsusi çəkisi. (Manafov səh. 62) Bütün amillər qarşılıqlı əvəzlənən olduğundan ehtimal olunur ki, kapitalla silahlanma müxtəlif zaman kəsiklərində dəyişir. Solou modelində iqtisadi artım iki amilin: a) texniki

tərəqqi, b) iqtisadi resurslardan səmərəli istifadənin nəticəsi kimi xarakterizə olunur. Bu modeldən irəli gələn əsas nəticələr aşağıdakılardır:

1. İqtisadiyyatın dayanıqlı müvazinətli iqtisadi artım tempi əmək resursları keyfiyyətinin artım tempi ilə müəyyənləşir;
2. Modelin texnoloji dəyişmə şərtləri iqtisadi artım templərinin artmasına səbəb olur;
3. Yığım səviyyəsi qısamüddətli dövrdə artım tempinə təsir edir, uzunmüddətli dövrdə bu təsir olmaya da bilər;
4. İqtisadi artım tempinin optimallıq meyarı adambaşına düşən istehlakın (yığımın "qızıl qaydası") optimallaşdırılmasıdır. Bu o deməkdir ki, iqtisadi artım yalnız mümkün istehlak səviyyələrindən maksimumuna gətirib çıxartdıqda səmərəli olur.

Nəticə

Yazdıqlarımızdan belə nəticəyə gəlmək olar ki, dövlətin qarşısında duran əsas məqsədlərdən biri iqtisadi artımdır. İqtisadi artım dedikdə, həyat səviyyəsinin yüksədilməsinə imkan verən, kəmiyyətcə çox və keyfiyyətcə yaxşı əmtəə və xidmətlərin istehsalı başa düşülür. Başqa sözlə, iqtisadi artım dedikdə, iqtisadiyyatın uzunmüddətli müsbət dinamikası başa düşülür ki, bu da milli iqtisadiyyatın mütləq və nisbi kəmiyyət dəyişmələrinin yekun kəmiyyət göstəriciləri: artım tempi və ÜDM-in həcmi ilə ifadə olunur. İqtisadi artım iqtisadiyyatın yalnız kəmiyyət tərəfini deyil, həm də keyfiyyət tərəfini özündə əks etdirir.

İqtisadi artımın məqsədi bu əbədi ziddiyyəti - insanların daim genişlənən və yeniləşən tələbatı ilə onun ödənilməsi səviyyəsi arasındakı ziddiyyəti həll etməyə cəhd göstərməkdir. Bu ziddiyyət əbədi olduğu üçün iqtisadiyyat daim fəaliyyətdə, inkişafda olmalıdır. Cəmiyyətin məhsuldar qüvvələrinin daimi, mütərəqqi inkişafı nəticəsində real ümumi məhsulun uzunmüddətli artımı xarakterikdir.

ƏDƏBİYYAT

1. Meybullayev M.X. Makroiqtisadiyyata giriş. Bakı, 2011.
2. Əliyev Ü.Q. Keçid dövlətinin milli iqtisadiyyatı. Bakı, 2018.
3. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, 2003.
4. Qradov A.K. Milli iqtisadiyyat. Rus dilindən tərcümə. Bakı, 2008.
5. Hüseynov.F.İ. İqtisadi nəzəriyyənin əsas prinsipləri. Monoqrafiya. Bakı, 2015.

Анар Акиф оглы Мамедов
Азербайджанский Университет Кооперации,
старший преподаватель

Суть экономического роста и его теоретические аспекты

Резюме

Изучение экономического роста в первую очередь обусловлено ответом на вопрос, который все поднимает - как можно использовать общий национальный продукт, созданный в сообществе, для удовлетворения потребностей всех, позволяя им лучше подходить? В этой связи необходимо важное значение экономического роста.

Экономический рост отражает процентное увеличение валового национального продукта или чистого национального продукта, произведенного в течение определенного периода времени или суммы на душу населения. В любом случае экономический рост является

определяющим фактором при определении уровня жизни населения, являющегося экономическим.

Ключевые слова: экономический рост, процветание, благосостояние, национальный продукт, чистый национальный продукт, спрос, предложение.

Anar Akif Mammadov
Azerbaijan Cooperation University,
senior lecturer

The essence of economic growth and its theoretical aspects

Summary

The study of economic growth is primarily driven by the answer to a question that all raises - how can a general national product produced in the community be used to meet the needs of all, allowing them to have a better approach? In this regard, the importance of economic growth is necessitated.

Economic growth reflects the percentage increase of the gross national product or net national product generated for a certain period of time or the amount per capita. In any case, economic growth is a determining factor in determining the standard of living of the population, being economic.

Key words: economic growth, prosperity, welfare, national product, net national product, demand, supply.

II BÖLMƏ
AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

UOT 338.43

Elnurə Bünyat qızı MƏMMƏDOVA
İqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universitetinin
«Maliyyə və bank işi» kafedrasının müdiri,
AKU-nun doktorantı

MODERNLƏŞMƏ ŞƏRAİTİNDƏ AQRAR SAHƏNİN İNKİŞAFINA İNVESTİSİYA YATIRIMLARI ƏRZAQ TƏHLÜKƏSİZLİYİ ÜÇÜN BAŞLICA AMİLDİR

Xülasə

Hər kəsə məlumdur ki, ərzaq təhlükəsizliyi hər bir ölkə iqtisadiyyatının iqtisadi və milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi dövlət üçün mühüm əhəmiyyət kəsb edir. Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi probleminin həlli vacib olan sosial-iqtisadi problemlərdən biridir. Belə ki, bu problemin həlli milli, iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların genis spektrini əhatə edir. Buna görə də dövlət səviyyəsində sosial-iqtisadi sistem ərzaq təhlüksizliyi ilə sıx əlaqədardır. Məhz bu baxımdan ərzaq təhlükəsizliyinin təmini daxili resursların mobilizə edilməsinə əsaslanmışdır. Bu yanaşma milli iqtisadi islahatlar strategiyasının islənib hazırlanması, dayanıqlı inkisafı, effektiv hüquqi normaların istifadəsi, əhalinin həyat şəraitinin yaxşılasdırılması ilə bağlı bir çox dəyişikliklərə əsaslanır.

Açar sözlər: modernləşmə, aqrar sahə, investisiya, maliyyə münasibətləri, ərzaq təhlükəsizliyi, təhlükəsiz qida.

Giriş

Modernləşmə şəraitində aqrar sahənin maliyyə təminatının yaxşılaşdırılması və bu sahədə maliyyə münasibətlərinin təkmilləşdirilməsinin ən başlıca istiqamətlərindən birini aqrar sahəyə dövlət yardımları mexanizmləri təşkil edir. Aqrar sahənin özünəməxsus spesifik xüsusiyyətləri bütövlükdə bu sahənin dövlət dəstəyində olmasını obyektiv zərurətə çevirir. Modernləşmə şəraitində aqrar sahəyə dövlət yardımı daha geniş məqsədləri əhatə edir. Belə ki, aqrar sahənin dövlət tərəfindən dəstəklənməsində əsas başlıca məqsədlərdən biri geniş təkrar istehsal prosesinin uğurla başa çatdırılması və mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının zərərlə işləməsinin qarşısını almaqdan və maliyyə baxımından müflisləşməsinin neytrallaşdırılmasından ibarətdir.

Modernləşmə şəraitində aqrar sahənin inkişafına investisiya yatırımları

Modernləşmə şəraitində aqrar sahəyə göstərilən dövlət yardımları daha geniş əhatə dairəsinə malik olur. Belə ki, modernləşmə şəraitində aqrar sahəyə dövlət yardımları nəinki aqrar əmtəə istehsalçılarının zərərlərinin kompensasiya olunmasına və kənd təsərrüfatı istehsalının iqtisadi cəhətdən səmərəli qurulmasına istiqamətlənir və eyni zamanda bu prosesə məqsədli dövlət proqramları da şamil edilir. Məqsədli dövlət proqramları çərçivəsində kənd təsərrüfatında istehsalın genişləndirilməsi, eləcə də istehsalın intensivləşdirilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi ön plana çəkilir. BMT-nin ərzaq təhlükəsizliyi barədə hesabatında 2011-2013-cü illər ərzində dünya əhalisinin 12 faizinin, yəni 842 milyon insanın xroniki aclıqdan əziyyət çəkməsi haqqında qeyd olunmuşdur. Təbii ehtiyatların getdikcə tükəndiyi bir şəraitdə

ərzaq təhlükəsizliyinin təmin edilməsi, demək olar ki, qlobal bir problemə çevrilməkdədir. Bu problem vətənimiz olan Azərbaycandan da yan keçməmişdir və nəticə etibarı ilə Azərbaycanda ərzaq təminatının maddi əsasını təşkil edən sahələrin məhz regionlar üzrə ixtisaslaşmasına səbəb olmuşdur. Ölkə rəhbərliyi tərəfindən qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi daima diqqət mərkəzində saxlanılır. Kənd təsərrüfatına dövlət yardımının ən mühüm istiqamətlərindən biri də aqrar sahəyə münasibətdə daha təkmil xarakter daşıyan, aqrar sahənin maraqlarını düzgün nəzərə ala bilən vergi siyasətinin həyata keçirilməsidir. Aqrar sahədə mövcud vergi, sistemi demək olar ki, tam mənası ilə torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olunmasını nəzərdə tutur. Bu baxımdan ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədi ilə Prezident İlham Əliyevin imzaladığı "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nı vurğulamaq yerinə düşər. Məhz bu proqramın tətbiqi ilə əhalini yerli məhsullarla təmin edən fermerlərin səmərəli fəaliyyəti üçün önəmli güzəştlər müəyyən edilir. Torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmiş fermerlər güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika, damazlıq mal-qara ilə təmin olunurlar.

Aqrar sahənin inkişafı ərzaq təhlükəsizliyi üçün başlıca amildir

Məhsuldarlığın, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinə nail olunması üçün aqrar sahədə aparılan islahatlar müsbət nəticəsini verir. Rayonlarda və iri şəhərlərdə daimi fəaliyyət göstərən ixtisaslaşdırılmış "fermer" mağazaları"nın, "yaşıl market"lərin, topdansatış mərkəzlərinin yaradılması zərurəti vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2014-cü il 16 yanvar tarixli Sərəncamına uyğun olaraq, həyata keçirilən tədbirlər çərçivəsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 221 milyon manat, tutumu 206 min ton olan 12 logistik mərkəzin, illik emal gücü 10,5 min ton ət emalı (kəsim fabriki) müəssisəsinin, Bakı və Gəncə şəhərlərində, Şəmkir və İsmayıllı rayonlarında 4 ixtisaslaşdırılmış yaşıl marketin yaradılmasına 88 milyon manat güzəştli kredit verilib. Bu layihələrin icrası 1100-dən çox yeni iş yerinin yaradılmasına imkan verir. "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın qəbulu isə respublikada əhalinin qida məhsulları ilə etibarlı təminatına yönələn dövlətin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Çünki qida təhlükəsizliyinin təmin edilməsi, keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində nəzərəçarpan nailiyyətlər ərzaq təhlükəsizliyinin təminatı baxımından da əhəmiyyətlidir. Beləliklə, ölkədə əhalini təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin etmək, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyini daha da artırmaq qarşıdakı dövr üçün də əsas vəzifələrdən biridir.

Nəzərdə tutulan hədəf ölkədə bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsini, milli standartların dünya bazarlarının tələblərinə tam uyğunlaşdırılmasını və beynəlxalq təşkilatlarla əməkdaşlığın dərinləşdirilməsini zəruri edir. Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, bu istiqamətdə görülən işlər, əhalinin daha keyfiyyətli ərzaqla təmin olunması, qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini günün tələbi kimi qarşıya qoyur. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş Qida Təhlükəsizliyi Agentliyinin yaradılması vacib məqamlardandır. Məhsulların təhlükəsizliyinə nəzarəti həyata keçirən, maddi-texniki bazanın gücləndirilməsi və modernləşdirilməsi ilə məşğul olan Agentlik əhalinin ərzaq təhlükəsizliyinin təminatı üçün lazımi tədbirləri müəyyənləşdirir [4]. Ölkədə aqrar sahənin inkişafı sayəsində daxili bazarın yerli məhsul-

larla tam təminatının nəticəsidir ki, əhalinin kənd təsərrüfatı məhsullarına ehtiyacı fermerlər tərəfindən ödənilir.

Dünya Bankının verdiyi proqnozlara görə, ölkəmizdə 2018-ci ildə aqrar sahədə hər il 4 faiz artım gözlənilir ki, bu da hesabatın əhatə etdiyi Şərqi və Mərkəzi Avropa ölkələri arasında Azərbaycanın ön yerlərdən birini tutduğunu göstərir. Aparılan aqrar islahatların nəticəsidir ki, kənd təsərrüfatı üzrə yerli istehsalın artımı heyvandarlıq məhsullarının əksəriyyəti üzrə idxalın həcminin kəskin şəkildə azalmasına səbəb olmuşdur. İdxalın həcmi ət və ət məhsulları üzrə 2,8 faiz, süd və süd məhsulları üzrə isə 15,7 faiz, iribuynuzlu heyvanların baş sayı üzrə 74,5 faiz, xırdabuynuzlu heyvanlar üzrə 94,2 faiz, damazlıq cücə üzrə 51,6 faiz azalmışdır[5]. Həmin vəziyyət süd məhsullarının idxalında da müşahidə olunmuşdur. Belə ki, azalma xama üzrə 18 faiz, pendir üzrə 6,6 faiz, kərə yağı üzrə 18,8 faiz təşkil etmişdir. Əsas hədəf heyvanların cins tərkibini dəyişməklə, yem bazasını gücləndirməklə, ənənəvi bitki növlərinin istehsalını artırmaqla məhsuldarlığı 5-6 dəfə yüksəltməkdir. Hazırda taxılçılığın, üzümçülüyün, çəltikçiliyin, çayçılığın, soyanın və digər əhəmiyyətli qida məhsullarının istehsalının artırılması üçün kompleks tədbirlər görülür, potensialdan tam səmərəli istifadə metodları tətbiq olunur.

FAO-nun hesablamalarına əsasən, dünyada ərzaq və heyvan yemi üçün taxıla tələbatın hazırkı 2,1 milyard tondan 2050-ci ildə təqribən 3 milyard tona, habelə ət istehsalının 200 milyon tondan 470 milyon tona yüksələcəyi gözlənilir. Bu sahədə də Azərbaycanda vəziyyət qənaətbəxşdir.

Başqa respublikalardan gətirilən damazlıq, yüksək məhsuldarlığa malik cins inəklərin yerli şəraitə uyğunlaşdırılması istiqamətində görülən tədbirlər nəticəsində heyvandarlığın inkişafı yeni mərhələyə qədəm qoyur, bu sahəyə yeni yanaşma tətbiq edilir. "Biz əvvəlki illərdə cins mal-qaranı alırdıq, fermerlərə paylayırdıq. Bunun müsbət təsiri olmuşdur, çünki cins mal-qaranın məhsuldarlığı əlbəttə ki, daha da yüksəkdir. Həm südlük, həm ətlik mal-qaranın gətirilməsi də çox müsbət təsir göstərmişdir" söyləməklə daha böyük uğurlara nail olmaq naminə Prezidentin Ehtiyat Fondundan lazımi vəsaitin ayrılacağını bildirən dövlət başçımız İlham Əliyev fermerlərin bu sahədəki uğurlarını yüksək qiymətləndirir, çox ciddi irəliləyişlərin olacağını əminliklə bildirir. Məqsəd ilk növbədə əhalini tam şəkildə ətlə, südlə və süd məhsulları ilə təmin etmək, eyni zamanda artıq məhsulların başqa ölkələrə ixracını təmin etməkdir. Bunun üçün örüş sahələri kimi yetişdiriləcək bitkilərin əkini də artırılır. "Çünki hər qarış torpaq bizim üçün qiymətli olmalıdır. Yenə də qayıdıram əvvəlki fikrimə ki, torpaqlardan səmərəsiz istifadəyə yol verilməməlidir. Ona görə, heyvandarlığın müasir yollarla inkişafı bitkiçiliyə də çox müsbət təsir göstərəcək. Bitkiçilik üçün nəzərdə tutulacaq o torpaqlarda əlbəttə ki, meliorativ tədbirlər də paralel şəkildə aparılmalıdır." Prezident İlham Əliyevin bu kimi tövsiyələri sayəsində ehtiyac duyulan ərazilərdə subartezian quyuları qazılır, kəndlilər içməli su ilə təmin edilməklə əkin sahələri də suvarılır. Ərzaq təhlükəsizliyinin təminatı üçün başlıca şərt fermerlərə maddi, mənəvi dəstəyin artırılması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsidir.

Cari ilin 6 ayında sahibkarlara güzəştli şərtlərlə 63 milyon manat kredit verilib. Ümumiyyətlə, bütövlükdə güzəştli şərtlərlə iki milyard manat kredit verilib. "İnvestisiya təşviqi mexanizmi özünü tam doğruldub. Bu, çox düzgün addım idi. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra məhz bu təşəbbüsə görə Azərbaycana 1,6 milyard manat dəyərində investisiya qoyulub" söyləyən Prezident İlham Əliyev aqrar sahədə də investisiya təşviqi mexanizminin tətbiqini faydalı amil kimi dəyərləndirir. Sahibkarlar isə dövlətin onlara göstərdiyi dəstəyi daxili bazarda yaranan məhsul bolluğu ilə doğruldur [7].

Əhalinin çoxalması ilə şərtlənən daxili tələbatın tam ödənilməsi üçün isə daha çox ərzaq məhsulunun istehsalına ehtiyac duyulur. Qeyri- neft sektorunun inkişafının başlıca məqsədlərindən olan ixrac yönümlü keyfiyyətli məhsul istehsalının artırılması aqrar sahədə də başlıca vəzifə kimi önəmini saxlayır. Azərbaycan brendi ilə tanınan rəqabətqabiliyyətli ərzaq məhsulla-

rının dünya bazarlarına çıxarılması da başlıca hədəflərdən olsa da daxili tələbatı yerli məhsullarla təmin etmək birinci dərəcəli vəzifələrdir.

Nəticə

Ərzaq təhlükəsizliyi probleminin həllində də daxili tələbatın ödənilməsi və ixracyönümlü məhsulların artırılması eyni dərəcədə əhəmiyyətli və bir-birini tamamlayan vəzifədir. Azərbaycanda əhalinin ərzaq təhlükəsizliyi tam şəkildə təmin olunur. Ət istehsalı Azərbaycanın tələbatını, demək olar ki, ödəyir. Növbəti illərdə görüləcək tədbirlər nəticəsində ət və ət məhsullarının, süd və süd məhsullarının böyük ixrac potensialına nail olunacaq. Ölkə əhalisinin toyuq əti ilə tələbatı 100, süd və süd məmulatları ilə ehtiyacı 80 faiz səviyyəsində təmin olunur. Azərbaycandan böyük həcmdə meyvə-tərəvəz ixrac edilir.Növbəti illərdə ixracla bağlı daha da böyük nəticələr olacaq. Bu il pamidor ixracı 55, kartof 63, soğan 1100, süd məhsulları təqribən 400, meyvə və tərəvəz emalı məhsulları 54 faiz, spirtli və spirtsiz içkilər 16 faiz, o cümlədən şərab 13 faiz, alma təxminən 200 faiz, xurma 14 faiz, nar 106 faiz, çay 50, şokolad 50, bitki-heyvan mənşəli yağlar 7 faiz artıb [6].

ƏDƏBİYYAT

1. “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 15 yanvar 1992-ci il. № 57.
2. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 13 yanvar 1995-ci il. № 952.
3. “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 22 oktyabr 2010-cu il. № 1101-IIIQ
4. https://www.president.az/articles/25843/print
5. https://az.trend.az/business/economy/2556221.html
6. http://interfax.az/view/708066/az
7. https://azertag.az/xeber/ 1077724

Элнура Бюнят кызы Мамедова
д.ф.э. Азербайджанский Университет Кооперации

Вложение инвестиций в развитие аграрного сектора как главный фактор продовольственной безопасности в условиях модернизации

Резюме

Как известно, продовольственная безопасность является неотъемлемой частью экономической и национальной безопасности каждой страны. Обеспечение населения продовольственными продуктами имеет важное значение для государства. Обеспечение населения продовольственными продуктами - одна из важнейших проблем, требующих решения. Так, решение этой проблемы охватывает широкий спектр национальных, экономических, социальных, демографических и экологических факторов. Поэтому на государственном уровне социально- экономическая система тесно связана с продовольственной безопасностью. Именно с этой точки зрения обеспечение продовольственной безопасности основывается на мобилизацию внутренних ресурсов. Этот подход основан на целый ряд изменений, связанных с составлением национальной стратегии экономических реформ, устойчивым развитием экономики, эффективным использованием правовых норм, улучшением условий жизни населения.

Ключевые слова: модернизация, аграрный сектор, инвестиции, финансовые отношения, продовольственная безопасность, безопасная пища.

Elmira Bunyat Mamadova
ass. prof. Azerbaijan Cooperation University

Investments in the development of the agrarian sector in the conditions of modernization are the key factors for food security

Summary

Everyone knows that food security is an integral part of the economic and national security of each country's economy. Providing the population with food products is of great importance to the state. The solution of the problem of provision of population with food products is one of the important socio-economic problems Thus, the solution of this problem covers a broad spectrum of national, economic, social, demographic and environmental factors. Therefore, socio-economic system is closely linked to food insecurity at the state level. From this point of view, food security is based on mobilization of internal resources. This approach is based on a number of changes in the development of a national economic reform strategy, sustainable development, the use of effective legal norms, and the improvement of the living conditions of the population.

Key words: modernization, agrarian sector, investment, financial relations, food security, safe food.

UOT 338.43

Emin Mirdamməd oğlu SADIQOV
i.f.d., ADİU-nun doktorantı

AQRAR-ƏRZAQ SEKTORUNDA İNVESTİSİYALARIN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Aqrar-ərzaq sektorunda investisiyaların səmərəliliyi təkcə həmin sektorun deyil, ümumilikdə milli iqtisadiyyatın inkişafı üçün əlverişli şərait yaradır. Məqalədə aqrar-ərzaq sektorunda investisiyaların iqtisadi səmərəliliyinin yüksəldilməsini şərtləndirən əhəmiyyətli amillər aşkar edilmişdir. Həmin amillərin səciyyələndirilməsinin və onların təsirinin qiymətləndirilməsinin daha səmərəli üsul və vasitələri müəyyən olumuşdur.

Açar sözlər: aqrar-ərzaq sektoru, investisiya, iqtisadi səmərəlilik, amil, qiymət əmələgəlmə.

Giriş

Aqrar-ərzaq sektorunun milli ərzaq təhlükəsizliyinin təminatında aparıcı rolu onun səmərəli fəaliyyəti məsələlərini daim gündəlikdə saxlayır. Həmin sektorun investisiyalaşdırılması çoxsaylı amillərin təsiri altında baş verir. Odur ki, aqrar-ərzaq sektorunda investisiyaların səmərəliliyinin yüksəldilməsi imkanlarının aşkar edilməsi və qiymətləndirilməsi kompleks tədqiqatlar tələb edir.

Aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanları

Azərbaycanda makroiqtisadi sabitliyin və dayanıqlı inkişafın təmin edilməsi üçün həyata keçirilən inkişaf strategiyasının uğurları təcrübi aspektləri ilə yanaşı, elmi-nəzəri baxımdan da tədqiqatçıların diqqət mərkəzindədir. Həmin strategiyanın maliyyələşdirilməsinin fəaliyyətdə olan sistemi, digər funksiyaları ilə yanaşı aqrar-ərzaq sektorunun dinamik inkişafına adekvat olan investisiya təminatı sisteminin formalaşdırılmasını nəzərdə tutur. İnvestisiya təminatı sisteminin aqrar-ərzaq sektorunun dinamik inkişafına adekvatlığı, konkret halda, bütün əsas xarakteristikalarla yanaşı, mürəkkəb və dinamik sistemin fəaliyyətinin ehtimallı parametrlərinin böyük ədədlər qanununa tabe olmasında ifadə olunur. Başqa sözlə, investisiya fəaliyyətinin risk səviyyəsi və gəlir-risk nisbəti arasında korrelyasiya asılılığı kifayət qədər əyani surətdə öz əksini tapmalıdır. Haqqında danışılan sektorda inteqrasiyanın şaquli və üfüqi formalarının birgə inkişaf etməsi (əksər hallarda inkişaf templəri fərqli olsa da) investisiya proseslərinin səmərəliliyinə münasibətdə fərqli konseptual yanaşmaları şərtləndirir.

Aqrar-ərzaq sektorunda şaquli və üfüqi inteqrasiya proseslərinin özünəməxsusluğu, ilk növbədə özünü multiplikasiya və allokasiya effektinin birgə reallaşdırılmasında göstərir. Məsələ ondadır ki, iqtisadi artım və investisiya prosesləri arasında multiplikativ əlaqələrin yaratdığı müsbət effekt, resursların bölgüsündə optimal nisbətlərin təmin edilməsi, başqa sözlə, multiplikasiya və allokasiya effektinin birgə reallaşdırılması halında əhəmiyyətli ölçülərə malik olur. Digər tərəfdən aqrar-ərzaq sektorunda investorlara məqbul səviyyədə zəmanətli və davamlı gəlir təmin edən dayanıqlı sistemin formalaşdırılması, multiplikasiya və allokasiya effektinin birgə reallaşdırılması imkanlarını artırır, arealını əhəmiyyətli dərəcədə genişləndirir.

Milli aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyi müvafiq normativ - hüquqi bazanın mükəmməlliyindən, burada mövcud olan boşluqların aradan qaldırılması üçün atılan addımların səmərəliliyindən asılıdır. Haqqında danışılan normativ - hüquqi bazanın möhkəmləndirilməsi prioritetləri qismində, ilk növbədə dinamik dəyişən xarici mühitin təsirlərinə adekvat reaksiya imkanlarının yaradılması, inkişaf potensialının gücləndirilməsi və s. qeyd edilməlidir. İnflyasiyanın iqtisadi proseslərə arzuolunmaz təsirlərinin minimuma endirilməsi və ya aradan qal-

dırılması, bazar münasibətlərinə əsaslanan iqtisadi mühitin problemlərini aktuallaşdıran mühüm amildir. Aqrar-ərzaq sektorunda investisiya proseslərinin tempi və miqyasını, habelə səmərəliliyini şərtləndirən səmərəli antiinflyasiya sisteminin yaradılması, milli ərzaq təhlükəsizliyinin etibarlı təminatında mühüm rola malikdir.

Aqrar-ərzaq sektorunda işgüzar fəaliyyətin, sahibkarlığın, qarşılıqlı faydalı dövlət-özəl bölmə tərəfdaşlığının etibarlığının təminatı olan sığorta sisteminin qurulması və modernləşdirilməsi məsələləri, investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi baxımından daim gündəlikdədir. Sadalanan məsələlərin həlli ümumilikdə və aqrar-ərzaq sektorunda investisiya potensialının formalaşması və güclənməsinə əhəmiyyətli dərəcədə təsir edir. Başqa sözlə, aqrar-ərzaq sektorunda işgüzar fəaliyyətin və tərəfdaşlığın etibarlığının təminatı kimi sığorta sisteminin modernləşdirilməsi, həmin sektorda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarını genişləndirir.

Milli aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanları və müvafiq institusional strukturun modernləşdirilməsi arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Azərbaycanın aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarının institusional məhdudiyyət şərtləri kimi - innovasiyalı-intensiv inkişaf tələblərinə adekvat institusional təminatın ilkin təşəkkül mərhələsində olması, konkret ərazidə istehsal, emal və xidmət müəssisələri arasında institusional-təsərrüfat əlaqələrinin klasterial inkişaf tələblərinə cavab verməməsi, şaquli inteqrasiya əlaqələrinin üstünlüyü şəraitində, hətta eyni profilli müəssisələrin belə şəbəkə əmələ gətirməməsi kimi məqamlar diqqətəlayiqdir.

İnvestisiya cəlbediciliyinin yüksəldilməsi, məlum olduğu kimi, digər fəaliyyət sektorlarında olduğu kimi, aqrar-ərzaq sektorunda investisiya fəallığını artırmaqla, nəticə etibarı ilə investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarını genişləndirə bilər. Həmin imkanlar isə aqrar-ərzaq fəaliyyəti arealının və mühitinin mütləq və nisbi üstünlüklərinin gerçəkləşdirilməsi sayəsində reallığa çevrilə bilər. Konkret halda, aqrar-ərzaq fəaliyyəti arealının mütləq və nisbi üstünlüklərini şərtləndirən amilləri, müvafiq olaraq ilkin və törəmə amillər kimi iki qrupa ayıranlarla, müəyyən qeyd-şərtlərlə razılaşmaq olar.

Aqrar-ərzaq fəaliyyəti arealının mütləq üstünlüklərini şərtləndirən amillərə, ilk növbədə təbii - iqlim şəraiti, torpaq sahələrinin, su və əmək ehtiyatlarının, nəqliyyat qovşaqlarının, təchizat mənbələrinin, emal qurumlarının və bazarların xarakteristikaları aid edilməlidir. Haqqında danışılan arealın nisbi üstünlüklərini şərtləndirən amillərə isə əksər mənbələrdə, hər şeydən əvvəl fəaliyyətin intensivləşmə, ixtisaslaşma, istehsal və xidmət kooperasiyasının, inteqrasiya əlaqələrinin inkişafı səviyyələri, innovasiyaya açıqlıq, marketinqin səmərəliliyi, sahibkarlıq qurumlarının maliyyə durumu və i.a. aid edilir.

Milli aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinə təsir edən amillərə, bir çox mənbələrdə aşağıdakılar aid edilir:

" - vergi sisteminin təkmilləşdirilməsi dərəcəsi;
- investisiya fəaliyyətinin normativ-hüquqi təminatlılığı;
- dövlətin investisiya fəaliyyətində iştirak dərəcəsi;
- inflyasiyanın səviyyəsi; büdcənin kəsirliliyi;
- ölkə iqtisadiyyatının inkişafının vəziyyəti və dinamikası;
- maliyyə-kredit siyasətinin təkmilliyi dərəcəsi;
- dövlətin iqtisadi, o cümlədən investisiya siyasəti və s." [1, s. 59-60].

Azərbaycanın aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyi, burada əsas kapitala investisiyaların mövcud istehsal-texnoloji və təkrar istehsal strukturunun xarakteri, daha dəqiq desək, onun optimallıq meyarlarına uyğunluğu dərəcəsi ilə bilavasitə əlaqədardır.

Aqrar-ərzaq sektorunun fəaliyyətinin və həmin fəaliyyətin investisiya təminatının səmərəliliyi, əldə edilən daxili imkanların səfərbər edilməsi, resursqoruyucu texnologiyaların geniş tət-

biqi sayəsində əldə edilən mənfəətin əsas kapitala investisiyaların maliyyələşdirilməsinə yönəldilməsi innovasiyalı inkişafa xidmət edir.

Məqsədli - proqramların investisiya təminatının səmərəliliyini yüksəltmək üçün, innovasiyalı inkişaf tələblərinə cavab verən institusional şəbəkə modernləşdirilməli, müxtəlif mənbələrin vəsaitlərindən istifadə nisbəti və əsas kapitala investisiyaların innovasiyalı inkişafın əsas meyarları üzrə istehsal-texnoloji strukturu optimallaşdırılmalıdır və s. Haqqında danışılan proqramların reallaşdırılması mühitini yaxşılaşdırmaq üçün, ilk növbədə, aqrar-ərzaq sektoruna aid istehsal və xidmət müəssisələri ilə yerli özünüidarəetmə qurumları arasında əməkdaşlığın inkişafı dəstəklənməli, dövlət himayəsindən yararlanma rejiminin əsas parametrləri monitorinq predmeti olmaqla, sahibkarlıq potensialının gücləndirilməsinin təşviqi prosesinə cəlb edilməli, sektorda qəbul edilən investisiya qərarlarının optimallığı təmin edilməli, ümumilikdə investisiya proseslərinin risk-menecmentinin keyfiyyəti yüksəldilməlidir.

İndi isə milli aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarının reallaşdırılmasında idarəetmə amilinin (menecmentin) yerinə və roluna münasibət bildirək. İnvestisiya proseslərinin risk-menecmentinin keyfiyyəti və nəticə etibarı ilə səmərəliliyi, həlledici dərəcədə aqrar-ərzaq sektorunda qəbul edilən investisiya qərarlarının əsaslandırma səviyyəsindən və resursların bölgüsü və istifadəsindəki nisbətlərin optimallığından asılıdır. Məhz, haqqında danışılan nisbətlər aqrar-ərzaq sektorunda investisiya siyasətinin əsaslandırılması prosesində ərazilərin dayanıqlı inkişafı imkanlarının nəzərə alınması səviyyəsini şərtləndirən mühüm amillər rolunda çıxış edir.

Aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarının aşkar edilməsi və qiymətləndirilməsi mühüm metodiki problemdir və onun həlli ciddi təhlillər və ümumiləşdirmələr tələb edir. İlk növbədə, haqqında danışılan sektorda əsas vəsaitlərin mövcud texniki səviyyəsi müəyyən edilməli, əsas vəsaitlərin yenilənməsi üzrə imkanlar aşkar edilməli və onların reallaşdırılması yolları açıqlanmalıdır. Həmin imkanların istehsalın texniki cəhətdən yenidən silahlandırılması və mütərəqqi hesab edilən texnoloji səviyyənin əldə edilməsi, innovasiya və mühafizəkarlığın kompromis xəttinin tapılması, bir sözlə, gəlirlə investisiya arasındakı, artım əmələ gətirən əks əlaqə ilə şərtlənən multiplikasiya effekti yaratması qabiliyyəti, habelə sadalanan proseslərin aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinə təsiri qiymətləndirilməlidir.

Aqrar-ərzaq sektorunun investisiyaya tələbatının ödənilməsi səviyyəsi, iqtisadi, habelə sosial inkişafın xarakteristikalarını şərtləndirməklə, fəaliyyət inteqrasiyasını təşviq edən amildir. Araşdırmalar, investisiya tələbatının ödənilməsi səviyyəsi və multiplikasiya effekti arasında kifayət qədər sıx korrelyasiya asılılığının olduğunu söyləməyə əsas verir. Haqqında danışılan sektorda multiplikasiya effektini əldə etmək üçün investisiya fəaliyyəti zəruri inkişaf tempinə və əhatə dairəsinə malik olmalıdır.

Aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsi zamanı multiplikasiya effektini şərtləndirən amillər, investisiyaların həcmi və strukturuna təsirin xarakteri baxımından fərqləndirilir. Bu baxımdan, investisiyaların həcmi və strukturuna təsir edərək multiplikasiya effektini gücləndirən amillər rolunda vergilər, gömrük rüsumları kimi fiskal siyasət alətləri xüsusi qeyd olunur.

Azərbaycanın aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsində elektron investisiya xəritələri mühüm rol oynamağa başlamışdır. Yerli imkanların aşkar edilməsi və onların investisiyaya transformasiyasında aparıcı rol oynayacağı nəzərdə tutulan elektron investisiya xəritələrinin hazırlanması istiqamətində ölkədə həyata keçirilən tədbirlər kompleks xarakter almışdır. Artıq bir neçə iqtisadi rayonun elektron investisiya xəritələri hazırlanmışdır. Həmin xəritələr dövlət proqramlarının hazırlanması və icrasında, infrastruktur şəbəkəsinin modernləşdirilməsi tədbirlərinin maliyyə rejiminin seçilmə-

sində və bilavasitə maliyyələşdirilməsi prosesində, o cümlədən müasir logistik sistemlərin formalaşdırılmasında istifadə olunur.

Azərbaycan Respublikası iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsində, aqrar-ərzaq sektorunun dinamik inkişafına adekvat investisiya təminatı sisteminin formalaşdırılmasında və investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi baxımından investisiya tsiklinin bütün mərhələlərində, o cümlədən planlaşdırma, layihələndirmə, inestisiyalaşma, mənimsənilmə mərhələlərində real imkanların olması ehtimalı kifayət qədər yüksəkdir. Bu baxımdan, investisiyanın planlaşdırılması mərhələsində məqbul səmərəliliyin təmin edilməsi məqsədilə, zənnimizcə, müvafiq layihələndirmə müddətinin qısaldılması və layihənin keyfiyyətcə yaxşılaşdırılması, texnoloji proseslərin investisiyalaşdırılmasında kompleksliyin təminatı, təkrar istehsal baxımından investisiyanın strukturunun təkmilləşdirilməsi və bu kimi bir sıra digər tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

İnnovasiyalı inkişaf aqrar-ərzaq sektorunda istehsal fəaliyyətinin texniki-texnoloji təminatında mütərəqqi meyillərin fəal surətdə dəstəklənməsini nəzərdə tutur. Odur ki, haqqında danışılan sektorda əsas fondların innovasiyalı fəaliyyət tələblərinə cavab verən yenilənməsinin optimal temp və proporsiyaları təmin edilməli, bu məqsədlə adekvat amortizasiya siyasəti həyata keçirilməlidir. Bu halda əsas fondların yenilənməsinin kompleksliyi təmin edilməli, müəssisənin yeni texnika və avadanlıqlarla təchiz edilməsi prosesini tezləşdirən sürətli amortizasiya tətbiq olunmalıdır.

İnvestisiya proseslərinin səmərəliliyini şərtləndirən amillərin qiymətləndirilməsi

Azərbaycanın aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanları, investisiyaların kreditləşdirilməsi mexanizminin səmərəliliyindən, o isə öz növbəsində bankların və bank olmayan kredit təşkilatlarının müştəri şəbəkəsinin əhatə dairəsindən, investor - bank - istehsal subyekti arasında əlaqələrin operativliyinin artırılması, kredit portfelinin diversifikasiyası və ümumiyyətlə kreditlərin idarə edilməsi sisteminin mükəmməlliyi səviyyəsindən asılıdır. Milli aqrar-ərzaq sektorunda investisiyaların kreditləşdirilməsi, bank sisteminin iqtisadi potensialından səmərəli istifadəni tələb edir. Bu məqsədlə, müasir təminat alt sistemlərinə malik olan informasiya şəbəkəsinin qurulması başa çatdırılmalı, maliyyə vasitəçiliyinin institusional bazası təkmilləşdirilməli, dayanıqlı bank şəbəkəsi formalaşdırılmalıdır.

İnvestisiya layihələrində aqrar-ərzaq sektorunun nəzərə alınması inteqrasiya, aqlomerasiya və allokasiya effektlərinin bigə reallaşması mühitinin imitasiyasını (imitasiya eksperimentlərinin keçirilməsini) tələb edir. Məsələ ondadır ki, çoxssenarili yanaşma olmadan, haqqında danışılan sektorda çoxmeyarlı yanaşma konsepsiyası bazasında əsas və köməkçi fəaliyyətin texniki-texnoloji təminatının modernləşdirilməsi, demək olar ki, qeyri-mümkündür. Aqrar-ərzaq sektorunun texniki-texnoloji təminatının modernləşdirilməsinin investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsi zamanı meyarların yalnız birinə prioritetlik verilməsi, təcrübi baxımdan əlyetən olsa da, nəticə etibarı ilə arzu olunan nəticəni verməyə bilər. Odur ki, haqqında danışılan sektorda investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsi zamanı iqtisadi aspektlərlə yanaşı, sosial, ekoloji, texnoloji və digər aspektləri birgə nəzərə almağa imkan verən çoxmeyarlı yanaşmalar diqqət mərkəzində olmalıdır.

Aqrar-ərzaq sektorunun inkişafına və struktur yeniləşmələrinə xidmət edən investisiya layihələrinin səmərəliliyi təşkilatçıların vəsaitlərinin təmərküzləşməsi imkanlarından,iştirakçıların maraqlarının nəzərə alınması dərəcəsindən, sonuncu isə, əhəmiyyətli surətdə müvafiq informasiya bazasının innovasiyalı-intensiv inkişaf tələblərinə uyğunluğu səviyyəsindən asılıdır.

Kommersiya mühitinin rəqabətə açıqlığı dərəcəsindən, fəaliyyətdə olan tənzimləmə sisteminin sivil bazarın baza prinsiplərinə uyğunluğundan həlledici dərəcədə asılı olan investisiya fəallığı investisiya proseslərinin ixrac potensialının güclənməsi vektorlarını müəyyən edir. Bu məqsədlə, aqrar-ərzaq sektorunda ixracyönümlü istehsalın maddi-texniki bazasının modernləşdirilməsi, adekvat infrastruktur şəbəkəsinin formalaşdırılması, investisiyaların yüksək texnoloji sa-

hələrə cəlb edilməsi prosesi fəallaşmalı, elmtutumlu istehsalın təşviqi istiqamətində həyata keçirilən tədbirlər kompleks xarakter daşımalıdır.

Aqrar-ərzaq sektorunun fəaliyyətinin nəticəsi mahiyyət etibarı ilə aqrar-ərzaq bazarında özünü göstərir. Həmin sektorda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsi məqsədilə aqrar-ərzaq bazarının inkişafı müxtəlif üsullarla, o cümlədən çox sayda amillərin təsirini səciyyələndirməyə imkan verən müasir üsullarla təhlil edilməlidir. Həlli aktual olan digər metodiki problem inkişaf proqnozlarının keyfiyyət təhlilidir. Aqrar-ərzaq bazarının inkişafı proqnozlarının təhlili məqsədilə, son onilliklərdə iqtisadi-riyazi modellərdən istifadə üzrə kifayət qədər ciddi təcrübə əldə edilmişdir. Müvafiq mənbələrdə aqrar-ərzaq bazarının inkişafı proqnozlarının təhlilinin iqtisadi-riyazi modellərinin modul strukturunun perspektivliliyi özünü doğrultmuşdur.

"Aqrar-ərzaq sektorunun inkişafının təhlili və proqnozlaşdırılmasının iqtisadi-riyazi modeli aşağıdakı üç moduldan ibarətdir: aqrar-ərzaq bazarının proqnoz modulu; xarici ticarət modulu; investisiya modulu. Aqrar-ərzaq bazarının proqnoz modulu bazarın əsas göstəricilərinin proqnoz qiymətlərinin ətalətli rejimdə müəyyən edilməsinə xidmət edir və tələb-təklif parametrlərinin proqnozlaşdırılmasının sadə modelidir. Digər iki modelin istifadə edilməsi xarici ticarət tənzimləməsi və investisiyalaşma üzrə ekzogen şərtlərin verilməsi halında aqrar-ərzaq bazarının inkişafı ssenarilərinin qurulmasının analitik imkanlarını genişləndirir" [2, s. 74].

Aqrar-ərzaq bazarının inkişaf proqnozlarının etibarlılıq və dəqiqlik baxımından qiymətləndirilməsində modelləşdirmənin analitik imkanlarının aşağıdakı məsələlərin həllinə cəlb edilməsi, nəzəri araşdırmalardan və təcrübi hesablamalardan göründüyü kimi, məqsədəuyğundur:

- daxili bazarın, sağlam rəqabət prinsiplərinə zidd olmayan (bir çox hallarda, əsas göstəricilər üzrə ona xidmət edən) qorunması mexanizminin formalaşdırılması;
- yerli istehsalın, əqli və informasiya potensialı da daxil olmaqla, yerli resurslardan istifadənin təşviqi, məşğulluğun səviyyəsinin yüksəldilməsi və quruluşunun yaxşılaşdırılması;
- elmi-nəzəri ümumiləşdirmələrin və emprik nəticələrin dinamik inkişafa yönəlmiş qarşılıqlı tamamlama effektinin əldə edilməsi;
- dövlət-özəl bölmə əməkdaşlığının, klsaterial inkişaf ideyalarının və təcrübi addımlarının, ümumilikdə yaxın və orta perspektivə hesablanmış qarşılıqlı faydalı inteqrasiya əlaqələrinin dəstəklənməsi və i.a.

Aqrar-ərzaq sektorunda investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsi üçün, ilk növbədə kənd təsərrüfatı məhsulları istehsalı, emalı və hazır məhsulun son istehlakçıya çatdırılmasının bütün digər mərhələlərində istifadə olunan əsas fondların yenilənməsi prosesində innovasiyalı inkişafa adekvat amortizasiya siyasəti reallaşdırılmalıdır. Bu zaman texnoloji prosesə kompleks surətdə yanaşmaqla aqrar-ərzaq sektorunda fəaliyyət inteqrasiyasını təşviq edən investisiya qoyuluşlarının strukturu təkrar istehsal baxımından təkmilləşdirilməlidir. Aqrar-ərzaq sektorunun yerləşmə arealı baxımından özünəməxsus cəhətləri, o cümlədən sektoru formalaşdıran əsas komponentlərin, demək olar ki, ölkənin bütün məskunlaşmış ərazisinə səpələnmiş olması investisiya proseslərinin resurs təminatı, motivləşdirmə, daşıma və əlbəttə, investisiyalaşmanın cari problemlərini daim gündəlikdə saxlayır.

Nəticə

İnvestisiya fəaliyyətinin motivləşdirilməsində qiymətin səviyyəsi, habelə qiymətin əmələgəlmə prosesinin digər xarakteristikaları özünəməxsus və kifayət qədər əhəmiyyətli rola malikdir. Odur ki, aqrar-ərzaq sektorunda investisiya fəaliyyətinin motivləşdirilməsi baxımından, qiymət əmələgəlmə prosesinin tənzimlənməsi sistemi təkmilləşdirilməlidir. Digər tərəfdən, aqrar-ərzaq sektorunda investisiya, habelə innovasiyalı investisiya fəaliyyətinin səmərəliliyini yüksəltmək baxımından xammal və hazır məhsulun nəql edilməsi sxemində yerdəyişmələrin minimumlaşdırılması meyarı önə çəkilməklə resurs təminatının yaxşılaşdırılması imkanları aşkar edilməlidir.

ƏDƏBİYYAT

1. Əliyev R.M., Novruzov N.A., Məmmədov M.A. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, 2003, 432s.
2. Бородин К.Г. Модель анализа прогнозов развития агропродовольственных рынков в условиях меняющихся мер защиты и инвестирования // Никоновские чтения <http://cyberleninka.ru/journal/n/nikonovskie-chteniya>. 2014, с.74-76

Эмин Мирдамед оглы Садыгов
докторант АГЭУ

Оценка возможностей повышения эффективности инвестиции в агропродовольственном секторе

Резюме

Экономический эффективность инвестиции в агропродовольственном секторе создает благоприятные условия развития как для самого сектора, так и для национальной экономики в целом. В статье выявлены значительные факторы обуславливающие возможности повышения экономической эффективности инвестиции в агропродовольственном секторе. Определены наиболее эффективные способы и средства характеристики этих факторов и оценки их влияния.

Ключевые слова: агропродовольственный сектор, инвестиции, экономическая эффективность, фактор, ценообразование.

Emin Mirdamad Sadigov
doctoral student of ASEU

Assessment of opportunities for increasing the efficiency of investments in agrarian-food sector

Summary

The efficiency of investment in the agrarian-food sector creates favorable conditions not only for the sector itself, but also for the overall development of the national economy. The paper revealed significant factors that stipulate the increase in the economic efficiency of investments in the agrarian-food sector. More effective methods and tools have been identified to characterize these factors and assess their impact.

Key words: agrarian-food sector, investment, economic efficiency, factor, price formation.

UOT 338.46

Leyla Akif qızı MURADVERDİYEVA
i.e.n., AMEA-nın İqtisadiyyat İnstitutu

ƏRZAQ TƏMİNATI SİSTEMİNİN DAYANIQLILIĞININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Xülasə

Ölkədə aqrar istehsalın effektivliyinin aşağı olması, istehsal amillərinin kəmiyyət və keyfiyyət xarakteristikalarının pisləşməsi, kənd təsərrüfatı resurslarından qeyri-rasional istifadə edilməsi ərzaqla özünütəminetmə səviyyəsinin optimal həddinə nail olmağa imkan vermir və ərzaq bazarında idxal məhsullarının xüsusi çəkisinin yüksək olaraq qalması ilə nəticələnir. Bu baxımdan ərzaq təminatı sisteminin fəaliyyətinin effektiv təşkili ərzaq məhsullarının istehsalının intensivləşdirilməsi, aqrar sektorun dayanıqlı resurs bazasının yaradılması, effektiv ərzaq bazarının və infrastrukturun təşkil edilməsi, eləcə də aqrar sahənin elmi-texniki potensialının gücləndirilməsini zəruri edir. Məqalədə ərzaq təminatı sisteminin mövcud vəziyyəti tədqiq edilmiş, sistemin inkişafı sahəsində həyata keçirilmiş tədbirlərin səmərəliliyi qiymətləndirilmiş və ərzaq sisteminin dayanıqlılığının artırılmasının prioritet istiqamətləri əsaslandırılmışdır.

Açar sözlər: ərzaq təminatı sistemi, ərzaq təhlükəsizliyi, ərzağa fiziki çıxış, aqrar istehsal, ərzaqla özünütəminetmə səviyyəsi.

Giriş

Ərzaq təminatı sisteminin dayanıqlılığının artırılması imkanları ölkənin təbii-iqlim şəraiti və iqtisadi potensialı çərçivəsində aqrar istehsalın intensivləşdirilməsi və səmərəliliyinin artırılması, ərzaq bazarında məhsul çeşidinin genişləndirilməsi və ödənişqabiliyyətli tələbin tam həcmdə təmin edilməsi məqsədilə xarici ticarət fəaliyyətinin təşkili, eləcə də əhalinin istehlak səviyyəsinin rasional qidalanma normalarına uyğunlaşdırılması istiqamətində effektiv sosial-iqtisadi mexanizmin formalaşdırılması ilə şərtlənir. Bu isə bilavasitə aqrar sahənin resurs təminatının təkmilləşdirilməsi, aqrar istehsalçıların öz gəlirlilik səviyyələrini artırmalarına və geniş təkrar istehsal həyata keçirmələrinə imkan verən həcmdə məhsul istehsal etmələri və reallaşdırmaları, əhalinin bütün sosial qruplarının balanslaşdırılmış, keyfiyyətli qida məhsullarına çıxış imkanlarının yaxşılaşdırılması üçün əlverişli sosial-iqtisadi mühitin yaradılması, yerli istehsalçıların və istehlakçıların maraqları nəzərə alınmaqla idxal-ixrac əməliyyatlarının tənzimlənməsi, o cümlədən strateji və operativ ərzaq ehtiyatlarının yaradılmasını əhatə edən kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Ərzaq təhlükəsizliyi sahəsində milli maraqların təmin olunması və ölkənin ərzaq təminatı sisteminin xarici amillərin mənfi təsirindən qorunması zərurəti prioritet istiqamət kimi yerli aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi, o cümlədən ərzaq bazarının idxaldan asılılıq səviyyəsinin azaldılması üzrə effektiv tənzimləmə mexanizmlərinin tətbiqini tələb edir. Qeyd etmək lazımdır ki, bütövlükdə ölkəmizin təbii-iqlim şəraiti əsas kənd təsərrüfatı məhsulları üzrə optimal özünütəminetmə səviyyəsinə nail olmağa və bir sıra məhsullar üzrə ixrac potensialını genişləndirməyə imkan verir. Bu potensialın reallaşdırılması isə müvafiq olaraq müasir texnologiyaların tətbiq edilməsi hesabına aqrar-sənaye kompleksinin texniki-texnoloji modernizasiyasının sürətləndirilməsi, mövcud istehsal potensialından səmərəli istifadə edilməsinin təmin olunması və aqrar sahənin elmi potensialının gücləndirilməsi məsələlərini ön plana çəkir.

Aqrar istehsal sahəsində mövcud meyillərin təhlili

Son illər Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının intensivləşdirilməsi məqsədilə dövlət tərəfindən genişmiqyaslı islahatlar həyata keçirilməkdədir. Aqrar sahədə istehsal infrastrukturunun modernizasiyası, kooperasiya və inteqrasiya proseslərinin sürətləndirilməsi

yolu ilə daxili ərzaq bazarında idxalın xüsusi çəkisinin azaldılması, eləcə də aqrar məhsulların ixrac potensialının genişləndirilməsi kimi strateji hədəflər qarşıya qoyulmuş və bu məqsədlə sahəyə dövlət dəstəyi gücləndirilmişdir. "2002-2006-cı illərdə Azərbaycan Respublikasında aqrar sahənin inkişafı üzrə", "2004-2008" və "2009-2013-cü illərdə Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı üzrə", eləcə də "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunması üzrə" Dövlət Proqramlarına uyğun olaraq, kənd təsərrüfatının inkişafına yönəldilən maliyyə vəsaitlərinin həcmi artırılmış, aqrar istehsalçıların 2019-cu ilin sonunadək torpaq vergisi istisna olunmaqla, bütün vergi ödəmələrindən azad edilməsini nəzərdə tutan vergi güzəştləri tətbiq edilmiş, sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə lizinq münasibətləri təşkil edilmişdir. Aqrar sektora dövlət tərəfindən göstərilən dəstək tədbirləri sırasında irriqasiya sisteminin inkişaf etdirilməsi, iri təsərrüfat və aqroparkların yaradılması, elevator və soyuducu anbarların tikintisinə ayrılan investisiyaların həcminin artırılmasını da qeyd etmək lazımdır.

Ümumilikdə, qeyd edilən tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatında bir sıra müsbət dəyişikliklərin baş verməsinə səbəb olmuşdur: ümumi məhsul istehsalında artıma nail olunmuş, ziyanla işləyən təsərrüfatların sayı azalmışdır. Kənd təsərrüfatı bitkilərinin əkin sahələri 2007-ci illə müqayisədə 341,8 min hektar artaraq 2017-ci ildə 1665,7 min hektara çatmışdır (şəkil 1). Bu dövr ərzində texniki bitkilərin əkin sahələrinin 1,9 dəfə, dənli və dənli paxlalı bitkilər üzrə əkin sahələrinin 32,1%, yemlik bitkilərin əkin sahələrinin 17,3% artması, kartof və tərəvəz bitkilərinin əkin sahələrinin isə 20% azalması meyilləri müşahidə edilmişdir. Son illər taxıl istehsalının artırılmasına dövlət tərəfindən xüsusi əhəmiyyət verildiyindən ümumilikdə əkin sahələrinin strukturunda bu bitkilərin xüsusi çəkisi daha yüksək olmuşdur (58,7%).



Şəkil 1. Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, 1000 ha.

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

Nəticə etibarı ilə, son on il ərzində aqrar sektorda ümumi məhsul istehsalı faktiki qiymətlərlə 2,3 dəfə artaraq 6,6 mlrd. manata çatmışdır ki, bunun da 45,9%-i bitkiçilik məhsullarının, 54,1%-i isə heyvandarlıq məhsullarının payına düşmüşdür (şəkil 2).

Tədqiq edilən dövr ərzində kənd təsərrüfatı məhsulları istehsalının natural ifadədə də artımı qeydə alınmışdır. Belə ki, 2007-ci illə müqayisədə 2017-ci ildə bitkiçilikdə ən yüksək artım tempinə şəkər çuğunduru (2,9 dəfə), çay (60%), üzüm (47,8%), taxıl (46,1%), meyvə və gilə-

meyvə (40,9%) istehsalı malik olmuşlar. Bu dövr ərzində tərəvəz və bostan bitkiləri istehsalında 12,1% artım, kartof istehsalında isə əksinə, 11,9% azalma müşahidə edilmişdir. 2007-2017-ci illərdə heyvandarlıq məhsullarının istehsal dinamikasında da anoloji dəyişikliklər baş vermişdir: iribuynuzlu mal-qaranın sayı 10,4% artaraq 2673 minə, qoyun və keçilərin sayı 8,4% artaraq 8454,3 minə, quşların sayı isə 1,6 dəfə artaraq 30,5 mln-a çatmışdır ki, bu da ət və süd istehsalının 1,5 dəfə, yumurta istehsalının isə 1,8 dəfə artmasına səbəb olmuşdur.



Şəkil 2. Kənd təsərrüfatı məhsullarının istehsal dinamikası, mln. man.

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

Bununla belə, statistik məlumatların təhlili belə nəticəyə gəlməyə əsas verir ki, kənd təsərrüfatı məhsullarının istehsalının artımı və əhalinin ərzağa fiziki çıxış səviyyəsinin yaxşılaşdırılması istiqamətində son illər müşahidə edilən müsbət meyillərə baxmayaraq, aqrar sahədə vəziyyət hələ də mürəkkəb olaraq qalmaqdadır. Bunun əsas təzahürü kimi yerli aqrar kompleksin effektivliyinin aşağı səviyyədə olmasını göstərmək olar ki, bu da ilk növbədə sahədə məqsədyönlü investisiya siyasətinin olmaması, kənd təsərrüfatı torpaqlarından səmərəsiz istifadə edilməsi, mütərəqqi texnologiyaların tətbiqinin ləngliyi, təsərrüfatların ölçüsünün kiçikliyi və bu kimi digər problemlərlə izah oluna bilər. Nəticə etibarı ilə, ayrı-ayrı illərdə əlverişli təbii-iqlim şəraiti səbəbindən yüksək məhsul yığımı müşahidə edilsə də, ümumilikdə bitkiçilik sahəsində məhsuldarlıq aşağı olaraq qalmaqdadır (cədvəl 1). Belə ki, kənd təsərrüfatına dövlət dəstəyinin əhəmiyyətli hissəsinin taxıl istehsalının payına düşməsinə baxmayaraq, bu sahədə məhsuldarlıq ən yaxşı halda 31,5 sent/ha (2015-ci ildə) təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, ABŞ-da bu göstərici orta hesabla 76,4 sent/ha, Avropa ölkələrində - 60-70 sent/ha təşkil edir. Analoji mənzərə heyvandarlıq sahəsində də müşahidə edilir: ölkədə hər baş inəkdən süd sağımı 1402 kq təşkil etmişdir ki, bu da Avropa üzrə orta göstəricidən 3,9 dəfə azdır.

Məhsuldarlığın aşağı olması səbəbindən kənd təsərrüfatı məhsullarının adambaşına istehsalına görə Azərbaycan yalnız inkişaf etmiş ölkələrdən deyil, eyni zamanda MDB ölkələrinin də bir çoxundan geri qalır (cədvəl 2).

Cədvəl 1

2015-ci ildə MDB ölkələri üzrə kənd təsərrüfatı istehsalının məhsuldarlığı

	Taxıl, sent/ha	**Kartof, sent/ha**	**Tərəvəz, sent/ha**	**Meyvə və giləmeyvə, sent/ha**	**Şəkər çuğunduru, sent/ha**	**Hər baş inək və camışdan süd sağımı, kq**
Azərbaycan	30,7	136	158	69,5	376	1402
Belarusiya	36,5	194	244	64,2	330	4508
Qazaxıstan	12,7	186	246	60,6	233	1771
Qırğızıstan	28,6	165	192	-	363	1895
Ermənistan	31,8	229	335	104,7	-	2061
Moldova	23,4	72	85	43,3	253	3672
Rusiya	23,7	159	223	75,7	356	4029
Tacikistan	32,3	222	248	33,2	-	800
Ukrayna	41,1	161	196	104,5	436	4509

Mənbə: Belarusiya Respublikasının Milli Statistika Komitəsi [1].

Cədvəl 2

2016-cı ildə MDB ölkələrində ərzaq məhsullarının adambaşına istehsalı, kq/il

	Taxıl	**Kartof**	**Tərəvəz**	**Meyvə və giləmeyvə**	**Ət**	**Süd**	**Yumurta, ədəd**	**Şəkər çuğunduru**
Azərbaycan	310	94	132	87	31	209	167	32
Belarus	785	630	199	74	121	751	386	450
Qazaxıstan	1165	200	214	15	54	299	267	19
Qırğızıstan	306	228	176	39	37	251	77	116
Ermənistan	208	245	331	81	33	252	232	-
Moldova	838	60	83	166	37	145	188	166
Rusiya	812	212	111	23	65	209	297	304
Tacikistan	167	104	203	42	14	107	39	-
Ukrayna	1551	512	221	47	54	244	356	326

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Rosstat [2].

Cədvəldən göründüyü kimi, 2016-cı ildə meyvə və giləmeyvə istehsalının adambaşına həcminə görə Azərbaycan doqquz MDB ölkəsi arasında 2-ci, taxıl və şəkər çuğundurunun istehsal həcminə görə - 6-cı, tərəvəz, süd və yumurta istehsalının həcminə görə - 7-ci, kartof və ət istehsalının həcminə görə isə 8-ci yeri tutmuşdur. Əsas ərzaq məhsullarının adambaşına istehsal səviyyəsinin digər ölkələrlə müqayisədə aşağı olması ölkənin mövcud aqrar potensialından qeyri-rasional istifadə edilməsindən və sahəyə göstərilən dövlət dəstəyi tədbirlərinin istehsalın intensivləşdirilməsi baxımından kifayət qədər effektiv olmamasından xəbər verir.

Ərzaqla özünütəminetmə səviyyəsinin yüksəldilməsinə təsir edən amillər

Tədqiq edilən dövr ərzində əhalinin gəlirlərinin artması ilə ödənişqabiliyyətli tələbin stimullaşdırılması ərzaq məhsullarına da tələbatın artmasına gətirib çıxarmışdır. Ölkənin aqrar sektorunun qeyri-effektiv fəaliyyəti isə bu tələbatın təmin olunması məqsədilə ərzaq məhsullarının idxalının artırılmasını zəruri etmişdir. Dövlət Gömrük Komitəsinin məlumatlarına görə [3], təkcə 2017-ci il ərzində ölkəyə 1,4 mlrd. ABŞ dolları məbləğində ərzaq məhsulu idxal edilmişdir ki, bu da ümumi idxalın 16%-ni təşkil edir. 2017-cı ildə əvvəlki illə müqayisədə ölkəyə ət idxalı dəyər ifadəsində 1,6 dəfə, kərə yağının idxalı - 1,4 dəfə, süd idxalı isə - 1,8 dəfə artmışdır. Son illər dövlətin yürütdüyü aqrar siyasət çərçivəsində taxıl istehsalının artırılması istiqamətin-

də müvafiq tədbirlər görülməsinə baxmayaraq, ölkədə hələ də buğda və buğda məhsullarına olan tələbatın yerli istehsal hesabına optimal səviyyədə ödənilməsinə nail olunmamışdır. Belə ki, rəsmi statistikaya görə, 2013-2016-cı illərdə buğda ilə təminatda idxaldan asılılıq səviyyəsi 44-47% təşkil etmişdir. Qeyd edilən dövr ərzində təkcə bu məhsulun idxalına hər il orta hesabla 300 mln. ABŞ dollarından çox vəsait sərf edilmişdir. Belə vəziyyət öz növbəsində aqrar sektorun inkişafı və effektiv ərzaq təminatı sisteminin təşkil edilməsi məqsədilə hazırda həyata keçirilən dövlət tənzimlənməsi tədbirlərinin sahədə davamlı inkişafın təmin edilməsi və ölkənin ərzaqla özünütəminetmə səviyyəsinin yüksəldilməsində lazımi rol oynamadığını əks etdirir.

Ümumilikdə, ölkənin ərzaqla özünütəminetmə səviyyəsinin yüksəldilməsi imkanlarının məhdudlaşmasında aşağıdakı amillərin rolu xüsusi qeyd edilməlidir:

• Əkinçilikdə üzvi və mineral gübrələrdən istifadə səviyyəsinin tələbata uyğun olmaması. Məlum olduğu kimi, kənd təsərrüfatının əsas istehsal vasitəsi olan torpaqların keyfiyyətinin və münbitliyinin qorunub saxlanılması və əkinçilik zamanı tükənən qidalı maddələrin bərpa edilməsi məqsədilə torpağa müntəzəm olaraq mineral və üzvi gübrələr verilməlidir. Şəkil 3-dən göründüyü kimi, 2007-ci ildən başlayaraq aqrar sahəyə göstərilən dövlət dəstəyinin miqyasının genişlənməsi əkin sahələrinə verilən mineral gübrələrin həcminin də nəzərəçarpacaq dərəcədə artmasına səbəb olmuşdur. Belə ki, təkcə 2016-cı ildə əkin sahələrinə verilən mineral gübrələrin həcmi ötən illə müqayisədə 2 dəfəyədək artaraq 80,7 min tona çatmışdır. Bununla da hər hektar əkin sahəsinə verilən gübrələrin həcmi 44 kq təşkil etmişdir, o cümlədən taxıl bitkiləri əkini üzrə - 51 kq, kartof üzrə - 34 kq, tərəvəz və bostan bitkiləri üzrə - 53 kq gübrə istifadə edilmişdir. (Xatırladaq ki, 1985-ci ildə hər hektar əkin sahəsinə mineral gübrə istifadəsi müvafiq olaraq 166 kq-a, o cümlədən taxıl bitkiləri əkini üzrə - 179 kq, kartof üzrə - 305 kq, tərəvəz və bostan bitkiləri əkini üzrə - 428 kq-a bərabər olmuşdur). Bununla belə, qeyd etmək lazımdır ki, son illər mineral gübrələrin istifadə səviyyəsində müşahidə edilən artıma baxmayaraq, əkin sahələrinə verilən gübrələrin həcmi mövcud tələbatdan xeyli geri qalır. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssislərinin hesablamalarına görə, kənd təsərrüfatında gübrələrə mövcud tələbat 950 mln. t həcmindədir. Hazırda bu tələbat cəmi 16-17% həcmində ödənilir [4] ki, bu da torpaqların əlverişli strukturunun pozulmasına və təbii məhsuldarlığın azalmasına gətirib çıxarır.



Şəkil 3. Əkinlərə mineral gübrələrin verilməsi, 100% qidalı maddə hesabı ilə.

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

• Torpaqların münbitliyi və keyfiyyətinin azalması. Məlum olduğu kimi, ölkə üzrə ümumi torpaq fondunun 55,1%-i kənd təsərrüfatı üçün yararlı torpaqların payına düşür ki, bunun da cəmi 39,8%-i əkinçilikdə istifadə olunur. [5] Məlumatlara görə, hazırda əkinə yararlı torpaqların 30%-i bu və ya digər dərəcədə şoranlaşmaya məruz qalmışdır ki [6], bu da bitkiçilikdə məhsuldarlıq səviyyəsinə ciddi təsir göstərən amillərdəndir. Belə ki, mütəxəssislərin hesablamalarına görə, zəif şoranlaşmış torpaqlarda məhsuldarlıq 15-20%, orta dərəcədə şoranlaşmış torpaqlarda - 40-50%, şiddətli dərəcədə şoranlaşmış torpaqlarda isə 80-90% azalır. Ümumilikdə, zəif şoranlaşmış torpaqlarda il ərzində 1027,5 min manat dəyərində, orta dərəcədə şoranlaşmış torpaqlarda isə 1072,5 min manat dəyərində məhsul itkisi baş verir. Digər tərəfdən, bu cür torpaqlarda məhsulun keyfiyyəti 3-5 dəfə pisləşir, bitkilərin qidalanma səviyyəsi isə 10 dəfəyədək aşağı düşür. [7]

• İstehsalın texniki təchizat səviyyəsinin qənaətbəxş olmaması. Son illər aqrar sahənin texniki təchizat səviyyəsinin gücləndirilməsi istiqamətində dövlət tərəfindən göstərilən səylərə baxmayaraq, əsas növ kənd təsərrüfatı texnikası ilə təminat sahəsində mövcud vəziyyət qənaətbəxş deyil. Təkcə onu demək kifayətdir ki, 1990-cı illə müqayisədə 2016-cı ildə traktorların sayı 2,4 dəfə, taxılyığan kombaynların sayı - 3,5 dəfə, qarğıdalıyığan kombaynların sayı - 180,5 dəfə, toxumsəpənlərin sayı isə 30,6 dəfə azalmışdır. Əsas texnika növlərinin sayının azalması hər hektar əkin sahəsinin texnika ilə təchizat göstəricilərinin pisləşməsinə və təsərrüfatlarda mövcud texnikanın normadan artıq yüklənməsinə səbəb olur. Belə ki, 2016-cı ildə 1000 ha əkin sahəsinə düşən traktorların sayı 1990-cı illə müqayisədə 2,5 dəfə azalaraq 10,5 ədədə, taxılyığan kombaynların sayı 5,7 dəfə azalaraq 1,4 ədədə, qarğıdalıyığan kombaynların sayı 280 dəfə azalaraq 0,1 ədədə, kartofyığan kombaynların sayı isə 180 dəfə azalaraq 0,1 ədədə enmişdir. Müvafiq olaraq bir traktora düşən yük bu dövr ərzində 39 hektardan 96 hektara qədər, taxılyığan kombayna düşən yük 126 hektardan 736 hektara, qarğıdalıyığan kombayna düşən yük 36 hektardan 17928 hektara, kartofyığan kombayna düşən yük isə 567 hektardan 12558 hektara qədər çatmışdır (şəkil 4). Bu cür vəziyyət isə həm istehsalın həcminin artırılması imkanlarını məhdudlaşdırır, həm də məhsul itkilərinin yaranması, istehsalın maya dəyərinin artması ilə nəticələnir.



Şəkil 4. Kənd təsərrüfatının texnika ilə təminatı.

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

• Suvarma suyu ilə təminatın lazımi səviyyədə olmaması. Məhsuldarlığın artırılması baxımından mühüm istiqamətlərdən biri də suvarılan torpaq sahələrinin genişləndirilməsi, eləcə də torpaqların şoranlaşması və eroziyasının qarşısının alınması və su məsrəfinin azaldılmasına imkan verən müasir suvarma metodlarının tətbiq edilməsindən ibarətdir. Hazırda ölkə üzrə suvarılan torpaq sahələri kənd təsərrüfatına yararlı torpaqların cəmi 1/3-ni əhatə edir [5]. Kənd təsərrüfatına yararlı torpaqların bir hissəsinin suvarılan əkinçilikdə istifadə olunmaması ölkədə su ehtiyatlarının azlığı və bu ehtiyatlardan səmərəsiz istifadə edilməsi ilə bağlıdır. Eyni zamanda, mövcud irriqasiya-meliorasiya sisteminin müasir tələblərə uyğun olmaması ayrı-ayrı regionlarda təsərrüfatların suvarma suyu ilə təminatında çətinliklərin yaranmasına, eləcə də suvarma zamanı itkilərin baş verməsinə gətirib çıxarır.

• İstehsalçıların maliyyə resurslarına çıxışının məhdudluğu. Məlum olduğu kimi, ərzaq istehsalçılarının orta və uzunmüddətli kredit resurslarına çıxışının asanlaşdırılması milli aqrar potensial hesabına effektiv ərzaq sisteminin təşkil edilməsində mühüm rola malikdir. Bununla belə, maliyyə vəsaitlərinə mövcud tələbat müqabilində ərzaq istehsalçılarının kommersiya banklarından kredit alma imkanları hələ ki, xeyli məhduddur. Bunun əsas səbəbləri sırasında banklar tərəfindən təklif edilən kreditlərin bahalığı, girov təminatı mexanizmləri ilə bağlı məhdudiyyətlər, istehsalçıların gəlirliliyinin azlığı və digər problemləri göstərmək olar. Statistik məlumatlardan da göründüyü kimi, hazırda bankların kredit portfelində kənd təsərrüfatı və emal sektoru ən az xüsusi çəkiyə malik olan sahələrdəndir. Belə ki, Mərkəzi Bankın məlumatına əsasən [8], 2017-ci ildə kənd təsərrüfatı və emalının ümumi kredit portfelində payı cəmi 3,7% təşkil etmişdir ki, bunun da sahənin mövcud problemləri fonunda xeyli az olduğunu demək olar (şəkil 5). Aşağı gəlirlilik, rentabelliyin azlığı və müvafiq olaraq aşağı ödənişqabiliyyətlilik səbəbindən kiçik fermer təsərrüfatları kənar maliyyələşmə mənbələrinə çıxışda daha böyük çətinliklərlə üzləşirlər ki, bu da onların tələb olunan texnika və avadanlıqlar əldə etmələrinə və bununla da istehsalın effektivliyini artırmalarına imkan vermir.



Şəkil 5. Kənd təsərrüfatı və emal sənayesinə kredit qoyuluşları.

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı.

Nəticə

Beləliklə, ərzaq təminatı sisteminin mövcud vəziyyətinin təhlili belə nəticəyə gəlməyə əsas verir ki, ölkədə ərzağın fiziki əlçatanlıq səviyyəsi ümumilikdə qənaətbəxşdir. Bununla belə,

yerli aqrar-sənaye kompleksinin daxili tələbatın ödənilməsi üçün lazım olan miqdarda məhsul istehsal edə bilməməsi ərzaq bazarında idxal məhsullarının xüsusi çəkisinin yüksək olaraq qalması ilə nəticələnir.

Yerli istehsal hesabına ərzaqla özünütəminetmə səviyyəsinin yüksəldilməsi imkanları ilk növbədə aqrar istehsalın effektivliyinin aşağı olması səbəbindən məhdudlaşır ki, bu da əsasən kənd təsərrüfatı resurslarından səmərəsiz istifadə edilməsi, sahənin maddi-texniki bazasının geriliyi, mütərəqqi texnologiyalardan lazımi səviyyədə istifadə olunmaması, aşağı əmək məhsuldarlığı kimi problemlərin sahənin inkişafına mənfi təsiri ilə izah olunur. Aqrar istehsalın inkişafının əsas etibarı ilə ekstensiv xarakter daşıması sahənin effektivliyinin təbii amillərdən asılılığını artırır ki, bu da məhsuldarlığın aşağı olması ilə nəticələnir. Eyni zamanda, həm maliyyə vəsaitlərinin məhdudluğu, həm də müasir texnologiyalar və aqrotexniki qaydalar barədə az məlumatlı olmaları səbəbindən istehsalçılar aqrotexniki tədbirləri vaxtlı-vaxtında həyata keçirə bilmir, bu da bir tərəfdən kənd təsərrüfatı sahəsində fəaliyyətin rasional təşkil edilməsi və istehsalın səmərəliliyinin artırılmasına imkan vermir, digər tərəfdən isə sahədə ekoloji vəziyyətin pisləşməsinə gətirib çıxarır. Bu isə ölkədə torpaqların təbii potensialının azalmasına və bununla da yerli istehsal hesabına ərzaq təminatı səviyyəsinin uzunmüddətli perspektivdə məhdudlaşmasına səbəb ola bilər.

Göründüyü kimi, mövcud şəraitdə ərzaq təhlükəsizliyinin optimal səviyyəsinə nail olunması aqrar sektorda istehsal münasibətlərinin modernizasiyası, mövcud istehsal potensialından səmərəli istifadənin təmin edilməsi, istehsalın texniki-texnoloji səviyyəsinin yüksəldilməsi, eləcə də ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunub saxlanılması şərti ilə istehsalın məhsuldarlığının artırılması imkanları ilə bağlıdır. Bu baxımdan ölkənin ərzaq təminatı sisteminin dayanıqlılığının artırılması sahəsində qarşıda duran başlıca vəzifələrdən biri aqrar sahənin innovasiyalı inkişafa keçidinin sürətləndirilməsi üçün əverişli şəraitin yaradılmasından ibarət olmalıdır.

ƏDƏBİYYAT

1. Беларусь и страны мира. 2016. Статистический сборник. Национальный статистический комитет Республики Беларусь. - Минск, 2016
2. Россия и страны мира. 2016: Стат. сб./ Росстат. - М., 2016.
3. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. Hesabat dövrü: 01.01.2017 - 31.12.2017
4. https://report.az
5. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016.
6. Qərib Məmmədov: "Azərbaycanda əkinə yararlı torpaqların 30%-i müxtəlif dərəcədə şoranlaşmış sahələrdir". - URL: http://m.apa.az/az/iqtisadiyyat-xeberleri/aqrar-senaye-kompleksi/qerib-memmedov-azerbaycanda-ekine-yararli-torpaqlarin-30-i-muxtelif-derecede-soranlasmis-sahelerdir
7. Vəliyev A.H. Torpaqların şorlaşma və şorakətləşməsinin kənd təsərrüfatı məhsulları istehsalına təsirinin qiymətləndirilməsi // Az. KTİETİ Elmi Əsərləri. 2017, №3.
8. Azərbaycan Respublikası Mərkəzi Bankı. Statistik Bülleten. №12 (213). 12/2017

Лейла Акиф кызы Мурадвердиева
к.э.н. Институт экономики НАНА

Направления повышения устойчивости системы продовольственного обеспечения

Резюме

Низкая эффективность сельскохозяйственного производства, ухудшение качественных и количественных характеристик факторов производства, нерациональное использование имеющихся ресурсов препятствуют достижению оптимального уровня продовольственной самообеспеченности и обусловливают высокую зависимость внутреннего рынка от импортной продукции. Повышение устойчивости системы продовольственного обеспечения в этом контексте предполагает интенсификацию производства продовольственных товаров, создание устойчивой ресурсной базы сельскохозяйственного производства, формирование эффективного продовольственного рынка и инфраструктуры, а также укрепление научно-технического потенциала аграрного сектора. В статье проанализировано современное состояние системы продовольственного обеспечения, оценена эффективность реализуемых мер в сфере развития данной системы и обоснованы приоритетные направления повышения устойчивости продовольственной системы.

Ключевые слова: система продовольственного обеспечения, продовольственная безопасность, физическая доступность продовольствия, аграрное производство, уровень продовольственной самообеспеченности.

Leyla Akif Muradverdiyeva
PhD in economics
Institute of Economy, ANAS

Directions for improving sustainability of food supply system

Summary

The low efficiency of agricultural production, deterioration of means of production, inefficient use of agricultural resources prevent ensuring the optimal level of food self-sufficiency and lead to high dependence of the internal market on food imports. The key to improving the sustainability of food supply system in this terms lies in intensification of food production, development of sustainable resource base for agricultural production, establishing an effective food market and infrastructure, as well as strengthening scientific and technical potential of the agricultural sector. In this paper the current state of food supply system is analyzed, the efficiency of implemented measures for its development is evaluated, and the priorities for improving the sustainability of the food system are substantiated.

Keywords: food system, food security, food availability, agricultural production, food self-sufficiency level.

UOT 338.43

Xavər Abdulməcid qızı HÜSEYNOVA
AKU-nun "Menecment və ticarət" kafedrasının b/m

AQRAR SAHƏNİN İNTENSİV İNKİŞAFININ TƏMİN OLUNMASINDA DÖVLƏTİN ROLU

Xülasə

Aqrar sahənin iqtisadi səmərəliliyi bir çox amillərin təsiri altında formalaşır. Bunlara təbii, makroiqtisadi, daxili təsərrüfat amilləri və s. aiddir. Azərbaycanın aqrar sahəsinin rəqabətqabiliyyətliliyinin yüksəlməsi bu amillərin hər biri ilə bağl ehtiyatların fəallaşdırılmasını tələb edir.

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması, əhalinin ərzaq malları ilə təchizatının yaxşılaşdırılması və ən az vəsait hesabına buna nail olunması aqrar sahənin ilk növbədə həll edilməli olan məsələlərindəndir.

Açar sözlər: aqrar sektor, davamlı inkişaf, iqtisadi islahatlar, tədarük.

Giriş

Aqrar sahənin daha da intensiv inkişafına və səmərəliliyinin yüksəldilməsinə bir çox amillər təsir edir. Bu cür amillərə daha az vəsait hesabına başa gələn və aqrar sahənin strukturunun təkmilləşdirilməsinə və optimallaşdırılmasına istiqamətlənən tədbirləri aid etmək olar.

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və əhalinin ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılması aqrar sahənin ilk növbədə həll edilməli olan məsələlərindəndir.Aqrar sahənin bazar iqtisadiyyatı şəraitinə keçməsi müxtəlif mülkiyyət formalarına əsaslanan yeni təsərrüfatçılıq formalarının inkişafı ilə sıx bağlıdır. Belə ki, 2015-ci ildə Azərbaycanın kənd təsərrüfatında 1298 kənd təsərrüfatı müəssisəsi fəaliyyət göstərirdi ki, onlardan 235-i (18%) dövlət müəssisəsi, 2-si (0,1%) kolxoz, 58-i (94%) kooperativ, 1003-ü isə özəl təşkilatlar idi. Bunlardan başqa kənd təsərrüfatında 1534 fərdi sahibkar təsərrüfatları fəaliyyət göstərirdi.

Aqrar müəssisələrin səmərəliliyinin yüksəldilməsi

Bazar iqtisadi mexanizminin və istənilən mülkiyyət formalı aqrar müəssisələrin işinin səmərəliliyinin yüksəldilməsi aqrar sahənin strukturunu optimallaşdırmadan, təsərrüfatçılığın iqtisadi mexanizmini keyfiyyətcə yeni təşkilati-iqtisadi prinsiplər əsasında təkmilləşdirmədən mümkün deyil. Yeni tip təsərrüfatların işinin səmərəliliyinin artırılması, onların təsərrüfat fəaliyyətinin iqtisadi mexanizminin təkmilləşdirilməsi istehsal tiplərinin ərazi üzrə ixtisaslaşmanı nəzərə alaraq əsaslandırılması və onların təbii- iqlim zonalarında yerləşdirilməsi, sahələrin aqrar istehsalın strukturuyla ənənəvi və perspektiv şəkildə uzlaşdırılması ilə sıx bağlıdır.

Aqrar sahənin sürətli və yüksələn xətdə inkişafı kənd təsərrüfatının, o cümlədən yerli məhsul istehsalçılarının potensial imkanları hesabına təmin edilə bilməz. Hazırda keçid dövrünü yaşayan respublikamızda texniki potensialı fiziki və mənəvi cəhətdən köhnəlmiş maşın, mexanizm və avadanlıqlardan ibarət olan, həm də geniş təkrar istehsalı həyata keçirmək üçün zəruri maliyyə resurslarına malik olmayan aqrar sahənin öz gücü hesabına dayanıqlı inkişafa nail olması mümkün deyildir.Buna görə də, aqrar sahənin ardıcıl inkişafının əldə edilməsi, yalnız dövlətin iqtisadi tənzimləyicilərindən istifadə edilməsi sayəsində mümkündür. [1]

İnkişaf etmiş ölkələrdə dövlətin aqrar sahəyə məqsədyönlü təsiri yalnız böhranlı situasiyaları neytrallaşdırmaq üçün deyil, eyni zamanda davamlı və dayanıqlı inkişafın təmin edilməsi baxımından formalaşmışdır. Bu baxımdan aqrar sahənin dövlət tənzimlənməsini ümumi şəkildə aşağıdakı istiqamətlərin məcmusu şəklində xarakterizə etmək olar.

Kənd təsərrüfatı məhsulları istehsalı və aqrobiznes sahələrində investisiya proseslərinin tənzimlənməsi, ətraf mühit və ekoloji tarazlığın qorunması şərtilə, torpaq və su resurslarından səmərəli istifadə edilməsi, aqrar sahədə maddi-texniki resurslardan, işçi qüvvəsindən və istehsal

potensialının digər elementlərindən istifadənin düzgün təşkili, bu sahədə istehsal və qeyri- istehsal infrastrukturunun fəaliyyətinə yardım göstərilməsi, aqrar bazar infrastrukturunun inkişafının stimullaşdırılması, eləcə də ixrac potensialının genişləndirilməsi məqsədilə, əhalinin alıcılıq qabiliyyətinin artırılması; aqrar sahədə səmərəli marketinq xidməti işinin təşkili, həmçinin statistik informasiya xidməti vasitəsilə aqrar sahəyə təsir göstərilməsi və s.

Araşdırmalar göstərir ki, keçən əsrin son onilliyinin ikinci yarısından başlayaraq, bir sıra postsosialist dövlətlərində aqrar sahənin dayanıqlı inkişafı baxımından dövlətin aqrar iqtisadiyyatı tənzimləməsi sahəsində müəyyən irəliləyişlər əldə edilmişdir.

Aqrar sahənin ardıcıl və davamlı intensiv inkişafının təmin edilməsi

Aqrar sahənin ardıcıl və davamlı intensiv inkişafının təmin edilməsi məqsədilə, dünya təcrübəsində müvəffəqiyyətlə tətbiq edilən vasitələrə aşağıdakıları şamil etmək mümkündür:

- bazar konyunkturuna adekvat reaksiya göstərmək iqtidarında olan minimal (aşağı) qiymətlərlə daxili bazarın tənzimlənməsi;
- mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı məhsullarının istehsalçılarına öz imkanlarını və gələcək inkişaf istiqamətlərini proqnozlaşdırmaq üçün, onlara bazarda olan qiymətlər haqqında müntəzəm məlumatların çatdırılması;
- bazarlarda mövcud olan uyğunsuzluqları aradan qaldırmaq məqsədilə, kənd təsərrüfatı məhsullarının təminatı və etibarlı tədarük sisteminin yaradılması;
- daxili bazarın davamlı surətdə kənd təsərrüfatı və ərzaq məhsulları ilə tam təmin edilməsi;
- aqrar sahədə tarif və qeyri-tarif vasitələrindən istifadə etməklə, səmərəli dövlət tənzimlənməsinin həyata keçirilməsi və ixracın subsidiyalaşdırılması;
- aqrar sahənin istehsal cəhətdən yenidən qurulması və kəndin sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə maliyyə-kredit dəstəyinin həyata keçirilməsi və s. [2. s .461]

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sferasına kapital qoyuluşu sahəsində ölkə investorlarının imkanlarının məhdudluğunu, həmçinin bu halda dövlətin maliyyə yardımı göstərmək üçün kifayət qədər gücə malik olmadığını nəzərə alaraq, aqrar sahədə nisbətən qısa müddətdə əlverişli rəqabət mühitinin formalaşmasını düşünmək qeyri-mümkündür. Kənd təsərrüfatı məhsullarının reallaşdırılması üzrə antiinhisar nəzarəti və tənzimlənməsi həyata keçirilməli və aqrar bazarda lokal inhisarçılığın təsbit olunmasının qanunvericilik əsasları müəyyən edilməli, bu məqsədlə müvafiq normativ baza hazırlanmalıdır. Qeyd etmək lazımdır ki, aqrar sahədə sahibkarlıq fəaliyyətinə dövlət himayəsi kənd təsərrüfatçılıq formalarına üstün şərait yaratmaqdan, daxili və xarici bazarda prioritet mövqeyə malik hüquqi şəxs statuslu subyektlərə büdcə və qeyri - büdcə formalarından zəruri maliyyə yardımlarının göstərilməsindən, aqrar sahədə çalışan işçilərin əmək gəlirlərinin artırılmasına əlverişli şərait yaradılmasından ibarət olmalıdır. Aqrar sahədə dövlət himayəsi sistemli - elmli, eləcə də idarə olunan bir proses kimi formalaşdırılmalı və inkişaf etdirilməlidir. [3]

Azərbaycan kənd təsərrüfatının inkişafı sahəsində tarixən güclü ənənələrə malik olan ölkədir. Dövlət başçısı aqrar sektorun üstün inkişafının təmin olunmasını da prioritet istiqamət kimi bəyan edib. Əlverişli coğrafi - iqlim xüsusiyyətləri ölkəmizdə aqrar sektorun geniş inkişaf imkanlarına malik olmasını şərtləndirir. Eyni zamanda, həyata keçirilən səmərəli siyasət sayəsində Azərbaycanın iqtisadi potensialının və maliyyə imkanlarının artması respublikamızda kənd təsərrüfatı sahəsində möcud olan imkanlardan istifadə edilməsinə münbit zəmin yaradır. Ölkə əhalisinin təxminən yarısının bölgələrdə yaşadığını və məşğul əhalinin 40%-nın kənd təsərrüfatında çalışdığını nəzərə alsaq, deyə bilərik ki, aqrar sektorun inkişaf etdirilməsi sosial baxımdan da ciddi önəm kəsb edir.

Ölkəmizdə kənd təsərrüfatına praktiki müstəvidə geniş maliyyə və texniki dəstək göstərilir, eyni zamanda, bu sahədə hədəflənən yüksək nəticələrin əldə olunması məqsədilə institusional islahatlar həyata keçirilir, qanunvericilik bazası möhkəmləndirilir. Sahibkarlığa kömək Milli

Fondunun kredit portfelinin 65-70%-i kənd təsərrüfatı istehsalına və kənd təsərrüfatı məhsullarının emalı sahələrinə yönəldilir. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azaddırlar. [5]

Aqrar sahədə aqroparkların yaradılması

Prezident İlham Əliyev vurğulayıb ki, aqrar sahədə yeni aqroparkların yaradılması sürətlə gedir. Bu günə qədər dövlətin təsəbbüsü və maliyyə dəstəyi ilə 32 iri fermer təsərrüfatı yaradılıb. Hal - hazırda 38 böyük aqropark yaradılır. Dövlət başçısının vurğuladığı kimi, tezliklə 38 aqroparkın yaradılması bizim ixrac potensialımızı böyük dərəcədə artıracaq. Ölkə rəhbəri qeyd edib ki, qeyri - neft sektoru məhsullarının ixracı 27 faiz artıb. Bu məhsullar sırasında kənd təsərrüfatı məhsulları da üstünlük təşkil edir. Lakin görüləcək işlər bununla bitmir. Çünki, qarşıya vəzifələr qoyulub ki, bu sahədə daha böyük nəticələr əldə olunsun. Prezident İlham Əliyev pambıqçılıq, taxılçılıq, baramaçılıq, tütünçülük, üzümçülük, fındıqçılıq, zeytunçuluq və digər ixrac potensialı yüksək olan məhsulların istehsalının daha da artırılması ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi. İnanırıq ki, yaxın gələcəkdə bu istiqamətdə əhəmiyyətli dərəcədə yüksək nəticələr əldə olunacaq.

Hazırda aqrar sahənin inkişafı diqqət mərkəzindədir. Bu sahəyə dövlətin necə dəyər verməsi haqqında qeyd edə bilərik:

İqtisadiyyatın bütün sahələrində olduğu kimi ölkəmizin aqrar sahələrində də zamanın çağırışlarına uyğun olaraq iqtisadi inkişaf modellərindən istifadə olunur. Hazırda aqrar sahəni innovasiyalar tətbiq etmədən inkişaf etdirməyi təsəvvür etmək çox çətindir. Bunu nəzərə alaraq ölkə başçısının tapşırığı əsasında aqrar sahədə innovasiyanın təbiqi istiqamətində geniş işlərə başlanmışdır.(8)

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" inkişaf istiqamətlərindən biridir. Bu Strateji Yol Xəritəsinin ümumi məqsədi Azərbaycan Respublikasında kənd təsərrüfatı sektorunun yüksək rəqabət qabiliyyətinə və dayanıqlı inkişafına nail olmaqdır.

Strateji Yol Xəritəsinin hər bir bölməsində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi üçün tələb olunan vəsaitin müəyyən edilib əks olunması onu deməyə əsas verir ki, bu proqramın icrası tam təmin ediləcəkdir. Belə bir proqramın qəbul edilməsi və onun icrası üçün həyata keçirilən tədbirlər aqrar sahənin inkişafına göstərilən dövlət dəstəyinin bariz nümunəsidir. [6]

Biz qətiyyətlə inanırıq ki, Heydər Əliyev siyasətinin davamçısı olan dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistem xarakterli dərin islahatlar və qlobal iqtisadi çağırışlara uyğun olaraq hazırlanmış "Strateji Yol Xəritəsinin" icrası nəticəsində ölkəmizdə formalaşmış iqtisadi islahatlar və inkişafın Azərbaycan modeli mahiyyət etibarı ilə daha yüksək vüsət alacaq və ölkə əhalisinin daha firavan yaşaması təmin ediləcəkdir.

Aparılan təhlilə əsasən qeyd etmək olar ki, Azərbaycanda buğda istehsalının artırılması - bir sözlə, aqrar sahənin daha da inkişafı üçün istehsal səbətinə daxil olan və ərzaq balansının əsas hissəsini təşkil edən ərzaq bitkilərinin məhsuldarlığının artırılması vacib şərtlərdəndir.

Aqrar sahənin inkişafının təmin olunmasında həyata keçirilən məsələlər

Bütün bunları nəzərə alaraq aşağıdakı məsələlərin həyata keçirilməsi təklif edilir.

- Zəruri istehlak səbətinə daxil olan əsas ərzaq bitkilərinin (buğda, arpa, kartof, soğan, pomidor, xiyar, badımcan, bibər) becərilməsində və bitkilərin keyfiyyət və məhsuldarlıq göstəricilərinin yüksəldilməsi üçün tətbiq edilən səmərəli innovativ metodlarlara üstünlük verilməsi;
- Bitki məhsuldarlığının artırılmasında əsas rol oynayan torpaq münbitliyinin bərpa edilməsinin və bəzi hallarda münbitlik göstəricilərinin yaxşılaşdırılması istiqamətində nəzəri və iqtisadi konsepsiyaların ümumiləşdirilməsi, torpaq münbitlik göstəricilərinin tam iqtisadi rentabellik əmsallarının hesablanması zamanı daha yüksək nəticələrin əldə olunması;
- Aqrar sahədə müşahidələrin təkmilləşdirilməsi zamanı metodoloji tələb, iqtisadi hesabların tərtibi, aqrar sahədə əmək məsrəflərinə dair məlumatlar, kənd əhalisinin strukturu, işçi qüv-

vəsi, kənd əhalisinin miqrasiyası, müxtəlif məlumat bazasından istifadə və s. tələblərin nəzərə alınması;

- Kənd təsərrüfatı statistikasının məlumatlarını formalaşdırmaq üçün kənd təsərrüfatının siyahıyaalınması, kənd təsərrüfatında iqtisadi müşahidələr, əhalinin siyahıyaalınması və demoqrafik müşahidələr, işçi qüvvəsinin ev təsərrüfatlarının müşahidələri və s. mənbələrdən istifadə olunması;
- Kənd təsərrüfatında məşğulluğa dair müşahidələr apararkən əmək məsrəfləri, sahibkarlığın strukturu, iqtisadi və digər xarakteristikaları, ev təsərrüfatlarının müşahidələrində sosial-iqtisadi vəziyyətindən asılı olaraq, əhalinin iqtisadi fəallığı və başqa göstəricilərin tədqiq olunması;
- Kənd təsərrüfatı məhsullarının artımı və məhsuldarlığına mənfi təsir edən mühit amillərindən asılılığını qiymətləndirmək üçün daha effektli empirik modellərdən istifadə etməsi, bütün bunları nəzərə alaraq, tədqiqat çərçivəsində kənd təsərrüfatı məhsuldarlığına təsir edən və aqrar sahənin inkişafında böyük göstərici kimi xarici faktorlar üzrə indiyə qədər yaradılmış bütün empirik modellərin sistemləşdirilməsi;
- Kəndin inkişaf statistikasında aparılan tədqiqatları qiymətləndirmək üçün lazımi statistik məlumatların (sosial, demoqrafik, iqtisadi, və s.) toplanması ilə kənd yerlərində davamlı inkişafın müəyyənləşdirilməsinə diqqətin artırılması;
- Torpaqdan səmərəli istifadə edilməsi üçün müasir tələblər səviyyəsində eroziya prosesinə qarşı mükəmməl mübarizə tədbirlərinin həyata keçirilməsi;
- Bitkiçilik üzrə tədqiqatları daha səmərəli etmək üçün aqrar sahədə aparılan tədqiqatlar haqqında dünya təcrübəsinin ümumiləşdirilməsi, aqrar sahədə ölkənin inkişafının xarakterik xüsusiyyətlərini nəzərə almaqla konkret təhlillərin aparılması;
- Aqrar sahədə intensiv inkişafı xarakterizə edən müasir riyazi modellərin bir araya gətirilməsi, elmi-texniki ideyaların tətbiqinin aqrar sahədə istehsal həcminə və məhsulun keyfiyyət göstəricilərinə təsirinin müəyyənləşdirilməsi;
- Amerika və Qərbi Avropa ölkələri tədqiqatçıları, xüsusilə də alman tədqiqatçılarının əldə etdikləri nəticələri ümumiləşdirərək Azərbaycanda aqrar sahənin spesifik xüsusiyyətlərini və sosial-iqtisadi inkişaf komponentini nəzərə alan yeni innovativ aqrar iqtisadi inkişaf modelinin yaradılması;
- Məqsədyönlü torpaq tədqiqatlarının nəticələrini sistemləşdirmək məqsədilə istehlak səbətinə daxil olan bir sıra zəruri məhsulların becərilməsinə tətbiq ediləcək innovativ əkinçilik texnologiyalarının tətbiqi;
- Azərbaycanda aqrar sahənin inkişafının spesifik xüsusiyyətlərini nəzərə alaraq, elmi-texniki ideyaların, innovativ elmi-tədqiqat nəticələrinin aqrar göstəricilərə təsirinin kəmiyyət nöqteyi-nəzərindən qiymətləndirilməsi. [4]

Nəticə

Prezidenti İlham Əliyevin ölkədə aqrar sahənin inkişafı ilə bağlı verdiyi fərman və sərəncamların icrasına müvafiq olaraq, respublikada əkinçilik mədəniyyətinin və kənd təsərrüfatı istehsalının yüksəldilməsi, üzvi və mineral gübrə istehsalının və tətbiqinin genişləndirilməsi, suvarma və meliorasiya tədbirlərinin həcminin artırılması, bitkiçilik və heyvandarlıq sahəsində yeni sort və cinslərin yaradılması üzrə Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan institutların və digər aqraryönümlü sahə institutlarının elmi potensialından səmərəli istifadə etmək və əsaslı tədbirlər sistemi aşağıda göstərilən istiqamətlərə müvafiq olaraq bundan sonra sistemli şəkildə təkmilləşdirilməklə onların modernləşdirilməsinə yönəldilmiş islahatlar daha da intensivləşdiriləcəkdir:

- aqrar elmin müasir idarəetmə və əlaqələndirmə strukturunun sahənin tələbləri səviyyəsində qurulması və inkişafı;

- nəzəri-fundamental və innovativ-tətbiqi tədqiqatların ən müasir dünya səviyyəsinə qaldırılması;
- aqrar elmin innovasiya potensialının səmərəli reallaşdırılması;
- ekoloji təmiz kənd təsərrüfatının yayılması və inkişafı;
- fundamental və tətbiqi tədqiqatların həyata keçirilməsi sahəsində AMEA-nın əlaqələndirici rolu;
- ehtiyatların (torpaq, su və s.) optimal idarəedilməsi sisteminin yaradılması;
- aqrar sahənin prioritet istiqamətlərində elm və texnologiyaların inkişafının proqnozlaşdırılmaları;
- aqrar sahədə tarif və qeyri-tarif sahələrindən (kvotalar, lisenziyalar və s.) istifadə edilməklə, səmərəli dövlət tənzimlənməsinin həyata keçirilməsi və ixracın subsidiyalaşdırılması;
- aqrar sahənin istehsal cəhətdən yenidən qurulması və kəndin sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə maliyyə- kredit dəstəyinin (yardımının) həyata keçirilməsi və s. [9. səh. 434].

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında dövlət mülkiyyətinin özəlləşdirilməsi aqrar sektorda çoxsaylı əmtəə istehsalçılarınn formalaşması və məhsul istehsalının həcminin sabitləşdirilməsi ilə nəticələnmişdir.

Aqrar sahədə dövlət himayəsi sistemli-elmli, eləcə də idarə olunan bir proses kimi formalaşdırılmalı və daha da inkişaf etdirilməlidir.

ƏDƏBİYYAT

1. "Kooperasiya" elmi-praktiki jurnal N:4 səh. 30, 2017
2. "Kooperasiya" elmi-praktiki jurnal № 1, 2018 səh. 460; səh.461; səh. 405
3. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) Bakı 2004
4. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illər 25 avqust tarixli; 3004 nömrəli sərəncamı, 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı".
5. "Aqrar islahatların əsasları haqqında " Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995
6. "Strateji Yol Xəritəsi"; Bakı 2016. 6 dekabr proqramı.
7. "Aqrar sahənin əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995
8. Əhmədov G.Ə. Kənd təsərrüfatı innovasiyalarının tətbiq istiqamətləri. Bakı, 2010.
9. Aqrar islahatlar 10 ildə. Respublika elmi-praktik konfransının materialları. Bakı, 2005. s. 434.

ст. пред. Хавар Абдулмаджид кызы Гусейнова
департамент «Менеджмент и торговля» АУК

Роль государства в обеспечении интенсивного развития аграрного сектора.

Резюме

На экономическую эффективность аграрного сектора влияют многие факторы. К ним относятие естественные, макроэкономические, внутре-хозейстеснные факторы и т. д. Повышение конкурентоспособности аграрного сектора в Азербайджане требует активизации ресурсов, связанных с каждым из этих факторов. Увеличение производства сельскохозяйственной продукции, улучшение снабжения населения продовольствием и достижение этих целей наименьшими затратами являются главными проблемами, которые необходимо решить в первую очередь.

Ключевые слова: аграрный сектор, поступательное развитие, экономические реформы, заготовка.

Xaver Abdulmajid Guseynova
h/t of department of "Management and trade" ACU

The role of the state in ensuring intensive development of the agricultural sector

Summary

The economic efficiency of the agricultural sector is influenced by many factors. They include natural, macroeconomic, internal factors, and so on. Increasing the competitiveness of the agricultural sector in Azerbaijan requires the activation of resources associated with each of these factors. ncreasing the production of agricultural products, improving the supply of food to the population and achieving these goals at the lowest cost are the main problems that must be solved first.

Key words: agrarian sector, progressive development, economic reforms, harvesting.

UOT 338.43

Afiq Cavanşir oğlu NƏSİBOV
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

AQRAR SAHƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN MÜƏSSİSƏ VƏ TƏSƏRRÜFATLARIN MALİYYƏ MEXANİZMİNİN TƏŞKİLİ

Xülasə

Məqalədə kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatların inkişafının maliyyə mexanizminin mahiyyətinə aydınlıq gətirilmişdir. Bazar münasibətləri şəraitində müəssisə və təsərrüfatların inkişafının maliyyə mexanizminin təkmilləşdirilməsinə dair elmi əsaslandırılmış təkliflər verilmişdir.

Açar sözlər: kənd təsərrüfatı, maliyyə mexanizmi, planlaşdırma, maliyyə tənzimlənməsi, davamlı inkişaf.

Giriş

Bazar münasibətləri əsasında inkişaf kənd təsərrütfatı əmtəə istehsalçılarının arzuolunan səviyyədə maliyyə vəziyyətinin təmin olunmasına imkan vermədikdə sözügedən sahənin maliyyə baxımından müdafiəsinə - kənd təsərrüfatının maliyyə tənzimlənməsinə ehtiyac yaranır. Bunun üçün isə ilk növbədə tənzimləmənin maliyyə mexanizmi formalaşdırılmalıdır.

Maliyyə mexanizmi maliyyənin planlaşdırılmasını, maliyyə göstəricilərinin səviyyəsinin müəyyənləşdirilməsində istifadə edilən üsul və vasitələri, eyni zamanda bu məqsədlə istifadə edilən metodları özündə birləşdirir. Bazar münasibətləri şəraitində fəaliyyət göstərən hər bir müəssisə sadalanan üsul və vasitələrdən, eyni zamanda metodlardan istifadə etməklə öz inkişafının maliyyə mexanizmini formalaşdıra və təkmilləşdirə bilir.

Maliyyə mexanizminin planlaşdırılması metodları

Müəssisə və təsərrüfatların fəaliyyət miqyasları böyüdükcə sözügedən metodlar əsasında maliyyə mexanizminin təkmilləşdirilməsinə daha çox ehtiyac olur.

Bunu aşağıdakı cədvəlin məlumatlarından da görmək olar. (Cədvəl 1).

Cədvəl 1

Kənd təsərrüfatı müəssisələri, xidmət təşkilatları və fərdi sahibkar təsərrüfatlarının sayı, ilin axrına

İllər	Kənd təsərrüfatı müəssisələri və xidmət təşkilatları	O cümlədən						Fərdi sahibkarlar
		Kənd təsərrüfatı müəssisələri	O cümlədən				Xidmət təşkilatları	
			Dövlət müəssisələri	Kolxozlar	Hüquqi şəxs statuslu kooperativlər	Digər özəl təşkilatlar		
2005	2506	2182	303	2	164	1713	324	2681
2010	2336	1825	217	2	73	1533	511	2618
2011	2343	1917	254	2	69	1592	426	2593
2012	1860	1360	241	2	72	1045	504	2451
2013	1860	1337	238	2	72	1025	523	2334
2014	1869	1334	240	2	64	1028	535	1624
2015	1837	1298	235	2	58	1003	539	1534
2016	1719	1249	158	1	55	1035	470	1468

Cədvəlin məlumatlarından göründüyü kimi, 2005 - ci illə müqayisədə 2016 - cı ildə həm kənd təsərrüfatı müəssisələrinin, həm də fərdi sahibkar təsərrüfatlarının sayı kəskin azalmışdır.

Baxılan dövr ərzində kənd təsərrüfatı müəssisələrinin sayında azalma 31,4 %, fərdi sahibkar təsərrüfatlarının sayında azalma isə 45,2% təşkil etmişdir. Bu bazar subyektlərinin sayının azalmasına baxmayaraq, onların istehsal etdikləri məhsulların həcmi azalmamış, əksinə, artmışdır. Bu, onların fəaliyyət miqyaslarının genişlənməsilə əlaqədar olmuşdur.

Yuxarıda qeyd edilən metodlara əsaslanmaqla həm də makrosəviyyədə kənd təsərrüfatınbın tənzimlənməsinin maliyyə mexanizmini təkmilləşdirmək mümkündür.

Azərbaycanın kənd təsərrüfatının bazar münasibətləri əsasında inkişafı bu sahənin planlaşdırılmasını inkar etmir, əksinə, planlaşdırma vasitəsilə sahənin daha da inkişaf etdirilməsi mümkün olur. Belə ki, planlaşdırma vasitəsilə kənd təsərrüfatının inkişafına əngəl yaradan amillərdən və yaxud təhlükələrdən qaçmaq olur və beləliklə də onun daha yüksək templərlə inkişafına zəmin formalaşdırılır. Bu məqsədlə sahənin starateji planlaşdırılmasından istifadə edilir. Bu planlaşdırma uzunmüddətli dövrdə hədəflənən məqsədlərə nail olunması üzrə həyata keçirilən planlaşdırmadır və mahiyyəti keçmiş ittifaq dövləti zamanında həyata keçirilən uzunmüddətli planlaşdırmadan fərqlidir. Belə ki, uzunmüddətli planlaşdırmada rəqabət amili və bazarın tələbləri (eyni zamanda rəqiblərə münasibət) nəzərə alınmadan tədbirlər işlənib həyata keçirilirdi və həmin tədbirlər uzunmüddətli planlaşdırmanın tərkib hissələrinə daxil olurdu. Hazırda həm sahə səviyyəsində, həm də ayrıca müəssisə və təsərrüfatlar səviyyəsində strateji planlaşdırma üzrə tədbirlər işlənib hazırlanan zaman deyilən məsələlərin aydınlaşdırılmasına fikir verilir və bu, uzunmüddətli planlaşdırmanı strateji planlaşdırmadan fərqləndirən başlıca məqamlar kimi çıxış edir.

Uzunmüddətli planlaşdırmadan fərqli olaraq, kənd təsərrüfatı və bu sahədə fəaliyyət göstərən müəssisə və təsərrüfatlar üzrə işlənib hazırlanan taktiki planlaşdırma qısamüddətli dövrü əhatə edir və bu halda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi bir il çərçivəsində mümkün olur. Lakin hər iki halda planlarda maliyyə tədbirlərinin icrasına sərf olunan məbləğin və yaxud göstəricilərin səviyyəsinin əsaslandırılmasına fikir verilir. Bu göstəricilərin səviyyəsinin əsaslandırılması üçün müxtəlif metodlardan istifadə edilə bilər. Bu metodlara normativ, hesablama-analitik, balans, plan qərarlarının optimallaşdırılması və s. metodlarını aid etmək olar. Sadalanan metodların hər biri mahiyyətinə görə biri digərindən fərqlənir. Onların mahiyyətinə qısa da olsa nəzər salaq.

Maliyyə göstəricilərinin səviyyəsinin əsaslandırılması zamanı istifadə edilən normativ metodunun mahiyyəti, adından da göründüyü kimi, əvvəlcədən normalara və normativlərə əsaslanmanı nəzərdə tutur. Belə ki, təsərrüfatçılıq subyekti nəzərdə tutulmuş tədbirlərin icrası zamanı özünə tələb olunan maliyyə resurslarının həcmini norma və normativlər əsasında müəyyənləşdirir. Bu normalara nümunə olaraq, vergi stavkalarını, tarif ödəmələrini və yığımları, amortizasiya ayırmalarının normalarını, dövriyyə vəsaitlərinə tələbatın normalarını və s. göstərmək olar. Normativlərə əsaslanmaqla təsərrüfatçılıq forması səviyyəsində formalaşdırılacaq maliyyə resurslarının məbləği dəqiqləşdirilir, onun hansı hissəsinin təsərrüfatın özünün hesabına olcağı, hansının isə kənardan cəlb ediləcəyi müəyyən edilir. Norma və normativlərə əsaslanmaqla həm də bütövlükdə kənd təsərrüfatı üzrə tənzimləmə tədbirlərinin həyata keçirilməsinə və yaxud onun maliyyə təminatının əsaslandırılmasına aydınlıq gətirilir.

Maliyyə göstəricilərinin səviyyəsinin planlaşdırılmasında istifadə edilən hesablama - analitik metodun mahiyyəti onların səviyyəsinin müəyyənləşdirilməsi və yaxud dəqiqləşdirilməsi zamanı həmin göstəricilərin əvvəllər nail olunmuş kəmiyyəti və dəyişmə tempinə əsaslanma ilə bağlıdır. Belə ki, bu göstəricilərin müəyyən dövr ərzində dəyişmə tempinə (indeksinə) əsasən onun gələcəkdə qərarlaşa biləcək səviyyəsinə aydınlıq gətirilir.

Təsərrüfatçılıq subyektinin və bütövlükdə kənd təsərrüfatının maliyyə resurslarına tələbatının əsaslandırılmasında balans metodundan da istifadə edilir. Bu metodun tətbiqi zamanı balansların və xərc smetasının işlənib hazırlanması vasitəsilə mövcud resurslar və onlara faktiki tələbat əsasında bağlılıq yaradılır. Beləliklə, təsərrüfatçılıq subyektinin faktiki resurslarından müm-

kün qədər səmərəli istifadə edilməsi yolu ilə onun gələcəkdə maliyyə vəziyyətinin daha yaxşı olmasına imkanlar və yaxud zəminlər formalaşdırılır.

Müəssisəyə və yaxud təsərrüfatçılıq subyektinə lazım gələn maliyyə resurslarının kəmiyyətinin dəqiqləşdirilməsində plan göstəricilərinin optimallaşdırılması metodundan da istifadə edilir. Bu metodun tətbiqi müəyyən sayda planların işlənib hazırlanmasını və onların sırasından optimal planın seçilməsini nəzərdə tutur. Əlbəttə, burada söhbət maliyyə resurslarına tələbatın müəyyənləşdirilməsi məqsədilə işlənib hazırlanan optimal plandan gedir. Optimal plan dedikdə isə minimum maliyyə vəsaiti müqabilində maksimum nəticəyə (maksimum mənfəət əldə etməyə) malik olmağa imkan verən plan nəzərdə tutulur. Müəssisənin dövriyyə vəsaitlərinin sürətləndirilməsinə, maliyyə itkilərinin minimumlaşdırılmasına imkan verən plan da optimal plan hesab edilir. İndiki şəraitdə maliyyə planlarının və yaxud sözügedən planlar üzrə qəbul edilən qərarların optimallığının təmin edilməsi kənd təsərrüfatına ayrılan maliyyə resurslarından daha səmərəli istifadə edilməsinə şərait yarada bilər. Lakin bu, heç vəchlə kənd təsərrüfatına ayrılan maliyyə resurslarının məhdudlaşdırılması anlamına gəlməməlidir. Belə ki, bütün dünya ölkələrində kənd təsərrüfatının inkişafına yetərli səviyyədə maliyyə resursları ayrılmaqla həmin sahənin arzuedilən tempdə inkişafını təmin etmək mümkün olur. Belə ki, məsələn, bu sahənin innovasiyalı inkişafı həmişə ona yetərli səviyyədə maliyyə resurslarının ayrılması və bu əsasda sahənin sahələrarası rəqabət mübarizəsində əlverişli mövqeyinin təmin edilməsi əsasında mümkün olur.

Maliyyə göstəricilərinin proqnozlaşdırılması üsulları

Maliyyə mexanizminin tərkib hissələrindən biri də gələcəkdə maliyyə göstəricilərinin qərarlaşa biləcək səviyyəsinin müəyyənləşdirilməsi üçün istifadə edilən proqnozlaşdırma metodlarıdır. Həm kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatların, həm də bütövlükdə kənd təsərrüfatının maliyyə vəziyyətinin proqnozlaşdırılması onun uzunmüddətli dövrdə vəziyyətinin mümkün dəyişikliyinin aşkara çıxarılmasını nəzərdə tutur. Proqnozlaşdırma planlaşdırmadan fərqli olaraq, işlənib hazırlanan proqnozların həyata keçirilməsini nəzərdə tutmur, ona görə də ehtimallı xarakter daşıyır. Sadəcə olaraq, proqnozlaşdırmaya müraciət edilməklə gələcəkdə sahənin maliyyə vəziyyətinin necə olacağına aydınlıq gətirilir və arzu edilən inkişafın təmin olunması baxımından maliyyə resurslarına tələbat əsaslandırılır. Məhz bu resursların təmin edilməsi sayəsində inkişafı mühüm əhəmiyyət kəsb edən sahələrin dövlət tərəfindən dəstəklənməsi təmin edilir.

Proqnozlaşdırma zamanı tədqiqat obyektinin gələcəkdə maliyyə vəziyyətinin alternativ vəziyyətləri müəyyənləşdirilir. Bu zaman, əlbəttə, tədqiqat obyektinin (müəssisənin, təsərrüfatın, bütövlükdə sahənin) keçdiyi yol nəzərə alınır. Maliyyə vəziyyətini xarakterizə edən göstəricilərin gələcəkdə mümkün ola biləcək səviyyələrinin dəqiqləşdirilməsi məqsədilə ekstrapolyasiya metodundan və yaxud gələcəyin görülməsinə imkan verə biləcək başqa metoddan istifadə edilə bilər. Birinci metodun istifadəsinə o zaman üstünlük verilir ki, sistem (müəssisə, təsərrüfat, bütövlükdə sahə) kifayət qədər stabil inkişaf etsin və bu stabilliyin gələcəkdə də saxlanılması ehtimalı yüksək olsun. Əgər belə stabillik yoxdursa və yaxud onun gələcəkdə pozulması ehtimalı yüksəkdirsə, onda keçmişdə qərarlaşan vəziyyətin gələcəyə şamil edilməsi düzgün hesab edilmir.

Maliyyə tənzimlənməsi dövlət tənzimlənməsinin tərkib hissəsi kimi

Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində inkişafa qeyri-müəyyənlik xas olur, daha doğrusu, müəssisə və təsərrüfatların maliyyə vəziyyəti qeyri-müəyyən mühit şəraitində baş verir. Bu mühitdə baş verə biləcək dəyişikliyin irəlicədən görülməsi (məsələn, kənd təsərrüfatında istifadə edilən maddi-texniki resursların qiymətlərində baş verə biləcək dəyişikliyin aşkara çıxarılması) müəssisə və təsərrüfatların, eyni zamanda bütövlükdə sahənin maliyyə vəziyyətində baş verə biləcək dəyişikliyin aşkara çıxarılmasına imkan verir. Ona görə də indiki şəraitdə

gələcəkdə qərarlaşa biləcək vəziyyəti müəyyən etməyə imkan verən metodlara əsaslanmaqla proqnozlaşdırmanın aparılması daha məqsədəmüvafiqdir.

Kənd təsərrüfatında maliyyə mexanizmini onun təşkili olmadan təsəvvür etmək çox çətindir. Ona görə də bu mexanizmin tərkib hissələrindən və onun təkmilləşdirilməsi istiqamətlərindən biri həm də onun təşkilidir.

Maliyyənin təşkili dedikdə müəyyən qayda və qanunauyğunluqlar əsasında maliyyə proqramını reallaşdıran insanların və yaxud qrupların birliyi nəzərdə tutulur. Bu qaydalara və prosedurlara idarəetmə orqanlarının formalaşdırılmasını, idarəetmə aparatının strukturunun yaradılmasını, idarəetmə bölmələri arasında qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsini, həmçinin norma və normativlərin işlənib hazırlanmasını və s. aid etmək olar. Məhz sadalananların sayəsində maliyyə mexanizminin təşkili və maliyyə tədbirlərinin həyata keçirilməsi mümkün olur. Ölkəmizdə regionların inkişafına dair işlənib hazırlanmış Dövlət Proqramlarının maliyyə mexanizminin təşkili də sadalananlar əsasında müəyyənləşdirilmişdir. Bu proqramlarda, məlum olduğu kimi, həm də ayrı-ayrı regionların inkişafı ilə bağlı tədbirlərin icrası, həmin tədbirlərin icrasına cavabdeh olan struktur bölmələr, eyni zamanda tədbirlərin icrasının maliyyə təminatı məsələləri əks etdirilmişdir. Bütün bunların hamısı regionların inkişafı ilə bağlı proqramların icrasının maliyyə aspektinin təşkili məsələlərini əks etdirir və onların icrasına şərait yaradır.

Məlum olduğu kimi, maliyyə tənzimlənməsi kənd təsərrüfatının dövlət tənzimlənməsi sisteminin tərkib hissələrindən və yaxud elementlərindən biri kimi çıxış edir. Əslində maliyyə tənzimlənməsi vasitəsilə kənd təsərrüfatında maliyyə mexanizmi daha da təkmilləşdirilir və bu mexanizm aqrar-sənaye istehsalının iqtisadi mexanizminin tərkib hissəsi olmaqla həmin sferada geniş təkrar istehsalın həyata keçirilməsinə lazımi şərait yaradır. “Aqrar-sənaye istehsalının iqtisadi mexanizmi kənd təsərrüfatının iqtisadiyyatın başqa sahələri arasında qeyri-ekvivalent əmtəə mübadiləsinin ləğvinə, ölkənin kənd təsərrüfatı məhsulları ilə, xammalla və ərzaqla daha tam təmin etmək məqsədilə ASK-da geniş təkrar istehsalın həyata keçirilməsi üçün şəraitin yaradılmasına əsaslanmalıdır. Bu, kreditləşdirilmə və maliyyələşdirilmə, məhsul bazarlarının tənzimlənməsi, kənd təsərrüfatında dövlət idarəetməsinin və nəzarətinin həyata keçirilməsi yolu ilə kənd təsərrüfatı əmtəə istehsalçılarının dövlət tərəfindən müdafiə edilməsinin miqyaslarının artımını nəzərdə tutur [1, s. 315].

Əlaqədar dövlət strukturları maliyyə tənzimlənməsi vasitəsilə kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatların maliyyə vəziyyətinin yaxşılaşdırılmasına hesablanmış tədbirlərin işlənib hazırlanması və onların reallaşdırılması vasitəsilə bu sahənin inkişafına lazımi şərait yaradırlar. Bu baxımdan kənd təsərrüfatının maliyyə mexanizminin tərkib hissələrindən və onun təkmilləşdirilməsi istiqamətlərindən biri də onun dövlət tənzimlənməsidir. Maliyyə sisteminin tənzimlənməsi vasitəsilə obyektlərə - kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan müəssisə və təsərrüfatlara məqsədəuyğun təsirlər göstərilir və onların maliyyə vəziyyətinin dayanıqlılığı təmin edilir. Bu, o zaman özünü göstərir ki, obyektləri xarakterizə edən parametrlərin və yaxud göstəricilərin səviyyəsi irəlicədən müəyyənləşdirilmiş hədlər səviyyəsindən kənara çıxsın və maliyyə dayanıqlılığının təmin edilməsi baxımından problemlər özünü göstərsin. Belə problemlər özünü göstərən kimi cari tənzimləmə tədbirləri vasitəsilə müəssisə və təsərrüfatların maliyyə vəziyyəti onlar tərəfindən geniş təkrar istehsalın həyata keçirilməsi baxımından tənzimlənməyə məruz qalır, nəticədə davamlı inkişafın təmin edilməsi mümkün olur.

Kənd təsərrüfatında maliyyə siyasətinin həyata keçirilməsi həmin fəaliyyətin əlaqələndirilməsi və yaxud koordinasiyası əsasında mümkündür. Maliyyə fəaliyyətinin koordinasiyası idarəetmə obyektinin, idarəetmə subyektinin, idarəetmə aparatının və ayrı-ayrı işçilərin münasibətlərinin vahidliyini nəzərdə tutur.

Kənd təsərrüfatının tələblərinə uyğun maliyyə sisteminin formalaşdırılması sözügedən sistem üzrə nəzarətin olmasını və yaxud nəzarət sisteminin yaradılmasını tələb edir. Maliyyə nəza-

rəti sisteminin olması qəbul edilən qərarların işlərin faktiki vəziyyətinə uyğun olmasının yoxlanılmasını, maliyyə vəsaitlərinin ayrılması nəticəsində real nail olunmuş göstəricilərin səviyyəsinin müəyyənləşdirilməsini və həmin göstəricilərin səviyyəsinin planlaşdırılmış göstəricilərlə müqayisə edilməsini və onların arasındakı kənarlaşmaların tapılmasını, lazım gələrsə bu kənarlaşmaların aradan qaldırılması üzrə təshihedici (korrektəedici) tədbirlərin işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətinin arzu olunan səviyyədə olmamasının ən mühüm səbəblərindən biri bu sahədə istehsal edilən məhsulların qiymətlərinin artım sürətinin həmin sahədə istehsal ehtiyaclarını ödəmək üçün əldə edilən məhsulların qiymətlərinin artım sürətindən az olmasıdır. Bu səbəbdən kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirləri azalmağa meyilli olur və bu problem, demək olar ki, əksər dünya ölkələrində müşahidə edilir. "Beləliklə, iqtisadiyyatın inkişafı və elmi - texniki tərəqqi nəticəsində kənd təsərrüfatı iki meylin arasında "sıxılıb" qalır. Bir tərəfdən, təklifin artımı ilə sektorun gəlirləri azalmağa meyilli olur. Başqa bir tərəfdən, fermer tərəfindən əldə edilən məhsulların qiymətləri fermer məhsullarının qiymətlərini qabaqlayır. Bu meylin nəticəsi fermerlərin nisbi gəlirlərinin azalması şəklində özünü göstərir" [2, s.19].

Yuxarıda göstərilən qiymət uyğunsuzluğu probleminin aradan qaldırılması kənd təsərrüfatı məhsullarının qiymətləri ilə kənd təsərrüfatında istehsal edilən istehsal vasitələrinin qiymətlərini nəzarət obyektinə çevirir. Fikrimizcə, bu problemin aradan qaldırılması üçün adekvat tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətinin daha da yaxşılaşmasına gətirib çıxara bilər.

Maliyyə vəziyyətinə və qiymət uyğunsuzluğuna nəzarət

Kənd təsərrüfatında maliyyə siyasətinin həyata keçirilməsi üzrə adekvat nəzarət sisteminin formalaşdırılması nəticəsində bu sahənin inkişafına ayrılan maliyyə vəsaitlərinin daha səmərəli istifadəsi mümkün olur və həmin sahənin maliyyə dayanıqlılığı təmin edilir. Maliyyə nəzarətinin mövcud olması maliyyə nəticələrinin təhlilini tələb edir və maliyyə ehtiyatlarını və imkanlarını aşkara çıxarmağa şərait yaradır. Bu təhlilin nəticələri isə planlaşdırılma prosesində istifadə edilir, daha doğrusu, bu halda idarəetmə obyekti ilə subyekti arasında əks-əlaqə təmin edilir.

Kənd təsərrüfatında işlək maliyyə mexanizminin formalaşdırılması maliyyə vəziyyətinin təhlili nəticəsində mümkündür. Bu təhlil nəticəsində müəssisə və təsərrüfatların gəlirlilik səviyyəsi, onların məhsul satışının rentabelliliyi, kredit qabiliyyətliliyi, maliyyə dayanıqlılığı və s. aşkara çıxarılır. Sadalanan göstəricilərin səviyyəsinin aşkara çıxarılması isə müxtəlif metodlardan (məsələn, qruplaşdırma, müqayisə, zəncirvari indekslərin hesablanması və s.) istifadəyə əsaslanır.

Nəticə

Kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatların inkişafının maliyyə mexanizmini təkmilləşdirmədən onların bazar fəaliyyətinin davamlılığının təmin edilməsi problemə çevrilə bilər. Çünki müəssisə və təsərrüfatların bazar fəaliyyətinin davam etdirilməsi onların sərəncamında olan maliyyə resurslarının miqdarından asılıdır. Əlbəttə, bu resursların bir qismi müəssisə və təsərrüfatların özlərinin fəaliyyəti hesabına əldə edilir və onların miqdarının daha da çox olması sözügedən bazar strukturlarının inkişafının maliyyə mexanizminin təkmilləşdirilməsindən asılıdır. Müəssisə və təsərrüfatların sərəncamında olan maliyyə resurslarının bir qismi isə dövlət maliyyə dəstəyi nəticəsində həmin müəssisə və təsərrüfatlar tərəfindən əldə edilir. Müəssisə və təsərrüfatların özləri tərəfindən işlənib hazırlanan və reallaşdırılan maliyyə mexanizmi nə qədər mükəmməl olarsa onların geniş təkrar istehsalı həyata keçirmək üçün maliyyə resurslarının məbləği də bir o qədər çox ola bilər. Həm də bu halda müəssisə və təsərrüfatların dövlət tərəfindən maliyyə dəstəyinə ehtiyacı az ola bilər. Ona görə də müəssisə və təsərrüfatlarda maliyyə mexanizminin təkmilləşdirilməsinə fasiləsiz olaraq fikir verilməlidir. Bunun üçün

həmin mexanizmi formalaşdıran elementlər hərtərəfli öyrənilməli və həmin elementlərin hər birinin maliyyə resurslarının formalaşdırılmasındakı rolu və əhəmiyyəti aydın dərk edilməlidir. Maliyyə mexanizminin işlənib hazırlanmasına və tətbiqinə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu zaman komplekslilik və sistemlilik prinsipinə riayət edilməlidir. Belə ki, maliyyə mexanizminin ayrı-ayrı elementləri (məsələn, planlaşdırma, fəaliyyətin koordinasiyası və ona nəzarət) bir-birini tamamlamalı və qarşılıqlı əlaqəli surətdə həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. Кундиус В.А. Экономика агропромышленного комплекса: учебное пособие. - М. : КНОРУС, 2010. - 544с.
2. Серова Е.В. Аграрная экономика. - М.: ГУ ВШЭ, 1999. - 480 с.

Афиг Джаваншир оглы Насибов
диссертант АУК

Организация финансового механизма предприятий и домохозяйств, работающих в аграрной сфере

Резюме

В статье раскрывается суть финансового механизма предприятий и хозяйств, функционирующих в сельском хозяйстве. Сделаны научно обоснованные предложения по совершенствованию финансового механизма развития предприятий и хозяйств в рыночных условиях.

Ключевые слова: сельское хозяйство, финансовый механизм, планирование, финансовое регулирование, устойчивое развитие.

Afig Javanshir Nasibov
candidate for a degree of ACU

Organization of financial mechanism of enterprises and households operating in agrarian sphere

Summary

The article clarifies the essence of the financial mechanism for the development of agricultural enterprises and farms. Scientifically justified proposals have been made to improve the financial mechanism for the development of enterprises and farms in market conditions.

Key words: agriculture, financial mechanism, planning, financial regulation, sustainable development.

UOT 338.43

Hikmət Firdovsi oğlu SƏLİMOV
Lənkəran Dövlət Universitetinin doktorantı

AQRAR-EMAL MÜƏSSİSƏLƏRİNDƏ MARKETİNQİN İDARƏ EDİLMƏSİ SİSTEMİNİN FORMALAŞDIRILMASININ METODİKİ ASPEKTLƏRİ

Xülasə

Məqalədə mövzuya dair ədəbiyyatların öyrənilib ümumiləşdirilməsi və çoxillik statistik məlumatlar əsasında aqrar-emal müəssisələrində marketinq fəaliyyətinin təkmilləşdirilməsini şərtləşdirən səbəblər həmin müəssisələrin yaradılmasının əsas mərhələləri və alqoritmi, yeni müəssisələrin yaradılması mərhələsində icrası zəruri olan marketinq funksiyaların təsnifatı, marketinq strategiyasının həyata keçirilməsi üzrə yanaşmalar: nəzəri-metodiki səpkidə sistemləşdirilmiş, müəllifin onlara müvafiq mövqeyi formalaşdırılmış, ölkəmizin aqrar-emal müəssisələrində marketinq fəaliyyətinin səmərəli təşkili üzrə təklif və tövsiyələr verilmişdir.

Açar sözlər: aqrar-emal müəssisələri, marketinq fəaliyyəti, mərhələlər, marketinq funksiyası, strategiya.

Giriş

Azərbaycanın davamlı sosial-iqtisadi inkişafında, əmək resurslarından səmərəli istifadə edilməsində, əhalinin ərzaq məhsullarına artan tələbatının ödənilməsi və həyat səviyyəsinin yüksəldilməsində aqrar - emal müəssisələrinin rolu danılmazdır. Regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən üç Dövlət Proqramının uğurla həyata keçirilməsi bütünlükdə aqrar sferanın və onun lokomotivi sayılan aqrar-emal müəssisələrinin və onların xammal bazasının bərpa olunması, ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamışdır. Aqrar sferada həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ərzaq məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsi xeyli yüksəlmiş, müasir texnologiyalara əsaslanan yeni aqrar-emal müəssisələrinin şəbəkəsi xeyli genişlənmiş, kənd təsərrüfatı məhsulları üzrə ixracın həcmində yüksək addım dinamikası müşahidə olunmaqdadır [1]. Əldə edilən nailiyyətləri yüksək qiymətləndirməklə yanaşı onu da qeyd etmək lazım gəlir ki, məhz marketinq fəaliyyətinn təşkili və idarə edilməsi üzrə aqrar-emal müəssisələrində bir sıra boşluqların hələ də mövcud olması qida və içki istehsalı müəssisələrinin anbarlarında hazır məhsul qalığının artmasını, bir çox sahibkarlıq subyektlərinin fəaliyyətlərinin dayanmasını şərtləşdirmişdir. Deməli, aqrar-emal müəssisələrində istehsal edilən məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlılığını, tam həcmdə satışını təmin etmək üçün marketinqin mövcud idarə edilməsi sisteminin təkmilləşdirilməsi və bu sahədə sahibkarlara metodiki kömək göstərilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz düzgün formalaşdırılan marketinq siyasəti aqrar-emal müəssisələrində istehsal ediləcək məhsulun çeşidinin, onların satış məkanının və qiymətinin müəyən edilməsi istehsalçıların gələcək istehsal istiqamətləri haqqında düzgün qərarlar qəbul edilməsində də mühüm rol oynayır. Sadalanan müddəalar çərçivəsində marketinqin idarə edilməsi sisteminin formalaşdırılmasının metodiki aspektlərinin tədqiqi bu gün də öz aktuallığını qoruyub saxlayır.

Aqrar-emal müəssisələrində marketinq fəaliyyətinin təkmilləşdirilməsini şərtləşdirən səbəblər

Ölkədə həyata keçirilən uğurlu sənaye siyasəti nəticəsində 2010-2016-cı illərdə bütünlükdə emal sənayesi məhsullarının həcmi 155,2%, o cümlədən qida məhsullarının istehsalı 169,2%, içki istehsalı 122,2% çoxalmışdır. Lakin buna baxmayaraq, həmin dövrdə emal sənayesi müəssisələrinin anbarlarında hazır məhsul qalığının (ehtiyatının) həcmi 172,4%, o cümlədən qida məhsulları istehsalı müəssisələrində 4,1 dəfə, içki istehsalı müəssisələrində isə - 2 dəfə artmışdır. Nəticədə, əgər 2010-cu ildə qida və içki məhsulları qalığının emal sənayesi üzrə bütün məhsul-

ların tərkibindəki xüsusi çəkisi 9% təşkil etmişdirsə, 2017-ci ilin əvvəlində həmin göstərici 26,3%-ə çatmışdır [3; s. 44].

Bununla yanaşı müqayisə edilən dövrdə idxal edilən hazır ərzaq məhsullarının həcmi 107,5% artmış, eyni adlı ixrac məhsullarının həcmi isə 1,8 dəfə azalmışdır [4; s.57-59]. Digər tərəfdən, son illər fəaliyyətinə xitam verən bir sıra sahibkarlıq subyektləri içərisində aqrar-emal müəssisələrinin xüsusi çəkisi də yüksəkdir, onların 45,7%-i ölkənin regionlarının payına düşür [5; s. 110-112]. Bütün bu nöqsanların aradan qaldırılması üçün ilk növbədə aqrar-emal müəssisələrində marketinqin təşkili və idarə edilməsi prosesi təkmilləşdirilməlidir və bu mühüm vəzifəyə müəssisənin ilkin yaradılması mərhələsindən başlamaq lazımdır.

Aqrar-emal müəssisələrinin yaradılmasının əsas mərhələləri

Araşdırmalarımız göstərir ki, aqrar-emal müəssisələrinin yaradılması zamanı sahibkarlar bir sara çətinliklərlə üzləşirlər. İlk dəfə müəssisə yaratmaq istəyən sahibkarların çoxu az idarəetmə təcrübəsinə malik, bəzən ali təhsili olmayan, istehsal texnologiyası haqqında az təsəvvürü olan insanlardan ibarət olurlar. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2016-cı ildə qida və içki məhsulları istehsal edən bütün emal müəssisələrinin 55,9%-i kiçik müəssisə statusundadır [3; s. 20]. Deməli, həmin müəssisələrin rəhbərləri təsis etdikləri kiçik müəssisələrin idarəetmə strukturunun seçilməsi, tikintinin layihə-smeta sənədlərinin hazırlanması, biznes-planın işlənilməsi, tikintinin aparılması, avadanlıqların alınması, onların quraşdırılması, işə salınması, maddi-texniki təchizat, logistika, marketinq fəaliyyətinin təşkili və digər təşkilati-hüquqi məsələlərin həllində adətən səriştəsiz olurlar. Bu sahədə onlara əməli və metodiki kömək göstərmək üçün bu məqalədə aqrar-emal müəssisələrinin yaradılmasının ilkin mərhələsində fəaliyyətin ümumi alqoritmini təsvir etməyə üstünlük verilmişdir (şəkil 1).



Şəkildən göründüyü kimi, kiçik aqrar-emal müəssisələrinin təhsisçisi səriştəli mütəxəssislərin köməyi ilə ilk növbədə ümumi iş planını tərtib edən işçi qrupunu formalaşdırmalı, sahibkarlıq ideyasını texniki-iqtisadi cəhətdən əsaslandırdıqdan sonra marketinq tədqiqatları aparmaqla istehsal edəcəkləri məhsula uzunmüddətli dövr üçün tələbatı müəyyən etməlidir. Bu işdə təsisçi müvafiq marketinq firmasının xidmətlərindən də istifadə edə bilər. Müəssisənin təşkilinin növbəti diferensial mərhələləri şəkildə göstərilən ardıcıllıqla aparılmalıdır.

Aqrar-emal müəssisələrinin yaradılması üzrə mərhələlərin xarakteristikası

Yeni müəssisələrin yaradılması üzrə bir çox qabaqcıl firmaların iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi əsasında adı çəkilən mərhələləri aşağıdakı kimi təsnifləşdirmək olar.

1. Maliyyələşdirmədən əvvəlki mərhələ. Bu mərhələdə fəaliyyət idarəetmə mərkəzinin yaradılması və onların yerinə yeirəcəyi funksiyaların təsnifləşdirilməsini özündə əks etdirir.

2. Maliyyələşdirmə mərhələsi. Bu mərhələdə ilk növbədə yeni yaradılan kiçik müəssisənin təsis sənədləri hüquqi cəhətdən qaydaya salınmalı, müəssisənin möhürü, firma blankı hazırlanmalı, maliyyələşdirmə mənbəyi müəyyən edilməli, uyğun bankda hesablaşma hesabı açıldıqdan sonra digər təşkilati-iqtisadi, texniki-mühəndis, təchizat, logistika məsələləri həll edilərək marketinq strategiyası formalaşdırılmalıdır.

3. Postinvestisiyalaşma mərhələsi. Bu mərhələdə istehsal prosesinin təşkili, məhsulun istehsalı və satışı üçün zəruri tədbirlər həyata keçirilməlidir.

Cədvəl 1

Aqrar-emal müəssisəsinin yaradılmasının əsas mərhələlərinin xarakteristikası *)

	Mərhələlər	**Mərhələlərin məzmunu**
1	**2**	**3**
1	Maliyyələş-dirmədən əvvəlki mərhələ	**İdarəetmə Mərkəzinin yaradılması** layihənin ideyasının müzakirə edilməsi; Maliyyələşdirmə mənbəyinin müəyyən olunması; Tikinti üçün sahənin seçilməsi; Torpaq sahibləri ilə razılaşdırma; Marketinq tədqiqatlarının aparılması; Biznes –planın işlənilməsi; Tikintinin aparılmasına dair son qərarın qəbul edilməsi
2	Maliyyələş-dirmə mərhələsi	**Müəssisənin təsis edilməsi** Maliyyə resursları ilə təminat; Torpaqdan istifadə hüququnun rəsmiləşdirilməsi; Tikintinin texnoloji sənədlərinin layihələndirilməsi; Mühəndisi təminatın təşkili (avadanlıqların alınması, qeyri-standart avadanlıqların sifariş edilməsi, onların quraşdırılması və ya salınması); Müəssisənin təşkilati strukturunun seçilməsi və işlənilməsi; Tələb olunan işçilərin işə qəbulu və onların öyrədilməsi; Marketinq üzrə işçi planının işlənilməsi; Distribüterləşdirmə sisteminin işlənilməsi; Xammal və komplektləşdirici məmulatların tədarükçülərinin seçilməsi; Maliyyə planlaşdırılması; Marketinq strategiyasının elementlər üzrə dəqiqləşdirilməsi
3	Postinvesti-siyalaşdırma mərhələsi	**İstehsal** Texnoloji və müəssisədaxili logistik qaydaların işlənilməsi; Şöbələr üzrə əsasnamələrin və vəzifə təlimatlarının işlənilməsi; Ştat cədvəlinin tərtib edilməsi; Əməyin ödənişi üzrə əsasnamənin tərtib edilməsi;

		İşçilərin işə qəbulu; Xammal, material və koplektləşdirici məmulatların satın alınması; Texnoloji prosesin sınaqdan keçirilməsi; Məhsulun topdansatışı üzrə planların tərtib edilməsi; İş yerlərinin təşkili və işıqlandırılması; Məhsulun keyfiyyətinə nəzarətin təşkili; Mühasibat uçotunun təşkili **Satış və məhsulun hərəkəti** Uzunmüddətli dövr üçün satış strategiyasının işlənilməsi; Satış planının dıqiqləşdirilməsi;
		Reklam işinin təşkili; Operativ marketinq tədqiqatlarının aparılması; Alıcılarla müqavilənin imzalanması və məhsulun göndərilməsi; Məhsul satışı sənədlərinin işlənilməsi; Marketinq-kontrollinq fəaliyyətinin təşkili; Alıcılar haqqında baza məlumatlarının sistemləşdirilməsi
4	İşgüzar mərhələ	**İstehsal** İstehsal planının yerinə yetirilməsi; Avadanlığa cari qulluğun təşkili; İşçilərin əməyinin qiymətləndirilməsi; Satınalmalar, xammal və material təchizatı prosesinin optimallaşdırılması; Məhsulun keyfiyyətinə cari nəzarətin təşkili; İstehsal proseslərinin optimallaşdırılması; Logistika proseslərinin optimallaşdırılması; Məhsul üzrə alıcı narazılığının aradan qaldırılması; İstehsal maya dəyərinin xərc elementləri üzrə təhlil edilməsi və artıq xərclərin səbəblərinin müəyyən edilməsi; **Satış** Satış planının yerinə yetirilməsi; Alıcılar üzrə baza məlumatlarının genişləndirilməsi; Satış üzrə menecerin əməyinin qiymətləndirilməsi; Marketinqin səmərəli təşkili tədbirlərinin optimallaşdırılması; Yeni sifarişçilərin axtarışı; Satışın operativ planlaşdırılması; Distribüterləşdirmə sisteminin optimallaşdırılması; Məhsulun keyfiyyəti üzrə alıcı narazılıqlarının təşkilinin təhlili; Bazarın tələbatının təhlili; Məhsullar satış kanalları və alıcılar üzrə marketinqin səmərəli təşkilinin qiymətləndirilməsi
**) Cədvəl mövzuya dair ədəbiyyatların və regionda yeni yaradılan aqrar-emal müəssisələrinin iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi əsasında müəllif tərəfindən tərtib edilmişdir.*		

4. İşgüzar mərhələ. Bu mərhələdə istehsalın təşkili istehsal planının formalaşdırılması, istehsalın fasiləsizliyinin və səmərəliliyinin təmin edilməsi üçün zəruri tədbirlər həyata keçirilməlidir.

Sadalanan mərhələlərin məzmununu əks etdirən istiqamətlər 1 saylı cədvəldə verilmişdir.

Yeni müəssisələrin yaradılması mərhələlərində icrası zəruri olan marketinq funksiyaları. Bazar münasibətlərinin kəskin tələbləri kontekstində sahibkarlıq fəaliyyəti rəqabət mübari-

zəsi şəraitində baş verir və bu zaman marketinq mühm rol oynayır. Yeni yaradılan aqrar-emal müəssisələrində marketinqin təşkili bir sıra mərhələlərdə formalaşdırılır. Hər bir mərhələdə tələb olunan funksiyaların strateji və operativ marketinqin təşkili səpkisindən aparılması məqsədəuyğun hesab edilir. Həmin mərhələlər üzrə marketinqin tələb olunan funksiyaları 2 saylı cədvəldə əks etdirilmişdir. Təcrübədə bu funksiyalar adətən müəssisədə təşkil edilən - marketinq, menecment, satış, iqtisadiyyat, tədarük, logistika, audit şöbələri, eləcə də servis xidməti və elmi-tədqiqat layihə konsturktor işləri ilə məşğul olan qrup tərəfindən həyata keçirilir.

Cədvəl 2

Yeni aqrar-emal müəssisələrinin yaradılması mərhələlərində marketinqin funksiyaları *)

Mərhələlər	Şöbələr	Tələb olunan funksiyalar	Strateji marketinq	Operativ marketinq
1	2	3	4	5
Maliyyələşdir-mədən əvvəl	Marketinq	Bazarın tədqiqi və proqnozlaşdırılması	+	-
		Mövqelər və brendinq də nəzərə alınmaqla marketinq strategiyasının və bazar konyunkturunun işlənilməsi	+	-
		Məhsulun nomenklaturasının və çeşidinin planlaşdırılması	+	-
	ETLKİ	Biznes ideyanın texniki cəhətdən formalaşdırılması	+	-
	Menecment	Biznes-planın işlənilməsi	+	+
Maliyyələş-dirmə mərhələsi	Marketinq	Marketinqin təşkilati strukturunun seçilməsi	+	-
		Operativ marketinqin tədqiqi	-	+
		Qablaşma dizaynın işlənilməsi	-	+
		Müəssisənin iş üslubunun formalaşdırılması	-	+
	Marketinq, satış və iqtisadiyyat	Marketinq planının işlənilməsi; Satışın planlaşdırılması; Qiymətin formalaşdırılması; Məhsulların hərəkət qrafikinin qurulması; Müəssisənin büdcəsinin işlənilməsi	+	+
	Tədarük şöbəsi	Tədarükün planlaşdırılması;	-	+
	Logistika şöbəsi	Logistika əməliyyatlarının planlaşdırılması	-	+
Müəssisənin bazara çıxarılması	Marketinq	Bazarın monitorinqi	-	+
		Məhsulların hərəkətinin təşkili	-	+
	Marketinq, servis xidməti	Xidmətin təşkili; Alıcı məmnunluğunun formalaşdırılması; Yeni xidmət növləri və formalarının tətbiqi	-	+
	Satış şöbəsi	Məhsulun ilkin nümunələrinin satışının təşkili; İlkin nümunələr üzrə alıcı rəyinin öyrənilməsi;	-	+
	Marketinq, Audit	Marketinq fəaliyyəti üzərində kontrollinqin aparılması və ehtiyat imkanlarının aşkar edilməsi	-	+
İşgüzar mərhələ	Marketinq və satış şöbəsi	Bazarın monitorinqi Satışın əhatə dairəsinin genişləndirilməsi Yeni məhsul çeşidinin istehsalının təşkili Biznes-prosesin reinjirinqi	- + + +	+ + + +

) Cədvəl mövzuya dair müvafiq ədəbiyyatların* *[6; 7; 8]*** *öyrənilib ümumiləşdirilməsi əsasında müəllif tərəfindən tərtib edilmişdir*

Yerinə yetirilən funksiyalar içərisində aqrar-emal müssisəsində istehsal edilən məhsulun nomenklaturası və çeşidinə dair müvafiq strategiyanın işlənilməsi böyük cavabdehlik və məsuliyyət tələb edir. Həmin siyasət aşağıdakı nöqteyi-nəzərdən formalaşdırılmalıdır:

- müəssisənin texnoloji imkanı;
- buraxılan məhsulun çeşidinə bazarda olan zəruri tələbat;
- rəqabət üstünlüyünü qoruyub saxlamağın zəruriliyi;
- uzunmüddətli dövrdə daxili və xarici bazarlarda müəssisənin mövqeyinin qorunub saxlanması;
- aqrar-emal müəssisəsinin rentabelli fəaliyyətini təmin edən məhsul dövriyyəsinin səviyyəsinin saxlanılması

Marketinq strategiyasının həyata keçirilməsi üzrə yanaşmalar. Marketinq strategiyası aqrar-emal müəssisəsinin qarşıya qoyduğu məqsədin necə həyata keçirilməsini göstərir. Marketinq strategiyası adətən özündə aşağıdakıları əks etdirir:

- seçilmiş bazar seqmentini;
- rəqiblərlə mübarizədə müəssisənin mövqeyini;
- istehsal edilən məhsula qarşı olan tələbatı;
- bölgü kanallarını;
- tələbin formalaşması və satışın stimullaşdırılması;
- bazar seqmentinin perspektivliyini;
- satışdan sonrakı xidmət;
- xarici formalarla əməkdaşlıq və sairə.



İntensiv inkişaf	Bazar tutumunun artırılması strategiyası
	Məhsulların inkişafı strategiyası
	Yeni bazarların işlənilməsi (öyrənilməsi) strategiyası
	Diversifikasiya strategiyası
İnteqral inkişaf	Bu yanaşmada müəssisə öz fəaliyyətini tədarükçülər, pərakəndə və topdan satış ticarəti üzrə marketinq vasitəçilərinin fəaliyyətinin genişləndirilməsini nəzərdə tutur
Diversifikasiya əsasında inkişaf	Təmərküzləşməyə əsaslanan diversifikasiya
	Şaquli diversifikasiya
	Üfüqi diversifikasiya
	Korporativ diversifikasiya

Şəkil 2. Aqrar-emal müəssisələrində formalaşdırılan marketinq strategiyasının həyata keçirilməsi üzrə yanaşmaların təşnifatı (müəllif tərəfindən tərtib edilmişdir).

Aqrar-emal müəssisəsi onun fəaliyyətinin səmərəliliyinə təminat yaradan lazımi həcmdə satış səviyyəsinə çatmaq üçün aşağıdakı üç strateji variantdan istifadə edə bilər:

- intensiv inkişaf;
- inteqral inkişaf;
- diversifikasiya fəaliyyətinin genişləndirilməsi əsasında inkişaf [7; s.57, 58].

Həmin strateji variantların özünəməxsus elementlərini özündə əks etdirən icrası mümkün strategiyaların təsnifatı 2 saylı şəkildə əks etdirilmişdir.

Müasir şəraitdə aqrar-emal müəssisələrində formalaşdırılan intensiv inkişaf strategiyası digər variantlarla müqayisədə bir sıra üstünlüklərə malikdir. Belə ki, məhz bu yanaşmada müəssisə üçün zəruri olan texniki-texnoloji, təşkilati-iqtisadi və marketinq imkanlarından daha geniş istifadə edilir. Nəticədə, bazar tutumunun artırılması, məhsulların inkişafı, yeni bazarların işlənilməsi və diversifikasiya strategiyaları müəyyən edilərək onlar arasında üzvi əlaqə formalaşdırılır.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi; idxaldan asılılığın azadılması və ixrac məhsullarının həcminin və çeşidlərinin artırılması kontekstində aqrar-emal müəssisələrinin diversifikasiyaya əsaslanan inkişafı və bu sahədə strategiyanın düzgün müəyyənləşdirilməsi vacib şərtdir. Diversifikasiyaya əsaslanan inkişafda aqrar-emal müəssisəsi diversifikasiyanın 2 saylı şəkildə təşnifləşdirilən yollarından birini seçməlidir.

Bizim fikrimizcə, aqrar-emal müəssisəsi üçün korporativ diversifikasiya daha əlverişlidir, çünki o, diversifikasiyanın bütün əsas prinsiplərini özündə əks etdirir.

Nəticə və təkliflər

Fikrimizcə, ölkəmizin aqrar-emal müəssisələrində marketinq fəaliyyətinin səmərəli təşkili aşağıdakı məsələlərin həllinə yönəldilməlidir:

- İstehsal edilən məhsulların miqyasının (həcminin) optimallaşdırılması hesabına qalıq məhsulların həcminin və çeşidinin minimuma endirilməsi;
- Müəssisənin yerləşdiyi ərazidə əhalinin müxtəlif növ ərzaq (qida) məhsullarına olan tələbatının maksimum səviyyədə ödənilməsi;
- İstehsalçıların yüksək tələbatına cavab verən yüksək keyfiyyətli məhsulların istehsalı;
- İdxalı əvəz edən və ixracyönümlü çoxçeşidli qida məhsullarının istehsal edilməsi;
- Rayonlararası qida məhsullarının mübadiləsinin həyata keçirilməsi.

Aqrar-emal müəssisələrinin miqyasından (kiçik, orta və iri) asılı olaraq marketinq xidmətinin aşağıdakı təşkilati formalarından - funksional; istehsal-funksional, bazar və regional - istifadə etmək məqsədəuyğundur. Lakin təşkilati struktur seçilərkən minimum idarəetmə xərcləri prinsipinə riayət olunmalıdır. Kiçik aqrar-emal müəssisələrində marketinq funksiyasının səriştəli, lakin geniş səlahiyyətə malik, qeyri-müəyyən şəraitdə qərar qəbul etmək iqtidarına malik marketoloqa (mütəxəssisə) həvalə edilməsi məqsədəuyğundur.

Bazar şəraitində baş verən dəyişikliklərin təsiri, eləcə də istehsal edilən brend aqrar-emal məhsullarının çeşidlərinin artdığı şəraitdə marketinqin təşkilati strukturu da təkmilləşdirilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı, 08 dekabr 2016-cı il. 158s.
2. Azərbaycan regionları. Bakı, DSK", 2017, 804s.
3. Azərbaycan sənayesi. Bakı, "DSK", 2017, 344s.
4. Azərbaycanın xarici ticarəti. Bakı, "DSK", 2017,228 s.
5. Sosial-iqtisadi inkişaf. Aylıq statistik məcmuə № 12. Bakı, "DSK", 2016, 200 s.
6. Наумов В.Н. Основы предпринимательской деятельности М. ИНФРА-М, 2014, 313 с.

7. Маркетинг в отраслях и сферах деятельности (под ред. проф. В.А.Алексунина) М., Дашков и К^0, 2012, 644 с.
8. Данко Т.П. Управление маркетингом М., ИНФРА-М, 2012, 354 с.

Хикмат Фирдовси оглы Салимов
Ленкоранский Государственный Университет, докторант

Методические аспекты формирования системы управления маркетингом на агро-перерабатывающих предприятиях

Резюме

В статье на основе изучения и обобщения соответствующих литератур и многолетних статистических данных исследуются теоретико-методические аспекты, необходимость совершенствования маркетинговой деятельности на агро-перерабатывающих предприятиях, даются основные этапы и алгоритмы создания этих предприятий, классификация функций маркетинга на вновь создаваемых предприятиях, систематизируются подходы по реализации маркетинговой стратегии, формируются соответствующие авторские позиции по ним, предлагаются рекомендации по эффективной организации маркетинговой деятельности на агроперерабатывающих предприятиях страны.

Ключевые слова: Агро-перерабатывающие предприятия, маркетинговая деятельность, этапы, функции маркетинга, стратегия.

Hikmat Firdovsi Salimov
Lenkoran State University, doctoral student

Methodical aspects of the formation of a marketing management system in agro-processing enterprises

Summary

Theoretical and methodological aspects, the need to improve marketing activities at agro-processing enterprises are studied in the article on the basis of studying and summarizing relevant literatures and long-term statistical data; the main stages and algorithms for creating these enterprises, the classification of marketing functions at newly created enterprises, systematizing approaches for implementation marketing strategy, the corresponding author's positions on them are formed, recommendations on effective

Key words: Agro-processing enterprises, marketing activities, stages, marketing functions, strategy.

UOT 338.43

Sevinc Fizuli qızı KƏRİMOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı

KƏND TƏSƏRRÜFATINDA TƏŞKİLATİ - İQTİSADİ İDARƏETMƏ: STRUKTURUN İNNOVASİYA TƏLƏBLƏRİNƏ UYĞUNLUĞU VƏ SƏMƏRƏLİLİYİN YÜKSƏLDİLMƏSİ

Xülasə

Məqalədə kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması məsələləri tədqiq olunmuşdur. Artım iqtisadiyyatından yaşıl iqtisadiyyata keçidin xüsusiyyətlərinin innovasiyalı idarəetmədə nəzərə alınmasına cəhd edilmişdir. Kənd təsərrüfatının təşkilati-iqtisadi idarəetmənin səmərəliliyini şərtləndirən amillər xarakterizə edilmişdir. Aqrar sahədə təşkilati-iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri müəyyən edilmişdir.

Açar sözlər: təşkilati-iqtisadi idarəetmə, idarəetmə strukturu, innovasiyalı inkişaf, səmərəlilik, tələblər.

Giriş

Kənd təsərrüfatında innovasiya fəallığı səviyyəsinin milli iqtisadiyyatın digər sahələrinə nisbətən aşağı olması çoxsaylı amillərin təsirinin nəticəsidir. Həmin amillər sahənin idarə edilməsindəki mühafizəkarlıqdan tutmuş bilavasitə iqtisadi amillərə qədər geniş diapazonu əhatə edir. Kənd təsərrüfatında innovasiya fəallığını ləngidən mühitin tədqiqi kompleks araşdırma tələb edir. Kənd təsərrüfatı mürəkkəb və dinamik sistemdir. Onun səmərəliliyinin yüksəldilməsi innovasiyalı fəaliyyətdən və idarəetmədə kreativ yanaşmalardan bilavasitə asılıdır.

Sahədə idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması

Sahənin idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılmasının mühüm aspektlərindən biri ixtisaslaşma və biomüxtəlifliyin bərpası məsələlərinin vahid aspektdə həllidir. Optimal əkin sisteminin tətbiq edilmədiyi hazırkı şəraitdə bitkiçilikdə ixtisaslaşmaya ənənəvi yanaşma biomüxtəlifliyə ciddi ziyan vurur. İxtisaslaşma və inteqrasiyanın daha perspektivli istiqaməti kimi yaradılması nəzərdə tutulan aqrar - sənaye klasterləri biomüxtəlifliyin bərpası istiqamətində geniş imkanlara malikdir. Aparıcı sahə ətrafında elmi, istehsal, emal və xidmət fəaliyyətinin inteqrasiyası innovasiyalı idarəetmənin sınaqdan çıxarılması poliqonu kimi diqqətə layiqdir.

"Kənd təsərrüfatında sahədaxili rəqabətin güclü olması onun sahələrarası rəqabət qabiliyyətini azaldır. Belə vəziyyət, araşdırmalardan göründüyü kimi, sənaye və kənd təsərrüfatı məhsullarının qiymətləri arasındakı, sonuncunun zərərinə olan dispariteti şərtləndirən mühüm amillərdən biri hesab edilməlidir. Sənaye inqilabından sonra aktuallaşan bu problemin həlli üçün innovasiyalı yanaşmalar işlənib hazırlanmalıdır" [1, s. 203].

Kənd təsərrüfatının çoxfunksiyalılığının reallaşdırılması, yeni əsrdə bəşəriyyət qarşısında duran qlobal problemlərin, o cümlədən ərzaq təhlükəsizliyinin təminatı, ekoloji böhrana adekvat reaksiya verilməsi, kənd ərazilərinin dayanıqlı inkişafı kimi vəzifələrin yerinə yetirilməsi baxımından, şübhəsiz ki, aktualdır. Odur ki, sahənin iqtisadi, ekoloji, sosial, etik - mənəvi və digər funksiyalarının birgə icra edilməsi mühitinin idarə olunmasının innovasiyalı sisteminin formalaşdırılması prosesi dəstəklənməlidir. Ən geniş miqyaslı tədqiqatlar müasir dünyada kənd təsərrüfatının öz çoxsaylı funksiyalarını, o cümlədən milli və qlobal miqyasda ərzaq təhlükəsizliyinin təminatı, ətraf mühitin, landşaftın mühafizəsi, kənd həyat tərzinin qorunması, müvafiq ərazilərin dayanıqlı inkişafı funksiyalarını ənənəvi üsullarla yerinə yetirməsinin demək olar ki, mümkün olmadığını söyləməyə kifayət qədər əsas verir. Bu və digər səbəblərdən sahədə təşki-

lati - iqtisadi idarəetmə sisteminin innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması gündəlikdə durur. Konkret halda, çoxmeyarlı yanaşmaların və koordinasiyalı idarəetmə elementlərinin xüsusi əhəmiyyət kəsb etdiyini görmək çətin deyildir.

İndi isə kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması imkanlarına münasibət bildirmək üçün, sahənin innovasiyalı inkişafının məqsədlərini müxtəsər şərh edək (şəkil 1).

kənd təsərrüfatının innovasiyalı inkişafının məqsədləri					
biomüxtəlifliyin bərpası	qlobal iqlim dəyişikliklərinə qarşı mübarizə və ona uyğunlaşma	ekoloji təmiz məhsul istehsalı, ümumilikdə artım iqtisadiyyatından yaşıl iqtisadiyyata keçid	ərzaq təhlükəsizliyi fəaliyyətləri xəritələrinin icrası	resurslardan səmərəli istifadə və resurs-qoruyuculuğun gücləndirilməsi	alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması və istifadəsi

Şəkil 1. Kənd təsərrüfatının innovasiyalı inkişafının məqsədləri.

Olduqca mürəkkəb, böyük vaxt və vəsait tələb edən proses kimi biomüxtəlifliyin bərpası tədbirlərinin hazırlanması və həyata keçirilməsi təbii ki, onun mövcud vəziyyətinin kompleks qiymətləndirilməsindən başlamalıdır. Bu zaman, ilk növbədə biomonitorinqin metodikası, əhatə dairəsi, onun hansı göstəricilər üzrə aparılacağı müəyyənləşdirilməli, daha sonra seçilmiş göstəricilərin kəmiyyət ifadəsinin, strukturlaşdırılmış surətdə əhatə olunduğu informasiya bazası formalaşdırılmalıdır. Belə olan təqdirdə kənd təsərrüfatının biomüxtəlifliyin bərpasına xidmət edən strategiyasını əsaslandırmaq üçün ilkin şəraitin mövcudluğundan danışmaq olar. Biomüxtəlifliyin faktiki səviyyəsini nəzərə almaq üçün kənd təsərrüfatının innovasiyalı idarəetmə strukturunda, ilkin yanaşmada növlərin sayı və növlərin nisbi bolluğu göstəricilərindən istifadə edilə bilər. Sadalanan göstəricilərin hesablanması, əsasən lazımi reprezentativliyə malik monitorinq məlumatları bazasında həyata keçirilir. Tövsiyə olunan metodika müvafiq mənbələrdə kifayət qədər ətraflı şərh edildiyindən, onun üzərində ətraflı dayanmağı zəruri saymadıq [2]. Burada təkcə onu qeyd edək ki, kənd təsərrüfatının innovasiyalı idarəetmə strukturunda təsir göstərilə bilən parametrlər qismində - növ zənginliyi və növlərin mütənasib (tarazlı) nisbi bolluğu törəmə göstəricilərinin nəzərə alınması üzrə az-çox təcrübə əldə edilmişdir.

Ən yüksək inkişaf və həyat səviyyəsinə malik ölkələrdə kənd təsərrüfatının idarəetmə strukturu mövcud iqtisadi sistemdən (artım iqtisadiyyatından) yaşıl iqtisadiyyata keçidin elementlərini əxz etməyə çalışır. İlkin yanaşmada yaşıl iqtisadiyyat təbiətin ahəngini pozmayan təsərrüfatçılığın məhsullarından yararlanmağa imkan verən sistem kimi qəbul edilirdisə, hazırda bu müddəa, innovasiyalı - intensiv inkişaf imkanlarını da istisna etmir. Əks halda yeni əsrdə bəşəriyyəti təhdid edən aclıq təhlükəsinin aradan qaldırılması barədə proqnozların etimadla qarşılaşacağını gözləmək çətindir.

Artım iqtisadiyyatından yaşıl iqtisadiyyata keçidin innovasiyalı idarəetmədə nəzərə alınmasının ilk mərhələlərindən biri, zənnimizcə, iqtisadi səmərəlilik meyarlarının iqtisadi-ekoloji səmərəlilik meyarları ilə əvəzlənməsi olmalıdır. Həmin meyarların səviyyəsi və statusundan asılı olmayaraq bütün iqtisadi agentlər tərəfindən qəbul edilməsində problemlər qalsa da, onların yaxın perspektivdə kompromis həlli gözlənilir. Məhz meyarlara yeni baxış, ənənəvi təsərrüfatçılıq və yaşıl iqtisadiyyat arasında keçid mərhələsi olan ekoloji iqtisadiyyatın iqtisadi məqsədə-uyğunluğunu qiymətləndirməyə xidmət edən idarə edilən parametrlərin müəyyənləşdirilməsi imkanlarına münasibətdə nikbinliyə əsas verir. Sonrakı mərhələlər orta və əsasən uzaq perspektivə aid olduğuna görə, onların yalnız konseptual şərhinə cəhdləri uğurlu saymaq mümkündür.

Sahədə innovasiyalı inkişafın məqsədləri kimi resurslardan səmərəli istifadə və resursqoruyuculuğun gücləndirilməsi, alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində hazırda daha real və müvəffəqiyyətli addımlar atılır. Eyni zamanda unutmaq olmaz ki, kənd təsərrüfatının modernləşdirilməsi və davamlı enerji siyasətinin həyata keçirilməsi şəraitində resursqoruyucu innovasiyalar əvvəl şərh olunmuş məqsədlərə nail olmaqda mühüm tamamlayıcı rola malikdir.

"Davamlı enerji siyasəti iki əsas istiqamətdən ibarətdir. Bunlardan biri alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin artırılması, digəri isə enerjiyə qənaət və enerji səmərəliliyinin artırılması siyasətləridir. Hər iki siyasət modernləşməni vacib şərt kimi tələb edir. Ənənəvi enerji resurslarının emalı nəticəsində ətraf mühitə dəyən ziyan, bu resursların tükənməsi və ölkələrin enerji təhlükəsizliklərini təmin etmək istəmələri davamlı enerji siyasətinin hər iki istiqaməti ilə bağlı tədqiqatların və layihələrin artmasına gətirib çıxarmışdır" [3, s. 235-236].

Kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılmasının resursqoruyuculuq aspektindən danışarkən qeyd olunan məqamlar diqqətdən kənarda qalmamalıdır. Kənd təsərrüfatının yüksək enerji tutumu onun intensivləşməsi zamanı ekoloji tələblərin son dövrlərə qədər nəzərə alınmamasının nəticəsidir. Sahənin enerji daşıyıcıları mənbəyinə (bioqaz və i.a) çevrilməsinə xidmət edən innovasiyaların prioritetliyi bu və ya digər amillərin təsirinin nəticəsidir.

İnnovasiyalı inkişafın kənd təsərrüfatının idarəetmə strukturunda, qabaqcıl təcrübədən göründüyü kimi, bilavasitə nəzərə alınmalı tələblər qismində:

- kreativ düşüncəli, yüksək ixtisaslı idarəedici kadrların hazırlığı;
- aqrar təhsilin innovasiyalara açıqlığının təmin edilməsi;
- texnoloji transferlərin idarə edilməsi mexanizminin kənd təsərrüfatının idarəetmə strukturunun vacib tərkib hissəsinə çevrilməsi;
- innovasiyalara informasiya dəstəyi rejiminin təkmilləşdirilməsi. Sonuncu tələb kənd təsərrüfatında innovasiya fəallığının aşağı səviyyəsi və innovasiyalı idarə-etmənin informasiya bazasının natamamlığı səbəbindən xüsusilə aktual hesab edilməlidir.

Kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması adekvat infrastruktur təminatının formalaşdırılmasını tələb edir. Bu məqsədlə aşağıdakı komponentləri əhatə edən infrastruktur yaradılmalıdır:

- elmi-tədqiqat və təcrübə konstruktor mərkəzləri, istehsal, emal və satış qurumları arasında dinamik qarşılıqlı əlaqələr sistemi;
- texniki siyasətin işlənib hazırlanması üzrə şevik, başqa sözlə, dəyişən şəraitə adekvat reaksiya verə bilən işçi qruplar;
- maliyyə təminatını reallaşdıran ixtisaslaşdırılmış bölmələr, vençur strukturları;
- yeni məhsulun layihələndirilməsi qrupları;
- yeni texnologiyanın mənimsənilməsi laboratoriyaları;
- innovasiya fəaliyyətini stumullaşdıran xüsusi fondlar;
- innovasiya infrastruktur şəbəkəsinin fəaliyyətini kollegial qiymətləndirən şuralar və i.a.

Sahənin idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması kənd təsərrüfatında innovasiyalı fəaliyyətin idarə edilməsinin (innovasiya menecmentinin) məqsəd, prinsip və vasitələri nəzərə alınmaqla həyata keçirilməlidir. İnnovasiya menecmentinin tələbat və elmi-texniki siyasət prioritetləri ilə şərtlənən məqsədlərinə, ilk növbədə:

- mütərəqqi idarəetmə texnologiyalarının konkret istehsal-texnoloji xüsusiyyətlərə adaptasiyası;
- seriyalı istehsal edilən məhsulun təkmilləşdirilməsindən yeni məhsulun yaradılmasına və istehsalına qədərki proseslərin idarə olunması;
- daha yaxşı satılan yeni məhsulun istehsalının genişləndirilməsi, aqrar qurumun maliyyə sağlamlaşdırılması və onun bazarın müvafiq seqmentindəki mövqeyinin möhkəmləndirilməsi.

Keyfiyyətin idarə olunmasının innovasiyalı sistemi məhsul və proses innovasiyalarının üzvi vəhdətini nəzərdə tutur. Məhsulun keyfiyyətini təmin etmək məqsədilə onun yaradılması prosesinə göstərilən təsirlərin məcmusu kimi keyfiyyətin idarə olunması sistemi, konseptual baxımdan yeni məhsulun yaradılması proseslərinin idarə edilməsi imkanlarını da nəzərdə tutmalıdır. Təcrübədə isə, keyfiyyətin idarə olunması sisteminin innovasiyalara açıqlıq dərəcəsi, heç də həmişə arzuolunan səviyyədə olmur. Belə vəziyyət, araşdırmalardan göründüyü kimi, əsasən yeni məhsulun yaradılması proseslərini idarə edən subyektlərin fəaliyyətindəki ətalətlə bağlı olur.

Müasir aqrar-sənaye istehsalında keyfiyyətə nəzarət və onun idarə edilməsi funksiyalarını kifayət qədər çevik icra edən xidmət qurumlarının ixtisaslaşdırılmış fəaliyyəti nəzərdə tutulur. Həmin xidmət şəbəkəsi, o cümlədən aşağıdakı vəzifələri yerinə yetirir: keyfiyyət sisteminin təkmilləşdirilməsi, keyfiyyət siyasətinin prioritetlərinin əsaslandırılması, məhsul hazırlanarkən onun keyfiyyətinə nəzarət edir, istehsalın metroloji təminatını həyata keçirir, keyfiyyətə iradları araşdırır, işçi heyətin öyrədilməsində iştirak edir və i.a. Göründüyü kimi, keyfiyyətə nəzarət və onun idarə edilməsi qurumları innovasiya siyasətinin hazırlanması və reallaşdırılmasında kifayət qədər fəal iştirak etmək imkanına malikdir.

Kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması fəaliyyətin ahəngdarlığı və səmərəliliyinin yüksəldilməsi istiqamətində kollektiv səylərin koordinasiyasını nəzərdə tutur. Eyni zamanda həmin struktur yeniliklərin axtarışını və tətbiqi imkanlarını reallaşdırmalıdır.

İnnovasiyalı idarəetmə təcrübəsində strateji, cari və operativ planlaşdırma, təşkiletmə, motivləşdirmə və nəzarəti idarəetmənin əsas, sosial - psixoloji və texnoloji funksiyaları isə köməkçi funksiyalar kimi fərqləndirilməsi, get-gedə öz metodoloji əhəmiyyətini itirməkdədir.

Ümumilikdə aqrar sahədə idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə adekvatlığının təmin edilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin əsaslandırılması zamanı, bitkiçilikdə və heyvandarlıqda innovasiyalı fəaliyyətin planlaşdırılması zamanı qarşıya çıxan aşağıdakı problemlərin nəzərə alınması məqsədəuyğundur:

- kənd təsərrüfatında rəqabət üstünlüyünün innovasiyalı fəaliyyət sayəsində potensial imkanların aşkar edilməsi və onların reallaşdırılması perspektivlərinin müəyyənləşdirilməsi üçün sınaqdan çıxmış universal yanaşmalar mövcud deyildir. Bu isə həm metodiki, həm də informasiya təminatında arzuolunmaz dərəcədə qeyri-müəyyənlik yaradır. Sahədə innovasiya risklərinin kifayət qədər tədqiq olunmaması da bu məsələdə az rol oynamır;
- sahədə idarəetmə strukturunun innovasiyalı elementlərinin mütləq üstünlük təşkil etməsi innovasiyalı fəaliyyətin tənzimlənməsi üçün mexanizmin qurulmasında institusional çətinliklərlə müşayiət olunur. Belə ki, bu halda innovasiyalı idarəetmə və təşkilati struktur ahəngdarlıq, mütənasiblik (təkrarlanan proseslərin fərqli situasiyalarda əsas parametrlər üzrə eyni nəticələri təmin etməsində ifadə olunan), kəsilməzlik (konkret əməliyyatın icra müddətinin ümumi proseslərin məcmu müddətinə olan nisbətində ifadə olunan fasiləsizlik), dəqiqlik və sinxronluq (paralellik) prinsiplərinin reallaşdırılması mühiti pisləşir. Digər tərəfdən yeni ideyaların davamlı olaraq qəbulu, kənd təsərrüfatının idarəetmə strukturunda innovasiya elementlərinin üstünlüyü gözlənilməndir.

Aqrar sahədə təşkilati - iqtisadi idarəetmə: amillər və səmərəliliyin yüksəldilməsi istiqamətləri

İdarəetmənin əsas prinsiplərindən biri onun səmərəliliyi, daha dəqiq desək yalnız idarəetmə qərarının səmərəli olduğuna əmin olduqdan sonra onun qəbul edilməsinin yolverilənliyidir. Bu və ya digər sahədə idarəetmə qərarının səmərəliliyinə əmin olmaq üçün, onun elmi əsaslandırılması səviyyəsi optimal və təcrübi reallaşdırılmasının üsul və vasitələri isə əlverişli olmalıdır.

"Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2014-cü il tarixli Fərmanına əsasən rayonlar üzrə aqrar siyasətin həyata keçirilməsinin təmin edilməsi, kənd tə-

sərrüfatına dövlət dəstəyi tədbirlərinin təşkili, aqrar sahə ilə bağlı problemlərin həllində müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının yerli struktur bölmələri ilə səmərəli əməkdaşlığın qurulması məqsədi ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələri yaradılmaqdadır. Fərmanda həmin idarələrin səmərəli fəaliyyətini və ümumilikdə kənd təsərrüfatının institusional inkişafını təmin etmək, aqrar sahədə təşkilati-iqtisadi idarəetmə sistemini modernləşdirmək üçün aqroparkların yaradılması, antikartel fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların layihələrinin hazırlanması, elektron kənd təsərrüfatı informasiya sisteminin yaradılması, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki laboratoriyaların beynəlxalq akkreditasiyadan keçirilməsi, kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı sisteminin yaradılması nəzərdə tutulur [5].

Kənd təsərrüfatında idarəetmə qərarlarının əsaslandırılması, özlüyündə mürəkkəb və tədrici prosesdir. Həmin prosesin optimallaşdırılması, çoxvariantlı seçim mühitinin formalaşdırılmasını, ilk növbədə, məqsəd funksiyası və milli iqtisadiyyatın bu aparıcı sahəsinin özünəməxsusluğundan irəli gələn məhdudiyyət şərtlərinin müəyyənləşdirilməsini, müvafiq iqtisadi - riyazi üsulların kombinasiyasından (optimallıq modelləri də daxil olmaqla) istifadə etməklə idarəetmənin ən səmərəli variantının seçilməsini və onun əsas xarakteristikalarının ekspert texnologiyalarının daxil olduğu süni intellektual sistemin köməyi ilə təkrar qiymətləndirilməsini nəzərdə tutmalıdır. Başqa sözlə, bir neçə onillik əvvəl idarəetmə qərarlarının əsaslandırılmasında ayrıca götürülmüş bir optimallıq modelinin tətbiqi ən mütərəqqi üsullardan biri sayılırdısa, hazırda hətta optimallıq, imitasiya modellərindən ibarət bütöv bir sitemin tətbiqi nəticələri ilə kifayətlənmək belə, heç də həmişə məqbul hesab edilmir. İdarəetmənin müasir tələblərinə adekvat qərarların qəbul edilməsi, yuxarıda qeyd olunan sitemin müxtəlif idarəetmə səviyyələri üzrə bir - birini təsdiqləyən iqtisadi-riyazi üsullardan istifadəni tələb edir. Müvafiq prosesdə "həm də ciddi riyazi asılılıqda olub, bir - birini tamamlayan səmərəlilik kriteriyası üzrə aparılan hesablamalar səviyyələr üzrə bir-birinə nəzarət edir" [6, s. 242].

Kənd təsərrüfatının idarə edilməsinin birbaşa və dolayı üsulları arasında seçim edərkən, təsərrüfatçılığa birbaşa müdaxilənin, iqtisadi idarəetmə vasitələrilə əvəzlənməsinin üstünlükləri diqqət mərkəzində olmalıdır. Belə ki, həmin vasitələr resurslardan səmərəli istifadənin daxili motivlərini dəstəkləməklə sahənin inkişaf tempini yüksəltmək iqtidarındadır. Digər tərəfdən unutmaq olmaz ki, sahə və müəssisə səviyyəsində idarəetmənin iqtisadi üsulları strateji, indikativ və məqsədli planlaşdırılmanı, sosial proseslərin proqramlaşdırılmasını, məşğulluğun idarə edilməsinin sistem əmələ gətirən mühitində tətbiq edilir.

İdarəetmənin səmərəliliyinə təsir edən amillərin idarə edən və idarə olunan altsistemlər üzrə fərqləndirilməsi, habelə idarəetmə məqsədinin kəmiyyətcə və keyfiyyətcə səciyyələndirilməsi, müvafiq göstəricilər sisteminin formalaşdırılmasında az əhəmiyyət kəsb etmir. Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmənin məqsədinin və səmərəlilik meyarlarının birmənalı və kifayət qədər dəqiq ifadə olunması, sahədə idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi baxımından vacib şərtdir. Məsələ ondadır ki, idarəetmənin səmərəlilik meyarlarının birmənalı müəyyənləşdirilməsi, qarşıya qoyulmuş idarəetmə məqsədinə nail olma dərəcəsinin qiymətləndirilməsinin dəqiqliyinə bilavasitə təsir edir. Özü də bu təsir, demək olar ki, idarəetmənin bütün səviyyələrində özünü kifayət qədər əyani şəkildə büruzə verir.

İnvestisiya proseslərinin idarə edilməsinin səmərəliliyi, kumulyativ göstərici olsa da, konkret layihəyə münasibətdə birmənalı qiymətləndirilməlidir. Odur ki, haqqında danışılan səmərəliliyi şərtləndirən komponentləri vaciblik dərəcəsinə görə ranqlaşdırmaq lazım gəlir. Bu baxımdan, müəssisələrin daxili yığım payının dinamikası, əmanətlərin investisiyaya transformasiyası dərəcəsi, təkrar investisiyaya yönəldilən mənfəətin xüsusi çəkisi kimi göstəricilər diqqət mərkəzində olmalıdır.

Kənd təsərrüfatında investisiya proseslərinin idarəetmənin təşkilati - iqtisadi baxımdan məcmu səmərəliliyinə gəldikdə isə, hər şeydən əvvəl institusional mühitin idarə edilməsindən

irəli gələn səmərədən danışmaq lazımdır. İdarəetmənin institusional mühitinin səmərəliliyi, ilk növbədə:

- haqqında danışılan mühitin sırf təşkilati (bürokratik) tələblərə deyil, real funksional tələblərə uyğunluq dərəcəsini;
- investisiya risklərinin idarə edilməsinin, o cümlədən, həmin risklərin öncədən görülməsi, qarşısının alınması, minimumlaşdırılması və bu kimi digər tədbirlərin tərkib hissəsi olan əməliyyatların məcmusunun əlverişlilik səviyyəsini;
- kənd təsərrüfatı fəaliyyətində şaxələndirməyə xidmət edən qərarların qəbulu proseslərinin optimallığı imkanlarını;
- aqrar - sənaye sistemində struktur dəyişmələrinin idarəetmə meyarları ilə şərtlənmə dərəcəsini nəzərə almalıdır.

Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsinin aşağıdakı istiqamətlərinə üstünlük verilməsi məqsədəuyğundur:

- funksional təyinatdan irəli gələn meyarlar üzrə təşkilati strukturlaşdırma səviyyəsinin optimallaşdırılması. Haqqında danışılan səviyyənin qiymətləndirilməsi metodikasının, habelə sahə xüsusiyyətlərini nəzərə alınması ilə təkmilləşdirilməsi, şübhəsiz ki, onun dinamikasına adekvat münasibət imkanlarını genişləndirəcəkdir;
- qiymət səviyyələrinin tənzimlənməsi, nəinki kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsində, habelə aqrar - ərzaq bazarı iştirakçılarının maraq və mənafelərinin qarşılıqlı uzlaşdırılmasında mühüm rol oynayır. Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmənin səmərəliliyinin və onun yüksəldilməsi imkanlarının qiymətləndirilməsində qiymət informasiyasının aparıcı rolu, qiymətlərin, istehsalın stimullaşdırılması, gəlirlərin bölüşdürülməsi, uçot və informasiya funksiyalarını yerinə yetirməsi ilə şərtlənir. Onu da qeyd edək ki, qiymət informasiyası, innovasiyalı fəaliyyətin, habelə resursqoruyucu aqrotexnologiyaların tətbiqi perspektivlərini müəyyənləşdirməkdə mühüm rola malikdir;
- iştirakçıların qarşılıqlı münasibətlərinin təşkilati forması kimi aqrar bazarın kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin səmərəliliyinə qoyduğu tələblərdən biri topdansatış müəssisələri və pərakəndə alıcıların iqtisadi maraqlarının toqquşduğu virtual və maddi məkanda problemlərin aradan qaldırılmasıdır. Araşdırmalar göstərir ki, haqqında danışlan problemlər, nəinki ölkəmizdə, habelə bütün postsovet məkanı ölkələrində kənd təsərrüfatı məhsulları istehsalçılarının rəqabət qabiliyyətini zəiflədən mühüm amil hesab edilməlidir.

Nəticə

Kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğun infrastruktur təminatının formalaşdırılması məqsədilə, ilk növbədə aşağıdakı tərkibdə infrastruktur yaradılmalıdır: elmi-tədqiqat və təcrübə konstruktor mərkəzləri, istehsal, emal və satış qurumları arasında dinamik qarşılıqlı əlaqələr sistemi; texniki siyasətin işlənib hazırlanması üzrə çevik işçi qruplar; maliyyə təminatını reallaşdıran ixtisaslaşdırılmış bölmələr, vençur strukturları və i.a. Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsinin aşağıdakı istiqamətlərinə üstünlük verilməsi məqsədəuyğundur: funksional təyinatdan irəli gələn meyarlar üzrə təşkilati strukturlaşdırma səviyyəsinin optimallaşdırılması; qiymət səviyyələrinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi.

ƏDƏBİYYAT

1. Balayev R.Ə. Tarazlı regional inkişaf və iqtisadi mərkəzəqaçma amili. AKU-nun 50 illik yubileyinə həsr edilmiş "Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. 22 noyabr, 2014. Bakı, "Kooperasiya", 2014, s.200-203.
2. География и мониторинг разнообразия. Колл. Авторов. Москва, Изд. НИУ, 2002, 432 с.

3. Qasımlı V. İqtisadi modernizasiya. Bakı, SAM, 2014, 311 s.
4. Ю.Н.Тетерин. Внедрение управленческих инноваций в сельскохозяйствен-ное производство. Вестник НГИЭИ, № 6(7), том 1/ 2011, ъ. 154-168.
5. Azərbaycan Respublikası Prezidentinin "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 2014-cü il 16 aprel tarixli Fərmanı.
6. Ələkbərov Ə.H., İbrahimov F.V. Menecment. Bakı, "Çaşıoğlu", 2004, 468 s.

Севиндж Физули кызы Керимова
докторант АГЭУ

Организационно-экономическое управление в сельском хозяйстве: соответствие структуры инновационным требованиям и повышение эффективности

Резюме

В статье исследованы вопросы адаптации управленческой инфраструктуры требованиям инновационного развития в сельском хозяйстве. Сделаны попытки учета особенностей перехода от экономики роста к зеленой экономики в инновационном управлении. Характеризованы факторы обусловливающие эффективности организационно-экономического управления в сельском хозяйстве. Определены направления повышения эффективности организационно -экономического управления в аграрном секторе.

Ключевые слова: организационно-экономическое управление, структура управление, инновационное развитие, эффективность, требования.

Sevinj Fizuli Karimova
Doctoral student of UNEC

Organizational-economic management of agriculture: conformity of structure to innovation requirements and increasing of efficiency

Summary

Article was devoted to the conformity of management structure of agriculture to the innovative development. Taking into consideration of properties of transition from growth economy to green economy in the innovation management was tried. Factors arranging efficiency of organizational - economic management of agriculture was classified. Directions of growth of efficiency of organizational - economic management in agrarian field were determined.

Key words: organizational - economic management, management structure, innovative development, efficiency, requirements.

III BÖLMƏ
MALİYYƏ, SIĞORTA VƏ İNVESTİSİYALAR

UOT 336.714

prof. Qəzənfər Salman oğlu SÜLEYMANOV,
ass. Sima Cəlil qızı CƏLİLOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

ÖLKƏNİN İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNDƏ VƏ İQTİSADİ İNKİŞAFINDA KLASTERLƏŞMƏNİN ROLU

Xülasə

Məqalədə ölkədə investisiya fəaliyyətinin və iqtisadi inkişafının tənzimlənməsinin metodoloji əsasları tədqiq edilir.Məqalədə əsaslandırılır ki, investisiya fəaliyyətinin və iqtisadi inkişafının tənzimlənməsində dünya praktikasında daha çox klasterləşmədən geniş istifadə edilir. Bu məqsədlə, məqalədə klasterləşmədən istifadənin üstünlükləri və onun respublika iqtisadiyyatına verdiyi səmərəlilik göstəriciləri elmi cəhətdən əsaslandırılır.

Məqalənin sonunda isə, ölkənin iqtisadi fəaliyyətinin səmərəli idarə edilməsində klasterləşmədən isifadə mexanizmləri təklif edilir. Təklif edilmiş iqtisadi mexanizmlərin köməyi ilə ölkədə əlverişli investisiya mühitinin formalaşması, riskin azaldılması və səmərəliliyin yüksəldilməsi və digər müsbət nəticələrin əldə olunması əsaslandırılmışdır.

Açar sözlər: investisiya, klaster, innovasiya, risk, səmərəlilik, iqtisadi inkişaf.

Giriş

Müasir dövrdə müxtəlif investisiya və iqtisadi inkişaf reytinqlərində respublikamıza cəlb edilən investisiyaların dinamikası və ölkəmizin rəqabətqabiyyətlilik göstəriciləri yüksəlmişdir.

Məhz bunun nəticəsidir ki, respublikada regionların maliyyə-investisiya potensialına, investisiya fəallığına birbaşa və portfel investisiya qoyuluşları üzrə yatırımlar edilmişdir. Lakin, bunlara baxmayaraq, aparılmış mövcud araşdırmalardan belə nəticəyə gəlmək olur ki, ayrı-ayrı şirkətlərə, sənaye sahələrinə regional və respublika səviyyəsində investisiya qoyuluşlarının maliyyə və struktur təhlilində bir sıra çatışmazlıqlar mövcuddur. Burada söhbət əsasən investisiya fəaliyyətinin keyfiyyət göstəricilərinin nəzərdən keçirilməsindən gedir. Belə ki, bu işlərdə atributiv göstəricilərin sistemli olaraq nəzərdən keçirilməsi yoxdur.

Buna görə də, perspektiv investisiya siyasəti metodikasına iki indikatorlar qrupu daxil olmalıdır. Bunlara kəmiyyət və keyfiyyət göstəriciləri aiddir. Bu göstəricilərə investisiya prosesinin spesifikası, onun struktur xüsusiyyətləri, dövlət, sahələr və korporativ iqtisadi maraqların məzmunu daxildir.

Regionun investisiya proseslərini xarakterizə etməyə imkan yaradan kəmiyyət göstəriciləri ancaq regionda investisiya fəaliyyəti çərçivəsində investisiya maraqları haqqında təsəvvür yaradır. İnvestisiya qoyuluşlarının intensivliyini, onların strukturundakı irəliləyişlərin səmərəliliyini qiymətləndirmək üçün atributiv göstəricilərin məcmusu tələb olunur. Çünki son nəticədə investisiyaların kəmiyyəti deyil, regionun sosial-iqtisadi inkişaf sürəti və rifah göstəriciləri müəyyənləşdirici rol oynayır .

Respublikamızda bütün parametr və istiqamətlər üzrə investisiya axınının optimallaşdırılması üçün əhəmiyyətli ehtiyatlar mövcuddur. Bunlara misal olaraq texnologiya, innovasiyalar, enerjiyə qənaət, kadr təminatı, təhsil, keyfiyyət, ekologiya, sosial sfera və s. göstərilə bilər.

Araşdırmalar göstərir ki, regionda investisiya qoyuluşları, demək olar ki, əsasən xam materiallara yönəlmişdir. Yəni, investisiya axınında formalaşmış sahə strukturu tam olaraq regionun iqtisadi maraqlarına uyğun deyil. Prioritetlər sistemi əsasən regionun normativ qanunvericilik sənədlərində əks olunmuşdur.

İnvestisiya qoyuluşunun əsas istiqamətləri

Bütün bunlar investisiya qoyuluşunun strateji istiqamətlərinin müəyyən edilməsini aktual edir. Bu aşağdakı səbəblərlə əlaqəlidir [1].

Birincisi, ökə iqtisadiyyatında təşkilati-struktur dəyişikliklər konsepsiyası tam olaraq regionda təsərrüfat komplekslərinin inkişaf strategiyası və inkişaf perspektivlərinə uyğun olaraq struktur dəyişikliklərindən asılı olaraq həyata keçirilməlidir. Mavafiq olaraq qeyd etmək lazımdır ki, pespektivli investisiya siyasətinin işlənilib hazırlanması üçün regionda və nəzərdən keçirilən hər hansı bir ərazidə elmi-texnoloji və istehsal bazasına müvafiq inkişaf imkanları bütünlükdə nəzərdən keçirilməlidir.

İkincisi, regionda investisiya siyasəti üçün monitorinqin keçirilməsi, regionda təşkilati-struktur dəyişikliklərinin sistemli olaraq təhlil olunmasıdır. Bütün bunlar isə hər şeydən öncə onunla əlaqədardır ki, transformasiya prosesləri şəraitində struktur dəyişiklikləri hüdudlarında regionda iqtisadi və maliyyə şəraiti qeyri-sabitdir. Bəzən prioritetlərin seçilməsindəki dəyişikliklərin, həmçinin struktur dəyişikliklərinin istiqamət və təmayüllərinin daimi olaraq müşahidə olunması tələb olunur. Burada əsas məqsəd neqativ məqamların, regionun xalq təsərrüfatı sistemində yığılıb qalmış disproporsiyaların vaxtında müəyyənləşdirilməsidir. Nəticədə təşkilati struktur dəyişikliklərinə vaxtında tələb olunan düzəlişləri etmək mümkündür. Bununla yanaşı, respublikamızda ərazi üzrə inkişaf proqramının reallaşdırılması tələb edir ki, mövcud resurslar əsasında regionun gəlirləri artırılsın, xərclər optimallaşdırılsın, investisiyalar cəlb edilsin.

Üçüncüsü, regional dövlət strukturlarının vəzifəsi regionun təsərrüfat həyatında iştirak edən bütün təsərrüfat subyektlərinin konstruktiv məzmun daşıyan sahələri uzlaşdırılsın.

Regionun perspektiv investisiya siyasətinin işlənilib hazırlanması müəyyən çağırışlar, üstünlüklər, inkişaf prioritetlərinin mövcudluğunu və bu əsaslar üzərində uzunmüddətli iqtisadi maraqların təmin olunması ilə əlaqədar institusional islahatların, inkişaf layihələrinin həyata keçirilməsini tələb edir.

Çağırışlar - trendlər, şəhərin, ərazinin, regionun inkişaf prosesi zamanı meydana çıxan təhlükələr və imkanlardır. Həmin təhlükələrin aradan qaldırılaraq mövcud imkanlardan istifadə etməklə inkişaf üçün tələb olunan prioritetlər reallaşdırılmalıdır.

Üstünlüklər - çağırışlara cavab olaraq istifadə edilməsi mümkün olan mövcud və potensial faktorlar və resurslardır.

Prioritetlər - məqsədlərdir, həmin məqsədlərə nail oluması isə şəhər üçün zəruri olan kritik inkişafa nail olunması deməkdir. Prioritetlərin reallaşdırılması üçün iki şərait tələb olunur: institusional islahatların həyata keçirilməsi və konkret inkişaf planlarının reallaşdırılması. İnstitusional islahatlar- idarəetmə tipli islahatlardır, onlarsız konkret inkişaf layihələrinin reallaşdırılması mexanizmləri yoxdur.

İnstitusional islahatlar - bir neçə prioritetlərin reallaşdırılmasına təsir göstərir və horizontal xarakterlidir. Belə islahatların reallaşdırılması dedikdə müəyyən olunmuş prioritetlərə nail olunması üçün həyata keçirilən konkret fəaliyyət kimi diqqəti cəlb edir. Onların həyata keçirilməsində uğurun əldə olunması hər şeydən öncə institusional islahatların reallaşdırılmasından asılıdır. İnkişaf layihəsi-iqtisadi, sosial, təhsil sferası ilə əlaqədar qəbul edilən qərarlardır. Həmin qərarların reallaşdırılması hər şeydən öncə şəxsi təşəbbüsdən asılıdır.

Bu istiqamətdə mövcud beynəlxalq təcrübələr onu döstərir ki, ölkənin investisiya fəaliyyətinin tənzimlənməsində və iqtisadi inkişafında klasterləşmənin rolu klasterlərin inkişaf etdirilməsi ilə əlaqədar həyata keçirilən dövlət tədbirlərinin səmərəliliyindən bilavasitə asılıdır [2].

Yəni, ölkədə investisiya fəaliyyətinin tənzimlənməsinin və iqtisadi inkişafının prioritet isti-

qaməti klasterlərin yaranması və inkişafının stimullaşdırılmasını zəruri edir.

Bununla yanaşı, dünya praktikasında ölkələr səviyyəsində klasterlərin dövlət orqanları tərəfindən dəstəklənməsi bir neçə istiqmatlərdə reallaşdırılır. Klasterləşmə iqtisadiyyatda aşağıdakı unikal institusional mexanizmlərin formalaşmasına təsir göstərir [5,6]:

1. Klasterlərə xidmətlərin göstərilməsinin təşkili (iqtisadi, statistik informasiyanın yığılması, toplanılması, həmin informasiyalardan digərlərinin istifadə edə bilməsi üçün klasterlərin baş qərargahlarında agentliklərin yaradılması, klaster iştirakçıları tərəfindən müştərək olaraq resursların cəlb olunması üçün stimulların işlənilib hazırlanması və s.).

2. Klasterlərə məqsədli investisiyaların (fundamental araşdırmalara, bilik industriyasına və innovasiyalara, texnoparklara investisiya qoyuluşları, klasterlər üçün bazarların inkişaf etdirilməsi, sahibkarlıq fəallığının dəstəklənməsi və s.) yatırılması.

3. Əməkdaşlıq səbəkələrinin inkişaf etdirilməsi, formal və qeyri-formal əlaqələrin (klaster ittifaqlarının, komitələrin, xarici əlaqələri idarə edən və tənzimləyən təşkilatların, kommunikasiya meydançalarının və kanallarının yaradılması və dəstəklənməsi) genişləndirilməsi və s.

4. Klasterlərə yönəldilmiş insan kapitalının formalaşdırılması (iş qüvvəsinin ixtisaslaşdırılması, vasitəçilərin cəlb edilməsi- kadr agentlikləri və təhsil idarələrinin klasterlərə daxil edilməsi, kadr hazırlığı və ixtisas səviyyəsinin yüksəldilməsinin həyata keçirildiyi mərkəzlərin yaradılması və s.).

Bu zəruriyyətdən irəli gələrək, regionlarda investisiya-innovasiya klasterinin əsas iştirakçılarının qarşılıqlı əlaqələrinin səmərəliliyinin yüksəldilməsi və respublikanın sahə klasterlərinin innovasiya vektorunun formalaşdırılması başlıca məqsədlərdən biri olmuşdur.

Belə ki, dünyada uğurlu fəaliyyət göstərən klasterlər innovasiyalar əsasında formalaşdırılır. Məsələn, ABŞ-da milli innovasiya klasterlərinin formalaşdırılması və gücləndirilməsi vəzifəsi 2001-ci ildən Rəqabətqabiliyyətlilik Şurası qarşısında xüsusi əhəmiyyət daşıyan və prioritet məsələ kimi qoyulmuşdur [3,4].

Klasterlərin respublikanın innovasiya-investisiya fəaliyyətinə təsiri

Klasterlərin respublika iqtisadiyyatına təsir mexanizmini (alətlərinin reallaşdırılmasını) əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

- İnnovasiya sisteminin (innovasiya potensialının) və infrastrukturun İnnovasiya Proqramına uyğun inkişaf etdirilməsi. Belə ki, dünya praktikası göstərir ki, innovasiya klasteri sahə klasterləri içərisində ən səmərəlisidir.

- Klaster daxilində infrastrukturun və kommunikasiya şəbəkəsinin, nəqliyyat və mühəndis infrastrukturunun, rabitə və telekommunikasiyanın inkişaf etdirilməsi.

- İnsan kapitalının inkişaf etdirilməsi.Yəni, hər klaster daxilində klasterin profilinə uyğun təhsil, ixtisas səviyyəsinin yüksəldilməsi, xarici ölkələrdən və ölkənin digər regionlarından mütəxəssislərin cəlb edilməsi.

- Biznes təşəbbüslərinin dəstəklənməsi. Burada əsasən klasterin profilinə uyğun biznes inkubatorların yaradılması, kredit resurslarının əldə olunmasına, vergi preferensiyalarına, şirkətlərin qeydə alınmasının sadələşdirilməsi, inzibati baryerlərin azaldılmasına yönəldilən tədbirlər həyata keçirilir.

- Respublikadakı klasterlərin məhsullarının beynəlxalq bazarları zəbt edə bilməsinin dəstəklənilməsi, ixracın dəstəklənməsi proqramının reallaşdırılması, marketinq araşdırmalarının aparılması, təşkilatların sərgi və yarmarkalarda iştirakının dəstəklənməsi də vacib məsələdir.

- Mövcud olan, yaranmaqda olan və yeni klasterlərin sxemi Azərbaycan Respublikasının ərazi prinsipi üzrə inkişafı sxemi ilə uzlaşdırılmalı, sxemlərin identifikasiya olunmasına şərait yaradılmalıdır. Göstərilən tədbirlərin həyata keçirilməsi, respublika ərazisinin funksional zonalara bölünməsinə imkan yaradar.

- Baza normativ aktları, effektiv regional klaster siyasətinin reallaşdırılmasını təmin edərək müasir tələblərə cavab verir.

Bütün bunlara əsaslanaraq, belə nəticəyə gəlmək olur ki, "Azərbaycan Respublikasının ərazi üzrə inkişafı haqqında" və"Azərbaycan Respublikasının regional inkişafının dövlət tənzimlənməsi" layihələri uzlaşdırılmalıdır.

Klasterlərin inkişaf etdirilməsinin əsas mənbələri

Klasterlərin inkişaf etdirilməsində əsas mənbələr qismində aşağıdakılar göstərilə bilər:

1. Qeyri-büdcə maliyyələşdirmə mənbələri: müəssisələrin-klaster iştirakçılarının öz vəsaitləri, qiymətli kağızların emissiyası hesabına cəlb edilən vəsaitlər, öz məhsul və xidmətlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində maraqlı olan kommersya banklarının, vençur təşkilatlarının, investisiya şirkətlərinin, fondların, sığorta təşkilatlarının, özəl investorların kreditləri.

2. Respublikamızın büdcə vəsaitləri: o cümlədən iqtisadiyyatın klaster strukturlarına məqsədli kapital qoyuluşları; dövlət sifarişlərinin yerinə yetirilməsi üçün əmtəə istehsalı və xidmətlər müqabilində dövlət tərəfindən ödənilmiş vəsaitlər; innovasiya layihələrinin reallaşdırılması üçün bank kreditləri və səhmlərin faiz dərəcələrinin kompensasiyası; innovasiya müəssisələrinin vergi güzəştləri; ayrı-ayrı razılaşmalar əsasında innovasiya layihələrinin pay bölgüsünə əsasən maliyyələşdirilməsi.

Bunlarla yanaşı, respublikada klasterlərin inkişaf etdirilməsinin reallaşdırılması üçün respublika və xarici ölkələrin ixtisaslaşdırılmış innovasiya və investisiya fondlarının vəsaitləri cəlb edilməlidir.

Araşdırmalara əsaslanaraq, belə nəticəyə gəlmək olar ki, respublikamızda klasterlərin təşkili və müvəffəqiyyətlə fəaliyyət göstərməsi aşağıdakı iqtisadi uğurlara gətirib çıxarar:

- Respublika iqtisadiyyatının ayrı-ayrı sahələrinin və müəssisələrinin ölkə və qlobal bazarlarda rəqabətqabiliyyətliliyinin yüksəlməsi;
- Regional və ümumi daxili məhsulun, onun strukturunda innovasiya və elmtutumlu sahələrin çəkisinin artması;
- Kiçik və orta müəssisələrin iqtisadiyyatda payının (çəkisinin) artması;
- Resursların respublika və bələdiyyə səviyyəsində idarə edilməsi və istifadəsinin keyfiyyətinin yüksəldilməsi;
- Ölkəmizdə investisiya, innovasiya biznesi üçün əlverişli mühitin yaradılması;
- Respublika ərazisində məşğulluğun və əhali gəlirlərinin səviyyəsinin yüksəldilməsi;
- İnsan kapitalının inkişaf etdirilməsi, əhalinin məkan üzrə ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi.

Nəticə və təkliflər

Ölkə iqtisadiyyatında klasterlərin formalaşdırılması və onların təşkilati-iqtisadi baxımdan inkişaf etdirilməsi üçün hər bir subregionun daxilində və subregionlar arasında əlaqələrin gücləndirilməsi və genişləndirilməsi vacibdir. Bütün bunlar isə öz növbəsində onların müxtəlifliyinə gətirib çıxarır.

Buna görə də ölkə iqtisadiyyatında klasterləşmənin həyata keçirilməsi üçün aşağıdakı tədbirlərin reallaşdırılması məqsədəuyğun olardı:

-region və subregionun imkanları və tələbatları ilə əlaqədar vahid regional informasiya sistemi yaradılmalıdır. Bu baxımdan respublikada istehsal üzrə submüqavilələrin yaradılması həyata keçirilməlidir. Çünki submüqavilələr təsərrüfat vahidlərinin qarşılıqlı əlaqələrinin formalarının dəyişilməsinə xidmət edir. Şirkətdaxili əlaqə və qarşılıqlı əlaqələr (bir mülkiyyət çərçivəsində) şirkətlərarası, iri istehsalçıların və müxtəlif dar çərçivədə ixtisaslaşan kiçik şirkətlərin kontrakt əsasında qarşılıqlı təsir və əlaqələri ilə əvəz olunur.

- regional sənaye siyasətinin ayrılmaz tərkib hissəsi kimi iqtisadiyyatın müxtəlif sahələrində biznes təşəbbüsləri canlandırılmalı və idarə olunmalıdır.

Strateji investisiyalaşdırma, lokal ərazi-istehsal komplekslərinin və regionların kompleks inkişaf etdirilməsi dövlət və biznes strukturlarının birləşdirilməsini nəzərdə tutan proseslərə müsbət təsir göstərər.

Bütün bunlar isə ölkənin sosial-iqtisadi inkişafının yüksəldilməsində bazis resurs rolunu oynayırlar.

ƏDƏBİYYAT

1. Л.С.Марков. «Экономические кластеры: понятие и характерные черты» / Актуальные проблемы социально - экономического развития: взгляд молодых ученых. Новосибирск, 2005.
2. Определение территориальных зон потенциального развития кластеров в РФ/ Отчет о выполнении работ по Государственному контракту №13. 14.6/101 от 10 ноября 2006 . http// aisup/economy.govru/niokr
3. М.Э. Портер. «Конкуренция» учеб. пособие. Изд. Дом «Вильяме» 2000.
4. T. Roelandt, P.Hertog. “The Cluster Approach”. Paris-1999.
5. Т.В. Цихан. «Кластерная теория экономического развития». Москва-2003.
6. П.Филлипов. «Кластеры конкуретноспособности». Москва-2003.

проф. Газанфар Салман оглы Сулейманов
асс. Сима Джалиль кызы Джалилова
Азербайджанский Государственный Университет
Нефти и Промышленности

Роль кластеризации в регулировании инвестиционной деятельности страны и экономическом развитии

Резюме

В статье рассматриваются методологические основы регулирования инвестиционной деятельности и экономического развития страны. В статье делается вывод о том, что в регулировании инвестиционной деятельности и экономического развития глобальная практика широко используется без кластеризации.

С этой целью научно обоснованы преимущества использования не кластеризации в статье и ее эффективности в экономике страны. В конце статьи используются механизмы кластеризации для эффективного управления экономической деятельностью страны. С помощью предътавленных экономических механизмов в стране была создана взаимовыгодная инвестиционная среда, уменьшились риски, увеличились прибыльность, а также достигнуты другие положительные результаты.

Ключевые слова: инвестиции, кластер, инновации, риск, эффективность, экономическое развитие.

prof. Gazanfar Salman Suleymanov
ass. Sima Jalil Jalilova
Azerbaijan State Oil and Industrial University

The role of clustering in the country's investment activity regulation and economic development

Summary

The article studies the methodological bases for regulating investment activity and economic development in the country. The article concludes that, in the regulation of investment activity and economic development, global practice is widely used without clustering. For this purpose, the advantages of using non-clustering in the article and its effectiveness in the economy of the country are scientifically substantiated. At the end of the article, clustering mechanisms are used to effectively manage the country's economic activity. With the help of the proposed economic mechanisms, the formation of a favorable investment climate in the country, reducing risk and improving efficiency and other positive outcomes have been justified.

Key words: investment, cluster, innovation, risk, efficiency, economic development.

UOT 336.714

Arzu Rəhim qızı SÜLEYMANOVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universitetinin
«Maliyyə və bank işi» kafedrasının müəllimi

AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİNİN TƏHLİLİ VƏ QEYRİ-NEFT SEKTORUNA İNVESTİSİYA QOYULUŞUNUN STİMULLAŞDIRILMASI YOLLARI

Xülasə

Dünya investisiya bazarında formalaşmış belə bir kəskin rəqabət şəraitində Azərbaycan iqtisadiyyatına, xüsusilə də qeyri-neft sektoruna daha çox investisiya cəlb edilməsinə şərait yaradacaq effektiv stimullaşdırma tədbirlərinin hazırlanması və tətbiq edilməsi mühüm aktuallıq kəsb edir. Məqalədə əsasən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin tələbləri baxımından 2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri olan xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsindən söhbət gedir. Bu sahədə aparılacaq islahatlar və iqtisadiyyatda özəl investisiyaların payının artmasına təkan verən məsələlərə aydınlıq gətirilir.

Açar sözlər: investisiya, investisiya mühiti, milli iqtisadiyyat, xarici investor, özəl sektor, qeyri-neft sektoru.

Giriş

Bu gün dünya miqyasında xarici investisiyalar ugrunda mübarizə aparılır, onların cəlb edilməsi istiqamətində fəallıq daha da güclənir, dövlətlər bütün mümkün stimullaşdırıcı vasitələrdən istifadə etməklə daha əlverişli investisiya mühiti təklif etməyə və bununla da qlobal investisiya axınlarından daha çox yararlanmağa çalışırlar. Qloballaşmanın genişləndiyi müasir dövrdə xarici investisiya, ölkə daxilində sağlam rəqabətin yaradılması, ölkəyə yeni texnologiyaların gətirilməsi, iqtisadiyyatda liberallaşmanın və müasir idarəçilik təcrübəsinin tətbiqi, insan resurslarının inkişaf etdirilməsi, ətraf mühitin qorunması, həmçinin transmilli şirkətlərin və onların məxsus oldugu ölkənin dəstəyinin qazanılması baxımından əhəmiyyətli sayılır.

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafı

Artıq respublikamızda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı üzrə yüksəliş müşahidə olunmaqdadır. Bu sektorda aparıcı sahələrdən biri də aqrar-sənaye sistemidir. Bu sahə ümumilikdə iqtisadiyyatın əsas sahələrindən biridir və burada nail olunan iqtisadi artım ümumi göstəricilərə də təsir göstərir. Aqrar sahənin dinamik inkişafı burada aparılan ardıcıl və məqsədyönlü islahatların məntiqi nəticəsidir. Bu sferada sahibkarlığın inkişafı və bu məqsədlə maliyyə-kredit mexanizminin həm təşkilati, həm də iqtisadi məsələlərindən istifadə olunması onun dayanıqlı, rəqabətqabiliyyətli inkişafını təmin etmişdir. Aqrar sektorda sahibkarlığın inkişafına ilbəil artan investisiya qoyuluşları sahənin yeni texnologiyalarla məhsul istehsalına imkan verir. Aqrar sferada infrastruktur və sosial məsələlər öz həllini tapmışdır. Kənd əhalisinin illər üzrə artan pul gəlirləri regionların real iqtisadi inkişafının yüksək templi artımına dəlalət edir.

Son 18 ildə həyata keçirilən iqtisadi islahatlar ölkənin planlı sosializim iqtisadi sistemindən bazar iqtisadiyyatı sisteminə keçidi üçün labüd olan maddi-texniki bazanın yaradılması üçün iqtisadiyyata böyük həcmdə investisiya cəlb edilməsinə şərait yaratdı. Əldə edilmiş bütün uğurlarla yanaşı ölkəmizin iqtisadiyyatının müasir durumunun iddiaçı qiymətləndirilməsi göstərir ki, iqtisadiyyatda öz həllini gözləyən problemlər də meydana gəlmişdir.

Azərbaycan Respublikası Prezdenti cənab Ilham Əliyevin dediyi kimi "Bizə çoxşaxəli iqtisadiyyat - yalnız nefdən və neftin qiymətlərindən asılı olmayan iqtisadiyyat lazımdır" [3]. İqtisadi tarazlığın yaradılmasının bərpa olunmasının əsas vasitələrindən biri məhz investisiyalar və on-

lardan səmərəli istifadədir. İnvestisiyalarla bağlı digər mühüm məsələ böyükmiqyaslı investisiyalardan adekvat iqtisadi səmərə əldə edilməməsidir. Bazar iqtisadiyyatı şəraitində cəmiyyətin artmaqda olan sosial-iqtisadi tələbatının ödənilməsi, mövcud istehsal potensialından tam və səmərəli istifadə edilməsi, ETT-nin nailiyyətlərinin istehsala tətbiqi və bu kimi yeniliklər investisiya qoyuluşlarından asılıdır. Bu baxımdan, cəmiyyətin həyatında investisiya qoyuluşlarının əhəmiyyəti və rolu son dərəcə artmış olur. Ölkəmizin iqtisadiyyatını inkişaf etmiş ölkələrin səviyyəsinə qaldırmaq üçün yaxın 15 ildə təqribən 20-22 mlrd. dollar (neft-qaz sektoru və işgal olunmuş 20% ərazilərin bərpası nəzərə alınmadan) investisiya tələb olunur [8].

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində də xarici investorların cəlb olunması ilə bağlı strateji hədəf seçilmişdir. Həmin sənədə uyğun Strateji Yol Xəritəsi və özəlləşdirməyə dair yeni qanun layihəsi Azərbaycanın iqtisadi inkişafına münbit şəraitin yaradılması üçün maliyyə vəsaitlərinin cəlb edilməsini, həmçinin investorların iştirakına dəstək verilməsi məqsədilə qanunvericilik şərtlərini və hüquqi müdafiə məsələlərini əks etdirir [2].

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə əsasən, investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir [2].

Biznes-investisiya mühiti, investisiyaların qorunması sahəsində qanunvericilik

Azərbaycanda aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində ildən-ilə daha yüksək inkişaf göstəriciləri nümayiş etdirən iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəldilməsinə, qeyri-neft sektorunun da sürətli inkişafına, yoxsulluğun azaldılmasına əlverişli şərait yaratmış, əhalinin etibarlı sosial müdafiəsini, maddi-rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin etmişdir. Bütün bunlar isə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, möhtərəm Prezident İlham Əliyev tərəfindən zamanın tələbləri ilə yeni çalarlarla zənginləşdirilən, Azərbaycanın hərtərəfli, dayanıqlı və davamlı inkişafını, insanların layiqli həyat səviyyəsini ehtiva edən, ölkəmizin dünya miqyasında nüfuzunu daha da artıran milli sosial-iqtisadi modelin uğurları və milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir.

Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin strateji istiqamətlərinin müəyyənləşdirilməsində elmi əsaslara söykənən konsepsiya və proqramların hazırlanması mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyata qoyulan investisiyanın həcminin artırılması məqsədilə bu sahədə islahatlar genişləndirilməli, xüsusilə özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühiti, həmçinin investisiyaların qorunması sahəsində qanunvericilik daha da təkmilləşdirilməlidir. Aparılmış təhlillər onu göstərir ki, xarici investorlar tərəfdaşlıq zəminində ölkədə əlverişli investisiya qorunma sisteminin mövcudluğuna xüsusi diqqət ayırırlar. Bu baxımdan investisiya imkanlarının genişlənməsinə imkan verən çərçivənin qurulması mühüm əhəmiyyət kəsb edir. Şəkil 1-də Azərbaycanda 2011-2016-cı illərdə xarici investisiyaların bölgüsündə qeyri-neft sektoruna daxil olan investisiyaların həcmi öz əksini tapmışdır.

Şəkil 1-in təhlilinə nəzər salsaq, Azərbaycanda 2011-2016-cı illər ərzində xarici investisiyaların bölgüsündə qeyri-neft sektoruna daxil olan investisiyaların həcmində orta illik məbləğin 100%-ə yaxın artdığını görmüş olarıq. Belə ki, 2011-ci ildə qeyri-neft sektoruna yönəldilən investisiyaların həcmi 0,9 mlrd. ABŞ dolları olduğu halda, bu göstərici 2016-cı ildə 1,7 mlrd. ABŞ dolları səviyyəsinədək artmışdır [11]. Dövlət tərəfindən son illərdə investisiya mühitinin yaxşılaşdırılması, o cümlədən xarici investisiyalar üçün əlverişli vergi mühitinin təmin edilməsi, ölkədə sosial-iqtisadi inkişafın daha da yaxşılaşdırılmasında daxili və xarici investisiyalardan fəal istifadənin təmin edilməsi istiqamətində davamlı tədbirlər görülməkdədir [12;13;14;15]. Amma, investisiya mühitinin cəlbediciliyinin artırılması və investisiyaların həcminin yüksəldilməsi

üçün hələ çox işlər görülməli, daha təsirli mexanizmlər hazırlanmalı və tətbiq olunmalıdır [16 s. 83].



Şəkil 1. Azərbaycanda 2011-2016-cı illərdə xarici investisiyaların bölgüsündə qeyri-neft sektoruna daxil olan investisiyaların həcmi, mlrd. ABŞ dolları. (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanmışdır. http://www.stat.gov.az) [16, səh. 83].

"Doing Business 2017" hesabatına görə 2009-2016-cı illərdə Azərbaycanda aparılmış 27 islahatdan 7-si qeydiyyat sahəsi ilə, 5-i vergitutma sahəsi ilə bağlı olmuşdur. "Biznesə başlama" indikatorunda Azərbaycan üçün müəyyən edilmiş "Etalon Qanunvericiliyə Yaxınlıq" (DTF) indeksi 97,75% təşkil etmişdir ki, bu da ölkəmizin dünyada kifayət qədər yüksək standartlara uyğun olduğunu göstərir. Bu gün ölkəmiz "Biznesə başlama" indikatoru üzrə dünyada 5-ci, postsovet ölkələri arasında isə 1-ci yerdədir [10]. Aqrar sahədə sahibkarlığın inkişafında müşahidə olunan yüksəliş Azərbaycanda aparılan islahatların məntiqi nəticəsidir. Aqrar sahədə sənayeləşmə proqramı uğurla icra edilir. Respublikamızın aqrar sferasında makroiqtisadi vəziyyət çox müsbətdir. Aqrar bazarda istehlak qiymətlərinə dövlət nəzarəti aparılır ki, bu da sahədə sahibkarlığın inkişafına əlverişli iqtisadi mühit yaradır. Bununla yanaşı aqrar sferada tətbiq olunan maliyyə-kredit mexanizmi daim təkmilləşdirilir. Bunun nəticəsində kənddə sosial infrastruktur yeniləşir, əhalinin yaşayış şəraiti daha da yaxşılaşır. Bütövlükdə aqrar sahibkarlığın inkişafı üzrə maliyyə öhdəliyini dövlət tamamilə öz üzərinə götürmür. Lakin, bölgələrdə regional inkişaf proqramları dövlət dəstəyi ilə icra edilir.

Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatı istehsalının təşkilinin müxtəlif formalarını dəstəkləyən, aqrar sahədə çalışanların iqtisadi hüquqlarını genişləndirən mexanizmlərdən məharətlə istifadə olunmasına zərurət var. Kənd təsərrüfatının sosial-iqtisadi inkişafının təkmilləşdirilməsi zərurəti və aqrar sahədə yaranan bazar münasibətlərinin xüsusiyyətlərinə uyğun olaraq aqrar siyasətin formalaşdırılmasına daha çox diqqət ayrılmış və dövlət aqrar münasibətləri tənzimləyən normativ-hüquqi aktlar sistemini yaradır və kənd təsərrüfatının sənaye ilə inteqrasiya mexanizmini təşkil edir.

Nəticə

Aqrar strategiya bazarın ərzaqla və kənd təsərrüfatı xammalı ilə təmin olunmasına yönəldilir. Ərzaq təhlükəsizliyinin təminatı, ərzaq təminatı üzrə qida və kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, daxili və xarici bazarlarda onların rəqabət qabiliyyətinin yüksəldilməsi, əhalinin ümumilikdə tələbinin yüklsəlməsi ilə bağlı vəzifələrin reallaşma mexanizminin müəyyənləşdirilməsi zərurətə çevrilmişdi. Yeni aqrar siyasətin formalaşması məhz həmin amillərlə bağlıdır. Aqrar sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin qiymət, vergi, kredit və digər tənzimləyicilərinin tətbiqi bilavasitə aqrar siyasətlə həya-

ta keçirilir.Aqrar siyasətin strateji vəzifələrinə nail olmaq üçün əsas şərtlərdən biri torpaq islahatı, kənd təsərrüfatının yeni strukturlarının formalaşması və kənd təsərrüfatı müəssisələrinin özəlləşməsi zamanı rəqabət mühiti, bazar infrastrukturlarının yaradılması, kənd təsərrüfatı idarəetmə sisteminin demokratikləşməsidir.

2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri də məhz xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsidir. Bu sahədə aparılacaq islahatlar iqtisadiyyatda özəl investisiyaların payının artmasına təkan vermiş olacaqdır.

ƏDƏBİYYAT

1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası”. Bakı, 2012.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016.
3. https://www.president.az/articles/7716
4. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. Bakı, 2014.
5. “Azərbaycan Respublikasında sənayenin inkişafina dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”. Bakı, 2014.
6. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (İnsan İnkişafi). Bakı, 2014.
7.“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
8. İqtisadiyyat və Sənaye Nazirliyinin fəaliyyəti barədə hesabatlar (2010-2016).
9. İsa Alıyev və Yaşar Məmmədov. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasının tətbiqi: “Azərbaycan Respublikasında qeyri-neft sənayesinin İnkişaf Proqramı”. Bakı, “Avropa” nəşriyyatı, 2014.
10. http://bna.az/az/news/382
11. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2017, 812 s.
12. Azərbaycan Respublikasının investisiya mühiti haqqında. http://economy.gov.az/article/azerbaycan-respublikasinin-investisiya-muhiti-haqqinda/21336#.
13. Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverşli vergi mühiti. http://www.taxes.gov.az/modul.php?name=pages&page=230
14. 2017-ci ildə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafina dair Arayış. http://economy.gov.az/article/azerbaycan-respublikasinin-sosial-iqtisadi-inkishafi-2017-ci-ilin-i-rubu-uzre/28196# .
15. 2017-ci il üzrə Azərbaycan Respublikasında sənayenin inkişafı. http://economy.gov.az/article/azerbaycan-respublikasında-senayenin-inkishafı-haqqında-2017-ci-ilin-1-ci-rubu-uzre/28197# .
16. “AUDİT” elmi-praktiki jurnal, s. 81-92

Арзу Рагим кызы Сулейманова,
д.ф.э., Азербайджанский Университет Кооперации
преподаватель кафедры «Финансы и банковское дело»

Анализ инвестиционной среды в Азербайджане и направления стимулирования вложения инвестиций в ненефтяной сектор

Резюме

В условиях жёсткой конкуренции, сформировавшихся на мировом инвестиционном рынке, особую актуальность имеет разработка и применение эффективных мер стимули-

рования для большего привлечения инвестиций в Азербайджанскую экономику, и в частности, в ненефтяной сектор. В статье идет речь об обеспечении бизнес среды, которая создаст иностранным инвесторам условия, соответствующие мировым стандартам с точки зрения требований «Стратегический Дорожной Карты» для национальной экономической перспективы Азербайджанской Республики. Вносится ясность в задачи, стимулирующие рост доли частных инвестиций в экономике и необходимых реформ в этой отрасли.

Ключевые слова: инвестиции, инвестиционный климат, национальная экономика, иностранный инвестор, частный сектор, ненефтяной сектор.

Arzu Rahim Suleymanova
doctor of philosophy in economics
Azerbaijan Cooperation University
teacher of the department "Finance and banking"

The analysis of investment environment in Azerbaijan and the ways of stimulation of investment planning in non-oil sector

Summary

The preparation and application of effective stimulus measures that will create conditions for greater investment in the Azerbaijani economy, especially in the non-oil sector, under conditions of such a sharp competition in the global investment market is important. The article mainly deals with the business environment that will create conditions for foreign investors to operate in accordance with world standards, which is one of the objectives of the "Strategic Road Map of the national economic perspectives of the Republic of Azerbaijan" by 2025. The reforms that will be implemented in this area and the issues that will increase the share of private investment in the economy will be clarified.

Key words: investment, investment climate, national economy, foreign investor, private sector, non-oil sector.

UOT 336.74

Ramil Məhəmmədəli oğlu ƏLİYEV
i.f.d., AMEA-nın İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi,

Azər Məmməd oğlu ƏLİYEV
AMEA-nın İqtisadiyyat İnstitutunun elmi işçisi

DEVALVASİYA ŞƏRAİTİNDƏ VALYUTA TƏNZİMLƏNMƏSİNİN MAKROİQTİSADİ PROSESLƏRƏ TƏSİRİ

Xülasə

Məqalədə devalvasiya şəraitində valyuta tənzimlənməsinin makroiqtisadi proseslərə təsirinin nəzəri məsələləri tədqiq olunmuşdur. Eyni zamanda mövcud problemlərin aradan qaldırılması yolları göstərilmişdir.

Valyuta məzənnələrinin dinamikasının təhlili zamanı inflyasiyanın səviyyəsi nəzərə alınmış, bunun üçün nominal və real valyuta məzənnələri müəyyənləşdirilmiş və real valyuta məzənnəsinin məcmu qiymət amillərinin təsiri əks etdirilmişdir.

Qeyd olunur ki, ölkəmizdə bank sektorunda da böhranlı vəziyyət xeyli dərəcədə azalıb. Xarici ticarət və tədiyyə balansı üzrə isə müsbət meyillər var. Bunun üçün valyuta gəlirlərimizin neftdən kənar ixrac potensialımızdan asılı olması tələb olunur. Bütün bu məsələlər müəllif tərəfindən məqalədə öz əksini tapmışdır.

Açar sözlər: devalvasiya, valyuta, makroiqtisadiyyat, tələb, təklif və davamlı iqtisadiyyat.

Giriş

Son illər bütün dünyada valyuta tənzimlənməsinin makroiqtisadi proseslərə təsirinin öyrənilməsi mühüm aktuallıq kəsb etməkdədir. Bazar iqtisadiyyatının mövcudluğu şəraitində, beynəlxalq valyuta münasibətlərinin tənzimlənməsi prosesi dövlət səviyyəsində həyata keçirilir. Valyuta bazarında tələb və təklif, eləcədə valyutaların məzənnə nisbəti formalaşır. Müasir iqtisadi şəraitdə bazar fəaliyyətinin tənzimlənməsi dəyər qanununun, tələb təklif qanununun tələblərinə uyğun şəkildə həyata keçirilir. Bu qanunların işləkliyi valyuta mübadiləsində onların nisbi ekvivalentliyini, mal, kapital, xidmət, kredit hərəkəti vasitəsilə beynəlxalq valyuta axınları ilə dünya təsərrüfatı sistemində valyutaya olan ehtiyac arasındakı uyğunluğu təmin edir. Valyuta siyasəti iqtisadi siyasətin mühüm tərkib hissəsidir və onun çoxtərəfli məqsədlərinin yerinə yetirilməsinə, yəni dayanıqlı iqtisadi inkişafın təmin edilməsinə, işsizlik və inflyasiya səviyyəsinin dayandırılmasına, ödəniş balansı müvazinətinin dəstəklənməsinə yönəldilir. Valyuta siyasətinin istiqamətləri və formaları ölkənin və beynəlxalq valyuta sisteminin mövcud vəziyyəti ilə müəyyən edilir [1, s. 447].

Son illər valyuta məzənnəsi siyasəti iqtisadi proseslərin çevik idarə edilməsi və stabilləşdirilməsi üçün Mərkəzi Bankın tədbirlər sistemindən ibarətdir. Mərkəzi Bankın pul siyasətinin əsas məqsədi inflyasiyanı nəzarət altında saxlamaqla yeni iş yerlərinin açılmasına və əhalinin tam məşğulluğuna, iqtisadi artıma nail olmaq üçün ölkədə münbit maliyyə mühiti yaratmaqdır. Bu məqsədlərin əldə edilməsində Mərkəzi Bank pul kütləsinin tənzimlənməsindən geniş istifadə edir. Çünki, pul kütləsi qiymətlərin stabilliyində, ümumi tələb və təklifin balanslaşdırılmasında mühüm amil hesab edilir. Başqa sözlə, dövriyyədə arxasında real əmtəə dayanmayan pul kütləsinin artması inflyasiyanın başlıca səbəblərindəndir.

Mərkəzi Bank daima müəyyən qiymət hədlərini formalaşdırır. Ümumiyyətlə, Mərkəzi Bank elə bir qiymət hədləri formalaşdırmağa çalışır ki, həm istehsalçının və istehlakçının maraqları uzlaşsın, həm də iqtisadi artım baş versin. Bunun üçün Mərkəzi Bank birrəqəmli inflyasiya səviyyəsinin formalaşdırılmasını hədəfləyir. Müasir iqtisadi sistemlərdə sıfır inflyasiyalı iqtisa-

diyyat yoxdur. Çünki, qiymətlər həddən aşağı düşəndə istehsalçı kifayət qədər mənfəət əldə edə bilmir və istehsala marağı azalır. İnkişaf etmiş ölkələrdə illik 3-4 faizlik inflyasiyadan iqtisadi artımı stimullaşdırmaq üçün istifadə edilir.

İqtisadiyyatın sabit inkişafı üçün pul təklifinin iqtisadi şəraitə uyğunlaşdırılması vacibdir. Böhran dövründə iqtisadiyyatda investisiya fəallığını artırmaq və canlanma yaratmaq üçün Mərkəzi Bank kommersiya banklarının kredit əməliyyatlarını stimullaşdırmaqla pul təklifini artırır. Bu da ödəmə qabiliyyətli tələbin artmasına səbəb olur. Nəticədə qiymətlər artır və istehsalın həcminin artmasına maddi maraq yaradır [2, s. 542].

Valyuta tənzimlənməsinin əsas xüsusiyyətləri

Bazar iqtisadiyyatının daim bir düz xətt üzrə yüksəlməsi mümkün deyil. Onun üçün enib-qalxmalar, obrazlı desək, dəniz kimi dalğalanma xarakterikdir. Bu tamamilə normal haldır. Lakin burada əsas məsələ kəskin dalğalanmaların qaşısının alınması və ritmliyin qorunmasıdır. Əks halda iqtisadi proseslər nəzarətdən çıxaraq, sanki dənizdə fırtına effekti yaradar. Volativlik müəyyən zaman çərçivəsində bazar qiymətlərinin və gəlirin dəyişmə tendensiyasını xarakterizə edən maliyyə göstəricisidir.

Maliyyə alətlərindən müəyyən zaman çərçivəsində müəyyən məqsədlər üçün risklərin idarəolunması çərçivəsində istifadə olunur. Xüsusən investorlara maliyyə alətinin əldə edilməsi nəticəsində qarşılaşacağı riski ölçmək üçün istifadə edilir. Bu zaman statistikada seçmə dispersiyadan istifadə edilir. Göstərici həm mütləq, həm də nisbi formada ifadə edilir. Bu məsələnin həlli Mərkəzi Bankın pul siyasətinin əsas vəzifələrindəndir.İqtisadiyyatda fırtınaların baş verməməsi üçün AMB qiymətlərin həddən aşağı düşdüyü və işsizlik şəraitində bankların kredit əməliyyatlarının artırılmasına, yüksək inflyasiya zamanı isə azaldılmasına istiqamətlənmiş tədbirlər həyata keçirir. Nəzərə almaq lazımdır ki, son illər ölkədə davamlı islahatların həyata keçirilməsi istiqamətində ciddi işlər görülməkdədir [3].

Qeyd edək ki, Azərbaycan Respublikası üzrə həyata keçirilən davamli iqtisadi islahatlar iqtisadi inkişaf tempinin təmin olunmasında mühüm rol oynamışdır. Məsələn, Azərbaycan Respublikasında 2017-ci ilin ilk 4 ayında 20139,8 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir və bu əvvəlki ilin yanvar-apreli ilə müqayisədə 1,2% azdır. Əsas səbəb neft hasilatı və emalında azalma ilə bağlıdır. Qeyri-neft bölməsində isə əlavə dəyər əvvəlki ilin eyni dövrünə nisbətən 1,9 % artmışdır.

Ölkədə transformasiya prosesləri davam etməkdədir. Son illər ölkənin yeni iqtisadi modelə transformasiyası uzunmüddətli bir proses hesab olunur. Qısa müddətdə nəticə gözləmək düzgün deyildir. Söhbət ümumi nəticədən gedir və bu isə ondan ibarətdir ki, makroiqtisadi göstəricilərdə möhkəm dayanıqlılıq əldə olunsun. Ölkə iqtisadiyyatında 2 il ardıcıl davam edən geriləmə artıq dayanıb və stabilləşmə müşahidə edilir. 2015-ci ildə birincisi 34%, ikincisi isə 47% olmaqla manatın iki devalvasiyası oldu. Mərkəzi Bankın (AMB) rəsmi valyuta ehtiyatlarının həcmi 5 milyard dollara düşdü. 2014-cü ilin payızında bu ehtiyatlar 15 milyard ABŞ dollarından çox idi. Keçən il 1 milyard ABŞ dolları da xərcləndi vəAMB-nin ehtiyatı 4 milyarda enmişdir.

Qeyd edək ki, investisiyaların həcmi də həm daxili, həm də xarici mənbələr hesabına azalmışdır. 2014-cü ildən start götürən bu proses (1,7%), 2015-də 11,1%, keçən il isə 26%-dən yuxarı təşkil etmişdir.2017-ci ilin yanvar ayında ölkədəki müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 5233,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 0,8% çox ÜDM istehsalı qeydə alınıb. 2017-ci ilin 1-ci rübündə ölkədə 15229,7 milyon manat və ya əhalinin hər nəfərinə 1570,0 manat dəyərində ÜDM istehsal edildi: bu dövrdə iqtisadiyyatın qeyri-neft bölməsində istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,4% artdı, neft-qaz bölməsində isə 6,8% azaldı. Manat ABŞ dollarına qarşı yanvarda 8,23% ucuzlaşsa da, tədricən sabit oldu [4].

Nəzərə alaq ki, AMB-nin rəsmi valyuta ehtiyatlarının həcmi 2017-ci il fevralın 1-nə ilin yanvarın 1-nə olan rəqəmlə müqayisədə 352,8 milyon ABŞ dolları və ya 8,8% artmışdır: bu, çox

müsbət bir hal idi və manatın ucuzlaşması prosesinin dayanacağından xəbər verirdi. AMB rəsmi valyuta ehtiyatları apreldə 186,6 milyon (4,2%) artaraq, 4 milyard 619,3 milyon ABŞ dolları təşkil edib. Halbuki, ilin əvvəlində ehtiyatlar psixoloji həddən 4 milyard ABŞ dollarından da aşağı düşərək 3 milyard 974,4 milyon ABŞ dollarına qədər azalmışdı. AMB-nin valyuta ehtiyatlarının həcmi 644,9 milyon ABŞ dolları və yaxud 16,2 %, təşkil etmişdir. Son 1 il ərzində isə 498,7 milyon ABŞ dolları və yaxud 12,1% arta bildi. 2017-ci ilin ilk yarısının sonuna AMB-nin ehtiyatları 5 milyard ABŞ dolları səviyyəsini aşacaqdır. İstehlak məhsulları və xidmətlərin qiymətlərinin yüksəlməsi tempi zəifləməsə də, buna manatın məzənnəsi və idxal faktorlarının təsirləri xeyli səngiyib.

Azərbaycanda Bank sektorunda da böhranlı vəziyyət xeyli dərəcədə azalıb.Xarici ticarət və tədiyyə balansı üzrə isə müsbət meyillər var. Bunun üçün valyuta gəlirlərimizin neftdənkənar ixrac potensialımızdan asılı olması tələb olunur. Nə qədər ki, buna nail ola bilməmişik, neftin qiyməti 40 ABŞ dollarından aşağı düşərsə, vəziyyət yenə böhran mövqeyi ala bilər [5, s.123].

Valyuta tənzimlənməsinin makroiqtisadi proseslərə təsiri məsələləri

Son illərdə Azərbaycan iqtisadiyyatının inkişaf xüsusiyyətlərini şərtləndirən əsas amillər inkişafın sürətinin yüksək olması ilə yanaşı inkişafın ölkənin beynəlxalq rəqabətliliyini təmin etməsi hesab edilə bilər. Azərbaycan hökumətinin məqsədyönlü siyasəti nəticəsində müasir dünyada baş verən ciddi iqtisadi təlatümlər bizim iqtisadiyyatımıza iqtisadi təhlükəsizliyimizə təsir edəcək qədər mənfi təsirlər gətirə bilməmişdir. Məsələn, təkcə sonuncu, 2014-cü ildə mürəkkəb qlobal iqtisadi proseslər fonunda Azərbaycan iqtisadiyyatında dinamik inkişaf və makroiqtisadi sabitlik davam etmişdir. Qeyri-neft sektoru iqtisadi artımın əsas mənbəyi olmuş, investisiya fəallığı yüksək səviyyədə qalmışdır. Tədiyyə balansının profisiti strateji valyuta ehtiyatlarının artımını təmin etmişdir.

Azərbaycan dünya ölkələri arasında makroiqtisadi sabitlik üzrə ilk onluqdakı yerini qorumuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi artım və şaxələnmə siyasətinə, "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmış strateji inkişaf prioritetlərinə uyğun olaraq bütün dövlət idarəetmə orqanları və o cümlədən, pul-kredit siyasəti və valyuta siyasətinin formalaşdırılması və həyata keçirilməsinə bilavasitə məsul olan Mərkəzi Bank 2014-cü ildə də ölkədə makroiqtisadi sabitliyin təmin olunmasında fəal iştirak etmişdir. Mərkəzi Bank öz fəaliyyətini inflyasiyanın aşağı təkrəqəmli səviyyədə saxlanılması, manatın məzənnəsinin və bank sektorunda maliyyə sabitliyinin qorunması, bankların iqtisadi inkişafda rolunun artırılmasına yönəltmişdir. Qlobal iqtisadi mühitdən irəli gələn risklərə baxmayaraq, bütün bu məqsədlərə nail olunmuşdur. Makroiqtisadi sabitlik qorunmuş, manat bir daha özünü sabit valyuta kimi təsdiq etmişdir. İl ərzində dayanıqlı maliyyə sabitliyi təmin olunmuş, bank sektorunun iqtisadi artımda və investisiya fəallığının dəstəklənməsində rolu daha da artmış, maliyyə xidmətlərinə və resurslarına çıxış imkanları genişlənmişdir [6, s. 202].

Ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasətinə uyğun olaraq Hökumətlə yanaşı, Mərkəzi Bank 2016-cı ildə makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına, bank sektorunun maliyyə dərinliyinin artırılmasına, maliyyə-bank infrastrukturunun inkişafına yönəlmiş fəaliyyətini davam etdirmək əzmindədir. Məsələn, Mərkəzi Bank pul siyasəti vasitəsilə 2016-cı ildə də inflyasiyanın aşağı təkrəqəmli səviyyədə saxlanılmasını hədəfləyir. Bunun üçün əsas vəzifələr kimi manatın məzənnəsinin sabitliyinin qorunması, yeni qlobal və makroiqtisadi çağırışlara uyğun olaraq pul siyasəti çərçivəsinin təkmilləşdirilməsinin davam etdirilməsi və s. müəyyənləşdirilmişdir.

Kontrtsiklik bank nəzarəti modeli və prudensial siyasət vasitəsilə bank sistemində risklərin çevik idarə olunması və bankların maliyyə dayanıqlığının daha da gücləndirilməsi də nəzərdə tutulur. Qeyri-neft iqtisadiyyatının kreditlərə olan tələbatının effektiv ödənilməsi, maliyyə xidmətləri və resurslarının əlyetərliyinin təmin edilməsi, regionlarda müasir bankçılığın inkişafı,

nağdsız ödənişlərin və elektron bankçılığın miqyasının genişləndirilməsi, ipoteka mexanizminin təkmilləşdirilməsi dövlətin bank siyasətinin növbəti ildə əsas hədəfləridir.

İnkişaf etmiş ölkələrdə iqtisadi fəallıq nisbətən yüksəlmişdir. Son illərdə büdcə kəsirlərini əhəmiyyətli azaldan fiskal konsolidasiyanın cari ildə nisbətən yumşaq həyata keçirilməsi stimullaşdırıcı pul siyasəti ilə birlikdə iqtisadi artımın canlanması üçün mühit yaratmışdır. Lakin, bəzi ölkələrdə, xüsusilə avrozonada suveren borc probleminin hələ də qalması, makroiqtisadi siyasətin stimullaşdırıcı imkanlarının tükənməsi və struktur problemlər iqtisadi artımı məhdudlaşdıran amillərdir. İnkişaf etməkdə olan ölkələrdə isə iqtisadi artım perspektivləri zəifləmişdir. Qlobal tələbin dəyişkənliyi və investisiya axınlarının azalması bu ölkələrdə iqtisadi fəallığa mənfi təsir edən amillərdir.

Bazar iqtisadiyyatının tənzimlənməsi sistemində valyuta siyasəti mühüm yer tutur. Valyuta siyasəti ümumdünya təsərrüfat əlaqələri sistemində iqtisadiyyatın daxili və xarici dinamik müvazinətini təmin etmək, beynəlxalq ödəmələri müəyyən bir sistem daxilində yerinə yetirmək və xarici ödəniş balansını tənzimləmək məqsədilə ölkənin cari və strateji məqsədlərinə uyğun olaraq hökumətin həyata keçirdiyi tədbirlərin məcmusudur.

Valyuta siyasəti hüquqi cəhətdən valyuta qanunvericiliyinə,yəni ölkədə və onun sərhədləri xaricində valyuta dəyərləri ilə əməliyyatlar aparılması qaydalarını tənzimləyən hüquqi normalar toplusu, habelə valyuta normaları üzrə dövlətlər arasında ikitərəfli və çoxtərəfli müqavilələrə əsasən rəsmiləşdirilir.

Son 10 ildə ölkə iqtisadiyyatında müşahidə olunan makroiqtisadi sabitlik, xarici ticarət münasibətlərinin dinamik inkişafı və iqtisadi islahatların ardıcıllığı Azərbaycanın başqa ölkələrlə münasibətlərində əlverişli meyillərin formalaşmasını və BKB-na inteqrasiyasının gücləndirilməsini təmin etmişdir. Ortamüddətli perspektivdə də bu meyillərin saxlanması ölkənin tədiyyə balansının əsas göstəricilərinin sabit inkişafını qiymətləndirməklə yanaşı, yüksək rəqabət qabiliyyətinə malik olan Azərbaycan iqtisadiyyatının DTS-də mövqeyinin daha da gücləndirilməsinə imkan verəcəkdir.

Əmtəə ticarəti. Xarici ticarət münasibətlərinin inkişaf meyilləri bir sıra amillərin təsirini əks etdirir. Bunlardan iqtisadiyyatın əsas ixracat nomenklaturası malların istehsalının həcmini artırmaq imkanlarını, ümumi tələbatın və ümumi təklifin tənzimlənməsi üzrə daxili siyasəti göstərmək olar [7, s. 581].

Araşdırmalar göstərir ki, əmtəə ixracının ortamüddətli inkişaf perspektivləri əsas etibarı ilə Xəzərin Azərbaycan sektorundakı karbohidrogenlərin hasilatının artması və onların xarici ölkələrə ixracını təmin edən nəql yollarının inkişafı ilə bağlıdır. Əsas neft-qaz kəmərlərinin bir qədər gec də olsa işə salınması böyük neft-qaz ixracının intensivləşdirilməsini reallaşdırmış və artıq 10 ildir ki, beynəlxalq neft-qaz sövdələşmələri çərçivəsində Azərbaycan nefti və qazı xarici ölkələrə ixrac olunur. Bu prosesin orta və uzunmüddətli inkişaf perspektivləri dünyanın ən iri layihələrindən olan Şahdəniz-2, TANAP və 2013-cü ilin 17 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış TAP layihələrinin uğurla yerinə yetirilməsi nəticəsində reallaşacaq.

Respublikamızda Mərkəzi Bank manat kütləsini azaldıb, bu isə iqtisadi aktivliyi azaldır, açıqlanan rəsmi makroiqtisadi göstəricilər ölkədə böhranın ciddiləşdiyini göstərir. Hazırkı mərhələdə Mərkəzi Bankın hədəfi iqtisadi aktivlik ola bilməz, qanunvericiliklə müəyyənləşən hədəf inflyasiya, hazırda qeyri-rəsmi müəyyənləşmiş hədəf isə manatın idarə olunan məzənnəsi və özünün valyuta ehtiyatlarıdır. İqtisadi aktivliyin və dövriyyədə olan manat kütləsinin artırılması üçün pul-kredit siyasətinin yumşaldılması yetərli olardı, lakin bu, inflyasiyanın onsuz da yüksək olan səviyyəsinin artmasına və valyuta ehtiyatlarına təzyiqlərin güclənməsinə səbəb olur.

2017-ci ildə 4-cü İslam idman yarışlarına 20-30 min turist gəlmişdir, onlardan banklar ucuz, çoxlu ABŞ dolları almışlar ki, bu qədər turistin ortalama günlük xərclərini (100 ABŞ dolları) burada keçirdikləri günlərin sayına (10 gün) vursaq 20-30 milyon ABŞ dolları edir. Bu, normal

bankın bir neçə günlük dövriyyəsidir, belə məbləğ Mərkəzi Bankın məzənnə siyasətinə təsir göstərə bilməz. Bütün dünyada ABŞ dollarının ucuzlaşması zamanı ciddi dəyişikliklər müşahidə olunur.

Digər tərəfdən isə ABŞ dolları ucuzlaşan zaman aşağıdakı iqtisadi hadisələr baş verir:

- ölkənin ixracatı artır;
- valyuta gəlirləri artır;
- ölkədə daxili istehsal artır;
- idxaldan asılılıq azalır;
- ölkəyə böyük həcmdə valyuta gətirən investorlar gəlir.

Yuxarıda sadalanan iqtisadi proseslər valyutanın ucuzlaşmasına birbaşa təsir edir.

Qeyd edək ki, müşahidə eldiyimiz Türkiyədə və Çində məzənnə siyasəti təmiz başqa mahiyyətdə reallaşdırılır. Məsələn, Türkiyədə valyuta cari və kapitalın hərəkəti üzrə yönərlidir, Çində hətta cari əməliyyatlar üzrə məhdud yönərlilik tətbiq olunur. Azərbaycanda manatın məzənnəsinin tənzimlənmə prinsipləri kökündən fərqlənir və iqtisadiyyatda elə vəziyyət yarana bilər ki ABŞ dollarının dünyanın əksər valyutalarına nisbətdə məzənnəsinin müəyyənləşmiş trendinə əks trend formalaşa bilər. Valyuta məzənnəsinin dəyişməsi makroiqtisadi proseslərə də təsir edir.

Ümumiyyətlə, valyuta məzənnəsinin dəyişməsi makroiqtisadi proseslərin inkişafı üçün milli iqtisadiyyata və ölkənin xarici iqtisadi mövqeyinə əhəmiyyətli dərəcədə təsir edir. Valyuta məzənnəsindən, xarici ticarət balansının vəziyyəti, uzunmüddətli və qısamüddətli kapitalın hərəkəti və s. asılıdır. Ona görə də, valyuta məzənnəsinin tənzimlənməsi dünya bazarında makroiqtisadi siyasətin məqsədlərini və rəqabət vəziyyətini nəzərə alır [8, s.173].

Son illər Mərkəzi Bank xarici valyutanı alır, məzənnə isə aşağıdır və onu satır ki, xarici valyutanın məzənnəsi yüksəkdir. Mərkəzi Bank da öz valyutasını ala bilər, onu valyuta bazarında təklif edə bilər. Milli valyutanın məzənnəsinin dəyişkənliyi bu cür üsullarla məhdudlaşdırılır. Bu məqsədlər üçün qısamüddətli kredit almaq üçün beynəlxalq təşkilatlardan və digər dövlətlərdən bu ölkələrin valyutası alına bilər. Xüsusi (SWAP)svop müqavilələri aşağıdakılardan ibarətdir:

- kreditin alınması ilə bağlı müqavilələr;
- xarici valyutada yerləşdirilən qiymətli kağızların satışı.

Çünki xarici valyuta ehtiyatları intervensiya həyata keçirilməsi üçün məhduddur, onun satışı alınması ilə uzlaşma edilməlidir. Mərkəzi Bankın faiz dərəcələrinin dəyişməsi xarici qısamüddətli kapitalın hərəkətinə təsir edir. Faiz dərəcələrinin artırılması faiz dərəcəsi aşağı olan ölkələrdən kapital axınına şərait yaradır. Bu da milli valyutanın məzənnəsi və ödəniş balansının vəziyyətini yaxşılaşdırır. Amma faiz dərəcəsinin artırılması effektiv olmur, çünki kreditin bahalaşmasına qarşı tədbir ölkə daxilində aparılır. Çünki, faiz dərəcəsi kapitalın gəlirlilik göstəricisi nəzərə alınmaqla müəyyən edilir.

Hər bir ölkədə investisiya qoyuluşları mühüm rol oynayır. Ölkənin iqtisadiyyatına qoyulan kapitaldan çox gəlir əldə etmək olar, deməli, onun valyutasının dəyəri artır. Ona görə də real faiz dərəcələri valyuta məzənnəsinə təsir edir [9,s.189].Valyuta məhdudiyyətləri müxtəlif valyuta əməliyyatlarının həyata keçirilməsi ilə bağlı bazar subyektlərinin hüquqlarını nizama salan normativ qaydalardır. Valyuta məhdudiyyətləri valyuta kurslarına dövlətin birbaşa müdaxilə təzahürüdür. Onlar kapitalın hərəkətinə nəzarəti həyata keçirmək üçün, vətəndaşlar və s. valyutanın çıxarılmasının tənzimlənməsi üçün istifadə olunur.

Valyuta məzənnəsi ödəmə balansının vəziyyətindən xeyli dərəcədə asılıdır. Əgər ixrac idxalı üstələyirsə (aktiv ödəniş balansı), onda milli valyutanın məzənnəsi yüksəlir. Əgər idxal ixracı (ödəmə balansı passiv) üstələyirsə, onda artıq valyuta xərcləri valyuta daxilolmaları üzərində yaranır, nəticədə milli valyutanın məzənnəsi aşağı düşür. Ödəniş balansının tənzimlənməsi məqsədilə təsir valyuta məzənnələri üzrə aşağıdakı üsullarla həyata keçirilir: ixrac subsidiyala-

rı, gömrük tarifi, vergi güzəştləri, sığorta.Konvertasiyanın təmini valyutanın tənzimlənməsi problemləri ilə bağlıdır. Süni şəkildə valyuta ehtiyatlarının tükənməsi, ödəniş balansının kəsirini doğurur.

Valyuta məzənnəsi idxal və ixracın dəyişməsinə təsir göstərir. Bu o deməkdir ki, əgər milli valyutanın məzənnəsi artırsa milli pulun qiyməti və onlara tələbat artır. Müvafiq olaraq, xarici valyutaya tələbat azalacaq ki, bu da ixracın azalmasına səbəb olacaqdır. Bundan başqa, milli valyutanın məzənnəsinin artımı dünya bazarında rəqabəti azaldır. Bu amil də idxalın artması və ixracın azalmasına gətirib çıxarır. Deməli, belə şəraitdə təmiz ixrac azalır. Milli valyutanın məzənnəsinin aşağı düşməsi ixracı stimullaşdırır və idxalı dayandırır, xalis ixracı artırır [10, s.282].

Beləliklə, belə qənaətə gəlmək olar ki, xalis ixrac və valyuta kursu arasında asılılıq bağlıdır. Məlumdur ki, xalis ixrac ÜDM-in əsas tərkibi üzrə deyildir. Valyuta məzənnəsinin azalması daxili bazarda xalis ixracın artmasına stimul verir. Üzən valyuta kursu ilə mövcud vəziyyəti nəzərdən keçirsək ciddi dəyişikliyin olduğunu görərik. Əks-asılılıq ixrac və valyuta kursu arasında milli valyutanın məzənnəsinin artımı şəraitində proteksionizm tədbirlərinin səmərəsizliyi ilə izah edilir. Belə olan halda proteksionizm idxalının azalması ixracının artmasını kompensasiya etmir. Nəticədə, proteksionizm artan valyuta kursu ilə milli gəlirin artmasına gətirib çıxarmayacaqdır.

Sabit valyuta məzənnəsi üzrə proteksionizm siyasəti ÜDM-in artmasına gətirib çıxara bilər. Bu halda proses aşağıdakı sxem üzrə baş verir. Bazar milli valyutanın məzənnəsi üzrə daha ucuz xarici valyutaya olan tələbatı artırır. Bu da öz növbəsində, milli valyuta üzrə təklifi artırır. İdxal proteksionizm tədbirləri belə vəziyyəti süni surətdə azaldır. Eyni zamanda ixrac sayəsində qəti müəyyən edilmiş valyuta kursu dəyişmir. Bu o deməkdir ki, nəticədə xalis ixrac artır və milli gəlirin artımı təmin olunmur.

Nəticə

Öz mahiyyətinə görə valyuta bazarı xarici valyutada əməliyyatları, habelə xarici valyutanın alqı-satqısını əhatə edir. Valyuta bazarı müəyyən həddə institusional tənzimlənən rəqabətcil bir bazardır [11, s.144]. Mərkəzi Bank valyuta tənzimlənməsinin, məzənnə riskinin maksimal həcmini kommersiya bankları üzrə müəyyən edir. Valyuta əməliyyatlarının həyata keçirilməsi zamanı iqtisadi risk minimuma endirilir. Beynəlxalq valyuta sistemi öz inkişafında mərhələləri keçən, beynəlxalq təsərrüfat əlaqələrinin inkişafı prosesində formalaşmışdır.

Avropa valyuta sistemi beynəlxalq ödəmə vasitəsi əvvəllər Ekyu idi. Avro isə 1999-cu ildən dövriyyədədir. İqtisadi kateqoriya kimi valyuta məzənnəsi bir ölkənin digər ölkənin pul vahidi olaraq ifadə olunmuş qiymətidir. Valyuta kotirovka birbaşa və dolayı kotirovka ilə şərtləndirilir.

Dünya praktikasında valyuta məzənnəsinin müəyyənləşdirilməsində birbaşa kotirovka tez-tez tətbiq olunur. Alıcılıq qabiliyyətinin pariteti valyuta kurslarının müəyyən edilməsi əsasında milli və xarici valyutaların alıcılıq qabiliyyətinin nisbəti əsasında müəyyənləşir. Cari dövrdə valyuta məzənnəsi valyuta bazarında tələb və təklifin təsiri altında formalaşır.

Valyuta münasibətləri praktikasında aşağıdakı növ kurslardan istifadə edirlər:

- yazılmış (qeydə alınmış rəsmi paritet olduğunu ehtimal edirlər);
- çevik (rəsmi paritet yoxdur) üzən və idarə olunan;
- üzən;
- qarışıq;
- kross-kurslar;
- sport kurslar;
- forvard kurslar.

Valyuta məzənnələrinin dinamikasının təhlili zamanı inflyasiyanın səviyyəsi nəzərə alınır. Bunun üçün nominal və real valyuta məzənnələri müəyyənləşdirilir. Real valyuta məzənnəsi məcmu qiymət amillərinin təsirini əks etdirir. Valyuta tənzimlənməsi metodları valyuta, valyuta

intervensiyası, valyuta məhdudiyyətləri, tədiyyə balansının tənzimlənməsi, konvertasiya rejimi, faiz dərəcələrinin korreksiyasını, devalvasiyasını əhatə edir.

Ödəniş balansı üzrə böhran devalvasiyaya səbəb ola bilər. Valyuta məzənnəsinin aşağı düşməsi ixracı stimullaşdırır və idxalı məhdudlaşdırır. Revalvasiya əks prosesdir. Mərkəzi Bank burada təklifin azaldılması məqsədilə öz valyutasını alır. Onun məzənnəsinin azaldılması məqsədilə milli valyutasını satır. Əgər ödəniş balansı aktivdirsə onda milli valyutanın məzənnəsi yüksəlir. Tədiyyə balansının passiv şərti valyuta xərclərinin yüksək valyuta daxilolmaları nəticəsində yaranır, bu zaman milli valyutanın məzənnəsi aşağı düşür [10, s. 202].

Devalvasiya şəraitində valyuta tənzimlənməsi metodları, valyuta intervensiyası, valyuta məhdudiyyətləri tədiyyə balansının tənzimlənməsi, konvertasiya rejimi, faiz dərəcələrinin korreksiyası və ödəniş balansı üzrə böhranın səbəbləri göstərilmişdir. Valyuta məzənnəsinin aşağı düşməsi ilə ixrac arasında əlaqələr qeyd olunmuşdur. Devalvasiya şəraitində Mərkəzi Bankın gördüyü tədbirlər, o cümlədən təklifin azaldılması məqsədilə ölkəmizin valyutasının alınması, onun məzənnəsinin azaldılması məqsədilə milli valyutanın satılması və ödəniş balansı aktivdirsə onda milli valyutanın məzənnəsinin yüksəldilməsi kimi iqtisadi məsələlər tədqiq edilmişdir.

Məqalədə eyni zamanda tədiyyə balansının passiv şərti valyuta xərclərinin yüksək valyuta daxilolmaları nəticəsində yaranan iqtisadi hadisələr və bu zaman milli valyutanın məzənnəsinin vəziyyəti təhlil edilmişdir.

ƏDƏBİYYAT

1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, “Nasi”, 2002, 447 s.
2. A.Ş.Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Monoqrafiya, İqtisad Universiteti nəşriyyatı, Bakı, 2011, 542 s.
3. Azərbaycan Respublikası Mərkəzi Bankı,“Yekun Statistik Bülleten - 2016- noyabr”, baxış tarixi: 17.01. 2017. http://www.cbar.az/assets
4. Azərbaycan Respublikası Mərkəzi Bankı, “Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması Qaydaları”nın təsdiq edilməsi barədə, 06.01.2016 http://www.cbar.az/assets/2035/mubadil %C9%991.pdf
5. Бабашкина А.М. Государственное регулирование национальной экономики. М.: Финансы и статистика, 2007,123 с.
6. Деньги. Кредит. Банки: Учебник для вузов. / Е.Ф. Жуков, Л.М. Максимова, А.В. Печникова и др.; Под ред. проф. Е.Ф. Жукова. − М.: ЮНИТИ, 2000, 202 с.
7. Mehdiyev R.Ə. Yeni siyasət: inkişafa doğru. Bakı, 2008, 581s.
8. Musayev A.F., Qəhrəmanov A.Q. Ekonometrikaya giriş. “Çaşıoğlu” nəşriyyatı. Bakı, 2011, 173 s.
9. Основы международных валютно-финансовых и кредитных отношений. / Под ред. Круглова В.В. - М.: Инфра-М, 1998, 189 с.
10. R.T.Həsənov. İqtisadi siyasət: metodologiya və praktika. Dərs vəsaiti. İqtisad Universitetinin nəşriyyatı, Bakı, 2009, 282 s.
11. Валютный портфель. / Ред. колл. Ю.Б.Рубин, Е.Д.Платонов. − М.: СОМИНТЭК, 2003,144 с.

Рамиль Махаммадали оглы Алиев
д.ф.э.н., ведущий научный сотрудник
Института Экономики НАНА,

Азер Мамед оглы Алиев
научный сотрудник
Института Экономики НАНА

Влияние валютного регулирования на макроэкономические процессы в условиях девальвации

Резюме

В статье исследуются проблемы влияния валютного регулирования на макроэкономические процессы в условиях девальвации. Кроме того, для устранения существующих проблем в этом поле показаны направления течения.

Анализ динамики инфляции уровня валютных курсов учитывает также номинальные и реальные обменные курсы к ценовым факторам. В нашей стране кризисное состояние в банковском секторе сократилось. Но положительные тенденции наблюдаются во внешней торговле и платежном балансе. Для этого процесса необходимо регулировать валютные доходы от зависимости от не нефтяного экспортного потенциала. Эти проблемы отражены в статье автора.

Ключевые слова: девальвация, валютная, макроэкономика, спрос, предложение и устойчивая экономика.

Ramil Mahammadali Aliyev
PhD, leading researcher,
Institute of Economics of ANAS,

Azer Mamed Aliyev
Scientific fellow,
Institute of Economy, ANAS

Influence currency regulation to macroeconomic processes under the devalvation condotion

Summary

In article problems of influence currency regulation to macroeconomic processes under the devalvation condotion are investigated. Moreover for remove present problems in this field mour directions are shown.

The analysis of exchange rates dynamics inflation level considers, also nominal and real exchange rates to price factors reflected. In our country crisis condition in bank sector decreased. But positive tendencies observed in foreign trade and payment balance. For this process to reguire dependence currency incomes with non-oil export potential. These problems reflected in article by author.

Key words: devaluation, currency, macroeconomics, agenda, proposition and stable economy.

***

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. (Qrant № EİF-KETPL-2-2015-1(25)-56/56/5)

UOT 336.64

Səidə Feyzullah qızı RÜSTƏMZADƏ
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

MALİYYƏ AKTİVLƏRİNƏ İNVESTİSİYA QOYULUŞLARININ UÇOT TƏSNİFATININ ÜMUMİ MƏSƏLƏLƏRİ

Xülasə

Maliyyə isvestisiyalarının təsnifatı baxımından ABŞ və Azərbaycanda uçot və hesabat prosesində maliyyə investisiyalarının əks olunması metodologiyasının bilavasitə müqayisəli təhlilinə keçməzdən əvvəl təhlil zamanı nəzərə alınması zəruri olan müxtəlif anlayışların təyin olunması texnikasında mümkün fərqli cəhətlərin fundamental səbəblərini qeyd etməyi zəruri hesab edirik. Bu səbəblər sistemli xarakter daşıyır və ABŞ-da və Azərbaycanda mühasibat uçotunun normativ qaydada tənzimlənməsi sisteminin qurulması prinsiplərində mövcud olan prinsipial fərqləri əks etdirirlər və onların təhrif olunması yanlış nəticələrin formalaşmasına gətirib çıxara bilər. İlk növbədə, ABŞ-ın normativ sistemini ümumi və ya ingilis - saks hüququnun hüquqi ailəsinə aid etmək qəbul olunmuşdur. Bu kateqoriyanın iddia xarakteri hüquqi sistemlərin bu kateqoriyasının əsas xüsusiyyətidir. Yəni, qanun digər hüquq mənbələri üzərində formal olaraq hökm sürsə də, məhkəmə təcrübəsi öz praktik əhəmiyyətinə görə ən vacib hüquqi mənbə hesab olunur. Mühasibat sahəsində bu, mühasibat təcrübəsi və işgüzar dövriyyənin ənənələri ilə müqayisədə standartların yazılışının tarixi baxımdan tabeli rolu deməkdir.

Açar sözlər: maliyyə isvestisiyaları, uçot standartları, uçot prinsipləri, beynəıxalq standartlar.

Giriş

Mühasiblərin və auditorların öz fəaliyyətində dəqiq müəyyən olunmamış normativ aktları və qaydaları deyil, uçotun ümumi qaydada qəbul olunmuş aktlarını rəhbər tutmaları təşəkkül tapmış adətlərə və təcrübəyə doğru oriyentasiyanın digər nəticəsidir. Lakin, bu prinsiplərin ifadə olunduğu sənədlərin nəinki toplumu və vahid sənəd, eləcə də, bunu izah edən və hamı tərəfindən ümumi qaydada qəbul olunmuş tərif də mövcud deyildir. Bu konkret prinsipin hamı tərəfindən qəbul olunmasının və ya qəbul olunmamasının təyin olunması indiyə qədər ən mürəkkəb tapşırıqlardan biridir.

Yuxarı səviyyədə müvafiq səlahiyyətlərə malik olan təşkilat tərəfindən müəyyən olunmuş rəsmi uçot standartları yerləşdirilir. Bu standartların tələblərinə riayət olunması ABŞ müəssisələri üçün məcburidir. Müəyyən mühasibat prinsiplərini müəyyən edən və ya hami tərəfindən ümumi qaydada qəbul olunmuş mövcud təcrübəni təsvir edən səlahiyyətli təşkilat tərəfindən təsdiq olunmuş və kütləvi qaydada müzakirə olunmuş və peşəkar mühasibat təşkilatları tərəfindən qəbul olunmuş sənədlər ikinci səviyyədə olur. Əgər əməliyyatların uçotu ilə bağlı şərhi birinci səviyyəli sənədlərdə əks olunmamışdırsa, o zaman ikinci səviyyəli sənədlər tətbiq olunur. Üçüncü səviyyə uçot prinsiplərini interpretasiya edən və səlahiyyətli təşkilat tərəfindən təsdiq olunan, lakin kütləvi şəkildə müzakirə olunmayan sənədlərdən ibarətdir. Digər sənədlər və mühasibat ədəbiyyatı tərəfindən tövsiyə olunmuş mühasibat təcrübəsi aşağı səviyyədə olur. Aşağı səviyyəli sənədlərin istifadə olunması işin konkret hallarından, sənədlərin səciyyəvi xüsusiyyətlərindən, sənədi buraxmış təşkilatın statusundan asılıdır.

Uçot prinsiplərinin məcburi və üstünlüyə malik prinsiplərə bölünməsi ABŞ-da uçot prinsiplərinin praktiki baxımdan tətbiqinin vacib xüsusiyyətidir. Artıq yuxarıda qeyd olunduğu kimi birinci səviyyəli sənədlər vasitəsilə müəyyən olunan prinsiplərə riayət olunması ABŞ-ın kompaniyaları üçün məcburidir. Üstünlüyə malik olan prinsiplərə gəldikdə isə onların vəziyyətlərindən yayınmaqla və rəsmi standartlar ilə nəzərdə tutulmayan müəyyən uçot yanaşmasının müəssisə tərəfindən tətbiq olunması ilə bağlı prinsipial imkan mövcuddur,bəzən isə əgər müəssisədə

rəsmi standartın tətbiq olunmaması üçün əhəmiyyətli əsaslar mövcuddursa, o zaman onlarla birbaşa ziddiyyət təşkil edən imkanlar mövcuddur.

Maliyyə isvestisiyalarının uçotunun ABŞ modeli

ABŞ-da mühasiblərin öz fəaliyyətlərinin məqsəd və tapşırıqlarını da anlamaları həddən artıq maraqlıdır. Amerika mühasibatı nəzəriyyəsində və praktikasında uçot prosesinin tərifinin ifadə olunmasına tarixən böyük diqqətin ayrılması faktı da diqqətdən kənarda qalmır. 1966-cı ildə Amerika mühasibat Assosiasiyası tərəfindən buraxılan uçot terminologiyasının Bülletenində məhz uçotun qismən də olsa maliyyə xarakteri daşıyan və bu prosesin nəticələrini interpretasiya edən təsərrüffat həyatının faktlarının pul vasitəsilə müəyyən şəkildə qeydiyyatı, təsnif olunması və yuvarlaqlaşdırılması kimi ifadə olunmasına baxmayaraq,adətən Amerika ədəbiyyatında bu tərifə böyük əhəmiyyət verilmir. Adətən, böyük vurğu mühasibat informasiyasının kvin-tessensiyası kimi maliyyə hesabatının üzərinə düşür. Uçotun düzgün qoyuluşu uçotun məqsədi olan nəticəyə (maliyyə hesabatına) gətirib çıxaran proses kimi nəzərdən keçirilir. Məhz proses deyil, nəticənin özü əsasdır. Belə ki, öz adına baxmayaraq, FASB tərəfindən buraxılan və Amerika ədəbiyyatında "uçot konstitusiyası" adlanan maliyyə uçotunun konsepsiyası haqqında altı müddəa uçot prosesinə deyil, məhz hesabatın məzmunu ilə bağlı məsələlərə həsr olunmuşdur. Hesabatlılıq nöqteyi-nəzərindən daha kafi nəticənin təmin olunması üçün tələb olunan diqqət uçot prosesinə ayrılır. Əsasən ənənəvi olaraq mühasibat uçotunun hazırkı nəzəriyyəsi ilə uçot prosesinə aid edilən iki əsas aspekt əsas Amerika standartları ilə tənzimlənir: İlk növbədə, bu təsərrüfat əməliyyatlarının və uçot obyektlərinin təsnifatı və onların bu və ya digər uçot kateqoriyasına aid edilməsi məsələləri olub, ikincisi isə bu,bu və ya digər uçot obyektlərinin qiymətləndirilməsi məsələsidir. Konkret uçot registrlərinin istifadə olunması və ya təsərrüffat əməliyyatlarının Amerika standartları ilə sənədləşdirilməsi məsələləri xüsusi olaraq nəzərdən keçirilmir. Mühasibat uçotu ilə bağlı hesablamaların qurulması məsələləri Amerika standartları vasitəsilə müəyyən olunmur və bu sahə mühasibat uçotunun istənilən hesablarını sərbəst şəkildə müəyyən edən müəssisələrə "satış" üçün verilmişdir və bu zaman onların istifadə olunması mühasibat uçotunun hamı tərəfindən ümumi şəkildə qəbul olunan prinsiplərə uyğun olan maliyyə mühasibat hesabatının tərtib olunması üçün zəruri olan informasiyanı almağa icazə verir.

Bütün bunlardan başqa, mühasibat hesabatı ABŞ - da şəxsi məqsəd kimi deyil, onun istifadəçiləri üçün informasiya mənbəyi kimi nəzərdən keçirilir. Mühasibat hesabatı dedikdə ilk növbədə, maliyyə hesabatı,yəni informasiyanın xarici istifadəçiləri üçün nəzərdə tutulan hesabat başa düşülür. Buna müvafiq olaraq təsərrüffat fəaliyyətinin gedişatında məhdud resursların tətbiq olunması ilə bağlı mövcud alternativ imkanların şüurlu şəkildə seçiminin həyata keçirilməsi üçün təsərrüfat və iqtisadi qərarların qəbul olunması zamanı faydalı olan informasiyanın təqdim olunması uçot prosesinin sonuncu məqsədidir (yəni, hesabatın tərtib olunması). İnvestisiya qoyuluşu, kredit qoyuluşu haqqında radikal qərarların və ya öz mahiyyətinə əsasən oxşar qərarların qəbul olunması zamanı mövcud və potensial investorlar və kreditorlar, eləcə də, digər istifadəçilər üçün faydalı olan informasiyanı maliyyə hesabatı təqdim etməlidir.

Yuxarıda göstərilən tərifdən göründüyü kimi əsas vurğu xarici investorların və ilk növbədə,investorların maraqlarının üzərinə düşür. Xarici istifadəçilərin üzərinə vurğunun düşməsi onunla izah edilir ki, xarici istifadəçilərdə onları maraqlandıran maliyyə informasiyasını müəssisələrdən tələb etmək imkanları mövcud deyildir və buna görə də, onlar müəssisənin müdiriyyətinin təqdim etdiyi informasiya ilə kifayətlənməyə məcburdurlar. Belə ki, dövlət orqanları, eləcə də, müəssisənin rəhbərliyi öz funksiyalarının effektiv şəkildə həyata keçirilməsi üçün zəruri olan maliyyə informasiyasını istənilən zaman müəssisədən ala bilər və tələb edə bilər. Amerika Birləşmiş Ştatlarında bu cür informasiyanın bilavasitə tənzimlənməsi özünü doğrultmur və artıq hesab olunur.

Ümumilikdə, Amerika Birləşmiş Ştatlarının normativ qaydada tənzimlənmə sistemini növbəti şəkildə xarakterizə etmək mümkündür:

- bu sistem əsaslı investisiya qərarlarının qəbul olunması üçün ilk növbədə investorlar və xarici istifadəçilər üçün zəruri olan informasiyanın hesabatında əks olunmağa yönəlmişdir;
- bu cür informasiyanın açıqlanmasının həcmi hüquqi mənbələrə istinad edir, lakin bu mənbələr bir çox hallarda təşəkkül tapmış təcrübənin qeydə alınmasını təmsil edir və əksər hallarda dəqiq tərifi olmayan anlayışları idarə edir;
- bir çox əməliyyatların uçotu metodikalarının qurulması prosesində ciddi “ideoloji” vertikalların yoxluğu əsas hüquq prinsiplərinə əsaslanan ABŞ hüquq sisteminin çevikliyi ilə kompensasiya olunur, lakin digər tərəfdən də bəzi mürəkkəb kateqoriyaların şərhində ciddi fərqlərin meydana çıxmasına səbəb olur;
- ingilis-saks hüququnun hüquqi texnikasının xüsusiyyətləri sayəsində standartları müəyyən edən orqanlar öz normativ sənədlərində sağlam şüur nöqteyi - nəzərindən anlaşılan natamam tərifləri istifadə edir və ya anlayışları nümunələr vasitəsilə izah edirlər.

Nəticədə ABŞ-ın mühasibat sistemi,bir tərəfdən,nisbi çeviklik ilə fərqlənir və bu da işgüzar həyatda bütün yeniliklərə operativ şəkildə reaksiya bildirməyə icazə verir və digər tərəfdən isə bəzi daha mürəkkəb və ya yeni kateqoriyaların birmənalı olmayan şərhi və həddən artıq dolaşıq olması ilə fərqlənir.

Maliyyə investisiyalarının dövlət tənzimlənməsi

Bizim ölkəmizdə mühasibat uçotunun tarixinin Birləşmiş Ştatlardan fərqli olaraq bir o qədərdə zəngin olmasına baxmayaraq,mühasibat uçotu uzun müddət planlı dövlət iqtisadiyyatının məcrasında inkişaf etmişdir və bu zaman görülən bütün işlər bazar təsərrüfatının tələblərinə uyğun olmamışdır. Əlbəttə, bu təbiidir, çünki, planlı iqtisadiyyatda qərarların qəbul olunmasının məntiqi bazar iqtisadiyyatından əhəmiyyətli dərəcədə fərqlənir və bir iqtisadi sistemə buraxılan digər iqtisadi sistemdə əksər hallarda qeyri - məqbul olur.

“Mühasibat uçotu”haqqında Qanunla təsbit olunmuş respublika mühasibat uçotunun tənzimlənməsinin yeni sistemi hal-hazırda tam formalaşmışdır, lakin bütün bunlara baxmayaraq, artıq onun dörd tərkib hissəsini ayırmaq mümkündür.

Tənzimlənmənin birinci səviyyəsini təşkilatda uçot işini birbaşa və ya dolayı yolla nizama salan qanunlar və digər qanunverici aktlar təşkil edir (məsələn, Azərbaycan Respublikası Mülki Məcəlləsi). Uçot praktikasında tətbiq olunan prinsipləri və əsas qaydaları qanunverici qaydada təsbit edən “Mühasibat uçotu” haqqında Respublika Qanunu sistemin bu səviyyəsində xüsusi yer tutur. Sənədlərin bu qrupuna respublikada mühasibat uçotunun və mühasibat hesabatının aparılması üzrə Əsasnaməni də şamil etmək mümkündür.Mühasibat uçotu üzrə əsasnamə (standartlar) ikinci səviyyəni təşkil edir. Müddəaların zəruriliyi mühasibat uçotunun prinsiplərinin və əsas qaydalarının tətbiqinin ümumiləşdirilməsindən və şərh olunmasından, uçotun ayrı-ayrı sahələrinə aid olan əsas anlayışların şərh olunmasından, fəaliyyətin müəyyən növünə qarşı tətbiq olunan konkret mexanizmin açıqlanması olmadan bu və ya digər mühasibat üsullarının tətbiqi metodlarının şərh olunması təşkil edir. Bu cür açıqlanma üçüncü səviyyənin sənədlərində mühasibat uçotunun aparılması üzrə metodik göstərişlərdə (təlimatlar, tövsiyələr və digərləri) həyata keçirilməlidir. Bu səviyyənin vacib sənədlərindən biri mühasibat uçotunun hesablar planı və onun tətbiqi üzrə təlimatdır.Tənzimlənmə sistemində sonuncu dördüncü səviyyəni metodik, texniki və təşkilati aspektlərdə təşkilatın uçot siyasətini formalaşdıran təşkilatın işçi sənədləri tutmalıdır. [1. s. 11]

Son bir neçə il ərzində Maliyyə Nazirliyi tərəfindən həqiqətən də, beynəlxalq standartların tələblərinə bir çox müddəaların yaxınlaşması və uçot prosesində çoxvariantlılığın tətbiq olunması hesabına normativ qaydada tənzimlənmənin liberallaşması ilə bağlı böyük iş görülmüşdür. Bu cür ziddiyyətlərin mövcudluğunu kifayət qədər uzun müddət ərzində proqnozlaşdırmaq mümkündür.

Məsələn, bir tərəfdən,hesabat məsələlərinin nizama salınması baxımından mühasibat uçotu üzrə sonuncu müddəalarda daha böyük hissənin, digər tərəfdən vahid proses kimi çıxış edən

mühasibat uçotunun metodoloji baxımdan əsaslandırılmasına ayrılan diqqətin uyğunsuzluğu bu cür ziddiyyətlərin təzahürlərindən biridir. Bu tendensiya uçotu məhz bütün təsərrüfat əməliyyatlarının fasiləsiz və sənədli qaydada uçotu yolu ilə təşkilatın öhdəlikləri və onun fəaliyyəti, əmlakın pul ilə ifadə olunması haqqında informasiyanın toplanması,qeydiyyatı və ümumiləşdirilməsi sistemi kimi təyin edən "Mühasibat uçotu haqqında" Qanunda əksini tapan və hal-hazırda mövcud olan mühasibat uçotunun qanuni tərifində ifadə olunmuşdur. İlkin nəticənin əldə olunmasına imkan verən üsullara düşən vurğu (yəni, informasiyanın toplanması, qeydiyyatı və ümumiləşdirilməsi) - yuxarıda göstərilən Amerika tərifində yoxluq təşkil etdiyi üçün, bizim fikrimizcə, həddən artıq əlamətdardır.

Bir çox hallarda mühasibat sisteminin tarixi ənənələrin girovu olduğunu etiraf etmək zəruridir. Onların bazar istisadiyyatının yeni tələbatlarına həddən artıq radikal şəkildə adaptasiya olunması mümkün hesab olunmur. Belə ki, məsələn, bəzi inkişaf etmiş ölkələrdə üstünlük təşkil edən uçotun və hesabatın rolu və yeri haqqında təsəvvürlərin çərçivələri daxilində "Mühasibat uçotu haqqında" Qanunda göstərilən və respublika mühasibat uçotu qarşısında dayanan tapşırıqların ifadə olunması bir qədər qəribə görünür, çünki bu sənədə müvafiq olaraq mühasibat uçot qarşısında növbəti tapşırıqlar dayanır:

- mühasibat hesabatının daxili istifadəçilərinə-rəhbərlərinə, təşkilatın əmlakının təsisçilərinə, iştirakçılarına və mülkiyyətçilərinə, eləcə də, xarici investorlara, kreditorlara və mühasibat hesabatının digər istifadəçilərinə zəruri olan təşkilatın fəaliyyəti və onun əmlak vəziyyəti haqqında tam və dəqiq informasiyanın formalaşması;
- təsərrüffat əməliyyatının və onun məqsədyönlülüyünün təşkilat tərəfindən həyata keçirilməsi zamanı respublika qanunvericiliyinin riayət olunmasına, əmlakın və öhdəliklərin mövcudluğuna və dövriyyəsinə, təsdiq olunmuş normalara, normativlərə və smetalara müvafiq olaraq maddi, əmək və maliyyə resurslarının istifadə olunmasına nəzarət üçün mühasibat hesabatının daxili və xarici istifadəçiləri üçün zəruri olan informasiya ilə təmin olunma;
- təşkilatın təsərrüfat fəaliyyətinin mənfi nəticələrinin qarşısının alınması və onun maliyyə sabitliyinin təmin olunmasının təsərrüfatdaxili ehtiyatlarının aşkar olunması.

İlk növbədə, informasiyanın daxili istifadəçiləri ümumiyyətlə istehlakçı informasiyasının məqsədli qrupu kimi göstərilməyən dövlətlərdən fərqli olaraq respublikamızda bu qrupun maraqlarının birinci yerə qoyulması faktı nəzərə çarpır. Bütün bunlardan başqa, məhz informasiyanın istifadəçilərinin hansı tələbatlarının mühasibat hesabatını təmin etmələri göstərilməmişdir. Şübhəsiz olaraq, xarici və daxili istifadəçilərin maraqları bir çox hallarda müxtəlif istiqamətlidir. Həmçinin, xarici istifadəçilərdə maraqların müxtəlif olması şübhəsizdir: belə ki, məsələn, dövlət orqanlarının maraqları və investorların maraqları bir çox hallarda uyğunluq təşkil etmir. Bütün bunlardan başqa, "Mühasibat uçotu haqqında" Qanunun müddəalarının effektiv şəkildə yerinə yetirilməsini və maliyyə informasiyasının bütün istifadəçilərinin maraqlarının müdafiə olunmasını təmin edən sistemin təcrübədə mövcud olmaması ilə əlaqədar olaraq vergi orqanlarının və statistika orqanlarının şəxsində dövlət mühasibat hesabatının yeganə real istehlakçısıdır. Buna müvafiq olaraq "Mühasibat uçotu haqqında"Qanunda istifadəçilərin daha geniş auditoriyasının informasiya ilə təmin olunması bəyan edilir, gerçəklikdə isə tənzimləyici orqanların maraqları üstünlük təşkil edir. [7. s. 98]

Başqa sözlə desək, ümumilikdə,mühasibat uçotunun normativ qaydada tənzimlənməsinin respublika sistemi növbəti şəkildə xarakterizə oluna bilər:

- əsas elementlərin və tərifllərin normativ qaydada təsbit olunmasına əsaslanan və sərt tabeçi struktura malik olan sistem;
- respublika mühasibat uçotunda böyük diqqət uçot prosesinin özünə ayrılır və əgər Birləşmiş Amerika Ştatlarında maliyyə hesabatının tutduğu yerlə müqayisə etsək, o zaman hesabatın tərtib olunması prosesinə isə daha çox yer ayrılır;

- hal-hazırda təcrübədə mühasibat hesabatının əsas istehlakçısı valyuta və statistika orqanlarının şəxsində dövlətdir, hərçənd ki, son zamanlar hesabatın rolunun artırılması və onun investorların ehtiyaclarına yönləndirilməsi ilə bağlı müəyyən səylər göstərilir;
- mühasibat uçotunun normativ qaydada tənzimlənməsi sisteminin islahatlar mərhələsində olmasını nəzərə alaraq o, əhəmiyyətli daxili ziddiyyətlər və uyğunsuzluq ilə fərqlənir və bu da mühasibat informasiyasının effektiv şəkildə formalaşmasını və onun istifadə olunmasını mürəkkəbləşdirir;
- mühasibat sisteminin qeyri-kafi çevikliyi ona gətirib çıxarır ki, o işgüzar dövriyyənin bir çox yeni gerçəkliyinə qarşı operativ şəkildə reaksiya verə bilmir.

Respublikada və ABŞ-da mühasibat sisteminin yuxarıda aşkar olunmuş xüsusiyyətləri bu ölkələrdə maliyyə investisiyalarının uçotu metodologiyasının qurulmasının əsasını təşkil edən əsas prinsipləri əhəmiyyətli dərəcədə təyin edir.

ABŞ uçotunda hal-hazırda uçot standartı tərəfindən istifadə olunan "borc və pay qiymətli kağızlarına və səhmlərinə qoyulan investisiyalar" termini məhz maliyyə investisiyalarını nəzərdən keçirən, onun tətbiq olunmasına qədər müvafiq uçot standartı tərəfindən nəzərdən keçirilən əsas kateqoriya kimi tanınır.

Burada nəzərə almaq lazımdır ki, ümumi hüquq ölkələrində qiymətli kağızların hüquqi statusu (yuxarıda qeyd olunan kimi ABŞ-ın olduğu) kontinental hüquq ölkələrində qiymətli kağızların hüquqi statusundan müəyyən qədər fərqlənir.

Bir çox hallarda bu, Birləşmiş Ştatların hüquqi sisteminin xarakteri ilə izah olunur və bunun sayəsində məhkəmə sistemi hüquq normalarının müəyyən olunmasında əhəmiyyətli rol oynayır (artıq yuxarıda qeyd olunduğu kimi əsasən hüquq müəyyən edən deyil, hüquq tətbiqi funksiyasının təsbit olunduğu respublika hüquq sistemindən fərqli olaraq). Buna müvafiq olaraq bu və ya digər sənədin və ya "qiymətli kağızlar" ilə hüquqların toplumunun Amerika qanunvericiliyinin məqsədləri üçün müəyyən olunması məhkəmələr tərəfindən nəzərdən keçirilir. Qiymətli kağızlar və birja əməliyyatları üzrə Komissiya həmçinin bu məsələ ilə bağlı verdikt çıxarmaq hüququna malikdir. [6, s. 125]

Nəticə

"Qiymətli kağızlar haqqında" Qanunda əksini tapan qiymətli kağızların tərifi hamıya məlum olan tərifl ərdən biridir. Bu qanuna müvafiq olaraq "qiymətli kağız" termini istənilən səhm, istiqraz vərəqi, borc öhdəliyi, borc haqqında şəhadətnamə, əmanət və ya gəlirin paylanması haqqında razılaşmada iştirak haqqında şəhadətnamə, pay fonduna qoyulan əmanət haqqında sertifikat, səhmə dair yazılış haqqında şəhadətnamə,investisiya müqaviləsi, pay fondunda səs hüququ haqqında şəhadətnamə,səhmlərin ödənilməsinə əmanətin qoyulması haqqında sertifikat, istənilən qiymətli kağıza qarşı münasibətdə neft, qaz və ya digər faydalı qazıntılara, istənilən opsion hüququna pay əmanəti (alqı-satqıya dair), milli və ya ümumi fond birjası ilə əldə olunmuş xarici valyutaya qarşı münasibətdə ikiqat opsion və ya əmlak hüququ (alqı-satqıya dair), istənilən əmanət və ya "qiymətli kağız" kimi hamıya məlum olan sənəd və ya kapitalda iştirakın və ya əmanətin istənilən şəhadətnaməsi, müvəqqəti və ya aralıq vəsiqə, qəbz və ya zəmanət və ya yuxarıda şərh olunan istənilən birinə qarşı münasibətdə əldə olunma və ya abunə hüququ deməkdir. [2, s. 23]

Belə nəticəyə gəlmək olar ki, bu tərif qiymətli kağızın konseptual tərifini verməsinə baxmayaraq, o, praktiki olaraq işgüzar dövriyyədə istifadə olunan praktiki olaraq istənilən maliyyə vasitəsini əhatə edir. Zəruri hallarda bu və ya digər konkret vasitənin qiymətli kağızlar kateqoriyasına aid edilməsi qiymətli kağızlar və birja əməliyyatları üzrə komissiyanın qərarı ilə və ya məhkəmə tərəfindən həyata keçirilə bilər.

ƏDƏBİYYAT

1. "Xarici investisiyaların qorunması haqqında"Azərbaycan Respublikası Qanunu. Bakı,1992.
2. "İnvestisiya fondları haqqında"Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
3. Namazova C.B."İnvestisiyalar". Dərslik. Bakı, 2014.
4. Şirəliyev V.M.İnvestisyanın təhlili və idarə edilməsi. Bakı, 2001.
5. Четиркин Е.М.Финансовый анализ производсьвенных инвестиций: Учебник М,: Делл, 2012
6. Черкасов В.Е., Международные инвестиций. М.: Дело, 2001.
7. Лившиц В.Н., Виленский П.А., Смоляк С.А. Теория и практика оценки Инвестиционных проектов в условиях переходной экономики. М,: Дело 2000.

Саиды Фейзулла кызы Рустамзаде
докторант Азербайджанского Университета Кооперации

Инвестиции в финансовые активы общие вопросы классификации бухгалтерского учета

Резюме

Определение ценных бумаг, отраженное в Законе о ценных бумагах, является одним из определений, известных всем. В соответствии с этим законом термин «капитал» включает в себя любой сертификат об участии в соглашении о распределении любых акций, облигаций, долговых обязательств, долгов, сбережений или сертификатов о доходе, депозитном сертификате о долевом фонде, инвестиционный договор, свидетельство о праве голоса в паевом фонде, свидетельство о залоге акций, нефти, газа или других полезных ископаемых, любой вариант акции, сбережения (покупка), национальные или обыкновенные акции двойной вариант или право собственности (покупка и продажа), любой документ, который, как известно, является сберегательной или «ценной бумагой» в отношении иностранной валюты, приобретенной Биржей, или любой сертификат об участии или депозите, временный или временный, означает право на получение или подписку на любой промежуточный сертификат, получение или гарантию или отношение к любому из вышеперечисленных. (Ссылка: пункт 23)

Можно сделать вывод, что, хотя это определение дает концептуальное определение ценных бумаг, оно практически включает практический финансовый инструмент, который практически используется в бизнес-цикле. В случае необходимости конкретное транспортное средство может быть классифицировано как ценные бумаги по решению Комиссии по операциям с ценными бумагами и биржами или по суду.

Ключевые слова: финансовые инвестиции, стандарты бухгалтерского учета, бухгалтерский учет принципы, международные стандарты.

Saida Feyzullah's Rustamzade
doctorate of Azerbaijan University of Cooperatives

Investments in financial assets general issues of accounting classification

Summary

The definition of securities reflected in the Securities Act is one of the definitions known to all. According to this law, the term "capital" shall include any certificate of participation in the agreement on distribution of any share, bonds, debt, debt, savings or income sharing certificates, certificate of deposit on share fund, investment agreement, certificate of voting rights in share

fund, certificate on pledging of shares, oil, gas or other mineral resources, any share option, savings (purchase), national or common stock a double option or property right (purchase and sale), any document known to be a savings or "securities" in relation to a foreign currency acquired by the Exchange, or any certificate of participation or deposit, temporary or temporary, means the right to obtain or subscribe to any intermediary certificate, receipt or guarantee, or relationship to any one of the foregoing. (Ref: Para. 23)

It can be concluded that although this definition gives the conceptual definition of securities, it practically involves a practical financial instrument that is practically used in the business cycle. If necessary, a particular vehicle can be classified as securities by the decision of the Commission on Securities and Exchange Operations or by the Court.

Key words: financial investment, accounting standards, accounting principles, international standards.

Samir Sarış oğlu ZEYNALOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

YÜNGÜL SƏNAYEDƏ MALİYYƏ SİYASƏTİNİN MAHİYYƏTİ VƏ MƏZMUNU: NƏZƏRİ DƏYƏRLƏNDİRMƏLƏR

Xülasə

Məqalədə yüngül sənayedə maliyyə siyasətinin mahiyyəti və məzmunu araşdırılmasıdır. Məqalə tədqiqatı aparılanda müqayisəli və analitik təhlil, sistemli yanaşma və qruplaşdırma üsullardan istifadə edilmişdir. Burada yüngül sənayedə maliyyə siyasətinin mahiyyəti və məzmunu ilə əlaqədar nəzəri məsələlər tədqiq olunub və onun əsasında yüngül sənaye müəssisələrin maliyyə siyasətinin növləri, maliyyə dayanıqlılığının üçbucaq üsulu qiymətləndirilməsi və s. məsələlər tədqiq olunmuşdur.

Açar sözlər: yüngül sənaye, maliyyələşdirmə, investisiya, maliyyə siyasəti, aktiv, dividend.

Giriş

Yüngül sənayenin mürəkkəb strukturu vardır və tərkibinə bir neçə istehsal qrupu daxildir: toxuculuq, tikiş, gön-dəri məmulatlarının işlənilməsi. Bütünlükdə isə yüngül sənayeyə 14 sahə daxildir, indiki dövrdə yüngül sənaye sektorunda fəaliyyət göstərən müəssisələrin əksəriyyəti kiçik müəssisələrdir. Bütünlükdə 14 sahəni əhatə edən yüngül sənaye müəssisələrini üç fərqli istehsal istiqaməti üzrə qruplaşdırmaq olar:

1) xam mal istehsalı: pambığın və xam pambığın istehsalı, gön-dəri və s. işlənilməsi;
2) yarım məhsulların istehsalı: əyirici, toxuculuq, boyaq, dəri və xəz materiallarının istehsalı;
3) son məhsulun istehsalı: tikiş, trikotaj, xalça və s.

Məsələnin digər mühüm tərəfi ondan ibarətdir ki, yüngül sənayenin çox böyük sosial əhəmiyyəti vardır, çünki bu sənaye sahəsində insanların fərdi və şəxsi istehlak tələblərinin təmin olunması üçün müxtəlif məhsullar istehsal olunur. Lakin müasir dövrdə yüngül sənaye sahəsinin respublikada inkişaf etdirilməsinə əngəl yaradan ciddi problemlər vardır. Bunlar aşağıdakılardır:

- yüngül sənaye müəssisələrinin xam mal təchizatı;
- müəssisələrin fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlıqlarının yenilənmnəsi;
- ölkənin yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi;
- hazır məhsul və xam mal idxalından asılılığın aradan qaldırılması;
- faktiki olaraq hiss olunmayan ixrac fəallığının canlandırılması;
- daha sivil və müasir ticarət formalarının sahəyə tətbiqi;
- bütün bu istiqamətlər üzrə həyata keçirilən tədbirlərin sahəyə dövlət dəstəyi ilə uzlaşdırılması.

Lakin qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilən istiqamətlər üzrə müvafiq tədbirlərin həyata keçirilməsi üçün yenə də maliyyə vəsaitləri tələb olunur. Sözügedən maliyyə vəsaitləri sahənin texniki və texnoloji cəhətdən yenilənməsindən başlayaraq bütün digər istiqamətlər üzrə də tələb olunur.

Yüngül sənayedə maliyyə siyasətinin məzmun və mahiyyəti

Hər şeydən öncə maliyyə siyasətinin məzmunu və mahiyyəti ilə əlaqədar bəzi nüanslara diqqət yetirilməsi zərurəti hiss olunur

Nəzərə almaq lazımdır ki, maliyyə siyasətinin mahiyyəti ilə bağlı iqtisadi və hüquqi ədəbiyyatlarda bir çox müəlliflər öz dəyərləndirmələri ilə çıxış etmişlər və bu anlayışın təməl məzmunu ilə əlaqədar iqtisadi ədəbiyyatlardakı səslənən fikirlərdə əsas istiqamətlər qismində aşağıdakılar diqqəti cəlb edir:

- maliyyə siyasəti - maliyyə resurslarının səfərbər olunması və rasional istifadə edilməsi ilə bağlı olan dövlətin qanunverici-təşkilati-iqtisadi tədbirlərinin məcmusudur [1, s. 30 2, s. 39 3, s. 95];

- **maliyyə siyasəti-**dövlətin maliyyə sferasında hüquqi qərarlarının məcmusudur [2, s. 110];

- **maliyyə siyasəti-** ictimai maliyyə resurslarının formalaşması, istifadəsi və idarə olunmasının elmi əsaslandırılmış konsepsiyasıdır [4, s. 65] və s.

Buradan bir vacib gerçəklik xüsusi olaraq diqqəti cəlb edir ki, sözügedən anlayışa hər hansı bir baxış bucağından yanaşılmasına baxmayaraq söhbət maliyyə resursları və maliyyə münasibətləri ilə bağlı həyata keçirilən siyasətdənn gedir. Maliyyə siyasəti dövlət, regional, lokal və müəssisələr səviyyəsində həyata keçirilir.

Dövlətin maliyyə münasibətləri çərçivəsində öz funksiyalarını yerinə yetirməsi üçün həyata keçirdiyi tədbirlər onun maliyyə siyasətinin məzmun və mahiyyətini müəyyənləşdirir. Bu səbəbdən də maliyyə siyasətinin, o, cümlədən yüngül sənayedə həyata keçirilən maliyyə siyasətinin mürəkkəb məzmunu vardır, tərkibinə geniş tədbirlər kompleksi daxildir və həmin tədbirlər kompleksi aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- maliyyə resurslarının cari və perspektiv dövrlərdə hansı istiqamətlər üzrə istifadə edilməsinin müəyyənləşdirilməsi;

- maliyyə imkanlarının artırılması və inkişafının elmi əsaslandırılmış konsepsiyasının hazırlanması;

- qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün praktiki tədbirlərin həyata keçirilməsi.



Şəkil 1. Dövlətin maliyyə siyasətinin məzmunu

Mənbə: [5, s. 180].

Nəzəri dəyərləndirmələri bir qədər də konkretləşdirərək qeyd etmək lazımdır ki, yüngül sənayedə həyata keçirilən maliyyə siyasətinin məzmununa Maliyyə resurslarının cari və perspektiv dövrlərdə hansı istiqamətlər üzrə istifadə edilməsinin müəyyənləşdirilməsi, sahənin maliyyə imkanlarının artırılması və inkişafının elmi əsaslandırılmış strategiyanın işlənilib hazırlanması və bütün məqsədlərə nail olmaq üçün praktiki tədbirlərin həyata keçirilməsi daxildir.

Bütün bunlara nail olmaq üçün isə hər şeydən öncə maliyyə siyasətinin ümumi müddəaları işlənilib hazırlanmalı, onun əsas istiqamətləri, məqsədləri, başlıca vəzifələri düzgün təsbit olunmalı, adekvat maliyyə mexanizmləri yaradılmalı, sahə müəssisələri və sahəyə daxil olan digər iqtisadi subyektlərin maliyyə fəaliyyəti məqsədəuyğun şəkildə idarə olunmalıdır.

Nəzərə almaq lazımdır ki, maliyyə siyasətinin əsasını strateji istiqamət təşkil edir, burada söhbət uzunmüddətli və ortamüddətli perspektivdə maliyyə resurslarından məqsədəuyğun şəkildə istifadə olunmasından gedir.

Yüngül sənaye müəssisələrinin inkişafının maliyyə dayanıqlılığının monitorinqi

Müəssisələrin, o cümlədən yüngül sənaye müəssisələrin maliyyə dayanıqlılığının təmin olunmasına bir sıra halqalar daxildir və onlar içərisində monitorinq xüsusi yer tutur. Müəssisələrin maliyyə dayanıqlılığının monitorinqini "üç bucaq" üsulundan istifadə etməklə təşkil etmək olar. Onun qurulması müəssisə resurslarının hərəkətinə sistemli yanaşmaya və həmçinin "qızıl iqtisadi adaya" əsasən qurulur":

Mənfəətin artım tempi > hasilatın artım tempi> aktivlərin artım tempi> 100%

Bu modelin hazırlanmasına konseptual yanaşma daxil edilmişdir və həmin yanaşmada **"məsrəflər-reallaşdırma-mənfəət"** formulunda maliyyə dayanıqlılıq faktorları arasında səbəb nəticə əlaqəsi öz əksini tapır və burada göstəricilərin monitorinqin gedişi zamanı göstəricilərin ümumi sistemə tabeçiliyi əhəmiyyət kəsb edir, müasir şəraitdə optimal göstəricilər baza göstəriciləri ilə müqayisə edilir. Sxematik olaraq bu yanaşmanı aşağıdakı sxem üzrə təqdim etmək olar:



Şəkil 2. Üçbucaq üsulu ilə monitorinq üsulu

Mənbə: müəllif tərəfindən tərtib olunub.

Şəkildən də göründüyü kimi maliyyə dayanıqlılığının üçbucaq üsulu ilə monitorinq üsulu mütləq göstəricilər (öz kapital, aktivlərin məbləği, hasilat, mənfəət) və həmçinin bir biri ilə qarşılıqlı əlaqə və nisbətlərdə olan göstəricilərin dinamikada dəyişməsi üzərində qurula bilər:

- xalis kapital və öz kapitalın rentabelliyi;
- aktivlər, öz kapital-maliyyə rıçaq;
- xalis kapital, hasilat-satışların rentabelliyi.

Üçbucağın mərkəzində öz kapital yerləşdirilmişdir. Bütün bunlar isə onunla izah edilir ki, indiki dövrdə mənfəətin əldə edilməsi deyil, kapitalın toplanması, müəssisələrin maliyyə dayanıqlılığının yüksəldilməsi məsələsi aktual məsələdir [6,s 55].

Nəticə

Maliyyə siyasətinin müxtəlif nəzəri şərhlərinə baxmayaraq, birmənalı qeyd etmək olar ki, sözügedən siyasəti dövlət, sahə və müəssisələr səviyyəsində nəzərdən keçirmək lazımdır. Maliyyə siyasətinin dövlət səviyyəsində əsas istiqamətləri valyuta, qiymət, pul-kredit, gömrük, büdcə, sosial, vergi, investisiya, xarici ticarətdir. Konkret olaraq sahə və müəssisələr səviyyəsində həyata keçirilən maliyyə siyasətinin mahiyyət və məzmunu ilə əlaqədar onu qeyd etmək olar ki, müəssisələrin maliyyə siyasəti - məqsədyönlü şəkildə maliyyələşdirmə tədbirlərinin məcmusudur, müəssisələrin qarşıya qoyduqları məqsədlərə nail olunmasının maliyyə təminatının təşkili və maliyyədən istifadə olunması ilə bağlı həyata keçirilən siyasətdir.

Nəzəri baxımdan müəssisələrin maliyyə siyasətini iki aspektdən nəzərdən keçirmək olar: fəaliyyət istiqamətinə və zamana və qarşıya qoyulmuş məqsədlərə görə. Eyni zamanda müəssi-

sələrin maliyyə siyasətlərinin əsas elementləri aktivlərin idarə olunması; kapitalın idarə olunması; investisiyalar; dividend; gəlirlərin, xərclərin və mənfəətin idarə olunması; dövriyyə kapitalının idarə olunması; qiymət; müəssisələrin vergi siyasəti və s. göstərilə bilər.

ƏDƏBİYYAT

1. Бахрин П. И., Нешитой А. С. Финансы. Учебник. М. 2003.
2. Ковалев В.В. Курс финансового менеджмента: учебник - 3-е изд. - Москва: Проспект, 2014. - 504с.
3. Лукасевич И.Я. Финансовый менеджмент - М.: Эксмо, 2008.- 768с.
4. Мардаровская Ю.В. Долгосрочная и краткосрочная финансовая политика предприятия. Учебное пособие. М.: ООО «Элит», 2007. С. 272.
5. Мансуров А.Х, «Значения финансовой политики государства в развитии экономики и социальной сферы государства», Ташкент, 2016.

Самир Сарыш оглы Зейналов
докторант Азербайджанского Университета Кооперации

Содержание и содержание финансовой политики в легкой промышленности: теоретические рассуждении

Резюме

В статье исследование суть и содержание понятие финансовая политика в легкой промышленности. В процессе написания статьи промышленности. сравнительный и аналитический анализ, системный подход и метод группировок. Здесь проанализированы и изучены такие теоретические вопросы финансовой политики в легкой промышленности как виды финансовой политики, оценка финансовой устойчивости на основе метода треугольника и т.д.

Ключевые слова: легкая промышленность, финансирования, инвестиции, финансовая политика, активы, дивиденд.

Samir Sarish Zeynalov
doctoral candidate of
Azerbaijan Cooperation University

Contents and essence financial politicians in light industry: theoretical discourse

Summary

In article a research an essence and contents a concept financial policy in light industry. In the course of writing of article of the industry. comparative and analytical analysis, system approach and method of groups. Here such theoretical questions of financial policy in light industry as types of financial policy, assessment of financial stability on the basis of a triangle method, etc. are analysed and studied.

Key words: light industry, financings, investments, financial policy, assets, dividend.

UOT 368.03: 368.1

Kamal Mirsahib oğlu İBRAHİMOV
Azərbaycan Dövlət İqtisad Universitetinin
dissertantı, iqtisad üzrə fəlsəfə doktoru

SIĞORTA ŞİRKƏTLƏRİNDƏ SIĞORTA PORTFELİNİN OPTİMALLAŞDIRILMASI PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

Xülasə

Məqalədə sığorta şirkətlərində sığorta portfelinin optimallaşdırılması problemləri və həlli yolları tədqiq olunmuşdur. Bu məqsədlə sığorta portfelinin formalaşdırılması və icra edilməsi prosesləri təhlil edilmişdir. Sığorta portfelinin əsas funksiyaları və vəzifələri müəyyənləşdirilmişdir. Qlobal iqtisadi çağırışlar şəraitində sığorta portfelinin diverisifikasiyalaşdırılması problemlərinə baxılmışdır. Sığorta şirkətinin maliyyə sabitliyi kontekstində sığorta portfelinin optimallaşdırılmasının vacibliyi əsaslandırılmışdır. Sığorta portfelinin antiböhran şəraitində təkmilləşdirilməsi problemlərinin həlli yolları üzrə araşdırmalar aparılmışdır. Sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsinin vacibliyi bildirilmişdir. Sığorta portfelinin müxtəlif əlamətlərə və xüsusiyyətlərə görə növlərinə baxılmış və onların dayanıqlılıq səviyyələri qiymətləndirilmişdir. Müasir dövrdə sığorta şirkətlərində sığorta portfelinin optimallaşdırılması problemlərinin həlli yolları üzrə tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür.

Açar sözlər: sığorta sistemi, sığorta şirkətləri, sığorta portfeli, sığorta şirkətlərinin maliyyə sabitliyi, sığorta portfelinin optimallaşdırılması, sığorta portfelinin dayanıqlılığı, sığorta portfelinin diversifikasiyalaşdırılması.

Giriş

Qlobal tendensiyaların gücləndiyi bir şəraitdə qlobal maliyyə bazarlarının yeni mexanizmlərinin yaradılmasına ciddi ehtiyacın və tələbatın formalaşdırıldığı bir dövrdə sığorta şirkətlərində mövcud reallıqlardan çıxış etməklə sığorta portfelinin optimallaşdırılması problemləri kifayət qədər aktuallığı ilə diqqət çəkir. Sığorta portfelinin səmərəliliyinin təhlil edilməsi və qiymətləndirilməsi üçün sığorta şirkətinin fəaliyyəti ilə bağlı strateji fəaliyyət istiqamətləri kompleks və sistemli şəkildə baxılmalıdır. Bunlarla əlaqədər olaraq sığorta şirkətinin sığorta portfelinin strukturu araşdırılmalı, onun diversifikasiyalaşdırılması səviyyəsi qiymətləndirilməli, sığorta xidmətlərinin sığorta bazarlarındakı tələb və təklifə adekvatlığı müəyyənləşdirilməli, sığorta portfelinin risklərinin idarə olunması diqqət mərkəzində saxlanılmalıdır.

Sığorta portfelinin səmərəliliyinin əsaslandırılması

Qeyd edək ki, sığorta portfelinin səmərəliliyinin təmin olunması və onun qlobal iqtisadi çağırışlara adekvat şəkildə təkmilləşdirilməsi problemləri əksər sığorta şirkətləri üçün xarakterik olan qlobal problemlərdən hesab olunur. Sığorta təşkilatının və sığorta şirkətinin səmərəli fəaliyyətində önəmli yer tutan sığorta portfelinin əsas funksiyaları və vəzifələri şəkil 1-də verilmişdir.

Aşağıdakı şəkil 1-dən göründüyü kimi sığorta şirkətinin sığorta portfelinin əsas funksiyaları və vəzifələri sırasında, ilk növbədə mühüm sığorta xidmətlərinin seçilməsi və optimallaşdırılması, sığorta portfelinin diversifikasiyalaşdırılması, sığorta portfelinə daxil olan xidmətlərin maya dəyərinin təhlil edilməsi və onların aşağı salınması üçün əlavə tədbirlərin görülməsi, sığorta xidmətləri üzrə keyfiyyət göstəricilərinə xüsusi diqqətin yetirilməsi, risklərin idarə olunması ilə bağlı sistemli tədbirlərin görülməsi və onların idarə olunmasının təmin edilməsi, sığorta portfelinin rəqabət qabiliyyətinin gücləndirilməsi tədbirlərinin reallaşdırılması, sığorta portfelinin strtaeji idarə olunması mexanizminin tətbiq edilməsi və s. daha çox diqqət çəkir.



Şəkil 1. Sığorta şirkətinin sığorta portfelinin əsas funksiyaları və vəzifələrinin təxmini sxemi (müəllif tərəfindən hazırlanmışdır).

Sığorta şirkətinin sığorta portfelinin təkmilləşdirilməsi və etibarlılığının yüksəldilməsi üçün sığorta kompaniyasının mühüm fəaliyyət istiqamətləri üzrə və sığorta portfelinin strateji funksiyalarının reallaşdırılması tədbirləri istiqamətində geniş təhlillərin aparılması, mövcud ehtiyatların və potensialın üzə çıxarılması, strateji fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsi, xüsusilə risklərlə bağlı problemlərin araşdırılması və onların azaldılması üzrə əsaslı tədbirlərin görülməsi vacib şərtlərdəndir. Sığorta portfelinin təhlili zamanı ilk növbədə sığorta təşkilatının maliyyə resurslarının və xüsusi kapitalın məcmu şəkildə adekvatlığı müəyyənləşdirilməli və qiymətləndirilməlidir. Bundan əlavə, sığorta portfelini formalaşdıran maliyyə mənbələrinin və sığorta haqları mənbələrinin diversifikasiyalaşdırılması imkanları və perspektivləri kompleks şəkildə baxılmalı və proqnozlaşdırılmalıdır. Sığorta ödənişlərinin vaxtında və tam şəkildə ödənilməsi prinsiplərinə əməl edilməsi üçün sığorta şirkətinin maliyyə dayanıqlılığı və maliyyə sabitliyi indikatorlarının səviyyəsi təftiş edilməli və qiymətləndirilməlidir. Eyni zamanda, sığorta şirkətinin xərcləri üzrə təhlillər və qiymətləndirmələr aparılmalı, əldə edilən gəlirin səmərəli istifadə edilməsi mexanizmləri müəyyənləşdirilməli və onların icra prosesləri yoxlanılmalı, sığorta edənlərlə vergi orqanlarının münasibətləri öyrənilməli, ümumilikdə sığorta bazarları iştirakçılarının davranışları və iştirakçılar arasındakı mövcud münasibətlərin təhlil edilərək bunlara uyğun yeni mexanzimlərin və praktiki alətlərin müəyyənləşdirilməsi təmin edilməlidir. N.M.Yaşina belə hesab edir ki, sığorta portfelinin strukturunun adekvatlıq səviyyəsinə baxılan zaman bir sıra amillərə, xüsusilə sahə xüsusiyyətinə, vergilərdən azad olunması məsələlərinə,

sığorta formalarına, müqavilələrin qısamüddətli və ya uzunmüddətli olmasına, tarif siyasətinə, yenidən sığorta edilmə sisteminə, sığorta fondlarına və sığorta ehtiyatlarının yaradılması məsələlərinə xüsusi önəm verilməldir [1]. Sığorta portfelinin formalaşdırılması zamanı risklərin səviyyəsinə və sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi məsələlərinə daha diqqət yetirilməlidir. Sığorta portfeli çevik və dinamik olmalı, iqtisadi inkişaf proseslərinin sürətləndirilməsini stimullaşdırmalı, iqtisadi fəaliyyət və maliyyə, sığorta bazarları iştirakçılarının maraqlarının qorunmasını təmin etməklə bərabər, sığorta şirkətinin gəlirlilik prinsipi əsasında fəaliyyətini təmin etməyə adekvat olmalıdır. Sığorta portfelində yer almış müqavilələrin əksəriyyətinin uzunmüddətli dövr üçün razılaşdırılması və bağlanılması arzuedilən hal kimi qiymətləndirilir və bu vəziyyət sığorta şirkətinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün vacibdir. Sığorta portfelləri quruluşuna və strateji fəaliyyət məqsədlərinə görə bir qrup növləri ilə fərqlənir. Məsələn, nisbətən radikal sığorta portfeli riskli olması, eyni zamanda gəlirlilik səviyyəsinin yüksəkliyi ilə fərqlənir, amma bu istiqamətdə fəaliyyət göstərən sığorta şirkətlərinin maliyyə sabitliyi digərlərinə nisbətdə aşağı olur. Digər bir sığorta portfeli növü kimi konservativ sığorta portfeli diqqət çəkir və bu tip sığorta portfellərinin əlamətləri risklərin nisbətən az olması, gəlirlərin isə az olmasına baxmayaraq, sığorta şirkətinin maliyyə sabitliyinin və maliyyə dayanıqlılığının yüksək olmasıdır. Başqa bir sığorta portfeli növü kimi diversifikasiyalaşdırılmış sığorta portfelini misal göstərmək mümkündür. Bu kimi sığorta portfelinin əsas göstəriciləri risklərin və gəlirlərin, həmçinin maliyyə dayanıqlılığının orta səviyyədə olması ilə bağlıdır. Balanslaşdırılmış sığorta portfeli isə digər sığorta portfellərindən əhəmiyyətli səviyyədə fərqlənir və bu tip sığorta portfelləri səmərəli diversifikasiyalaşdırılmış model kimi qəbul olunur. Bu sığorta portfellərinin maliyyə dayanıqlılığı kifayət qədər yüksəkdir, risklər isə idarə olunan səviyyədədir, gəlirlər az olsa da ödənişlər yüksək səviyyədə və ciddi intizam rejimində həyata keçirilir, sığorta xidmətlərinin tarifi isə yüksək deyildir. Adətən bu tip sığorta portfelinə malik olan sığorta təşkilatlarının və sığorta şirkətlərinin müştəri coğrafiyası digərlərinə nisbətdə daha geniş olur və onlar xidmətin həcmini artırmaqla sabit və uzunmüddətli dövr üçün uğurlu fəaliyyət göstərməyə nail olurlar. Balanslaşdırılmamış sığorta portfeli isə maliyyə dayanıqlılığı baxımından zəif olması ilə fərqlənir və risklərin səviyyəsi bu halda yüksəkdir, gəlirlər isə çoxdur və sığorta haqlarının ən azından 45%-ni təşkil edir, amma bu tip sığorta portfeli ancaq qısa müddətli sığorta əməliyyatında istifadə olunur. Daha bir sığorta portfeli modelini N.M.Yaşin irəli sürmüşdür və bu modelin əsasında "İdeal sığorta portfeli" mexanizmləri yer almışdır, belə ki, bu sığorta portfeli üzrə tariflər kifayət qədər aşağıdır - 2,5%-dən 13%-dir, amma gəlirlər sabitdir və 17,5%-dək təşkil edir, risklər isə orta səviyyədədir, ən əsası isə sığorta ödənişləri üzrə səviyyə ümumi sığorta haqlarının 85%-ni təşkil edir [2].

Qeyd edək ki, sığorta portfeli özündə sığorta risklərinin, başqa sözlə, sığorta xidmətlərinin göstərilməsi üzrə müqavilələrdən yaranan risklərin məcmusunu əks etdirir. Sığorta portfelinin optimallaşdırılması problemlərinin həlli məqsədilə, ilk növbədə sığorta portfelinin mahiyyəti və onun funksiyalarının xüsusiyyətləri açıqlanmalı, bunlarla bağlı məsələlər sistemli şəkildə öyrənilməlidir. Daha sonra sığorta portfelinə daxil olan xidmətlərin və elementlərin təsnifatlaşdırılması və sığorta portfelinin ümumilikdə diversifikasiyalaşdırılması problemlərinə baxılmalıdır. Bundan əlavə, sığorta portfeli müxtəlif xidmət növləri üzrə mobil və balanslaşdırılmış sığorta siyasətinin həyata keçirilməsinə diqqət artırılmalıdır, bunlarla bağlı maliyyə amilləri nəzərə alınmalıdır. Ölkənin sığorta sisteminin daha uğurlu fəaliyyət göstərməsi və sığorta şirkətlərinin sığorta portfellərinin optimallığının təmin eilməsi kompleks şəkildə öyrənilməli və mövcud problemlər üzrə strateji qərarlar qəbul edilməlidir. Sığorta şirkətlərinin maliyyə sabitliyinə imkan verən sığorta portfeli modelinin formalaşdırılması və inkişaf etdirilməsi, onun əsas mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri davamlı şəkildə aparılmalıdır. Bu problemlərin həllində mütərəqqi dünya təcrübəsinin diqqətlə öyrənilməsi və ölkənin sığorta sisteminə adaptivliyi ilə seçilən sığorta portfeli modellərinin tətbiqi məsələlərinə ciddi yanaşma təmin olunmalıdır. Sığorta

portfelinin dayanıqlılığının təmin edilməsi üçün tələb olunan komponentlər və elementlər sistemli şəkildə baxılmalıdır [3]. Bundan əlavə, qlobal təhdidlər şəraitində, xüsusilə son illərdə dünya sığorta bazarındakı dəyişikliklər, maliyyə bazarlarının qeyri-sabitliyi ilə bağlı problemlər sığorta portfelinin optimallaşdırılması ilə bağlı tədbirlərin maksimum diqqət mərkəzində saxlanılmasını şərtləndirir. Sığorta portfeli özündə sığorta təşkilatının fəaliyyətinin əsas istiqamətlərini əks etdirməklə yanaşı, həm də sığorta şirkətinin maliyyə sabitliyinin əsas göstəricisi kimi xarakterizə olunur [4]. Eyni zamanda, sığorta portfelinin yenidən formalaşdırılması və optimallaşdırılması problemlərinə də xüsusi diqqət yetirilməlidir [5]. Sığorta şirkətinin fəaliyyətində strateji vəzifələr sırasında ilk yeri sığorta portfelinin səmərəliliyinin təmin edilməsi və onun praktiki fəaliyyət mexanzimlərinin optimallığına nail olunması tutur. Bu baxımdan, ortaya çıxan risklərin sistemli şəkildə öyrənilməsi, onların təsir dairəsinin müəyyənləşdirilməsi və minimuma endirilməsi üçün zəruri tədbirlərin görülməsi vacib şərtlərdəndir. Şübhəsiz, bunlar kifayət qədər mürəkkəb proseslərdir və həmin vəzifələrin öhdəsindən gəlmək üçün səmərəli fəaliyyətin təşkili tələb olunur. Bu sırada sığorta bazarının, sığorta portfelinin əsas komponentlərinin və elementlərinin, həmçinin sığorta təşkilatının maliyyə sabitliyinin adekvatlığının kompleks təhlilinin və marketinq tədqiqatının aparılması vacib hesab olunur. Bundan əlavə, sığorta bazarının dərinliyi, həcmi, iştirakçıların coğrafiyası və dairəsi, bazar iştirakçılarının davranışları, bazar seqmentləri və konyunkturası kompleks şəkildə təhlil edilməli və strateji qərarlar üçün əsaslar hazırlanmalıdır. Burada riskli halların və risk elementlərinin maksimum dəqiq müəyyənləşdirilməsi və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir və bu işlərin adekvatlığından sığorta şirkətinin səmərəli fəaliyyəti, onun sığorta portfelinin gəlirlilik prinsipi əsasında reallaşdırılması bilavasitə asılıdır. Sığorta portfelinin optimallaşdırılması tədbirləri sırasında tarif siyasətinə xüsusi önəm verilməli və həmçinin müxtəlif sığorta formalarının fəal tətbiqinə səy göstərilməli, sığorta ehtiyatlarının yaradılması təmin edilməli və nəhayət sığorta bazarına - sığorta şirkətlərinə investisiyaların cəlbi prosesləri davamlı şəkildə stimullaşdırılmalıdır. Qeyri-sabit makroiqtisadi və makromaliyyə prosesləri çərçivəsində, şübhəsiz, bu vəzifələrin öhdəsindən gəlmək o qədər də asan vəzifə deyildir. Amma, sığorta portfelinin bütün hallarda maksimum səviyyədə optimallaşdırılması tədbirlərinin həyata keçirilməsinə çalışmaq vacib və aktual olaraq qalır [6]. Belə ki, sığorta şirkətinin sığorta portfelinin maksimum optimal səviyyəyə çatdırılması sığorta ödənişlərinin həyata keçirilməsi üçün güclü potensial və imkanlar formalaşdırır, nəticədə müştəri bazasını və əhatəsini genişləndirir, şirkətin daimi müştərilərini uzunmüddətli dövr üçün qoruyub saxlamaqla bərabər, yeni müştərilərin cəlb edilməsində daha çox uğurlar əldə edir, sığorta xidmətlərinin və məhsullarının geniş çeşiddə bazara çıxarılması hesabına orada möhkəmlənmək şansları artır və nəhayət, bunların hesabına sığorta ödənişlərinin sabit aparılması üçün sığorta şirkətinin maliyyə sabitliyi və güclü maliyyə imkanlarının yaradılması təmin edilir. Bundan əlavə, sığorta portfelinin optimal səviyyəyə çatdırılması və bu səviyyədə gücləndirilməsi sığorta şirkətlərinin və təşkilatlarının maliyyə inkişafının sabitliyinə güclü zəmin yaradır və daimi sığorta haqları mənbələrinin, həmçinin investisiya kanallarının formalaşdırılması hesabına sığorta şirkətinin maliyyə sabitliyi uzunmüddətli dövr üçün təmin edilir. Hər hansı bir sığorta şirkətinin sabit fəaliyyətinin təmin edilməsində sığorta portfelinin optimallığı həmin təşkilatın müxtəlif qeyri-sabit situasiyalardan qorunmasının əsas metodlarından biri kimi çıxış edir [7, s. 273].

Qeyd edək ki, sığorta şirkətlərində sığorta portfelinin optimallaşdırılmasının həllində vacib məsələlərdən biri də sığorta portfelinin risklərinin fundamental şəkildə araşdırılması və adekvat tədbirlərin görülməsi hesabına, bu risklərin idarə olunmasının təmin edilməsidir. Sığorta portfelinin fəaliyyəti çərçivəsində müxtəlif növ risklər, o cümlədən qəzalar, təbii fəlakətlərlə bağlı risklər ortaya çıxır və bu kimi risklərdən qaçmaq, demək olar ki, mümkün deyildir. Bu baxımdan, sığorta portfeli üzrə idarə olunan risklərin maksimum şəkildə minimuma endirilməsi vacib əhəmiyyət kəsb edir [8]. Digər tərəfdən, mümkün risklərin təhlili və qiymətləndirilməsi tədbir-

lərinin optimal formada həyata keçirilməsi kifayət qədər aktuallığı ilə diqqət çəkir. Bu halda, tədqiqatçı B.Y.Tryuxova görə 5 mərhələ üzrə ardıcıl tədbirlərin reallaşdırılması vacibdir və bunlara risklərin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi, risklərin qiymətləndirilməsi, risklərin azaldılması üçün minimum tədbirlərin müəyyənləşdirilməsi və onların optimallaşdırılması, mövcud sığorta portfelinin optimallaşdırılması və müvafiq sığorta proqramının hazırlanaraq reallaşdırılması daxildir [9]. Bu tədbirlərin mərhələlər üzrə ardıcıl şəkildə həyata keçirilməsi nəticəsində sığorta şirkətlərində sığorta portfelinin optimallaşdırılması problemlərinin əsasən həllinə nail olmaq ehtimalı çoxalır və problemlərin həlli yollarının müəyyənləşdirilməsi nisbətən təmin edilir. Digər tərəfdən, ardıcıl mərhələlərə əsaslanmış kompleks və sistemli tədbirlərin görülməsi hesabına sığorta portfelinin fəaliyyətinin optimallaşdırılması imkanları artır və ümumilikdə sığorta şirkətinin uğurlu fəaliyyəti üçün potensial güclənmiş olur.

Sığorta portfelinin investisiya cəlbediciliyi məsələləri

Sığorta portfelinin rəqabət qabiliyyətinin gücləndirilməsi üçün onun investisiya cəlbediciliyi təmin edilməlidir və bu baxımdan ümumilikdə sığorta şirkətinin investisiya cəlbediciliyi yüksək səviyyədə olmalı, stimullaşdırıcı xarakter daşımalı və xarici sığorta şirkətləri, investisiya və sığorta fondları ilə səmərəli əməkdaşlıq əlaqələri yaradılmalıdır. Sığorta şirkətinin investisiya portfelinin səmərəli idarə edilməsi son nəticədə şirkətin gəlirlik səviyyəsinə müsbət təsirini göstərmək imkanı formalaşdırır [10, s.36]. Eyni zamanda, sığorta portfelinin optimallaşdırılması tədbirləri investorların cəlb edilməsi üçün bir çağırış kimi xarakterizə olunur və nəticədə investorlar sığorta şirkətinə sərmayə yatırmaqda maraqlı olurlar. Praktikada bir çox sığorta şirkətləri sığorta portfelinin optimallaşdırılması proseslərinə əslində daxili və xarici investorların bu sahəyə marağının yüksəldilməsi kontekstində yanaşırlar [11, s.78]. Sığorta şirkətinin investisiya portfelinin formalaşdırılması üçün sığorta xidmətlərinin strukturunun genişləndirilməsi və daha dayanıqlı sığorta mexanizmlərinə və fəaliyyət istiqamətlərinə üstünlük verilməsi vacib şərtlərdəndir. Sığorta şirkətinin sığorta portfelinin formalaşdırılması zamanı, əvvəldə qeyd etdiymiz kimi uzunmüddətli dövrü əhatə edən sığorta müqavilələrinə, həmçinin müştəriləri cəlb edə biləcək şərtlərlə sığorta xidmətlərinin təşkilinə xüsusi diqqət yetirilməlidir. Sığorta xidmətləri optimal və əlçatan, müştərilər üçün maraqlı və stimullaşdırıcı olmalıdır. Sığorta şirkətinin investisiya portfelinin cəlbediciliyinin artırılması üçün, bir sıra amillər - bank depozitləri üzrə faizlər, inflyasiyanın tempi, alternativ investisiyalar üzrə gəlirlik səviyyəsi mütləq şəkildə nəzərə alınmalıdır [12, s.137]. Praktikada sığorta şirkətinin investisiya potensialı onun məcmu fəaliyyətindən birbaşa asılıdır, belə ki, investisiya kapitalı kimi əsasən sığorta ehtiyatlarından istifadə olunur və bu ehtiyatların formalaşdırılması da sığorta şirkətinin səmərəli fəaliyyəti ilə bağlılıq təşkil edir. Bu baxımdan, sığorta şirkəti özünün investisiya siyasətinin maksimum hədəflərini formalaşdırarkən daxili və xarici təsiredici amilləri nəzərə almaqla özünün sığorta ehtiyatlarının ümumi həcmindən və onun perspektiv potensialından çıxış etməlidir. Bunlarla bərabər, investisiya siyasətinə təsir edəcək digər amillər, o cümlədən sığorta bazarının inkişaf prosesləri və konyunkturası, ümumilikdə maliyyə bazarlarının inkişaf səviyyəsi, makroiqtisadi və makromaliyyə sabitliyi nəzərə alınmalıdır [13]. Bunlarla bərabər, sığorta şirkəti sığorta portfelinin optimallaşdırılması problemlərinin həlli istiqamətində sistemli və ardıcıl tədbirləri reallaşdırmağı təmin edə biləcək menecer heyətini formalaşdırmalı və yüksək peşəkarlığa malik kadrları - mütəxəssisləri bu proseslərə cəlb etməlidirlər.

Azərbaycanda sığorta bazarının vəziyyətinin qiymətləndirilməsi

Azərbaycanda son illərdə maliyyə çətinlikləri səbəbindən maliyyə bazarlarında qeyri-sabitlik diqqət çəkmişdir. Düzdür, 2017-ci ilin yekunları artıq ölkəmizin maliyyə qeyri-sabitliyi ilə bağlı problemləri əsasən aradan qaldırmağa nail olması barəsində qənaətə gəlməyə imkan verir. Digər tərəfdən, ölkəmizin milli valyutasının kursu sabitləşmiş, inflyasiya minimum həddə cilovlanmış və makroiqtisadi sabitliyin təmin edilməsi üçün əvvəldə bildirdiymiz kimi strateji hədəflər reallaşdırılmaqdadır. Ölkəmizin sığorta bazarının inkişaf dinamikası son illərdə heç də

qeyri-sabit olmamışdır [14]. Amma, bunlar mövcud potensialı əks etdirmir və sığorta bazarının həcmini artırmaq üçün davamlı tədbirlər görülməlidir. Sığorta xidmətlərinin diversifikasiyalaşdırılması, əhalinin sığorta xidmətlərinə marağının artırılması istiqamətində maarifləndirici tədbirlərin görülməsi, bu sahədə strateji marketinq fəaliyyətinin gücləndirilməsi, xidmətlərin səviyyəsinin artırılması və onların əlçatanlığının təmin edilməsi istiqamətində yaxın perspektivdə davamlı tədbilər həyata keçirilməlidir. Bunlarla bağlı, strateji hədəflər də bəllidir və ölkəmizdə maliyyə xidmətlərinin inkişafına dair strateji yol xəritəsində sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi tədbirlərinə xüsusi önəm verilmişdir [15].

Nəticə. Fikrimizcə, yaxın perspektivdə Azərbaycanda sığorta şirkətlərinin fəaliyyətinin intensivləşməsi və bu sahədə səmərəliliyin yüksəldilməsi prosesləri aktuallığı ilə diqqət mərkəzində olacaqdır. Bazar iqtisadiyyatı prinsipləri dərinləşdikcə, həmçinin qlobal iqtisadi çağırışların təsiri artdıqca sığorta şirkətlərinin fəaliyyətlərinin modelləşdirilməsi prosesləri sürətlənəcək və bu sırada yüksək nəticələr əldə edilməsi üçün sığorta portfelinin optimallaşdırılması problemlərinə daha çox diqqət yönəldiləcəkdir və s.

ƏDƏBİYYAT

1. Яшина Н.М. Сущность и виды страхового портфеля. http://www.insur.ru.
2. Яшина Н.М. Формирование сбалансированного страхового портфеля. Дисс. канд. экон. наук. Саратов, 2003, 220 с.
3. Рязанцев Р.А. Страховой портфель страховой организации: теоретический аспект. https://cyberleninka.ru.
4. Кренева С.Г., Халтурина Е.Н., Файзрахманова Г. Оптимизация страхового портфеля. https://cyberleninka.ru
5. Методы оптимизации перестраховочного портфеля. http://www.ininfo.ru
6. Корженевская Г.М., Биднюк Н.В. Проблемы формирования страхового порт феля страховщика. http://elib.bsu.by.
7. Пахмутова В.Н., Евсеева М.С., Васюкоа Л.К. Оптимизация страхового портфеля как метод преодоления деструктивного финансового развития страховой организации. Владивосток, 2015, с. 270-280.
8. Анализ рисков страхового портфеля. http://risk-insurance.ru .
9. Терюхов В.Е. Актуальность и практика управления рисками и оптимизации страхового портфеля промышленного предприятия.// Журнал «Финансовый менеджмент в страховой компании», №4, 2006.
10. Файницкая Т.М. Управление инвестиционным портфелем страховой компании. Дисс. канд. экон. наук. Санкт-Петербург, 2002, 137 с.
11. Васюкова Л.К. Инвестиции в предупредительные мероприятия при фор мировании оптимального страхового портфеля. Дисс. канд. экон. наук. Владивосток, 2011, 173 с.
12. Рузиева Э.А., Бондаренко Е.Г. Оптимизация механизма формирования инвестиционного портфеля страховых компаний.// Наук вчера, сегодня, завтра: сб. ст. по матер. XXXII международ. науч-практ. конф. №3(25). Новосибирск: СибАК, 2016, с. 136-141.
13. Сулейманова С.С. Формирование механизма управления инвестицион ным портфелем страховой компании. Дисс. канд. экон. наук. Махачкала, 2002,141 с.
14. Страховой рынок Азербайджана: адаптация к новым условиям. http://wem.az.
15. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.

Камал Мирсахиб оглу ИБРАГИМОВ,
доктор философии по экономике, диссертант АГЭУ

Проблемы и пути решения оптимизации страхового портфеля в страховых компаниях

Резюме

В статье исследованы проблемы и пути решения оптимизации страхового портфеля в страховых компаниях. С этой целью анализированы процессы формирования и исполнения страхового портфеля. Определены основные функции и задачи страхового портфеля. Рассмотрены проблемы диверсификации страхового портфеля в условиях глобальных экономических вызовов. Обоснована важность оптимизации страхового портфеля в контексте финансовой стабильности страховых компаний. Исследовано решение проблем совершенствования страхового портфеля в антикризисных условиях. Отмечена важность расширения ассортимента и повышения качества страховых услуг. Оценена устойчивость основных элементов и компонентов страхового портфеля. Подготовлены рекомендации и даны предложения по решению проблем и путей решения оптимизации страхового портфеля в страховых компаниях.

Ключевые слова: система страхования, страховые компании, страховой портфель, финансовая стабильность страховых компаний, оптимизация страхового портфеля, устойчивость страхового портфеля, диверсификация страхового портфеля.

Kamal Mirsahib IBRAHIMOV,
doctor of philosophy in economics, doctoral student of ASEU

Problems and solutions to optimization of the insurance portfolio in insurance companies

Summary

The problems and ways of solving the optimization of the insurance portfolio in insurance companies are explored in the article. For this purpose, the processes of formation and execution of the insurance portfolio are analyzed. The main functions and tasks of the insurance portfolio are defined. The problems of diversifying the insurance portfolio in the context of global economic challenges are considered. The importance of optimization of the insurance portfolio in the context of the financial stability of the insurance company is justified. The decision of problems of perfection of an insurance portfolio in anti-recessionary conditions is investigated. The importance of expanding the assortment and improving the quality of insurance services is noted. Their stability is shown in the main elements and components of the insurance portfolio. Recommendations and proposals to address problems and solutions to optimizing the insurance portfolio in insurance companies are prepared.

Key words: insurance system, insurance companies, insurance portfolio, financial stability of insurance companies, optimization of the insurance portfolio, stability of the insurance portfolio, diversification of the insurance portfolio.

UOT 311.216

Kəmalə Nurəddin qızı ƏHƏDOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

STRATEJİ YOL XƏRİTƏSİNİN REAL HƏYATA ÇEVRİLMƏSİNDƏ DAXİLİ AUDİTİN ROLU

Xülasə

Məqalədə daxili auditin mahiyyəti açıqlanaraq, Strateji Yol Xəritəsində nəzərdə tutulmuş hədəflərə nail olunmasında və gözləntilərin yerinə yetirilməsində onun imkanlarından istifadə edilməsi məsələləri nəzərdən keçirilir. Daxili auditin bir nəzarət mexanizmi olaraq, müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin Strateji Yol Xəritəsi istiqamətində təşkil edilməsində oynadığı rol göstərilərək, icra monitorinqinin təşkilində onun yerinə yetirə biləcəyi əvvəlcədən istiqamətləndirici funksiyalarından bəhs edilir. Tədqiqat nəticəsində Strateji Yol Xəritəsinin çoxsaylı müəssisələr miqyasında yerinə yetirilməsi proseslərinə nəzarətin təşkilində daxili auditdən geniş istifadə edilməsinin məqsədəuyğun olduğu göstərilir.

Açar sözlər: daxili audit, Strateji Yol Xəritəsi, icraya nəzarət monitorinqi, müəssisənin maliyyə-təsərrüfat fəaliyyəti.

Giriş

Məlumdur ki, müasir dövrdə ölkəmizin iqtisadi inkişafının tənzimlənməsində Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" mühüm rol oynayır. Strateji Yol Xəritəsində göstərilən hədəflərin real həyatda yerinə yetirilməsi iqtisadiyyatın ən aşağı səviyyəsi hesab edilən çoxsaylı müəssisələrin təsərrüfat fəaliyyətində bu istiqamətdə konkret işlərin görülməsini və onlara mütəmadi nəzarət edilməsini tələb edir. Bu məsələdə müəssisədə təşkil edilən daxili audit əvəzedilməz daxili nəzarət funksiyasını yerinə yetirir.

Strateji Yol Xəritəsinin tərkibi və əsas istiqamətləri

Strateji Yol Xəritəsində ölkə iqtisadiyyatının cari və perspektiv inkişafı istiqamətləri göstərilmişdir. Burada verilmiş iqtisadi inkişaf istiqamətləri üç növ zaman kəsiyində qruplaşdırılaraq, qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrləri əhatə edir. Qısamüddətli dövr kimi 2020-ci ilədək olan dövr, ortamüddətli dövr kimi 2025-ci ilədək olan dövr, uzunmüddətli dövr kimi 2025-ci ildən sonrakı dövr nəzərdə tutulmuşdur. Buna müvafiq olaraq, Azərbaycan iqtisadiyyatının gələcək inkişafına dair qəbul edilmiş Strateji Yol Xəritəsi 2020-ci ilədək olan dövr üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planından, 2025-ci ilədək olan ortamüddətli dövr üçün strateji baxışdan və 2025-ci ildən sonrakı uzunmüddətli dövr üçün hədəf baxışından ibarətdir. Bütün bunlar ölkəmizin gələcək iqtisadi inkişafını tənzimləyən istiqamətverici dövlət sənədlərindən ibarət olmaqla, özündə əsas istiqamətverici sənəd olan "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsini" və onun əlavə hissələri olan iqtisadiyyatın ən önəmli sektorları üzrə daha 11 ədəd strateji yol xəritələrini əhatə edir. Beləliklə də Azərbaycan iqtisadiyyatının perspektiv inkişaf istiqamətlərini əks etdirən Strateji Yol Xəritəsi özündə 12 ədəd strateji yol xəritələrini birləşdirir ki, bunlardan da biri ümumi istiqamətverici Strateji Yol Xəritəsi, digərləri isə iqtisadiyyatın daha vacib hesab edilən sektorları üzrə strateji yol xəritələridir.

Azərbaycan iqtisadiyyatının 2020-ci ilədək olan dövr üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan ortamüddətli dövr üçün strateji baxışları və 2025-ci ildən sonrakı uzunmüddətli dövr üçün hədəf baxışlarını özündə əks etdirən strateji yol xəritələrinin tərkibi aşağıdakı kimidir:

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.

2. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi.
3. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi.
4. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi.
5. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi.
6. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.
7. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi;
8. Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi.
9. Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi.
10. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi;
11. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi.
12. Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi [2].

Strateji yol xəritələrinin burada verilmiş siyahısından göründüyü kimi, ölkə iqtisadiyyatının nəzərdən keçirilən pespektiv inkişafı dövründə əsas diqqət iqtisadiyyatın aşağıda adları göstərilən bir sıra önəmli sektorlarına yönəldiləcəkdir:

- kimya məhsulları da daxil olmaqla neft və qaz sənayesinin inkişafı;
- kənd təsərrüfatı məhsullarının istehsalı və emalının inkişafı;
- kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalının inkişafı;
- ağır sənaye və maşınqayırmanın inkişafı;
- ixtisaslaşmış turizm sənayesinin inkişafı;
- logistika və ticarətin inkişafı;
- uyğun qiymətə mənzil təminatının inkişafı;
- peşə təhsili və təliminin inkişafı;
- maliyyə xidmətlərinin inkişafı;
- telekommunikasiya və informasiya texnologiyalarının inkişafı;
- kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz təminatının) inkişafı.

Strateji Yol Xəritəsinin həyata keçirilməsində auditin rolu və icraya nəzarət monitorinqi

Strateji Yol Xəritəsinin həyata keçirilməsində audit mühüm rol oynayır. Burada auditin yerinə yetirdiyi funksiyalar Strateji Yol Xəritəsində nəzərdə tutulmuş hədəflərə nail olmaq istiqamətində ayrı-ayrı müəssisə və təşkilatlarda aparılan tədbirlərin və bunların arxa planında baş verən maliyyə-təsərrüfat fəaliyyətinin monitorinqi ilə sıx bağlıdır. Strateji Yol Xəritəsi üzrə tədbirlərin monitorinqi icraya nəzarət mexanizminin optimal tətbiq edilməsi zərurətini doğurur. Həm icra nəzarəti, həm də maliyyə nəzarəti audit prosedurasının ayrılmaz tərkib hissəsidir. Bu proseduraların içərisində daxili auditin də özünəməxsus yeri və mövqeyi vardır.

Strateji Yol Xəritəsində nəzərdə tutulmuş hədəflərə nail olmağın vacib elementlərindən biri olan icraya nəzarət monitorinqi hədəf və gözləntilərin iqtisadiyyatın bütün sektorları üzrə yuxarıdan aşağıya prinsipi ilə sintez edilməsini tələb edir. Bu proses isə özlüyündə optimal proqnozların işlənməsini gündəmə gətirir ki, bu da hər bir iqtisadi sektorun yuxarı eşelonundan tutmuş, həmin sektora daxil olan ən kiçik müəssisəyədək bütün mərhələlərdə konkret məqsədlərin formalaşdırılması və onlara nail olmaq üçün müəssisə miqyasında yaxın, orta və uzaq hədəflərin müəyyənləşdirilməsini zəruri edir.

Təbiidir ki, müəssisə miqyasında müəyyən edilmiş yaxın hədəflər orta və uzaq hədəflərdən daha dəqiq və əlçatan olmalıdır. Bununla yanaşı, yaxın hədəflərə nail olmaq üçün tərtib edilən tədbirlər planı və nəzərdə tutulan işlərin yerinə yetirilməsi ardıcıllığı, orta və uzaq hədəflərə nisbətən daha real və sadə, daha konkret və asan başadüşülən olmalıdır.

Proqnozların yerinə yetirilməsi müddətləri yaxınlaşdıqca, yəni müəyyən bir zaman keçdikcə, müəssisə miqyasında müəyyənləşdirilmiş yaxın hədəflər onun cari təsərrüfat fəaliyyətinə, orta hədəflər yaxın hədəflərə, uzaq hədəflər isə orta hədəflərə çevrilir. Bu proses müəssisənin inkişaf prosesi olub, ölkənin iqtisadi inkişafının kiçicik bir zərrəsini təşkil edir. Ölkədə mövcud olan bütün müəssisələr üzrə belə proseslər birləşdikdə, onların məcmusu ölkənin iqtisadi inkişaf prosesini formalaşdırır. Odur ki, ölkə üzrə müəyyən olunmuş Strateji Yol Xəritəsinin müəssisə miqyasında yerinə yetirilməsinin monitorinqi çox vacib əhəmiyyətə malikdir ki, burada da həm kənar audit, həm də daxili audit mühüm rol oynayır.

Kənar audit Strateji Yol Xəritəsinin müəssisə üçün müəyyən olunmuş proqnoz hədəflərinə nailolma şərtlərinin yerinə yetirilməsinin müəssisədənkənar müşahidəçilər tərəfindən təşkil edilmiş monitorinqinin tərkib elementidir. Müəssisədənkənar müşahidəçilər qrupuna müəssisənin tabe olduğu yuxarı təşkilatlar (iyerarxiya ardıcıllığı ilə), Strateji Yol Xəritəsinin yerinə yetirilməsi proseslərinin monitorinqini təşkil edən qurumlar, dövlət idarəetmə orqanları, ictimai birlik və təşkilatlar, mütəxəssis və peşə assosiasiyaları və digər bu kimi qurumlar aid edilir ki, onlar da özlərinin təşkil etdiyi monitorinq qrupunun tərkibinə müstəqil auditorlar daxil edə bilərlər.

Daxili auditin mahiyyəti və icraya nəzarətdə yeri

Daxili audit Strateji Yol Xəritəsinin müəssisə üçün müəyyən olunmuş proqnoz hədəflərinə nailolma şərtlərinin necə yerinə yetirilməsi prosesinin müəssisənin özü tərəfindən müşahidə olunması prosesidir. Bu da bir monitorinq müşahidəsi prosesidir, lakin kənar auditdən və onun təşkilati forması olan kənar monitorinqdən ciddi şəkildə fərqlənir. Hər şeydən əvvəl, bunların məqsədləri fərqlidir. Kənar monitorinqin və onun tərkib hissəsi olan kənar auditin məqsədi, Strateji Yol Xəritəsinin müəssisə üzrə yerinə yetirilməsinin real vəziyyətini müəyyənləşdirməkdən və buna uyğun informasiyalar formalaşdıraraq, onları lazımi instansiyalara təqdim etməkdən ibarət olduğu halda, daxili monitorinqin və daxili auditin məqsədi qabaqlayıcı tədbirlərin aşkar edilməsindən, müəssisənin cari təsərrüfat fəaliyyətinin Strateji Yol Xəritəsinə uyğun hədəflərə istiqamətləndirilməsinə dair sistematik müşahidələrin aparılmasından, müəssisə rəhbərliyinin və idarəedici menecer heyətinin bu barədə operativ şəkildə məlumatlandırılmasından və bununla da gələcəkdə keçiriləcək kənar monitorinq tərəfindən müsbət nəticələrin qeydə alınmasına nail olmaqdan ibarətdir.

Bütün bunlar daxili auditin mahiyyəti barədə müxtəlif iqtisadi ədəbiyyatlarda və müxtəlif iqtisadçı alimlər tərəfindən verilmiş müddəalarda öz əksini tapmışdır. Belə ki, "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun "Əsas anlayışlar" adlanan 1-ci maddəsində daxili auditin mahiyyəti belə göstərilmişdir: "Daxili audit - təsərrüfat subyektinin fəaliyyətinin inkişafına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş risklərin idarə olunması, nəzarət və idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşmaqla, təsərrüfat subyektinə öz məqsədlərinə nail olmaqda köməklik edən obyektiv, təminatverici və məsləhətverici fəaliyyətdir" [1; s. 2].

Qanunda verilmiş bu müddəanı daxili auditin tərifi kimi qəbul etmək olar. Qeyd etmək lazımdır ki, həmin müddəa eynisi ilə, heç bir dəyişiklik olmadan Böyük İqtisadi Ensiklopediyada da verilmişdir [3; s. 460].

Bunlar göstərir ki, göstərilən mənbələrin hər ikisində verilmiş eyni məzmunlu müddəa müəssisənin daxili nəzarət sisteminin başlıca elementi olan daxili auditin dolğun və mənalı tərifidir.Bununla yanaşı, burada bəzi iqtisadçı alimlərin də bu barədə fikirlərinə nəzər salmaq məqsədəuyğundur.

Bu barədə C.B.Namazova yazır: "Daxili audit -iqtisadi subyektin mülkiyyətçilərinin mənafeyi üçün təşkil olunmuş və onun daxili sənədləri ilə tənzimlənən sistemdir. Bu sistem əsasında

mühasibat uçotunun aparılması üçün qoyulmuş qaydalara riayət olunması və daxili nəzarət sisteminin fəaliyyət etibarlılığı müşahidə edilir. Daxili audit institutlarına, iqtisadi subyektin mülkiyyətçiləri tərəfindən təyin olunmuş müfəttişlər, təftiş komissiyaları, daxili auditorlar və ya daxili auditor qrupları aiddir" [7; s.17].

V.T.Novruzov "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun beşinci ildönümünə həsr olunmuş beynəlxalq konfransda daxili auditi "ictimai həyatın əhəmiyyətli elementi" adlandırmışdır. O, bu fikrini belə əsaslandırır: "Daxili auditin təsərrüfat subyektlərinin dayanıqlığının təmin olunmasında, rəhbərliyə düzgün və vaxtında məlumat verilməsi və iqtisadi proseslərin düzgün aparılmasında, düzgün qərarların qəbul edilməsində böyük rolu vardır. Daxili audit, eyni zamanda, son illərdə bütün dünyada böyük bir problemə çevrilmiş şəffaflığın artırılmasında və korrupsiyaya qarşı mübarizədə böyük rol oynayır" [6; s.12].

V.T.Novruzovun elmi rəhbərliyi ilə yazılmış "Audit" adlı dərs vəsaitində daxili auditin mahiyyəti belə ifadə edilmişdir: "Daxili audit təsərrüfat subyektinin rəhbərliyinin göstərişi (sifarişi) ilə müəssisə və təşkilatın tərkibində onun daxili sənədləri ilə tənzimlənən maliyyə-təsərrüfat fəaliyyətinin qəbul edilmiş mühasibat uçotu qaydalarına uyğunluğunun və idarəetmə prinsiplərinin səmərəliliyinin yoxlanılması sistemidir" [5; s. 543-544]. Burada göstərilir ki, daxili audit müstəqil, təminatverici və məşvərətçi fəaliyyətdir. Daxili audit müəssisə və təşkilatın tərkibində müstəqil struktur bölməsi və ya ştat vahidi kimi fəaliyyət göstərir və daxili nəzarət orqanı olmaqla, yalnız müəssisənin rəhbərinə və ya direktorlar şurasına tabedir, onun tələb etdiyi məsələləri araşdıraraq, nəticələri haqqında yalnız ona hesabat verir.

İ.A.Abbasovun fikrincə, daxili audit müstəqil nəzarətin təşkili forması olaraq özündə iqtisadi subyektlərin rəhbərləri və mülkiyyətçiləri üçün operativ informasiya sistemi yaratmaqla müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin nəticəsi olan mənfəətin maksimuma çatdırılması üçün aparılan operativ yoxlama-ekspertiza formasıdır. O qeyd edir ki, təsərrüfat-maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində, təsərrüfatdaxili auditin rolu xarici auditdən böyükdür. Müasir şəraitdə daxili audit xarici auditə nisbətən daha geniş imkanlara malikdir [5; s. 441].

Daxili audit üzrə tədqiqatçı L.V.Əkbərovanın fikrincə, daxili auditə belə bir tərif vermək olar: "Daxili audit iqtisadi subyektdə daxili nəzarət sisteminin ayrı-ayrı tərkib hissələrinin fəaliyyətinin etibarlılığını və səmərəliliyini müəyyən etmək məqsədilə bu subyektin işinin yoxlanılması və qiymətləndirilməsi üzrə onun idarəetmə orqanlarının mənafeyi naminə təşkil edilən və daxili sənədlərlə tənzimlənən fəaliyyətdir". O, göstərir ki, daxili nəzarət sisteminin tərkib hissələri dedikdə, adətən, təsərrüfat fəaliyyətinin nizamlı və səmərəli aparılması üçün iqtisadi subyektin rəhbərliyi tərəfindən tətbiq edilən təşkilati tədbirlər və prosedurları başa düşülür [8; s.12].

Daxili auditin mahiyyəti barəsində bütün bu deyilənlər göstərir ki, daxili audit Strateji Yol Xəritəsində nəzərdə tutulmuş hədəflərə ayrı-ayrı müəssisələr səviyyəsində nail olmaq istiqamətində gedən maliyyə-təsərrüfat fəaliyyətinin optimal təşkil edilməsində kifayət qədər güclü təsirə malik olan bir nəzarət mexanizmidir. Bununla yanaşı, müəssisənin daxili təsərrüfat proseslərinə ciddi nüfuz etmək qabiliyyətinə malik olan daxili audit Strateji Yol Xəritəsinin icra və monitorinq mexanizmində əvvəlcədən istiqamətləndirici alət rolunu da oynaya bilər.

Nəticə

Beləliklə, Strateji Yol Xəritəsinin real həyatda öz həllini müvəffəqiyyətlə tapmasında daxili audit amilindən geniş istifadə edilməsi məqsədəuyğun hesab edilir. Müəssisə miqyasında daxili audit Strateji Yol Xəritəsinin həyata keçirilməsinin monitorinqinin təşkil olunmasında, müəssisənin daxili imkanlarının Strateji Yol Xəritəsinin yerinə yetirilməsi istiqamətində səfərbər olunmasında, daxili ehtiyatların aşkara çıxardılmasında, onların müəssisənin real təsərrüfat fəaliyyətinə cəlb olunmasında və digər bu kimi çoxsaylı məsələlərdə mühüm rol oynaya bilər. Daxili audit Strateji Yol Xəritəsinin konkret bir müəssisəyə aid olan hər hansı bir gözləntisinin həmin müəssisənin miqyasında yerinə yetirilməsinə müsbət təsir göstərər.

ƏDƏBİYYAT

1. “Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 22 may 2007-ci il.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016-cı il.
3. Böyük İqtisadi Ensiklopediya. I cild, Bakı, Azərbaycan İqtisadçılar İttifaqı. “Letterpress” Nəşriyyat Evi, 2013, 612 s.
4. Abbasov İ.A. Audit. Dərslik. Bakı, 2013, 544 s.
5. Audit. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001. 604 s.
6. Daxili audit: reallıqlar və perspektivlər / Beynəlxalq Konfransın materialları. Bakı, “Nağıl evi”, 2012, 90 s.
7. Namazova C.B. Audit. Dərslik. Bakı, 2012, 212 s.
8. Əkbərova L.V. Sahibkarlıq subyektlərində daxili auditin təkmilləşdirilməsi. 5303.01-“Mühasibat uçotu” ixtisasında iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Gəncə, 2016. 28 s.

Кемале Нураддин кызы Ахадова
Азербайджанский Государственный
Экономический Университет, диссертант

Роль внутреннего аудита в трансформации Стратегической дорожной карты в реальную жизнь

Резюме

В статье обсуждается сущность внутреннего аудита и рассматривается, как использовать его возможности для достижения целей, изложенных в Стратегической дорожной карте и реализации ее ожиданий. Как механизм осуществления предварительного и текущего контроля, укзывается роль внутреннего аудита в организации хозяйственной деятельности предприятия по направлению осуществления Стратегической дорожной карты и излагаются его предварительно-направляющие функции, которые могут быть достигнуты при организации мониторинга исполнения составляющих пунктов Стратегической дорожной карты. В результате исследования было показано, что использование внутреннего аудита в контроле за осуществлением Стратегической дорожной карты в масштабах многочисленных предприятий является целесообразным.

Ключевые слова: внутренний аудит, Стратегическая дорожная карта, мониторинг исполнения, финансово-хозяйственная деятельность предприятия.

Kemale Nuraddin Ahadova
candidate for degree of UNEC

The role of internal audit in the transformation of the Strategic Road Map into real life

Summary

The article discusses the essence of internal audit and examines how to use its capabilities to achieve the goals set out in the Strategic Road Map and the implementation of its expectations. As a mechanism for the implementation of preliminary and ongoing monitoring, the role of internal audit in the organization of the economic activity of the enterprise in the direction of the implementation of the Strategic Road Map is specified, and its pre-guiding functions that can be achieved in monitoring the implementation of the components of the Strategic Road Map are set out. As a result of the study, it was shown that the use of internal audit in monitoring the implementation of the Strategic Road Map on the scale of numerous enterprises is appropriate.

Key words: internal audit, Strategic Road Map, performance monitoring, financial and economic activity of the enterprise.

IV BÖLMƏ
XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

UOT 330.12

Firuzə Qaraxan qızı ABBASOVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

SOSİAL MEDİANIN MARKETİNQİN İNKİŞAFINA TƏSİRİ

Xülasə

Məqalədə müasir dövrdə sosial şəbəkələrin - informasiya texnologiyaları və internet mühitinin marketinqə təsirindən danışılır. Müəllif internet-marketinqin meydana gəlməsi, keçdiyi ayrı-ayrı mərhələlər və gələcək perspektivləri barədə ətraflı məlumat vermiş, alıcı-istehlakçı münasibətlərində yeni texnologiyanın rolunu və yerini elmi-nəzəri baxımdan təhlil etmişdir. Müəllif istehlakçını real kompaniyaya yönəldən virtual kompaniyanın çevik olmasını və istehsalçı-istehlakçı arasındakı texnoloji əlaqələrin daim nəzarətdə saxlanmasını vacib şərt kimi irəli sürür.

Açar sözlər: marketinq, internet, onlayn, oflayn, veb-ticarət, informasiya.

Giriş

İnformasiya texnologiyaları və internet mühiti marketinqin imkanlarını keyfiyyətcə xeyli genişləndirmişdir. İnternet informasiyanın saxlanmasına, ötürülməsinə, axtarışına və işlənib hazırlanmasına imkan yaradan informasiya mühiti kimi meydana gəlmiş və inkişaf edir. Biznesin qlobal şəbəkəyə nüfuz etməsi əksər kompaniyaların biznes-proseslərinin əsaslı dəyişikliyinə, əvvəllər mümkün olmayan xüsusu iqtisadi seqmentlərin (e-iqtisadiyyat, veb-ticarət, internetdə hərəkət və informasiyaların saxlanması, biznes funksiyaların məsafəli autsorsinqi, xidmətlər və s.) yaranmasına gətirib çıxarmışdır. Təbii ki, internet informasiya və idarəetmə infrastrukturları bazar iştirakçıları-satıcılar, alıcılar, işgüzar tərəfdaşlar, rəqiblər, kompaniya əməkdaşları və digərləri-arasında qarşılıqlı münasibətlərdə mühüm rol oynayır. O, informasiya fəaliyyətinin reallaşmasında mühüm rol oynayan biznes-funksiya üzərində olduğu kimi marketinqə də ciddi təsir göstərmişdir.

Marketinqin təkamülü müxtəlif texnogen və sosial faktorlarla şərtlənir. O, çoxmərhələli bir prosesdir. Biznesin ayrı-ayrı sferalarında marketinq texnologiyasının müxtəlif mərhələlərini müşahidə etmək mümkündür. Belə ki, əhali üçün əmtəələr realizasiya edən kompaniyalar (B2C) internet texnologiyası baxımından korporativ bazar üçün işləyən kompaniyalara (B2B) nisbətdə daha məqsədəmüvafiqdir. İnternet C2C sferası üçün də yeni imkanlar yaratmışdır: İstehlakçılar bazar və məhdud imkanlı komission mağazalardan əmtəənin daha rahat çatdırılmasına və nümayişinə imkan verən və istənilən əmtəə üzrə istənilən vaxt qarşılıqlı fəaliyyət göstərə bilən internet sisteminə keçmişlər. Buna nümunə olaraq www.avito.ru pulsuz elanlar saytını göstərə bilərik [1].

İnternetin təsiri altında və təkcə bütün kommunikasiya sistemlərini deyil, həm də bir çox fəaliyyətləri, o cümlədən sahibkarlıq fəaliyyətini özündə birləşdirən virtual aləmin qarışılıqlı fəaliyyəti müstəvisində marketinqin təkmilləşdirilməsini nəzərdən keçirək. İnternet - marketinqin inkişafında aşağıdakı mərhələləri qeyd etməliyik:

- ənənəvi oflayn və internet-marketinq;
- yeni internet - marketinq.

Ənənəvi marketinq idarəetmə rıçaqları biznesin təşkilinin bütün mərhələlərində (əmtəə ideyasının meydana gəlməsindən onun satışına qədər) kompaniyanın əlində olması ilə xarakterizə olunan marketinqdir. İstehlakçıya artıq hazır əmtəə, xidmət, marketinq sifarişi şəklində çatdırılır. Bu zaman marketinq fəaliyyəti həm oflayn rejimində (oflayn-marketinq), həm də onlayn rejimində (internet marketinq) reallaşa bilər.

Oflayn-marketinq mühiti - real dünyada real kompaniyadır. Şəbəkənin yaranmasi ilə marketinq onu sadəcə olaraq iştirak meydançası kimi istifadə etməyə başlayır. Elanlar lövhəsinin və informasiya kataloqlarının meydana gəlməsi elektron kommersiyanın və internetdə reklamın startına xidmət etmişdir. Rusiyada birinci informasiya kataloqu 1995-ci ildə "www.ru" adı altında meydana gəlmişdir.

İnternet alətləri oflayn-marketoloqlar tərəfindən müstəsna olaraq inkişaf məqsədləri üçün, televiziya, radio, çap məhsulu, zahiri və başqa reklam növləri, piar və digər kommunikasiyalarla yanaşı istifadə olunur. Onlar tərəfindən xüsusi hallarda kompaniyada tam nəzarət olunan onlayn-meydança da yaradılır. Lakin bu, müasir interaktiv medianın təklif etdiyi onlayn-meydançadan prinsipial şəkildə uzaqdır.

Kompüter texnikasının, internetin texniki imkanlarının və istehlak keyfiyyətlərinin yüksəlişi, xüsusilə də, elektron ödəmə sisteminin, media vəsaitlərinin meydana gəlməsi, ucuz kommunikasiya sistemlərinin əmtəə və xidmətlərinin istehlakçıların nəhəng auditoriyasına doğru sürətlə genişlənməsi biznesin marketinq güclənməsinin reallaşmasının və internet-marketinqin bərqərar olmasının yeni imkanlarına gətirib çıxarmışdır. Elanlar lövhəsindən internet -maqazinlər yaranmış, şəbəkədə inkişaf müasir texnologiyalarla nəticələnmiş və miqyas baxımından oflayn rejimlə qarşılaşmışdır. Bununla yanaşı, internet-marketinq öz inkişafında mükəmməlliyə nail olmuş və "interaktivəqədərki" epoxada marketinqin apogeyinə yüksəlmiş, mahiyyətinə görə ənənəviliyini davam etdirmişdir [4, s. 59].

Ənənəvi internet-marketinq özündə aşağıdakı elementləri birləşdirir:

1. Şəbəkədə resurslarının yaradılması;
2. Axtarışın optimallaşdırılması və tanıdılması (SEO, Search Engine Optimization) – axtarış sistemlərində onların reytinqinin yüksəldilməsi üçün resursların optimallaşdırılması və şəbəkənin digər resursları ilə onların əlaqələri;
3. Elektron kommersiyanın təşkili (e-kommersiya);
4. İnternetdə əmtəə və xidmətlərin tanıdılması;
5. Brendlərin yaradılması və tanıdılması;
6. İnternet-piar;
7. Müxtəlif internet səhifələrində, o cümlədən sosial şəbəkələrdə və virtual dünyada reklamların yaradılması və yayılması;
8. Virus marketinqi (internetdə şəbəkə istifadəçilərinin özləri tərəfindən dərhal yayılan və kompaniyanın saytına daxil edilən maraqlı süjetlərin yayılması);
9. Partizan marketinqi (kompaniya-sifarişçinin xeyrinə anonim xarakterli müxtəlif fəaliyyətlər);
10. Birbaşa marketinq: email-marketinq (veb-ünvanlara elektron çatdırılma vasitəsi ilə həyata keçirilən marketinq), SMS-marketinq (mobil rabitə abonentlərinə elektron SMS çatdırılma vasitəsilə marketinq), xəbər lentindən istifadə-RSS (Really Simple Syndication) formatında yeniliklərə abunə olmaq);
11. Monetizasiya pul qazanmaq, yəni (Şəbəkənin fəaliyyətindən və resurslarından gəlir əldə etmək), pullu SMS, biznesin müstəqil növü kimi partnyor (tərəf-müqabil) proqramları.

İnternet-marketinqdə marketinq kompleksinin bütün alətləri transformasiyaya məruz qalır. Məsələn, sayt rahat istifadə, stil, dizayn, yüklənmə sürəti, optimal axtarış kodu, müraciətlərin keyfiyyətcə işlənməsi, müştəri ilə satışaqədərki və satışdan sonrakı iş kimi müxtəlif planlı xarakteristikaya malik korporativ və istehlakçı bazarlarında topdan və pərakəndə satış yeri kimi çıxış edir. İnternet-maqazin üçün bu xüsusiyyətlərə ödəmə sistemləri, yükləmə və çatdırma qabi-

liyyəti və s. əlavə olunur. Axırıncı halda satıcı-kompaniyanın xüsusi proqram təminatı və ERP (Enterprise Resource Planning-müəssisənin resurslarının idarə edilməsi) sistemləri özləri təkrar əməliyyatlar keçirməklə, lazımi, tutalım, hesabdan-hesaba pul köçürmək, yaxud malın çatdırılması ilə məşğul olan kompaniyanın sifarişlərini formalaşdırmaq və s. üçün sifarişləri işləyib hazırlayır [5, s. 90].

İnternet-marketinq oflayn biznesə məxsus olan coğrafi, demoqrafik, müvəqqəti çərçivələrdən kənarda bazarlara çıxmaq imkanı verir.

İnternet-marketinqin əsas üstünlükləri:

- **Onlayn-kontakt** hər bir istehlakçı fərdlə "ayrı-ayrılıqda" prinsipinə uyğun olaraq maksimum dəqiq kommunikasiya qurmağa, təklifləri işləyib hazırlamağa və müştərinin tələbatına uyğun işləməyə imkan verir;
- avtomatlaşdırma, ilin 365 günü və sutkanın 24 saatı ərzində nəhəng çoxsaylı kontaktları reallaşdıran onlayn-kontaktlar hesabına (robotlar) kontaktın virtuallaşdırılması yolu ilə vaxta və pula qənaət etmək;
- nəzəri baxımdan qeyri-məhdud və daim artan müştəri bazası;
- inkişaf etmiş targetinq (ingilis dilindən alınmış targeing-hədəfi nişan almaq sözündəndir) - bazarın avtomatik seqmentləşdirilməsi və məqsədli auditoriyaya dəqiq çıxış;
- postklik-analiz (sayta daxilolma statistikası və başqa resurslar əsasında internet fəaliyyətin effektivliyinin analizi);
- satışın, tələbatın, marağın ani statistikası;
- trafikin (saytda informasiya köçürmək, yaxud qeydiyyatdan keçmək kimi müəyyən fəaliyyəti həyata keçirən bu sayta baş vuranların ümumi kütləsində sayt istifadəçilərinin payı), ROİ-nin (Return On İnvestment-rentabellilik) və başqalarının konversiya göstəriciləri vasitəsi ilə effektivliyin dəqiq qiymətləndirilməsi imkanı.

Ənənəvi oflayn və internet marketinqin realizasiyası L.Veber tərəfindən daha yaxşı öyrənilmiş müasir inkişaf mühitində onun effektivliyini azaldan bir sıra problemlə xarakterizə olunur. Onların arasında yüksək artım tempini (son onillikdə 2,5 dəfə), reklam verənlərin kifayət qədər böyük vəsait sərf etdiyi reklam fəaliyyətinin istehlakçılar tərəfindən inkar edilməsini, reklamların filtirasiyasını (təmizlənməsini) təmin edən texniki vasitələrə tələbatı, şəbəkə istifadəçilərinin anonimliyə və şəxsi məlumatları təhrif etməyə cəhd etmələrini, bazara kütləvi marketinq informasiyasının çıxarılmasının konkret subyektin tələbatının meydana çıxma yeri və vaxtı ilə razılaşdırılmamasını, rabitənin bahalı olmasını (telefon danışığı, məktub, görüş, internetdə banner, axtarış ötürməsində yer və s.), həm tədqiqat məqsədlərində, həm də əmtəələrin fəaliyyət və satışı üçün onların həcm baxımından məhdud olmasını, onların fəaliyyətinin, ideya və metodlarının identikliyə (oxşarlığa) gətirib çıxaran bazar innovasiyalarının total şəkildə köçürülməsini və digər cəhətləri göstərə bilərik [4, s. 66].

İnternetin sonrakı inkişafı və Web 2.0 - formalaşması virtual dünyada yeni reallığa - interaktiv marketinqə - gətirib çıxarmışdır. O, informasiya cəmiyyətində qarışılıqlı-müştərək fəaliyyətin marketinq konsepsiyasının inkişafını təmsil edir.

Yeni marketinq ənənəvini kənara qoymağı güman etmir. Əvvəlki kimi rəqiblərin malik olduğundan daha effektiv üsulla dəyərlərin yaradılması və təklif edilməsi vasitəsilə bazar subyektinin tələbatının təmin edilməsi hesabına kompaniyanın məqsədlərinə nail olmaq diqqət mərkəzində olur. Ciddi transformasiyanı xüsusi üsul, daha doğrusu, onun qurulması texnologiyası həyata keçirir.

Yeni marketinq modelində üstünlük təkcə formaca deyil, həm də məzmunca bazarla qarşılıqlı fəaliyyətin interaktiv üsuluna keçir. Dialoqun hər bir istehlakçı ilə qurula bilməsi prinsipial məsələdir. Bu isə sosial media texnologiyası və sərbəst məzmun istehsalı ilə təmin edilir. Ənənəvi-internet marketinq saytdan, yeni internet marketinq isə istehlakçı ilə dialoqdan daha çox ef-

fekt verir. Burada yeni marketinqin üstünlüklərini müəyyən edən bir sıra imkan və perspektivləri qeyd edə bilərik:

- bazar, istehlakçılar və rəqiblər haqqında informasiyalara çıxışın prinsipial olaraq yeni üfüqləri yaranır. Münasib mühitdə, sosial birliklərdə, tematik cəmiyyətlərdə, saytlarda və digər şəbəkə meydançalarında çoxtərəfli dialoqların məqsədli total monitorinqinə imkan yaranır;
- istehlakçıların (o cümlədən anonim istehlakçıların) şəbəkədə görünən bu və ya digər real və yaxud virtual sosium, həmçinin şəbəkədə keçid və müəyyən resurslara baxma vaxtı və s. üzrə hərəkət və dinamikasının, maraqlarının, emosiyalarının məqsədli sorğu parametrləri əsasında müəyyən edilməsi və analizi hesabına kontaktlı auditoriyanın (targetinq) ünvanlılığının yüksəldilməsi. Coğrafi, demoqrafik, sosial, əxlaqi və digər targetinq ciddi maraq göstərən istənilən şəxsə istənilən vaxtda marketinq xəbəri göndərməyə imkan verir;
- alıcılarla dialoq rejimində birbaşa çoxsaylı təmas nöqtələri yaranır;
- daha effektli olmaq, xüsusən də, brendin inkişafının idarə edilməsi məqsədi ilə reklam əvəzinə piar mexanizmindən istifadə edilməsi mümkün olur;
- kompaniyadan gələn və qarşılıqlı nüfuza malik professional kontentin (məzmunun) və iştirakçılar üçün şəffaf və maraqlı sosial şəbəkələrin yaranması. (Şəffaflıq - cəlbediciliyin əsas faktoru və kompaniya ilə bağlı kontentin məqsədli auditoriyaya təsir etməsidir);
- alıcının marketinq barədə mesaj almasının təmin edilməsi;
- alıcıya lazım olan vaxtda kontent əldə etmək. Məsələn, o, e-sosiumda alış-veriş etməyi planlaşdırmağa başladığı vaxt məlumat əldə edə bilir. Kompaniya şəbəkə üzrə alıcını axtarmır, alıcı əmtəə və xidmət əldə etmək arzusu ilə kompaniyaya gəlir. Bu, kompaniyaya potensial alıcı və müştəri ilə yalnız kontakt xərclərini ödəməyə imkan verməklə marketinqə sərf olunan xərcinin effektivliyini dəfələrlə yüksəldir;
- materialın vizuallığı, kontektdə sərbəst və ödənişsiz yerləşdirilən, informasiya kompaniyası üçün faydalı olan çoxsaylı istifadəçi audio və videosüjetlər;
- şəbəkədə həyəcanlı və neqativ fikirləri ayırmaq və onlara yubanmadan reaksiya vermək hesabına balanslı inkişaf vəziyyətində korporotiv reputasiyanın qorunması;
- şəbəkəyə daxil olanlardan kompaniyanın, bütövlükdə onun məhsulunun və reputasiyasının könüllü qoruyucusu, müdafiəçisi, köməkçisi kimi, o cümlədən, neqativ və trolli hücumların (kobud və təxribatçı fikirlərin yayılması; trolli - Skandinaviya nağıllarının kinli və ziyanlı personajları) bloklaşdırılması üçün istifadə edilməsi. Onların köməkliyi ilə məqsədli auditorya ilə böyük sayda kontaktlara xidmət göstərmək;
- maraqlı ideyalar hesabına istehlakçıları kompaniyanın məhsuluna və alver prosesinə cəlb etmək;
- fəaliyyətin qloballaşdırılması və maliyyə (alverlə bağlı) xərclərinin aşağı salınması;
- istehlakçıların bir-biri ilə qarşılıqlı fəaliyyət modelinin leqallaşdırılması (C2C).

Yeni internet-marketinq artıq təkcə təbliğatla məhdudlaşmır. Hətta tam əksinə - təbliğat kompaniyanın və şəbəkə istifadəçilərinin daha ümumi və daha ciddi qarşılıqlı təsiri ilə üzvi şəkildə bağlı olur. Yeni marketinq real kompaniyanı virtual dünyada elə tanıtmağı nəzərdə tutur ki, bu zaman mal və xidmətlərin yaradılması, təklifi və satışının bütün mərhələləri interaktiv olur. Sosial media və istifadəçilər tərəfindən yaradılan kontent belə interaktivliyi təmin edir.

Yeni marketinq şəbəkə iqtisadiyyatı şəraitində inkişaf edir və onun əsas cəhətlərindən istifadə edir. Şəbəkəli iqtisadiyyatın özəllikləri ətraflı şəkildə K.Kelli tərəfindən araşdırılmışdır. Onların arasında məhsulun sürətlə yayılmasını şərtləndirən daimi aşağı xərcləri, şəbəkə əməliyyatlarının xərclərini azaltmağı, uğurlu ideyaları köçürmək hesabına qiymətləri müntəzəm aşağı salmağı, ənənəvi materialları hərtərəfli fövqəladə yüngül elektron çiplərlə əvəz etməyi fərqləndirə bilərik [2, s. 81].

Təsərrüfat fəaliyyəti internet informasiya fəaliyyətinə keçərkən əlaqələr də informasiya və maliyyə vasitələrinin, əmtəələrin vahid kommunikasiya kanalları ilə yerdəyişməsini təmin edən birbaşa təsərrüfat əlaqələrinə çevrilir.

Şəbəkə istifadəçiləri informasiya fəzasında yeni maddi fəza obrazı yaradırlar və sonra sonuncunu bu obraza uyğun olaraq yenidən qururlar. Burada müəyyən mərhələlilik var: ikinci alt fəzada doğulan fəaliyyətin yeni əlaqə və növlərinin informasiya obrazları qismən birinci strukturun cari vəziyyətini dəyişərək onda maddiləşir; digər tərəfdən, birinci fəzanın yeni vəziyyəti ikinci fəzanı dolduran yeni vəziyyətlərin və informasiya obrazlarının generasiyası üçün bazis olur.

Şəbəkə iqtisadiyyatı praktik olaraq tənzimlənmir, bu mənada o, azad rəqabət modelinə yaxınlaşır.

Nəticə

Yeni marketinqin vəzifə və funksiyaları özünəməxsus xüsusiyyətlərə malikdir. Şəbəkəyə daxil olmaqla kompaniya özünün virtual əkizini alır, belə ki, bir tərəfdən real kompaniyanın inikası olur, digər tərəfdən isə, heç də onunla eyniyyət təşkil etmir və buna görə müstəqil həyatını yaşayır. Qeyd etmək lazımdır ki, kompaniyanın internetdə yaranmış ilkin obrazı onunla növbəti şəxsi kontakt zamanı və ya əksinə, real kompaniyaya uyğun olmalıdır. İnternet fəzada mövqeləşmədə yaranan səhvlər içərisində aşağıdakıları qeyd etmək olar:

- zirzəmidə yerləşən kiçik ticarət ofisinin müasir veb-dizayn tendensiyasına uyğun olaraq işlənib hazırlanmış saytının mövcudluğu;
- kompaniyanın hətta oflaynda, hətta telefon kontaktlarının olmadığı vaxtda virtual aləmdən getməsi.

Ümumi halda virtual kompaniya istehlakçını növbəti alış üçün real kompaniyaya daxil olmağa yönəldən oflayndakı virtual aləmin özünəməxsus bələdçisidir. Əks hərəkət heç də az effektli deyil, buna görə istehlakçının real kompaniya ilə kontaktından sonra onu uzunmüddətli kontakt üçün mütləq virtual kompaniyaya yönəltmək lazımdır. Bir çox kompaniyalar bu məsələyə kifayət qədər diqqət ayırmır və ya bunu dərk etmirlər.

Yeni internet-marketinqin vəzifələri əsasən sosial media marketinqinin (SMM, Soial Media Marketing) vəzifələri kimi yaranır və həllini tapır:

- şəbəkənin və sosial medianın monitorinqi;
- sosial şəbəkədə olan istehlakçı ilə interaktiv qarşılıqlı təsir;
- biznes məqsədlərə çatmaq üçün şəbəkədə sosiuma, daha sonra şəbəkə vasitəsilə oflayn-sosiuma təsir.

ƏDƏBİYYAT

1. Ə.Əliyev. "Azərbaycanda elektron kommersiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsi günün tələbidir". http://anl.az/down/meqale/azerbaycan_avqust2009/88351.htm
2. A.M.Əsədov, Ə.M.Əsədov. "Xidmət sahələrində kommersiya fəaliyyətinin əsasları". Bakı, "Yeni poliqrafist" MMC, 2016, 284 s.
3. Ələkbərov M.Q. "Elektron kommersiya"/ Ali məktəb tələbələri üçün dərs vəsaiti: "İqtisad Universiteti" nəşriyyatı, 2011-2012.
4. Л.А.Данченок. Авторский коллектив. «Маркетинг в социальных медиа». Учебное пособие, ПИТЕР пресс, 2013.
5. Burenina T.A. "İnternet texnologiyaları əsasında marketinq". Rus dilindən tərcümə. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2009.

Фируза Гарахан кызы Аббасова
д.ф.э., Азербайджанский Университет Кооперации

Влияние социальных медиа на развитие маркетинга

Резюме

В статье рассматривается влияние социальных сетей - информационных технологий и интернет-среды на маркетинг. Автор представил развернутую информацию о возникновении, пройденных этапах и перспективах развития интернет-маркетинга, а также провел научно-теоретическое исследование роли и места новых технологий в отношениях производитель-потребитель.

Автор также подчеркивает, что в качестве одного из важных условий выступают гибкость виртуальной компании, направляющей потребителя на реальную, и наличие постоянного контроля над технологическими отношениями между производителем и потребителем.

Ключевые слова: маркетинг, интернет, онлайн, оффлайн, интернет-трейдинг, информация.

Firuza Garakhan Abbasova
doctor of philosophy in economics,
Azerbaijan Cooperation University

The influence of social media on marketing

Summary

The given artide deals with the influence of modern social network - information technologies and internet atmosphere on marketing. The author gives complete information about the appearance of internet-marketing, its different stages and future prospects and also analized scientifically the role of new technologies in purchaser consumer relations and its site. The author assumes virtual company that leads the consumer to real company to be flexible and considers technological relationship between manufacturer - consumer always to be under control.

Key words: marketing, internet, online, offline, web trading, information.

UOT 330.34

Natəvan Filman qızı HƏSƏNOVA
Azərbaycan Milli Elmlər Akademiyası
İqtisadiyyat İnstitutunun dissertantı,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi

İNFORMASİYA SEKTORU İLƏ İQTİSADİ İNKİŞAF ARASINDA ASILILIĞIN MÜƏYYƏN EDİLMƏSİ

Xülasə

Məqalə Azərbaycanda İKT-nin statistik təhlili, mövcud vəziyyətinin qiymətləndirilməsi, informasiya məhsulları və xidmətləri bazarında baş verən iqtisadi münasibətlərin tənzimlənməsindən bəhs edir.

Açar sözlər: informasiya, informasiya sistemləri.

Giriş

Bildiyimiz kimi, XXI əsr informasiya əsri elan olunmuş və informasiya cəmiyyəti minilliyin əsas məqsədi kimi qəbul olunmuşdur. Bu gün əminliklə demək olar ki, informasiya texnologiyaları sektoru iqtisadiyyatın innovasiya məhsulu istehsal edən aparıcı sektorlarındandır. Son illərdə informasiya məsələlərinə dair keçirilən sammitlərdə ölkələrin milli, mədəni, mənəvi və tarixi, xalqların dillərinin və xüsusiyyətlərinin qorunması məqsədilə irəli sürülən çağırışlar və müddəalar informasiya məhsulları və xidmətlərinin əhəmiyyətini günü-gündən artırmaqdadır.

Hazırda cəmiyyətin ən başlıca inkişaf istiqamətlərindən biri bütün sahələrin kompüterləşdirilməsi və informasiyalaşdırılması yolu ilə informasiya məhsulları və xidmətləri bazarında çıxış imkanlarını yaxşılaşdırmaq və bu bazarda mövqeyini möhkəmləndirməkdən ibarətdir. Bildiyimiz kimi BMT-nin bütün üzv dövlətlərinin qəbul etdiyi minilliyin səkkiz inkişaf məqsədindən biri də qlobal tərəfdaşlığın inkişaf etdirilməklə, informasiya-kommunikasiya texnologiyalarından bəhrələnmək imkanının yaradılmasıdır. Bu gün informasiya texnologiyaları cəmiyyətin və iqtisadiyyatın inkişafına ciddi təsir göstərməklə, informasiyanın sosial və iqtisadi əhəmiyyətini getdikcə artırmaqdadır. Müasir dövrdə informasiya məhsulları və xidmətlərinin əhatə dairəsi genişlənmiş, istehsal və qeyri-istehsal sahələrini, ictimai-siyasi qurumları və s. əhatə etmişdir. Azərbaycan da son illərdə İKT sektoru və informasiya məhsulları və xidmətləri sektorunda öz mövqeyini yüksəltmək üçün tədbirlər həyata keçirir. Ölkədə internet infrastrukturu, demək olar ki, qurulmuşdur.

Problemin öyrənilməsi səviyyəsi

İKT sektorunun inkişafı, informasiya cəmiyyətinin qurulması, informasiya iqtisadiyyatı, innovasiyalı inkişafla bağlı tədqiqatlar Y.Şumpeter, B.Tviss, F.Aqion, P.Xeovut, D.Bell, F.Mahlup, P.Draker, M.Kastels, Y.Masud, M.Porat, E Toffler, K.Errou, Y.B.Lençuk, S.M.Valdaydev, S.Y.Qlazyev, L.N.Vasilyeva, Y.A.Muravyova, N.D.Kondratyev, N.Nelson, V.İ.Kuşlin, A.A.Dınkin, A.A.Akimov, V.Mau, V.O.Kolosov, P.K.Kuçeba, N.Y.Pavlyuk, V.D.Parxomenko, İ.G.Mantrusov, Y.N.Şeremetyeva, Ovsiyenko, V.N.Perexodov, V.J.Kelle, Y.Arskiy və s. kimi alimlər tərəfindən araşdırılıb.

Suverenlik illərində Azərbaycanın innovasiyalı inkişafı, informasiya cəmiyyəti, informasiya iqtisadiyyatı və İKT sektorunun inkişaf problemlərində akademik R.Ə.Mehdiyevin, Ə.C.Muradovun, R.P.Sultanovanın, A.Hüseynovun, Z.M.Nəcəfovun, F.H.Qasımovun, T.N.Əliyevin, İ.Aslanzadənin, R.Əliquliyevin, A.Muradovun, S.Abbasovanın, E.Məmmədzadənin tədqiqatları vardır.

Tədqiqatın məqsədi və qarşıya qoyduğu vəzifələr. Tədqiqatın məqsədi Azərbaycanda informasiya məhsulları və xidmətləri bazarının formalaşması vəziyyətini tədqiq etmək, mövcud problemləri aşkar etmək və inkişaf istiqamətlərini göstərməkdən ibarətdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- informasiya məhsulları və xidmətləri bazarının spesifik xüsusiyyətləri, qloballaşmanın sürətlənməsinə təsirinin nəzəri aspektlərinin tədqiq edilməsi;
- İnformasiya məhsulları və xidmətləri bazarının inkişafının sosial-iqtisadi əhəmiyyəti və spesifik xüsusiyyətlərinin araşdırılması;
- İnformasiya məhsulları və xidmətləri bazarının inkişaf dinamikası ilə bağlı dünya təcrübəsinin öyrənilməsi;
- Azərbaycanda İKT-nin mövcud vəziyyətinin qiymətləndirilməsi;
- Azərbaycanda informasiya məhsulları və xidmətləri bazarının statistik təhlili və mövcud vəziyyətinin qiymətləndirilməsi;
- İnformasiya sektoru ilə iqtisadi inkişaf arasında asılılığın qiymətləndirilməsi;
- Azərbaycanda informasiya məhsulları və xidmətləri sahəsində mövcud çatışmazlıqların və problemlərin aşkar edilməsi, dünya trendlərinə və nəzəri yanaşmaları əsaslanaraq elmi əsaslandırılmış təklif və tövsiyələrin irəli sürülməsi.

İKT sektorunun inkişafının təhlili son onilliklər ərzində sadalanan beynəlxalq təşkilatların tədqiqatlarına həsr olunmuşdur: İnternational Telecommunication Union (ITU) - Beynəlxalq Elektroəlaqə İttifaqı; United Nations Conference on Trade and Development (UNCTAD) - Ticarət və inkişaf üzrə BMT konferensiyası; Organization for Economic Cooperation and Development (OECD) - İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı, həmçinin bir sıra regional təşkilatlar.

Cədvəl 1-də milli İKT sektorlarının inkişafını əks etdirən əsas indekslər, o cümlədən verilmiş indeksin hesablanmış olan ölkələrin vaxt periodları və miqdarı verilmişdir.

Cədvəl 2.10

İKT sahəsinin inkişaf indeksləri

İndeks	**Period**	**Təşkilat**	**Ölkələrin sayı**
Rəqəmsal bölgü indeksi (*Digital Divide Index, DDI*)	1995-2003	Kütləvi kommunikasiya və jurnalistika üzrə ümumdünya təşkilatı	139
İKT sahəsində imkanlar indeksi (*ICT Opportunity Index,* ICTOI)	1995-2005	Beynəlxalq Elektroəlaqə İttifaqı	183
İKT yayılma İndeksi (*ICT Diffusion Index, ICTDI*)	1997-2004	Ticarət və inkişaf üzrə BMT konferensiyası	180
Rəqəmsal imkanlar indeksi (*Digital Opportunity Index, DOI*)	2004-2006	Rəqəmsal imkanlar platforması *	180 (62 ölkə üçün 2000-2006-cı illərin göstəriciləri verilmişdir)
Rəqəmsal texnologiyalara çıxış indeksi (*Digital Access Index, DAI*)	2002-2006	Beynəlxalq Elektroəlaqə İttifaqı	181
Şəbəkə hazırlığı indeksi (*The Network Readiness Index*)	2002-2012	Beynəlxalq iqtisadi forum	122 (2002) 142 (2012)
İKT inkişaf indeksi (*ICT Development Index, IDI*)	2002-2012	Beynəlxalq Elektroəlaqə İttifaqı	155

** Digital Opportunity Platform - Beynəlxalq Elektroəlaqə İttifaqı, Ticarət və inkişaf üzrə BMT konferensiyası, Koreya Respublikası İKT Nazirliyi (MIC), Koreya Respublikasının rəqəmsal imkanlar və inkişaf üzrə Agentliyi (KADO) ilə əməkdaşlığa əsaslanan təşkilatdır.*

Cədvəldə verilmiş olan indekslərin strukturlarının təhlili göstərir ki, onlar həm milli, həm də dünya İKT bazarının strukturunu, həmçinin bu və ya digər dövlətin dünya İKT bazarında malik olduğu mövqeyi ətraflı surətdə əks etdirir. Daha erkən indekslər (Orbicom, ICTOI) stasionar telefon əlaqəsinin istifadəsi və istehlakçıların fərdi kompyuterlərlə təmin edilməsi üzrə göstəriciləri əhatə edir. Sonrakı indekslər (ICTDI, DOI) İnternet şəbəkəsinin inkişafı üzrə müəyyən göstəriciləri əks etdirir. İKT-nin inkişaf indeksi (IDI) isə bu sahədəki müasir tendensiyaları və tələbatları əks etdirir və onların strukturunda, mobil İnternet əlaqənin istifadəsi üzrə komponentlər geniş yer tutur. Bu İndeks bu və ya digər ölkədə İKT-nin inkişaf səviyyəsini müəyyən etməklə, bu indeks üzrə dövlətlərin reytinqini təyin etməyə kömək edir. Müəyyən vaxt ərzində sektorda ölkələrin nailiyyətlərini və geriləmələrini, problemlərini, daha doğrusu, üstün və zəif tərəflərini müəyyən etməyə imkan verir.

İKT-nin yayılma indeksi hal-hazırda Beynəlxalq Elektroəlaqə İttifaqı IDI tərəfindən hesablanır. Bu indeksin hesablanmasında 11 inkişaf göstəricisindən istifadə olunur. Göstəricilər üç qrupa bölünür. Onlar da öz növbəsində üç subindeks şəklində təqdim olunmuşdur: çıxış subindeksi, istifadə subindeksi və biliklər subindeksi.

Hər qrupa öz qrupu daxilində bərabər çəkiyə malik olan bir sıra göstəricilər daxildir. Sxematik nöqteyi-nəzərdən ICTDI strukturu IDI strukturu ilə bənzərdir (şəkil 2.1).

İKT sahəsinin inkişaf dinamikası indeksi – ICTDİ		
Çıxış subindeksi	İstifadə subindeksi	Biliklər subindeksi
100 nəfər üçün stasionar telefon xətlərinin miqdarı	İnternetdən istifadə edən əhalinin payı	Yaşlı əhalinin təhsil səviyyəsi
100 nəfər üçün mobil əlaqə istifadəçilərinin sayı	İnternet bağlantıya qoşulan abonentlərin sayı	Orta təhsil səviyyəsi
Bir istifadəçi üçün beynəlxalq İnternet kanalının (bit/s) keçirmə qabiliyyəti	Mobil İnternet bağlantısı abonentlərinin sayı	Ali təhsil səviyyəsi
Fərdi kompyuteri olan ev təsərrüfatının payı		
İnternet şəbəkəyə çıxışı olan ev təsərrüfatının payı		

Şəkil 1. İKT sahəsinin inkişaf dinamikası indeksi strukturu - ICTDI

Sxematik olaraq, qeyd etdiklərimizi aşağıdakı kimi ifadə etmək olar:

ICTDI = (çıxış subindeksi) x 0,4 + (istifadə subindeksi) x 0,4 + (biliklər subindeksi) x 0,2.

Eyni zamanda ayrı-ayrı qruplara daxil olan göstəricilərin hər biri qrup daxilində xüsusi çəkiyə malikdir.

Bildiyimiz kimi, inkişaf etmiş Qərb ölkələrində informasiya sektoru 1960-cı illərdə yaranmışdır və kifayət qədər yüksək templərlə inkişaf etmişdir. Əgər 1960-cı illərin birinci yarısında ABŞ-da sözügedən sektorun payı ("biliklər sənayesi" o zamanlar informasiya sektoru belə adlandırılırdı) 29 - 34% təşkil edirdisə, 1970-ci illərdə verilmiş sektorun inkişafı istehsal edilən ümumdaxili məhsulun həcmində standart sənaye istehsalının azaldılması ilə son dərəcə intensiv surətdə davam etmişdir. Klassik sektorlarda məşğul olan əmək resurslarının da iqtisadiyyatın yeni sektoruna axını baş vermişdir. 1980-ci illərin sonunda ABŞ-da verilmiş sektorda çalışanların payı ümumi çalışanların 60%-ni təşkil etmişdir, informasiya və biliklər istehsalı sahəsində yaradılan ÜDM payı isə artaraq 1995-ci ildə milli məhsulun 43%-ni təşkil etmişdir.

İldən-ilə informasiya texnologiyaları həm iqtisadiyyata, həm də insanların gündəlik həyatına getdikcə daha güclü təsir göstərir. İqtisadi sahələrin və dövlət idarəetməsinin, o cümlədən hərbi sahələrin böyük əksəriyyətinin keyfiyyət inkişafının mərhələləri (energetika, səhiyyə, təhsil, ticarət, maliyyə sektoru, sığorta və s.) informasiya texnologiyalarının tətbiqi ilə əlaqədardır.

Hazırda Bulud texnologiyası internet texnologiya xidmətləri üçün əsası internet protokollarına əsaslanan yeni bir xidmət servisi olaraq xarakterizə olunur. Bu sistem sayəsində proqramlarla həyata keçirilən bir çox texnoloji əməliyyat artıq internet üzərindən virtual olaraq həyata keçirilir. Bu, internetlə birlikdə məsafədən asılı olmayaraq informasiyaları əldə etmək və onlarla işləmək imkanı yaradır.

Aşağıdakı şəkildə Bulud texnologiyasını izah edən məntiqi sxem verilmişdir.



Şəkil 2. Bulud texnologiyasını izah edən məntiqi sxem.

Təməlini üçüncü platforma texnologiyalarının təşkil etdiyi tipik həll nümunəsi kimi, korporativ informasiya və yaxud, sosial şəbəkələrdə olan informasiyaya çıxış üçün mobil qurğulardakı əlavələrdən istifadə, verilmiş məlumatların real zaman daxilində təhlili və əldə edilmiş informasiyadan asılı olaraq, fəaliyyətin tənzimlənməsini göstərmək olar. Eyni zamanda həm əlavə, həm də məlumatlar müxtəlif buludlarda, yəni, xüsusi və ya açıq buludlarda yerləşə bilər.



Şəkil 3. İT bazarının təkamülü üzrə platforma.

Qeyd edildiyi kimi, Üçüncü platforma konsepsiyası dörd elementə əsaslanır: böyük məlumatlar, mobil qurğular, bulud servisləri və sosial texnologiyalar.

Böyük məlumatlar dedikdə, əhatəli çıxış, emal və təhlil yolu ilə müxtəlif formatlı böyük həcmli məlumatlardan dəyərlərin qənaətli çıxarışı üçün nəzərdə tutulmuş yeni nəsil texnologiya və memarlığı başa düşülür. Böyük məlumatlar texnologiyası üç fərqləndirici əlamətə malikdir: sürət, variativlik və həcm.

Həcm onunla ifadə olunur ki, böyük onlarla terabaytlıq məlumatlar kütləsi təhlil olunur. Sürət ondan xəbər verir ki, məlumatların ətraflı əhatəsi və emalı real zamana yaxın rejimdə həyata keçirilir və yaxud, təşkilatda məlumatların toplanması prosesi yüksək sürətlə aparılır. Variativlik isə ona dəlalət edir ki, məlumatlar bir və yaxud, bir neçə mənbədən müxtəlif formatlarda toplanır.

Diaqram 1. Dünyada böyük məlumatlar texnologiyasına sərf olunan məsrəflər



Bulud həlləri Üçüncü Platformanın əsasını təşkil edir, belə ki, onlar eyni zamanda müxtəlif mobil qurğular vasitəsilə həyata keçirilən informasiya resurslarına kənar keçidə malikdirlər. Bulud servisləri avadanlıqların standartlaşdırılması, virtuallaşdırılması, proqram əlavələrinin yeni birgə istifadə prinsipləri, o cümlədən müştərinin həqiqətən istifadə etdiyi resursların yeni ödəniş formaları hesabına qənaət əldə etmək imkanı verir.

Mobil qurğuların geniş yayılması və mobil çıxışın təşkili Üçüncü platformanın daha bir son dərəcə vacib elementlərindən biridir. Mobil qurğuların satış tempinin ikimənalı illik artımı şirkətləri şəxsi mobil qurğularının korporativ İT mühitinə təhlükəsiz və effektiv surətdə inteqrasiyası üçün xüsusiləşdirilmiş həllərin tətbiqi üsulu ilə əməkdaşların şəxsi qurğularının (BYOD) istifadəsi konsepsiyasını daha fəal tətbiq etməyə stimullaşdırır. Mobil əlavələr qurğu ilə istifadəçi arasında növbəti bənd rolunu oynayır. Bu gün biznes əlavələrin böyük əksəriyyəti mobil versiyaya malikdir və yaxud, mobil əlavələrin işlənib hazırlanması mühitini təqdim edirlər. Ev istifadəçiləri üçün əlavələrin işlənib hazırlanması bütün mobil əlavələr bazarının inkişafına son dərəcə güclü təsir göstərir.

IDC Üçüncü platformanın bazası əsasında həllərin sürətli inkişafına səbəb olan bir neçə amili fərqləndirir:

- **Əlverişlilik.** İnformasiyaya çıxış yollarının genişləndirilməsi Üçüncü platforma texnologiyalarının geniş yayılmasına gətirib çıxarmışdır. İnformasiyaya çıxış istənilən zaman, istənilən yerdə və istənilən cihaz vasitəsilə təmin edilə bilər.

Diaqram 2. Dünyada mobil texnologiyalara sərf olunan məsrəflər



- **Qiymət.** Üçüncü platforma üçün daha münasib qiymət əmələgəlmə modeli xarakterikdir, bu model sayəsində qiymət faktiki istifadə əsasında müəyyən edilir.
- **Satış kanalları.** İkinci platformaya əsaslanan Korporativ əlavələr, müxtəlif statuslu partnyorlar vasitəsilə yayılır (resellerlər, sistem inteqratorları, distribyutorlar). Üçüncü platformanın inkişafı ilə əlavələrə çıxış hər gün daha çox bulud texnologiyaları (icarə yolu ilə) və yaxud, əlavələrin mobil versiyalarının yerləşdirildiyi xüsusi korporativ magazalar vasitəsilə həyata keçirilir.
- **Özünəxidmət.** İkinci platformanın həlləri üçün yüksək kapital məsrəfləri və zaman baxımından uzun-uzadı quraşdırılmalar səciyyəvidir. Üçüncü platforma dövründə İT həllərinin əldə edilməsi kapital məsrəflərdən əməliyyat məsrəflərinə (icarə ödənişləri) keçir, bu da məsrəflərin azalmasına və tətbiq prosesinin sürətlənməsinə səbəb olur.

Belə ehtimal olunur ki, üçüncü platforma texnologiyalarının bazara daxil olması əsasında yaradılmış həllərin inkişafı cari onillik ərzində dünya İT bazarının ən başlıca hərəkətverici qüvvəsinə çevriləcək və IDC qiymətləndirmələrinə əsasən, gələcək artımın 75%-dən artıq bir hissəsini təmin edəcək.

Diaqram 3. Dünyada İT məsrəfləri



Müasir İT infrastrukturu üçün tətbiq edilən məhdudlaşdırıcı amillər mövcuddur: məkanların sahəsi, yüksək enerji sərfiyyatı, fərdi qoşulma və quraşdırılma zərurəti, yüksək ixtisaslı xidmət heyətinə ehtiyac.

IDC qiymətləndirmələrinə əsasən, şəbəkə avadanlıqlarının, serverlərin və məlumatların xarici yadda saxlama sistemlərinin ümumi bazarı yaxın beş il ərzində orta illik 0,1% tempi ilə artacaq, bu halda şəbəkə avadanlıqları, serverlər və xarici YSS konvergent sistemlərinin tədarükü 19,6% təşkil edəcək.

Məsələnin sırf iqtisadi tərəfindən əlavə, onu da qeyd etmək lazımdır ki, İKT sektoru daha davamlı unikal ictimai münasibətlər qurmaq qabiliyyətinə malikdir. McKinsey şirkəti tərəfindən həyata keçirilmiş istehlak bazarlarının sonuncu tədqiqatları təsdiq edir ki, yalnız, səhiyyə, kənd təsərrüfatı və infrastrukturdan geridə qalmaqla İKT müasir cəmiyyətə intensiv təsir göstərmək nöqteyi-nəzərindən dörd aparıcı təsərrüfat sektorundan biridir (şəkil 1).

Diaqram 4. İctimai inkişafa ən çox təsir göstərən sahələr (sorğuda iştirak etmiş istehlakçıların ümumi sayı üzrə %-lə)



2006-cı ildən etibarən İKT-nin müasir cəmiyyət üçün əhəmiyyəti iqtisadiyyatın digər sektorları ilə müqayisədə daha yüksək templərlə artmağa başlamışdır. Təkcə bunu qeyd etmək kifayət edər ki, 2009-cu ilin sonunda dünyada mobil telefon sahiblərinin sayı 4 mlrd nəfərə qədər artmış, İnternetə qoşulmaq imkanı olan ailələrin sayı isə 422 milyona çatmışdır.

Bir çoxları İKT sektorunun əhəmiyyətli sosial dividentlər gətirə bildiyini dərk etmiş və öz vətəndaşlarına tibbi, təhsil, dövlət xidmətlərinin təqdim edilmə səviyyəsinin yüksəldilməsinə yönləndirilmiş iri miqyaslı proqramlar həyata keçirməyə başlamışlar. Bütün bunlar yalnız külli miqdarda investisiya qoyuluşu ilə yanaşı dövlət tənzimləməsində dəyişikliklərin aparılmasını tələb edir.

Bu gün İKT sektorunda investisiya həm inkişaf etmiş ölkələrdə, eləcə də inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın hərəkətverici qüvvəsi rolunu oynayır. İKT hazırlığı ilə rəqabətqabiliyyəti səviyyəsi arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Daha yüksək inkişaf etmiş İKT sektoruna malik ölkələr daha yüksək səviyyədə rəqabətqabiliyyətinə malikdirlər, belə ki, informasiya texnologiyaları iqtisadiyyatın effektivlik dərəcəsini uzunmüddətli perspektivdə yüksəltmək imkanı verir.

Beləliklə, geniş zolaqlı əlaqələrə investisiya qoyuluşunun 10%-ə qədər artırılması ÜMM-un orta illik artım tempini yüksəldir, bəzi məumatlara görə həmin göstərici 0,6-0,7 faizə qədər yüksələ bilir.

Diaqram 5. İKT üzrə investisiya qoyuluşlarının 10 faizə qədər artırılması zamanı ÜMM-un artımı, %



Bu iqtisadi artım iqtisadiyyata birbaşa və dolayısıyla təsir göstərmək nəticəsində əldə olunur. Birbaşa effektlər müvafiq infrastruktura (həm dövlət, həm də şəxsi biznes) investisiya qoyuluşu, artan əlverişlilik və informasiya xidmətlərinə keçid, İKT sektorunun özündə məşğulluğun artırılması ilə şərtlənmişdir. Birbaşa effektlərə klassik misal olaraq, Cənubi Koreyanı göstərmək olar, burada İKT sektorunun inkişafı təkcə 1999-2003-cü illər ərzində 43% təşkil etmişdir. Eyni dövrdə Yaponiyada sözügedən təsir mənfi olmuş, Malayziyada - 1%-dən aşağı, Sinqapurda isə - təqribən 5% təşkil etmişdir.

Hər bir halda dövlət informasiya texnologiyalarının effektiv inkişafı və yayımında mərkəzi rol oynamaqda davam edir. Daha müvəffəqiyyətli ölkələrdə İKT sektoru üzrə uzunmüddətli dövlət inkişaf strategiyası işlənib hazırlanmışdır və inkişaf proqramlarının tələb olunan ilkin maliyyələşdirilməsi təmin edilmişdir.

Nəticə

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyaları, mütərəqqi yenilikləri özündə birləşdirən çoxşaxəli innovasiya sistemləri hər bir dövlətin ümumi inkişaf səviyyəsindən və potensialından xəbər verən, sosial-iqtisadi, mədəni-intellektual yüksəlişi təmin edən vacib meyarlardan birinə çevrilmişdir. Mövcud iqtisadi tərəqqi, demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı nöqteyi-nəzərindən ən yüksək inkişaf mərhələsinə çatmış dövlətlərin bu nailiyyətləri, həm də informasiya iqtisadiyyatına əsaslanan mütərəqqi biliklər nəticəsində əldə etdiyi danılmaz faktdır. Dünya təcrübəsi göstərir ki, iqtisadi inkişaf strategiyasını elmi-texniki əsaslar üzərində qurmaqla innovasiyanın inkişafını dövlət quruculuğu prosesinin mühüm təminatı hesab edən, hər zaman proqressiv ənənələrə istinad edən dövlətlər milli tərəqqidə, dünya arenasında özünəməxsus yerlərə malikdirlər.

Ümumiyyətlə, iqtisadi dinamikanın inkişafı yuxarıda qeyd olunduğu kimi uzunmüddətli xarakterli meyillər əsasında formalaşan artım nəzəriyyələri ilə ifadə olunur. Ancaq, iqtisadi inkişafın artım nəzəriyyəsi ilə bərabər iqtisadi fəallığın tərəddüd xarakterinin əsas götürüldüyü «inkişafın dövriliyi» nəzəriyyələri daha geniş yayılmışdır.

Onu da qeyd etmək lazımdır ki, “İnformasiya, informasiya texnologiyaları və informasiyanın mühafizəsi haqqında” Qanunun yeni redaktəsində informasiya resursları mülkiyyətçisi və infor-

masiya istifadəçisi (istehlakçısı) anlayışları yoxdur, onlar informasiya sahibi anlayışı ilə əvəz edilmişdir: İnformasiya sahibi - informasiyanı müstəqil surətdə yaratmış və ya qanun və yaxud, müqaviləyə əsasən hər hansı əlamətlər üzrə müəyyən olunan informasiyadan istifadəyə icazə vermək və ya qadağan etmək hüququna malik olan şəxsdir.

Bu gün Avropa İttifaqı ölkələrində vətəndaş cəmiyyətinə və biznes sektoruna göstərilən 20 əsas elektron xidmət növünün bir çoxu, o cümlədən rəsmi sənədlərin verilməsi, vergi və gömrük bəyannamələrinin, statistik hesabatların təqdim olunması, məşğulluq orqanları vasitəsilə iş axtarışı, ali məktəblərə və dövlət qulluğuna qəbul üzrə test imtahanlarında iştirak etmək üçün elektron ərizələrin qəbulu və s. ölkəmizdə də tətbiq edilməkdədir. Dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin və şəffaflığının artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınmasında elektron xidmətlərin təşkili bu istiqamətdə işlərin sürətləndirilməsinə ciddi təkan vermişdir. Dövlət orqanları tərəfindən, xüsusən əhali ilə bilavasitə təmasda həyata keçirilən xidmətlərin, o cümlədən fərdi sahibkarların və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatı, daşınmaz əmlaka dair çıxarışların və arayışların verilməsi, gətirilən və aparılan malların bəyan edilməsi, məcburi dövlət sosial sığortası üzrə hesabatların və sığortaolunanlar barədə məlumatların təqdim olunması, ünvanlı sosial yardım və pensiya təyinatı üçün ərizələrin, telefon çəkilişi və internetə qoşulmaq üçün müraciətlərin qəbulu və s. elektron formada göstərilməsi təmin edilmişdir. Əksər dövlət orqanlarında göstərilən xidmətlərə görə nəzərdə tutulan rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinə şərait yaradılmışdır. Dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin təşkilinə və vətəndaşların dövlət orqanlarının təqdim etdiyi elektron xidmətlərdən "bir pəncərə" prinsipi əsasında istifadəsinə şərait yaratmaq məqsədilə www.e-gov.az "elektron hökumət" portalı istifadəyə verilmişdir. Bu gün bütün sosial təbəqələr bu texnologiyalardan istifadə etməklə hakimiyyət orqanları ilə interaktiv münasibət qurmağa başlayırlar. "E-hökumət" həllərinin tətbiqinin genişləndirilməsi üzrə aparılan intensiv fəaliyyətə görə hazırda BMT-nin "Elektron hökumət"in inkişaf səviyyəsinə görə reytinqində Azərbaycan 193 ölkə arasında 28 pillə irəliləyərək, 68-ci yerdə bərqərar olub. Hazırda "Elektron hökumət" portalına ölkənin 46 mərkəzi icra hakimiyyəti orqanı qoşulub, portalda təqdim edilən xidmətlərin sayı 405-ə çatıb.

Ölkəmizdə elektron hökumət qurulmasına hazırlıq məqsədilə maraqlı tədbirlər hazırlanır, tətbiq olunur. Respublikada seçkilərin gedişini izləmək üçün məntəqələrdə yaradılan veb-kameralar proseslərin canlı izlənilməsini təmin etməklə eyni zamanda obyektivlik və şəffaflıq baxımından əhəmiyyətlidir.

Son illərdə dövlət qulluğuna işə qəbulun, ali məktəblərə qəbul imtahanlarının İKT-dən istifadə etməklə həyata keçirilməsi də bu baxımdan əhəmiyyətlidir. İqtisadiyyatın bütün sahələrinə nüfuz edən İKT-dən istifadə etməklə müxtəlif istiqamətlərə işləyən nəqliyyat vasitələrinə biletlərin alınmasına də nail olmaq mümkündür.

İnternet sivilizasiyanın indiyə kimi topladığı nələr varsa, hamısını dəyişir. Yəni bəşər tarixində İKT-yə qədər cəmiyyətə onun qədər inqilabi dəyişiklik gətirə biləcək elmi-texniki nailiyyət olmayıb. Əlbəttə, hər yeniliyin təməlində inkişaf amili dayanır. Uzaqları yaxın edən, "elektron yaddaş" sayılan İKT vasitələri zamanın möcüzəsi olmaqla insanlar arasında təmas, elmin inkişafına yardım edən ən səmərəli vasitədir.

Bu gün tez-tez rastlaşdığımız "Sosial şəbəkə, sosial media" mövzusu gündəlik həyat tərzimiz kimi məişətimizə də daxil olub. Elə bir insan yoxdur ki, mobil telefonlardan, müxtəlif markalı kompyuter və nootbuklardan istifadə etməsin. Son zamanlar Azersell-in start verdiyi 3G İKT-nin ən müasir növü olsa da, sonuncu deyil. Bunlar insanların rahatlığını təmin edir.

ƏDƏBİYYAT

1. Azərbaycan rəqəmlərdə 2014. Bakı, 2015.
2. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində.
3. İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun web-saytı.
4. Azərbaycan rəqəmlərdə 2014. Bakı, 2015.
5. Kərimov S.Q., Həbibullayev S.B., İbrahimzadə T.İ. «İnformatika». Dərslik, Bakı, 2002.
6. B.V.Korneyçuk “İnformasiya iqtisadiyyatı”, dərs vəsaiti, tərcümə, Bakı, 2010.
7. Дзюбенко А.Л. «Информационные системы в экономике » Москва 2007.
8. Лепа Р.Н. Информационные технологии в финансовом Менеджменте. Донецк 2001,86 с.
9. Mənbə: International Telecommunication Union / Beynəlxalq Elektroəlaqə İttifaqı.
10. Mənbə: International Telecommunication Union / Beynəlxalq Elektroəlaqə İttifaqı.
11. Мянбя: Развитие и интеграция информационно-коммуникационных технологий как новый вызов для человека и общества Г.В. Лукьянов.
12. Никитенкова М.А. Инновационная деятельность ИКТ корпораций США в условиях глобализации // Россия и Америка в XXI в. – М., 2012. - № 2
13. Mənbə: International Telecommunication Union / Beynəlxalq Elektroəlaqə İttifaqı.
14. Mənbə: https://az.wikipedia.org/wiki/Bulud_texnologiyası.
15. Mənbə: İDC, 2014.
16. Mənbə: IDC, Worldwide Big Data Technology and Services 2014-2018 Forecast, 2014.
17. Mənbə: IDC, Worldwide and U.S. Mobile Applications Download and Revenue Forecast; Worldwide Quarterly Mobile Phone Tracker, 2014.
18. Mənbə: International Telecommunication Union / Beynəlxalq Elektroəlaqə İttifaqı.
19. Mənbə:https://az.wikipedia.org/wiki/Bulud_texnologiyası.
20. Mənbə: IDC, IDC Worldwide Black Book, Q2 2014.
21. Mənbə: September2008 McKinsey survey.
22. Mənbə: Qiang C. and C. Risotto “Economic Impacts of Broadband.” Information and Communications for Development 2009: Extending Reach and Increasing Impact. WashingtonD.C.: WorldBank 2009.

Натаван Филман кызы Гасанова
Национальная Академия Наук Азербайджана
Институт экономики, диссертант
пред. Азербайджанском Государственном
Педагогическом Университете

Связь между информационным сектором и экономическим развитием
Определение

Резюме

В статье рассматривается статистический анализ ИКТ в Азербайджане, оценка его текущего состояния, регулирование экономических отношений на рынке информационных продуктов и услуг.

Ключевые слова: информация, системы информационного обеспечения.

Natavan Filman Hasanova
Azerbaijan National Academy of Science
Institute of Economics dissertant,
teacher at the Azerbaijan State
Pedagogical University

Connection between the information sector and economic development determination

Summary

The article deals with the statistical analysis of the ICT in Azerbaijan, the assessment of the current state of affairs, the regulation of economic relations in the market of information products and services.

Key words: information supply systems, information service systems.

UOT 338.46

İlhamə Tərlan qızı İSGƏNDƏROVA
“Odlar Yurdu” Universiteti

İAŞƏ XİDMƏTLƏRİ SİSTEMİNDƏ KOMPLEKS MARKETİNQ TƏDQİQATLARININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Bu məqalədə kompleks marketinq tədqiqatlarının nəzəri aspektləri, onun məzmunu və qarşıya qoyduğu məqsədlər nəzərdən keçirilmiş, marketinq xidmətləri sistemində kompleks marketinq tədqiqatları işlənib hazırlanmış, habelə iaşə xidmətləri sistemində kompleks marketinqin spesifik xüsusiyyətləri aşkar edilmişdir.

Açar sözlər: kompüter marketinq, xüsusi marketinq, marketinq üsulları, klassifikasiya xidməti.

Giriş

Bu məqalə aşağıdakı mülahizələrlə kompleks marketinq tədqiqatlarının iaşə xidmətləri sistemində spesifik xüsusiyyətlərinə həsr olunur:

- iaşə sferasının məzmunu və xarakteristikası;
- iaşə müəssisələrinin növlərinin təsnifatı;
- iaşə xidmətlərinin kompleks marketinq tədqiqatlarının məqsədləri;
- iaşənin marketinq xidmətlərinin aparılması və təşkili prosesi;
- iaşə müəssisələrinin müştərilərinə dair marketinq tədqiqatları;
- iaşə xidmətlərinin strateji və taktiki marketinqinin xarakteristikası;
- iaşə xidmətlərinin mahiyyəti və fərqləndirici xüsusiyyətləri;
- iaşə xidmətlərinin istehsalı və bu xidmətlərin göstərilməsi sisteminin təkmilləşdirilməsi prosesinin zəruriliyinə səbəb olan amillər;
- tədbirlər marketinqi və iaşə xidmətlərinin irəli çəkilməsində onun rolu;
- restoran biznesi sahəsində marketinq xidmətlərinin aparılmasının xüsusiyyətləri;
- iaşə müəssisələrinin françayz şəbəkələrinin marketinqinin xüsusiyyətləri;
- iaşənin marketinq xidmətlərinin səmərəliliyinin qiymətləndirilməsinin ümumiləşdirilmiş modeli və digər bu kimi məsələlərə toxunulacaqdır.

Tədqiqatın obyekti

İlk növbədə qeyd edək ki, **iaşə sistemi** qida məhsullarının istehsalı, satışı və istehlakının təşkili ilə bağlı fəaliyyət növünü ifadə edir.

Buna görə də, **iaşə müəssisələrinə** kulinariya məhsulları, un, qənnadı və bulka məmulatları da daxil olmaqla, qida məhsullarının istehsalı, satışı və istehlakının təşkili üçün nəzərdə tutulmuş müəssisələr auddir [1].

İaşə təşkilatlarının fəaliyyətinin öz spesifikası vardır. Buraya aşağıdakılar daxidir:

- Hazır məhsulun istehsalı, satışı və istehlakının təşkili funksiyalarının məcmusu;
- İaşə təşkilatlarının fəaliyyəti istehsalın təşkilinə bir sıra sanitar-gigiyenik tələblərlə məhdudlaşır;
- Bu fəaliyyət müvəqqəti və müddətli xarakter daşıyır;
- Buraxılan məhsulun və satılan hazır malların çeşidi, tələbatın xarakterindən, müştərilərə göstərilən xidmətin xüsusiyyətlərindən, müştərilərin cins-yaş tərkibindən və xarakterindən asılı olur;
- İaşə firmalarının işi, onların xidmət etdikləri müəssisələrin, şirkətlərin, firmaların iş rejimindən asılı olur, bu da işin intensivliyini tələb edir;
- Xidmətlərə olan tələbat qeyri-müntəzəm xarakter daşıyır.

Beləliklə, iaşə sisteminin fəaliyyətinin xüsusiyyətlərinə, firmada eyni zamanda həm istehsalın, həm də əyləncə xidmətlərinin olması; müştərilərin emosional xarakteristikalarının “qonaq-restoran” mövqeyi ilə müəyyənləşən dərəcələri və s. aiddir.

İaşə firmalarını, onların fəaliyyətinin xarakterindən asılı olaraq:

- müştərilərə çatdırmaq imkanı ilə qida məhsullarının istehsalını təşkil edən firmalar;
- qida məhsullarının istehsalını, satışını və həmin yerdə istehlak edilməklə, evə çatdırmaq imkanı ilə müştərilərə xidməti təşkil edən firmalar;
- qida məhsullarının satışını, həmin yerdə istehlak imkanı ilə təşkil edən firmalar;
- səyyar xidmət firmaları;
- mehmanxanaların nömrələrində və digər yerlərdə müştərilərə yemək çatdırmağı və qulluq göstərməyi təşkil edən firmalar olmaqla, əsas növlərə ayırmaq olar.

Bundan əlavə, iaşə firmaları *restoran, kafe, yeməkxana, qəlyanaltıxana, cəld xidmət göstərən müəssisələr, bufet, kafeteriya, qəhvə dükanı, aşpazlıq mağazası* kimi növlər üzrə təsnif olunur.

İaşə müəssisələri sistemində kompleks marketinq tədqiqatları xeyli yüksək rol oynayır. Yuxarıda göstərilmiş tədqiqatlardan yaxşı məlumdur ki, ümumi halda, marketinqin mahiyyəti - bazar tələbatlarının təmin edilməsindən ötrü bazar yönümlü biznesin həyata keçirilməsidir. Bu səbəbdən, ***iaşə sisteminin marketinqi - öz məhsulunun və xidmətlərinin, müştərilərin tələbatının ödənilməsinə və mənfəətin yüksək səviyyəsinə nail olmağa yönəlmiş istehsalının və satışının səmərəli idarə olunmasıdır.***

Kompleks marketinq tədqiqatlarının aparılması, marketinqin strategiyasının və taktikasının işlənib hazırlanması, marketinqin idarə olunması - iaşə firmasının marketinqinin idarə olunmasının əsas komponentləridir.

Kompleks marketinq tədqiqatları

İstənilən iaşə firmasının səmərəli praktik fəaliyyəti üçün zəruridir. İaşə sahəsində marketinq tədqiqatlarının məqsədi, müxtəlif idarəetmə qərarlarının qəbuluna məsul olan heyətin müştərilər, rəqiblər, qiymətlər, mallar, xidmətlər və s. haqqında zəruri məlumatlarla vaxtında təmin olunmasıdır. Bu halda marketinq tədqiqatının aparılması nəticəsində əldə olunmuş marketinq məlumatları idarəetmə prosesində istifadə olunmalıdır. İaşə firmasında marketinq tədqiqatlarının idarə edilməsi mühüm idarəetmə vəzifələrindən biridir.

İaşə sferasının müasir idarəetmə sistemində tez-tez elə bir hala rast gəlinir ki, maraqlı tərəflərin müzakirəsindən sonra son nəticədə marketinq tədqiqatının aparılması uzaq perspektivə təxirə salınır. Bu qədər baha başa gələn tədbirə sərf olunmuş investisiyalar səmərəsiz olur.

Buna görə də, marketinq tədqiqatı aparılmasına dair qərar qəbul edərkən, kompleks marketinq tədqiqatlarının aparılmasını dəqiq surətdə təşkil etmək lazımdır. Marketinq tədqiqatlarının aparılması metodlarına münasibətdə, iaşə firmasının fəaliyyətində daha zəruri üsullar - sorğu metodlarıdır (anket sorğusu, müsahibə, eksperiment, müşahidə, SWOT-təhlil).

Kompleks marketinq tədqiqatlarının aparılması xüsusi biliklər, praktik təcrübə və resurslar tələb edir, buna görə də, onların aparılması üçün müxtəlif marketinq agentliklərini və məsləhətçiləri cəlb etmək məqsədəuyğundur.

İaşə firmalarında hər bir kompleks marketinq tədqiqatı müştərilərin münasibətlərinin və fikirlərinin aydınlaşdırılmasını əhatə edəcəkdir. Son nəticədə müştərilər istənilən iaşə firmasının taleyini müəyyən edirlər. Əsas məsələ ondadır ki, onların davranışı, münasibətləri, fikirləri qəti olmur. Müştərilər öz seçimlərində dəyişkənlikləri, qərarsızlıqları ilə fərqlənirlər, onların fikirlərini qabaqcadan müəyyənləşdirmək olmur. Buna görə də, müştərilərin tələbatını ən yaxşı üsulla ödəməkdən, onların təklif olunan yemək, xidmət, qiymət, əyləncə tədbirləri barədə nə düşündüklərini və hiss etdiklərini bilməkdən ötrü, onların davranışını öyrənmək lazımdır.

İaşə sistemində müştəriləri öyrənməkdən ötrü tez-tez sorğu metodları: anket sorğusu və müsahibə metodları tətbiq olunur. O cümlədən, anket sorğusu - müştərilərin qabaqcadan tərtib olunmuş anketləri doldurmaları yolu ilə, onların qeyri-şəxsi sorğusudur. Marketinqdə anket sorğusu, sadəcə anketlərin tərtib olunması və doldurulması olmayıb, xeyli mürəkkəb prosesdir. İaşə biznesinin gündəlik məsələlərinin həllindən ötrü, "ekspress-tədqiqat" adlandırılan sadə tədqiqat variantından və sairdən istifadə etmək olar.

Hər bir anket suallardan ibarət olur, onlar açıq və qapalı suallara bölünür. Praktika göstərir ki, iaşə firmalarında anket sorğusunu, müştərilərlə bilavasitə işləyən öz əməkdaşlarının qüvvəsi ilə aparmaq lazımdır. Bunun üçün kiçik vəzifələri tutan heyətlə seminarlar keçirmək, tədqiqatın məqsədlərini və aparılma şərtlərini onlara izah etmək, əməkdaşları motivasiya etmək lazımdır.

Xidmətlər marketinqi kompleksində *"Mystery Guest"* metodu ilə tədqiqat əhəmiyyətli yer tutur. Həmin metod iaşə firmasında rəqiblərin işinin diaqnostikası zamanı xidmətlərin monitorinqi qismində tətbiq olunur, xidmətdə mənfi halları və xidmət göstərən personalın biliklərindəki çatışmazlıqları aşkar etməyə kömək edir. Bu, iaşə biznesi üçün çox səmərəli metoddur, gələcəkdə əməkdaşların müzakirəsinə çıxarılacaq məsələlərə aydınlıq gətirməyə kömək edir.

İaşə xidmətləri sistemində kompleks marketinq tədqiqatları strateji və taktiki xarakter daşımalıdır

İaşə xidmətlərinin *strateji marketinqi* iaşə firmasının marketinq fəaliyyətinin mürəkkəb elementini ifadə edir. Marketinqin strategiyasının aydınlaşdırılması iaşə firmasının prioritetidir. Strateji marketinqin tətbiqində:

- bazar və onun inkişaf meyilləri haqqında aktual və zamanla uzlaşan məlumatları təmin edən marketinq tədqiqatlarının təşkili;
- əsas kompetensiyaların təkmilləşdirilməsi;
- müştərilərin məmnunluğunun monitorinqi nəzərdə tutulur.

İaşə xidmətlərinin marketinq strategiyası firmanın ümumi strategiyasının elementidir. Buraya, perspektivdə satışın və satışdan alınan mənfəətin artmasında nəticəyə nail olmaqdan ötrü, firmanın öz məhdud resurslarından necə istifadə etməsi daxildir. Bundan əlavə, strategiya, iaşə firmasının harada yerləşməsi, menyunun və xidmətlərin necə olması, interyerin necə olması ilə yanaşı, həm də hansı xidmətlərin göstəriləcəyini, reklam kitabçalarının, vizit kartlarının necə görünəcəyini, hansı xüsusi təkliflərin müştəriləri cəlb edəcəyini müəyyənləşdirir.

Belə hallarda marketinq kompleksinin komponentləri üçün konkret strategiyalar: ərzağa dair təkliflər strategiyası, qiymətqoyma strategiyası, irəliçəkmə strategiyası, xidmətgöstərmə strategiyası işlənib hazırlanır. Bu strategiyalara müvafiq olaraq, gələcəkdə iaşə sisteminin bütünlüklə operativ idarə olunması da həyata keçiriləcəkdir.

Qeyd etmək lazımdır ki, strateji marketinq, məqsədli seqmentlərin - ayrıca seqment-pozisiyalaşma üçün seqmentləşmənin və xüsusiləşdirilmiş təklifin aşkar edilməsindən ibarətdir. Bu iki proses bir-biri ilə ayrılmaz şəkildə bağlıdır və marketinq strategiyasını təmsil edir. Bu məsələlər əvvəlki araşdırmalarda ətraflı şəkildə nəzərdən keçirilmişdir.

İaşə sferası üçün seqmentləşmə prosesi, müştərilərin davranışı, istehlak xarakteristikalarını öyrənmək zərurəti ilə sıx bağlıdır. Rəqabət şəraitində marketinq əsasında iaşə firmasının idarə olunması və müştərilər ön plana keçir.

Müştərilərin davranışları - onların əmtəə və xidmətlər bazarında özlərini necə aparmaları, öz arzularını necə dərk etmələri, necə seçim etmələri, alış zərurətini necə qiymətləndirmələri və dərk etmələridir.

Alış barədə qərar qəbulu prosesində iaşə firmasının adi müştərisi bir neçə mərhələdən keçir.

- Əvvəlcə arzunun və ya tələbatın dərk olunması baş verir.
- Sonra seçim mərhələsi başlanır (hansı müəssisəyə getmək).
- Daha sonra isə, nəzərdə tutulmuş tədbirin reallaşdırılması həyata keçirilir.

Hal-hazırda iaşə müəssisəsinin fəaliyyətinin neçə seqmentə və məhz hansı seqmentlərə yönələcəyindən asılı olaraq, strategiyanın müəyyənləşdirilməsinin bir sıra variantları mövcuddur.

Qeyd olunduğu kimi, iaşə sferasında məhsul qismində xidmət meydana çıxır, xidmət dedikdə, müştərilərin qidalanma və asudə vaxt keçirmə tələbatlarının ödənilməsi üzrə firmanın fəaliyyətinin nəticəsi başa düşülür [2].

İaşə xidmətləri:

- qida məhsullarınının hazırlanması xidmətləri;

- qida məhsullarının istehlakının təşkili üzrə xidmətlər;
- qida məhsulların və alıcılıq mallarının satışı üzrə xidmətlər;
- asudə vaxtın təşkili üzrə xidmətlər;
- informasiya-məsləhət xidmətləri;
- digər iaşə xidmətləri kimi təsnif olunur.

İndi isə iaşə firmasının *menyudan, qiymətlərdən, onun yerləşmə yerindən, irəli çəkilməsindən, servisdən* ibarət olan marketinq kompleksinin spesifikasını müəyyənləşdirək. O cümlədən, **menyu** iaşə firmasında, bir qayda olaraq, kütlə və qiymətlər göstərilməklə, müştəriyə təklif olunan yeməklərin, kulinariya, un, qənnadı və bulka məmulatlarının, alıcılıq mallarının siyahısını ifadə edir. Marketinq kompleksinin elementi kimi, menyu satış məqsədi ilə müştəriyə təklif olunan məhsulu təcəssüm etdirir. Eyni zamanda, menyunun marketinqi - müştərilərlə, mövcud və potensial rəqiblərlə birlikdə bazara yönəlmiş menyunun idarə edilməsidir.

Xidmətlər marketinqi kompleksinin tərkib hissəsi, tələb və təklif arasındakı nisbəti müəyyən etməklə bazarın ən mühüm elementi olan **qiymətdir**. Qiymət, təkcə firmanın öz iş prosesində əldə etdiyi gəlirə deyil, müştərilərin qavrayışına da təsir göstərir. Bundan əlavə, qiymət rəqabət mübarizəsində vasitədir. Qiymətqoyma prosesində:

- istehsal xərclərinə yönəlmiş;
- rəqiblərin qiymətlərinə yönəlmiş;
- istehlakçıların mövcud tələbatlarına yönəlmiş üç əsas strategiya qeyd olunur.

İaşə müəssisəsinin fəaliyyətinin səmərəliliyi bir çox cəhətlərdən firmanın **yerləşdiyi yerdən** asılıdır. Bu, marketinq kompleksinin ən mühüm elementidir, çünki firmanın bütün sonrakı fəaliyyəti, onun yerləşdiyi yerin seçilməsindən xeyli dərəcədə asılı olur. İaşə firmasının yerləşəcəyi yerin seçilməsi zamanı mühüm meyarlar:

- məkanın təbii şəkildə gur yer olması;
- məkanın müştərilər üçün maksimum dərəcədə mümkün qədər əlverişli olmasıdır.

Buraya reklamdan, ictimaiyyətlə əlaqələrdən, satışın stimullaşdırılmasından, birbaşa marketinqdən, şəxsi satışdan və tədbirlər marketinqindən istifadə etməklə iaşə firmasının öz müştəriləri ilə ünsiyyətinin həyata keçirilməsini ifadə edən **irəli çəkmə** prosesini daxil etmək olar. Bu elementlər *kommunikasiya miksini* əmələ gətirir.

Marketinq kommunikasiyalarının elementlərini ayrı-ayrı tətbiq etməkdənsə, onlardan kompleks halında istifadə etməklə böyük səmərəliliyə və böyük nəticələrə nail olmaq olar, çünki belə yanaşmada müştərilərin, eyni zamanda ən müxtəlif mənbələrdən firma və onun xidmətləri haqqında məlumat almasının təbii strukturundan istifadə olunur.

Təbii olaraq, **servis** iaşə firmalarında aparıcı yerlərdən birini tutur, çünki bu, müştərilərin iaşə firmasında komfortlu şəraitdə olmasının təmin olunmasında və onların arzularına və tələbatlarına reaksiya verilməsində ifadə olunan müştərilərə xidmət prosesidir. Servisin idarə olunması:

- qonaqların qəbulu və onlara xidmət göstərilməsi standartlarının yaradılması;
- əməkdaşların qarşısına qoyulmalı olan tələblərin müəyyən edilməsi;
- personal tərəfindən göstərilən servisin lazımi səviyyəsinə riayət olunmasına nəzarət prosedurlarının təşkili;
- istehlakçıların servisdən məmnun qalmasının müvafiq çevikliklə aparılan monitorinqi kimi fəaliyyətlərin həyata keçirilməsindən ibarətdir.

Bundan əlavə, servisə personalla iş məsələləri daxildir. Bu işin həyata keçirilməsi servisin funksiyasına daxildir və əksinə, personal mövzusunu nəzərdən keçirərkən, servis mövzusundan yayınmaq mümkün deyildir.

Nəhayət, *personala* dair öz mülahizələrimizi bildirək, belə ki, bu, istənilən firma üçün, xüsusən də xidmətlər sferasında fəaliyyət göstərən firma üçün ən qiymətli resurslardan biridir. Personalın idarə olunması, onun seçilməsindən, təlimindən və motivasiyasından ibarədir. İaşə firmasının personalı xidmət göstərən heyət, istehsalat heyəti və inzibati heyət olmaqla üç qrupa

bölünür. İctimai iaşə müəssisələrinin personalının peşəkar etik davranış normalarına, onların öz vəzifə borcları hədlərində müştərilərlə münasibətdə nəzakət, ədəb, xeyirxahlıq, diqqət və xoş-rəftarlılıq göstərmələri daxildir. Göstərilən iaşə xidmətlərinin keyfiyyəti, personalın ixtisas səviyyəsindən xeyli dərəcədə asılı olur.

Qeyd etmək lazımdır ki, iaşə xidmətlərinin marketinqində diqqət, xidmətlərin göstərilməsi prosesinə cəmləşdirilir. Buraya:

- gizlilik;
- təchizatçıdan ayrılmazlıq;
- keyfiyyətin qeyri-sabitliyi və zamana görə saxlanıla bilməməsi;
- xidmətlərin funksional təyinatı;
- istehlak xüsusiyyətləri: bütövlük; etibarlılıq; səmərəlilik; aydınlıq; çeviklik; qonaqpərvərlik kimi xidmətin ümumi xüsusiyyətləri;
- investisiya cəlbediciliyi;
- sahə spesifikası;
- xarici amillərin təsirindən asılılıq;
- xidmətin maddi keyfiyyətləri ilə qeyri-maddi xüsusiyyətlərinin əlaqələndirilməsi;
- xidmətin keyfiyyətinin müştərilərin tələbatlarının müxtəlifliyindən asılılığı;
- xidmətin ödənişli və ödənişsiz olması və s. kimi iaşə xidmətləri sahəsindəki firmaların fəaliyyətinin və inkişafının xüsusiyyətlərini qabaqcadan müəyyən edən spesifik xüsusiyyətlər daxildir [3, səh. 45].

Bu münasibətdə xidmətlər göstərilməsi prosesinin subyekt-subyekt xarakteri, xidmətin ən əhəmiyyətli fərqləndirici xarakteristikalarından birini ifadə edir. Bu xarakteristika, xidmətin təchizatçısı ilə onun istehlakçısı olan müştərinin mütləq qaydada qarşılıqlı əlaqəsi ilə şərtlənir, belə əlaqənin olmaması xidmət göstərilməsi prosesinin özünü qeyri-mümkün edir.

İaşə xidmətlərinin mahiyyətinin və fərqləndirici xarakteristikalarının təhlilinin aparılmasından sonra, iaşə firmalarının fəaliyyətinin təhlilinə keçmək lazımdır. Müasir cəmiyyətdə iaşənin əhəmiyyəti kifayət qədər böyükdür, o, cəmiyyətdə təkcə iqtisadi münasibətlər sistemində deyil, həm də sosial münasibətlər sistemində mühüm rol oynayır. İaşənin inkişafı, məhsulların emalında, xammalın və məhsulun daşınmasında müasir texnologiyaların tətbiqi, kommunikasiyaların inkişafı və s. ilə bağlı bir çox istehsal proseslərinin intensivləşməsinə imkan yaradır. Tədqiq olunan sahənin inkişafı əhalinin maddi və mənəvi həyat səviyyəsinin yüksəlməsinə imkan yaradır və cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirən amillərdən biridir.

İaşə sferası iqtisadiyyatın elə bir sahəsini təmsil edir ki, onun əsasını, istehsalın təşkilinin və istehlakçılara xidmətin vahid formaları ilə xarakterizə olunan və ixtisaslaşmanın tiplərinə və növlərinə görə fərqlənən müəssisələr təşkil edir. İaşə xidmətləri sferasının yuxarıda sadalanan xüsusiyyətlərini nəzərə alaraq, istehsal və xidmətlərin göstərilməsi sisteminin təkmilləşdirilməsi prosesini şərtləndirən amilləri qeyd etmək lazımdır.

- İaşə xidmətləri, xidmət göstərilməsi və xidmətin nəticələrindən istifadə edilməsi proseslərinin əlaqələndirilməsini ifadə edir, bu proseslər müddət üzrə üst-üstə düşə bilər.
- Xidmətlər sferasında fərdi sahibkar və yaxud servis firması subyekt rolunda meydana çıxır.
- Müştəri, xidmət göstərilən obyekt olmaqla yanaşı, xidmətin göstərilməsi prosesində bilavasitə iştirak edir.
- Xidmət göstərilməsi və bu xidmətdən istifadə olunması şəxsi xarakter daşıyır.
- İaşə xidmətləri servisində fərdi əməyin xüsusi çəkisi yüksəkdir, əməyin keyfiyyəti, əməkdaşların bacarığından asılıdır.
- Xidmətin icraçısı, xidmətin nəticələrinin mülkiyyətçisi deyildir.
- İaşə xidmətləri lokaldır və qorunub saxlanıla bilmir, milli-regional xüsusiyyətlərə malik ola bilər.

Yuxarıda sadalanan komponentlər iaşə xidmətlərinin göstərilməsi proseslərinin təşkilinin və

idarə olunmasının spesifikasını müəyyən edir.

Beləliklə, iaşə xidmətlərinin istehsalı və təqdim olunması proseslərinə təsir edən növlərin, xarakteristikaların və amillərin irəli sürülmüş icmalı, bu mühüm sahənin firmalarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin optimal metodlarını müəyyənləşdirməyə imkan verir.

İaşə sistemində, bu sferada marketinq tədqiqatları aparılmasının özünəməxsus xüsusiyyətlərinə malik olan **restoran biznesi** xüsusi yer tutur. Bu xüsusiyyətlərə aşağıdakıları aid etmək olar.

- Restoran bazarının qeyri-sabitliyi, dinamikası, aktivliyi, yəni daim hərəkətdə olması səbəbindən, onun seqmentləşdirilməsinin mürəkkəbliyi;
- Restoran sahibləri güman edirlər ki, iaşə firması üçün zəruri olan potensial müştərilərin fiqurantlarının tədqiq edilməsi, məlumatların əksəriyyətinin restoran biznesinə heç bir dəxli olmayan digər tədqiqatlardan götürülməsinə oxşar bir şeydir [4].

Restoran biznesinin spesifik xüsusiyyətləri üzündən, orada kompleks marketinq tədqiqatlarının xüsusi cəhətlərinə:

- böyük sayda rəqiblərin olması;
- böyük dolma dərəcəsi (yəni dolmaq üçün böyük sayın tələb olunması);
- istehlakçı davranışının spesifikası aiddir.

Buna görə də, marketinq tədqiqatlarının, bu bazarın mövcud spesifikasiyaları ilə qarşılıqlı əlaqədə olmaqla, bu sahədəki səriştəli mütəxəssislər tərəfindən aparılması zəruridir.

Bu halda marketinq tədqiqatları, rəqabət mübarizəsi aparılmasının rasional strategiyasının hazırlanması və həyata keçirilməsi, habelə müvafiq boşluğu doldurmaq, restoranın açılması zamanı meydana çıxan problemlərin mahiyyətini diaqnostika etmək, düzgün inkişaf yollarını tapmaq üçün informasiyalara sahib olmaq imkanı verir.

Hal-hazırda bazarda, eyni zamanda, böyük sayda iri xarici iaşə müəssisələri iştirak edir, kiçik risklərlə və xərclərlə, lakin göstərilən xidmətlərin keyfiyyətini itirməməklə restoranın öz şəbəkəsinin genişləndirilməsi məsələsi çox ciddi şəkildə qarşıda durur. Mövcud vəziyyətdən çıxış yolu *françayzinq* mexanizminin tətbiqidir. Françayzinq uzunmüddətli işgüzar əməkdaşlıq formasını ifadə edir, bu prosesdə şirkətlərdən biri - *françayzer*, digərinə - *françayza* müqavilə ilə müəyyən edilmiş müddətlərdə və şərtlərdə məhdud bir ərazidə hüquq sahibinin adından fəaliyyət göstərməyə görə lisenziya verir [5, səh. 230].

Françayzinq sistemində marketinq bir neçə formaya və kombinasiyaya malikdir.

Françayzer marketinqi. Baş şirkət çox vaxt ümummilli marketinqə və materialların istehsalına, milli reklam şirkətlərinin təkmilləşdirilməsinə cavabdeh olur.

Françayz marketinqi. Onlar çox hallarda öz fərdi ticarət məntəqələrinin irəli çəkilməsindən ötrü regional və yerli reklama cavabdeh olurlar.

Təchizatçının reklam kooperativləri. Françayzların və təchizatçıların reklama çəkilən xərcləri öz aralarında bölmələri, bugünkü gündə xeyli yayılmış haldır.

Qeyd etmək lazımdır ki, françayzinq sisteminin marketinqi - elə bir kommunikasiya üsuludur ki, onun vasitəsi ilə alıcıya belə bir fikir çatdırılır ki, məhz həmin məhsul onun tələbatını tam ödəyə bilər. Adətən marketinqin əsasında sadə bir ideya dayanır. Onu daim təkrarlayırlar, nəticədə o, alıcının təfəkküründə brend kimi formalaşır. Məhsulun marketinqi gündəlik inkişafın bir hissəsinə çevrildiyi halda, onun köməyi ilə mühüm nailiyyət əldə olunur. İri firma və xeyli sayda filiallar olduqda, françayzinq sisteminin marketinqi, yerli biliklərin yaratdığı üstünlük ilə, böyük miqyasın yaratdığı qənaətcilliyi özündə birləşdirir.

Françayzinq münasibətlərində marketinqin rolu çox böyükdür, bu mexanizmin tətbiqi zamanı mümkün olan bütün qazanclardan rasional istifadə edilməsi və potensial təhlükələrdən yan keçilməsi, rəqabətdə elə bir üstünlük qazandıracaqdır ki, bu, orta dərəcədə uğura nail olan şirkətləri milli və hətta qlobal korporasiyaya çevrilən şirkətlərdən ayıracaqdır.

Qeyd etmək lazımdır ki, iaşə xidmətlərinin kompleks marketinq tədqiqatları bazarla sıx əlaqədə olmalıdır, çünki iaşə firmalarını və onların fəaliyyət göstərdikləri bazarı, konkret bazar

mühitində biznesin və marketinq fəaliyyətinin inkişafı şərtlərinin kompleksi kimi xarakterizə etmək olar [6]. Firma xarici mühiti heç cür idarə edə bilmir, xarici mühit öz dəyişkənliyi ilə fərqlənir, lakin eyni zamanda, bütövlükdə iaşə bazarının vəziyyətinə, onun bütün elementlərinə təsir göstərir.

İstehsal-satış imkanlarının, elmi-texniki imkanların təhlilini və qiymətləndirilməsini nəzərdə tutan firmanın marketinqinin daxili mühiti, onun rəqabət üstünlüklərini və zəif tərəflərini aşkara çıxarmağa imkan verir.

Müştərilərə göstərilən xidmətin keyfiyyəti problemi, firmaya loyal olan müştərilərin formalaşdırılması üçün əsasdır. Adətən, bu problemin üç amilini:

a) xidmətin lazımi keyfiyyətinin təmin olunmasını;

b) bu keyfiyyətin səviyyəsinin müntəzəm olaraq müəyyənləşdirilməsini;

c) istehlakçılarla aparılan bütün işin təkmilləşdirilməsi üçün qiymətləndirilmənin nəticələrindən istifadə olunmasının təşkilati təminatını qeyd edirlər.

Nəticə

Beləliklə, xidmət prosesinin göstərilən elementlərinin müxtəlif kombinasiyaları, xidmətin növündən asılı olaraq, firmanın tipinin müəyyən edilməsi alqoritmini ifadə edir [7].

İctimai iaşə müəssisəsinin marketinq kompleksinin hər bir elementinə xas olan spesifik cəhətləri aşkar edərək, hər bir tip üçün aşağıdakı təsnifat üzrə marketinq-miksin işlənib hazırlanması mümkün olur (cədvəl № 1).

Cədvəl 1.

İctimai iaşə müəssisəsinin marketinq kompleksi

Tip	**Mal**	**Qiymət**	**İrəli çəkmə**	**Bölüşdürmə**
Kafe a.q.	Baza nomenklaturası	Əlverişli	Fasad, xarici reklam elementləri	Özünəxidmət
Kafe y.q.	Genişləndirilmiş nomenklatura, sifarişli xörəklər, yüksək keyfiyyət, komfortlu avadanlıq	Yüksək, endirimlər mümkündür	Reklam, vizit kartları, fasad, kafe	Ofisiantlar tərəfindən xidmət
Yeməkxana a.q.	Əsas standart xörəklərin geniş nomenklaturası, minimum komfort, çox vaxt plastik kütlədən mebel	Hamı üçün əlverişli	Fasad	Özünəxidmət
Yeməkxana y.q.	Asanlıqla hazırlanan standart yeməklərin geniş nomenklaturası, keyfiyyətə nəzarət	Orta dərəcədə əlverişli, endirimlər mümkündür	Personal, menyu	Özünəxidmət, bəzən ofisiantlar tərəfindən xidmət
Bar a.q.	Qəlyanaltı – yeməklərin və araq-şərab məmulatlarının dar nomenklaturası, sadə bar piştaxtasının olması	Əlverişli	Xarici reklam elementləri	Bar piştaxtasının yanında xidmət
Bar y.q.	Yüksək keyfiyyətli xörəklərin genişləndirilmiş nomenklaturası, istirahətin təşkili, komfortlu avadanlıq, servis	Yüksək, güzəştli qiymətlər mümkündür, mövsüm üzrə endirimlər	Fasad, personal, vizit kartları, menyu, satışın stimullaşdırılması	Bar piştaxtasının yanında ofisiantlar tərəfindən xidmət, xidmətlərin əlavə növləri
Restoran a.q.	Hazırlanması mürəkkəb olan xörəklərin geniş nomenklaturası, istirahətin təşkili, keyfiyyətli servis	Yüksək, daimi endirimlər (endirimlər sistemi) mümkündür	Reklam, birbaşa yollama, personal, satışın stimullaşdırılması	Ofisiantlar tərəfindən xidmət, evə xidmət

Restoran y.q.	Hazırlanması mürəkkəb olan xörəklərin genişləndirilmiş nomenklaturası, komfortluluq, servisin ən yüksək səviyyəsi	Yüksək qiymətlər, diskont kart üzrə hesablaşma, kreditin rəsmiləşdirilməsi imkanı	Reklam, birbaşa yollama, menyu, fasad	Ofisiantlar tərəfindən xidmət, təntənəli tədbirlərə səyyar xidmət

Hazırlanmış marketinq kompleksi, iaşə müəssisələri tərəfindən marketinq instrumentarisinin mümkün tətbiqinə dair yalnız ilkin təsəvvürlər yaradır, lakin bu sahədə peşəkar marketoloqların fəaliyyəti üçün geniş meydan açır, belə ki, təqdim olunmuş informasiyaya, tədqiq olunan sahənin xüsusiyyətlərini nəzərə almaqla düzəliş edilmişdir.

ƏDƏBİYYAT

1. Тэзлэван Д. Маркетинговые исследования рынка услуг общественного питания. /www.https://core.ac.uk/
2. Гашимов Г.И. Коммерческая деятельность в сфере услуг. Баку: АГЭУ 2015, - 308 с.
3. Озерова Т.С. Сущность и отличительные способности услуг общественного питания // Вестник СГЭУ, № 2 (76), - 2011.
4. Шатохина Е.А., Скачков Р.А. Маркетинговые исследования как основа обеспечения конкурентоспособности предприятий ресторанного бизнеса. //Современные проблемы науки и образования. № 3, - 2012.
5. Матуивич М.С. Особенность маркетинга франчайзинговых услуг сетей предприятий питания // Экономические науки, № 3 (76), - 2011.
6. Тэзлэван Д. Маркетинговые исследования рынка услуг общественного питания. /www.https://core.ac.uk/
7. Красовская Е.А., Пчелинцева Ю.А. Специфика разработки комплекса маркетинга предприятий общественного питания в современных условиях //Вестник ОГУ, № 8, - 2004.

Илхама Тарлан кызы Искендерова
Университет «Одлар Юрду»

Специфические особенности комплексного маркетинга в системе услуг питания

Резюме

В статье рассмотрены теоретические аспекты комплексного маркетингового исследования, ее содержания и поставленных целей; разработаны комплексные маркетинговые исследования в системе маркетинговых услуг, а также выявлены специфические особенности комплексного маркетинга в системе услуг питания.

Ключевые слова: системи услуг питания, комплекс маркетинга, специфика маркетинга, методы маркетинга, классификация услуг питания.

Ilhama Tarlan Isgandarova
"Odlar Yurdu" University

Specific features of complex marketing research in the catering system

Summary

The article examines theoretical aspects of complex marketing research, its content and its goals; complex marketing research has been developed in marketing services, as well as specific features of complex marketing in catering services.

Key words: system services, market marketing, market specificity, marketing methodology, classification.

UOT 338.37

Könül Əkbər qızı İBRAHİMOVA
«Odlar Yurdu» Universiteti

TƏHSİL XİDMƏTLƏRİ BAZARININ GENİŞLƏNDİRİLMƏSİ ZƏRURƏTİNİ ŞƏRTLƏNDİRƏN OBYEKTİV AMİLLƏR

Xülasə

Bu məqalədə təhsil xidmətlərinin bazarını genişləndirmək zərurətini yaradan obyektiv amillər, Respublikanın ali təhsil müəssisələrində iqtisadi təhsilin diaqnostikası; məktəblərdə, orta ixtisas təhsili müəssisələrində və kolleclərdə iqtisadi təhsilin xüsusiyyətləri təhlil edilmişdir.

Açar sözlər: bazar münasibətləri, sosial və iqtisadi inkişaf, təhsil xidmətləri bazarları, regional təhsil.

Giriş

Elmi təcrübədə təhsilə sosial-iqtisadi inkişafın əsas amillərindən biri kimi əhəmiyyət verilir. Təhsil səviyyəsi, milli sərvətin əsas tərkib hissəsi kimi, ölkənin intellektual potensialını müəyyənləşdirir. Əhalinin təhsilliliyi, insanların professional hazırlığının genişliyi və adaptivliyi (cəmiyyətin tələblərinə uyğunlaşma qabiliyyəti), yaradıcılığa meyil və mürəkkəb vəzifələri həll etmə bacarığı ölkənin tərəqqisinin, ictimai və iqtisadi sabitliyin əsasıdır.

Təhsil sahəsində iqtisadi münasibətlərin obyektiv elmi təhlili

Bazar münasibətləri təhsil sisteminin təkmilləşdirilməsi proseslərinin əsasını qoymuşdur. Lakin ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi amili kimi, təhsil sistemindən səmərəli istifadə edilməsi, onun bazarda tətbiq edilməsi birmənalı şəkildə baş vermir, heç də həmişə hüquqi və təşkilati-iqtisadi mexanizmlərə dair müasir tədqiqatlara uyğun gəlmir. Ölkənin potensialının sosial-iqtisadi inkişafında və formalaşdırılmasında iştirak edən amillərin zəif nəzəri öyrənilməsi təhsil islahatlarını ləngidir, onları rasional şəkildə tətbiq etməyə imkan vermir. Büdcə imkanlarının məhdudluğu natamam bazar mexanizmləri ilə birlikdə təhsil sisteminin səmərəli inkişafının iqtisadi şəraitinin yaradılmasını xeyli çətinləşdirir. Bütün bunlar əhalinin təhsil almaq hüquqlarının həyata keçirilməsini xeyli çətinləşdirir.

Buna görə də, təhsil sahəsində iqtisadi münasibətlərin obyektiv elmi təhlili, iqtisadi islahatlar prosesində onların xüsusiyyətlərinin tədqiqi, təhsil sferasının fəaliyyətinin və inkişafının idarə olunmasının təhsilin məqsədlərinə, vəzifələrinə və funksiyalarına adekvat olan nəzəri prinsiplərinin və təşkilati-iqtisadi metodlarının əsaslandırılması mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən, bazar münasibətləri şəraitində təhsil sahəsində iqtisadi vəziyyətin dayanıqlılığını təmin edən təşkilati-iqtisadi mexanizmlərin praktik cəhətdən əsaslandırılması və tədqiqatı problemi ön plana çıxır.

Odur ki, təhsil xidmətləri bazarının genişləndirilməsi zərurətini şərtləndirən obyektiv amilləri aşkara çıxarmaq çox vacibdir. Zənnimizcə, bu amilləri ümumi və spesifik amillər olmaqla təsnifata ayırmaq olar.

Təhsil xidmətləri bazarının genişləndirilməsi zərurətini şərtləndirən ümumi amillərə:

- istehsalın miqyasının genişlənməsini və iqtisadiyyatda keyfiyyət dəyişikliklərini: ümumi daxili məhsulu (ÜDM);
- sənaye məhsulunu;
- kənd təsərrüfatı məhsulunu;
- əsas kapitala sərmayə qoyuluşunu;
- nəqliyyat sektorunda yük dövriyyəsini;
- informasiya xidmətlərini;
- pərakəndə mal dövriyyəsini;

- iaşə və pullu xidmətlər dövriyyəsini;
- əhalinin gəlirlərini aid etmək olar.

Sadalanan bütün istiqamətlər üzrə Azərbaycan Respublikasında 2005-ci ildən 2016-cı ilədək olan dövrdə kəmiyyət göstəriciləri dəfələrlə artmış, bu da təhsil xidmətlərinin genişləndirilməsi zərurətini şərtləndirən ümumi obyektiv amillərdir [1, s. 12].

Təhsil xidmətləri bazarının genişləndirilməsi zərurətini şərtləndirən spesifik amillərə, ilk növbədə, onun tərkibinə daxil olan:

- əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri;
- əhalinin iqtisadi aktivlik göstəriciləri;
- məşğul əhalinin iqtisadi fəaliyyətin növləri üzrə paylanması göstəriciləri;
- iqtisadi fəaliyyətin növləri üzrə muzdlu işçilərin say göstəriciləri;
- professional kadr hazırlığı göstəriciləri;
- rəhbər işçilərin və mütəxəssislərin ixtisasının artırılması göstəriciləri;
- iqtisadi cəhətdən fəal əhalinin təhsil səviyyəsi və onun yaş qrupları üzrə paylanması;
- məşğul əhalinin təhsil səviyyəsi üzrə paylanması;
- işsiz əhalinin təhsil səviyyəsi üzrə paylanması;
- təhsil sisteminin və təhsil xidmətləri bazarının göstəriciləri kimi komponentlərlə birlikdə əmək bazarı aiddir .

Zənnimizcə, əmək bazarının yuxarıda qeyd olunan amilləri, təhsil xidmətləri bazarına xeyli əhəmiyyətli təsir göstərir.

İndi isə onları daha müfəssəl şəkildə nəzərdən keçirək və onların ətraflı təhlilini aparaq.

Azərbaycan Respublikasının əmək bazarının əsas göstəricilərinin təhlili və diaqnostikası göstərdi ki, 2005-2016-cı illər ərzində bu sahədə xeyli əhəmiyyətli dəyişikliklər baş vermişdir, onların sırasına

- iqtisadi cəhətdən aktiv əhalinin sayının - 4380,1 min nəfərdən 5012,7 min nəfərədək (114,4%);
- iqtisadiyyatda işləyənlərin sayının - 4062,1 min nəfərdən 4759,9 min nəfərədək (117,2%);
- iqtisadiyyat sferasında işləyən qadınların sayının - 1957,6 min nəfərdən 2294,2 min nəfərədək (117,2%);
- iqtisadiyyatda muzdlu işçilərin sayının - 1297,1 min nəfərdən 1514,3 min nəfərədək (116,7%);
- muzdlu işçilərin əmək haqqının - 123,6 manatdan 499,8 manatadək (4 dəfə) artmasını aid etmək olar.

Əhalinin iqtisadi aktivlik göstəricilərini təhlil edərkən, qeyd etmək lazımdır ki, tədqiqat aparılan dövrdə onların payı 92,7%-dən 95,0%-dək, o cümlədən, kişilər – 92,8%-dən 95,8%-dək, qadınlar – 92,7%-dən 94,0%-dək artmışdır. İşsizlərin xüsusi çəkisi 7,3%-dən 5,0%-dək, o cümlədən, kişilər – 7,2%-dən 4,2%-dək, qadınlar – 7,3%-dən 6,0%-dək azalmışdır. İşsiz statusu almış şəxslərin sayı da 1,3%-dən 0,7%-dək, o cümlədən, kişilər – 1,2%-dən 0,8%-dək, qadınlar – 1,4%-dən 0,5%-dək azalmışdır (bax: cədvəl 2.2).

Əhalinin iqtisadi aktivliyi haqqında daha ətraflı məlumat əlavə № 1-də verilmişdir.

Cədvəl 1.

Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri [2, s. 16]

	2005	**2010**	**2012**	**2013**	**2014**	**2015**	**2016**	**2016/ 2005, %**
Əhalinin orta illik sayı – min nəfər	8500,3	9054,3	9295,8	9416,8	9535,1	9649,3	9757,8	114,8
İqtisadi cəhətdən fəal əhalinin sayı - min nəiər	4380,1	4587,4	4688,4	4757,8	4840,7	4915,3	5012,7	114,4
İqtisadiyyatda məsğul olanların sayı - min nəfər	4062,3	4329,1	4445,3	4521,2	4602,9	4671,6	4759,9	117,2
o cümlədən mülkiyyət formaları üzrə:								
dövlət	1229,8	1142,7	1157,7	1169,4	1178,2	1176,1	1171,4	95,2
qeyri-dövlət	2832,5	3186,4	3287,6	3351,8	3424,7	3495,5	3588,5	124,5
İşsizlər, min nəfər	317,8	258,3	243,1	236,6	237,8	243,7	252,8	79,5
Məşğulluq xidmətləri orqanlarında rəsmi işsiz statusu alan şəxslər, nəfər	56343	38966	36791	36206	28690	28877	32972	58,5
onlardan işsizliyə görə müa-vinət alanlar	2087	87	934	636	1613	1543	1857	89,0
İqtisadiyyatda məsğul olan qadınların sayı - min nəfər	1957,6	2101,7	2153,5	2183,7	2226,8	2263,4	2294,2	117,2
İqtisadiyyatda muzdla işlə-yənlərin sayı - min nəfər	1297,1	1382,9	1480,7	1514,0	1519,7	1502,5	1514,3	116,7
Muzdla çalışan işçilərin orta aylıq əmək haqqı - manat	123,6	331,5	398,4	425,1	444,5	466,9	499,8	4,0 d
Kadrların peşə hazırlığı, nəfər	5254	4792	7745	6849	6914	7453	4815	91,6
İxtisaslarını artırmış rəhbər işçilərin və mütəxəssislərin sayı - nəfər	10022	22326	17694	17234	15450	13045	14429	144,0

Cədvəl 2.

İqtisadi cəhətdən fəal əhali, faizlə, [2, s. 23]

	2005	**2010**	**2012**	**2013**	**2014**	**2015**	**2016**
İqtisadi cəhətdən fəal əhali	100	100	100	100	100	100	100
kişilər	100	100	100	100	100	100	100
qadınlar	100	100	100	100	100	100	100
İqtisadi cəhətdən fəal əhalinin ümumi sayından nıəşğul olanlar	92,7	94,4	94,8	95,0	95,1	95,0	95,0
kişilər	92,8	95,6	95,7	96,0	96,0	95,9	95,8
qadınlar	92,7	93,1	93,9	94,1	94,2	94,1	94,0
İşsizlər	7,3	5,6	5,2	5,0	4,9	5,0	5,0
kişilər	7,2	4,4	4,3	4,0	4,0	4,1	4,2
qadınlar	7,3	6,9	6,1	5,9	5,8	5,9	6,0
onlardan:							
məşğulluq xidmətləri orqanlarında işsiz statusu alan şəxslər	1,3	0,8	0,8	0,8	0,6	0,6	0,7
kişilər	1,2	0,9	0,9	0,9	0,7	0,7	0,8
qadınlar	1,4	0,8	0,7	0,6	0,5	0,5	0,5

Təhsil xidmətləri bazarının daha ətraflı öyrənilməsindən ötrü, hansı sahələrdə kadrların hazırlığına daha çox tələbatın olduğunu dəqiq müəyyənləşdirmək lazımdır. Buna görə də, iqtisadi fəaliyyətin növləri üzrə məşğul əhalinin paylanması vəziyyətindən, iqtisadi kadrların hazırlığı da çox asılıdır.

2005-2016-ci illər üzrə təhlil göstərdi ki, məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə paylanması:

- kənd təsərrüfatı - 1573,6 min nəfərdən 1729,6 min nəfərədək (payı 38,7%-dən 36,3%-dək);
- hasilat sənayesi - 38,7 min nəfərdən 36,3 min nəfərədək (1,0%-dən 0,8%-dək);
- emaledici sənaye - 198,4 min nəfərdən 242,2 min nəfərədək (4,9%-dən 5,1%-dək);
- elektrik enerjisi - 27,9 min nəfərdən 27,3 min nəfərədək (0,7%-dən 0,6%-dək);
- su təsərrüfatı - 23,9 min nəfərdən 30,3 min nəfərədək (0,6%-dən);
- tikinti - 211,9 min nəfərdən 343,8 min nəfərədək (5,2%-dən 7,2%-dək);
- ticarət - 634,8 min nəfərdən 699,9 min nəfərədək (15,6%-dən 14,7%-dək);
- nəqliyyat və anbar təsərrüfatı - 174,6 min nəfərdən 198,4 min nəfərədək (4,3%-dən 4,2%-dək);
- turizm və ictimai iaşə - 25,1 min nəfərdən 68,4 min nəfərədək (0,6%-dən 1,4%-dək);
- informasiya və rabitə - 32,3 min nəfərdən 61,2 min nəfərədək (0,8%-dən 1,3%-dək);
- maliyyə və sığorta fəaliyyəti - 18,1 min nəfərdən 27,1 min nəfərədək (0,4%-dən 0,6%-dək);
- daşınmaz əmlak üzərində əməliyyat - 82,1 min nəfərdən 88,0 min nəfərədək (2,0 %-dən 1,9%-dək);
- elm və texnika - 43,4 min nəfərdən 68,4 min nəfərədək (1,1%-dən 1,4%-dək);
- inzibatçılıq - 38,7 min nəfərdən 57,1 min nəfərədək (1,0%-dən 1,2%-dək);
- dövlət idarəçiliyi və müdafiə - 256,6 min nəfərdən 285,4 min nəfərədək (6,3%-dən 6,0%-dək);
- təhsil - 345,1 min nəfərdən 374,8 min nəfərədək (8,5 %-dən 7,9%-dək);
- səhiyyə və sosial xidmətlər - 188,5 min nəfərdən 185,6 min nəfərədək (4,7%-dən 3,9%-dək);
- incəsənət və istirahət - 52,4 min nəfərdən 77,4 min nəfərədək (1,3%-dən 1,6%-dək);
- digər sahələr - 92,3 min nəfərdən 156,9 min nəfərədək (2,3%-dən 3,3%-dək) dəyişmişdir .

Təhsil xidmətləri bazarına təsir edən digər amil, iqtisadi fəaliyyət növləri üzrə muzdlu işçilərin sayıdır. 2005-ci ildən 2016-cı ilədək olan dövrdə onların sayı:

- kənd təsərrüfatında - 45,7 min nəfərdən 47,2 min nəfərədək (payı 3,5%-dən 3,1%-dək);
- hasilat sənayesində - 40,3 min nəfərdən 31,4 min nəfərədək (3,1%-dən 2,2%-dək);
- emaledici sənayedə - 104,5 min nəfərdən 100,7 min nəfərədək (8,1%-dən 6,7%-dək);
- elektrik enerjisi sahəsində - 27,9 min nəfərdən 27,3 min nəfərədək (2,2%-dən1,8%-dək);
- su təsərrüfatında - 23,9 min nəfərdən 30,6 min nəfərədək (1,8%-dən 2,0%-dək);
- tikintidə - 61,7 min nəfərdən 89,7 min nəfərədək (4,8%-dən 5,9%-dək);
- nəqliyyatda və anbar təsərrüfatında - 74,3 min nəfərdən 70,3 min nəfərədək (5,7%-dən 4,6%-dək);
- turizmdə və ictimai iaşədə - 13,4 min nəfərdən 22,9 min nəfərədək (1,0%-dən 1,5%-dək);
- informasiya və rabitə sahəsində - 27,4 min nəfərdən 25,0 min nəfərədək (2,1%-dən 1,7%-dək);
- maliyyə və sığorta fəaliyyətində -11,8 min nəfərdən 25,0 min nəfərədək (0,9%-dən 1,7%-dək);
- daşınmaz əmlak üzrə əməliyyatlar - 5,4 min nəfərdən 18,8 min nəfərədək (0,4%-dən 1,2%-dək);
- inzibatçılıqda - 9,2 min nəfərdən 24,7 min nəfərədək (0,7%-dən 1,6%-dək);

- dövlət idarəçiliyi və müdafiə sahəsində - 48,2 min nəfərdən 107,7 min nəfərədək (3,7%-dən 7,1%-dək);
- təhsil sahəsində - 326,7 min nəfərdən 337,0 min nəfərədək (25,2%-dən 22,3%-dək);
- səhiyyə və sosial xidmətlər sahələrində - 128,8 min nəfərdən 133,2 min nəfərədək (9,9%-dən 8,8%-dək);
- incəsənət və istirahət sahələrində - 49,9 min nəfərdən 56,2 min nəfərədək (3,9%-dən 3,7%-dək);
- digər sahələrdə - 10,1 min nəfərdən 16,8 min nəfərədək (0,8%-dən 1,1%-dək) dəyişmişdir.

Təhsil xidmətləri bazarında professional kadrların hazırlığına və rəhbər işçilərin və mütəxəssislərin ixtisasının artırılmasına xüsusi yer ayrılır . Bu məsələlərin təhlili göstərdi ki, 2005-2016-cı illər ərzində professional kadrların hazırlığı 5254-dən 4815-dək (92,3%), o cümlədən, yenidən hazırlananlar 2143-dən 681-dək (31,8) azalmış, öz ixtisasını artıranların sayı isə - 5196-dən 11147-dək (2,1 dəfə) artmışdır.

Tədqiqat aparılan dövrdə təhsil alan kadrların ümumi sayı 10450-dən 15962-dək (152,7%), o cümlədən, bilavasitə müəssisədə - 4540-dən 7324-dək (161,3%) artmışdır. Öz ixtisasını artıran rəhbər heyətə və mütəxəssislərə gəldikdə isə, deyə bilərik ki, onların sayı 10022-dən 14429-dək (144,0%), o cümlədən, rəhbər işçilərin sayı - 972-dən 2724-dək (4,8 dəfə), mütəxəssislərin sayı isə - 9050-dən 11705-dək (129,3%) artmışdır.

Cədvəl 3.

Kadrların peşə hazırlığı, nəfər, [6, s. 54]

	2005	**2010**	**2012**	**2013**	**2014**	**2015**	**2016**	**2016/ 2005, %**
Peşə hazırlığı keçənlər - cəmi	5254	4792	7745	6849	6914	7453	4815	92,3
onlardan:								
yenidən hazırlananlar	2143	1503	1877	2610	2687	4029	681	31,8
ixtisaslarını artıranlar	5196	3389	7358	3333	4136	3888	11147	2,1 d
Peşə hazırlığı keçmiş və ixtisaslarını artırmış işçilərin ümumi sayından təhsil almışdır:	10450	8181	15103	10182	11050	11341	15962	152,7
bilavasitə müəssisədə	4540	2153	3845	2297	4091	4164	7324	161,3
xarici ölkədə	123	118	112	103	49	33	28	22,8
təhsil müəssisələrində	18	186	197	148	1695	4002	1344	74,7 d
ixtisasartırma institutlarında	-	-	-	-	86	218	607	-
ixtisasartırma kurslarında	-	-	-	-	5129	2924	6659	-
qadınlar	1501	712	735	479	665	440	751	50,0

Rəhbər işçi və mütəxəssislərin ixtisaslarının artırılması

İxtisaslarını artıranlar	10022	22326	17694	17234	15450	13045	14429	144,0
o cümlədən:								
rəhbər işçilər	972	1968	2574	4459	3437	2749	2724	2,8 d
mütəxəssislər	9050	20358	15120	12775	12013	10296	11705	129,3

İqtisadi cəhətdən aktiv əhalinin təhsil səviyyəsi təhsil xidmətləri bazarına müəyyən dərəcədə təsir göstərir. Cədvəl № 4.-də 2016-cı ilin məlumatlarına görə iqtisadi cəhətdən aktiv əhalinin ümumi sayından (5012,7 min nəfər) təhsil səviyyəsinin paylanması (min nəfərlə):

- ali təhsil – 816,8;
- orta ixtisas təhsili – 539,4;
- peşə təhsili – 271,3;
- tam orta təhsil – 3008,9;
- ümumi orta təhsil – 331,8;
- ibtidai təhsil – 44,5 kimi olmuşdur.

Yaş tərkibinə görə iqtisadi cəhətdən aktiv əhalinin əhəmiyyətli hissəsi 20-24; 25-29; 30-34; 35-39; 40-44; 45-49; 50-54 və s. yaş qruplarının üzərinə düşür.

Cədvəl 4.

İqtisadi cəhətdən fəal əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsü, min nəfər, [2, s. 116]

Yaş qrupları	İqtisadi cəhətdən fəal əhali, cəmi	o cümlədən təhsil üzrə					
		ali təhsil	orta ixtisas təhsili	ilk peşə-ixlisas təhsili	tam orta təhsil	ümumi orta təhsil	ibtidai təhsil
Cəmi	5012,7	816,8	539,4	271.3	3008,9	331,8	44,5
Xüsusi çəkisi, %	100	16,3	10,8	5,4	60,0	6,6	0,9
15-19	101,7	-	5,5	2,7	77,3	16,0	0,2
20-24	502,3	82,8	55,8	22,7	288,9	51,2	0,9
25-29	741,3	180,1	86,4	25,8	392,9	55,5	0,6
30-34	719,8	94,7	58,1	34,9	500,8	27,4	3,9
35-39	609,5	88,2	39,8	40,2	415,5	22,5	3,3
40-44	584,5	67,9	55,1	33,5	397,0	28,5	2,5
45-49	607,6	100,2	70,8	38,1	365,4	28,3	4,8
50-54	609,6	81,5	81,3	29,9	377,9	34,6	4,4
55-59	365,4	100,1	67,8	24,4	130,7	35,1	7,3
60-64	132,4	19,6	15,3	13,8	58,8	18,5	6,4
65+	38,6	1,7	3,5	5,3	3,7	14,2	10,2

Məşğul əhalinin təhsil səviyyəsinə görə paylanması cədvəl № 5.-də göstərilmişdir. Göründüyü kimi, 2016-cı ilin məlumatlarına əsasən, onların ümumi sayından (4759,9 min nəfər):

- ali təhsilli işçilərə 781,4 min nəfər;
- orta ixtisas təhsillilərə – 507,6 min nəfər;
- peşə təhsilinə malik olanlara – 253,2 min nəfər;
- tam orta təhsili alanlara – 2876,6 min nəfər;
- ümumi orta təhsil alanlara – 298,3 min nəfər;
- ibtidai təhsil alanlara – 42,8 min nəfər aiddir.

Cədvəl 5.

Məşğul əhalinin təhsil səviyyəsi üzrə bölgüsü, [2, s. 119]

Təhsil səviyyəsi	Cəmi, min nəfər	Onlardan qadınlar	Cəmi, faizlə	onlardan qadınlar
Cəmi	4759,9	2294,2	100,0	48,2
ali təhsil	781,4	314,4	16,4	40,2
orta ixtisas təhsili	507,6	307,9	10,7	60,7
ilk peşə-ixtisas təhsili	253,2	75,5	5,3	29,8
tam orta təhsil	2876,6	1380,2	60,4	48,0
ümumi orta təhsil	298,3	182,6	6,3	61,2
ibtidai təhsil	42,8	33,6	0,9	78,5

İşizlərə gəldikdə isə, qeyd etmək olar ki, onların təhsil səviyyəsi 2016-cı ilin məlumatlarına əsasən:

- cəmi – 252,8 min nəfər;
- ali təhsillilər – 35,4 min nəfər;
- orta ixtisas təhsili olanlar – 31,8 min nəfər;
- peşə təhsili alanlar – 18,1 min nəfər;
- tam orta təhsil alanlar – 132,3 min nəfər;
- ümumi orta təhsil alanlar – 33,3 min nəfər;
- ibtidai təhsil alanlar – 1,7 min nəfər olmuşdur .

Cədvəl 6.

İşsiz əhalinin təhsil səviyyəsi üzrə bölgüsü, [2, s. 124]

Təhsil səviyyəsi	Cəmi, min nəfər	onlardan: qadınlar	Cəmi, faizlə	onlardan: qadınlar
Cəmi	252,8	145,3	100,0	57,5
ali təhsil	35,4	14,9	14,0	42,1
orta ixtisas təhsili	31,8	18,4	12.6	57,9
ilk peşə-ixtisas təhsili	18,1	11,6	7,2	64,1
tam orta təhsil	132,3	82,0	52,3	62,0
ümumi orta təhsil	33,5	16,9	13,2	50,4
ibtidai təhsil	1,7	1,5	0,7	88,2

Bununla belə, başlıca obyektiv amil, təhsil xidmətləri bazarının özüdür.

Ölkə iqtisadiyyatının dünya iqtisadi birliyinə inteqrasiyası ilə əlaqədar olaraq ölkənin regionlarında baş verən yeni siyasi və sosial-iqtisadi proseslər həm bütövlükdə regional iqtisadiyyatın, həm də regional təsərrüfatın tərkib hissələrinin, o cümlədən, təhsil sisteminin müasirləşdirilməsini tələb edir.

Müasir şəraitdə təhsil, iqtisadi və sosial inkişafın başlıca amillərindən və resurslarından biri, həyat səviyyəsinin yüksəldilməsinin, rəqabətqabiliyyətliliyin təmin olunmasının və bütövlükdə iqtisadiyyatın dayanıqlı inkişafının başlıca ən mühüm şərti olaraq qalır.

Bu zaman, dünya iqtisadiyyatının biliklərə əsaslanan iqtisadiyyata çevrilməsi təmayüllərinin üstünlük təşkil etdiyi qloballaşma şəraitində, regional təhsil sistemlərinin, ilk növbədə, ali məktəbin əhəmiyyəti çox sürətlə artır. Çünki məhz regional təsərrüfatın bütün fəaliyyət növləri üçün ixtisaslı mütəxəssislər hazırlamaq ali təhsil müəssisələrinin öhdəsinə düşür.

Regional iqtisadiyyat üçün kadrların hazırlığı problemi

Son illərdə regional iqtisadiyyat üçün kadrların hazırlığı problemi respublikamız üçün xüsusilə aktualdır. Bu problemin həlli üçün əsas məsələ, əhalinin ölkənin ayrı-ayrı rayonlarına cəlb olunması və orada saxlanması üçün stimulların hazırlanmasıdır.

Bu şəraitdə regionlarda ali təhsil müəssisələrinin olması, həm ərazinin yüksək ixtisaslı kadrlarla təmin olunmasının əsas amilinə, həm də ETT-nin və regionun sosial-mədəni inkişafının göstəricisinə, həyat səviyyəsinin əsas göstəricilərindən birinə çevrilir.

Bununla belə, regional səviyyədə təhsilin fəaliyyət göstərməsi və inkişafı bir sıra problemlərlə müşayiət olunur. Bu problemlər, regionların və ali və orta təhsili müəssisələrinin kompleks sosial-iqtisadi inkişafı üzrə vahid siyasətin olmaması, regional təhsil sisteminin strukturunda və parametrlərində regionun kadrlara olan tələbatının zəif əks olunması, regional səviyyədə ali və orta məktəbin inkişafının əlaqələndirilməməsi səbəblərindən yaranır. Bununla da ierarxiyanın bütün səviyyələrində təhsilin müasirləşdirilməsi zərurəti əsaslandırılır.

2000-2016-cı illərdə Azərbaycan Respublikasının təhsil sistemində bir sıra struktur dəyişiklikləri baş vermişdir. Həmin illər üzrə (tədris ilinin başlanğıcı üçün) ölkə təhsil sisteminin təhli-

lini aparaq. Məsələn, məktəbəqədər təhsil müəssisələrinin sayı 1790-dan 1750-dək azalmış, uşaqların sayı isə 111202-dən 118685-dək artmışdır. Uşaqların məktəbəqədər təhsil müəssisələri ilə əhatəliliyi (1-5 yaşlı uşaqların ümumi sayına nisbətən, %) də 15,4%-dən 14,2%-dək azalmışdır.

Tədqiqat aparılan dövrdə əyani ümumtəhsil məktəblərinin sayının - 4548-dən 4452-dək, şagirdlərin sayının - 1653703-dən 1461748-dək azalması; qiyabi ümumtəhsil müəssisələrinin sayının - 13-dən 7-dək, şagirdlərin sayının - 35979-dən 2546-dək azalması müşahidə olunur. Eyni zamanda, respublikanın ümumtəhsil məktəblərində müəllimlərin sayı - 161492-dən 157018-dək azalmışdır.

İlk peşə-ixtisas təhsili müəssisələrinə gəldikdə isə, deyə bilərik ki, onların sayı bir qədər - 110-dan 112-dək artmış, şagirdlərin sayı isə - 22944-dən 23814-dək artmışdır.

2000-2016-cı illər ərzində orta ixtisas təhsili müəssisələrində də dəyişikliklər baş vermişdir. O cümlədən, onların sayı 71-dən 55-dək azalmış, tələbələrin sayı isə 42162-dən 51702-dək artmış, o cümlədən, qadınların sayı - 29758-dən 34308-dək artmışdır; qəbul edilmiş tələbələrin sayı - 14823-dən 15139-dək; təhsili bitirmiş məzunların sayı - 11309-dan 17093-dək; 10000 nəfərə düşən məzunların sayı isə -14-dən 18-dək artmışdır.

Kəmiyyətlə ifadə etdikdə, tədqiqat aparılan dövrdə ali təhsil sistemində artım müşahidə olunur: ali təhsil müəssisələrinin sayı - 47-dən 51-dək; tələbələrin sayı - 119683-dən 163779-dək, o cümlədən, qadınların sayı - 49858-dən 79132-dək; 10000 nəfərə düşən tələbələrin sayı -150-dən 169-dək artmışdır.

Respublika ali təhsil müəssisələrinə dair 2000-2016-cı illər üzrə sonrakı təhlil göstərmişdir:

- bakalavr səviyyəsində qəbul olunmuş tələbələrin sayı 26403-dən 36126-dək, magistratura səviyyəsində isə - 2752-dən 5098-dək;
- bakalavr pilləsini bitirmiş məzunların sayı - 24488-dən 36951-dək;
- bakalavr diplomu alanların sayı - 22582-dən 31138-dək;
- magistr diplomu alanların sayı - 1906-dan 5813-dək;
- əhalinin hər 10000 nəfərinə ali təhsil müəssisələri tərəfindən buraxılan mütəxəssislərin sayı - 31-dən 38-dək artmışdır.

2000-2016-cı illər üzrə fəlsəfə doktorları hazırlayan müəssisələrin sayı 83-dən 110-dək; təhsil alanların sayı - 963-dən 2182-dək; fəlsəfə doktoru proqramı üzrə qəbul olanların sayı - 367-dən 420-dək; məzunların sayı isə - 321-dən 543-dək artmışdır.

Elmlər doktoru proqramı üzrə müəssisələrin sayı - 21-dən 77-dək; təhsil alanların sayı - 47-dən 541-dək; qəbul olanların sayı - 9-dan 101-dək; bitirənlərin sayı - 22-dən 79-dək artmışdır.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, məktəbəqədər təhsil, məktəb təhsili istisna olmaqla 2000-2016-cı illlər ərzində respublikanın təhsil sistemində (ilk orta ixtisas təhsili; orta ixtisas təhsili; ali təhsil) müəyyən müsbət dəyişikliklər baş vermişdir. Daha yüksək nəticələr magistrlər və doktorantlar (fəlsəfə doktorları və elmlər doktorları) üzrə əldə olunmuşdur.

Ümumi halda, təhsil formaları üzrə məktəblilərin və tələbələrin 2000-2001 və 2016-2017 tədris illəri üzrə sayı cədvəl № 7-də verilmişdir. Həmin illəri əhatə edən dövrdə:

- təhsil alanların ümumi sayı 2034739-dan 1872888-dək azalmışdır;
- o cümlədən, ümumtəhsil müəssisələrində - 1692812-dən 1462494-dək azalmışdır;
- ilk peşə məktəblərində 172944-dən 186116-dək;
- orta ixtisas təhsili müəssisələrində - 42698-dən 51738-dək;
- ali təhsil müəssisələrində isə - 126285-dən 170740-dək artmışdır.

2015-2016-cı tədris ili ərzində məktəblilərin və tələbələrin dərsə davamiyyəti cədvəl № 8-də göstərilmişdir. Ümumtəhsil müəssisələrində şagirdlərin buraxdığı günlər 0,9% (xəstəliyə görə – 0,5%; digər səbəblərə görə – 0,4%); orta ixtisas təhsili müəssisələrində – 0,9% (xəstəliyə görə – 0,5%; digər səbəblərə görə – 0,4%); ali təhsil müəssisələrində – 1,6% (xəstəliyə görə – 0,5%; digər səbəblərə görə – 1,1%) olmuşdur.

Cədvəl 7.

Təhsil növləri üzrə şagirdlərin və tələbələrin sayı (tədris ilinin əvvəlinə; nəfər), [10, s. 43]

	2000-2001	**2005-2006**	**2010-2011**	**2014-2015**	**2015-2016**	**2016-2017**
Təhsil alanlar- cəmi	2034739	1957981	1724524	1746206	1775060	1872888
o cümlədən:						
ümumi təhsil müəssisələrində	1692812	1588364	1327532	1324949	1356081	1464294
ilk peşə-ixlisas təhsil müəssisələrində və peşə mərkəzlərində	172944	172189	197330	195414	194482	186116
orta ixtisas təhsil müəssisələrində	42698	58070	53470	60507	56456	51738
ali təhsil müəssisələrində və doktoranturada	126285	139358	146192	165336	168041	1 70740

Cədvəl 8.

2015/2016-cı tədris ilində təhsil müəssisələrində şagird və tələbələrin dərsə davamiyyəti, faizlə, [3, s. 44]

	Cəmi	**O cümlədən**	
		Kişilər	**qadınlar**
Əyani ümumi təhsil müəssisələrində			
Şagirdlərin buraxdığı günlər	0,9	0,9	0,9
o cümlədən:			
xəstəliyə görə	0,5	0,5	0,5
digər səbəblərə görə	0,4	0,4	0,4
Orta ixtisas təhsili müəssisələrində			
Tələbələrin buraxdığı günlər	0,9	1,2	0,7
o cümlədən:			
xəstəliyə görə	0,5	0,6	0,4
digər səbəblərə görə	0,4	0,7	0,3
Ali təhsil müəssisələrində			
Tələbələrin buraxdığı günlər	1,6	1,0	2,2
o cümlədən:			
xəstəliyə görə	0,5	0,2	0,8
digər səbəblərə görə	1,1	0,8	1,4

Azərbaycan Respublikasının təhsil xidmətləri bazarının digər MDB ölkələri ilə müqayisədə təhlili maraq doğurur.

2000/2001 - 2016/2017 tədris illəri üzrə ümumtəhsil məktəblərinin sayı müvafiq qaydada 4,5 min və 4,5 min., məktəblilərin sayı isə - 1654 min və 1462 min olmuşdur.

Digər MDB dövlətləri üzrə bu göstəricilər müvafiq qaydada aşağıdakı kimi olmuşdur: Belorus - 4,7-3,2, 1524-982; Ermənistan - 1,5-1,4, 564-365; Qazaxıstan - 8,3-7,4, 3247-2931; Qırğızıstan - 2,0-2,2, 1121-1176; Moldova - 1,6-1,3, 629-333; Özbəkistan - 9,7-9,7, 6018-4671; Rusiya - 67,1-42,6, 20074-15219; Tacikistan - 3,6-3,9, 1504-1838; Ukrayna - 22,0-16,7, 6647-3815 təşkil etmişdir.

Orta ixtisas təhsili müəssisələri üzrə bu göstəricilər müvafiq qaydada aşağıdakı kimi olmuşdur: Azərbaycan - 71-55; 43 min - 52 min; Belorus - 155-230, 150-118; Ermənistan - 105-93, 29-23; Qazaxıstan - 293-779, 168-489; Qırğızıstan - 53-1390 26-91; Moldova - 63-43, 20-30; Özbəkistan - 194-1567, 255-1499; Rusiya - 2703-3552, 2361-2305; Tacikistan - 53-67, 25-77; Ukrayna - 664-370, 528-217 təşkil etmişdir.

Ali təhsil müəssisələri üzrə bu göstəricilər belə olmuşdur: Azərbaycan - 43-51, 120-164; Belorus - 57-51, 282-313; Ermənistan - 90-67, 61-93; Qazaxıstan - 170-125, 441-447; Qırğızıstan - 45-50, 189-175; Moldova - 47-30, 79-75; Rusiya - 965-818, 4741-4399; Tacikistan - 30-39, 78-187; Ukrayna - 315-287, 1403-1369.

Nəticə

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, məktəbəqədər təhsil, məktəb təhsili istisna olmaqla 2000-2016-cı illlər ərzində respublikanın təhsil sistemində (ilk orta ixtisas təhsili; orta ixtisas təhsili; ali təhsil) müəyyən müsbət dəyişikliklər baş vermişdir. Daha yüksək nəticələr magistrlər və doktorantlar (fəlsəfə doktorları və elmlər doktorları) üzrə əldə olunmuşdur.

Beləliklə, respublika əmək bazarının təhlili göstərmişdir ki, Azərbaycan Respublikasında təhsil xidmətləri bazarının təkmilləşdirilməsi və genişlənməsi üçün bütün zəruri şərtlər mövcuddur. Əmək bazarının göstəricilərinə əhalinin iqtisadi fəallıq göstəriciləri, məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə paylanması, peşəkar kadrların hazırlanması, rəhbər kadrların ixtisasının artırılması, iqtisadi cəhətdən fəal əhalinin təhsil səviyyəsi, məşğul əhalinin təhsil səviyyəsi üzrə paylanması, işsiz əhalinin təhsil səviyyəsi üzrə paylanması, respublika təhsil sistemi bazarının göstəriciləri aiddir.

ƏDƏBİYYAT

1. Azərbaycanın statistik göstəriciləri. ARDSK. Bakı, "Səda". 2017.
2. "Əmək bazarı". Statistik məcmuə. ARDSK. Bakı, 2017.
3. Azərbaycanda təhsil, elm və mədəniyyət. ARDSK. Bakı, 2017.

Конуль Акбар кызы Ибрагимова
Университет «Одлар Юрду»

Объективные факторы, обуславливающие необходимость расширения рынка образовательных услуг

Резюме

В статье "Объективные факторы, обуславливающие необходимость расширения рынка образовательных услуг" раскрыты объективные факторы, обуславливающие необходимость расширения рынка образовательных услуг; проведена диагностика экономического образования в высших учебных заведениях республики; выявлена специфика экономического образования в школах, средних специальных учебных заведениях и колледжах.

Ключевые слова: рыночные отношения, социально-экономическое развитие, рынок образовательных услуг, региональное образование.

Konul Akbar Ibrahimova
"Odlar Yurdu" University

Objective factors that require the enlargement of the educational services market

Summary

In the article "Objective Factors Determining the Need for Expanding the Market of Educational Services," objective factors are uncovered that make it necessary to expand the market of educational services; diagnostics of economic education in higher educational institutions of the republic; the specificity of economic education in schools, secondary specialized educational institutions and colleges has been revealed.

Key words: market relations, social and economic development, the market of educational services, regional education.

UOT 338.47

Albina Çingiz qızı HƏŞİMOVA
Azərbaycan Dövlət İqtisad Universiteti

RABİTƏ SAHƏSİNİN TƏNZİMLƏNMƏSİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə, müasir şəraitdə Azərbaycanda rabitə sahəsinin inkişaf problemləri nəzərdən keçirilir. Rabitə sahəsində dövlət tənzimlənməsinin məqsədləri, vəzifə və prioritetlərinin xarakteristikası verilir. Rabitənin əsas seqmentlərinin inkişafına dair dövlət proqramları kompeksinin hazırlanması zərurətinə xüsusi diqqət yetirilir, respublikada rabitə sahəsinin inkişaf problemlərinin tədqiqinə və rabitənin tənzimlənməsinin mexanizm və alətlərinin səmərəliliyinin artırılmasına dair tövsiyələr verilir.

Açar sözlər: rabitə sahəsi, tənzimləmə mexanizmi, strategiya, prioritet, universal xidmət.

Giriş

Rabitə sahəsinin qarşıya qoyulmuş məsələlərinin sistemli həlli respublikanın xammalın ixracı yönümlü iqtisadiyyat tipindən innovasiya tipli iqtisadiyyata keçidi zərurəti ilə bağlıdır. Bu keçid Azərbaycan Respublikasında yeni iqtisadi artım mənbələrinin yaranmasına imkan yaradır [13, s. 91-92]. Belə bir yeni mənbə rolunu rabitə və informasiya texnologiyaları sferası oynayır.

Respublikada aparılmış araşdırmalar göstərir ki, müasir şəraitdə dövlətin və rabitə müəssisələrinin maraqlarını nəzərə alan qanunvericilik və normativ baza, həmçinin sahənin dövlət tərəfindən tənzimlənməsi sistemi təkmilləşdirilməlidir. Tədqiqatda respublikada rabitənin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinə dair tədbirlər kompleksi təklif olunur.

Azərbaycanın rabitə sahəsinin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi modeli

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritetləri idarəçilik iyerarxiyasının bütün səviyyələrində rabitə sahəsinin müəyyən elementlərindən istifadə edilməsini məqsədəuyğun edir. Burada söhbət perspektivli idarəetmə qərarlarının hazırlanması və reallaşdırılmasından gedir.

Rabitənin sosial-iqtisadi inkişaf strategiyası, perspektivdə bu sahədə sosial-iqtisadi problemlərin həllinə, innovasiyaların fəal tətbiqinə yönəlmişdir.

Rabitə sahəsinin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi prosesini aşağıdakı modeldə təqdim etmək olar (bax şəkil 1).

Şəkildən də göründüyü kimi, rabitə sahəsinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi bir-biri ilə qarşılıqlı əlaqəli bir neçə blokdan ibarətdir və respublikanın inkişaf etdirilməsinin strateji istiqamətləri və prioritetlərinə uyğun həyata keçirilməlidir [2;5, s.140-143; 7, s.33-35; 11, s. 535-546; 13, s.95].

Rabitə sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin əsas məqsədi əhaliyə müxtəlif növ rabitə xidmətləri göstərən rabitə sferasının təsərrüfat subyektlərinin yüksək iqtisadi və sosial nəticələr əldə edilməsinə nail olunmasıdır. Məqsədin belə tərzdə qoyuluşu idarəetmə təsirlərinin ardıcıl olaraq xarici mühitdə müşahidə olunan proseslərə adekvat reallaşdırılmasını tələb edir. Belə bir tədbirlərin reallaşdrılması rabitə sahəsi müəssisələrinin rəqabətqabiliyyətliliyini artırmalıdır. Hesab edirik ki, rabitə sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsinin aşağıdakı məqsədlərini vurğulamaq olar (şəkil 2).



Şəkil 1. Rabitə sahəsində dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi modeli.

Bəzi məqsədli hədəflərin bir qədər daha ətraflı şərhə ehtiyacı var. Rabitə sahəsində xidmətlər rəngarəngliyinin artırılması və genişləndirilməsi büdcədənkənar maliyyə vəsaitlərinin prioritet istiqamətlər üzrə istifadəsinə əsaslanmalıdır. Lakin, bu, bazara yeni xidmət növlərinin çıxarılmasına dövlət dəstəyini, o cümlədən, sahənin ayrı-ayrı seqmentlərində güzəştli kreditləşdirmə mexanizmindən istifadəni istisna etmir.

Sertifikatlaşdırma və standartlaşdırma prosedurlarının optimallaşdırılması xidmətlərin istehsalçıları və istehlakçıları arasında maraqlar tarazlığının yaradılmasına yönəldilməlidir.

Güman etmək olar ki, birbaşa büdcə maliyyələşdirilməsi əsasında ərazi və sahə disproporsiyalarının aradan qaldırılması rabitə sahəsinin yüksək mənfəət normasının təmin olunmadığı seqmentlərində istifadə edilə bilər. Eyni zamanda rabitə sahəsinin digər seqmentlərində dolayı üsullarının tətbiqi daha məqsədəuyğun olardı. Belə yanaşma, bazar iqtisadiyyatının tələblərinə uyğundur.

Yuxarıda qeyd edilən rabitə sahəsinin dövlət tənzimlənməsinin məqsədli hədəflərinə nail olunması üçün bir sıra vəzifələrin həll edilməsi tələb olunur:

- uzunmüddətli perspektivdə davamlı iqtisadi artım tələblərinə cavab verən rabitə sahəsinin inkişaf etdirilməsinin sahə prioritetlərinin formalaşdırılması;
- rabitə sahəsinin rəqabətqabiliyyətli inkişaf probleminin həlli zamanı dövlət, regional və yerli büdcə resurslarından istifadə olunmasının əsas istiqamətlərinin müəyyənləşdirilməsi;
- rabitənin seqmentlərinin inkişaf etdirilməsinin dövlət proqramları kompleksinin formalaşdırılması;
- rabitə seqmentlərinin inkişaf etdirilməsinin ərazi üzrə xüsusiyyətlərinin, büdcədənkənar əlavə vəsaitlərin cəlb edilməsi imkanlarının müəyyənləşdirilməsi.

Hesab edirik ki, rabitə sahəsinin inkişaf etdirilməsinin sahə prioritetlərinin formalaşması prosesində cari və perspektiv problemlər həll edilərkən xarici investisiyalardan istifadə edilməsinin nə qədər məqsədəuyğun olması müəyyənləşdirilməlidir. Burada eyni zamanda qloballaşmanın təsiri də nəzərə alınmalıdır, çünki qloballaşma rabitə sahəsinin milli iqtisadiyyatın inkişafına təsiri səviyyəsini dəyişdirir.

Rabitə sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsinin başlıca məqsədləri

- rabitə xidmətləri çeşidinin artırılması, inkişaf etmiş ölkələrdə müvəffəqiyyətlə inkişaf edən yeni xidmət növlərinin Azərbaycanda tətbiqi
- sertifikatlaşdırma və standartlaşdırma prosedurlarının optimallaşdırılması ilə xidmətlərin keyfiyyətinin yüksəldilməsi
- rabitə sahəsi müəssisələrinin yerləşdirilməsində ərazi disproporsiyalarının aradan qaldırılması
- sahənin inkişafına yönələn investisiyaların (o cümlədən, xaricdən) cəlb edilməsi üçün şəraitin yaradılması
- informasiya bazarında münasibətləri tənzimləyən normtiv-hüquqi bazanın təkmilləşdirilməsi
- proteksionizm siyasəti (investisiya, gömrük, vergi siyasətinin dəyişilməsi; ölkədə istehsal olunan proqram təminatını intellektual mülkiyyət kateqoriyasına aid edərək, məhsulun satış vergisinin azaldılması yaxud qismən ləğvi)
- milli telekommunikasiya məhsulunun rəqabət qabiliyyətinin artırılması (dövlət sifarişlərinin yetirilməsi üçün açıq müsabiqə, sertifikatlaşdırma, lisenziyalaşdırma yolu ilə); dünya bazarına irəliləyiş
- respublikanın sosial-iqtisadi inkişafının müasir mərhələsinin tələblərinə uyğun olaraq, sahə müəssisələrinin innovativ fəaliyyətinin artırılması

Şəkil 2. Rabitə sahəsinin tənzimlənməsinin təkmilləşdirilməsi məqsədləri.

Azərbaycan dünyada baş verən rabitə bazarının liberallaşması və qloballaşmasından özünü təcrid edə bilməz, lakin, fəal dövlət tənzimlənməsi olmadan rabitə xidmətlərinin xalis idxalçısına çevrilə bilər. Nümunə üçün qeyd etmək lazımdır ki, inkişaf etmiş dövlətlərin rəqabət siyasəti yeniliklərin dəstəklənməsinə yönəldilmişdir, lakin bu, strateji rabitə növlərinə nəzarət edilməsindən imtina edilməsi demək deyildir [9, s.35-36; 12, s.99-101].

Göründüyü kimi, mürəkkəb bir məsələ meydana çıxır. Daxili rabitə bazarının xarici rəqiblərin ekspansiyasından, istilasından qorunması və milli rabitə müəssisələrinin dünya rabitə bazarına öz məhsul və xidmətləri ilə çıxa bilməsi məsələsi. Lakin həmin məsələnin həlli ölkə iqtisadiyyatının müvafiq sahələrində bir sıra institusional, struktur, elmi texniki dəyişikliklərin aparılmasını tələb edir. Həmin dəyişikliklər milli iqtisadiyyatın və o cümlədən rabitə sahəsinin inkişaf etmiş ölkələrin müvafiq sektorları ilə rəqabət edə bilməsinə imkan yaradardı, rabitə sahəsinin inkişaf potensialından istifadə edilməsi mümkün olardı. Təbiidir ki, bütün bunlar adekvat bir forma və tərzdə dövlətin rabitə sahəsi ilə bağlı siyasətində öz əksini tapmalıdır.

Rabitə sahəsinin tənzmlənməsinin elə bir rejimi hazırlanmalıdır ki, ölkə və xarici rabitə xidmətləri istehsalçılarının fəaliyyətinə dövlətin nəzarət tədbirləri və rəqabət mühiti optimal olaraq uzlaşdırılsın.

Rabitə sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirlməsinin mühüm vəzifəsi rəqabətin inkişaf etdirilməsidir. Rəqabət müasir texnologiyalar və innovasiyaların tətbiqi problemi həll edilərkən mərkəzi, regional hakimiyyət orqanları və təsərrüfat subyektlərinin maraqlarını uzlaş-

dırır [9, s. 37; 14, s.87].

Universal rabitə xidməti mexanizminin tətbiq edilməsi problemləri

Respublika əhalisinin müəyyən hissəsinin gəlirlərinin aşağı olması rabitə sahəsində universal rabitə xidmətinin tənzimlənməsi mexanizmlərinin strukturunda universal rabitə xidməti mexanizminin tətbiq edilməsini tələb edir [8, s. 85;17, s.79].

Respublikamızda universal xidmətə ehtiyacın yaranmasının bir neçə səbəbi vardır. Universal xidmətlər sisteminin formalaşdırılması əhalinin kütləvi surətdə dövlət tərəfindən tarifləri tənzimlənən sosial əhəmiyyətli xidmətlərdən istifadə imkanlarına dövlət təminatının verilməsini nəzərdə tutur. Burada qiymət və dəyərlər təkcə manatla ölçülmür. Hər bir ölkə vətəndaşının informasiya mənbəyinə daxil olması və istifadə imkanlarının yaradılması probleminin həlli-ölkə vətəndaşlarının konstitusiya hüquqları və azadlığı ilə bağlı məsələnin həlli deməkdir.

Azərbaycan Respublikasında universal xidmətin formalaşdırılması məsələsinin həlli bir sıra mühüm parametr və tələblərin müəyyənləşdirilməsini tələb edir: universal xidmətlər paketinə daxil olan xidmətlərin minimal tərkibi; universal xidmət operatorunun təyin olunması qaydası və kriteriyaları; universal xidmətlərlə bağlı məsrəflərin kompensasiyası mexanizmi və mənbələri; universal xidmətin keyfiyyət xüsusiyyətləri.

Universal xidmətin reallaşdırılması sistemi xüsusi fondun yaradılmasını tələb edir, bu sistemə görə bütün operatorlar sosial əhəmiyyətli rabitə xidmətlərinin, adətən az gəlirli və ziyanla işləyən sahələrin maliyyələşdirilməsi üçün müəyyən məbləğlərdə vəsait köçürürlər. Lakin bəzi şirkətlər bu qaydalardan narazıdırlar. Belə bir fondun yaradılmasının opponentləri hesab edirlər ki, ayrı-ayrı sahələrin, o cümlədən sosial əhəmiyyətli sahələrə subsidiyaların verilməsi-öz mahiyyəti etibarı ilə bazar üçün xarakterik deyildir. Onlar hesab edirlər ki, alternativ operatorlar müstəqil olaraq rəqabət şəraitində universal xidmət göstərə bilərlər. Lakin bir məsələ çox aşkar görünür ki, hər şey o qədər də asan deyildir. Sosial fondun əleyhinə olanlar bir məsələni nəzərə almırlar ki, universal xidmətə həyat səviyyəsi və gəlirləri yüksək olmayan əhalinin tələbatı vardır, onlar regionlarda yaşayırlar, burada rəqabət ehtimalları çox azdır. Mütəxəssislər hesab edirlər ki, kommersiya operatorlarından heç kim ucqar yaşayış məntəqələrinə telefon çəkməz, universal xidmət fondunun yaradılması isə qısa müddətdə bütün ölkənin telefonlaşdırılmasına imkan yaradacaqdır [8, s. 213].

Mərkəzləşdirilmiş universal xidmət fondunun yaradılması ilə istər-istəməz təşkilatçı, koordinator, idarə edənin kim olacağı məsələsi gündəmə gəlir. Xarici ölkələrin praktikası göstərir ki, universal xidmət fondunun vəsaitləri və həmin vəsaitlərin daha səmərəli bölgüsünü müstəqil qeyri-kommersiya təşkilatları həyata keçirirlər [9, s.41; 12, s.99; 14, s.92; 17, s.112].

Beynəlxalq təcrübə göstərir ki, universal xidmət fondunun formalaşdırılması üçün aşağıdakı mənbələrdən istifadə etmək olar: mərkəzi və yerli büdcələrdən birbaşa maliyyələşdirmə; rabitə operatorlarından daxil olan vəsaitlər (məsələn müəyyən xidmət növünün gəlirlərinin faizindən); özəlləşdirmədən, dövlət rabitə müəssisəsinin səhmdar cəmiyyətə çevrilməsindən daxil olan vəsaitlər; rabitə şəbəkəsinin auksionda satılmasndan əldə olunan gəlirlər; lisenziyaların verilməsindən əldə edilən gəlirlər; şəbəkə istifadəçilərindən yığılan vəsaitlər; beynəlxalq təşkilatlar və fondlardan daxil olan vəsaitlər. Yuxarıda göstərilən mənbələrdən fonda daxil olan vəsaitlərin xərclənməsi ictimailəşdirilməli, aşkar və şəffaf olaraq həyata keçirilməlidir [14, s.145].

Universal xidmətlər göstərən operatorun müəyyənləşdirilməsi üçün seçmələrdə meyarlar aşağıdakılar ola bilər: rabitə sisteminin inkişafında kifayət qədər təcrübənin olması; dayanıqlı maliyyə vəziyyəti; müəyyən olunmuş parametrlərə uyğun universal xidmətlərin keyfiyyətli göstərilməsi bacarığı; əhaliyə sosial dəstək və sosial infrastrukturun inkişaf etdirilməsi proqramlarında iştirak edə bilmək qabiliyyəti. Universal xidmətin göstərilməsi üçün operatorun seçilməsi açıq müsabiqə yolu ilə həyata keçirilir.

Rabitə bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri

Respublikada rabitə bazarının inkişaf təmayüllərinin təhlili tənzimlənmənin təkmilləşdiril-

məsinin bir sıra istiqamətlərinin xüsusi olaraq qeyd edilməsinə imkan yaradır. Qeyd etmək lazımdır ki, həmin istiqamətlər milli iqtisadiyyat üçün xüsusi əhəmiyyət kəsb edir.

Hesab edirik ki, dövlət siyasəti kiçik və orta biznesin inkişafına dəstək verməlidir. Kiçik biznes üçün, həmçinin rabitə sahəsinin müxtəlif seqmentlərində konkret əməliyyatların keçirilməsi üçün müasir texniki vasitələrin hazırlanması elmi-texniki siyasətin prioritet istiqamətləri olmalıdır.

Təkmilləşdirilməsi tələb olunan mexanizmlər sırasında rabitə xidmətlərinin tarifləşdirilməsi xüsusi olaraq qeyd olunmalıdır. Rasional tarif siyasəti əhaliyə göstərilən xidmətlərin direktiv standartlarının təmin olunmasında mühüm alətlərdən biridir.

Qeyd etmək lazımdır ki, xarici ölkələrdə bu və ya digər telekommunikasiya xidmətinə görə ödənişlərin seçilməsi məsələsi çoxdan, tariflərin yeni tətbiq olunduğu vaxtlarda həll olunmuşdur. Məhz həmin dövrdə tarifləşdirmənin əsas prinsipləri müəyyənləşdirildi [6, s. 98; 10, s. 22-23].

1) Məqsədəuyğunluq prinsipinin məzmunu odur ki, xidmətlərin bazarda yeni təklif olunduğu zaman “çevik tarifləşdirmə” tətbiq olunur, yəni həmin xidmət müqabilində müvəqqəti tarif müəyyənləşdirilir. Əhalinin həmin xidmətdən istifadəsi ölçüsünə əsasən tarifin həcmi dəyişilə bilər. Bu prinsip növbəti prinsiplə sıx bağlıdır.

2) Universal xidmətin uçotu prinsipi. Bu prinsipə görə universal xidmətlərin siyahısına daxil olan xidmət növləri siyahısı uçota alınır. Əgər bu növdən olan xidmətlərin göstərilməsi müqabilində ödənişlər tələb olunursa, o zaman xidmətlər üçün minimal ölçüdə tariflər müəyyən olunmalıdır. Məhz belə bir tələb bütün istehlakçılara təklif edilən xidmətlərə “universallıq, ümumilik” verir.

3) Tariflərin aşkarlığı.

4) Tarifləşdirmə münasibətlərinin iştirakçılarının açıqlanması.

Hesab olunur ki, telekommunikasiya bazarı qeyri-məhdud sayda iştirakçılar üçün açıq bazardır, onlardan hər biri göstərdikləri bu və ya digər telekommunikasiya xidməti üçün tarifləri müəyyənləşdirə bilərlər. Tarif xidmətlər göstərən tərəfə bu və ya digər müddətdə məqbul sayıla bilər. Eyni zamanda tariflərin həcmi istehlakçılara elan olunmalıdır. Bu informasiyanın istehlakçılara necə və hansı formada çatdırılması isə münasibətlərin iştirakçısının öhdəsinə buraxılmışdır - öz reklam kampaniyaları çərçivəsində tarif qiymətlərinin KİV-də dərc olunması və informasiyanın çatdırılmasının digər növlərində. Belə bir müddəa hələlik dəqiq reqlamentləşdirilmir. Əsas olan- məhz həmin subyektlə müqavilə bağlayarkən istehlakçının nə ödəyəcəyi barəsində məlumatı olmalıdır [15, s. 39-42].

Müstəqil şirkətlər tərəfindən aparılan marketinq araşdırmaları bu və ya digər telekommunikasiya xidmətlərinin orta dəyərini müəyyənləşdirməyə imkan yaradır. Burada konkret seçilmiş regionun sosial, iqtisadi, hüquqi mənzərəsi nəzərə alınmaqla istehlakçılara zəruri xidmətlərin göstərilməsi müqabilində məsrəfləri dəqiq və gerçək müəyyən etmək olar. Məhz bu əsaslar üzərində “tarifləşdirmə” çərçivələri müəyyənləşdirilir [10, s. 23].

Rabitə sahəsinin inkişafı, sahənin texniki və texnoloji tərəflərinin daimi olaraq təkmilləşdirilməsi öz növbəsində daimi olaraq tənzimlənmə mexanizmlərində müəyyən düzəlişlərin aparılmasını tələb edir. Rabitə sahəsinin formalaşmasının başlanğıc mərhələsində tənzimləyici prioriteti dövlət orqanları və strukturlarına məxsus idi. Ancaq rabitə sahəsinin daima texniki təkmilləşdirməyə doğru olan meyilləri onunla nəticələndi ki, dövlətin telekommunikasiya fəaliyyəti sahəsinə müdaxiləsi getdikcə minimuma endi. Məhz bütün bunlar rabitə sahəsinin hüquqi tənzimlənməsinə olan yanaşmalarda dəyişikliyə səbəb oldu.

İndiki dövrdə Azərbaycan Respublikasında rabitə sahəsinin normativ-hüquqi və texniki tənzimlənməsi sistemi formalaşmışdır və həmin sistem rabitə xidmətləri və əmtəələrinin istehsalı və fəaliyyətinin inkişafını, istehlakçı və xidmətlərin tədarükçülərin maraqlarının tarazlaşdırılmasını təmin edir [1- 4; 5, s. 143; 6, s. 97].

Lakin bütün bunlara baxmayaraq bazarın mövcud hüquqi tənzimlənməsi sistemi bir sıra istiqamətlər üzrə dünya standartlarından geridə qalır, nəticədə belə bir vəziyyət telekommunika-

siya bazarının inkişafını ləngidir, əlavə olaraq bir sıra məsələlər yeni hüquqi normaların hazırlanmasını tələb edir. Bunlar aşağıdakılardır:

1. İnformasiya-kommunikasiya və poçt infrastrukturu sahəsində:

1) radiotezlikli spektrin istifadə olunması üçün illik ödənişin hesablanması;

2) şəhərlərarası və beynəlxalq rabitə operatorlarının rabitə şəbəkəsinə qoşulması və trafikin buraxılışı üçün tariflərin hesablanması;

3) İP telefoniya (İnternet-telefoniyası) operatorlarının rabitə şəbəkəsinə qoşulması və trafikin buraxılışı üçün tariflərin hesablanması;

4) rabitə operatorları tərəfindən istifadə olunan telefon kanallaşdırılması xidmətlərinə görə tariflərin hesablanması;

5) rabitə operatorlarının şəbəkəyə qoşulması və trafikin buraxılması üçün tariflərin hesablanması, həmçinin mobil rabitə operatorları ilə sabit rabitə operatorları arasında mobil rabitə üçün qarşılıqlı ödənişlərin nəzərə alınması ilə tariflərin hesablanması;

6) telekommunikasiya və poçt rabitəsi sahəsində təbii inhisar subyektlərinin təqdim etdiyi tənzimlənən xidmətlər (əmtəə, iş) üçün tariflərin (qiymətlərin, faiz dərəcəsinin) artırılması və yaxud aşağı salınması, ya da ki, tariflərin son hədlərinin müəyyənləşdirilməsi;

7) telekommunikasiya və poçt xidməti sahəsində təbii inhisar subyektlərinə digər fəaliyyətə icazə verilməsi üçün ərizənin verilməsi, ərizəyə baxılması;

8) telekommunikasiya və poçt rabitəsi sahəsində təbii inhisar subyektlərinin təqdim etdiyi xidmətlər (əmtəə, iş) üçün tariflərin (qiymətlərin, faiz dərəcəsinin) təsdiqi zamanı xərclərin formalaşdırılması;

9) universal telekommunikasiya xidmətləri üçün tariflərin təsdiqi;

10) istehlakçıların şəhərlərarası və (və ya) beynəlxalq rabitə operatorlarının xidmətlərindən istifadəsində seçim etmək hüququnun təmin olunması üçün şəhərlərarası və (və ya) beynəlxalq rabitə operatorlarının öz aralarında yaxud sabit və mobil rabitə operatorları ilə qarşılıqlı fəaliyyət qaydaları;

11) informasiya-kommunikasiya və poçt infrastrukturu sahəsində standartlar bazasının formalaşdırılması.

2. Rəqəmsal televiziya yayımının tənzimlənməsi sahəsində:

1) Azərbaycan Respublikasının "Teleradio yayımı haqqında" Qanununun təkmilləşdirilməsi;

2) DVB standartları verilmiş rəqəmsal efir yayımına keçidlə bağlı televiziya və radio yayımlarının fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsi;

3) DVB standartları verilmiş radiotezliklərin beynəlxalq koordinasiyası ilə Azərbaycan Respublikasında yerüstü rəqəmsal efir yayımının ərazi-tezlik planlaşdırılması;

4) proqramların sosial paketinin təsdiq edilməsi.

3. İnternetin tənzimlənməsi sahəsində:

1) elektron pullar və elektron kommersiya da daxil olmaqla internetin fəaliyyətinin təkmilləşdirilməsi;

2) İnternetdə intellektual mülkiyyət və müəllif hüquqlarının qorunması, şəxsi məlumatların, o cümlədən, biometrik fərdi məlumatların qorunması;

3) ictimai münasibətlərin və KİV-in İnternetlə bağlı fəaliyyətinin tənzimlənməsi.

4. Proqram təminatı və informasiya texnologiyaları xidməti sektorunun inkişafı sahəsində:

1) dövlət orqanları və milli holdinqlərin İT layihələrinin milli İT müəssisələri tərəfindən və milli məzmunun üstünlüyü ilə reallaşdırılmasının prioritetliyinin təmin olunması, ölkədə istehsal edilən kompüter və digər yüksək texnologiyalar avadanlığının alınmasına üstünlük verilməsi;

2) perspektivdə kommersiya mənfəəti və verimliliyi ilə müşayiət olunan əhaliyə və biznesə elektron xidmət sahəsində dövlət-özəl sektor tərəfdaşlıq prinsiplərinin müəyyənləşdirilməsi;

3) müsabiqə qaliblərini müəyyənləşdirərkən, keyfiyyət, funksional bütövlük, yenilik, mül-

kiyyətin məcmu dəyəri kimi meyarların əhəmiyyətinin artırılması;

4) dövlət sektorunda böyük və mürəkkəb informasiya sistemləri yaradılarkən çoxillik müqavilələrin bağlanması (3 ildən çox olmayaraq);

5) dövlət orqanlarına və 100% dövlət iştirakı ilə fəaliyyət göstərən şirkətlərin İT xidmətlərinin kommersiya bazarına autsorsinq şərtilə çıxarılması;

6) informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən səhmdar cəmiyyətlərinə və 100% dövlət iştirakı ilə çalışan məhdud məsuliyyətli yoldaşlıq cəmiyyətlərinə özəl sektorun əhatə etdiyi fəaliyyət növləri ilə məşğul olmaq səlahiyyətlərinin verilməsinin səmərəliliyinə dair qüvvədə olan qanunvericilik normalarına dəyişiklik və əlavələrlə bağlı təkliflərin hazırlanması;

7) yüksək ixtisaslı xarici İT mütəxəssislərinin Azərbaycan Respublikasına gəlişi və işə qəbul olunması qaydalarının sadələşdirilməsi;

8) xarici ölkələrə milli kreditlər verilərkən, xarici ölkələrə məhsul ixrac edən milli İT şirkətlərinin sifarişlərin alınmasında dəstəklənməsi.

5. Azərbaycan Respublikası ərazisində yüksək texnologiyalı avadanlıqların istehsalının inkişaf etdirilməsi sahəsində:

1) ölkədə kompüter-kommunikasiya avadanlıqları və Proqram təminatı istehsalçıları üçün uzunmüddətli sifariş portfelinin formalaşdırılması.

Rabitə sahəsində hüquqi bazanın və texniki tənzimlənmə mühitinin yaradılmasının aktuallaşması hər şeydən öncə “İKT üzrə Strateji Yol Xəritəsi”ndə qarşıya qoyulmuş məqsədlərə nail olunmasının zəruri şərtlərindən biridir [2].

Nəticə

Azərbaycanda inkişaf edən bazar münasibətləri şəraitində rabitə xidmətlərinin rolu durmadan artacaqdır, çünki yüksək keyfiyyətli rabitə infrastrukturun mühüm tərkib hissəsidir, bazar münasibətlərinin inkişafının sürətlənməsinin güclü katalizatorudur və eyni zamanda kommersiya uğurunun qazanılmasının mühüm təminatçısı kimi çıxış edir.

Bununla əlaqədar, rabitənin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinin əhəmiyyəti daha da artır. Qanunvericilik bazasının təkmilləşdirilməsi və vergi yükünün azaldılması, idxal və ixrac proseduralarının yüngülləşdirilməsi ölkədə biznes fəaliyyətinin aparılması şəraitini yaxşılaşdıracaq, İKT sahəsində start-upların inkişafı üçün əlverişli şərait yaradacaq, bununla da respublika iqtisadiyyatının innovativ inkişafına xidmət edəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
2. “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”. AR Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı.
3. “Telekommunikasiya haqqında” AR Qanunu. (2005).
4. “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı”.
5. Aras O.N., Süleymanov E. Azərbaycan İqtisadiyyatı. “Şərq-Qərb” mətbəəsi, Bakı. 2016, 412 s.
6. Əliyev Ə.B. Xidmət sahələrinin iqtisadiyyatı. Dərs vəsaiti. Bakı, “Təhsil”, 2017,136 s.
7. Rəhmanov F.P. Respublikada sosial siyasətin təkmilləşdirilməsi problemləri. Azərbaycan Dovlət İqtisad Universitetinin Elmi xəbərləri, cild 5, aprel- iyun 2017, s.32-41
8. Болданова Е.В. Рынок услуг связи : учеб. пособие / Е. В. Болданова. - Иркутск : Изд-во БГУЭП, 2010. - 232 с.
9. Григорьев А.В. Мировой опыт развития телекоммуникационного рынка//Российский внешнеэкономический вестник-№ 6 (Июнь) 200 <http://www.konspekt.biz/list.php?tag
10. Жигульская Г.М. Тарифы на услуги связи - проблемы регулирования. //Вестник связи, № 7, 2012, с.20-25

11. Каграманзаде А.Г. Этапы развития телекоммуникации Азербайджана. Баку, «Элм», 2011, 726 с.
12. Маннапов Р.Г. Тенденции и перспективы развития сферы сервиса в условиях глобализации // Наука - сервису: VIII Междунар. научно-практ. конф.: Сб. докладов на пленарном заседании. / Под ред. д. т. н. Ю. Н. Маслова. МГУС - М., 2013. -ч. 1, с. 98-104.
13. Рахманов Ф.П. Диверсификация экономики Республики Азербайджан на базе устойчивого развития ненефтяного сектора. Анализ аналогичного зарубежного опыта. МАНЕКО (Journal of Corporate Management and Economics), Братислава, №1, 2017, с.90-104
14. Рейман Л.Д. Совершенствование системы государственного регулирования отрасли телекоммуникаций. Изд-во СПб Ун-та эк. и фин., 2009, 169 с.
15. Резникова Н.П. Маркетинг в телекоммуникациях. - М.: Эко-Трендз, 2002, 234 с.
16. Фронтов В.В., Тихвинский В.О. Регулирование телекоммуникаций в России и странах СНГ: Учебное пособие для вузов. - М.: Горячая линия-Телеком, 2006. - 368 с.
17. European Commission, Towards a Dynamic European Economy, Green Paperon the development of the common market for telecommunications sector services and equipment, COM(87) 290, June 1987 with Resolution 94/C48/01 of 7 February 1994 («On universal service principles in the telecommunications sector»), p.104-134.

Албина Чингиз кызы Гашимова
Азербайджанский Государственный
Экономический Университет

Вопросы совершенствования механизмов регулирования отрасли связи

Резюме

В статье рассматриваются проблемы развития отрасли связи Азербайджана в современных условиях. Дана характеристика целей, задач и приоритетов государственного регулирования в отрасли связи. Особое внимание уделено необходимости разработки комплекса государственных программ развития основных сегментов отрасли связи. Сформулирован комплекс мер по совершенствованию механизмов и инструментов регулирования связи в республике.

Ключевые слова: отрасль связи, механизм регулирования, стратегия, приоритет, универсальное обслуживание.

Albina Chingiz Hashimova
Azerbaijan State University of Economics

Issues of improving regulatory mechanisms for the communications industry

Summary

The article deals with the problems of the development of the communications industry of Azerbaijan in modern conditions. The characteristics of the goals, objectives and priorities of state regulation in the communications industry are given. Particular attention is paid to the need to develop a set of government programs for the development of key segments of the communications industry. A set of measures has been formulated to improve the mechanisms and instruments for regulating communication in the republic.

The purpose of the article is to study the main problems of the telecommunications industry development and develop recommendations on improving the effectiveness of communication regulation mechanisms and instruments in the republic.

Key words: communication industry, regulatory mechanism, strategy, priority, universal service.

UOT 338.48

Ülviyyə Zakir qızı ƏLİYEVA
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ MÜASİR TENDENSİYALARI

Xülasə

Məqalədə Azərbaycan Respublikasında turizmin inkişafının müasir tendensiyaları, sosial-iqtisadi mahiyyəti və əhəmiyyətindən bəhs edilir. Turizmin inkişaf tendensiyalarını təşkil edən dayanıqlı və ardıcıl olan inkişafı, turizmin yüksək gəlirli sahə, yerli büdcənin təmin edılməsi mənbəyi olması, yeni iş yerlərinin açılması üçün zəmin yaratması, turizm təklifinin intensiv diversifikasiyası, istehlak tələbinin ödənilməsi, dövlət dəstəyinin göstərilməsi, bu sahənin gələcək inkişafının təmin edilməsi müəyyənləşdirilir.

Açar sözlər: turizm, turizm xidmətləri, inkişaf tendensiyaları, turizmin sosial-iqtisadi mahiyyəti, turizm bazarı, dövlət dəstəyi.

Giriş

Müstəqillik əldə etmiş Azərbaycan Respublikasının qarşısında duran strateji məqsəd ölkənin bazar iqtisadiyyatına keçməsilə bağlı qarşıya çıxan bir sıra sosial-iqtisadi problemlərin həllində onun mütərəqqi formalarından səmərəli istifadə yollarını müəyyən etməkdir. Turizm haqqında Azərbaycan Respublikası qanunu Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirmişdir.

Azərbaycanda turizmin inkişaf istiqamətləri

Müasir dövrdə turizmin inkişafı, təbliğatı siyasi mahiyyət daşımaqla hər bir dövlətin beynəlxalq müstəviyə çıxmasını sürətləndirmək, coğrafi resurslarını, mövcud imkanlarını, mədəniyyətini təbliğ etmək, milli-tarixi irsi tanıtmaq vasitəsinə çevrilmişdir. Ümumiyyətlə, turizm ölkənin inkişaf etməsinə, varlanmasına, əhalinin rifahının yaxşılaşmasına xidmət edən gəlirli biznes sahələrindəndir. Həmçinin xalqın, onun mədəniyyətinin, milli dəyərlərinin dünyada tanınmasına xidmət edən bir sahədir. Turizm, iqtisadi baxımdan səmərəli olmaqla yanaşı, həm də mədəni və mənəvi dəyərlərə malikdir ki, bu da turizmin iqtisadi amillərinin təsiri ilə yarana biləcək təsirlərdən qorunmasını tələb edir.

Bidiyimiz kimi, Azərbaycanın coğrafi mövqeyi, iqlimi, qonaqpərvərliyi, ölkənin daxili sabitliyi, qədim mədəniyyəti imkan verir ki, ölkəmiz tezliklə dünya standartlarına cavab verə biləcək turizm mərkəzlərindən birinə çevrilsin. Əlverişli coğrafi mövqeyi, doqquz iqlim tipli qurşağı, flora və faunasının müxtəlifliyi və zənginliyi, dəniz sahilində yerləşməsi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri olan ölkəmizdə turizmin inkişafı üçün böyük perspektivlər vardır. Son illər ərzində turizm infrastrukturunun genişləndirilməsi istiqamətində də respublikanın paytaxtı Bakı şəhərində və regionlarda böyük işlər görülməkdədir.

Azərbaycan iki dünya sivilizasiyasının qovşağında Transqafqaz nəqliyyat dəhlizinin ortasında yerləşir ki, bütün infrastruktur - Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və nəqliyyat yolları buradan keçir. Bazardüzü, Şahdağ, Babadağın dagları, Böyük Qafqazın cənub ətəklərindən axan çaylar, çoxsaylı şəlalələr, Göygöl, Maral göl, Qobustanın sərt və eyni zamanda mənzərəli palçıq vulkanları, Lənkəranın nadir qoruqları, Abşeron və Nabran bölgəsinin müalicəvi əhəmiyyətli narın qumlu çimərlikləri Azərbaycanın zəngin turizm potensialının əhəmiyyətli tərkib hissəsidir.

Turizm fəaliyyəti iqtisadi inkişafın əsas istiqamətləndirici sahələrindən biridir. Turizmin inkişafı turizm sektorunu ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevirir. Turizm ehtiyatlarının öyrənilməsi turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin artırılaraq müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort sərvətlərinin araşdırılması və davamlı istismarı, mehmanxanaların və digər turizm obyektlərinin tikintisinin genişləndirilməsi, turizm marşrutlarının artırılması, turizm növlərinin inkişaf etdirilməsi, prioritet turizm növü kimi mədəni turizm, ekoloji turizm və kənd yaşıl turizmi, rekreasiya turizmi sahəsində dövlət tənzimlənməsinin gücləndirilməsi, milli adət-ənənələri, Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının genişləndirilməsi qarşıya qoyulan əsas məqsədlər sırasındadır. Eyni zamanda Azərbaycanı turizmin inkişafı üçün əlverişli şəraiti olan ölkə kimi dünyada tanıtmaq məqsədilə yeni Azərbaycan Turizm əmtəə nişanının (loqosunun) və turizm sahəsində olan Azərbaycan brendlərinin reklam-təbliğat və məlumat-sorğu fəaliyyətinin canlandırılması, beynəlxalq proqramlar çərçivəsində regional mədəni turizm marşrutlarının yaradılması və inkişaf etdirilməsi və turizm inkişafı sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi prioritet istiqamətlərdəndir.

Turizmin inkişafının müasir tendensiyaları

Turizmin inkişafı nəzəri, praktik, konseptual müddəalara əsaslanır. Bunlarla yanaşı, daxili turizm ölkə daxilində siyasi və iqtisadi sabitliyin yaranmasına zəmin yaradır. Siyasi sabitlik isə ölkədə ona görə möhkəmlənir ki, turizmdən əldə olan gəlir əhalinin müxtəlif təbəqələri arasında ədalətlə və görülən əmək müqabilində paylanılır. Turizm çoxlu iş yerləri açılmasına imkan yaradır. Eyni zamanda bir nəfər xarici turistdən gələn gəlir 1 ton xam neftin satışından əldə olunan gəlirdən çoxdur. İEÖ-lərin təcrübəsi göstərir ki, turizmin fəaliyyəti iqtisadiyyata təsir göstərən güclü qüvvədir. O, dövlət büdcəsinin formalaşmasında, ticarət balansının sabitləşməsində mühüm rol oynayır. Lakin turizmin rolu bununla bitmir. Turizmin inkişafı ölkədə işsizlik kimi ağır bir problemin öhdəsindən gəlir, ölkə təsərrüfatının bütün sahələrinə təsiri güclüdür. Həmçinin cəmiyyətin sosial-iqtisadi inkişafı nöqteyi-nəzərindən turizmin əhəmiyyəti böyükdür. Ayrı-ayrı regonlarda, o cümlədən bütövlükdə ölkədə turizmin inkişaf etdirilməsi bir çox sosial-iqtisadi problemlərin kökündən həll edilməsi üçün əlverişli şərait yaradır. Onun inkişaf etməsi ilə çoxsaylı yeni iş yerlərinin açılmasına, kənd əhalisinin şəhərə axınının qarşısının alınmasına, əhalinin kommunikasiya və mədəni əlaqələrinin artmasına nail olmaq mümkündür. Turizm inkişaf edən regionlarda mədəniyyətlərarası inteqrasiyanın güclənməsinə də əlverişli şərait yaranır.

Turizm həm də milli iqtisadiyyatda və beynəlxalq ticarətdə bu gün xüsusi çəkiyə malik olan sahəyə çevrilmişdir.

Daxili turizm milli gəlirin bölüşdürülməsi ilə milli iqtisadiyyatın daha balanslı vəziyyətdə olmasına,ölkə iqtisadiyyatı üçün daha yararlı olan fəaliyyət növlərinin cəmiyyət tərəfindən dərk olunmasına şərait yaradır.

Tuzim sferasının inkişafı, turist biznesi ölkədə digər sahələrin inkişafına stimul verir.

Bu biznes, əsas etibarı ilə, sahibkarları az ilkin investisiya, turist xidmətlərinə artan tələbat, yüksək səviyyəli rentabellik, xərclərin qısa müddətə ödənilməsi kimi xüsusiyyətləri ilə özünə cəlb etmiş olur.

Müasir turizm sənayesi çox dinamik inkişaf edən və yüksək gəlirli bir sahədir. Məhz bu baxımdan turizmin inkişafı ölkənin büdcəsinə gələn gəlirlərin artması, iş yerlərinin açılması, əhalinin rifah halının yaxşılaşdırılması, ölkə iqtisadiyyatının inkişafını tənzimləməyə imkan yaradır. Turizmin inkişaf tendensiyalarını təşkil edən dayanıqlı və ardıcıl inkişaf, turizmin yüksək gəlirli sahə, yerli büdcənin təmin edilməsi mənbəyi olması, yeni iş yerlərinin açılması üçün zəmin yaratması, turizm təklifinin intensiv diversifikasiyası, dövlət dəstəyinin göstərilməsi, qlobal iqlim dəyişkənliyi və s. bu sahənin gələcək inkişafını təmin edir.

Turisti ölkəyə cəlb etməkdən öncə onun istifadə edəcəyi xidmət dairəsini qaydaya salmaq və böyütmək, infrastruktur şəbəkəsini genişləndirmək lazımdır.

2018-ci ildə Azərbaycanın inkişaf istiqamətlərindən danışan dövlət başçısı qeyd etmişdir ki, *"*Ölkəmizə *2,7* milyon xarici vətəndaş gəlmişdir. Bu, çox müsbət haldır. Bunun səbəbləri var - əlbəttə, mən bu barədə dəfələrlə danışmışam - həm sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələrimiz və turizm sahəsinə göstərilən dövlət dəstəyi və əminəm ki, eyni zamanda, beynəlxalq tədbirlər, beynəlxalq yarışlar turistləri ölkəmizə cəlb edir. Sevindirici hal ondan ibarətdir ki, əvvəlki illərə nisbətən keçən il turistlər bank kartları ilə *70%* çox pul xərcləmişlər. Turistlərin sayı cəmi *20%* artmışdır, amma xərclənən pul *70%*-dən çox artmışdır. Bu da çox müsbət haldır. Turizm də ixracın bir növüdür, çünki turizm ölkəyə valyuta gətirir*"*.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Kolumbiyanın Medelin şəhərində keçirilən *21*-ci sessiyası çərçivəsində qəbul edilmiş qətnaməyə əsasən, *2017*-ci il dünyada *"*Turizmin davamlı inkişaf ili*"* elan edilmişdi.

Ötən il Azərbaycanda turizmin inkişaf tempi onu deməyə əsas verir ki, beynəlxalq aləmdə yüksək qiymətləndirilən davamlı inkişaf tendensiyası ölkəmizdə də uğurla həyata keçirilmişdir. Bunu faktlar da sübut edir, belə ki, *2017*-ci ilin *10* ayı ərzində ölkəmizə gələn xarici vətəndaşların sayı *2 276 604* nəfər olub.

Azərbaycana gələn xarici vətəndaşların ümumi sayında Rusiya, Gürcüstan, İran və Türkiyə vətəndaşlarının xüsusi çəkisi daha çox olub*:* müvafiq olaraq *31,9, 19,2, 14* və *10,9%* təşkil etmişdir.

Azərbaycan xalqının qonaqpərvərlik və tolerantlıq ənənələri hər zaman ölkəmizə gələn turistlərin diqqətini cəlb edir. Turizm məqsədilə Azərbaycana səfər etmək istəyən bütün turistlərin rahat, təhlükəsiz istirahəti üçün zəruri şərait yaradılmışdır. Təkcə Yeni il bayramı günlərində Şahdağ Turizm Kompleksinə rekord miqdarda - 16 mindən artıq turist gəlmişdir.

Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcmində turizmin payı artmışdır. 2017-ci il ərzində Azərbaycanın turizmdən əldə edilən gəlirləri 1 milyard 834 milyon dollara çatmışdır. 2015-ci ilə nisbətən Azərbaycana gələn turistlərin sayı 2016 və 2017-ci illərdə 6,4% artaraq 1 milyon nəfərə çatmışdır.

Hər gün ərəb ölkələrindən 600-1000 nəfər turist Azərbaycana səyahət edir. Həmin ərəb ölkələri arasında Səudiyyə Ərəbistanı, Qətər, Küveyt, Oman və İraq vətəndaşları üstünlük təşkil edirlər ki, onlar da gün ərzində ölkədə minimum 150-200 dollar xərcləyirlər. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin açıqladığı məlumata görə, 2017-ci ilin mayında ötən illə müqayisədə ölkəyə gələn turistlərin sayı 30 dəfə artmışdır. ÜDM-in 4,5%-ni turizm gəlirləri təşkil edir.

Milli Turizm Təbliğat Bürosunun verdiyi məlumata görə: "qarşıya qoyulan plana əsasən, 2020-ci ildə Azərbaycana gələn turistlərin sayı 1.6 milyon nəfər olmalıdır". Azərbaycana gələn turistlərin coğrafiyasında da genişlənmə var və bütün istiqamətlərdən ölkəyə gələn turistlərin sayında artım müşahidə edilir. Xüsusən də bayram günlərində turistlərin axını daha çox olur. Bu isə turizmdən əldə edilən gəlirlərin artması deməkdir.

Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirmişdir. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Azərbaycan kontekstində də ölkənin diversifikasiyası, regionların inkişafı üçün məhz bu sənaye həlledici əhəmiyyət kəsb edir.

Azərbaycanda turizm sahəsində peşəkar kadrlara ehtiyac böyükdür. Bu ehtiyacın təmin olunması məqsədilə Azərbaycan Turizm İnstitutu yaradılmışdır. Ölkəmizdə yeni iş yerlərinin açılması mehmanxanaların tikilməsi, istirahət ocaqlarının açılması, əyləncə mərkəzlərinin yaradılması nəticəsində mümkün olmuşdur. Bunun nəticəsində əhalinin məşğulluq problemləri də aradan qaldırılmaqdadır.

Müasir dövrdə dünyada gedən müharibələr, qeyri-sabit durum, terrorizmin güclənməsi turizmin inkişafına mənfi təsir göstərən sahələrdir. Məhz buna görə də bizim ölkədə sabitliyin olması çoxsaylı turistlərin etibarını qazanmış və onların ölkəyə axınını artırmışdır.

Turizm müxtəlif resurslardan: təbiət və mədəni irs, tarixi obyektlər,mədəniyyət ocaqları və s. istifadə edir. Müasir zamanda ekstrim turizmə meyil artmışdır. Bir çox turistlər şəxsi avtomobili ilə səyahət etməyə üstünlük verir, bunun üçün lazımi tədbirlər görülməli, belə turistlərin istirahətini təmin edərək onların sayının artmasına nail olunmalıdır. Turizm iqtisadi fəaliyyət növüdür, bir tərəfdən turistlərin ödəməqabiliyyətli istehlakçıların tələbatını ödəyən, digər tərəfdən isə bu tələbatı ödəyə biləcək əmtəə və xidmətlər yaradan sahədir. Turizm bir neçə iqtisadi sahənin birləşməsi və birgə inkişafına zəmin yaradır. Məhz turizmin inkişafı bu sahələrin kənd təsərrüfatı, informasiya texnologiyaları, ticarət, ictimai iaşə və s. sahələrinin inkişafına təkan vermiş olur.

Turizm əsasən sahibkarlıq sferası olsa da, onun tənzimlənməsi və stimullaşdırılması prosesində iştirak edən və marağı olan dövlətdir. Turizm siyasəti dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsidir.

Dövlətin turizm siyasəti, məcmu tədbirlər çoxluğu olmaqla, respublikada bu sahənin iqtisadi-sosial rolunu və iqtisadi sistemdə vəzifələrini idarə etməkdir. Turizmin inkişafında dövlət himayəsi və dövlət mexanizmləri büdcə, vergi və sahibkarlığa kömək vasitəsilə reallaşır.

Bütövlükdə turizmin dövlət tənzimlənməsi, ölkə iqtisadiyyatının daxili və inteqrasiya potensialının perspektiv istiqamətlərini nəzərə almaqla reallaşır.

Nəticə

Azərbaycanda turizmin inkişafının müasir tendensiyaları dünya turizm sənayesinin və turizmin inkişafının qarşısında duran əsas problemlərin həlli, yeni inkişaf istiqamətlərinin seçilməsi və müasir turizm növlərinin yaradılması və inkişafına təkan vermiş olacaqdır.

Respublika iqtisadiyyatında turizmin rolunun artırılması məqsədilə turizm sahəsinin aşagıdakı inkişaf istiqamətləri irəli sürülmüşdür:

- qarşıya qoyulan məqsədlərə nail olmaq məqsədilə ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsi planlaşdırılır: fəaliyyət göstərən turizm obyektlərinin müasir tələblərə uyğun qurulması;
- mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərində yataq yerlərinin sayının 150 min ədədə çatdırılması;
- beynəlxalq və daxili bazarda ölkənin rəqabət qabiliyyətini artıra bilən turizm infrastrukturunun təkmilləşdirilməsi və turizm sənayesinin inkişaf etdirilməsi;
- ölkə turizm-rekreasiya zonalarının hüquqi statusunun müəyyən edilməsi, ərazisində turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasının təmin etdirilməsi;
- turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanmasına və tətbiq edilməsinə nail olunması;
- turizm sahəsində çalışan insanların peşə hazırlığı səviyyəsini daima artırmaq və turizm sahəsində zəngin təcrübəsi olan ölkələrlə kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və turizm ehtiyatlarının qorunmasının təmin edilməsi və bu ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması.

Strateji Yol Xəritəsində turizmin inkişafı ilə bağlı nəzərdə tutulan tədbirlərin reallaşması da yeni uğurlara imkan yaratmışdır. Strateji Yol Xəritəsi 2020-ci ilədək iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı əhatə edir.

2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına dövlət büdcəsinin artırılması nəzərdə tutulur. Turizm Təşkilatının 2020-ci ilə olan proqnozlarına əsasən turistlərin sayı 1,6 milyon nəfərə çatacaq, gəlirlər isə 2 mlrd. dollar təşkil edəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafın dair Dövlət Proqramı. Azərbaycan, 27 avqust 2002.
2. “Turizm fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 4 iyun, 1999.
3. N.C.Qafarov. “Turizmin iqtisadiyyatı.” Bakı, 2012.
4. Ə.Q.Əlirzayev. “Turizmin iqtisadiyyatı və idarə edilməsi”. Bakı, 2011.
5. İ.Hüseynov, N.Əfəndiyeva. Turizmin əsasları. Dərslik. Bakı, 2007.
6. Гуляев В.Г. Туризм: экономика и социальное развитие. Москва, 2008.

Улвия Закир кызы Алиева
Азербайджанский Университет Кооперации

Современные тенденции развития туризма в Азербайджане

Резюме

В статье рассматриваются современные тенденции развития туризма, социально-экономическое значение и важность туризма в Азербайджанской Республике. Определяется устойчивое и последовательное развитие туризма, которое является движущей силой развития туризма, является источником туризма с высоким доходом, источником местной бюджетной поддержки, основой для новых рабочих мест, интенсивной диверсификацией туристических предложений, потребительским спросом, государственной поддержкой и дальнейшим развитием отрасли.

Ключевые слова: туризм, туристические услуги, тенденции развитии, социально-экономическое значение туризма, рынок туризма, государственная поддержка.

Ulviyya Zakir Aliyeva
Azerbaijan Cooperation University

Contemporary trends in tourism development in Azerbaijan

Summary

The article considers modern trends in tourism development, socio-economic importance and importance of tourism in the Republic of Azerbaijan. Determined sustainable and consistent development of tourism, which is the driving force for tourism development, is a source of tourism with high income, a source of local budget support, the basis for new jobs, intensive diversification of tourism proposals, consumer demand, government support and further development of the industry.

Key words: tourism, tourist services, development trends, socio-economic importance of tourism, tourism market, state support.

V BÖLMƏ
DÜNYA İQTİSADİYYATI VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK

UOT: 331.108.4:331.434:331.446.4

Loğman İmran oğlu ABDULLAYEV
Sumqayıt Dövlət Universitetinin
doktorantı, iqtisad üzrə fəlsəfə doktoru

DÜNYA ÖLKƏLƏRİNDƏ İNSAN KAPİTALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ ASPEKTLƏRİ

Xülasə

Məqalədə dünya ölkələrində insan kapitalından istifadənin səmərəliliyinin yüksəldilməsi aspektləri, bunlarla bağlı problemlər və həlli yolları tədqiq olunmuşdur. Bu məqsədlə dünyada insan kapitalının formalaşması və inkişaf etməsi prosesləri, tendensiyaları, mövcud mexanizmləri təhlil olunmuşdur. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə insan potensialının reallaşdırılması, insan kapitalının formalaşdırılması və inkişaf etdirilməsi üzrə yanaşmalar, dövlət dəstəyi mexanizmləri və praktiki alətlər araşdırılmış, ümumiləşdirilmişdir. İnsan inkişafı indeksi üzrə ölkələrin tutduğu mövqedən çıxış etməklə, bu ölkələrdə insan kapitalının inkişafı ilə bağlı problemlərin həlli tədbirləri və mexanzimlərinin səmərəliliyi qiymətləndirilmişdir. İnkişaf etməkdə olan ölkələrdə, o cümlədən postsosialist və postsovet respublikalarında insan kapitalı ilə bağlı yanaşmaların formalaşması proseslərindəki problemlərin mahiyyəti açıqlanmış, bu istiqamətlər üzrə həyata keçirilməsi zəruri olan məsələlərə münasibət bildirilmişdir. İnsan kapitalından istifadənin səmərəli təşkili üzrə dünya təcrübəsindən çıxış etməklə, bu istiqamətdə Azərbaycanda vacib tədbirlərin kompleks və sistemli, həmçinin davamlı şəkildə uzunmüddətli dövr üçün reallaşdırılması problemlərinə və perspektivlərinə toxunulmuşdur

Açar sözlər: insan kapitalı, insan potensialı, insan inkişafı indeksi, insan kapitalından istifadənin modelləşdirilməsi, insan kapitalından istifadənin səmərəliliyinin artırılması, Azərbaycanda insan kapitalından istifadənin təmin edilməsində dünya təcrübəsinin əhəmiyyəti.

Giriş

Sivilizasiyanın inkişafı və dünya iqtisadi proseslərinin təhlili baxımından yanaşdıqda, insan amili bütün dövrlərdə həlledici qüvvə kimi çıxış etmişdir. İnsan anladığımız, gördüyümüz, dərk etdiyimiz dünyəvi proseslərdə nə əldə edilibsə, hamısının əsas yaradıcı qüvvəsi və bununla bağlı məsələlərdə həlledici əhəmiyyət kəsb edən düşüncələrin, hərəkətlərin sahibidir, bu gün də belədir və şübhəsiz, gələcəkdə də insansız inkişafı təsəvvür etmək qeyri-mümkün olacaqdır. İqtisadi proseslər baxımından və insanın bu proseslərdə iştirakı nöqteyi-nəzərindən məsələlər kifayət qədər mürəkkəb və ziddiyyətlidir, amma bütün hallarda insan iqtisadi proseslərin ideyaçısı, yaradıcısı və icraedicisi kimi diqqət mərkəzində olmuşdur. Klassik iqtisadi yanaşmalarda və baxışlarda insan əməyinin dəyəri, insanın iqtisadi proseslərdə iştirakı, insan kapitalının real istehsal proseslərindəki rolu və əhəmiyyəti və bütövlükdə iqtisadiyyatın səmərəliliyinin təmin edilməsində insan potensialının vacibliyi diqqət mərkəzində olmuşdur. Sonrakı proseslərdə bu məsələlər üzrə diskussiyalar daha da dərinləşmiş və yanaşmalar yenilənmişdir. Bir tərəfdən elm və texnikanın inkişafı ilə bağlı insan əməyinin ikinci plana keçdiyini israrla bildirən fikirlər müqabilində, elə bu texnikanın da, texnologiyanın da, müasir dövrdə isə innovasiyaların da yaradıcısının insan olduğunu bildirən opponentlər də tamamilə haqlı görünürlər. Bizə görə, iqtisadi inkişaf proseslərinin dünyəvi xronologiyasından və bu proseslərdə insanın rolundan çıxış et-

sək, insan amili bütün dövrlərdə mühüm və əsas hərəkətverici qüvvə kimi çıxış etmişdir və müasir dövrdə insan amili, başqa sözlə daha çox insan kapitalı kimi yanaşılan bu varlıq iqtisadi və texnoloji yüksəlişin də həlledici hərəkətverici amilidir. Nəzərə almaq lazımdır ki, iqtisadi cəhətdən inkişaf etmiş dünya ölkələrinin əsas uğurlu nəticələrinin mərkəzində insan amili dayanmışdır. Bu proseslərdə peşəkarlıq, intellekt, yüksək texnologiyaların mənimsənilməsi, kəşflər və ixtiralar, əldə olunmuş nəticələrin isə maksimum səmərəli tətbiqi ilə bağlı proseslərin əsas amili insan kapitalından ibarətdir.

Dünya iqtisadi proseslərində insan kapitalından istifadənin əhəmiyyətinin dərkedilməsi məsələləri və müasir vəziyyətin təhlili

Dünya iqtisadi proseslərinin daha səmərəli və məhsuldar təşkili problemləri daim diqqət mərkəzində olmuşdur. Bu sırada mövcud problemlərin baxılması, həll edilməsi və bununla bağlı fikirlərin ümumiləşdirilməsi, vacib fəaliyyət istiqamətlərindən biri kimi diqqət çəkir. Hələ XX əsrin 70-ci illərindən başlayaraq aparıcı dünya ölkələrində və beynəlxalq qurumlar səviyyəsində insan kapitalının rolu və əhəmiyyəti ciddi diskussiyalar predmetinə çevrilmişdir. İnsan kapitalına əldə olunmuş biliklərin və bacarıqların məcmusu kimi baxılması prosesləri intensivləşmişdir və insan kapitalından istehsal prosesləri, təkrar istehsal tsikli ilə yanaşı, istehlak ilə bağlı məsələlərdə də maksimum səmərəli istifadə edilməsi üzrə fəaliyyətin genişləndirilməsi diqqət çəkmişdir. Amma, bu proseslərdə əhəmiyyətli investisiyaların yatırılması, dövlətlər tərəfindən davamlı və sistemli tədbirlərin görülməsi, balanslaşdırılmış iqtisadi siyasətin hazırlanması və reallaşdırılması vacib şərtlər kimi diqqət çəkirlər. İnsan kapitalına və insan potensialına yatırılan investisiyalar, bununla bağlı strateji yanaşmalar iqtisadi, sosial, coğrafi, siyasi, texnoloji və s. amillər üzrə prioritet yanaşmaları özündə əks etdirməli və hər bir ölkənin milli iqtisadi inkişaf xüsusiyyətlərinə və strateji hədəflərinə uyğun şəkildə olmalıdır. İnsan potensialının reallaşdırılması və insan kapitalının inkişafı ilə bağlı məsələlərə elmi yanaşma ən yüksək strateji səviyyəyə qaldırılmalıdır [1]. Bunlarla bərabər, dövlətin bu istiqamətdə sərgilədiyi siyasət mexanizmləri maksimum işlək olmalı, obyektiv reallıqları özündə əks etdirməli, ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı prioritet yanaşmalara uyğun formalaşdırılmalı, cəmiyyətin baxışları ilə ziddiyət təşkil etməməlidir. Bu baxımdan insan potensialının obyektiv ölçülməsi və qiymətləndirilməsi üzrə meyarların və indekslərin optimallığı məsələsi xüsusi diqqət çəkir. Məlumdur ki, dünyada və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış qurumları tərəfindən müəyyən yanaşmalar və göstəricilər sistemi vardır. Amma, bütün göstəricilərin əsasında mühüm yeri insanın inkişafı üçün tələb olunan yaşayış səviyyəsinin və şəraitinin formalaşdırılması, onun zəruri bilik və bacarıqları əldə etməsi üçün real infrastruktura, maddi-texniki bazaya, vəsaitlərə malik olması, insan potensialının, bacarığının, istedadının formalaşması və üzə çıxarılması üçün davamlı dövlət siyasəti mexanizmlərinin mövcudluğu, ölkədə insanın layiqli şəraitdə işləməsi, yeni biliklər əldə etməsi, sağlam yaşaması, yüksək texnologiyaların kəşfi və onların sınaqlarının təmin edilməsi ilə bağlı infrastruktur şəbəkəsinə əlçatanlığı təmin edilməlidir. Hər bir ölkədə insan kapitalının inkişafı ilə bağlı yaradılan şərait və mövcud reallıqlar bu ölkənin inkişaf səviyyəsinin əsas göstəricisi kimi qiymətləndirilir [2]. Müasir dövrdə isə daha çox diqqət çəkən məsələlərdən biri dünya iqtisadi məsələlərində bilik iqtisadiyyatı üzrə fəaliyyətin kifayət qədər dərinləşdirilməsi və bununla bağlı bir qrup ölkələrin əhəmiyyətli səviyyədə geridə qalması problemləridir. Hazırda dünyada 150-ə yaxın ölkədə bilik iqtisadiyyatı ilə bağlı məsələlər ya başlanğıc səviyyəsindədir, ya da ki ümumiyyətlə bu istiqamətdə işlək dövlət siyasəti mexanizmləri, alətləri və praktiki fəaliyyət elementləri yox dərəcəsindədir. Müasir qlobal iqtisadi tendensiyalar və innovativ inkişaf ilə bağlı yeni tələblər insan kapitalının rolunu və əhəmiyyətini daha da artırmışdır. Bu proseslərdə insan kapitalı yeni yüksək səmərəli texnologiyaların hazırlanması və onların sosial sahələr, elm, təhsil və səhiyyə sahələrinə fəal şəkildə tətbiq edilməsi üzrə aparılan işlərin mərkəzində əsas hərəkətverici qüvvə kimi çıxış edirlər [3]. Buna görə də, beynəlxalq səviyyədə və dünya iqtisadi proseslərində insan kapitalı-

nın formalaşdırılması və inkişaf proseslərinə investisiyaların həcminin artırılması tendensiyası diqqət çəkir. Belə ki, bilik və elmi-tədqiqat işlərinin daha fundamental şəkildə təşkili proseslərinə yönəldilən investisiyalar, əsas kapitala yönəldilən investisiyalarla müqayisədə daha böyük həcmdə olmaqları ilə fərqlənirlər. bu yolda aparıcı dünya dövlətləri ilk növbədə özləri arasında gedən texnoloji rəqabətdə ləngliyə yol vermək riskini azaltmış olurlar, yeni yaradılmış texnologiyalar hesabına isə daha çox çeşiddə rəqabətqabiliyyətli məhsulların istehsalı reallaşır və dünya bazarlarında möhkəmlənirlər. İnsan inkişafı haqqında BMT-nin mütəxəssislərinin hazırladığı xüsusi məruzədə qeyd olunur ki, son 25 il ərzində insan inkişafı ilə bağlı əhəmiyyətli tərəqqi müşahidə əldə olunmuşdur. İnsanlar daha yaxşı yaşamağa başlamış, məktəblərə gedən uşaqların sayı artmış, insanların daha çox sosial və səhiyyə xidmətlərinə əlləri çatır. Bunlarla belə dünyada insan inkişafının təmin edilməsi üçün problemlərin yüksək olduğu diqqətə çatdırılır. Bu məruzədə 5 mühüm istiqamət üzrə tezislər xüsusilə vurğulanmışdır: birincisi, insan inkişafının həlledici amili kimi dünyada hər bir insanın inkişafı üçün müvafiq şəraitin yaradılması və təmin edilməsidir; ikincisi, dünyanın müxtəlif ölkələrində milyonlarla insan yaşamaq və işləmək üçün çoxsaylı problemlərlə üz-üzə qalmışdır; üçüncüsü, dünya dövlətləri insan kapitalının inkişafı ilə bağlı məsələləri daha dərindən təhlil etməli və qiymətləndirməlidirlər; dördüncüsü, beynəlxalq səviyyədə insan kapitalının inkişafı ilə bağlı problemlərin həlli istiqamətində daha çox forumların və sammitlərin keçirilməsinə ehtiyac vardır və beşincisi, qlobal tendensiyalar nəzərə alınmaqla insan kapitalının inkişafı ilə bağlı problemlərin prioritetliyi hər bir dünya dövlətində mütləq şəkildə nəzərə alınmalıdır [4]. Təəssüf ki, intensivləşən qlobal problemlər sırasında iqlim dəyişikliyi ilə bağlı problemlərin həlli istiqamətində aparıcı dünya dövlətlərinin - xüsusilə ABŞ və Avropa Birliyi ölkələrinin arasındakı fikir ayrılığı, ziddiyyətlər həmin problemlərin yaxın onilliklərdə nisbətən həllinin qeyri-mümkün olacağını proqnozlaşdırır. Dünyada hələ də 800 mln. - 1 mlrd. insan aclıq və işsizlikdən əziyyət çəkir, sosial və tibbi xidmətlərdən məhrumdurlar, onların ərzaq əlçatanlığı problemlərinin həll edilməsi qlobal problem olaraq qalmaqdadır. Minilliyin İnkişaf Hədəflərində inkişaf etməkdə olan ölkələrin əksəriyyətində insan potensialının inkişafı ilə bağlı problemlərin ön plana çıxarılması hədəfləri vacib məsələlər kimi qiymətləndirilmişdir. Bir çox müsəlman ölkələrində insan kapitalının inkişafı ilə bağlı məsələlərdə savadsızlıq və cəhalət problemləri də qalmaqdadır. Məsələn, dünyada hər il 15 milyondan çox qız 18 yaşına çatmamış ailə həyatı qurur, daha doğrusu, əsasən məcbur ərə verilir və bu baxımdan potensial olaraq milyonlarla yeniyetmə insan kapitalı üçün tələb olunan zəruri bilikləri əldə etməkdə, intellekt baxımından inkişafdan geri qalırlar və məsələ burasındadır ki, bu 15 milyonun 99 %-i müsəlman ölkələrinə aiddir. 244 milyondan çox insan müəyyən səbəblərdən öz ölkələrində məcburi şəkildə miqrasiya etməyə, digər ölkələrdə yaşamağa məcbur olublar və şübhəsiz, onların həyatının əhəmiyyətli hissəsi miqrant kimi öz statusunu möhkəmləndirməyə, ailəsini dolandırmağa, iş yeri tapmağa və s. gedir və burada intellektual inkişafdan, elmi-texniki kəşflərdən nadir hallarda söhbət gedə bilər. 1 milyardan çox insan isə müharibələr, vətəndaş qarşıdurmaları, nəqliyyat və qəzalar, təbii fəlakətlər nəticəsində əlil olmuşlar və onların da insan kapitalının inkişafı baxımından potensialı, şübhəsiz, əhəmiyyətli səviyyədə aşağıdır. Göründüyü kimi, beynəlxalq səviyyədə və dünyada insan kapitalının inkişafı ilə bağlı çox ciddi problemlər diqqət çəkir. Bununla belə, əksər dünya dövlətləri özlərinin balanslaşdırılmış siyasi və iqtisadi yanaşmaları hesabına, o cümlədən insan kapitalının inkişafı üzrə strateji fəaliyyət mexanizmlərinin hazırlanması və təşkili sayəsində insan inkişafı ilə bağlı yüksək nəticələr əldə edə bilmişlər və maraqlıdır ki, bu siyahıda ilk 15 yerdə dünyanın super iqtisadi gücə malik dövlətləri ilə yanaşı, əhalisi və ərazisi o qədər də böyük olmayan ölkələr də yer almışdır.

Şəkil 1-də 2016-cı il üzrə Birləşmiş Millətlər Təşkilatının xüsusi qurumu tərəfindən hazırlanmış hesabatda insan inkişafı üzrə yüksək səviyyəli indeksə malik dünyanın ilk 15 ölkəsinin göstəriciləri verilmişdir [5].

Şəkil 1-in təhlili üzrə baxsaq görmək mümkündür ki, insan inkişafının ən yüksək olduğu ölkələr sırasında ilk 5 yeri iqtisadi cəhətdən dünyanın güclü dövlətləri olmayan ölkələr tutmuşdur, amma bu o demək deyildir ki, həmin ölkələrdə insan inkişafı və insan kapitalının formalaşdırılması ilə bağlı resurslar zəifdir. Bu ölkələrdə insan amilinə yanaşmalar, insan inkişafının təmini ilə bağlı reallaşdırılan dövlət siyasəti daha kompakt, çevik, elmi-texniki və elmi-iqtisadi cəhətdən əsaslandırılmış, öz ölkələrinin iqtisadi inkişaf potensialı baxımından vacib amillər ciddi şəkildə nəzərə alınmışdır. İlk 15-də bir müsəlman ölkəsinin belə olmaması da diqqət çəkir və bunun əsas səbəbləri sırasında həmin ölkələrdə elm və texnologiyalar, innovasiya bazarlarının zəif inkişaf etməsi, bu istiqamətlərdə ayrılan maliyyə resurslarının azlığı daha çox fərqlənirlər. Yeri gəlmişkən, bu qeyd olunan siyahıda Səudiyyə Ərəbistanı 39-cu yeri, Birləşmiş Ərəb Əmirlikləri-41, Rusiya-50, Malayziya-62, İran-69, Türkiyə-72, Gürcüstan- 76, Azərbaycan-78 və nəhayət, mənfur işğalçı Ermənistan -85-ci yeri tutmuşlar. Qeyd edək ki, BMT-nin bu siyahısında cəmi 105 ölkə üzrə insan inkişafının indeksi qiymətləndirilmişdir.



Şəkil 1. Birləşmiş Millətlər Təşkilatının xüsusi qurumu tərəfindən 2016-cı il üzrə hazırlanmış hesabatda insan inkişafına dair yüksək səviyyəli indeksə malik dünyanın ilk 15 ölkəsinin göstəriciləri (tədqiqat materialları əsasında müəllif tərəfindən hazırlanmışdır).

İnkişaf səviyyəsi yüksək olan bir qrup dünya ölkələrində insan kapitalından istifadənin səmərəli təmin edilməsi təcrübəsi

Dünyanın kifayət qədər inkişaf etmiş bir sıra ölkələrində insan kapitalından istifadənin səmərəliliyinin təmin edilməsi təcrübəsinə diqqət yetirməyi məqsədəuyğun hesab etmişik. Məlumdur ki, dünyanın bir sıra regionları, xüsusilə ABŞ və Avropa Birliyi ölkələri, həmçinin bu birliyə daxil olmayan Skandinaviya, bir qrup Cənub-Şərqi Asiya ölkələrində əhalinin yaşayış səviyyəsi, o cümlədən insan inkişafı indeksinin səviyyəsi digər ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir və bunun əsas səbəbləri kimi, həmin ölkələrdə bazar iqtisadiyyatı prinsiplərinin daha dərin inkişaf etməsi, elm və innovasiyalar infrastrukturunun yüksək səviyyədə təşkili, təhsil və səhiyyənin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksək olmasını göstərmək müm-

kündür. Məsələn, insan inkişafı indeksi üzrə dünya reytinqində ilk sırada olan Norveçdə 2001-ci ildən başlayaraq məqsədli və davamlı tədbirlərin reallaşdırılması diqqət çəkir. Təsadüfi deyildir ki, 1970-2016-cı illərdə Norveçdə ÜDM-in ümumi həcmi 40 dəfədən çox artmış və hazırda orta illik 510-512 mlrd. dollar səviyyəsindədir, bu ölkədə adambaşına düşən ÜDM-in həcmi 100,2 min ABŞ dolları təşkil edir [6]. Norveç təcrübəsinə diqqət yetirməyimiz təsadüfi deyildir, belə ki, Norveç də neft ixrac edən ölkələr sırasındadır və bir çox məsələlərdə Azərbaycan bu ölkənin təcrübəsinə diqqət yetirir. Təsadüfi deyildir ki, Norveç ixracının 46 %-ni neft və qaz təşkil edir və bu ölkədə neftdən daxil olan gəlirlərin hər bir ölkə vətəndaşı arasında bölüşdürülməsi mexanizmi vardır. Hazırda hər bir Norveçlinin hesabına toplanan neft gəlirlərinin həcmi 100 min ABŞ dollarından çoxdur. Bütün bunlar, insan kapitalının formalaşdırılmasında əhəmiyyətli rol oynayırlar, insanlar əldə etdikləri gəlirlər hesabına daha yüksək təhsil alırlar, səhiyyə və sosial xidmətlərdən istifadə edirlər, intellektin inkişafı üçün əhəmiyyətli investisiyalar yatırırlar. Ölkədə təhsil pulsuzdur, sərbəst yaşamaq istəyən gənclərə dövlət tərəfindən mənzil almaq üçün ssudalar ayrılır, bu mexanizm gənclərin ali təhsil aldığı dövrdə qidalanma xərclərinə də aid edilir. İqtisadi cəhətdən dünya lideri olan ABŞ-da isə insan kapitalının formalaşdırılması və inkişafı ilə bağlı məsələlər bir qədər fərqlidir. Hələ XXI əsrin əvvələrində ABŞ-da milli sərvətin 77 %-ni insan kapitalının təşkil etdiyi məlumdur, maraqlıdır ki, təbii resurslar bu sırada cəmisi 6 % təşkil etmişdir. Ölkədə ən yüksək xərclər və maliyyə təminatı təhsil sistemi, yüksək təhsilin təşkili, biliklərin mənimsənilməsi ilə bağlıdır. ABŞ-da elmi inkişafına ÜDM-in 2,8 % həcmində vəsait ayrılır, bu isə təxminən il ərzində 530-540 mlrd. dollar vəsait deməkdir. Dünyada bu vaxta kimi Nobel Mükafatı almış alimlərin 85 %-i ABŞ-ın payına düşür, 25 yaşdan yuxarı ölkə əhalisinin 52,5 %-i ali təhsilə malikdir. Bu ölkə elmi tədqiqatların və konstruktor təcrübə işlərinin təşkili sahəsində dünya lideridir və dünyada bu istiqamətdə çəkilən xərcin 34%-i ABŞ-ın payına düşür. İnsan kapitalının inkişafında mühüm əhəmiyyət kəsb edən səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi və onun inkişaf səviyyəsinin yüksəldilməsi də xüsusi diqqət mərkəzindədir və bu istiqamətdəki xərclər ÜDM-in 16 %-i səviyyəsində, yaxud orta illik xərclərin həcmi 2,26 trln. dollar təşkil edir [7]**.** Yüksək ixtisaslı kadrların yerləşdirilməsi, elm və texnikanın inkişafı ilə bağlı məsələlərə xüsusi prioritetin olması ABŞ-da innovasiyaların sürətli inkişafını təmin etmiş, insan kapitalından maksimum səmərəli istifadəyə əlverişli şərait yaratmışdır. Bundan əlavə, ABŞ-da insan kapitalının inkişafının balanslaşdırılması və uzunmüddətli dövr üçün təmin edilməsi məqsədilə, əhalinin gəlirlərinin artırılması, təhsil səviyyəsinin yüksəldilməsi və uzunömürlülüyün təmin edilməsi üzrə fəaliyyət istiqamətləri daha çox prioritetlik təşkil edir [8; 9].

Qeyd edək ki, insan kapitalından istifadənin səmərəliliyi məsələləri və problemlərinə Avropa Birliyi ölkələrində ümumi vahid məkanda baxılması mexanizmləri hələlik kifayət qədər təkmilləşdirilməyib və bununla bağlı problemlərin olduğu qənaətindəyik. Xüsusilə, son illərdə Avropa Birliyi sərhədləri daxilində miqrasiya problemlərinin artması bu birliyə daxil olan ölkələrdə insan kapitalının inkişafı üzrə ümumi vahid iqtisadi siyasətin gücləndirilməsinə mane olan amillərdəndir. Bununla belə, birliyin əsas aparıcı ölkələrindən olan Almaniyada insan kapitalının inkişafı prioritet səviyyədə baxılır və dövlət tərəfindən təhsilin, səhiyyənin, sosial infrastrukturun inkişafına xüsusi diqqət yetirilir, kifayət qədər investisiyalar yatırılır. Ölkədə texnologiyalar və innovasiyalar bazarlarının inkişaf etdirilməsi, yüksək peşəkarlığa və intellektə malik kadrların hazırlanması, insanların əldə etdikləri kapitalın reallaşdırılması prioritetləri strateji səviyyədə baxılmaqdadır. İnsanların həyat səviyyəsinin yüksəldilməsi üçün Almanya hökuməti tərəfindən görülən tədbirlərin sistemli şəkildə həyata keçirilməsi diqqət çəkir [10]. Avropanın həyat səviyyəsi yüksək olan digər bir ölkəsində İsveçrədə insan kapitalından istifadənin modelləşdirilməsi və daha məhsuldar istifadə edilməsi üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlərin geniş miqyasda olması, bu sahədə səmərəliliyin yüksəldilməsinə imkan vermişdir [11]. Burada istedadlı insanların və peşəkar, bacarıqlı mütəxəssislərin fəaliyyətinin maksimum məh-

suldar təşkili üçün davamlı işlər görülür. Təsadüfi deyildir ki, ölkədə istedadlı insanların sayı çoxdur və burada istedadın üzə çıxarılması, reallaşdırılması tədbirlərinə əhəmiyyətli səviyyədə maliyyə resursları yönəldilir [12].

Son 20-30 il ərzində Yaponiya və digər Cənub-Şərqi Asiya ölkələrində elm və texnologiyaların yeni inkişaf dalğasının intensivləşməsi, xüsusilə yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin formalaşdırılması proseslərində insan kapitalının rolu əhəmiyyətli səviyyədə artmışdır. İnsan resursları və insan inkişafı ilə bağlı məsələlər kifayət qədər prioritet səviyyəyə qaldırılmış və dövlətlərin iqtisadi siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişlər. İqtisadi cəhətdən dünyanın ən inkişaf etmiş ölkələrindən olan Yaponiyada insan kapitalından səmərəli istifadə daha çox təqdirəlayiqdir və şübhəsiz, buradakı istedadlı insanların kəşf etdikləri və yaratdıqları çoxlu sayda yüksək texnologiyalar nümunələri, o cümlədən "ağıllı" robotlar artıq hamıya məlumdur. Ölkədə iqtisadiyyatın səmərəliliyinin və məhsuldarlığının artırılmasında insan intellekti və kəşfindən qaynaqlanan çoxlu sayda yanaşmalar və mexanizmlər, ixtiralar Yaponiyanın iqtisadi inkişafının dayanıqlı olmasının əsas amillərindən biri kimi qiymətləndirilə bilər. Bu proseslərdə insan amili Yaponiya iqtisadiyyatının əsas aparıcı qüvvəsi kimi çıxış edir [13]. Yaponiyada təkcə təhsil sisteminə ayrılan maliyyə resursları ölkə ÜDM-nin 3,8%-i səviyyəsindədir, ölkənin gəlirlərinin 4%-i tibbi sığorta üçün ayrılır, bu ölkədə insanlar uzunömürlülüyü ilə fərqlənirlər və bütün bunlar insan kapitalından uzunmüddətli dövr üçün maksimum səmərəli istifadə edilməsinin əsas amilləri kimi baxıla bilərlər. Digər bir Cənub-Şərqi Asiya ölkəsində - Koreya Respublikasında insan kapitalından səmərəli istifadənin fəaliyyət mexanizmlərinin qlobal iqtisadi çağırışlar kontekstində formalaşdırılması istiqamətində təsirli tədbirlər və konseptual yanaşmalar diqqət çəkir. Elm və texnika sahəsində bu ölkə artıq ən rəqabətqabiliyyətli ölkələr sırasında kifayət qədər möhkəmlənməkdədir [14]. İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi sahəsində son illərdə dünya birincisinə çevrilmişdir. Bütün bunlar, ölkədə təhsilin səviyyəsinə xüsusi önəmin verilməsi və strateji yanaşmaların ardıcıl şəkildə təmin edilməsidir. Bu ölkədə uşaqların və yeniyetmələrin tərbiyə edilməsi, müasir biliklərə yiyələnməsi üzrə yanaşmalar geniş diapazonlu və əməkyönlü vərdişlərə yiyələnməklə bərabər, intellektin inkişafı, yüksək bacarıqların mənimsənilməsi, peşəkar səviyyəyə yetişməsi istiqamətlərində təşkil edilir və bütün bunlara kifayət qədər investisiyalar yatırılır, maliyyə resursları ayrılır.

Azərbaycanla bütün sahələrdə strateji əməkdaşlıq əlaqələrinə malik olan qardaş Türkiyədə insan kapitalından istifadənin qlobal çağırışlar şəraitində səmərəli təmin edilməsi, bu sahələrə yatırılan investisiyaların artırılması, yüksək peşəkarlığa və intellektə malik kadrların hazırlanması, Türkiyə iqtisadiyyatının dayanıqlılığını təmin etməyə imkan verən insan kapitalının formalaşdırılması son on il ərzində Türkiyədə dövlətin iqtisadi səviyyədə prioritet siyasət mexanizmlərinin əsasında yer almışdır. Türkiyə regionun iri və yüksək insan kapitalına malik dövləti kimi, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasında möhkəmlənmək üçün insan kapitalının potensialından maksimum səmərəli istifadə olunması üzrə milli iqtisadi inkişaf xüsusiyyətləri nəzərə alınmaqla, yeni mexanizmlərin hazırlanması və reallaşdırılması istiqamətində strateji hədəfləri qarşısına məqsəd qoymuşdur [15]. Bununla belə, regionda davam edən müharibələr, məcburi köçkünlərin Türkiyəyə axınının çoxalması, bu ölkəyə qarşı ABŞ və Avropa Birliyi tərəfindən haqsız təzyiqlərin göstərilməsi, fikrimizcə, Türkiyədə siyasi və iqtisadi inkişaf proseslərinin daha da təkmilləşdirilməsinə və çevikliyinin artırılmasına əlavə zərurət yaradacaqdır. Bu mühüm amillər baxımından yaxın perspektivdə Türkiyənin qarşıya qoyduğu strateji iqtisadi hədəflərə çatmaqda və ölkə iqtisadiyyatının dayanıqlılığının yüksəldilməsində mövud insan kapitalı potensialından daha səmərəli istifadənin təkmilləşdirilmiş mexanizmlərinin hazırlanması və reallaşdırılması prioritetlik təşkil edəcəkdir.

Postsosialist və postsovet ölkələrində insan kapitalından istifadənin səmərəli təşkil problemləri və istiqamətləri

Qeyd edək ki, insan kapitalından istifadənin modelləşdirilməsi və bununla bağlı dövlət siya-

sətinin formalaşdırılması, praktiki fəaliyyət alətlərinin işlənib hazırlanması postsosialist və postsovet ölkələri üçün nisbətən yeni problemdir. Belə ki, sosializm quruculuğu sistemində "insan kapitalı" yaxud "insan potensialı" kimi anlayışlara o qədər də böyük əhəmiyyət verilmirdi və bu kimi əmək resursları kateqoriyasına aid edilirdi. Amma, son 20-30 il ərzində dünyada bu istiqamətdəki proseslərin inkişaf tendensiyaları həmin ölkələrdə də diqqətlə izlənilməkdədir, xüsusilə, inkişaf etməkdə olan postsosialist ölkələrində insan kapitalının və insan potensialının formalaşdırılmasına ciddi önəm verilir. Məsələn, Çində ölkə rəhbərliyi səviyyəsində yüksək ixtisaslı kadrların hazırlanmasına strateji səviyyədə baxılır və bu məqsədlə çoxsaylı dövlət proqramları hazırlanaraq həyata keçirilməkdədir [16]**.** Əsas diqqət çəkən məqamlar sırasında Çində yüksək texnologiyalar və innovasiyaların işlənilməsi, idarə edilməsi üzrə mütəxəssislərin hazırlanması daha çox üstünlük təşkil edir. Bu proseslərin əsası XX əsrin 70-ci illərində qoyulmuşdur və həmin dövrdən başlayaraq Çin iqtisadiyyatının intensiv inkişafının təmin edilməsində insan amilinin rolu dəfələrlə artırılmış, bununla əlaqədar olaraq dövlət xərclərinin həcmi xeyli yüksəldilmişdir. Eyni zamanda, elmin inkişafına, elmi tədqiqatlara çəkilən xərclər intensiv şəkildə artımla müşahidə olunur. Ölkədə müxtəlif dövlət və özəl proqramlarla bərabər, qrantlar təsis olunur, texnoparklar tikilir və yüksək texnologiyalar əsaslı inkişaf üçün infrastrukturun səviyyəsi daim yüksəldilir. Təsadüfi deyildir ki, Çin artıq öz iqtisadi inkişaf tempinə, iqtisadiyyatının artım səviyyəsinə görə dünya birincisidir, iqtisadiyyatın ümumi həcminə görə isə yalnız ABŞ-dan geri qalır, amma bu gerilik, demək olar ki, hər il azaldılır. Məsələn, bir neçə il bundan öncə ABŞ iqtisadiyyatının həcmi ilə Çin iqtisadiyyatı arasındakı fərq 10-12 trln. ABŞ dolları idisə, 2017-ci ilin yekununda bu fərq 6-7 trln. ABŞ dolları səviyyəsinə qədər azalıb.

İnkişaf etməkdə olan digər bir iri ölkədə - Rusiyada da insan kapitalından istifadənin müxtəlif modellərindən daha fəal istifadə cəhdləri diqqət çəkir. Bu ölkədə elm və texnikanın inkişafına diqqət ənənəvi olaraq yüksək olmuşdur, amma dünyadakı baş verən qlobal dəyişikliklər, texnologiyaların xarakterinin mürəkkəbləşməsi yeni çağırışlar ortaya qoymuşdur. Bu baxımdan, Rusiyada insan kapitalının inkişaf etdirilməsi proseslərinin səmərəliliyinə nail olmaq üçün müəyyən vaxt lazım gələcəkdir. Xüsusilə, Rusiyada təhsil və səhiyyə sistemlərinin bütün ölkə üzrə inkişaf etidirlməsinə külli məbləğdə investisiyalar tələb olunur. İnsan kapitalının inkişafına yanaşmalar və mexanizmlərin səmərəliliyi, şəffaflığı təmin olunmalıdır. Q.A.Xasanova bildirir ki, Rusiyada insan kapitalının inkişafına mane olan ən kəskin problemlərdən biri korrupsiyadır, büdcə vəsaitlərindən səmərəli istifadə edilmir, əhəmiyyətli hissəsi oğurlanır, belə ki, bir vahid investisiya ABŞ-da Rusiyaya nisbətdə 4 dəfə artıq fayda verir. Elmin inkişafına yönəldilən vəsaitlər kifayət etmir, yaxud yönəldilən vəsaitlər əsasən dövlət elmi-tədqiqat müəssisələrinin saxlanılmasına və əmək haqqı xərclərinə gedir [17]. Rusiyadakı bu vəziyyət əksər əlamətləri ilə Azərbaycan üçün də xarakterikdir, belə ki, elmi-tədqiqat işlərinə ayrılan vəsait çox cüzi səviyyədədir, elmə ayrılan ümumi vəsaitin əsas hissəsi isə əmək haqqı və onunla bağlı ödənişlərə yönəldilir. Bunlarla bərabər, insan kapitalının inkişaf etdirilməsi istiqamətində Rusiya hələ ki, özünün optimal dövlət mexanizmlərinin formalaşdırılmasına nail ola bilməmişdir [18]. Eyni zamanda, insan kapitalının inkişafı ilə bağlı hazırda formalaşdırılan fəaliyyət mexanizmləri kifayət qədər təkmilləşdirilmə tədbirlərini tələb edir. İlk növbədə, ölkədəki insan resurslarının və insan kapitalının inkişafı prioritetlərinə konseptual yanaşma təmin olunmalı və uzunmüddətli dövrü əhatə edən inkişaf proqramları hazırlanmalıdır. İnformasiya cəmiyyətinin əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi, insan kapitalının inkişafı ilə bağlı problemlərin həlli üçün investisiyaların həcminin və intensivliyinin artırılması təmin olunmalıdır. Bunlarla bərabər, ölkədə informasiya-kommunikasiya texnologiyaları infrastrukturu dünya standartları səviyyəsinə çatdırılmalı, əhalinin yaşayış səviyyəsi əhəmiyyətli olaraq yüksəldilməlidir [19; 20; 21]. Digər bir postsovet respublikasında - Belarusda insan kapitalının inkişafına yanaşmalar dövlət siyasətinin əsasında yer almışdır. Ölkədə elm və texnikanın inkişafı ilə bağlı proseslərə ciddi önəm verilir, amma bu sahələrdə fundamental tədqiqatların aparılması, texnologiyalar və innovasiyalar bazarının inkişaf

etdirilməsi ilə bağlı məsələlər hələlik ləng olaraq qalmaqdadır. Təsadüfi deyildir ki, Belarus insan potensialının inkişaf etdirilməsi ilə bağlı reytinqdə 2016-cı ilin yekununda 105 ölkə sırasında 50-ci yerdə qərarlaşmışdır. Bu baxımdan insan kapitalından səmərəli istifadənin daha məhsuldar mexanizmlərinin tətbiqinə zərurət qalmaqdadır [22]. Digər bir postsovet respublikasında - Qazaxıstanda insan kapitalından maksimum səmərəli istifadənin təmin edilməsi istiqamətində dövlətin davamlı siyasətinin formalaşdırıldığı diqqət çəkir. Son illərdə Qazaxıstan dünyanın sabit iqtisadi inkişaf edən ölkələri sırasında yer almaqdadır və əsas hədəf dünya iqtisadiyyatı reytinqində ilk 50 iri iqtisadiyyata malik ölkələr sırasında möhkəmlənməkdir. Amma, hələ ki, ölkədə mövcud olan insan kapitalından səmərəli istifadənin və bu istiqamətdə inkişaf proseslərinin intensivləşdirilməsi istənilən səviyyədə təmin olunmamışdır. İnsan inkişafının indeksi üzrə isə 2016-cı ildə Qazaxıstan 56-cı yerdə qalmışdır. Ölkədə insan kapitalının formalaşdırılması və inkişaf etdirilməsi problemlərinə milli konseptual yanaşmanın prioritetliyi daha çox artırılmalı və milli iqtisadi inkişaf xüsusiyyətlərinə təsir edən əsas amillər mütləq şəkildə nəzərə alınmalıdır [23; 24].

Nəticə

Hesab edirik ki, insan kapitalının inkişafının modelləşdirilməsində dünya ölkələrinin müvafiq təcrübələrində və əldə etdiyi nəticələrdə müsbət və mənfi cəhətlərin məcmusu fundamental və sistemli şəkildə araşdırılmalı, dünya təcrübəsinin tətbiqi ilə bağlı məsələlər diqqətlə nəzərdən keçirilməli, onların tətbiq edilməsi nəzərdə tutulan ölkənin sosial-iqtisadi inkişaf və mental xüsusiyyətləri ilə bağlılığı diqqətdən qaçırılmamalı, insan kapitalının inkişafının intensivləşdirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi üzrə balanslaşdırılmış və uzunmüddətli dövrü əhatə edən dövlət siyasəti mexanzimləri hazırlanmalı, davamlı, səmərəli formada həyata keçirilməlidir və s.

ƏDƏBİYYAT

1. Котырло Е.С. Человеческий потенциал и человеческий капитал как научные категории. http://auditfin.com.
2. Критерии и индексы национального человеческого потенциала как показатели эффективности элиты. http://www.eurasian-defence.ru.
3. Меланьина М.В. Роль человеческого капитала в формировании экономики. знаний//Альманах современной науки и образования, Грамота, №7(71), 2013.- С.123-124.
4. Доклад о человеческом развитии. UNDP. http://hdr.undp.org.
5. Индекс человеческого развития стран мира. UNDP HDI, 2016. http://hdr.undp.org.
6. Гильмутдинова И.Д. Индекс человеческого развития королевства Норвегии.//Экономические науки, №56-2, 08.12.2016. http://novainfo.ru.
7. Соколова И.Д. Роль человеческого капитала в экономики США. http://izron.ru.
8. Чернова М.А. Индекс развития человеческого потенциала США//Экономические науки, №57- 18.12.2016. http://novainfo.ru.
9. Цигулева О.В., Волкова А.А., Малкова И.Ю. Модели развития образования ведущих стран мира в контексте формирования человеческого капитала (на примере США и Австралии). http://cyberleninka.ru.
10. Германия вошла в десятку стран с самым высоким уровнем человеческого развития. http://www.dw.com.
11. В Швейцарии умеют использовать человеческий капитал. http://nashagazeta.ch.
12. Швейцария богата талантами. http://nashagazeta.ch.
13. Касимханов М.Р. Роль человеческого капитала в экономики Японии. http://izron.ru.
14. Осипова Г.М., Султашаров Б.Б. Подходы к формированию человеческого капитала и опыт Республики Корея. http://cyberleninka.ru.

15. Газизова А.И. Инвестиции в образовании и человеческий капитал как движущие силы экономического роста в Турции. http://cyberleninka.ru.
16. Дугарова С.Б. Человеческий потенциал в инновационном развитии КНР. http://cyberleninka.ru.
17. Хасанова Г.А., Рабцевич А.А. Проблемы развития человеческого капитала в России//Экономические науки, №5-12, 2013.- С. 70-71.
18. Решетникова О.Е., Глотова Д.В. Роль человеческого капитала в России и за рубежом. http://elar.urfu.ru.
19. Кокуйцева Т.В. Тенденции и перспективы развития человеческого капитала в России // Креативная экономика. - 2014. - Том 8. - № 10. - С. 52-65.
20. Петрова Е.А. Особенности формирования и использования человеческого капитала в процессе информатизации//Фундаментальные исследования, №11, 2006.- С. 42-44.
21. Вишневская Н. Г., Ядигаров Р. Ф. Индекс развития человеческого потенциала как показатель уровня жизни населения//Молодой ученый, №1, 2014.- С. 351-352.
22. Демин П.С. Человеческий капитал как фактор Европейской экономической интеграции Республики Беларусь// Белорусский журнал международного права и международных отношений, 2013, №3, http://evolution/info.
23. Онюшева И.В. Современное состояние и динамика развития человеческого капитала в Республике Казахстан// Вестник КазНУ, 2014. http://articlekz.com.
24. Нуралина К.М., Жаксылыкова А.Р., Амантурлина А.Д. Роль человеческого капитала в формировании развития инновационной экономики// Вестник казахско-русского международного университета, 2017. http://articlekz.com.

Логман Имран оглу Абдуллаев,
доктор философии по экономике, докторант
Сумгаитского Государственного Университета

Аспекты обеспечения эффективности использования человеческого капитала в странах мира

Резюме

В статье исследованы проблемы современных аспектов обеспечения эффективности использования человеческого капитала в странах мира и пути их решения. С этой целью анализированы и обобщены процессы формирования и развития человеческого капитала в мире, тенденции и существующие механизмы. Рассмотрен накопленный опыт экономически развитых стран по формированию и реализации человеческого капитала, подходы к их использованию, применяемые механизмы и практичный инструментарий по государственной поддержке. С учетом расположения в рейтинге стран мира по индексу развития человека оценена эффективность действующих механизмов и применяемые меры по развитию человеческого капитала. Раскрыта сущность рассматриваемых подходов к формированию и интенсификации развития человеческого капитала в экономически развивающихся странах и рассмотрена совокупность проводимых мероприятий в этих направлениях. В контексте мирового опыта эффективной организации использования человеческого капитала рассматривались проблемы реализации и перспектив развития человеческого капитала в Азербайджане и обеспечение проведения комплексных и системно важных мероприятий в долгосрочном периоде.

Ключевые слова: человеческий капитал, человеческий потенциал, индекс человеческого развития, моделирование использования человеческого капитала, увеличение эффективности использования человеческого капитала, важность мирового опыта в обеспечении использования человеческого капитала в Азербайджане.

Logman Imran Abdullayev
doctor of philosophy in economics, doctoral
student of Sumgayit State University

The Aspects of Providing of Efficiency of the Use of Human Capital in Economically Developed Countries

Summary

Problems of modern aspects of providing of efficiency of the use of human capital in the countries of the world and way of their decision are investigated in the article. To that end the processes of forming and development of human capital are generalized in the world, tendencies and existent mechanisms are analyzed. The accumulated experience of the economic developed countries on forming and realization of human capital, going near their use, applied mechanisms and practical tools on state support is considered too. Taking into account a location in rating of the world countries by the index of development of human efficiency and applied measures is appraised on development of human capital. Essence of forming and intensification of development of human capital in economic developing countries and the aggregate of the conducted measures are considered in these directions. In the context of world experience of effective organization of the use of human capital the problems of realization and prospects of development of human capital in Azerbaijan and providing of lead through of complex and system important measures are examined in a long-term period.

Key words: human capital, human potential, index of human development, modeling of the use of human capital, increase of efficiency of the use of human capital, importance of world experience in providing of the use of human capital in Azerbaijan.

UOT 339.9

Akif Bəylər oğlu MƏMMƏDOV
Azərbaycan Dövlət İqtisad Universiteti, i.e.n., dosent

İQTİSADİ TƏHLÜKƏSİZLİK AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASININ BAZİSİDİR

Xülasə

Ölkənin iqtisadi təhlükəsizliyi problemi bazar iqtisadiyyatının müasir, tənzimlənən mərhələsinin xüsusiyyətlərindən biridir. İqtisadi təhlükəsizliyin mahiyyəti Azərbaycanın sivil milli iqtisadiyyatının formalaşması və inkişafına kömək etmək və bunun əsasında ölkə vətəndaşlarının sosial və iqtisadi tələbatını daha yaxşı ödəmək, istehsalın səmərəliliyini yüksəltmək, Azərbaycanın təbii sərvətlərindən qənaətlə istifadə etməklə ölkənin milli iqtisadiyyatını formalaşdırmaq və ekoloji problemin gərginləşməsinin qarşısını almaqdır.

Açar sözlər: milli təhlükəsizlik, iqtisadi təhlükəsizlik, milli iqtisadiyyat, iqtisadi tələbat, bazar iqtisadiyyatı, istehsalın səmərəliliyi.

Giriş

İqtisadi təhlükəsizlik anlayışı iqtisadi nəzəriyyənin mühüm olan kateqoriyasıdır. Bu anlayış özündə iqtisadi asılılıq, sabitlik, iqtisadi təzyiq, iqtisadi təxribat, iqtisadi suverenlik və başqa kateqoriyaları ehtiva edir.

İqtisadi təhlükəsizlik anlayışı ümumi və geniş məfhumdur. Ona görə də beynəlxalq və regional iqtisadi təhlükəsizliyi, milli iqtisadi təhlükəsizliyi, habelə ölkə daxilində müəssisələrin və fərdlərin iqtisadi təhlükəsizliyini bir-birindən fərqləndirmək lazımdır.

Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək çox çətin və uzunmüddətli prosesdir. Buna görə də hər bir dövlət özünün iqtisadi təhlükəsizlik konsepsiyasını işləyib hazırlamalıdır və bu heç bir dövlətin iqtisadi təhlükəsizlik konsepsiyasına bənzəməməlidir. Çünki hər bir dövlətin özünəməxsus xüsusiyyətləri, imkanları, keçdiyi inkişaf yolu ilə əlaqədar olaraq spesifik cəhətləri və problemləri var.

İqtisadi təhlükəsizlik anlayışı

Azərbaycanın milli təhlükəsizliyi konsepsiyasının əsas elementlərindən biri iqtisadi təhlükəsizlikdir. Azərbaycanın iqtisadi təhlükəsizliyi onun milli təhlükəsizliyi sisteminin bir hissəsi olub, onun tərkibinə daxildir. Milli təhlükəsizlik iqtisadi təhlükəsizlikdən daha geniş anlayışdır. Bunların hər ikisi dövlətin ümumi strategiyasından qidalanır. Azərbaycanın milli təhlükəsizlik konsepsiyası işlənib hazırlanarkən iqtisadi sahədə Azərbaycanın milli mənafeyinə uyğun konkretləşdirilir. Azərbaycan dövləti iqtisadi təhlükəsizlik konsepsiyasını hazırlayarkən iki yüz ilə yaxın müstəmləkə olmasını, onun törətdiyi fəsadları, 70 il istehsalı səmərəli təşkil edə bilməyən inzibati-amirlik sistemində yaşamasını və onun müstəqilliyini istəməyən düşmən dövlətlərlə əhatə olunmasını nəzərə almalıdır. Çünki bu reallığı nəzərə almadan nə dövlətin daxilində, nə də beynəlxalq səviyyədə heç bir vəzifəni yerinə yetirmək olmaz.

Qloballaşma şəraitində təhlükəsizlik anlayışlarına sistemli yanaşmaq lazımdır. Bunu müasir cəmiyyət və dövlətin həyat təcrübəsi tələb edir. Birincisi, inteqrasiya prosesinin güclənməsinə baxmayaraq milli maraqlarda fərqlər vardır. Bunların içərisində ümumi maraqları ayırmaq ehtiyacı meydana çıxır. Maraqların spesifikliyi tələb edir ki, onun reallaşmasının mexanizmi və ona uyğun strategiyanın işlənib hazırlanması ortaya qoyulsun. İkincisi, təbii resursların məhdudluğu, bunların müxtəlif ölkələrdə eyni həcmdə olmaması da resurslardan istifadə etmək uğrunda onlar arasında iqtisadi və siyasi mübarizəni kəskinləşdirir. Üçüncüsü, istehsal və satış bazarında xüsusilə, maliyyə-bank xidməti sahəsində rəqabət amillərinin əhəmiyyəti artır. Maliyyə-bank sektorunda inkişafa nail olmağı bacarmaq yeni sənaye, kənd təsərrüfatı texnologiyasına nail olmaq

deməkdir. Təbiidir ki, yeni texnologiya və bunun əsasında yeni tikilmiş və yaxud modernləşdirilmiş müəssisələrin rəqabət qabiliyyəti digərlərindən üstün olmalıdır. Buna görə də bir ölkədə rəqabət qabiliyyətinin artması digər dövlətin təhlükə ilə qarşılaşması deməkdir, bu və ya digər dövlətin milli mənafeyinə qorxu yaratmaqdır. [1, s. 38]

Ölkənin iqtisadi təhlükəsizliyi problemi bazar iqtisadiyyatının müasir, tənzimlənən mərhələsinin xüsusiyyətlərindən biridir. Sənayecə inkişaf etmiş dövlətlər bu zərurəti XX əsrin əvvəllərində dərk etsələr də, bu problem Azərbaycan üçün yenidir. Bunun iki səbəbi vardır. Birincisi, Azərbaycan sovet imperiyasının müstəmləkəsi olduğuna görə onun təhlükəsizliyinin təmin edilməsini imperiya dövləti öz üzərinə götürmüşdü. İkincisi, sovet imperiyası iqtisadi təhlükəsizliyi demokratik prinsiplər əsasında, sivil qaydada deyil, inzibati, siyasi yolla tənzimləyirdi. Azərbaycan gənc milli dövlət olmaqla, bazar iqtisadiyyatına keçməyi qarşısına əsas məqsəd kimi qoyduğu üçün onun klassik bazar iqtisadiyyatlı ölkələrin bu sahədə qazandığı nailiyyətlərdən istifadə etməsi zəruridir. Bu cəhətdən ABŞ-ın təcrübəsi daha çox diqqəti özünə cəlb edir.

İqtisadi təhlükəsizliyin mahiyyəti Azərbaycanın sivil milli iqtisadiyyatının formalaşması və inkişafına kömək etmək və bunun əsasında ölkə vətəndaşlarının sosial və iqtisadi tələbatını daha yaxşı ödəmək, istehsalın səmərəliliyini yüksəltmək, Azərbaycanın təbii sərvətlərindən qənaətlə istifadə etməklə ölkənin milli iqtisadiyyatını formalaşdırmaq və ekoloji problemin gərginləşməsinin qarşısını almaqdır.

İqtisadi təhlükəsizliyin aspektləri

İqtisadi təhlükəsizliyin əsas təminatçısı olan milli iqtisadiyyatın artımına nail olmaq üçün həm investisiya, həm də istehlak sektorunda əhalinin alıcılıq qabiliyyətli tələbini bərpa etmək və atırmaq lazım gəlir. Alıcılıq qabiliyyətli tələb aşağı olduqda bir çox istehsal növləri aradan çıxır. İstehsalın aşağı düşdüyü şəraitdə alıcılıq qabiliyyətli tələb həddindən çox artdıqda, bu hal qiymətin artmasına gətirib çıxarır. Nəticədə pulun emissiyası və bunun nəticəsində inflyasiya güclənir. Deməli, bunlar arasında optimal nisbətin yaradılması milli iqtisadiyyatın inkişafında və iqtisadi təhlükəsizliyin təmin edilməsində əsas məsələlərdən biridir. [2, s. 94]

İqtisadi təhlükəsizliyin aspektlərindən biri də milli valyutanın sabitliyidir. Azərbaycanda müstəqilliyin ilk illərində milli valyutanın sabitliyi pozulsa da, 1994-1995-ci illərdə dövlətin gördüyü ciddi tədbirlər nəticəsində makroiqtisadi sabitlik yarandı. Bu problemin əsaslı surətdə həll olunmasının mühüm yolu isə kompleks iqtisadiyyatı formalaşdırıb başa çatdırmaq və milli istehsalın inkişafna nail olmaqdır.

Bazar iqtisadiyyatına keçidin ilk dövründə Azərbaycanda milli (xüsusilə kənd təsərrüfatında) istehsalın tənəzzülə uğraması, yüngül və yeyinti sənayesinin rəqabət qabiliyyətinin aşağı olması, gömrük işinin təşkilinin zəifliyi, adı çəkilən sahələrdə vergi həvəsləndirilməsinin olmaması pərakəndə əmtəə dövriyyəsinə mənfi təsir göstərmişdi.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi ciddi tədbirlər nəticəsində daxili istehsalın inkişaf etməsi üçün əlverişli şərait yarandı ki, o vaxtdan bəri ölkəmizin iqtisadiyyatı sabitqədəmli inkişaf prosesindədir. Deyildiyi kimi, milli iqtisadiyyat, ölkənin iqtisadi potensialından daha səmərəli istifadə etmək qaydaları ilə əhalinin hər bir üzvünün normal yaşayışına imkan verən, milli təhlükəsizliyin qorunmasına təminat verən, dünya təsərrüfatına öz spesifik «iqtisadi inkişaf modeli» ilə qoşulan mürəkkəb və mütərəqqi sistemdir.

Milli iqtisadiyyat, milli iqtisadi inkişaf, iqtisadi təhlükəsizliklə sıx əlaqədar problemlərdir. Milli iqtisadiyyatın ən mühüm problemlərindən biri iqtisadi təhlükəsizlikdir, yəni iqtisadi təhlükəsizliyin təmin olunması milli iqtisadiyyatın inkişafı üçün şərtdir, müstəqil milli iqtisadiyyatın formalaşmasında başlıca istiqamətlərdən biridir. Əgər ölkə iqtisadiyyatı inkişaf etmirsə onun xarici rəqabətə qarşı müqaviməti azalır. İqtisadi sabitlik və təhlükəsizlik iqtisadi inkişafın mühüm göstəricisi, iqtisadiyyatın vəziyyətinin indikatorudur. [3, səh.156]

İqtisadiyyatın strukturunun düzgün təşkili də iqtisadi təhlükəsizliyin təmin olunmasının başlıca şərtlərindən biridir. İqtisadiyyatın strukturu dedikdə, milli iqtisadiyyat çərçivəsində sənaye-

nin, kənd təsərrüfatının, ticarətin, xidmət sahələrinin və digərlərinin xüsusi payı və bunlar arasındakı nisbət başa düşülür. Təbii olaraq, müxtəlif ölkələrdə bu struktur quruluşu fərqlidir. Bu da həmin ölkələrin coğrafi mövqeyi ilə yanaşı beynəlxalq əmək bölgüsü ilə əlaqədərdir. Məsələn, Yaponiya elektrik sənayesi, Birləşmiş Ərəb əmirlikləri neft ölkəsi, Almaniya isə ağır sənaye ölkəsi kimi tanınır. Buna baxmayaraq mövcud iqtisadi sistemdə bu quruluşların düzgün yerləşdirilməsi va onların milli iqtisadiyyatın ümumi inkişafına yönəldilməsi son nəticədə iqtisadi təhlükəsizliyə xidmət edir.

İqtisadi təhlükəsizlik və dövlət strategiyası

İqtisadi tahlükəsizliyin təmin olunmasına ölkədə aparılan iqtisadi siyasət, iqtisadi qanunvericilik sahəsində qəbul olunmuş qərarlar, qanunlar, normativ aktlar, idarəçilik sahəsində aparılan islahatlar, lazımi iqtisadi biliklər və informasiya sisteminin vəziyyəti də aiddir. Belə ki, məqbul bilinən bu cür qərarların qəbul olunması və onların iqtisadi siyasətdə düzgün və vaxtında tətbiq olunması milli iqtisadiyyatın inkişafına və iqtisadi təhlükəsizliyin təmin olunmasına səbəb olar. [4, s. 114] Hər bir ölkənin milli təhlükəsizliyin tərkib hissəsi kimi iqtisadi təhlükəsizlik sahəsində də strategiyası mövcud olur. İqtisadi təhlükəsizlik strategiyasının hazırlanması zamanı qarşıya qoyulan əsas məqsədlər, yəni dinamik iqtisadi inkişafın səviyyəsinin təmin olunması əsasında şəxsiyyətin normal yaşaması və inkişafı üçün əlverişli şərtlər yaradılması və bu yolla cəmiyyətin sosial-iqtisadi sabitliyinə nail olmaqdır. Müxtəlif proqramlar və sənədlər bu problemin həllində tənzimedici rol oynayır. Həmçinin hər bir dövlətin iqtisadi təhlükəsizlık strategiyasına dövlətin bütövlüyü və müstəqilliyi, ölkədəki sabitlik, iqtisadi inkişaf və sosial təminat aid olmalıdır. Bunlara uyğun olaraq hər bir ölkənin iqtisadi təhlükəsizlik strategiyasında ölkə üçün mövcud və gələcək dövrdə iqtisadi təhlükə yarada biləcək amillərin, onların təhlili və qiymətləndirilməsi və aradan qaldırılması yollarının, iqtisadi təhlükəsizlik göstəricilərinin müəyyən edilməsi də nəzərə alınmalıdır.

Hazırda iqtisadi təhlükəsizliyin təmin olunmasını xarakterizə edən ümumi göstəricilərdən istifadə olunur ki, bu da müxtəlif ölkələrin iqtisadi inkişaf, sosial tərəqqisinin həm müəyyənləşdirilməsi, həm də müqayisəsi üçün əlverişli hesab olunur. Bura daxildir:

- ÜDM-in adambaşına düşən həcmi;
- ÜDM-də emaledici sənayenin payı;
- sənayenin ümumi məhsulunda maşınqayırmanın xüsusi çəkisi;
- ÜDM-in artım sürətinə investisiyaların artım sürətinin nisbəti;
- ÜDM-də müdafiə xərclərinin payı (%-lə);
- gəlirlərin səviyyəsinə görə 10% ən çox əhali ilə, 10% ən az əhali arasındakı nisbət;
- beynəlxalq standartlarla müəyyən olunmuş yoxsul əhalinin səviyyəsi;
- gözlənilən ömür müddəti;
- fəal əhalinin tərkibində işsizlərin sayı (%-lə);
- ÜDM-ə nisbətən dövlət borcunun həcmi (%-lə);
- xarici borcun ÜDM-ə nisbati (%-lə);
- illik inflyasiya səviyyəsi (%-lə);
- idxalın həcmində ərzaq məhsullarının payı %-lə;
- ÜDM-ə nisbətən "gizli" iqtisadiyyatın payı (%-lə);
- ümumi taxıl tədarükü (milyon tonla);
- ÜDM-də ixracın həcmi.

Hər bir ölkənin milli dövlətçilik maraqlarına və məqsədlərinə uyğun gələn hədd göstəricilər sistemi fəaliyyət göstərir. Bu hədd göstəriciləri qısa və uzunmüddətli dövrlər üçün iqtisadi, sosial, ekoloji potensialdan istifadə səviyyəsini və imkanını əks etdirməklə, müvafiq sabitləşdirici tədbirlərin görülməsinə imkan yaradır. Beləliklə, milli iqtisadiyyatda mövcud olan resurs poten-

sialından istifadə olunması imkanlarını, rəqabətqabiliyyətliliyin təmin olunması səviyyəsini, sosial gərginliyin aradan qaldırılması imkanlarını müəyyənləsdirmək olur.

Dünya təsərrüfat sisteminə daxil olan ölkələrin iqtisadi təhlükəsizlik təcrübəsindən çıxış edərək, iqtisadi təhlükəsizlik göstəricilərini aşağıdakı kimi qruplaşdıra bilərik.

Birinci qrup göstəricilərə ölkədə islehsalın potensial inkişaf dinamikası, strukturu aiddir:

- ölkədə təkrar istehsalı təmin edən islehsal sahələrinin mövcudluğu;
- ümumi daxili məhsulun dinamik artımı və onun adambaşına düşən səviyyəsinə nail olunması;
- istehsal edilən məhsulların həcmində yeni növ məhsulların üstünlüyü;
- iqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin mövcud sistemə uyğun qurulması;
- sənayenin strukturunda emaledici sənayenin xüsusi çəkisinin üstün olması.

İkinci qrup göstəricilərə ölkənin sosial-iqtisadi sabitliyini təmin edən amillər aiddir:

- bütün şəraitlərdə əhalinin normal həyat səviyyəsinin təmin olunması;
- yoxsulluq səviyyəsinin, əhalinin əmək diferensiasiyasının, işsizliyin normal həddi;
- yüksək gəlirli əhali ilə, az gəlirli əhali arasında fərqin çox olmaması;
- məşğulluğun maksimum dərəcədə təmin edilməsi.

Üçüncü qrup göstəricilər maliyyə sabitliyinin təmin olunmasına yönəldilən göstəricilərdir:

- büdcə kəsirinin optimal səviyyədə olması;
- daxili və xarici borcların həcminin az olması və onların həcmində büdcə kəsirinin minimuma endirilməsi;
- qiymətlərin sabitliyi;
- milli valyutanın dönərliliyi;
- inflyasiyanın səviyyəsi;
- xarici borcların ümumi daxili məhsula nisbəti.

Bu göstəricilərin hər birinin həcmi və ölçüsü müxtəlif ölkələrdə müxtəlif rəqəmlərdə öz əksini tapir. Lakin elə göstəricilər vardır ki, bunların mümkünlüyü bütün ölkələrdə eyni qəbul edilir. Məsələn, iqtisadiyyatın normal inkişali ilə, inflyasiyanın səviyyəsinin 3%-ə qədər olması məqbul sayılır və yaxud büdcə kəsiri ümumi daxili məhsulun 2%-dən artıq olmamalıdır. İqtisadi təhlükəsizliyin birinci qrup göstəriciləri bilavasitə iqlisadiyyatın mövcud dövrdə strukturundan asılıdır. Bu göstəricilər həm də milli iqtisadi göstəricilər sırasına daxildir. Beləliklə, aydın olur ki, tarixi inkişafın hər bir mərhələsində iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunması milli-dövlət maraqları kimi əks olunaraq siyasi, iqtisadi, hərbi və texnoloji sahələrdə müvafıq üstünlükvermə istiqamətlərinin formalaşmasına təkan verir. Bunlar da öz növbəsində milli dövlət maraqlarının iqtisadiyyatın inkişaf səviyyəsindən asılı olaraq möhkəmlənməsinə və dayanıqlı xarakter almasına imkan yaradir. [6, s. 85]

Nəticə

İqtisadi təhlükəsizlik anlayışı ümumi və geniş məfhumdur. Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək çox çətin və uzunmüddətli prosesdir. Buna görə də hər bir dövlət özünün iqtisadi təhlükəsizlik konsepsiyasını işləyib hazırlamalıdır və bu heç bir dövlətin iqtisadi təhlükəsizlik konsepsiyasına bənzəməməlidir. İqtisadi təhlükəsizliyin mahiyyəti Azərbaycanın sivil milli iqtisadiyyatının formalaşması və inkişafına kömək etmək və bunun əsasında ölkə vətəndaşlarının sosial və iqtisadi tələbatını daha yaxşı ödəmək, istehsalın səmərəliliyini yüksəltmək, Azərbaycanın təbii sərvətlərindən qənaətlə istifadə etməklə ölkənin milli iqtisadiyyatını formalaşdırmaq və ekoloji problemin gərginləşməsinin qarşısını almaqdır.

ƏDƏBİYYAT

1. Meybullayev M.X. İqtisadi sistem və onun strukturu. Bakı, 1993.
2. Əliyev Ü.Q. Keçid dövrünün milli iqtisadi problemləri. Bakı, 2008.

3. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, 2003.
4. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı, 2005.
5. Mustafayev F.F. Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri. Bakı 2008.
6. Экономическая и национальная безопосность. М., 2004.

Акиф Байлар оглы Мамедов
Азербайджанский Государственный
Экономический Университет, доцент

Экономическая безопасность является краеугольным камнем концепции национальной безопасности Азербайджана

Резюме

Проблема экономической безопасности страны является одной из особенностей современного, регулируемого этапа рыночной экономики. Суть экономической безопасности - способствовать формированию и развитию гражданского народного хозяйства Азербайджана и лучше удовлетворять социально-экономические потребности граждан страны, повышать эффективность производства, использовать природные ресурсы Азербайджана для формирования национальной экономики и предотвращения экологического стресса.

Ключевые слова: национальной безопасности, экономической безопасности, национальной экономики, экономического спроса, рыночной экономики, производительности.

Akif Baylar Mammadov
Azerbaijan State Economic University, ass. prof.

Economic security is a cornerstone of Azerbaijan's national security concept

Summary

The country's economic security problem is one of the features of the modern, regulated phase of the market economy. The essence of economic security is to contribute to the formation and development of Azerbaijan's civilian national economy and to better meet the social and economic needs of the country's citizens, to increase production efficiency, to use the natural resources of Azerbaijan to form the national economy and to prevent the environmental stress.

Key words: national security, economic security, national economy, economic demand, market economy, productivity.

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Kooperasiya Universitetinin “Kooperasiya” elmi-praktitki jurnalında çap olunmaq üçün məqalə təqdim olunarkən aşağıdakılar nəzərə alınmalıdır.

- *Məqalələr üç dildə - Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə, digər iki dildə xülasəsi verilməlidir. Xülasələrdə həmçinin müəllifinin adı, soyadı, atasının adı, elmi dərəcəsi, işlədiyi təşkilatın adı, vəzifəsi hər üç dildə dəqiq göstərilməlidir.*
- *Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl kodlaşdırma üsulu ilə göstərilməlidir.*
- *Məqalədə yarımbaşlıqların verilməsi mütləqdir.*
- *Məqalələrin mətnləri 1 intervalla, Times New Roman - 12 ölçülü şriftlərlə yığılmalıdır.*
- *Məqalənin elektron və çap olunmuş variantı ayrıca faylda təqdim edilməlidir.*

Bu tələblərə cavab verməyən məqalələr çap edilməyəcəkdir. Əlyazmalar geri qaytarılmır.

QEYD: Bu şərtlər müəyyənləşdirilərkən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərə verdiyi tələblər əsas götürülmüşdür.

Çapa imzalanmışdır: 25.12.2018
Format: 60x84, 1/8
Fiziki çap vərəqi: 28
Tirajı: 300 nüsxə

Jurnal Azərbaycan Kooperasiya Universitetinin
nəşriyyat-poliqrafiya şöbəsində yığılıb səhifələnmiş
və mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93.